# 166 SUAL

## İslam İnqilabının Böyük Rəhbərinə suallar

Tərtib edən: "Vilayət" Mədəniyyət İnstitutu

## Birinci fəsil: İslam, İslam inqilabı, İslam Respublikası quruluşu

**Sual: Din nədir və dinə düzgün baxış hansıdır?**

Cavab: Mənim əzizlərim! Bəzi adamlar bilmədən, bəziləri də biləkdən dini bir sıra qadağa və məhdudiyyətlər toplusu kimi tanıtdırırlar. Din budur?! Bu, hər hansı dinə, xüsusən də İslam dininə insafsız və avamcasına yanaşmadır. Aydın etiqad, imandan irəli gələn təravət, əqidədən doğan hərəkət, dünyada hər şeyə dair aydın və şəffaf görüş və ağıl - dinin təməli bunlardır. Din birinci növbədə bir etiqad və dərkdir; bu dünyaya, insana, vəzifəyə, yola və məqsədə dair dərk. Bu düşüncələrin məcmusu dinin əsasını təşkil edir. Din insanı dünyanın əsas fiquru sayır, kainatı Allahın qüdrətinin, lütf və mərhəmətinin tərənnümü bilir, onun yaranmasında və nəhəng varlıq aləminin ərsəyə gəlməsində Allahın qüdrət və xilqət əlini yeganə amil hesab edir.

Elm nə qədər inkişaf etsə, imanın təməlləri bir o qədər möhkəmlənər. Sizin bir qədər torpağa, yaxud bir daş parçasına bəsit bir əşya kimi baxıb "bunu Allah yaratmışdır" - dediyiniz zaman bir növ imanınız var, bu əşyada olan bütün molekulları, bütün zərrəcikləri, atomları, onun nizam-intizamını, hərəkətini, mürəkkəb quruluşunu, təsir və xüsusiyyətlərini öyrənərək "Allah bunun yaradanıdır" - dediyinizdə isə başqa bir növ.

Elm nə qədər inkişaf etsə, kainat nə qədər artıq tanınsa, dənizlər, səhralar, zərrəciklər, insan vücudunda olan çoxsaylı qüvvələr elmə nə qədər dəqiq bəlli olsa, bu əzəmətli və mürəkkəb quruluşu yaradan Allaha iman daha güclü olar. Bəzilərinin əzilib-bükülmüş bir kağız parçasına kiçik və artıq bir şey kimi baxması mümkündür, amma başqa birisi bu kağızı açıb onun qatlarını düzəldə, böyük bir vərəqə çevirə, sonra isə yazılanları bir-bir oxuyub sözlərini anlaya bilər. Bu gün elm insanın məhdud vücudunda yatan möhtəşəm qüvvələri, sinir sistemində, orqanizmdə, başdan-ayağa qədər bütün molekullarda, beyində olanları kəşf edir. Alimlər etiraf edirlər ki, insan beynini,

insanın potensiallarını, dəqiq mərkəzləşdirmə sistemini hələ tam öyrənməyiblər. İnsan bunları biləndə imanı güclənir.

Din ilk növbədə bir dünyagörüşüdür. Bu əzəmətli dünya Allahın tükənməz qüdrəti ilə yaranmışdır və insan bu böyük çərçivədə düşüncə fəaliyyəti ilə məşğul ola, ağlını işlədə və tanınmaz məsələləri kəşf edə bilən yeganə qəhrəmandır. İnsan özünün həqiqi təkamülünü bu dünyada əldə edə və Allaha yaxınlaşa bilər. Bu dünyada olanlar insanın təkamülü üçün onun ixtiyarına buraxılmış vasitələrdir. Bu düşüncələr dinin bünövrəsidir. Fərd və toplumun həyat tərzi bunların əsasında formalaşır. Həm fərdin, həm də toplumun üzərinə bəzi vəzifələr düşür, hər bir vəzifə də bir növ çətinlik yaradır. İnsan idmanı özünə asanlaşdıra bilər. İdmançıların çoxu çətinliklərə dözürlər. Savalanın zirvəsinə qalxmaq, alpinistlik, güləş və digər idman növlərinin hər biri çətindir. Bu çətinliklərə dözməyən adam idmanın xeyirlərinə nail olmur, onun verdiyi fiziki güc, sinir qüvvəsi, gözəl bədən quruluşu və digər faydalardan uzaq qalır. Dini vəzifələr də belədir. İnsan namaz qılmaya, oruc tutmaya, sədəqə verməyə və zəhmət çəkməyə də bilər. Bu daha asandır, amma bu zaman insanın həyatı və taleyi üçün lazım olan nəticələr də hasil olmaz. İslam quruluşu insanın fiziki, psixoloji, maddi və mənəvi ehtiyaclarını təmin edən quruluşdur. İslam quruluşuna dair belə təsəvvürə malik olduqda onu yaratmaq və qorumaq ən böyük dəyər sayılar. Məhz buna görə imam buyurdu ki, İslam quruluşunu qorumaq ən vacib əməllərdəndir. Həqiqətən də belədir.[1]

**Sual**: İslam inqilabının və quruluşunun təməli olan İslam dini haqda bizə məlumat vermənizi xahiş edirik.

**Cavab**: İslam tövhid dinidir. Tövhid isə insanın Allahdan başqa hər bir şeyin və hər bir kəsin qarşısında bəndəlikdən, itaətdən və təslimçilikdən qurtuluşu deməkdir. Tövhid bəşəri quruluşların istismarına son qoymaq, şeytani və maddi güclərdən qorxu tilsimini

---

[1] Ərdəbil vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: 2000.

qırmaq, Allahın insanın daxilində yaratdığı və işlətməsini tələb etdiyi tükənməz potensiala güvənmək, qiyam, mübarizə və müqavimət şərti ilə məzlumların zalım və hegemonlar üzərində qələbəsinə dair ilahi vədə inanmaq, Allahın mərhəmətinə bel bağlamaq, məğlubiyyət ehtimalından qorxmamaq, ilahi vədin həyata keçməsində insanı təhdid edən təhlükə və zəhmətlərə qatlanmaq, problemləri Allaha tapşırmaq, qəti və son qələbəyə ümidvar olmaq, mübarizədə cəmiyyətin hər növ zülm, ayrıseçkilik, cəhalət və şirkdən qurtuluşuna dair yüksək məqsədi diqqətdə saxlamaq, yarıyolda baş verən şəxsi uğursuzluqların əvəzini Allahdan istəmək - xülasə, özünü Allahın tükənməz qüdrət və hikmət okeanına bağlı bilmək, uca məqsədə sarı ümidlə və qorxmadan irəliləməkdir. Müsəlmanlara vəd edilən bütün izzət və şərəf tövhidə dair belə inamın, aydın və güclü dərkin nəticəsidir. Tövhidi düzgün dərk etmədən, etiqad və əməldə ona sarılmadan Allahın müsəlmanlara dair heç bir vədi həyata keçməyəcək.

Hegemonluğun istismarı dövründə əsl İslam tövhidinin və onun həyati məfhumunun unudulması müstəmləkə bütlərinə yol açdı, qızıl və güc sahiblərinə soyğunçuluq imkanı verdi. Düşmənlər əvvəlcədən hazırladıqları proqramlarla müsəlman ölkələrində dini cəmiyyətdən sıxışdırıb çıxardılar, dinin siyasətdən ayrı olmasına dair planı həyata keçirdilər. Nəticədə Qərbin elmi inkişafı bu ölkələri bütünlüklə sənaye ölkələrinə tabe etdi, onların siyasi və iqtisadi taleyini uzun müddət və islahedilməz şəkildə qərbli soyğunçulara tapşırdı.

Bu gün İslam ölkələrinin əksəri, Qərbin kompaniya və dövlətlərinin cibini doldurduqdan on illər sonra hələ də inkişafdan uzaq sərgərdan qalmışlar, hələ də Qərbdən gələn sənaye, elm və məhsula möhtac, siyasətdə hələ də tüfeyli və onların zavallı ardıcılıdırlar. Bu, ilk gündən İslamın təməl prinsipi olan tövhidə qarşı diqqətsizliyin təsirindən yaranmış, zaman ötdükcə, elm inkişaf etdikcə, digər dövlət və ölkələr daha mütərəqqi imkanlara yiyələndikcə, İslam ölkələri daha gücsüz, daha asılı, daha cəsarətsiz olmuş və təşəbbüsdən uzaq qalmışdır.

Çıxış yolu budur ki, müsəlmanlar tövhidin və Allahdan qeyrisinə bəndəliyin inkarının hər bir şeydən daha qabarıq və daha parlaq olduğu əsl İslama qayıtsınlar, öz şərəf və qüdrətlərini İslamda axtarsınlar. Bu, İslam əleyhinə təxribatların müəlliflərinin daim qorxduğu və qarşısında ciddi maneələr törətdiyi məsələdir. İranda İslam inqilabı qələbə çalanda proqnoz verirdilər ki, inqilabın gözəlliyi müsəlman və hətta bəzi qeyri-müsəlman xalqları İslama yönəldə bilər. Buna görə bütün müstəmləkəçilər işə girişib İslamın mənəvi nüfuzunun qarşısını almağa başladılar. Hegemonluğun İslamın nüfuzu qarşısında geniş və hərtərəfli fəaliyyətinin yeganə səbəbi budur ki, İslamın və İslam təlimlərinin dünyanın hər hansı bir yerinə yayılması həmin yerdə hegemonluğun və onun əlaltılarının istismarının sona çatması deməkdir.

İslam inqilabı tövhidin, Allahdan qeyrisinə bəndəliyin inkarının və Allahdan başqa hər bir kəsin və hər bir şeyin önündə başucalığının düzgün mənasını praktik və real şəkildə hamıya göstərdi. Bu inqilabın qələbəsindən dərhal sonra dünyanın bir çox bölgələrində yaşayan müsəlmanlar şəxsiyyət və ucalıq hiss etdilər, hegemon və zalımlara qarşı çıxdılar, müsəlman xalqların yeni mübarizə dövrü başlandı. Əfqanıstanda müsəlman xalqın möhtəşəm hərəkəti, Fələstində xalq mübarizəsinin başlanması, müsəlman və mübariz Fələstin xalqının sövdəgər təşkilatlara qarşı çıxması, Afrikanın, Asiyanın və hətta Avropanın müsəlman ölkələrində çoxlu İslam hərəkatlarının yaranması İslamın gözəlliyinə, onu xilaskar bildiklərinə görə və ilahi hökmlərin həyata keçməsinə həvəslə baş verdi.

İslam Respublikasından öncə dünyanın müsəlman xalqlarını inandırmışdılar ki, İslam onlara şərəf və əzəmət bəxş etməyə qadir deyil, onlar səadət üçün ya Qərb modelinə, Avropa və Amerika mədəniyyətinə üz tutmalı, ya da marksizmin puç və uydurma nəzəriyyələrinə müraciət etməlidirlər. İranda İslam inqilabının qələbəsi, İslam Respublikasının yaranması və İslamın İran xalqına şərəf və əzəmət bəxş etməsi Qərb müstəmləkəçilərinin köhnə yalanlarının üstünü açdı, İslamın bir xalqı zəiflikdən, passivlikdən və məzlumluqdan xilas edib

ucalığın, şücaətin və özünəinamın zirvəsinə çatdıra, dünyanın maddi gücləri ilə vuruşmağa qadir olan güclü bir quruluş bəxş edə, müstəmləkə və hegemonluğun zülmkar və təhqiredici istismarına son qoya bildiyini əməldə göstərdi. Beləliklə İslam Respublikası İslamın sayəsində dünya miqyasında güclü sosial dəstək qazandı. Bu da öz növbəsində dünyanın bütün istismarçılarının qarşı çıxdığı İslam Respublikasının qüdrətini və toxunulmazlığını artırmışdır.[1]

**Sual:** İslam inqilabında mərhum imam tərəfindən "əsl Məhəmməd İslamı" və "Amerika İslamı" sözləri işlədildi. Belə nəzərə çarpır ki, inqilabı aktiv şəkildə və qüdrətlə inkişaf etdirən amil əsl İslamın xüsusiyyətidir. Bu barədə və əsl İslamın Amerika İslamı ilə fərqinə dair nə deyə bilərsiniz?

**Cavab**: Əsl İslam gözəl xüsusiyyətləri ilə qərəzliliyə və kin-küdurətə bulaşmayan qəlbləri özünə cəlb edir. Bizim inqilabımız və imamımız bunu dünyada yenidən gündəmə gətirdi, ehtiyaclı və araşdırıcı insanlara təqdim etdi. Əsasını bizim imamızın qoyduğu inqilab məktəbində Əbu Süfyan və Mərvan İslamına, məzmunsuz mərasimlər İslamına, qızıl və gücün xidmətində duran İslama, xülasə, böyük güclərin əlində alət və xalqların canına bəla olan İslama son qoyuldu, Quran və Məhəmməd (s) İslamı, əqidə və cihad İslamı, zalıma düşmən və məzluma yardımçı olan İslam, firon və qarunlarla vuruşan İslam, xülasə, zalımları məhv edib məzlumların hakimiyyətini bərpa edən İslam meydana çıxdı.

İslam inqilabında kitab və sünnə İslamı xurafat və bidət İslamını əvəz etdi; cihad və şəhadət İslamı sükut, əsarət və zillət İslamını əvəz etdi; bəndəlik və məntiq İslamı eklektizm və cəhalət İslamını əvəz etdi; dünya və axirət İslamı dünyagirlik və tərki-dünyalıq İslamını əvəz etdi; elm və bilgi İslamı qapalılıq və qəflət İslamını əvəz etdi; dindarlıq və siyasət İslamı laqeydlik və biganəlik İslamını əvəz etdi; qiyam və əməl

[1] Vilayət hədisi, c. 4, səh: 242-244.

İslamı halsızlıq və passivlik İslamını əvəz etdi; fərd və cəmiyyət İslamı formal və təsirsiz İslamı əvəz etdi; məhrumların xilaskarı olan İslam supergüclərin əlində oyuncaq olan İslamı əvəz etdi; xülasə, əsl Məhəmməd (s) İslamı Amerika İslamını əvəz etdi. İslamın bu formada, bu reallıq və ciddiliklə ortaya qoyulması İranda və bütün müsəlman ölkələrində İslamın məhvinə çalışan, yaxud ondan təkcə məzmunsuz adın qalmasını, insanları axmaq və qafil saxlamaq üçün bir vasitə olmasını istəyən şəxslərin iztirab dolu dəlisov qəzəbinə səbəb olmuşdur. Buna görə inqilabın qələbəsindən bu günədək İslam Respublikasına və qlobal İslam hərəkatının mərkəzinə - yəni İrana qarşı hücuma keçmək, zərbə vurmaq, təxribat aparmaq və bədxahlq etmək üçün heç bir fürsəti əldən verməyiblər.[1]

**Sual:** Həzrət İmam Xomeyni İslam inqilabının qələbəsini nurun partlayışı adlandırmışdır. Bu söz İslamın və onun mənəviyyatının sökdüyü dünya zülmətini xatırladır. Dünyada hansı xüsusiyyətlər var idi ki, İslam inqilabının qələbəsi partlayış və möhtəşəm hadisə sayıldı və düşmənlər də bunu etiraf etdi?

**Cavab**: Biz çox həssas zamanda yaşayırıq, dövrümüz qəribədir. Ən azı iki əsr öncədən dünyada sənaye sivilizasiyası adlı bir proses başlandı. Bu söz mədəniyyət, inam, elm, zirvə, yamac - hər şeyə dair çoxlu mənaları ehtiva edir. Hazırlığı çox əvvəldən başlansa da, özü ən azı iki əsr öncədən başlayan, bu ad və xüsusiyyətlərə malik olan prosesin bir neçə səciyyəsi vardı: elm və sənayeyə, yeni həyat tərzlərinə və materialist əsaslara malik fəlsəfələrə təmayül. Yəni bu iki əsrdə meydana çıxan düşüncə və fəlsəfələrin əksəri mənəvi və dini təfəkkürün ziddinə olmuşdur. Ən çox şöhrət qazanmış marksizm onlardan biridir. 19 və 20-ci əsrlərdə geniş yayılmış digər fəlsəfi və ictimai məktəblər tamamilə, yaxud əsasən materialist, qeyri-dini və ya antidin istiqamətə malikdir. Bu qeyri-mənəvi və antimənəvi təmayül kiçik səviyyədə

---

[1] Vilayət hədisi, c. 4, səh: 249.

başlayıb anbaan artaraq genişlənən bir proses kimi xalqın həyatına, düşüncəsinə, ailəsinə və ictimai münasibətlərinə daxil oldu.

Bu elmi prosesin kənarında siyasi qüvvələr din və mənəviyyata qarşı paralel hərəkətə keçdilər. Bu siyasətlərin bəzisi zahirdə bu fəlsəfələrlə əlaqədar deyildi. Bəlkə də bilirsiniz ki, bəzi şəxslər hətta ən solçu materialist təfəkkülərin də filosofların deyil, siyasətçilərin düşüncəsinin məhsulu olduğuna inanırlar. Onlara görə bütün bu işlər tamamilə siyasi, həmçinin dünyada günbəgün artan sərvətin, kapitalın və kapitalizmin inkişafına xidmət göstərən iqtisadi işlər idi. Hər halda, siyasətçilər də mənəviyyatla zidd düşdülər və bu qarşıdurma günbəgün artmağa başladı.

İslam dini kimi harada mənəviyyat çox idisə, daha çox hücuma məruz qaldı. Dünyanın hər bir yerində İslam düşüncələrinə hücuma keçdilər. Bu hücum İslam dünyasının şərqindən - yəni Hindistandan, onun qərbinə - yəni Əlcəzairə qədər hər yerdə həyata keçdi. Fransalılar Əlcəzairə daxil olub İslama qarşı mübarizə apardılar. Hindistanda da ingilislər eyni işi gördülər. Müstəmləkə işində İngiltərə və Fransa rəqib olsalar da, rəqibləri, düşmənləri və vurduqları nöqtə bir idi. Onlar dünyada din və mənəviyyatı günbəgün zəiflətdilər, əxlaqı insan həyatından çıxardılar. Xristian dünyası da belə oldu, İslam dünyası da. Onlar imanı maddiyyatın ağır məngənəsi arasında əzdilər, zəiflətdilər. Ən azı iki əsrdə dünyada bu proses getdi. Bu kiçik məsələ deyil.

Bu maddi proses beləcə sürət və sərtliklə zirvəyə doğru hərəkətə başlayıb, son iki əsrdə günbəgün genişlənmişdir. Cəmiyyətlərdə materialist təfəkkürün, siyasətin və rəftarın bu yüksəlişi ilə bir zamanda uyğun siyasətləri aparan mərkəzlərin sərvəti, elmi, ixtirası və çeşidli inkişafları da hər gün artmışdır. Yəni elm sarıdan bugünkü Amerika əlli il öncəki Amerika ilə müqayisəolunası deyil. Avropa da belədir. Onlar pulları, elmləri, ixtiraları və müxtəlif imkanları ilə materializm prosesini gücləndirdilər.

Bu yüksələn proses təsəvvürolunmaz zirvəyə çatdıqda sonrakı addım dini mənəviyyatı və əxlaqı tamamilə məhv etmək idi; yəni

bunlardan bir əlamət belə qalmasın. Bu mənim sözüm deyil. Dünya ədəbiyyatında və elmi-fantastik romanlarda adətən gələcək dünyanı, məsələn əlli ildən sonranı təsvir etməyə çalışırlar. Yazılanların hamısı artıq heç bir mənəvi hissin qalmadığı dünyanı göstərir. Mən bu romanların bəzisini özüm görmüş və oxumuşam. Təsvir olunan dünya atom, kompüter və möhtəşəm kosmik inkişaflar əsrindən sonrakı dünyadır. O zaman görüləcək iş nədir? Dünyanın mənəvi və dini düşüncələrdən, onların sözü ilə desək, mövhumatlardan tamamilə uzaqlaşması. O zaman görüləcək iş kimi bundan başqa bir şey təsəvvür olunmur.

Bütün maddi proqnozlar bəşəriyyətin materializmə doğru getdiyini göstərərkən qəfildən bir hadisə baş verdi. Bu hadisə əvvəldə dünyanın diqqətini çox da cəlb etmədi, lakin analitik və müşahidəçilərin gözlədiyinin əksinə olaraq, onun həcmi, məzmunu və əhatə dairəsi günbəgün genişləndi və gözlənilmədən dünyanın bir nöqtəsində partlayışla nəticələndi. O zaman qlobal güclər indiyədək bu fenomeni yanlış dəyərləndirdiklərini anladılar. Buna çarə qılmağa çalışdılar, amma bacarmadılar. O hadisə nə idi? 1967-ci ildə İranda başlayan din və ruhani hərəkatı.

Bu hadisə baş verəndə dünyada heç kim onun əhəmiyyətini dərk etmədi. Hətta 15 Xordad hadisəsi baş verəndə və məlum qırğınlar törədiləndə də dünyada rezonans doğurmadı; nə kimisə çox ümidləndirdi, nə də kimisə qorxutdu, sonra bir qığılcım kimi söndüyünü düşündülər. Sanki bir talaşa, saman, çubuq və ya karton tez alışır, bir neçə andan sonra da sönür. Hamı onun bitdiyini düşünür, lakin bu şölənin altında çox qalın və quru odunların olduğunu bilmir. Onlar heç kim bilmədən alışır və hər an uzun müddət yanan alov istehsal edir. Bu alovlar yarandı və 11 fevralda İslam Respublikasının yaranması ilə nəticələndi. Gözlənilmədən din və mənəviyyat əsasında analoqu olmayan bir quruluş meydana çıxdı. Yəni bu quruluş yarananda din və mənəviyyat düşmənləri üçün artıq gec idi. Onlar nə qədər zərbə vurdularsa və zülm etdilərsə, dünyadakı mənəvi nüfuzu və

müsəlmanların ona diqqəti daha da artdı, müxtəlif yerlərdə alovlar yanmağa başladı. Onların bəzilərinin bəlkə heç özləri də haradan qaynaqlandığını bilmirlər.

Afrikada və Şimali-Afrikanın fransızdilli bölgəsində hansı hadisələrin baş verdiyini xəbərlərdə gördünüz və eşitdiniz.[1] Təəssüf ki, avropalılar orada çoxlu mədəni işlər də görmüşlər. Mən oranın xalqının vəziyyətini və müsəlmanlığını yaxından görmüşəm. İslam dünyasının şərqində - Hindistanda, Kəşmirdə və Şərqi Türküstanda da müsəlmanların hisslərini görürsünüz. Daha iş-işdən keçmiş, sona çatmaqda olan proses dayanmışdır. Biz bu prosesin sonunu yaşadıq: "Sonra sizi yer üzünün varisləri təyin etdik"[2]. Biz düzgün hərəkət etsək, əməlimiz, qərarımız, qətiyyət və iradəmiz bu yolu təsvir, onun həmişəyaşarlığını və sağlamlığını təmin edə biləcək.

Bunu bilin ki, dünya dəyişəcək və mənəviyyat dünyada öz haqqını əldə edəcək. Bunda heç bir şübhə yoxdur. Amerika kimi böyük güclərin dünyada sürətli mənəviyyat hərəkətini məhv etmələri daha imkansızdır. İslam Respublikası quruluşuna nə etsələr, bu quruluşun məzlumluğunun və müqavimətinin əks-sədası İslam dünyası miqyasında daha oyadıcı və daha yaşadıcı təsirlər buraxacaq, insanları oyadacaq. Necə ki, bu günə qədər hər bir hadisədə belə olmuşdur.

Bizi məcburən müharibəyə çəkdilər. Biz müharibədən çoxlu maddi və mənəvi zərbələr aldıq, amma ziyan etmədik. Çünki bu zərbələrə rəğmən, İslam ucaldı və dünyada hamı bildi ki, Allaha, Qurana, qiyamət gününə etiqad bəsləyən və gəncləri qeyri-bərabər müharibədə rəşadətlə vuruşub düşməni nakam qoyan mömin xalq başıuca və qalibdir. Dünyanın bütün gücləri İslam quruluşunu devirmək, ölkənin bir hissəsini ayırmaq və İranın ərazi bütövlüyünü pozmaq məqsədi ilə birləşdilər, amma bacarmadılar. Bu, böyük güclərin məğlubiyyəti deyil?! Bu, bizim xalqımızın qələbəsini, başucalığını və qüdrətini göstərmir?!

---

[1] İslamçılığın inkişafı nəzərdə tutulur.

[2] Yunus/14.

Biz avropalıların, amerikalıların, rusların və digər bir çox ölkələrin İraqa kömək etdiyini bilirdik; bilmədiklərimiz də vardı. Bu gün bu ölkələrin özləri müharibə ərzində İraqa nə qədər kömək etdiklərini etiraf edirlər. Yəni üç əsas hərbi güc mərkəzi ola NATO, ABŞ və Varşava Müqaviləsi Təşkilatı əlbir olub digər tərəfi məğlub etmək, hökumətini devirmək və torpağını parçalamaq üçün bir tərəfə kömək etdilər, amma bacarmadılar. Bu, həqiqətən çox möhtəşəm məsələdir və İslamın əzəmətini göstərir. Deməli, bu müharibədə İslam ucaldı və müsəlmanlar İslamın bir xalqa nə verdiyini anladılar.[1]

**Sual:** Əziz atam! Mən dünyaya gələndə inqilabdan bir neçə il ötmüşdü, amma bununla yanaşı əziz imamın rəhbərliyi, sizin, eləcə də bütün əziz və qeyrətli xalqımızın səyi nəticəsində baş verən inqilabla fəxr edirəm. Mən qəhrəmanlıq illərindən, inqilabdan sonrakı gənclərdənəm və inqilabı möhkəmləndiyi, qüdrətləndiyi zaman dərk etmişəm.

Məndə həmişə bu sual olub ki, bizim inqilabımız nə üçün baş verdi? O qədər qadın, kişi, qoca və gənc necə küçələrə çıxıb sizlərin rəhbərliyi ilə bu böyük qələbəyə nail oldular? Sizdən xahiş edirəm mənim arzumu yerinə yetirib ürəkaçan sözlərinizlə cavabımı verəsiniz. Minnətdaram.

**Cavab:** Bu indiki gənclər üçün yaranan ən təbii və ən məntiqli suallardan biridir. Bu əziz qızımız sualı çox yaxşı şəkildə, səlis və könülaçan sözlərlə bəyan etdi. Allah onu işlərində müvəffəq etsin! Mən də məclisin imkan verdiyi həddə cavab verəcəyəm.

Bizim inqilabımız pis hökumətin təxminən bütün xüsusiyyətlərinə malik olan bir rejim əleyhinə əzəmətli xalq hərəkatı idi. Bu rejim həm fəsadlı, həm asılı idi, həm zorla və çevriliş nəticəsində yaradılmışdı, həm də bacarıqsız idi. Mən bu dörd xüsusiyyəti qısa şəkildə izah etmək istəyirəm.

---

[1] Vilayət hədisi, c. 4, səh: 180-184.

O hökumət əvvəla fəsadlı hökumət idi; maliyyə fəsadı vardı, əxlaq fəsadı vardı, idarə fəsadı vardı. Maliyyə fəsadları barədə bunu demək kifayətdir ki, şahın özü və ailəsi bu ölkənin böyük iqtisadi işlərinin çoxuna ortaq idilər. Onun özü, qardaşları və bacıları ən çox şəxsi sərvət toplamış şəxslər idilər. Rza xan özünün 16-17 illik səltənəti dövründə böyük sərvət topladı. Bilməyiniz pis deyil ki, bu ölkənin bəzi şəhərləri sənədlərdə bütünlüklə Rza xana məxsus idi. Misal üçün, Fəriman şəhəri bütünlüklə Rza xanın mülkü idi. Bu ölkənin ən yaxşı torpaqları ona məxsus idi. O, mal-mülkü, ləl-cəvahiratı sevirdi. Uşaqlarının tamahı isə daha çox idi. Onlar hər növ sərvəti sevir və toplayırdılar. Ən yaxşı dəlili budur ki, onlar bu ölkədən getdikdə xarici banklarda milyardlarla dollar həcmində sərvət yatırmışdılar. Bəlkə bilirsiniz, biz inqilabdan sonra şahın sərvətlərinin qaytarılmasını istədik və təbii ki, vermədilər. O zaman bu ailənin ümumi əmlakının təxmini miqdarı on milyardlarla dollar edirdi. Gedib dünyanın müxtəlif yerlərində sakin oldular və hamısı milyarderlərdən sayıldılar. Külli miqdarda olan bu pulları zəhmətlə əldə etməmiş, qanuni ticarətlə qazanmamışdılar, qeyri-qanuni işlərlə toplamışdılar. Zirvəsində bu qədər maliyyə fəsadı olan bu rejim görün xalqla necə rəftar edirdi!

Əxlaqi baxımdan da fəsad içində idi. Qaçaq alveri ilə məşğul olan cinayətkar bandalar bu şəxsin qardaş və bacılarının nəzarətində idi. Əxlaq və cinsi məsələlər baxımından elə işlər görülürdü ki, insan deməyə xəcalət çəkir. Bu xatirələrin bəzisini sonralar öz yaxınları və köməkçiləri yazıb nəşr etdirdilər.

İdarəetmədə də vəziyyət acınacaqlı idi, səlahiyyətlərə riayət etmirdilər. Özlərinə sadiqliyi, əcnəbilərin təhlükəsizlik və casus şəbəkələrinin əmrlərini meyar seçib lazımi adamları vəzifəyə təyin edirdilər. Zirvəsində rüşvət alan, sərvət toplayan, qaçaqmalçılıqla məşğul olan və xalqa xəyanət edən adamların durduğu hökumət necə ola bilər?! İnsan bunları dəlil və əsaslarla yazsa, cildlərlə kitab olar.

Onlar asılı idilər; xalqdan çox uzaq düşdüklərinə görə hakimiyyətlərini qorumaq üçün xaricilərə arxalanmağa məcbur

olurdular. Rza xanı ingiltərəlilər hakimiyyətə gətirdilər. Bu, dəqiq və aydın məsələdir. Məhəmmədrzanı da ingiltərəlilər möhkəmlətdilər. Doktor Müsəddiqin hökuməti vaxtı amerikalılar çevriliş etdilər, İranı ingiltərəlilərin əlindən aldılar və özləri hökmranlıq etdilər. Bunlar bu ölkənin əksər işlərində qeyri-müstəqil idilər. Amerika müstəşarları və on minlərlə amerikalı məmur bu ölkənin ən mühüm hərbi, təhlükəsizlik, iqtisadi və siyasi mərkəzlərində həssas və çox gəlirli postlarda çalışır, əslində bütün işləri görür, onlara istiqamət verirdilər. Bu ölkənin təhlükəsizlik qurumunu amerikalılar və israillilər yaratmışdılar, siyasətdə ingilislərin, son zamanlarda isə amerikalıların fikirlərinə tabe idilər. Regional və qlobal sahədə, hətta iqtisadi məsələlərdə, misal üçün, neftin qiymətində, satış formasında, xarici şirkətlərin İrandan neft almasında - bütün bu mühüm və həssas məsələlərdə onların istədiyi işi görürdülər. Əlbəttə, öz maraqlarını da nəzərə alırdılar, xaricilər üçün fədakarlıq göstərmirdilər, öz hakimiyyətlərini qorumaq üçün əcnəbilərə hər bir şəraiti yaradır, bu ölkəyə və bu xalqa təcavüz etmək imkanı verirdilər.

Bu rejim zorla və çevriliş nəticəsində yaradılmışdı, çevrilişlə hakimiyyətə gəlmişdilər; həm Rza xan çevrilişlə gəlmişdi, həm də Məhəmmədrza. Çevriliş hökumətinin necə olması da bəlli məsələdir; özlərini zorla xalqa sırımışdılar, xalqın səsindən, fikrindən, istəyindən, mədəniyyətindən, məhəbbətindən və iradəsindən heç bir əlamət yox idi. Onlar xalqın iradəsinə, istəyinə, etiqadlarına, din və mədəniyyətinə əsla hörmət etmirdilər, xalqla heç bir səmimi və dost münasibətləri yox idi. Münasibət düşmən münasibəti, ərbab və rəiyyət münasibəti, ağa və nökər əlaqəsi idi. Hər halda, şahlıq idi. Sultanlığın və padşahlığın mənası budur: xalqın qarşısında heç bir öhdəlik götürməyən avtoritar hakimiyyət. Pəhləvi ailəsi bizim ölkəmizdə 50 il belə hökm sürdü.

Və nəhayət, bacarıqsız idilər. Siz ölkənin indiki vəziyyətini görürsünüz. Şübhəsiz, bu ölkədə hər kəs, xüsusən də siz gənclər bilirsiniz ki, dünyanın elm, sənaye və texnologiya sahələrində, elm və tədqiqat inkişafında özümüzü layiqli səviyyəyə çatdırmaq üçün illərlə

çalışmalı olan ölkələrindənik. Bu vəziyyət ölkənin və xalqın böyük potensialından istifadə edə bilməyən bacarıqsız rejimin əlliillik hakimiyyətinin nəticəsidir. Siz bugünkü istedadlara baxırsınız. Görün bizim gənclərimiz dünyanın elmi olimpiadalarında necə iştirak edirlər! Keçmişdə isə istedadlardan istifadə olunmurdu, onlara diqqət yetirilmirdi. Yalnız özlərinin qanunsuz məqsəd və istəkləri üçün onlardan istifadə edirdilər. Bəziləri buraxıb gedir, çoxları isə qalırdılar, lakin istedadlarında heç bir çiçəklənmə baş vermir və bir iş görülmürdü.

Məmləkəti xaraba duruma salmışdılar. Müharibədən sonra bizim ən böyük işlərimizdən biri müharibənin xarabalıqlarını aradan qaldırmaq idi. Amma görürdük ki, müharibənin bu xalqın başına gətirdiyi fəlakət Pəhləvi sülaləsinin uzun illər hökuməti dövründə yaranandan azdır. İllərlə xalqa belə bir hökumət başçılıq etdi.

1962-ci ildə imamın fəryadı ucalanda isə xalqın qəzəbi partladı. On illər ərzində xalqın qəzəbi toplanmışdı. Bəziləri həmin vəziyyətə alışmış, bir çoxları isə qəzəblə dayanmışdılar. İmamın sözü qəlblərə oturdu. Bilin ki, imam bu işə başlayanda hələ məşhur təqlid müctəhidi deyildi. Düzdür, Qumda alimlər, böyük şəxsiyyətlər, hövzənin müəllim və tələbələri arasında böyük hörməti və tərəfdarları vardı, amma ölkə əhalisi arasında elə də tanınmırdı. Bu iş başlananda isə düzgün və haqq olduğuna, xalqın istəklərinə və əslində İslama və dinə söykəndiyinə görə təbii olaraq dərhal hər yerə yayıldı, ağız-ağız gəzdi, qəlbləri doyurdu və imamı sevdirdi. Mübarizənin başlandığı 1962-ci ildə çox da tanınmayan böyük imamımız bir ildən sonra xalq tərəfindən elə sevildi ki, Tehranda 15 Xordad hadisəsi baş verdi və minlərlə insan imamdan ötrü canını fəda etdi. Bu həmin işin haqlı olduğuna görə idi.

İmam xalqa İslam təlimlərini bəyan etdi, hökumətin, insanın mənasını açıqladı, nə baş verdiyini və xalqın nə etməli olduğunu izah etdi. O, insanların deməyə cürət etmədiyi həqiqətləri gizlicə, proklamasiya formasında, qrup və partiyaların bağlı otaqlarda öz tərəfdarlarına söylədiyi tərzdə yox, bütün xalq üçün açıq şəkildə və anlaşılan dillə bəyan etdi. Və məhz buna görə xalq müsbət cavab verdi.

Düzdür, imamın başladığı gündən inqilabın qələbə çalmasına qədər ağır keçən on beş il sürdü. İmamın şagirdləri, dostları, yetirmələri, adi camaat, cəmiyyətin aydın insanları bu sözün dərinliyini və ruhunu dərk və onu qəbul etdilər, müxtəlif yerlərdə, müxtəlif məclislərdə, müxtəlif təbəqələr arasında söylədilər. Bu sözlərin çox deyilməsi və arxasında durulması böyük problemlər yaratdı - minlərlə insan şəhid oldu, bundan bir neçə dəfə artıq adam işgəncələrə məruz qaldı, çox çətin dövr keçdi. Bəzi adamlar bu on beş il ərzində bir gecə evlərinə rahat və təhlükəsiz gedə bilmədilər, bir gün arxayınlıqla evlərindən çıxmadılar. İmam bütün bu dövrdə şücaətli və hikmətli mürşid kimi rəhbərlik edirdi. Nəhayət son bir-iki ildə etiraz dalğası gücləndi. İnsanlar harada dini və ilahi məqsədlər naminə maddi maraq güdmədən meydana atılsalar, heç bir güc onların qarşısında dayana bilməz. İmamın buyurduğu kimi, onlar bütün dəm-dəsgahlarına rəğmən, bizim əliboş xalqımızın önündə dura bilmədilər. Bu inqilab baş verdi və qələbə çaldı.[1]

**Sual:** Ümumiyyətlə, inqilab nədir və İslam inqilabı nə üçün baş verdi? Biz ictimai-siyasi dəyişiklikdə nə üçün Şərqdən, yaxud Qərbdən örnək götürmədik?

**Cavab:** İnqilab bir sıra dəyərlər əsasında köklü dəyişiklik və yaxşıya doğru hərəkət sayılır. Bizim ölkəmizdə baş verən inqilab İslam inqilabıdır. Bu inqilab cəmiyyətin siyasi, iqtisadi və mədəni sahələrində böyük dəyişiklik, bu ölkənin və bu xalqın inkişafa doğru bir addımı və hərəkəti idi. Biz inqilab əsasında yaranan quruluşda Şərq və Qərbdən örnək götürmədik. Bu çox əhəmiyyətli məsələdir. Biz quruluşlarının yanlış və bəşəriyyətin mənafeyinin ziddinə olduğunu bildiyimiz qüvvələrdən örnək götürə bilməzdik. Söhbət dini və coğrafi təəssübkeşlikdən getmir. Söhbət bundan gedir ki, Şərqin ozamankı kommunist quruluşlarının - bu gün dünyada daha belə bir kimlik

---

[1] Gənclərlə görüşdəki söhbətlərdən: 1999.

yoxdur - dayandığı təməllər, həmçinin Qərb quruluşlarının təməlləri yanlış təməllər idi. Buna görə biz onlardan örnək götürə bilməzdik və götürmək istəmirdik. Bizim örnəyimiz başqa dəyərlər idi və mən o dəyərlərin bəzisinə işarə vurdum.

Biz nə üçün bu iki böyük rejimdən - Şərqin kommunist və Qərbin kapitalist rejimlərindən örnək götürmədik? Çünki onlar batil rejimlər idi. Kommunist rejimlər xalq hakimiyyəti şüarı ilə iş başına gələn, amma əslində aristokrat və avtoritar rejimlər idi. Onlar aristokratlıqla düşmənlikdən dəm vurduqları halda əməldə aristokratik idilər. İstibdad baxımından son dərəcə avtoritar idilər, iqtisadiyyat, mədəniyyət, siyasət, müxtəlif ictimai və qeyri-ictimai fəaliyyətlər tamamilə dövlətin nəzarətində idi. Şərq rejimlərində xalqın heç bir siyasi rolu yox idi. Mən bu ölkələrin ömürlərinin sonunda gedib onları görmüşəm. Onlar fəhlə hakimiyyəti qurduqlarını iddia edirdilər, amma hətta bəzi geriqalmış və yoxsul ölkələrində də aristokrat rəftarlarını və qədim sarayların yanlış işlərini təkrarlayırdılar. Bu ölkələrdə nə seçki keçirilirdi, nə xalqın səsinə hörmət vardı, amma özlərini demokrat adlandırırdılar. Xalqın idarəçilikdə heç bir rolu yox idi, iqtisadi işlərdə, mədəni işlərdə tamamilə asılı idilər. Belə rejimlərin məhvə məhkumluğu bəlli idi, lakin şüarları parlaq və gözəgəlimli olduğuna görə dünyanın müxtəlif yerlərində gəncləri cəlb edib hakimiyyətə gələ bilmişdilər. Sonda isə artıq ömür sürə bilmirdilər, aqibətini də gördünüz: bir neçə onillikdən sonra tamamilə məhv oldular. Təbii ki, bu rejimlər bizim üçün örnək ola bilməzdi. Bizim inqilabımız qələbə çalanda - yəni iyirmi bir il bundan öncə dünyada hansı inqilab qələbə çalırdısa, həmin Şərq hökumətinə üz tutur, ya marksist, ya da bir qədər yumşaq formada sosialist rejimi qururdu. İslam, İran xalqı və bu xalqın rəhbəri isə onu rədd edib qəbul etmədilər və kənara qoydular.

Biz Qərbdən də örnək götürmək istəmirdik və götürə bilməzdik. Qərbin bəzi şeyləri olsa da, daha mühüm olan bəzi şeyləri yox idi. Qərbdə elm vardı, əxlaq yox idi; sərvət vardı, ədalət yox idi; mütərəqqi texnologiya vardı, amma təbiəti məhv və insanı əsir edirdi;

demokratiyanın adı vardı, əslində isə demokratiya yox, kapitalokratiya hökm sürürdü. Bu gün də elədir. Bu söz mənim iddiam deyil, hansısa təəssübkeş müsəlman yazıçıdan da söyləmirəm, qərblilərin özləri deyirlər ki, Amerikanın özündə demokratiya və seçkinin yalnız forması var, əslində isə kapitalın hakimiyyəti mövcuddur. Mən onların yazıçılarının və kitablarının adını çəkmək istəmirəm. Amma orada mer, parlament və prezident seçkilərinin hansı dəm-dəsgahla keçirildiyini Amerika yazıçılarının özləri yazırlar. İnsan nəzər salsa, orada xalqın iradəsinin təxminən heç bir rol oynamadığını görər. Birinci və axırıncı sözü deyən pul, kapitalizm, modern informasiya vasitələri və dayaz insanları aldadan cəlbedici üsullardır; demokratiyanın adı var, özü isə əsla yoxdur. Qərbdə elmi inkişaflar vardı, amma bu elmi inkişaflar digər xalqların istismarına vasitə olmuşdu. Qərblilər elmdə inkişaf edən kimi onu siyasi və iqtisadi qüvvəyə çevirib dünyanın şərqinə və qərbinə yollandılar. Harada ələ keçirib istismar etməli ölkə vardısa, bundan çəkinmədilər; harada istismar etmədilərsə, deməli, mümkün olmadı.

Qərbdə azadlıq vardı, amma zülmlə, pozğunluqla birgə idi. Qərbdə qəzetlər azaddır, hər şeyi yazırlar, amma onlar kimlərindir? Məgər xalqındır?! Bu aydın məsələdir; gedib baxsınlar. Siz Avropa və Amerikada oliqarxlara məxsus olmayan bir sanballı qəzet göstərin. Orada qəzetin azadlığı dedikdə öz sözünü danışan, istədiyini gözdən salan, istədiyini böyüdən, ictimai rəyi istədiyi səmtə yönəldən oliqarxın azadlığı nəzərdə tutulur. Bunun harası azadlıqdır?! Əgər bir nəfər peyda olub sionizmin əleyhinə danışsa, həmin fransız alim[1] kimi sionistlər əleyhinə bir neçə cild kitab yazıb yəhudilərin yandırılmasının həqiqətə uyğun olmadığını desə, onunla başqa cür rəftar edərlər. Oliqarxlara və onların mərkəzlərinə bağlı olmayan adamın nə sözü deyilir, nə səsi bir kəsin qulağına çatır və nə söz azadlığından bəhrələnir. Bəli, oliqarxlar özlərinin qəzet, radio və televiziyaları vasitəsilə ürəkləri istəyəni deməkdə azaddırlar, amma bu azadlıq dəyər deyil, antidəyərdir. Bu

[1] Fransalı müsəlman yazıçı Roje Qarodi nəzərdə tutulur.

azadlıq xalqı pozğunluğa və imansızlığa sürükləmək, istədikləri yerdə müharibə törətmək, istədiklərini sülhə məcbur etmək və istədiklərinə silah satmaqdır. Azadlıq budur!

Təbii ki, özünün və əzizlərinin canı bahasına inqilab etmiş, başında ilahi bir alimin və Peyğəmbər (s) canişininin durduğu bir xalq üçün Qərb quruluşu örnək ola bilməzdi. Deməli, biz örnəyi nə Şərq, nə də Qərb rejimlərindən götürdük. Biz örnəyi İslamdan götürdük və bizim xalqımız İslamla tanış olduğuna görə İslam quruluşunu seçdi. Bizim xalqımız İslam ədəbiyyatını oxumuşdu, hədislərlə tanış idi, Quranla tanış idi, dini söhbətlərdə iştirak etmişdi. Son onilliklərdə din alimlərindən, ruhanilərdən və universitet mənsublarından ibarət dindar aydınlar çoxlu işlər görmüşdülər. Xalq üçün bir sıra dəyərlər oturuşmuşdu və xalq onlara sadiq idi. Keçmiş rejimdə bu dəyərlərdən heç bir əsər-əlamət görmürdülər. İnqilab həmin dəyərlərə nail olmaq üçün baş verdi.[1]

**Sual:** Mümkünsə deyin: inqilab hansı dəyərlərin həyata keçməsi üçün baş verdi?

**Cavab:** Mən burada bu dəyərlərin bəzisini qeyd edəcəyəm. Bu dəyərləri bir sözlə bəyan etmək istəsək, deməliyik ki, İslamdır. Lakin İslam ümumi sözdür və onun müxtəlif izahları var. Bizim xalqımızın hamısı İslamın daxilində olan dəyərləri istəyirdi. Mən onların bəzisinə işarə vururam:

Birinci dəyər imandır. Xalq məsləksizlikdən, etiqadsızlıqdan və imansızlıqdan bezmişdi, narazı idi, ürəklərinin imanla bərkiməsini istəyirdi. Sonrakı dəyər ədalətdir. Xalq cəmiyyətin ədalətsiz olduğunu görürdü. Yuxarıdan aşağıya qədər hər yerdə zülm baş alıb gedirdi; özləri özlərinə də zülm edirdilər. Tağut rejimi daxilində bir-birinə qarşı da zülm və ədalətsizlik edirdilər. Xalqa qarşı isə sonsuz dərəcədə zülm olunurdu; məhkəmədə zülm olunurdu, sərvət bölgüsündə zülm

[1] Tehranın cümə namazı xütbələrindən: 2000.

olunurdu, işdə zülm olunurdu, ucqar şəhərlərə zülm olunurdu, zəif insanlara zülm olunurdu. Zülm və haqsızlıq hər yerdə duyulurdu, insan bütün vücudu ilə onu hiss edirdi. Xalq ədalətin hakim edilməsini, həmçinin təbəqələr arasında fərqin və yoxsulluğun aradan qaldırılmasını istəyirdi. Bu da xalqın istədiyi dəyərlərdən biri və ədalətdən fərqli məsələ idi. Cəmiyyətdə bir şəxs, yaxud bir qrup son dərəcə sərvət və rifah içərisində yaşayırdı, başqa bir qrup isə ibtidai həyat tərzindən məhrum idi. Hamının bu durumdan acığı gəlir, heç kim onu xoşlamır. Xalq təbəqələr arasındakı uçurumun götürülməsini və təbəqələrin yaxınlaşmasını istəyirdi. Biz kommunistlər kimi iddia etmirdik ki, hamı gəlib dövlətin çörəyini yesin və hamıya bərabər maaş verək. Xeyr! Amma təbəqələr arasında bu formada və bu qədər fərqin olması xalq, müsəlman inqilabçılar və onların rəhbəri üçün qəbuledilməz idi.

Tağut rejimində və öncəki rejimlərdə xalq hakimiyyəti yox idi, xalq idarəçilikdə heç bir rola malik deyildi. Bir nəfər ingilislərin köməyi ilə gəlib Tehranda çevriliş etmiş və özünü şah adlandırmışdı. Sonra İrandan gedəndə, yəni qocaldığına və işə yaramadığına görə vəzifəsindən kənarlaşdırılanda öz yerinə oğlunu təyin etdi. Axı bu oğul kimdir, nəçidir? Bəs xalq nədir və onun istəyi nə olsun? Bunlar əsla önəmli deyildi. Onlardan öncə də Qacarlar belə olmuşdu: bir zalım ölür, öz yerinə başqa bir zalımı təyin edirdi, şahın seçilməsində və ölkənin idarəsində xalqın heç bir rolu olmurdu. Xalq bunu istəmirdi. Xalq istəyirdi ki, hakimiyyət onun olsun, onun istəyi və iradəsi ilə qurulsun və onun iradəsinin təsiri olsun.

Növbəti dəyər dindarlıqdır. Xalq dindar olmaq istəyirdi. Keçmiş rejim hər yerdə - cəmiyyətdə, hərbi hissədə, universitetdə, məktəbdə xalqı dinsizliyə sövq etməyə çalışırdı, xalq isə bunu istəmirdi. Xalq dindar idi. Xalq göstərdi ki, İslama inam və etiqad onun ruhuna işləmişdir.

Başqa bir dəyər başçıların israfçılıqdan və dəbdəbədən uzaq durmasıdır. Sözsüz ki, dəbdəbə və israfçılıq hər yerdə pisdir, amma

xalqı bu məsələyə həssaslıq göstərməyə vadar edən amil hakimiyyət başında oturanların xalqın sərvətləri ilə israfçılıq etmələri, dəbdəbəli və lüks həyat tərzi keçirmələri idi. Bu, xalqın istəmədiyi işlərdən idi. İslam quruluşu bu dəyər əsasında yarandı.

Başqa bir dəyər başçıların dini və əxlaqi sağlamlığıdır. Xalq istəyirdi ki, cəmiyyətin başında duranlar dindar olsunlar, fəsad törətməsinlər, əxlaqları, rəftarları pis olmasın, özləri fəsad içində olmasınlar, ətrafları fəsad içində olmasın. O zaman isə belə idilər.

Dəyərlərdən başqa birisi gözəl əxlaqın ümumiləşməsi idi. Xalq istəyirdi ki, cəmiyyətdə gözəl əxlaq və bəyənilmiş İslam xarakterləri yayılsın, xalq arasında qardaşlıq, sevgi, əməkdaşlıq, dözümlülük, güzəştə getmək, bağışlamaq, zəiflərə əl tutmaq və haqqı söyləmək vüsət tapsın.

Fikir və söz azadlığı da inqilabın dəyərlərindən biri idi. Xalq azad düşünmək istəyirdi. O zaman fikir, söz və seçim azadlıqları da yox idi. Xalq bunu xoşlamır və bu azadlıqların yaranmasını istəyirdi.

Dəyərlərdən daha birisi siyasi, iqtisadi və mədəni müstəqillikdir. Xalq istəyirdi ki, bu ölkə siyasi baxımdan filan Avropa, yaxud Amerika rejiminin hökmü altında, iqtisadiyyatı beynəlxalq kompaniyalardan asılı olmasın, onlar bu ölkəyə istədiklərini edə bilməsinlər, dərin və zəngin mədəniyyətləri ola-ola kor-koranə şəkildə əcnəbi mədəniyyətlərə tabe olmasınlar.

Dəyərlər dedikdə dini, imanı, siyasi müstəqilliyi, iqtisadi müstəqilliyi, mədəni müstəqilliyi, fikir azadlığını, əxlaqın ümumiləşməsini, xalq hakimiyyətini, dindar və təqvalı insanların iş başında olduğu imanlı hökuməti nəzərdə tuturuq. Bu istəkləri reallaşdıran amil nə idi? Bu mömin xalqın iman, cihad və fədakarlıq ruhu. Əsrlər sonra bu məmləkətdə bu dəyərli İslam quruluşunu ucaldan amil nə idi? Qeyd etdiyim bu dəyərlərin yeni quruluşun təməli olması və dünyanın bu nöqtəsində bu dəyərlər əsasında yeni bir həyatın başlanması. Xalq bunlardan ötrü fədakarlıq etdi, Allah yolunda cihad və şəhadət üçün özünün və övladlarının canını təhlükəyə atdı, çoxları

şəhid oldular. Xalq nə istədiyini bilirdi. Xalq bu dəyərləri istəyirdi. Mən sonra deyəcəyəm ki, bütün bu dəyərlərin cəmiyyətdə reallaşması mümkündür. İslam quruluşu vasitəsi ilə yaranan bu miqdarı da heç kəs güman və təsəvvür etmirdi.

Təbii ki, biz ideal vəziyyətlə müqayisədə çox geridəyik. Lakin ozamankı vəziyyətlə, yaxud digər yerlərin vəziyyəti ilə müqayisə etsək, görərik ki, bu quruluş çox uğurlu addımlar atmış və bu inqilab həqiqətən məharət göstərmişdir. Xalq da bunu istəyirdi. Bəzi qüvvələr deyirlər ki, xalq nə istədiyini bilmirdi. Xeyr! Xalq bilirdi, xalq İslamı istəyirdi. İslam yalnız namaz qılmaq və səcdə etmək deyil; baxmayaraq ki, bunlar da İslamdandır. İslam bir xalqın dünya və axirət səadətini təmin edəcək möhkəm təməllər üzərində ictimai quruluş və ümumi həyat sistemi yaratmaqdır. Bu sistem onlar üçün elmi, inkişafı, sənayeni, sərvəti, rifahı, beynəlxalq iqtidarı – hər şeyi təmin etməlidir. Xalq bunu istəyirdi.

Nə özləri İslamı tanıyan, nə də qəlblərində belə bir İslamı istəyən, ən azı Qərbin tağut rejimlərinə arxa çevirməyə, yaxud etinasızlıq etməyə cürəti çatmayan bəzi şəxslər bu gün o tərəf-bu tərəfdə deyirlər ki, xalq İslam Respublikası referendumunda nə istədiyini bilmirdi. Necə yəni nə istədiyini bilmirdi? Əgər xalq nə istədiyini bilmirdisə, öz fədakarlığıl ilə səkkizillik müharibəni necə uddu? Bilmədikləri bir şeydən ötrü necə fədakarlıq edə bilərdilər?! Xalq nə istədiyini yaxşı bilirdi, bu gün də yaxşı bilir.[1]

**Sual:** Bu dəyərlərin bəzisini qəbul, bəzisini isə inkar etmək olarmı? İslam inqilabının yaşaması və hərtərəfli inkişafı üçün bütün dəyərlərə inanmaq şərtdirmi?

**Cavab:** Bu gün cəmiyyətdə mövcud olan və İslam quruluşunun təməli sayılan bu dəyərlər əvvəla bütünlüklə qəbul olunmalıdır. Bunların bəzisini qəbul edib, bəzisindən üz çevirsək, yarımçıq olacaq;

---

[1] Yenə orada.

bəzisinə əhəmiyyətli yanaşıb bəzisinə əhəmiyyət göstərməsək, məqsəd hasil olmayacaq. İkincisi, inqilabın özü hərəkət etmək, dəyişmək və irəliləmək deməkdir. Cəmiyyət bu dəyərlər əsasında hərəkət etməli, dəyişməli, irəliləməlidir. Yanlış üsulları günbəgün düzəltmək və bir addım irəliləmək lazımdır ki, nəticəyə çataq.

Mənim əzizlərim! İnqilab birdəfəlik bir hadisə deyil, tədrici bir prosesdir. İnqilabın siyasi quruluşun dəyişməsindən ibarət olan bir mərhələsi birdəfəlikdir, amma inqilab tədricən həyata keçir. Bunun üçün nə lazımdır? Bunun həyata keçməsi üçün geriqalmış və dəyişməmiş sahələr dəyişməli, uyğun dəyərlər əsasında cəmiyyətdə günbəgün yeni yollar, yeni işlər, yeni düşüncə və üsullar yaranmalı, inkişaf etməlidir. Bu zaman xalq həvəs və qüdrətlə öz məqsədinə doğru hərəkət edə bilər. Qayıdış yanlış, gerilik ziyanlıdır, amma dayanmaq da səhvdir. Hərəkət etmək və irəliləmək lazımdır.

Dediyimiz bu inkişaf, yenilik və irəliyə doğru hərəkət harada olmalıdır? Cəmiyyətin həyatına aid olan hər bir yerdə. Qanunlar dəyişməli, günbəgün yaxşılaşmalı və təkmil olmalıdır. Xalqın ümumi mədəniyyəti və əxlaqı günbəgün dəyişməli, inkişaf etməlidir. Ölkənin təhsil sistemi, iqtisadi fəaliyyətləri, incəsənət, hökumət və idarə işləri, hətta elm hövzələri dəyişməli, düşüncəli, şücaətli və aydın insanlar hər gün yeni metodlar, işlər, düşüncə və amallar gətirməlidirlər. Əsas məsələ bu dəyərlərdir. Həmin dəyərlər çərçivəsində inkişaf etsinlər və dəyişiklik yaratsınlar. O zaman inqilab kamilləşər, hər gün yaşayar və bitməz. Bu təkamül bitəsi deyil. Yəni insan hər on ildən, iyirmi ildən bir ölkəyə baxdıqda müxtəlif sahələrdə inkişaf və tərəqqinin yarandığını görəcək.

Deməli, burada üç element lazımdır. Mən istəyirəm gənclər, xüsusən də siyasi təsiri olanlar bu məsələlərə daha çox diqqət yetirsinlər. Burada üç mühüm element var: biri budur ki, inqilabın əsaslandığı dəyərlər diqqət mərkəzində olsun və güclü qorunsun; ikincisi budur ki, bu dəyərləri bir yerdə görsünlər, siyasi, mədəni və iqtisadi müstəqilliyə fikir verib dindarlığa diqqətsiz yanaşmasınlar, yaxud dindarlığa fikir

verib düşüncə azadlığına etinasızlıq etməsinlər, yaxud düşüncə və söz azadlığına fikir verib xalqın din və imanını qorumağa əhəmiyyətsiz yanaşmasınlar. Belə olsa, iş yarımçıq olar. Bütün dəyərləri diqqətdə saxlamaq lazımdır. İlk növbədə dövlət orqanları bu dəyərlərin hamısına diqqət yetirməli və hamısını qorumalıdır. Üçüncü element irəliyə doğru hərəkətdir. Durğunluq və sükut qapalılığın və köhnəliyin yaranmasına, dəyərlərin öz təsirini itirməsinə səbəb olur. Köhnəliyin arxasınca isə xarabalıq gəlir. Köhnəliyin yaranmasını istəməyən inkişaf etməli və irəliyə getməlidir. Mən irəliyə doğru bu hərəkəti Tasua günü inqilabi islahat adlandırdım. Əgər islahat, inkişaf və yenilik inqilab dəyərləri əsasında olmasa, cəmiyyət iflasa uğrayar. Bunlar əsas prinsiplərdir. Dəyərlərə diqqət yetirək, dəyərlərdə ayrıseçkilik salmayaq və dəyərlər çərçivəsində tam ciddiliklə yeniliyi və irəliyə doğru hərəkəti rəhbər tutaq.

Cəmiyyətdə təbii şəkildə bu üç amilin bəzisinə əhəmiyyətli yanaşıb bəzisini diqqətdən kənarda saxlayanlar var. Bəzi adamlar dəyərlərə diqqət yetirir, amma inkişafı və yeniliyi yaddan çıxarırlar. Bəziləri də əksinə, yeniliyə və inkişafa diqqət ayırır, yenilik və dəyişiklikdən danışır, amma dəyərlərə lazıminca riayət etmirlər; qəbul edirlər, amma onu deyil, inkişafı, dəyişikliyi və yeniliyi birinci sayırlar. Bir qrup da əksinə, yeniliyə inanır, amma dəyərləri qorumağı birinci sayırlar. Dəyər məsələsində biri xalqın dindarlığına və imanına daha çox önəm verir, biri ölkənin müstəqilliyinə, biri azadlığına, biri əxlaq məsələsinə. Bu təbiidir. Daha yaxşısı budur ki, hamı bütün sahələrə diqqət yetirsin. Amma bəziləri bir sahəyə, bəziləri isə başqa bir sahəyə diqqət ayırsa da, qorxusu yoxdur, bunlar bir-birini tamamlayır. Cəmiyyətdə dəyərlərə əhəmiyyət verənlər dəyişikliyə və inkişafa əhəmiyyət verənləri tamamlayırlar, yeniliyə və inkişafa əhəmiyyət verənlər də dəyərləri birinci sayanları.

Düzdür, ixtilaf yaranır, amma bu ixtilaf mühüm məsələ deyil. Dəyərlərə daha çox diqqət ayıranlar yeniliyə daha çox diqqət yetirənlərə etiraz edə bilərlər ki, siz dəyərlərə etinasızlıq və hörmətsizlik edirsiniz.

Yaxud əksinə, onlar etiraz edə bilərlər ki, siz inkişafa və tərəqqiyə əhəmiyyətsiz yanaşırsınız, durğunluğa rəvac verirsiniz. Bunlar cəmiyyətdə var, yaxud yaranması mümkündür, amma eybi yoxdur və önəmli deyil; gərək bir-birinə dözsünlər. Hamı ümumi şəkildə dəyərlərin və bu dəyərlər çərçivəsində hərəkətin əsas amil olduğunu qəbul edəndən sonra birinin bir sahəyə, o birinin isə başqa bir sahəyə daha çox diqqət ayırması çox da əhəmiyyət kəsb etmir və bunun üstündə dalaşmaq lazım deyil.

Bunların arasındakı sərhəd həqiqi və təyinedici sərhəd deyil. Onlar ümumi vəhdət təşkil edə, İslam və inqilab cəmiyyətinin ümumi kimliyini yaradıb əslində iki qanad funksiyasını yerinə yetirə bilərlər. Quşun hər iki qanadı yaxşı işləsə, daha yüksəyə uça bilər. Dəyərlərə bağlı olanlar bu sadiqliyi yaxşı qorusalar və yeniliyə etinasız yanaşmasalar, yeniliyə, inkişafa və dəyişikliyə bağlı olanlar da onu qorusalar və təbii ki, dəyərlərə də diqqət yetirsələr, cəmiyyət hər ikisinin xeyrini görər, hər iki qanad cəmiyyətə fayda verər, iniqlabı təkmil edər, dəyərlər sayəsində inkişaf yaranar və hər ikisi səmərəli olar.[1]

**Sual:** Cəmiyyətdə və siyasi proqramlarda bütün dəyərlərin nəzərə alınmasına və hərtərəfli inkişafın həyata keçməsinə hansı mərkəz nəzarət edə bilər?

**Cavab:** Bütün bu dəyərləri diqqətdə saxlayan və bütün sahələrdə inkişaf etdirən amil bizim konstitusiyamızda və fiqhimizdə nəzərdə tutulmuşdur. O da budur ki, cəmiyyətə ədalətli və zamanı tanıyan bir fəqih rəhbərlik etsin.

Nə üçün fəqih olsun? Din və İslam dəyərlərini tanımaqdan ötrü. Çoxları yaxşı adam ola, amma dinlə tanış olmaya, Quranın, sünnənin məzmununu və din məfhumlarını düzgün dərk etməyə, bilmədən səhvə düşə bilərlər. Buna görə gərək fəqih olsun.

---

[1] Yenə orada.

Nə üçün ədalətli olmalıdır? Çünki vəzifəsindən boyun qaçırsa, onun icrasına zəmanət olmayacaq. Əgər yalnız özünü, öz dünyasını, mənfəətini, hakimiyyətini və kreslosunu düşünsə, bu quruluşun yaşamasına heç bir zəmanət verilməyəcək. Odur ki, ədalətdən uzaqlaşsa, kimsə onu kənarlaşdırmadan öz-özünə vəzifəsindən kənarlaşmış olur.

Nə üçün zamanı tanımalıdır? Çünki zamanı və dünyanı tanımasa, aldanacaq. Fəqih rəhbər düşməni, onun hiylə və təxribatlarını tanımaq və vəzifəsindən irəli gələrək onlara qarşı tədbir görmək üçün zamanı tanımalıdır. Bu məsələlər konstitusiyada nəzərdə tutulmuşdur.[1]

**Sual:** Siz dediniz ki, bəzi şəxs, yaxud qruplar inkişafa və yeniliyə diqqət yetirir, dəyərlərə isə lazımi diqqət ayırmırlar; yaxud əksinə, dəyərlərə daha çox diqqət yetirir, yeniliyə və inkişafa az əhəmiyyət verirlər. Bu məsələ həmin şəxs və qruplar üçün təhlükə yaratmırmı? Yaradırsa, bu təhlükə nədən ibarətdir?

**Cavab:** Burada bəzi təhlükələrə diqqət yetirmək lazımdır. Hər iki tərəfi bəzi təhlükələr təhdid edir. Dəyərlərə diqqət yetirib yeniliyi, dəyişikliyi və inkişafı görməzliyə vuranları fanatizm təhlükəsi təhdid edir. Gərək ehtiyatlı olsunlar. Yeniliyə və dəyişikliyə diqqət yetirib dəyərləri birinci dərəcəli saymayanları da yoldan yayınma təhlükəsi gözləyir. Onlar da ehtiyatlı olmalıdırlar. Gərək hər iki tərəf ehtiyatlı olsun. Birinci qrup çalışıb fanatizmdən, ikinci qrup da yayınmadan, düşmənlərə və dəyərlərin əsas müxaliflərinə şərait yaratmaqdan ehtiyatlı olsunlar. Əgər hər iki qrup buna əməl etsə, cəmiyyət nəzərdə tutulan və lazım olan vəhdətlə İslamın təyin etdiyi təkamül və tərəqqiyə doğru gedə bilər.

Deməli, bir təhlükə budur ki, iki qrup və iki tərəf özləri diqqətsizlik edib təhlükəyə düşsünlər. Amma bundan da böyük təhlükə vardır. O nədir? O, düşmən qüvvələrindən ibarətdir. Hər iki tərəfə

[1] Yenə orada.

bədxah adamların girməsi mümkündür. Bəzən bir düşmən hər iki tərəfin içinə girir; bir tərəfdən özünü dəyərlərə sadiq göstərib hər bir yeniliyə qarşı çıxır, hətta gedilmiş yollara da müxalif olur və inqilabın hərəkət istiqamətini geriyə çevirmək istəyir. Məsələnin bu tərəfi isə daha təhlükəlidir: bəzi adamlar dəyişiklik, yenilik və inkişaf adı altında ortaya atılıb dəyərlərə, İslama, xalqın dindarlığına və ictimai ədalətə qarşı çıxır, Qərb kapitalizminə uyub fürsət gözləyir, təbəqələr arasındakı ayrıseçkiliyin aradan qaldırılmasına qarşı çıxır, dillə söyləməsə də, dinin adına da müxalif olurlar. Bunlar yenilik, dəyişiklik, inkişaf və islahat adı altında meydan sulayırlar. Belələrinin cəmiyyətin əsas iqtisadi işlərinə nüfuz etməsi də mümkündür. Belə yad və əcnəbi adamların cəmiyyətin iqtisadiyyatını ələ keçirməsi sözsüz ki, təhlükəlidir. Çünki cəmiyyət üçün iqtisadiyyat və sərvət məsələləri mühüm məsələlərdir və etimadlı insanların əlində olmalıdır. Ondan da təhlükəli olan mədəni mərkəzlərə girib xalqın beynini, imanını, inamlarını və düzgün xəttini ələ keçirməkdir. Bu amil, yəni kapitalın hakimliyi Qərb dünyasının mətbuatında, radio və televiziyasında mövcuddur. Dünyanın xəbər imperatorluğu, beynəlxalq radio və televiziya şəbəkələri oliqarxların əlindədir. Bunlar bizim ölkəmizə daxil olub mədəni mərkəzləri ələ keçirə və mədəni yolla təsir göstərməyə cəhd edə bilərlər. Mən bir neçə il bundan qabaq bəzi yerlərdə onun əlamətlərini gördüm və bunu "mədəni hücum" adlandırdım; bəziləri qəbul etdilər, bəziləri də ümumiyyətlə inkar edib dedilər ki, mədəni hücum adlı bir şey yoxdur.

Dəyərlərə inanmadan dəyişiklikdən dəm vuranların nəzərdə tutduğu dəyişikliyin nədən ibarət olduğu bəllidir. Onların nəzərdə tutduğu dəyişiklik İslam quruluşunun qeyri-islam quruluşuna çevrilməsi, İslam adının, İslam həqiqətinin və İslam fiqhinin ortadan götürülməsidir. Biz təsadüfən bunların bəzisini tanıyırıq. Bəziləri keçmiş rejimin qalıqları, tör-töküntüləri, həmin rejimdə yeyib-içən və haram ət gətirənlərdir. Onlar özlərini xalqın arasına salıb nəfəs dərdilər, sonra baş qaldırıb azadlıq və demokratiya iddiası etdilər. Onlar əlli ildən artıq bu məmləkətdə hakimiyyətdə olub bir zərrə demokratiya yaratmayan

rejimin zülm alətləri idilər. Bütün vücudları ilə həmin rejim üçün işləyən şəxslər bu gün islahatdan danışırlar. Bu islahatın mənası nədir? Bu islahat Amerika islahatıdır. Yəni Amerikanı rədd edən siz İran xalqı yolunuzu islah etməli, amerikalı ərbabların ölkəyə təşrif buyurub yenə də ölkənin iqtisadiyyatını, mədəniyyətini və siyasətini ələ keçirməsinə icazə verməlisiniz.

Bəziləri isə həmin rejimə məxsus deyillər, amma inqilabın əvvəlindən, hətta ondan öncədən ölkənin İslam hökmləri əsasında idarə olunmasını əsla istəmədiklərini göstərmişlər. Onlar İslamın adını istəyir, sevirlər, İslamla düşmən deyillər, amma İslam fiqhini, İslam hökmlərini və hakimiyyətini əsla istəmirlər. İnqilabın əvvəllərində onların bəzisi hakimiyyətə gəldi. Əgər imam bu inqilabın dadına yetməsəydi, həmin cənablar inqilabı və ölkəni rahatlıqla Amerikanın ayağına aparacaqdılar. Bunlar da islahatdan dəm vururlar. Bəzən İslamdan da dəm vurur, amma açıq şəkildə İslamın əleyhinə şüar verənlərin yanında durur və onlarla həmrəylik nümayiş etdirirlər. Bəzən İslamdan dəm vururlar, amma İslam hökumətinə düşmən olan, sekulyarizm, dinsiz, qeyri-dini, antidin və laik hökumət şüarı verənlərin yanında dayanırlar. Məlumdur ki, bunlar düşmən adamlarıdır. Bunlar dəyərləri qəbul edib dəyişikliyə inananlar deyillər. Xeyr! Bunlar düşmənin qüvvələridir. Bunlar yad və özgə ünsürlərdir. Mən bir neçə ay öncə cümə namazında "doğma və yad" mövzusunu açıqladım, amma bəzi adamlar etiraz etdilər ki, nə üçün "doğma" və "yad" deyirsiniz. Bəli, bunlar yaddır. Bunlar inqilabı, İslamı və dəyərləri qəbul etmirlər. Doğma qruplar diqqətlərini toplamalıdırlar.[1]

**Sual:** İslam quruluşu İslam təfəkkürünə və ideologiyasına əsaslanan bir quruluşdur və şübhəsiz, belə bir quruluş İslam dünyagörüşü və baxışı əsasında qurulur. Bu dünyagörüşün prinsipləri çoxsaylı olsa da, İslam hökuməti özünün praktik əsaslarını tanımaq

---

[1] Cümə namazı xütbələrindən: 2000.

üçün bunları bilməyə ehtiyaclıdır. Xahiş edirik bu dünyagörüşün mühüm və təsirli prinsiplərini izah edəsiniz.

**Cavab:** Bizim əməl və vəzifələrimizin əsas xətləri olan bilgilər toplusunun – yəni İslam dünyagörüşünün və İslam baxışının çoxlu prinsipləri var. Onların hamısı fərdin və hökumətin əməlinə təsir göstərir. Mən burada daha təsirli və əhəmiyyətli olan beş prinsip haqda danışacağam.

Bu beş prinsipdən biri tövhiddir. Tövhid kainatın və yaranış aləminin çox möhtəşəm, heyrətamiz, nizam-intizamlı və mürəkkəb vəhdətinin bir düşüncənin, iradə və qüdrətin məhsulu olduğuna və təsadüfən yaranmadığına inanmaqdır. Qalaktikalardan, bulutsulardan, nəhəng kosmik boşluqlardan, saysız-hesabsız ulduzlardan və milyonlarla günəş sistemindən tutmuş bir əşyanın, kiçik bir varlığın kiçik bir hüceyrəsinə və xırda kimyəvi elementə qədər bu böyük, rəngarəng və mürəkkəb vəhdətdə o qədər nizam-intizam var ki, ondan minlərlə qanun öyrənmişlər. Nizam-intizam dəqiq olanda ondan qəti qanunlar əldə olunur. Hər bir sağlam düşüncə, ağıllı insan, düşünməyə tələsməyən, qərar və mühakimədə səbirsizlik etməyən hər bir təfəkkür sahibi bu inamı qəbul edir. Növbəti məsələ budur ki, bu möhtəşəm və mürəkkəb vəhdəti yaradan bu düşüncə, iradə, əzəmətli, sonsuz və vəsfəgəlməz qüdrət sahibi bəşərin düzəltdiyi filan büt, yaxud tanrılıq iddiası edən filan məhdud insan, yaxud hansısa əfsanəvi və mifik simvol deyil, dinlərin "Allah" adlandırdığı və əlamətləri ilə tanıdığı sonsuz qüdrət sahibi və vahid varlıqdır. Buna əsasən, həm bu böyük və mürəkkəb quruluşun arxasında dayanan güc və iradə isbat olunur, həm də o misilsiz və vəsfəgəlməz yaradanın ya bəşərin özünün, ya da özü kimi birisinin düzəltdiyi, yaxud da başqa bir məhdud varlıq kimi kiçik və dəyərsiz şeylərdən ibarət olmadığı: "O Özündən başqa heç bir tanrı olmayan, (bütün məxluqatın) ixtiyar sahibi, müqəddəs (pak) olan, salamatlıq, əmin-amanlıq bəxş edən, (hər şeydən) göz-qulaq olub (onu) qoruyan, yenilməz qüdrət sahibi, (hamını istədiyi hər bir şeyə) məcbur

etməyə qadir olan, (hər şeydən) böyük (hər şeyin fövqündə) olan Allahdır. Allah (müşriklərin) Ona qoşduqlarından (şəriklərdən) ucadır".

Dünyagörüşün bu hissəsində bütün dinlər - qədim dinlər, İbrahim dinləri, İbrahimdən qabaqkı dinlər, hətta Hindistanın şirklə qarışmış indiki dinləri də ortaqdır. Vedalarda xalis tövhid irfanı görmək mümkündür. Bu, onların qaynağının şəffaf və pak olduğunu göstərir. Buna əsasən, tövhid bizim bu hökuməti, quruluşu və hərəkəti inkişaf etdirmək üçün əsaslandığımız İslam baxışının və görüşünün əsas prinsipidir.

İkinci prinsip insan ucalığı, yaxud deyək ki, humanizmdir. İslam humanizmi 18 və 19-cu əsrlər Avropasının humanizmi ilə çox fərqlənir; o başqa bir şeydir, bu başqa bir şey. Onun da adı humanizmdir, amma bunlar yalnız adda oxşardırlar. İslam humanizmi Avropa humanizmi deyil, başqa bir şeydir: "Məgər Allahın yerdə olanları sizə ram etdiyini (ixtiyarınıza buraxdığını) görmürsənmi?!" Qurana, Nəhcül-bəlağəyə və dini əsərlərə baxan İslama görə insanın bütün yaranışın mehvəri olduğunu asanlıqla dərk edər. Çoxlu ayələrdə göstərilir ki, günəş, ay və dəniz sizin ixtiyarınıza buraxılıb. Bu nə deməkdir? Yəni potensial olaraq sizin ixtiyarınızdadır. İndi aktual olaraq siz onların ixtiyarındasınız, onlara təsir göstərə bilmirsiniz, amma potensial olaraq elə yaranmısınız, varlıq aləmi və kainat elə yaranmışdır ki, hamısı sizin ixtiyarınızda, əlinizdədir və siz hamısından ən yaxşı şəkildə istifadə edə bilərsiniz. Bu, Allahın yeri, göyü, ulduzu, günəşi və ayı ixtiyarına buraxdığı bu varlığın ilahi xilqətə görə çox əziz olduğunu göstərir. Quranda bu da açıq şəkildə ifadə olunmuşdur: "Biz Adəm övladını uca və hörmətli elədik". İnsana bu hörmət həm qanun mərhələsinə aiddir, həm də xilqət mərhələsinə; İslam hökumətində və İslam quruluşunda insan üçün təyin olunmuş yaradılış və qanun mərhələlərində insan ucalığı; yəni təməllər tamamilə insani təməllərdir.

İslam dünyagörüşündə üçüncü əsas prinsip ölümdən sonra həyatın davam etməsidir. Yəni həyat ölümlə bitmir. İslamda və təbii ki, bütün ilahi dinlərdə bu da mühüm və ideoloji prinsiplərindəndir. Qeyd

etdiyim kimi, həyat münasibətlərinin və İslam hökumətinin təməllərinin qurulmasında, cəmiyyətin və dünyanın idarəsində bu prinsiplərin hamısı təsirlidir. Biz öləndən sonra yeni bir mərhələyə daxil oluruq. İnsan ölümlə məhv olmur. Bu, atlanıb başqa bir mərhələyə keçməkdir. Həmin mərhələdə haqq-hesab, qiyamət və bu kimi məsələlər olacaq.

Bu dünyagörüşün dördüncü əsas prinsipi insanın tam yüksəlişi üçün lazım olan bütün elementləri əldə etməkdə onun sonsuz istedadından ibarətdir. İnsan həyatda yüksəlişin ən son dərəcəsinə çatmaq istedadına malikdir. Digər yaranmışlarda bu imkan yoxdur. "Biz insanı ən gözəl biçimdə yaratdıq" ayəsində məqsəd bu deyil ki, biz insanın bədənini belə yaratmışıq, məsələn, başı əli, gözü və bədəni ilə uyğundur və sair. Bu yalnız insana məxsus deyil, heyvanda da belədir. Bunun mənası odur ki, insanı ən yaxşı ölçüdə yaratdıq; belə ki, onun inkişafı üçün son və məhduyyət yoxdur, varlıq aləmində mümkün olan ən son mərhələyə yüksələ, mələklərdən və uca yarınmaşların hamısından üstün ola bilər. Bəşər bundan ötrü maddi aləmin imkanlarından istifadə etməlidir. Məlum məsələdir ki, bunsuz mümkün deyil. Buna görə buyurur ki, yerdə olan hər bir şeyi sizin üçün yaratdı. Deməli, insanın inkişafı və təkamülü maddi istedadlardan istifadə etməkdən asılıdır. Buna əsasən, onlar birgə inkişaf edirlər; yəni insanın inkişafı maddi aləmin və təbiətin inkişafı ilə yanaşıdır. Bu onun inkişafına təsir göstərir, o bunun inkişafına. Və nəticədə möhtəşəm inkişaf yaranır.

Bu sahədə sonuncu prinsip budur ki, İslama görə dünya haqq hakimiyyətinə və qurtuluşa doğru gedir. Bunun oyan-buyanı yoxdur. Bir dəfə də işarə vurduğum kimi, bütün peyğəmbər və övliyalar insanı daxil olduğu təqdirdə heç bir maneə olmadan bütün istedadlarının aşkara çıxdığı böyük bir yola sövq etmək üçün gəlmişlər. Peyğəmbər və övliyalar bu azmış insanları daim dağ-daşdan, çöllərdən, səhralardan və meşələrdən keçirib bu əsas yola sövq etmiş, yönəltmişlər. Bəşəriyyət hələ bu düzgün yolun başlanğıc nöqtəsinə çatmamışdır. Bu, İmam Mehdinin (ə) dövründə baş verəcək. Lakin bütün səylər bu baxış

əsasındadır ki, dünyanın sonu haqqın qələbəsi ilə nəticələnəcək; bu, tez, yaxud gec ola bilər, amma qaçılmazdır. Sonda düzgünlük əyriliyə, xeyir şərə mütləq qalib gələcək. Bu da İslam dünyagörüşünün prinsiplərindən biridir və onda heç bir şübhə yoxdur.[1]

**Sual:** İslam baxışının qeyd etdiyiniz beş mühüm və təsirli prinsipinə əsasən, bu əsaslara inanan insanların üzərinə hansı vəzifələr və əməli nəticələr düşür?

**Cavab**: Bunlardan bəzi əməli nəticələr çıxır və bu əsaslara inanan insanların üzərinə bəzi vəzifələr düşür. İstər İslam hökuməti olsun və hakimiyyət haqq tərəfdarlarının əlində olsun, istər İslam hökuməti olmasın, məsələn, tağut dövründəki kimi olsun, yaxud bir insan kafirlərin arasında yaşasın, fərqi yoxdur, qeyd etdiyim bu vəzifələr hər bir halda bütün insanların üzərinə düşür. Həmin baxışın əməli nəticələri olan bu vəzifələr hansılardır? Mən bu vəzifələrin bir neçəsini qeyd etmişəm:

Bir vəzifə Allaha bəndəlik və itaətdən ibarətdir. Çünki kainatın sahibi, yaradanı və idarə edəni var və biz də onun bir hissəsi olduğumuza görə itaət etməyə borcluyuq. Bəşərin bu itaəti kainatın ümumi hərəkətinə qoşulmaq deməkdir. "Göylərdə və yerdə nə varsa (hamısı) Onu təqdis edib şəninə təriflər deyər"; "Onlar da: “İstəyərək (Allahın əmrinə itaət edərək) vücuda gəldik!” – deyə cavab verdilər". Kainatda hər bir şey - yer, göy və bütün cisimlər Allahın dəvətini və əmrini yerinə yetirib Onun təyin etdiyi qanunlara uyğun hərəkət edir. İnsan dinin öyrətdiyi qanun və vəzifələrə əməl etsə, yaranışın bu hərəkətinə qoşulmuş olacaq, inkişafı daha da asanlaşacaq, ziddiyyətlər və dünya ilə toqquşma azalacaq, özünün və dünyanın səadət və qurtuluşuna yaxınlaşacaq. Əlbəttə, burada Allah bəndəliyi geniş və tam mənada nəzərdə tutulur. Dedik ki, tövhid həm Allahın varlığına inamdır, həm də bu Allahlığın və əzəmətin sonradan düzəldilmiş

---

[1] Quruluşun məsul işçiləri ilə görüşdəki çıxışdan: 2000.

bütlərə, daşlara, taxtalara, tanrılıq iddiası edən insanlara, bu iddiaya malik olmayan, amma əməldə tanrılıq etmək istəyənlərə aid edilməsinin inkarıdır. Deməli, əməldə iki vəzifə var: biri Allah-Taalaya itaət və Ulu Rəbbə bəndə olmaq, ikincisi isə Allaha şərik çıxanların, Allahın hökmranlığı qarşısında insana hökmranlıq etmək istəyən hər bir şeyin itaətinə boyun əyməmək. Bu zaman insanın yadına tez maddi güclər və hegemonlar düşür. Düzdür, bunlar real nümunələrdir, amma çox yaxın bir nümunəsi bizim nəfsimizdir. Tövhidin şərti nəfsə itaətdən boyun qaçırmaqdır. Sonra bu haqda danışacağam.

İkincisi insan təkamülünü - özünün və digərlərinin inkişafını hədəf seçməkdir. Bu təkamül elmi, psixoloji, əxlaqi, ictimai, siyasi və iqtisadi (yəni xalqın rifahı) inkişaflara şamil olur. Hamı elmin inkişafından, sağlam və düzgün düşüncənin hakimiyyətindən, psixoloji, mənəvi, əxlaqi və ictimai inkişafdan ötrü çalışmağa borcludur. Burada bir fərdin deyil, bütün cəmiyyətin mənəvi, elmi və əxlaqi cəhətləri nəzərdə tutulur. Vəzifələrdən biri insanların iqtisadi inkişafı və rifahıdır. Xalq üçün bacardıqca daha yaxşı məişət imkanları və rifah yaratmaq lazımdır. Bu hamının vəzifəsidir; həm də yalnız hakimiyyət dövrünə məxsus deyil, qeyri-ilahi hakimiyyət zamanı da vacibdir.

Üçüncüsü təzad yarandığı təqdirdə axirət səadətini dünyəvi mənfəətə tərcih etməkdir. Bu da həmin dünyagörüşə etiqad bəsləyən hər bir insanın əməli vəzifələrindəndir. Əgər haradasa bir dünyəvi qazanc axirət məqsədləri istiqamətində olmasa, insan bacardıqca onu axirət məqsədləri istiqamətinə yönəltməlidir. Əgər haradasa uyğun gəlməsə, insan ya qazanca – maliyyə, hakimiyyət, vəzifə, hörmət və sair mənfəətlərə göz yummaq, ya da axirət əzabına səbəb olan bir günah işlətmək seçimi qarşısında qalsa, həmin dünyagörüşə etiqada görə insan axirət məsələsini seçməli, dünyəvi qazancdan imtina etməli və günahdan çəkinməlidir. Bu hər bir müsəlman üçün qəti şərtdir. İnsan öz fəaliyyətlərini elə nizama salmalıdır ki, qaçılmaz olan bu böyük dünyəvi fəaliyyət axirət səadəti və vacib vəzifələrlə ziddiyyət təşkil etməsin.

Dördüncüsü mübarizə və fəallıq prinsipidir. İstər fərdin, istərsə də toplum və hökumətin vacib və əsas işlərindən biri mübarizə aparmaq, daim çalışmaq, tənbəllikdən, passivlikdən və məsuliyyətsizlikdən uzaq durmaqdır. Bəzən insan əməl edir, amma əsas vəzifələrə qarşı öhdəliyi olmur. Deyir bizə nə? Nəfsdən irəli gələn yayınmalar da belədir. Bunlara yol vermək olmaz. İnsan öz tənbəlliyi və passivliyi ilə mütləq mübarizə aparmalıdır. Çalışıb fəaliyyət göstərməli və bu yolda təhlükədən çəkinməməlidir. Vəzifələrdən biri budur. Təbii ki, bu mübarizə Allah yolunda olmalıdır. Növbəti bənddə bu haqda danışacağam.

Beşincisi və sonuncusu hər bir şəraitdə qələbəyə ümiddir; bu şərtlə ki, Allah yolunda mübarizə olsun. Mübarizə aparan şəxsin ümidsiz olmağa haqqı yoxdur, çünki mütləq qələbə çalacaq. Qələbənin baş vermədiyi və uğursuzluğun hasil olduğu yerlərdə ya mübarizə aparılmamışdır, ya da aparılmışdırsa, Allahdan ötrü olmamışdır. Allahdan ötrü mübarizənin şərti nədir? Şərti budur ki, insan Allahın yoluna inansın, etiqad bəsləsin, Allahın yolunu tanısın. Bu zaman onun yolunda mübarizə apara bilər.

Bunlar hər bir insanın və hökumətin vəzifələridir. Qeyd etdim ki, bunlar hakimiyyət dövrünə məxsus deyil ki, indi hakimiyyət Allaha və İslama iman bəsləyənlərin əlində olduğu üçün bu vəzifələr bizim üzərimizə düşmüş olsun. Hakimiyyət düşmənlərin, tağutların və yer üzündə fəsad törədənlərin əlində olanda da, bu vəzifələr var idi; bəziləri əməl edirdilər, bəziləri əməl etmirdilər; bəziləri yaxşı əməl edirdilər, bəziləri zəif. Bu vəzifələr indi də bütün müsəlmanların üzərinə düşür. Bəzilərinin üzərinə daha çox vəzifə düşür, bəzilərinin üzərinə isə az. Bütün peyğəmbərlərin, imamların və övliyaların əsas işi insanları bu vəzifələrlə tanış etmək olmuşdur; istər hakimiyyətə gəlmələrinin mümkün olduğu dövrdə - deyirdilər ki, gedin mübarizə aparın, hakimiyyətə gəlin və cəmiyyəti layiqincə idarə edin - istərsə də hakimiyyətə gəlməyin mümkün olmadığı dövrdə. Hamı da çalışmış, mübarizə aparmışdır: "Neçə-neçə peyğəmbər bir yığın allahpərəstlə (Allah adamı ilə) birlikdə (düşmənə qarşı) vuruşmuşlar". Müharibə,

siyasi mübarizə və düşmənlərlə döyüş ilk dəfə İslamda yaranan bir şey deyil, İbrahimdən bu tərəfə keçmiş peyğəmbərlərin, Allahın böyük elçilərinin hamısına məxsus olmuşdur. Bəlkə İbrahimdən öncə də olmuşdur, mənim xəbərim yoxdur. Bu vəzifələr peyğəmbərlərin bizi sövq etdiyi vəzifələrdir.[1]

**Sual:** Vilayət və İslam hökuməti haqda çox danışılmışdır. Sizdən eşitmək istəyirik ki, vilayət necə hökumətdir və belə bir hökumətdə hakimin mövqeyi nədən ibarətdir?

**Cavab**: Vilayət hakimin insanlarla sevgi, düşüncə və etiqad bağlarına malik olduğu bir hökumətdir. Zorla, çevrilişlə yaranan, hakimin xalqın əqidəsini qəbul etmədiyi, düşüncə və hisslərinə etinasız yanaşdığı, özəl şəraitə və dünya nemətlərindən ibarət xüsusi imkanlara malik olduğu hökumət əsla vilayət ola bilməz. Vilayət hökumətində hakimin xalqla əlaqəsi düşüncə, etiqad, emosional, insani və sevgili əlaqələrdir. Xalq ona bağlıdır, onu sevir, o da bütün bu siyasi sistemin və öz vəzifələrinin qaynağını Allahdan bilir, özünü Allaha bəndə sayır. Vilayətdə hegemonluq yoxdur. İslamın təqdim etdiyi hakimiyyət dünyada geniş yayılmış demokratiyadan da xalqçıdır, xalqın qəlbi, düşüncəsi, hissləri, etiqadları və düşüncə ehtiyacları ilə əlaqədədir. Hökumət xalqa xidmət göstərir.

Maddi baxımdan hakimiyyət hakim şəxs və komanda üçün yem sayılmamalıdır, əks təqdirdə, vilayət ola bilməz. İslam hakimiyyətinin başında duran şəxs hökumət və vəzifədən maddi mənfəət umsa, vəli və o hökumət vilayət deyil. İslam hökumətində əmr sahibi olan, yəni siyasi quruluşu idarə edən şəxs qanun qarşısında digərləri ilə bərabərdir. O, xalq, ölkə, İslam və müsəlmanlar üçün bir çox böyük işlər görməyə haqlı, özü də qanuna tabedir.

Əvvəldən bu günə qədər, xüsusən də İslam Respublikası quruluşu yaranandan sonra vilayətin mənasını təhrif etmişlər. Yalandan vilayəti

[1] Yenə orada.

ayrı cür tanıtdırmış və demişlər ki, vilayətə görə, xalq acizdir, başçıya və qəyyuma ehtiyacı var. Adlı-sanlı adamlar bunu açıq şəkildə kitablarda və mətbuatda yazmışlar. Bu, tamamilə yalan, İslama və vilayətə qarşı iftiradır.

Qədir-Xumda vilayət məsələsi Peyğəmbər tərəfindən rəsmi bir vəzifə kimi irəli sürüldü və Əmirəlmöminin (ə) ona real nümunə göstərildi. Siz bunun təfərrüatını bilirsiniz. Əgər kimlərsə, xüsusən də gənclər bilmirlərsə, elmi əsər və kitablardan oxusunlar. Bu barədə yaxşı kitablar yazılmışdır.[1]

**Sual:** İslamda vilayət hansı şəraitdə həyata keçir? Başqa sözlə desək, vilayət nədən qaynaqlanır və hansı cəmiyyətdə reallaşır?

**Cavab:** İslamda vilayət dəyərlərdən qaynaqlanır. Bu dəyərlər həm bu institutu, həm də xalqı qoruyur. Məsələn psixoloji xarakter olan ədalət vilayətin şərtlərindəndir. Bu şərt təmin olunsa, vilayət təhlükəsiz bir şey olar. Çünki vəlidən, vilayət rəhbərindən İslam çərçivəsindən xaric ən kiçik bir əməl görünən kimi ədalət şərti sıradan çıxır. Ən kiçik zülm və şəriətin ziddinə olan ən kiçik rəftar ədaləti sıradan çıxarır. Hər bir ayrıseçkilik, hər bir yanlış əməl, günah və vəzifənin tərk olunması valini ədalətsiz edir. Ədalət sıradan çıxdıqda isə vəzifəsindən kənarlaşır.

Dünyanın hansı hakimiyyət formasında belə bir şey var?! Hansı ictimai nəzarətdə insaniyyətin, cəmiyyətin xeyrinin, bəşəri maraq və dəyərlərin təmin olunduğu belə bir qayda var?! Əlbəttə, meyarlardan yayınmaq hər hansı şəkildə ola bilər. Meyarları qoruyandan sonra isə İslamın təyin etdiyi bu formanın necə güclü olması meydana çıxır.

Biz müsəlmanlar vilayəti təcrübə etməliyik. Uzun əsrlər buna imkan verməyiblər. Kimlər imkan verməyiblər? Vilayət formasında olan hakimiyyətin kürsüdən saldığı şəxslər. Xalqın isə xeyrinədir. Hakimiyyət başında təqvalı, zahid, mömin, Allahın qayda-qanunlarına əməl edən və yaxşı işlər görən bir insanın durması hansı ölkə üçün araq

[1] Qədir-Xum bayramında həzrət İmam Rzanın (ə) ziyarətçilərinin toplantısında çıxışdan: 2000.

içən, şəhvətpərəst, pulpərəst və dünyapərəst bir insandan yaxşı olmaya bilər?! Hansı xalq və hansı məzhəb olursa-olsun, fərqi yoxdur. Vilayət öz nəfs və ehtiraslarına qarşı çıxan və yaxşı işlər görən zahid insanların hakimiyyətidir. İslam vilayətinin mənası budur. Hansı xalq və hansı ölkə bunu istəməz, bunda xeyir görməz, təsəvvür etdikdən sonra təsdiqləməz?! Kimlər bu qaydaya və bu üsula müxalifdirlər? Bəllidir ki, özlərində həmin meyarların - zahidliyin, ehtiraslardan uzaqlaşmağın və dünya bəzəklərinə etinasızlığın həyata keçməsini imkansız sayan hakimiyyət hərisləri. Bu gün dünyada hakimiyyət başında olanların hansı biri hökumətin İslamın dediyi kimi olmasına razıdır?!

Biz həmişə bunu demişik, inqilabımızın qəti məsələlərindən biri də budur ki, İslam inqilabı və İslam Respublikası quruluşu qeyri-islami və antiislam mədəniyyətə ümumi bir etirazdır. Bu gün dünya güclərinə həmin mədəniyyət hakimdir və siyasi sistemlər ona əsasən formalaşmışdır. Məhz buna görə, dünya hakimləri arasında geniş yayılmış siyasi ənənəni sual altına saldığına görə İslama, bu inqilaba və quruluşa müxalifdirlər. Bizim mədəniyyətimiz həmin mədəniyyətlərdən fərqlidir və siz siyasi hakimiyyətin vəziyyətini, xalqla əlaqəsini, məmurlarla xalq arasındakı bağları müşahidə edirsiniz.

İslamda vilayət prinsipindən irəli gələn bu məsələlər insanlar üçün nə qədər faydalı, gözəl və cəlbedicidir! Dünyada bizim ölkəmizə baxan hər bir kəs böyük imamımızın həyatında olan bu gözəllikləri və bu xalqın 10-12 il ərzində adət etdiyi məsələləri görür. Vilayətin mənası budur. Biz deyirik ki, din və məzhəbindən asılı olmayaraq, hansı xalq səadətə nail olmaq istəyirsə, İslam vilayətinə üz tutmalıdır.

Sözsüz ki, İslam vilayəti tam şəkildə yalnız müsəlman cəmiyyətində həyata keçə bilər. Çünki bu vilayət İslam dəyərlərinə - İslam ədalətinə, elminə və dininə əsaslanır. Amma qeyri-tam formada bütün xalq və cəmiyyətlərdə həyata keçə bilər. Xalq rəhbər və hakim seçəndə oliqarxların təqdim etdiklərini deyil, ən zahid, ən təmiz, dünyaya ən etinasız olan, hakimiyyəti öz şəxsi sərvəti saymayan və ondan şəxsi işlər üçün istifadə etməyən namizədi seçsin.

Bunlar İslamda olan və dünyanın demokratik ölkələrinin məhrum olduğu vilayətin bəzi xüsusiyyətləridir. Bu, İslamın səmərəsidir. Odur ki, inqilabın əvvəlindən vilayət və fəqih hakimiyyəti – biri vilayət məfhumunun özü, biri də bu vilayətin dinşünas alim olan fəqihə məxsus olması - bu kamil dəyər quruluşuna dözə bilməyən şəxslərin kəskin hücumuna səbəb olmuşdur. Bu gün də belədir. Xoşbəxtlikdən, xalq bu yolu tanımışdır. Bu, Qədir-Xumun, İslamın, Əmirəlmöminin (ə), həmçinin o həzrətin qısa hakimiyyətinin səmərələrindəndir.[1]

**Sual:** Siz dəfələrlə İmam Xomeyninin vəfatından sonra onun yolunun və xəttinin davam etməsini təkidlə vurğulamısınız. Bu yolun və xəttin mühüm xüsusiyyətləri hansılardır?

**Cavab:** Mən imamın xəttinin bir neçə mühüm xüsusiyyətini söyləyəcəyəm. İmama görə bir neçə amil birinci dərəcəli əhəmiyyətə malik idi. Onların birincisi İslam və dindir. İmam heç bir dəyəri İslamdan üstün bilmirdi. İmamın inqilabı və hərəkatı İslamın hakimiyyətindən ötrü idi. Bu quruluşu qəbul edən, bu inqilabı ərsəyə gətirən və imamı qəbul edən xalqın da məqsədi İslam idi. İmamın uğurunun sirri bu idi ki, açıq şəkildə və gizlətmədən İslamı elan etdi, İslam üçün işləmək istədiyini və hər şeyin İslamın sayəsində olduğunu bildirdi.

İnqilabdan öncə bizim ölkəmizdə və digər ölkələrdə həqiqətən İslama etiqad bəsləyən, amma açıq şəkildə İslamdan danışmağa cürət etməyən, yaxud danışmaq istəməyən və digər adlar altında mübarizə aparan şəxslər vardı. Onların hamısı məğlub oldular. İmamın qələbəsinin səbəbi özünün İslam hakimiyyətindən ibarət olan məqsədini açıq şəkildə söyləməsi idi.

İmamın buyurduğu İslama iki sahədə nəzər salmaq olar. Biri quruluş formasında olan İslamdır. İmam burada çox tələbkar idi, nə bir kəlmə artığa, nə də bir kəlmə əskiyə razı olurdu. İqtisadi və ya digər

---

[1] Vilayət hədisi, c. 7, səh: 187-189.

məsələlərdə heç bir güzəştə getmirdi. Hər yerdə İslamın sözü üzərində dayanırdı; İslam quruluşu, İslam Şurası Məclisi, İslam hökuməti, İslam məhkəməsi və müxtəlif orqanlar İslam xəttini və İslam hakimiyyətinin yolunu izləməli idilər. İmam bacardığı qədər buna çalışdı.

İslama sadiqliyə dair ikinci sahə insanların fərdi əməlidir. Burada daha sərtlik və qətiyyət yoxdur. Burada moizə, nəsihət, xoş söz və yaxşı işlərə dəvət var. İmam bunu uyğun görürdü. Deməli, imamın xəttində əhəmiyyət kəsb edən birinci məsələ iman və əməldə İslamın məqsədini və İslam hakimiyyətini izləməkdir.

İkinci məsələ xalqa etimaddır. Qeyd etdiyim kimi, İslam quruluşunda heç kim xalqın istək və iradəsini inkar etməməlidir. Bəzi adamlar xalqın səsini legitimlik şərti, yaxud ən azı legitim rəhbərliyin icrasına şərt bilirlər. Xalqın səsi, iştirakı olmadan və istəyi həyata keçmədən İslam quruluşu qurulmaz və yaşamaz. Sözsüz ki, xalq müsəlmandır və xalqın bu istəyi, iradəsi İslam qanunları və hökmləri çərçivəsindədir.

İmam Quruluşun Məsləhətini Müəyyənləşdirən Qurumu təsis etdi. Yəni xalqın iradəsini əks etdirən İslam Şurası Məclisi ilə dini hədləri müəyyən edən Nəzarət Şurası arasında fikir ayrılığı yaransa, bu qurum məsələyə aydınlıq gətirsin, ölkənin mənafeyini təmin edən variantı təsdiqləsin.

Azadlıq haqda deyilənlərin hamısı imamın bu ölkə üçün yaratdığı bu əzəmətli hərəkətin və bu mühüm xəttin içərisində var. İndi bəziləri yenicə başlarını qaldırıb azadlığı, fikir və söz azadlığını imamın qurduğu İslam quruluşuna öyrətmək istəyirlər. İmam İslam quruluşunun hərəkətini bu xətt üzərində həyata keçirdi. Allaha şükür olsun ki, istər bu gün, istər qabaqkı iqtidarlarda hamılıqla imamın şagirdləri və yetirmələri olan dövlət məmurları bu məsələləri lazımınca bilib inanmışlar və başqasının öyrətməsinə ehtiyac yoxdur.

İmamın xəttinin üçüncü xüsusiyyəti ictimai ədalət, yoxsul və məhrum təbəqələrə yardımdır. İmam haqlı olaraq onları inqilabın və ölkənin sahibi bilir, xalqın qələbəsində ən mühüm amil sayırdı. Qeyd

etdiyimiz kimi, imam sözlə kifayətlənmədi, inqilabın əvvəlindən Quruluş cihadı, İmdad komitəsi, Məhrumlar, On beş xordad və Məskən fondlarını yaratdı, hökumətlərə ciddi tapşırıqlar verdi. İctimai ədalət əsas şüarlardandır. Bunu ikinci dərəcəli saymaq və kənara qoymaq olmaz.

Bir tərəfdən bir qrup adam peyda olub deyir ki, imam belə buyurub: "Bizim inqilabımız çörək inqilabı və çörək üçün deyil!" Bəli, 1917-ci ildə Rusiyada baş verən Oktyabr inqilabı Moskva kimi əsas şəhərlərdə çörək qıtlığına görə baş verdi. O vaxt çörək olsaydı, inqilab da baş verməzdi. Bizim inqilabımız isə belə baş vermədi. Bizim inqilabımız imana əsaslanırdı. Amma bu sözün mənası o deyil ki, inqilab xalqın məişəti, iqtisadiyyat, çörək və rifahla məşğul olmasın. Bu nə sözdür?! İmam bu məsələlərlə məşğul olur və lazımi göstərişləri verirdi. İmama görə birinci dərəcəli məsələ aztəminatlı və yoxsul təbəqələrin güzəranı idi.

Reallıqlardan xəbəri olmadan, yaxud məsuliyyət hiss etmədən həmişə bir kənarda oturub göstəriş verən, yol göstərən şəxslər deyirlər ki, ictimai ədalət həyata keçməmişdir. Təbii ki, tam ictimai ədalət həyata keçməmişdir və biz çox çalışmalıyıq. Lakin İslam quruluşu bu məmləkətdə kəndə, kəndliyə, ucqar şəhərlərə və yoxsul təbəqələrə heç bir hüquq tanımayan yanlış ənənəni dəyişdirdi və bu məsələlər üzərində maksimum ciddilik göstərdi.

Bu gün bizim xidmətçi hökumətimiz ən çox məhrum bölgələrə əhəmiyyət göstərir. İnqilabdan sonra hökumətlər həmişə belə olmuşlar. Ən çox məhrum insanlara və bölgələrə diqqət ayırmış, çoxlu işlər görmüş və böyük xidmətlər göstərmişlər. Bunlar imamın xəttində olan ictimai ədalət amilinə görədir.

Başqa bir məsələ düşməni tanımaq və ona aldanmamaqdır. Düşmənin təbliğ etdiyi birinci fikir budur ki, heç bir düşmən yoxdur. İslam quruluşunun düşməni olmaya bilərmi?! Bəllidir ki, uzun illər taladıqları bu süfrədən məhrum olan soyğunçular düşməndirlər. Onların düşmənlik etdiklərini görürük də; əks-təbliğat aparır, iqtisadi

blokadaya salır, quruluşun əleyhinə bacardıqları hər bir işi görür və bunu açıq şəkildə deyirlər.

Bu məmləkətdə Amerika, hegemonluq və qlobal istismarçılar üçün qəbuledilməsi olmayan məsələ ölkənin və xalqın müstəqilliyi, oyanışı, xalqın bu ölkənin düşmənlərinin və istismarçıların sinəsindən vurmasıdır. Bunu istəmirlər. Bu oyanışı xalqa verdiyinə görə İslamla da düşməndirlər. İmam düşməni tanıyırdı, onların siyasi və təbliğat üsullarını bilir və onların qarşısında möhkəm dayanırdı.

Başqa bir məsələ dünya müsəlmanlarının taleyinə həssas yanaşmaqdır. Dünya müsəlmanları İslam quruluşu üçün strateji məsələ sayılırlar. İndi Asiyada, Afrikada və bizim öz regionumuzda xalqlar İslam quruluşunu müdafiə edirlər. İmama və inqilaba qarşı ifadə etdikləri bu hörmət əvvəllər olmayıb; bu gün də dünyada heç bir ölkəyə qarşı yoxdur, keçmişdə də olmamışdır. Bu, İslama görədir. İmam müsəlman qardaşların taleyinə həssas idi.

Və nəhayət elmi inkişaf və ölkənin quruculuğu gəlir.

Bunlar imamın xəttinin əsas başlıqlarıdır. Onda İslam, xalq, ölkənin inkişafı, düşmənlərə qarşı düşmənlik və İslam ümmətinə həssas yanaşma var. Bunlar imamın xəttidir. Biz bunlara sadiq olmuşuq, sadiqik və Allahın yardımı ilə sadiq qalacağıq.[1]

**Sual:** Siz İslam Respublikası quruluşunu dini demokratiyalı bir quruluş adlandırmısınız. Lütfən deyin ki, dini demokratiya Qərbdə demokratiya adlanan faktordurmu? Əgər belə deyilsə, onların əsas fərqləri nədən ibarətdir və dini demokratiyanı Qərb demokratiyasından ayıran cəhətlər hansılardır?

**Cavab:** Burada diqqətli olmaq lazımdır. Bu demokratiyanın Qərb demokratiyasının kökləri ilə heç bir əlaqəsi yoxdur. Bu başqa bir şeydir. Əvvəla dini demokratiya iki şey deyil ki, biz demokratiyanı Qərbdən alıb dinə bağlayaq. Xeyr! Bu demokratiyanın özü də dinə məxsusdur.

---

[1] Cümə namazı xütbələrindən: 1999.

Demokratiyanın iki tərəfi var. Mən başqa bir məclisdə bəzi məmur dostlara bunu dedim. Demokratiyanın bir tərəfi quruluşun xalqın iradəsi ilə yaranmasından ibarətdir. Yəni xalq quruluşu, hökuməti, deputatları, bilavasitə, yaxud dolayısı ilə əsas məmurları seçir. Qərb bunu iddia edir, amma onda belə bir şey yoxdur. Biz dəfələrlə demişik ki, Qərbin demokratiya iddiası doğru deyil. Bəzi adamlar inadkarlıq edir və bu sözün təəssübkeşlik üzündən deyildiyini düşünürlər. Halbuki bu bizim sözümüz deyil, təəssübkeşilkdən və məlumatsızlıqdan da irəli gəlmir, Qərb ədəbiyyatının korifeylərinin fikirlərinə, sözlərinə və misallarına əsaslanır. Onlar özləri bunu deyirlər. Bəli, ümumi təbliğatda və ictimai rəylə bağlı yerlərdə etiraf etmirlər. Belə yerlərdə deyirlər ki, nə varsa, xalqın iradə və istəyinə əsaslanır. Reallıq isə belə deyil. Özləri də bəzi səviyyələrdə bunu etiraf edirlər, yazılarında da var və biz də bunlardan çox görmüşük. Siz bu gün Amerika Birləşmiş Ştatlarında bunun nümunəsini görməkdəsiniz. Bu demokratiyadır?! Biz bunu demirik. Xalqın seçim haqqı dini demokratiyanın iki tərəfindən biridir və təbii ki, var; xalq seçməli, istəməli, tanımalı və qərar verməlidir ki, üzərinə şəriət vəzifəsi də düşsün. Tanımadan, bilmədən və istəmədən vəzifə də yoxdur.

Demokratiyanın o biri tərəfi budur ki, bizi seçdikdən sonra onların qarşısında üzərimizə ciddi və həqiqi vəzifələr düşür. Bəzi dostlar bu haqda Nəhcül-bəlağədən və digər kitablardan hədislər toplamışlar. İndi onların hamısını oxumağa vaxt yoxdur, mən iki-üçünü oxuyacağam. Buyurur ki, nə xalqa minnət qoyun ki, biz sizin üçün bu işləri görmüşük, yaxud görmək istəyirik, nə də xalqdan ötrü gördüyünüz işləri şişirdin, kiçik iş görüb böyük göstərin. Söz verəndə də əməl edin. Sonra buyurur ki, minnət qoysanız, yaxşılığınız batil olar. Şişirtmə həqiqət işığını söndürər; yəni həqiqətin mövcud miqdarını da xalqın gözündən salar. Əgər vədinizə əməl etməsəniz, xalqın və Allahın qarşısında günah etmiş olarsınız. Çünki Allah-Taala buyurur: "Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar". Bunlar Əmirəlmömininin (ə) Malik Əjdərə dediyi sözlər olsa da, bizim hamımıza aiddir.

Bu vəzifələrdən ikincisi dini demokratiyaya aiddir. Buyurur ki, özün, dostların, qohumların və yoldaşların məsələsində xalq və Allah qarşısında insafa riayət et - yəni onlara xüsusi imtiyaz vermə. Bir şirkətdən və bir maliyyə mərkəzindən istifadə imkanlarını dost, qohum, yaxud yoldaşlarımızdan ibarət xüsusi bir qrupun ixtiyarına buraxmaq antidemokratik işlərdəndir. Bu iş indi cənab prezidentin işarə vurduğu fəsaddır. Bu fəsadlara qarşı mübarizə aparmaq lazımdır. Əziz qardaş və bacılar! Ölkə məmurlarında bu fəsadlar olduqca iş bacarığı və inkişaf olmayacaq; nə etsəniz, mümkün olmayacaq. Bunlar elə uçurumlardır ki, yarandıqda nə etsəniz, düzəldə bilməyəcəksiniz və olanlar da əlinizdən çıxacaq. Odur ki, birinci bunlara çarə qılmaq lazımdır. Əmirəlmöminin (ə) buyurur ki, dostlarına, yaxınlarına və sevdiyin adamlara xüsusi imtiyaz verməməlisən. Hamı bərabər olmalıdır. Mövcud imkanlar hamının ixtiyarına buraxılmalıdır. Əgər püşk atılmalıdırsa, limit qoyulmalıdırsa, hamı eyni olmalıdır.

Üçüncüsü də demokratiyaya dair başqa bir əlamətdir. Buyurur ki, ifrat və təfritdən uzaq olan və geniş miqyasda ədaləti bərqərar edən işlərlə məşğul olun. Yəni işlər xalqla və xalqın maraqları ilə daha çox bağlı olsun və xalqın razılığını daha çox qazansın. Buyurur ki, xüsusi qrupların – sərvət və güc sahiblərinin razılığını qazanmağı çalışma. Bu söz mənə və sizə də aiddir. İndi siz nazirsinizsə, deputatsınızsa, silahlı qüvvələrdə çalışan məmursunuzsa, fəqih rəhbərin yanında çalışırsınızsa, məhkəmə orqanlarında çalışırsınızsa, harada olsanız, gördüyünüz iş sərvət və güc sahiblərinin istəyi istiqamətində olmamalıdır. Sonra buyurur ki, sərvət və güc sahiblərinin könlünü alıb xalqı narazı salsanız, onun narazılığı bu razı qrupları sel kimi silib-süpürəcək. Lakin sərvət və güc sahiblərinin istəyinə əməl etməsəniz, onlar sizdən narazı qalsalar da, qoyun qalsınlar. Xalq sizdən razı olsa və xalq üçün işləsəniz, qoyun onlar narazı qalsınlar. Bu narazılıq bağışlanmışdır.

Demokratiya yanlız bu deyil ki, insan təbliğat aparıb səs-küy salsın, bir dəstəni seçki məntəqələrinə gətirsin, xalqdan səs alsın, sonra

da vidalaşsın və xalqla heç bir işi olmasın. Birinci hissə, yəni işin yarısı həyata keçəndən sonra növbə ikinci hissəyə - cavabdehliyə çatır. Əmirəlmöminin (ə) burada da həmin xüsusi qruplar haqqında danışır. Bu cümlə də Malik Əjdərə məktubdandır. Buyurur ki, demə mənə vəzifə verilib, filan vəzifədə çalışıram, əmr edirəm və gərək itaət edəsiniz - belə danışma. Bu sənin qəlbini məhv edər. Həqiqətən də belədir. Sonra başqa bir neçə xüsusiyyəti sadalayır. Əgər belə danışsan, xalq sənin eqoistliyindən, mənəm-mənəmliyindən, özünü üstün saymandan və özünə vəzifə tanımandan həmişəlik narazı olar.[1]

**Sual:** Siz bu ili "Əmirəlmöminin Əli (ə)" ili adlandırdınız və məqsəd kimi o həzrətin tanınmasını, məmurların və xalqın bu kamil örnəyə yaxınlaşmasını göstərdiniz. İmam Əliyə (ə) görə, İslam quruluşunda vəzifə sahibləri necə olmalıdır? Həzrət Əli (ə) hökumət məmurlarına necə baxırdı?

**Cavab:** Əmirəlmömininə (ə) görə hökumət vəzifəsi rahatlıq, eşy-işrət və qazanc üçün vasitə olmamalıdır. Bu bir ticarət deyil, məsuliyyət qəbul etməkdir. Bu vəzifə ilə məşğul olmaq insanın bir şey qazanmasından, sərvət toplamasından, özünün və övladlarının gələcəyini təmin etməsindən, yaxud dünyada kef çəkməsindən ötrü ola bilməz. Bəs İslam Respublikası quruluşunda dövlət vəzifələrini qəbul etməkdə məqsəd nə olmalıdır? Məqsəd ədalətin icrası, xalqın rifahı, istedadların çiçəklənməsi, insanların tərəqqisi, hidayəti və xeyri üçün cəmiyyətdə münasib şəraitin yaranması olmalıdır. Əmirəlmömininə (ə) görə məqsəd bu olanda o həzrətdən eşitdiyimiz sözlərin hamısının mənası bəlli olar.

Əmirəlmöminin (ə) buyurur ki, mən ən çətin şəraitdə yaşamağa hazıram, amma Allaha, bir bəndəsinə zülm etdiyim halda qovuşmaq istəmirəm. Əgər məni çılpaq halda tikanlar üzərinə atsalar, yaxud ağır zəncirlərlə əl-qolumu bağlayıb yerdə sürüsələr, bu fiziki işgəncə mənim

---

[1] Quruluşun məsul işçiləri ilə görüşdəki çıxışdan: 2000.

üçün Allahla bir nəfərə zülm etdiyim, yaxud özüm üçün dünya malı topladığım halda görüşməkdən daha məqbul və gözəldir.

O həzrət Nəhcül-bəlağənin başqa bir yerində buyurur ki, haqq quruluşunda vəzifə sahibləri özlərini əyan-əşrafla müqayisə edib deyə bilməzlər ki, əyan-əşrafın filan cür yaşadığına və ömür sürdüyünə görə İslam Respublikasında, İslam quruluşunda və İslam hakimiyyətində vəzifə tutan bizlər də elə yaşamalıyıq. Yaxud digər ölkələrin qeyri-ilahi və qeyri-haqq quruluşlarında prezidentlər, məmurlar və nazirlər filan cür yaşayır, kef çəkir və filan maddi imkanlardan istifadə edirlərsə, biz də onlar kimi yaşamalıyıq. Xeyr! Onların məişət vəziyyətlərini əyan-əşrafla, varlı və ya sapqın adamlarla müqayisə etməyə haqları yoxdur. Bəs özlərini kimlərlə müqayisə etsinlər? Adi camaatla - özü də zəif və aşağı təbəqələrlə. Burada deyilmir ki, onlar kimi yaşa; ola bilsin hamı elə yaşaya bilməz. Deyilir ki, özünü onlarla müqayisə et, əyan-əşrafla, pullu və sərvətli adamlarla yox. İslam və haqq quruluşunda bir vəzifə sahibi, bir məmur zadəganlara, sərvətlilərə, yaxud qeyri-müsəlman ölkələrin məmurlarına xas tərzdə yaşaya bilməz. Bu yanlış ənənədir ki, kim dövlət vəzifəsi tutsa, filan cür evi, filan nəqliyyat vasitəsi və filan məişət imkanları olmalıdır. Xeyr! Əmirəlmömininin (ə) göstərişi belə deyil. Həm də bu yanlız o dövrə yox, bütün dövlərə məxsusdur. O zaman da hamı yoxsul deyildi, İslam fəthləri baş vermişdi, İslam ölkəsində sərvət vardı, varlılar və taciclər var idi. Haram, yaxud halal olması ilə işimiz yoxdur, amma imkanlılar var idi. Əmirəlmöminin (ə) o dövrdə buyurur ki, sizin məişət vəziyyətiniz belə olmamalıdır. Bu, İslam quruluşunun məmurlarına və vəzifə sahiblərinə aiddir; gərək özlərini yoxsul adamlarla ölçsünlər, varlılarla yox.

O həzrət başqa bir məktubda Əşəs ibn Qeysə buyurur ki, İslam quruluşunda təyin olunduğun bu vəzifə yem, sərvət və ticarət obyekti deyil. İslam quruluşunda vəzifə və kürsü insanın çiyninə düşən bir yükdür; məqsəddən ötrü ona dözməlidir. İslam dövlətinə və İslam vəzifəsinə düzgün baxış budur.

İslam məmurları öz əməllərində israfçılığa yol verməməli, dəbdəbəli yaşamamalı, həm də israfçılığı və zadəganlığı ənənəyə çevirəcək hərəkətlərdən çəkinməlidirlər. Bu da növbəti məsələdir. Bunun əhəmiyyəti birincisindən çoxdur, yaxud ən azı az deyil. Məsələn, yaşayış və iş yerlərinin forması, ailədaxili həyat tərzi, övladların toyu, mehrlər, cehizlər və bu tip məsələlər İslam hökumətində yüksək vəzifə tutan bir şəxs tərəfindən qeyri-dini və israfçı formada baş versə, ənənəyə çevrilər, başqaları da baxıb öyrənərlər, nəticədə mehrlər yüksələr, izdivaclar çətinləşər, həyat ağırlaşar və həmin rəftarın təsirləri qısa, yaxud uzun müddət ərzində tədricən cəmiyyətdə görünər. Buna əsasən, Əmirəlmömininin (ə) hökumət haqda əsas və ən mühüm sözü budur: Hakim hökuməti özünə məişət, qazanc və varlanmaq vasitəsi bilməməli, bir vəzifə və üzərində yük hesab etməli, bütün səyini bu yükü mənzil başına çatdırmağa yönəltməlidir.

Bu vəzifənin əsas funksiyası xalqın hüququnu bərpa etmək, cəmiyyətdə ədalət yaratmaq, müxtəlif məsələlərdə insafa riayət etmək və xalqın ehtiyaclarını aradan qaldırmağa çalışmaqdır. İslam hakimi üçün xalqın ehtiyacları prioritet təşkil edir. Bir neçə gün öncə ölkə məmurları ilə söhbət zamanı bunu dedim: Demokratiyanın bir tərəfi budur ki, xalq məmurları seçsin; başqa bir tərəfi isə budur ki, məmurlar iş başına gələndə bütün səylərini xalqın ehtiyaclarını aradan qaldırmağa və onlar üçün çalışmağa yönəltsinlər. Bu, Əmirəlmömininin (ə) sözlərində çox vurğulanmışdır. O həzrət Malik Əjdərə yazdığı məktubunda deyir ki, xalqa zülm edən qarşısında Allahı görəcək. Allah məzlum bəndələrin vəkilidir və o bu zaman Allahla müharibəyə qalxmış sayılır. Əmirəlmöminin (ə) bu məktubları valilərinə - Malik Əjdərə, Əşəs ibn Qeysə, Osman ibn Hüneyfə və digərlərinə yazsa da, hər hansı səviyyədə olan bütün məmurlara aiddir.

İslam hakimlərinin və məmurlarının bu vəzifələri yerinə yetirmək üçün başqa bir şeyə ehtiyacları var və o, ixlas, Allah üçün çalışmaq və Allahla əlaqəni qorumaqdır. İslam quruluşunda məmur və vəzifə sahibi yalnız xalqla əlaqədə olmur. Əgər Allahla rabitə olmasa, əsas vəzifə olan

xalqa xidmət işi də axsayacaq. Bu vəzifə və məsuliyyətin dayağı Allahla əlaqədir. Məhz buna görə Əmirəlmöminin (ə) Nəhcül-bəlağədə Malik Əjdərə məktubunda buyurur ki, müxtəlif işlərə sərf etdiyin vaxtının ən yaxşı və ən həvəsli hissəsini özünlə Allah arasında söhbət üçün saxla; yəni Allahla əlaqəni, ibadət və münacatı yorğun zamana saxlama. Sonra buyurur ki, İslam hökumətində vəzifə tutanın niyyətinin xalis olduğu və xalqı incidən bir iş görmədiyi təqdirdə bütün işləri Allaha ibadət sayılsa da, bu işlər arasında Allahla yalqız qalmaq üçün də zaman ayırmaq lazımdır. İslam quruluşunda və Əmirəlmömininin (ə) sözlərində vəzifə sahibləri belə təqdim olunur.[1]

**Sual:** İmam Əliyə (ə) görə cəmiyyətlə və ictimai təqva ilə bağlı xalqın ən mühüm vəzifəsi nədən ibarətdir?

**Cavab:** O həzrətdən bizə çatan sözlərin əksəri onun hakimiyyət dövrünə aiddir, Peyğəmbərin (s) vəfatından onun xəlifəliyinə qədər sürən 25 illik dövrdən nəql olunanlar çox azdır. Peyğəmbərin (s) dövründən nəql olunanlar da əksərən cihada aiddir və əziz Peyğəmbərin (s) əzəmətinin kölgəsində qalır. Buna görə Əmirəlmöminindən (ə) nəql olunan sözlər onun təxminən beşillik hakimiyyəti dövrünə aiddir. O bir hakim kimi hökumət başçısının rəftarını təsvir edir. Bu sözlərin birinci hissəsi məmurların vəzifələrinə dairdir və xülasəsi budur: İslam quruluşunun məmuru öz şəxsi maraqları üçün deyil, xalq üçün və Allah yolunda çalışan məmurdur.

Onların başqa bir hissəsi isə ümumi xalqa aiddir, onu da qısa şəkildə deyəcəyəm. Bunlar birinci növbədə ictimai məsələlərdə yaxşı işlərə dəvət etməkdən və pis işlərdən çəkindirməkdən ibarətdir. Əlbəttə, fərdi məsələlərdə Əmirəlmöminin (ə) təqvaya dair olduqca çoxlu tövsiyələr etmişdir. İctimai məsələlərdə bəlkə də xalqa heç bir söz yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirməkdən sərt, canlı və həyəcanlı deyil. Yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək

---

[1] Tehranın cümə namazı xütbələrindən: 2000.

ümumi vəzifədir. Biz bunun mənasının düzgün izah olunmadığına görə təəssüflənməliyik. Yaxşı işlərə dəvət etmək digərlərini yaxşı əməllərə çağırmaqdır. Bu dəvət və çəkindirmək yalnız sözlə həyata keçir. Düzdür, dildən qabaqkı bir mərhələ də var və o, qəlb mərhələsidir. Əgər o mərhələ olmasa, dillə yaxşı işlərə dəvət etmək tamamlanmaz. Siz İslam quruluşuna kömək etmək üçün xalqı yaxşı bir işə - yoxsullara yardım etməyə, sədəqə verməyə, sirr saxlamağa, sevgiyə, əməkdaşlığa, yaxşı işlərə, təvazökarlığa, səbirli və dözümlü olmağa çağırdıqda və bu işləri görməsini söylədikdə qəlbiniz bu işləri sevsə, dəvətiniz doğruçu olar. Bir nəfəri pis işlərdən - zülmdən, təcavüzdən, ümumi sərvəti tələf etməkdən, xalqın namusuna əl uzatmaqdan, qeybətdən, yalandan, söz gəzdirməkdən, hiylədən, İslam quruluşu əleyhinə çalışmaqdan, İslamın düşmənləri ilə əməkdaşlıq etməkdən çəkindirib "bu işləri görmə!" dediyinizdə qəlbinizdə bu işlərə qarşı nifrət olsa, bu çəkindirmə doğruçu olar və sizin özünüz də həmin dəvət və çəkindirmənizə uyğun əməl edərsiniz. Əgər Allah eləməmiş, ürək dillə həmfikir olmasa, bu cümlə insana şamil olar: "Özləri tərk etdikləri halda digərlərini yaxşı işlərə dəvət edənlərə Allah lənət eləsin!" İnsanları pis işlərdən çəkindirir, özü isə həmin işi görür. Belə bir şəxsə Allahın lənəti gələr və bu çox təhlükəli bir şey olar.[1]

**Sual:** Yaxşı işlərə dəvət etməyin və pis işlərdən çəkindirməyin mənası, əhatə dairəsi və indiki şəraitdə bəzi nümunələri haqda danışmağınızı xahiş edirik.

**Cavab:** Yaxşı işlərə dəvət etməyin və pis işlərdən çəkindirməyin mənası və əhatə dairəsi aydın olsa, onun ictimai münasibətlərin ən yeni, ürəkaçan, təsirli və işlək tərzlərindən biri olduğu bəlli olar və kimsə onu başqalarının işinə qarışmaq adlandırmaz. Bu əslində əməkdaşlıqdır, ümumi nəzarətdir, xeyir işlərin yayılmasına, pis və şər işlərin azalmasına, İslam cəmiyyətində günahın günah kimi qalmasına

---

[1] Yenə orada.

yardımdır. Ən təhlükəli məsələ budur ki, bir gün cəmiyyətdə günah düzgün iş kimi təqdim olunsun, yaxşı iş pis iş kimi tanıtdırılsın və dəyərlərin yeri dəyişilsin. Yaxşı işlərə dəvət etməyin və pis işlərdən çəkindirməyin geniş yayılması xalqın baxışında günahın həmişə günah qalmasına, düzgün və yaxşı işə çevrilməməsinə səbəb olar. Xalqa qarşı ən pis təxribat dinin əmr etdiyi, ölkənin inkişafının və xeyrinin olduğu yaxşı işləri xalqın baxışında pis işlərə və pis işləri yaxşı işlərə çevirməkdir. Bu çox təhlükəli məsələdir.

Deməli, yaxşı işlərə dəvət etməyin və pis işlərdən çəkindirməyin birinci faydası yaxşı və pis əməllərin olduğu kimi qalmasıdır. Başqa bir faydası budur ki, cəmiyyətdə günah yayıldıqda və insanlar günaha alışdıqda cəmiyyətin başında duranlar xalqı xeyirli, düzgün və yaxşı əməllərə sövq etmək istəyəndə problemlə üzləşəcəklər; bacarmayacaq, yaxud asanlıqla bacarmayacaq və bunun üçün çoxlu imkanlar xərcləməli olacaqlar. Qüdrətinə və əzəmətinə baxmayaraq, möminlər əmirinin bu yolda nəhayət şəhadəti ilə nəticələnən uğursuzluğunun səbəblərindən biri bu idi. Bu çox güclü və təsirli hədisdir: Buyurur ki, yaxşı işlərə dəvət etməli, pis işlərdən çəkindirməli və buna sadiq qalmalısınız; əks təqdirdə, Allah şər adamları sizə hakim edər - yəni siyasi hakimiyyət get-gedə Həccac ibn Yusif kimilərin əlinə düşər. Əmirəlmömininin (ə) başçılıq etdiyi, yaxşı işlərə çağırdığı, pis işlərdən çəkindirdiyi, məscidində xütbə oxuduğu Kufə şəhəri yaxşı işlərə dəvətin və pis işlərdən çəkindirmənin tərk olunduğuna görə getdikcə elə bir vəziyyətə düşdü ki, Həccac ibn Yusif Səqəfi həmin məsciddə xütbə oxudu və xalqa moizə etdi. Həccac kim idi? Həccac insan qanı ilə sərçə qanı arasında heç bir fərq görməyən bir şəxs idi. O, bir heyvan və bir həşərat öldürdüyü kimi insan öldürürdü. Həccac bir dəfə əmr etdi ki, bütün Kufə əhalisi gəlib kafir olduğunu söyləsin, buna görə tövbə etsin və kim imtina etsə, boynu vurulsun. Yaxşı işlərə dəvətin və pis işlərdən çəkindirmənin tərk olunması nəticəsində xalq elə qəribə, müstəsna və vəsfəgəlməz zülmlərə düçar oldu. Yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə tərk olunduqda, cəmiyyətdə oğurluq, əyrilik, saxtakarlıq,

xəyanət yayıldıqda və tədricən cəmiyyətin mədəniyyətinə çevrildikdə ləyaqətsiz adamların iş başına gəlməsinə şərait yaranır.

Yaxşı işlərə dəvətin və pis işlərdən çəkindirmənin müxtəlif sahələri var. Ən mühüm sahə məmurlardır. Siz bizi yaxşı işlərə dəvət etməli, pis işlərdən çəkindirməlisiniz. Xalq məmurlardan yaxşı işi istəsinlər; özü də xahiş formasında yox, tələb formasında. Ən mühüm sahə budur. Təbii ki, yalnız bu deyil, çoxlu sahələr vardır.

Yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək qaydası yalnız pis işlərdən çəkindirməyə şamil olmur, bunda yaxşı işlərə dəvət də var. Bir gənc üçün dərs oxumaq, ibadət etmək, gözəl əxlaqa yiyələnmək, ictimai fəallıq, düzgün və normal idman və həyatda xoşagələn ənənələri saxlamaq yaxşı əməllərdəndir. Bir kişi, bir qadın və bir ailə üçün yaxşı vəzifələr və böyük işlər vardır. Siz hər hansı bir şəxsi bu yaxşı işlərdən birinə çağırsanız, bu, yaxşı işlərə dəvət emtəkdir. Pis işlərdən çəkindirmək də yalnız şəxsi günahlardan çəkindirmək deyil. Pis işlərdən çəkindirmək deyən kimi dərhal bu yada düşür ki, küçədə bir nəfərin hərəkəti və ya geyimi yaxşı deyilsə, birisi onu bundan çəkindirməlidir. Yalnız bu deyil. Bu, onuncu məsələdir.

Pis işlərdən çəkindirmək bütün mühüm məsələlərdə var; məsələn imkanlı şəxslərin gördüyü işlərdə, ümumi sərvətlərdən sui-istifadədə, ölkənin ümumi məsələlərində - idxalat sahəsində, şirkətlərdə, istehsal mərkəzlərindən istifadədə və sair işlərdə edilən dostbazlıqda, məmurların dostbazlığında və s. Biri var ki, iki tacir bir yerdə işləyir və dostluq edir - bu bir məsələdir. Biri də var ki, əlində imkanı, icazəsi və imzası olan bir dövlət məmuru bir nəfərlə xüsusi rabitə qurur. Bu, yasaqlanmış, günah və haram işdir. Belə bir işlə məşğul olan məmuru bundan çəkindirmək o idarənin özündə, ondan yuxarıda, yaxud aşağıda çalışan hər bir kəsə vacibdir. Bunu etmək lazımdır ki, sui-istifadə etməyə çalışanın qarşısı alınsın.

Ailə daxilində də pis işlərdən çəkindirmək olar. Bəzi ailələrdə qadın hüquqlarına riayət olunmur; bəzi ailələrdə gənclərin hüququna riayət olunmur; bəzi ailələrdə xüsusən uşaqların hüququna riayət

olunmur. Bunları onlara xatırlatmaq və onlardan istəmək lazımdır. Uşaqların haqqını tapdamaq yalnız onlara sevgi göstərməmək deyil. Xeyr! Pis tərbiyə vermək, diqqətsizlik etmək, qayğısına qalmamaq, az sevgi bildirmək və bu tip işlər də onlara zülm sayılır.

Cəmiyyətdə mövcud olan pis işlərdən çəkindirmək olar. Aşağıdakı işlər bu qəbildəndir: ümumi sərvətləri, həyati mənbələri tələf etmək, elektrik enerjisində, yanacaqda, qida məhsullarında, su və çörəkdə israfçılıq. Bizdə bu qədər çörək zay olur. Bu ümumiyyətlə pis haldır, dini baxımdan "münkər" - yəni bəyənilməz iş sayılır, iqtisadi və ictimai cəhətdən xoşagəlməz işdir. Bu işdən də çəkindirmək lazımdır. Kim hansı yolla bacarırsa, bunu etməlidir. Bir məmur bir cür bacarır, bir çörək müştərisi bir cür, bir fəhlə də bir cür. Mənə göstərilən bəzi statistik rəqəmlərə görə, bizdə xarab olan çörəklərin miqdarı xaricdən idxal etdiyimiz buğdanın miqdarına bərabərdir. Bu, təəssüf doğurmur?! Bunların hamısı pis işlərdir və onlardan çəkindirmək lazımdır. Nəhcül-bəlağəyə əsasən, Əmirəlmöminin (ə) özünün əsas tövsiyələrində bunlardan çəkindirməyi tapşırmışdır. O həzrət məmurlarla elə rəftar edir, onlara bəlli göstərişləri verir, qayda təyin edir, ümumi xalqı da fəaliyyətə, ictimai məsələlərdə məsuliyyət hiss etməyə, yaxşı işlərə dəvət etməyə və pis işlərdən çəkindirməyə çağırırdı.

Bizim üzərimizə ağır vəzifə düşür. Əmirəlmöminin (ə) öz mübarək canını bu yolda qurban verdi. O, müsəlman olandan, uşaqlıqdan ömrünün sonuna qədər, həm Məkkədə, həm Mədinədə olanda, həm Peyğəmbərdən (s) sonrakı dövrdə, həm də xilafət çağında bütün ömrünü bu yola sərf etdi, Allah yolunda çalışmağı və mübarizəni bir an da tərk etmədi.[1]

**Sual:** Amerika, sionizm və onlara bağlı qüvvələr həmişə İslam Respublikasını terrorçuluqda və terrorizmi dəstəkləməkdə günahlandırırlar. Dünyanın harasında onların maraqları əleyhinə bir iş

---

[1] Yenə orada.

görülürsə, heç bir əsas olmadan İslam Respublikasını günahlandırır, özlərinin media resurslarında "inqilabın ixracı" məsələsi üzərinə barmaq qoyur və ictimai rəydə İslam inqilabı əleyhinə fikir formalaşdırmaq üçün ondan istifadə edirlər. Sizcə inqilabın ixracının mənası nədir?

**Cavab:** İslam inqilabının qələbəsindən sonra beynəlxalq media rəhbərləri İslamın inqilabi mədəniyyətinin təbliği üzərində ajiotaj yaradıb onu inqilabın mənfi mənada ixracı kimi təbliğat hücumuna məruz qoydular. Dünya miqyasında bütün media qurumları İslam Respublikasının inqilabı ixrac etməyə çalışması üzərində manevr edirlər. Onların xəbisliyi budur ki, inqilabın ixracını partlayıcı maddələrin ixracı, dünyanın müxtəlif yerlərində iğtişaş törətmək və bu tip işlər kimi təqdim edirlər. Qərb dünyasının digər təbliğat xəbislikləri kimi bu da əclafcasına bir üsuldur.

İnqilabın ixracı İslamın insan yetişdirən mədəniyyətinin, paklığın, ixlasın və insani dəyərlərin ixracıdır. Biz bu işlə və bu vəzifə ilə fəxr edirik. Bu, peyğəmbərlərin yoludur və biz bu yolu davam etdirməliyik.

Qərb dünyası və Qərbin azğın mədəniyyətinin başçıları dünyaya fəsad, pozğunluq, narkomaniya, müxtəlif fəlakətlər ixrac etmələrindən xəcalət çəkmirlər. Bu gün təəssüf ki, bütün dünyanı və ən çox da üçüncü dünyanın yoxsul ölkələrini bürüyən bu pozğun mədəniyyət haradan gəlmişdir?! Bu, Qərb mədəniyyətinin, müstəmləkə və hegemonluq sivilizasiyasının ixracatındandır. Bu gün bəşəriyyətə əziyyət verən müxtəlif fəsad və pozğunluqlar, bir çox yoxsul və geriqalmış ölkələrdə gənclərin bulaşdığı təhlükəli narkomaniya haradan gəlmişdir?! Üçüncü dünyanın bir çox müsəlman və qeyri-müsəlman ölkələrində məcburən yaradılan yanlış istehlakçılıq ənənəsi haradan gəlmişdir?!

Siz bizim bölgəmizin yoxsul olan neft və qeyri-neft ölkələrinin bazarlarına girsəniz, Qərbin artıq və lazımsız məhsullarının reklamları ilə bəzəndiyini görərsiniz. Bəşərin bunlara ehtiyacı vardımı?! Neft istehsal edən ölkələr Allahın bəxş etdiyi, bütün xalqa məxsus və ölkənin abadlığına sərf edilməli olan sərvəti verib qarşısında fəsaddan və pozğunluqdan başqa heç bir xeyri olmayan məhsullar alırlar. Bunların

hamısı Qərb, Amerika və Avropa mədəniyyətinin üçüncü dünya ölkələrinə ixracatıdır.

Amerika, Avropa və Qərb ölkələri öz sivilizasiyalarının xüsusi bir qrupa deyil, bütün bəşəriyyətə məxsus olan sənaye, elm və tədqiqat məhsulları arasında üçüncü dünya ölkələrinə müxtəlif fəsad və pozğunluqlar da ixrac etdilər, xalqı, gəncləri, hökumətləri bədbəxt günə qoydular. Onlar öz işlərindən utanıb xəcalət çəkmir, başqa ölkələrə çirkin ixracatları ilə fəxr də edirlər. Bəs biz nə üçün başqa ölkələrə tövhidi, peyğəmbərlər əxlaqını, fədakarlıq və ixlas ruhunu və mənəvi saflığı ixrac etməyə utanmalıyıq?! Nə üçün digər xalqlara qeyrət, düzgün təəssübkeşlik, batil güclər qarşısında müqavimət hisslərini əməli dərs kimi təqdim etməkdən və öyrətməkdən utanmalıyıq?!

Xalqlar hegemon güclərin muzdurları ilə vuruşmağın mümkünlüyünə inanmırlar. Biz vuruşduq və qalib gəldik. Bu əməl və təcrübəmizi nə üçün xalqların ictimai rəyinə təqdim etməyək?! Biz bu inqilabı ixrac edirik. Biz tövhidi, peyğəmbərlər məktəbini, pak, gözəl və təmiz insani üsulları, dözümü, müqaviməti və fədakarlığı digər ölkələrə ixrac etməkdən əsla çəkinmirik. Sionistlərin pulu, xəbis, zalım və azğın siyasətçilərin rəhbərliyi ilə idarə olunan Qərb mediası ajiotaj yaradır, bizi inqilabın mədəniyyət və məfhumlarını ixrac etməyin lazımlığına dair söz və əmələ peşman etmək istəyirlər.

Əgər məqsəd bizim partlayıcı maddələr ixrac etməyimizdirsə, bu iddia yalandır. Bunu xəbis və çirkin hegemon mərkəzlərin özləri edirlər. Amerikanın casus təşkilatı hökumətləri devirmək üçün işləyir, silah, partlayıcı maddələr və canlı qüvvə aparır, inqilabçı ölkələrdə əks-inqilaba kömək edir. Biz heç bir ölkəyə partlayıcı maddə aparmırıq, pozuculuq işləri bizə yaraşmaz və kim desə, yalan demişdir. Bu yaramaz böhtanlar onları İslama və İslam Respublikasına aid edənlərin özlərinə yaraşır.

Müsəlmanları vurmaq üçün Beyrutun şərqində yerləşən, İsrail və Amerika ilə müttəfiq olan qanunsuz hökumətə silah-sursat və raket verən kimdir?! Terrorçuluq Amerikanın işidir. Yüzlərlə sərnişini daşıyan

bir təyyarəni vuran Amerika dövləti terrorçudur. Allahın təhlükəsiz evində yüzlərlə qadını, əlili və xəstəni acınacaqlı şəkildə şəhadətə yetirən Səudiyyə hökuməti terrorçudur. Terrorçuluq işləri İslam Respublikasının, İslamın və İran xalqının inqilabi mövqeyindən uzaqdır. Terrorçu kimi adlar özləri dünyanın ən böyük terrorçuları olan bu alçaq insanlara yaraşır.

İnqilabi dəyərlərin ixracı, dünyanın zalım və diktatorlarını ifşa etmək anlamında olan inqilab ixracı bizim ilahi vəzifəmizdir. Bu işi görməsək, vəzifəmizi yerinə yetirməmiş olarıq. İslam Respublikası, İran xalqı və dünyanı öz əzəməti qarşısında kiçildən böyük şəxsiyyət göstərdi ki, dünyanın bütün gücləri İslamdan irəli gələn və bütün xalqa məxsus olan belə möhkəm və polad iradə qarşısında acizdirlər.[1]

**Sual:** Bu gün İslamın erkən çağının hökumətini dirçəldən İran İslam İnqilabı hansı təhdid qarşısındadır? Başqa sözlə desək, bu inqilabın çətin dövrü hansı dövrdür?

**Cavab:** Hər bir inqilabın çətin dövrü haqq və batilin qarışdığı dövrdür. Baxın, Əmirəlmöminin (ə) bundan fəryad çəkir. Peyğəmbər (s) zamanı belə deyildi. Peyğəmbər (s) zamanı sıralar aydın idi. Qarşı tərəf kafirlər, müşriklər və Məkkə əhalisi idi, mühacirlərin hər birinin bunlara dair xatirəsi vardı: "O məni vurdu"; "O məni zindana saldı"; "O mənim sərvətimi taladı" və sair. Odur ki, şübhə yox idi. Yəhudilər vardı, bütün Mədinə əhalisinin, mühacir və ənsarın tanış olduğu təxribatçılar vardı. Bəni-Qüreyzə döyüşündə Peyğəmbər (s) çoxlarının boynunun vurulmasını əmr edəndə heç kəs qaşını çatıb demədi ki, nə üçün. Çünki məsələ aydın idi, şübhə və qaranlıq məqam yox idi. Belə yerdə döyüşmək də, imanı qorumaq da asandır. Bəs Əmirəlmömininin (ə) qarşısında dayananlar kimlər idilər? Elə bilirsiniz zarafatdır?! Elə bilirsiniz Abdullah ibn Məsud kimi böyük bir səhabənin, nəql olunanlara əsasən, Əmirəlmömininin (ə) vilayətinə sadiq qalmaması

---

[1] Vilayət hədisi, c. 1, səh: 244-247.

kiçik məsələdir?! Siffeyn döyüşündə Rəbi ibn Xuseym və digərləri Əmirəlmömininin (ə) yanına gəlib dedilər ki, biz bu döyüşdən narazıyıq, icazə ver sərhədlərə gedək və döyüşə qatılmayaq. Rəvayətdə deyilir ki, onlar Abdullah ibn Məsudun səhabələri idilər.[1] Belə yerdə məsələ çətinləşir.

Şübhə daha güclü olanda İmam Həsənin (ə) dövrü kimi olur. Siz nə baş verdiyini bilirsiniz. Əmirəlmömininin (ə) dövründə şübhə bir qədər zəif idi, böyük ifşaçı olan Əmmar Yasir kimilər var idi. Harada bir hadisə baş verirdisə, Əmmar Yasir və Peyğəmbərin (s) bəzi böyük səhabələri gedib danışır, izah edir və ən azı bəzi adamlar üçün şübhələri aradan qaldırırdılar. İmam Həsənin (ə) dövründə isə bu amil də yox idi. Şübhə dövründə və aydın bilinməyən kafirlə döyüşmək, şüarları öz məqsədlərinə uyğunlaşdıran adamlarla vuruşmaq olduqca çətindir. Çox sayıq olmaq lazımdır.

Allaha şükür olsun ki, biz hələ belə bir dövrdə deyilik. Hələ sıralar, çoxlu prinsip və həqiqətlər aydın və aşkardır. Amma əmin olun ki, həmişə belə olmayacaq. Siz ayıq olmalısınız. Gərək bəsirət gözünüz olsun, qollarınızın Allahın ixtiyarında olub-olmadığını biləsiniz. Bunun üçün ayıqlıq lazımdır. Buna əhəmiyyətsiz yanaşmayın.[2]

**Sual:** Bu baxımdan həzrət Əlinin (ə) beşillik hakimiyyətinin ən böyük problemini nədə görürsünüz?

**Cavab:** Mən bir dəfə Əmirəlmömininin (ə) təxminən beşillik hakimiyyəti dövründəki həyatına dair araşdırma aparmışdım. Gəldiyim qənaət budur ki, o zaman siyasi təhlil zəif idi. Düzdür, sonrakı növbədə başqa amillər də vardı, amma ən mühüm məsələ bu idi. Çünki xalqın çoxu hələ mömin idi, amma eyni zamanda möminlər anasının yanında Əliyə (ə) qarşı vuruşub öldürüldülər. Buna əsasən, təhlil səhv idi.

Öz mövqeyini tanımaq, təbii ki, siyasi cinahlara qoşulmadan siyasi sayıqlığa və siyasi təhlil qabiliyyətinə malik olmaq həmin zərif xətlərdən

---

[1] "Bihar əl-ənvar", c. 32, səh: 406.
[2] Vilayət hədisi, c. 8, səh: 49-50.

biridir. Mən müraciətdə də bunu dedim. İmam da dəfələrlə buyurmuşdur.[1]

**Sual:** İslamın beynəlxalq düşmənləri İslam inqilabını iflasa uğratmağa çalışırlar. Sizcə onlar bu sahədə nəyə ümid bəsləyirlər?

**Cavab:** İslamın beynəlxalq düşmənləri yalnız iki məsələyə göz dikmişlər və ümid bəsləyirlər. İran xalqı bu iki məsələyə qarşı diqqətli olmalıdır:

Biri vəhdət və birlik məsələsidir. Hələ də inqilaba və İslam Respublikası quruluşuna qarşı çirkin niyyətlərini icra etmək istəyən düşmənlər ixtilaflara göz dikmişlər. Onlar xalqın birliyindən qorxurlar. Bunu bilin. İran xalqı nəyin bahasına olursa-olsun öz birliyini əldən verməməlidir. Məmurlar bu möhtəşəm birliklə necə rəftar etməli olduqlarını bilməlidirlər.

Yazıçılar, natiqlər, tribuna sahibləri – istər İslam Şurası Məclisi, radio və televiziya kimi kütləvi, istərsə də məscid və hüseyniyyə kimi məhdud tribunalara sahib olanlar harada xalqla rastlaşırlarsa, söz və əməlləri birliyin xidmətində olmalıdır. Heç bir kəs heç zaman xalqı qarşı-qarşıya qoyan hərəkət etməməli və bu məsələdə heç bir bəhanə qəbul olunmamalıdır. Üslub və xətt fərqləri xalq arasında parçalanmaya və ixtilafa səbəb olmamalıdır. Siz xalqın müharibədə, inqilabın əvvəlində, imamın həyatı və vəfatı zamanı onu dəstəkləməkdə və bu 11 ilin bütün hadisələrində göstərdiyiniz birlik sizin ən güclü silahınız və düşmənlərinizi məyus edən ən mühüm amildir.

Düşmənin göz dikdiyi ikinci məsələ budur ki, müsəlman İran ölkə quruculuğunu layiqli şəkildə yerinə yetirə bilməsin. Bu da düşmənlərin ümid bəslədiyi məsələdir. Onlar istəyirlər ki, İslam Respublikası ölkə daxilində quruculuq işlərini görə bilməsin, xalqın vəziyyətini nizama salmasın, ümumi daxili məhsulu artırmasın, xaricdən asılılığı azalda, aztəminatlı, yoxsul və məhrum kütlələri İslamın istədiyi səviyyəyə

[1] Yenə orada.

çatdıra bilməsin. Onlar istəyirlər ki, İslam hökuməti bu böyük vəzifələri uğurla yerinə yetirməsin, bu işləri görə bilməsin. Buna göz dikmişlər. Əgər İslam ölkəsi siz xalqın səyi, Allahın lütfü ilə və sizinlə hökumət arasında olan möhkəm rabitə səbəbindən parlaq nailiyyətlər əldə etsə, müstəmləkə, Amerika, onların ağzına baxan sadəlövh düşmənlər, bəzi daxili qruplaşma və cərəyanlar tərk-silah olunacaqlar.

Bütün xalq bacardığı və vəzifəsi qədərincə ölkə quruculuğunda iştirak etməyə borcludur. İmamı sevmək belə olur. Hamı hökuməti dəstəkləməli, hökumətlə birgə müharibədən və tağut hakimiyyətindən qalan xarabalıqları düzəltməlidir. Şah rejimi on illərlə bu ölkəni iqtisadiyyat, istehsalat, mədəniyyət, əxlaq, tədqiqat və elm baxımından xaraba qoymuş, əcnəbilərdən asılı etmişdir. Bu gün İran xalqı həmin xarabalıqları düzəltməlidir. Bu iş hökumətin təşkilatçılığı, rəhbərliyi və proqramları olmadan həyata keçə bilməz. İran xalqı Allahın yardımı və söz birliyi ilə, inqilab şüarlarını, özlərinin böyük güclərə və bu xalqın köklü düşmənlərinə qarşı nifrətini qorumaqla quruculuqla məşğul olsalar, imamın müqəddəs ruhu onlardan razı olar və həzrət İmam Mehdinin (ə) duası onlara kömək edər.[1]

**Sual:** Biz həmişə İslam düşmənlərinin ruhanilərə hücumuna şahid olmuşuq. Hər bir dövrdə şəraitə uyğun olaraq bu hücum müxtəlif formalarda təzahür etmişdir. Məşrutədən sonra düşmənlərin ruhanilərə hücumu xüsusilə güclənmişdir. Lütfən düşmənin bu müqəddəs dini instituta hücumunun səbəbini açıqlayın.

**Cavab:** Ruhanilər inqilabın qələbəsi ilə nəticələnən 15 illik mübarizələrdə əsas amil olmuşlar. Ruhanilər həmçinin müqəddəs İslam quruluşunun yaranmasında, dünyada İslam bayrağının ucaldılmasında, düşmənlərin müxtəlif hücumları qarşısında İran xalqının fədakar müqavimətində, bunlardan öncə və uzun əsrlər boyu İslam təlimlərini, İran xalqının İslamın həyatverici məktəbinə güclü və doğruçu imanını

---

[1] Vilayət hədisi: c. 4, səh: 281-283.

qoruyan və hər yerdə dini düşüncələri inkişaf etdirən əsas amil olmuşlar. Amerikanın muzduru olan rejimlə mübarizənin mərkəzində öhdəçi və mübariz ruhanilərin durması xalqın müxtəlif təbəqələrini mübarizəyə cəlb etdi və ümumxalq miqyasına çatdırdı. İran xalqının yekdilliklə iştirak etdiyi bütün böyük hadisələrdə, məsələn, Məşrutə hərəkatında və Tənbəki qiyamında da din alimlərinin öndə getməsi bu ümumi iştirakın yeganə təminatçısı olmuşdur. İngiltərə müstəmləkəçiləri bu məsələni dərk edib ruhaniləri məhv etməyi İranda müstəmləkə siyasətlərini davam etdirmək üçün zəruri şərt saydılar və muzdurları Rza xanın vasitəsi ilə 1934-cü ildən etibarən uyğun plana başladılar. Həmin illərdə böyük din alimlərinə və elm hövzələrinə qarşı İran tarixində görünməmiş faciələr baş verdi. Təəssüf ki, bu faciələrin və quldur Rza xanın hakimiyyətinin son illərində din alimlərinin və hövzə tələbələrinin məzlum müqavimətinin şərhi tam şəkildə yazılmamışdır. Allaha şükür olsun ki, sayları hələ də az olmayan canlı şahidlərin bildiklərinin aidiyyəti şəxs və qurumlar tərəfindən toplanması lazımdır.

Ruhanilərin və din alimlərinin azadlıqsevərliyi, daxili və qlobal güclərin onlara təsir edə bilməməsi quldurların və özbaşına hökmdarların bu ilahi təbəqəni heç zaman öz fəsad və xəyanətləri yolundan götürə bilməməsinə bais olmuşdur. Muzdur ruhanilərdən və saray mollalarından ibarət bir qisim ruhanilər dəyərsiz dünya malından ötrü zalımların süfrəsində oturub söz və əməllə onları təsdiqləsələr də, din alimlərinin, ruhanilərin və gənc hövzə tələbələrinin əksəri gözütox, təqvalı və iffətli qalmış, sədaqətli və qüdrətli mübarizə gücünü və iradəsini qorumuş, xalqın qəlbində şiə ruhanilərinə olan güclü etimada xələl gətirməmişlər.

Məhz buna görə ruhani təbəqəsi həmişə müxtəlif düşmənlərin, müstəmləkəçilərin, əcnəbilərin və əcnəbipərəstlərin zəhərli hücumlarına məruz qalmış və onların birinci dərəcəli düşməni sayılmışdır. Əlli il boyu İranda Pəhləvi hökumətinin və əcnəbi güclərin tamamilə müstəmləkə mahiyyəti daşıyan və ruhani təbəqəsi əleyhinə yönəlmiş planlı və düşmən təbliğatı Rza xanın dövründə və Məhəmmədrzanın

dövrünün birinci yarısında din alimləri üçün çətin sınağa çevrildi və Allaha şükür olsun ki, ruhanilər bu sınaqdan başıuca çıxdılar.

Onbeşillik mübarizə çağında da Qum Elm Hövzəsi, digər elm hövzələri və məşhur ruhanilər mübarizənin və onun ardınca düşmənin vəhşi hücumlarının əsas mərkəzlərinə çevrildilər. Lakin bu sərt reaksiyalar Allahın iradəsi ilə ruhanilərin qəti dini vəzifələri olan şərəfli yoldan geri çəkilmələrinə bais olmadı, əksinə, bu dövrdə İslam düşüncəsi daha da çiçəkləndi, parladı, Quran fiqhi daha səmərəli oldu, mübariz ruhanilər daha püxtələşdilər və İslam hökumətinə şərait yarandı.[1]

**Sual:** İslam inqilabında İran xalqının əsas şüarlarından biri olan müstəqilliyin mənası nədir? Bir xalq üçün istiqlaliyyət hansı mövqeyə və dəyərə malikdir? Lütfən müasir tarixdən buna misallar göstərin.

**Cavab**: İstiqlaliyyət odur ki, bir xalq öz taleyinə hakim olsun, əcnəbilər ona əl uzatmasın, onun taleyini xaincəsinə və qərəzli şəkildə dəyişdirməsin. İstiqlaliyyətin mənası budur. Əgər bir xalqın istiqlaliyyəti ondan alınsa və onun xeyrini istəməyən əcnəbilər ona hakim olsalar, iki şeyi əldən verər: biri öz şərəfini, fəxrini və kimlik hissini, ikincisi isə mənafeyini. Bir xalqa hakim olan düşmən o xalqın xeyrini istəməz, onun mənafeyinə önəm verməz. Bir xalqı öz caynağına keçirmək istəyən qüvvə yalnız öz mənafeyini düşünər, istiqlaliyyətini əldən vermiş xalqın mənafeyi onun üçün heç bir əhəmiyyət kəsb etməz. On doqquzuncu və iyirminci əsrlərdə buna dair çoxlu nümunələr görmüşük.

Avropa müstəmləkəçiləri Asiya, Afrika və Latın Amerikasının bir çox bölgələrini ələ keçirib, xalqlarını xar etdilər, mədəniyyətlərini, kimliklərini, sərvətlərini taladılar, hətta dillərini, əlifbalarını, keçmişlərini və adət-ənənələrini də ayaqları altına atdılar, xalqları rəzil etdilər, var-yoxlarını taladılar, sərvətlərini qarət, mədəniyyətlərini məhv

[1] Vilayət hədisi, c. 4, səh: 267.

etdilər; bacardıqları qədər qaldılar, sonra da getdilər. Mən belə nümunələrin bəzisini öz gözlərimlə görmüşəm, bəzisini eşitmişəm, bəzisini isə oxumuşam.

Bir nümunə böyük Hindistan ölkəsidir. İngilislər uzaqdan gəlib əvvəlcə hiyləgərliklə, sonra isə silah və zor gücünə Hindistanı tutdular, uzun illər bu məmləkətdə hökmranlıq etdilər, xalqı alçatdılar, böyüklərini məhv etdilər, sərvətlərini taladılar. İngiltərə Hindistanın sərvəti və məhsulları ilə öz xəzinəsini və oliqarxlarının cibini doldurdu, Hindistanı isə yoxsulluq, səfalət və bədbəxtlik içərisində buraxdı. Yalnız maddi yox, onların mənəvi sərvətlərini də aldılar, öz dillərini zorla onlara sırıdılar. Hindistan, Pakistan, Banqladeş və qədim Hindistan yarımadasının hamısı İngiltərənin müstəmləkəsinə çevrildi. Bu gün ingilis dili onların rəsmi dilidir. Həmin regionun onlarla yerli dili olmuşdur. Bu dilləri bacardıqları qədər sıradan çıxardılar, məhv etdilər. Bir xalq öz dilini əldən verəndə keçmişini, tarixini, adət-ənənələrini əldən vermiş, dəyərli irsindən ayrılmış olur.

Başqa bir misal vurum. Prezident olduğum zaman Latın Amerikasında yerləşən Perunun prezidenti bir dəfə mənə dedi: "Biz bu yaxınlarda arxeoloji qazıntılar zamanı ölkəmizdə çox möhtəşəm bir sivilizasiyanın qalıqlarını aşkarlamışıq". O deyirdi ki, müstəmləkəçilər uzun illər Peruya hakim olmuşlar, amma xalqın, ziyalıların və elm adamlarının qədimdə olmuş belə bir sivilizasiyadan xəbər tutmasına qoymamışlar. Yəni bunlar hətta xalqın öz tarixini bilməsinə, keçmişi ilə fəxr etməsinə də mane olurdular.

Başqa bir nümunə ərəb və müsəlman ölkəsi olan Əlcəzairdir. Fransalılar on illərlə bu ölkədə hökmranlıq etdilər. Oranı silahla tutdular, hökumət qurdular, öz hakimlərini və zabitlərini hökumət başçısı və komandan təyin etdilər. Onların gördüyü ilk iş İslam irsini və hətta ərəb dilini məhv etmək idi. Yenə prezident olduğum zaman Əlcəzairin ozamankı yüksək dövlət məmurlarından biri Tehranda mənimlə görüşdü. Söhbət əsnasında bir söz demək istəyirdi, amma o sözün ərəbcəsini bilmirdi; ərəb dilli bir insan mənə bir söz demək istəyir,

amma ərəbcə deyilişini bilmirdi. Üzünü Xarici işlər nazirinə tutub fransızca soruşdu ki, buna ərəbcə nə deyirlər? O da dedi ki, ərəbcə belə olur. Yəni bir xalqın görkəmli və aparıcı şəxsiyyətləri müstəmləkə səbəbindən öz dillərindən ayrı düşdülər. Ondan sonra Əlcəzairin xeyirxah insanları bizimlə söhbətdə dedilər ki, biz müstəmləkədən sonra ərəb dilini bərpa etməyə başlamışıq.

Mənim əzizlərim! Mənim qardaş və bacılarım! İstiqlaliyyətin olmaması bir ölkəyə bunları edir: xalqdan milli kimliyini, fəxrlərini və tarixi keçmişini alır, maddi sərvətlərini talayır, mədəni kimliyini və dilini alır. Əcnəbi hökmranlığının axırı budur. Müstəmləkə dövründə belə oldu. İstismar dövrü adlanan müstəmləkədən sonrakı dövrdə də ayrı cür oldu. Düzdür, bizim ölkəmiz heç zaman müstəmləkəyə çevrilmədi, yəni əcnəbilər bu ölkəyə gəlib qeyri-iranlı, məsələn ingilis hökuməti qura bilmədilər, İran xalqı buna icazə vermədi, amma hakim olduqları sürədə bacardıqları qədər nüfuzlarını genişləndirdilər.

Mən son yüzillik tarixdən sizə dörd nümunə söyləmək istəyirəm. Bu dörd nümunə bizə bir ölkənin siyasi və mədəni qurumlarına əcnəbi bir qüvvənin hakim olduğu zaman o ölkənin və xalqın başına nələr gəldiyini göstərir.

Bir nümunə Məşrutə nümunəsidir. Bilirsiniz ki, Qacar rejiminin zülmü xalqı cana doyurmuşdu. Xalq və cəmiyyətin başbilənləri qiyam etdilər. Öndə gedənlər din alimləri idilər: Nəcəfdə mərhum Ayətullah Axund Xorasani kimi bir təqlid müctəhidi, Tehranda üç böyük alim - mərhum Şeyx Fəzlullah Nuri, mərhum Seyid Abdullah Bəhbəhani və mərhum Seyid Məhəmməd Təbatəbai Məşrutənin rəhbərləri sayılırdılar. Bunların mərkəzi Nəcəf Elm Hövzəsi idi. Bunlar nə istəyirdilər? Bunlar İranda ədalətin bərpa olunmasını və istibdadın sona çatmasını istəyirdilər. O zaman İngiltərənin İranda çox böyük nüfuzu vardı və ziyalılar arasında adamları çox idi. Xalqın fəallığı başlayanda İngiltərə dövləti öz proqramını onlara ötürdü. Düzdür, xeyirxah ziyalılar vardı, lakin bir qrup ziyalı da muzdur, satqın və İngiltərənin maraqlarının müdafiəçisi idi. İngiltərədə məşrutə, yəni parlamentli hakimiyyət vardı.

Bu ziyalılar ədalətli kabinet qurmaq və ədaləti bərqərar etmək üçün yerli bir formul axtarmaq əvəzinə məşrutə formasına keçdilər. Nəticə nə oldu? Nəticədə arxasında din alimləri duran, din adı və din şüarı ilə meydana çıxan bu möhtəşəm xalq hərəkatı çox qısa müddətdən sonra Şeyx Fəzlulllah Nurinin Tehranda edam edilməsi ilə nəticələndi. Bir qədər sonra Seyid Abdullah Bəhbəhaniyə evində terror etdilər. Seyid Məhəmməd Təbatəbai də cəmiyyətdən təcrid olunmuş halda yalqız şəkildə dünyadan köçdü. Bununla da Məşrutə hərəkatını özləri istədikləri formaya qaytardılar və nəhayət Rza xanı hakimiyyətə gətirdilər.

İkinci nümunə Rza xan hakimiyyətinin özüdür. İngilislər Qacar rejimi ilə bir müqavilə bağlamışdılar. Bu müqaviləyə əsasən, İranın bütün maliyyə və hərbi məsələləri ingilislər tərəfindən idarə olunurdu. Ayıq alim olan mərhum Seyid Həsən Müdərris bu layihəyə qarşı çıxdı və onun ozamankı Milli Şura Məclisində qəbul olunmasına imkan vermədi. İngilislər çarəsiz qaldıqda yeni fikrə düşdülər. Başa düşdülər ki, İranda Müdərris kimiləri məhv etmək, xalqla qəddarcasına davranmaq və ingilislərin istəyini icra etmək üçün bir diktatoru iş başına gətirməlidirlər. Buna görə Rza xanı hakimiyyətə gətirdilər. İranda Rza xanın şahlığı bizim tariximizin çox ibrətli hissələrindən biridir. Bu gün ölkənin bütün gəncləri bunu bilməlidirlər. Rza xandan qabaqkı hərc-mərcliyə onun polad yumruğu və İngiltərə dövlətinin köməyi ilə son qoyuldu, ölkədə 55 il davam edən bir diktatorluq yarandı, İngiltərənin siyasi və mədəni qurumlara təsiri xalqı təzyiq altında saxladı.

Üçüncü nümunə 1941-ci ilə aiddir. O zaman Rza xan öz qabaqkı himayədarları tərəfindən taxtdan salındı və İrandan ixrac edildi. İngilislər mütləq təslimçilik şərti ilə Məhəmmədrzanı iş başına gətirdilər. Onlar istədikləri hər bir işi görürdülər, müstəmləkəyə ehtiyacları yox idi. Xain bir iranlı əcnəbilərin yardımına qarşılıq olaraq ölkədə onların istəyini icra edəndə daha müstəmləkədən ötrü özlərinə zəhmət verməyə lüzum qalmır. Onlar bu işi gördülər.

Sonra dördüncü nümunə baş verdi. Bu, 1953-cü ilə aiddir. Əvvəlcə hiylə qurub mərhum Ayətullah Kaşanini təcrid etdilər, bacarıqsız siyasət nəticəsində prosesdən kənarlaşdırdılar, Müsəddiqin hökumətini devirəndən sonra isə yenidən işlərin başına keçdilər, İrana girdilər, öz nüfuzları, əlaltıları və fəaliyyətləri ilə 19 Avqust çevrilişini edib İrandan qaçmış Məhəmmədrzanı geri qaytardılar. Qaranlıq Pəhləvi diktaturası daha 25 il də davam etdi. Bu dörd nümunənin hamısı ibrətamizdir.

Bir xalq əcnəbi bir qüvvənin onun siyasi, yaxud mədəni qurumlarına nəzarət etməsinə icazə verəndə taleyi belə olur. Əgər İslam inqilabı baş verməsəydi, bu xalq Böyük İmamın arxasında bu möhtəşəm tarixi işi görməsəydi, bilirsiniz indi İran xalqı hansı durumda idi? Bu xalq Qərbin elmi inkişaflarının heç birini öyrənməzdi, nə ixtira, nə kəşf, nə quruculuq olardı, sərvətlərini əldən verərdi, neftini həmin düşmənlərə axar çayların suyundan da ucuz qiymətə satardı; neft onlarınkı, neftayırma onlarınkı, üzünmüddətli müqavilələr onlarınkı! Bu ölkənin düşmənləri onun digər mədən və sərvətləri üçün də planlar cızmışdılar. Bu xalqın beyinlərini oğurlayıb ölkənin elmi vəziyyətini aşağı səviyyədə saxlamaq istəyirdilər.

Amerika və İngiltərənin İranda hökmranlıq etdiyi zaman İran xalqı çətin günlər yaşadı. Əvvəlcə ingilislər və sonra amerikanlar yüz il bu ölkəni geriyə saldılar. Biz bu gün hansı sahəyə baxırıqsa, onların səhlənkarlıqlarının, xəyanətlərinin və çirkin əməllərinin əlamətlərini öz gözlərimizlə görürük.

İslam inqilabının gördüyü ən böyük işlərdən biri Amerika istismarına son qoymasıdır. İslam inqilabının fəxrlərindən biri budur ki, Amerikanın bu ölkəyə uzanan əlini, bu istismarın kökünü və bütün dəm-dəsgahını darmadağın etdi. Düzdür, inqilabın əvvəllərində bu ölkədə hökumət başında olan bir qrup Amerikanı sevirdi və buna imkan vermək istəmirdi. Mən 1979-cu ildə Ali Müdafiə Şurasında bunu yaxından gördüm. Elə bir qanun qəbul edirdilər ki, ona əsasən Amerikanın hərbi müstəşar heyətləri - bütün cinayət və xəyanətləri törədənlər başqa bir ad altında İslam Respublikası ordusunda

qalacaqdılar. Mən buna mane oldum. Bir qədər mübahisə oldu və məsələ dayandı. Sonra da Allah-Taala bu işi görmək üçün onlara macal vermədi və getdilər. İslam İnqilabının qələbəsindən hələ bir il ötməmiş həmin cənablar növbəti dəfə Əlcəzairdə bu xalqın qan düşmənləri olan amerikalılarla müzakirə layihəsi hazırladılar, amma imam mane oldu və qoymadı.

İnsan belə şəxslərdən "islahat" və "azadlıq" sözlərini eşidəndə bədgüman olmağa haqlıdır. İlk növbədə Amerika istismarına qarşı çevrilən belə bir möhtəşəm inqilabdan sonra müxtəlif yollarla qapıdan qovulan amerikalıları pəncərədən qaytarmaq istəyən şəxslər indi azadlıqdan və islahatdan dəm vurur, keçmiş rejimin muzdurları və tör-töküntüləri də onlara kömək edirlər. Hər bir sayıq insanın nigaran olmağa və şübhələnməyə haqqı var. İslam inqilabının şah əsəri istiqlaliyyətdir; yəni əcnəbi nüfuzunun yolverilməz olması; yəni Amerika, İngiltərə və digər supergüclərin ölkənin siyasi və mədəni məsələlərinə hər hansı müdaxiləsinin yasaq olması.[1]

**Sual:** Bu gün müzakirə olunan və müxtəlif mövzuları önə çəkən məsələlərdən biri azadlıq məsələsidir. İslam azadlığı vacib sayırmı? Başqa sözlə desək, İslamda azadlıq varmı, yoxsa bu yalnız Qərbə aiddir?

**Cavab:** Azadlıq məsələsi Qurani-kərimdə və imamların (ə) sözlərində dəfələrlə, özü də ciddi surətdə təkid olunan məsələlərdən biridir. Əlbəttə, burada məqsədimiz dünyada heç bir tərəfdarı olmayan mütləq azadlıq deyil. Düşünmürəm ki, dünyada kimsə mütləq azadlığa dəvət etsin. Məqsədimiz İslam dinində, xüsusən də İslam maarifinin yüksək səviyyələrində nəzərdə tutulan mənəvi azadlıq da deyil. Mənəvi azadlıq məsələsi mənəviyyata inanan bütün insanların qəbul etdiyi bir məsələdir, amma bizim söhbətimizin mövzusu bu deyil. Burada söhbət açdığımız azadlıq ictimai azadlıqdır: düşünmək, danışmaq, seçmək və bu tip işlər üçün insani haqq olan azadlıq. Bu məsələ Quran və sünnədə

---

[1] Qum əhalisi ilə görüşdəki çıxışdan: 2000.

yüksək dəyərləndirilmişdir. Əraf surəsinin 157-ci şərafətli ayəsi buyurur: "O kəslər ki, əllərindəki Tövratda və İncildə yazılmış gördükləri rəsula - ümmi (heç kəsin yanında oxuyub elm öyrənməmiş və ya məkkəli) peyğəmbərə tabe olurlar. (O peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz nemətləri halal, natəmiz və iyrənc şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üzərlərindəki buxovları açar". Allah insanların boynundan zəncirləri götürməyi Peyğəmbərin (s) xüsusiyyətlərindən biri kimi göstərir. Peyğəmbər (s) "isr"i, yəni insanlara məcbur edilən boyunduruqları onlardan götürür. Çox maraqlı və geniş anlayışdır. Əgər o dövrün dini və qeyri-dini cəmiyyətlərinə nəzərə salsanız, bilərsiniz ki, bu boyunduruqlar və insanların zorla məcbur edildiyi əhdnamələr batil inam və xurafatların, istibdad, təhrif, yaxud təhqir əllərinin insanlar üçün zorla yaratdığı yanlış ictimai şərtlərin çoxuna şamil olur. "Əğlal" sözünün "zəncirlər" demək olduğu da aydın məsələdir.

Əmirəlmöminin (ə) haqda məşhur "Ədalətin səsi" kitabının müəllifi cənab Corc Cordaq Əmirəlmömininin (ə) və ikinci xəlifə cənab Ömərin sözlərini müqayisə edir. Bir dəfə dövrünün valilərindən bir neçəsi cənab Ömərin yanına gəlmişdilər. Xəlifəyə onların pis əməllərinə dair xəbər çatmış və onu qəzəbləndirmişdi. Xəlifə onlara müraciətlə ölməz bir cümlə deyib: "Allah insanları azad yaratdığı halda, siz onları özünüzə köləmi etmisiniz?!" Digər cümlə isə Əmirəlmömininin (ə) Nəhcül-bəlağədə yer alan cümləsidir: "Başqasının qulu olma; Allah səni azad yaratmışdır!" Corc Cordaq bu iki cümləni müqayisə edib deyir ki, Əmirəlmömininin (ə) cümləsi Ömərin cümləsindən qat-qat üstündür. Ömər azadlıq və hürriyyətə heç bir zəmanət verməyən şəxslərə müraciət edir. Çünki Ömərin ifadəsinə əsasən, insanları özlərinə qul edənlər onların özləridir. Yəni ey xalqı özünə qul hesab edənlər, xalqa azadlıq verin. Bu, bir növ danışmaqdır. Əmirəlmöminin (ə) isə insanların özünə müraciət edir və icra zəmanətini kəlamının özündə göstərir: " Başqasının qulu olma; Allah səni azad yaratmışdır!"

Hər iki kəlamda azadlıq üçün iki xüsusiyyət var. Əlbəttə, Əmirəlmömininin (ə) kəlamında daha üstündür. Çünki o, icra zəmanətini də ehtiva edir. Sözügedən iki xüsusiyyətdən biri budur ki, azadlıq hissi insanın fitrətində var: "Allah səni azad yaradıb". Mən İslam təfəkkürü ilə Qərb təfəkkürü arasında müqayisə apararkən buna toxunacağam.[1]

**Sual:** Hansı qruplar İslamın azadlığa dair tərifinə müxalif olub Qərb azadlığını, yaxud on səkkizinci əsr Avropasının liberalizmini bilərəkdən, yaxud bilmədən təbliğ edirlər?

**Cavab**: Məncə azadlıq məsələsinin qeyri-islami və qeyri-lokal edilməsində iki qrup əlbir olmuşdur. Bu qrupların biri azadlıq məsələsinə dair son iki-üç əsrin Qərb filosoflarının deyimlərindən sitat gətirirlər: filankəs belə deyib, flankəs elə deyib. Əlbəttə, bunlar həmin filosofların adlarını çəkdikləri üçün hörmətə layiqdirlər. Çünki bəzi fəlsəfəpərdazlar Con Stüart Millin, yaxud başqa fransalı, almaniyalı və ya amerikalı filosofun sözünü deyir, amma adını çəkmir, öz adlarına yazır və saxtakarlıq edirlər. Hər halda, bu qrup azadlıq təfəkkürünün və ictimai azadlıq məfhumunun Qərb tərəfindən bizə hədiyyə edilmiş düşüncə olması haqda fikir formalaşmasına kömək edirlər.

Bir qrup da bilmədən bunlara kömək edir. Bunlar azadlığın adı çəkilən kimi qorxuya düşən, fəryad qoparıb “ay aman, din əldən getdi” - deyənlərdir. Xeyr! Din azadlığın ən böyük carçısıdır, nə üçün əldən getməlidir?! Düzgün və məntiqli azadlıq dinin bir xalqa və bir cəmiyyətə ən böyük hədiyyəsidir. Azadlığa görə düşüncələr inkişaf edir və istedadlar çiçəklənir. İstibdad istedadın düşmənidir. İstibdad olan yerdə istedad çiçəklənə bilməz. İslam insanların çiçəklənməsini istəyir. Təbii mənbələr kimi möhtəşəm insani mənbələr də çıxarılmalıdır ki, dünyanı abadlaşdırsınlar. Məgər azadlıq olmadan bu mümkündür?! Məgər əmr və qadağalarla mümkündür?! Kimlərinsə belə düşünməsi

---

[1] Pedaqoji universitetin tələbələri ilə görüşdəki çıxışdan: 1998.

yanlışdır. Qərbpərəstlər və ehtiyatlananlar azadlıq anlayışını İslamdan tamamilə uzaqlaşdırmaqda özləri də bilmədən əməkdaşlıq edirlər. Halbuki belə bir şey yoxdur və azadlıq İslamın təsdiqlədiyi bir anlayışdır.[1]

**Sual**: Liberalizmin Qərbdə konkret tərifi varmı? Onlar azadlıq üçün məqbul və əsaslı fəlsəfə təqdim edə bilmişlərmi?

**Cavab:** Mən sizə bir söz də deyim: İslamda ictimai azadlığa Qərb məktəblərindən daha çox yer verilmişdir. Əlbəttə, liberalizmin izahları olduqca çoxdur. Yəni renessansdan etibarən Fransada, Avropada və sonra bütün dünyada liberalizm təfəkkürünün inkişaf etməsindən, sonra Fransa inqilabı ilə nəticələnməsindən, daha sonra Amerika istiqlaliyyət vuruşmalarında təhrif olunmuş şəkildə işlədilməsindən və bəlli Amerika xartiyasının yaranmasından - bütün bunlar xüsusi söhbətlərin mövzusudur - bu günədək, xüsusən də son illərdə liberalizmə onlarla tərif və izah verilmişdir. Son zamanlar Amerika nəzəriyyəçiləri və ideoloqları müntəzəm olaraq bu sahədə yazırlar.

Bunu da deyim ki, bu mütəfəkkirlər arasında hətta amerikalı olmayan çoxları Amerika rejiminin sifarişi ilə bu sahədə, xüsusən liberalizm mövzusunda yazırlar. Kitablar bəzən Avstriyada, Almaniyada, yaxud Fransada yazılır, amma Nyu-Yorkda çap olunur. Sifariş Amerikadan gəlir. Bunda məqsəd ABŞ-ın maraqlarıdır. Bunun özü geniş mövzudur. Hər halda, bu barədə müxtəlif izahların olmasına baxmayaraq, İslamın baxışı onların hamısının üstündür.

Onlar azadlığa fəlsəfə düzəltməkdə problemə düşüblər. Azadlığın fəlsəfəsi nədir? Bəşər nə üçün azad olmalıdır? Buna fəlsəfi əsas tapılmalıdır. Bu barədə müxtəlif sözlər deyilib: fayda, ümumi maraq, ictimai həzz, şəxsi həzz və uzaqbaşı, sivil hüquqlardan biri. Bunların hamısına irad bildirmək olar. Onların özləri də irad bildiriblər.

---

[1] Yenə orada.

Əgər son illərdə liberalizm haqqında yazılanlara baxsanız, azadlıq haqda nə qədər puç, əbəs, faydasız və Orta əsrlər dövrünə bənzər sözlər deyildiyini görərsiniz. Biri bir söz deyib, o birisi cavab verib, sonra daha birisi gəlib cavaba cavab verib. Doğrudan da üçüncü dünya ziyalıları üçün pis əyləncə deyil ki, biri bu nəzəriyyənin tərəfdarı olsun, biri o nəzəriyyənin; biri bunun arqumentlərini qəbul etsin, biri onun dəlillərini izah etsin, başqa biri də nəzəriyyəni öz adı ilə başqalarına sırısın.

Uzaqbaşı azadlığın fəlsəfə və qaynağının bir insani haqq olduğunu deyirlər, İslam isə bundan da artığını deyib. İslam azadlığı insanın fitri hissi bilir. Azadlıq bir haqdır, lakin yaşamaq və həyat haqqı kimi olub, digər haqlardan yüksəkdə durur. Yaşamaq haqqını istədiyi yerdə yaşamaq haqqı, seçim haqqı və digər hüquqlarla bir sıraya qoymaq olmaz. Azadlıq da belədir, bunların hamısının fövqündə durur. Bu, İslamın baxışıdır.

Düzdür, burada bəzi istisnalar da var. Konkret hallarda insan yaşamaq hüququ kimi azadlıqlardan da məhrum edilə bilər. Bir nəfər kimisə öldürürsə, qisas alırlar; fəsad yayırsa, cəzalandırırlar. Lakin bunlar müstəsna hallardır. Bu, İslamın yanaşmasıdır.[1]

**Sual:** İslam və Qərb azadlıqlarının hansı əsaslı fərqləri var? Başqa sözlə desək, azadlıq məsələsini İslam nöqteyi-nəzərindən izah etmək üçün hansı məsələlərə diqqət yetirməliyik?

**Cavab:** Deyilənlərə əsasən, ictimai azadlıq düşüncəsinin Qərbin bizə hədiyyə verdiyini düşünmək yanlışdır. Yəni biz bu sahədə əsaslı və cəlbedici bir söz demək üçün mütləq filankəsin kitabına istinad etməyə, Qərbdə özü üçün oturub fikirləşən və yazan birisinin adını çəkməyə məcbur deyilik. Xeyr! Müstəqil düşünmək, öz mənbələrimizə və müsəlman qaynaqlarına müraciət etmək lazımdır. İnsan digərlərinin təfəkküründən zehnin açılması və qaranlıq məqamların aydınlaşması

[1] Yenə orada.

üçün istifadə etməlidir, təqlid etmək üçün yox. Əgər təqlid məqsədi ilə olsa, böyük zərər edəcəyik.

Mən bu gün bu mətbuat və düşüncə dartışmalarında - dedim ki, bu, yaxşı haldır - çoxlarının bu məqama diqqət yetirmədiyini müşahidə edirəm. Mən burada İslam məntiqindəki azadlığın Qərb məntiqindəki azadlıqla iki-üç ümdə fərqini deyəcəyəm. Qeyd etdim ki, bu məktəbdə mövcud olan bütün nəzəriyyələrin və müxtəlif cərəyanların ortaq adı liberalizmdir. Bu nəzəriyyə və cərəyanlar bəzi sahələrdə digərləri ilə müəyyən ziddiyyətlər təşkil etsə də, ümumilikdə aşağıdakılardan ibarətdir:

**Birinci fərq**

Qərb liberalizmində insan azadlığı din və tanrı adlı amillərdən uzaqdır. Onlar azadlığın Allah tərəfindən verildiyini düşünmürlər. Heç biri demir ki, azadlığı insana Allah verib. Onlar bunun üçün fəlsəfi qaynaq axtarırlar. Bu haqda bəzi əsaslar göstərilmiş və müxtəlif izahlar verilmişdir. İslama görə isə, azadlıq ilahi əsasa malikdir. Bunun özü başlıca fərqdir və digər fərqlərin çoxu məhz buna qayıdır. İslam məntiqinə görə, azadlığa qarşı çıxmaq bir ilahi hökmə qarşı çıxmaqdır; yəni insanın qarşısında dini vəzifə qoyur. Qərbdə isə belə bir şey yoxdur; yəni Qərbin liberalist təfəkkürünə görə, dünyada azadlıq üçün aparılan ictimai mübarizələrin heç bir məntiqi yoxdur. Məsələn, deyilən sözlərdən biri “ümumi mənafe”, yaxud “əksəriyyətin marağı” məsələsidir. İctimai azadlığın əsası budur. Sual oluna bilər: "Mən nə üçün əksəriyyətin mənafeyi üçün döyüşə gedib ölməli, məhv olmalıyam?!" Bu məntiqsizdir. Düzdür, ötəri və ani emosiyalar çoxlarını döyüşə çəkir, amma belə təfəkkürlər əsasında mübarizəyə qalxmış insanların hər biri - əgər mübarizə doğrudan da bu təfəkkürlərə əsasən baş veribsə - mübarizə həyəcanından çıxan kimi tərəddüd edəcəklər: Nə üçün mən gedib ölməliyəm?

İslam təfəkküründə isə belə deyil. İslama görə azadlıq uğrunda mübarizə bir şəriət vəzifəsidir; çünki bir Allah əmri üçün mübarizədir.

Məsələn siz bir insanın öldürüldüyünü gördükdə, ona kömək etməyə borclusunuz. Bu, bir dini vəzifədir; bunu etməsəniz, günah işlətmiş olursunuz. Azadlıq məsələsində də belədir: getməlisiniz. Bu bir şəriət vəzifəsidir.

**İkinci fərq**

Bu əsaslı fərqdən digər fərqlər də doğur. Biri budur ki, Qərb liberalizmində əxlaqi amil və dəyərlər nisbi olduğundan, azadlıq da hüdudsuzdur. Nə üçün? Çünki siz bir sıra əxlaqi dəyərlərə etiqad bəsləyirsinizsə, bu dəyərlərə hörmətsizlik edəni qınaya bilməzsiniz; ola bilsin onun bu dəyərlərə inamı yoxdur. Buna əsasən, azadlıq üçün heç bir hədd tanınmır, mənəvi və əxlaqi baxımdan heç bir hədd yoxdur və azadlıq sərhədsizdir. Nə üçün? Çünki sabit həqiqət yoxdur və onlara görə, əxlaqi dəyərlər nisbi xarakter daşıyır.

İslamda azadlıq məsələsinə baxış belə deyil. İslamda qəti və dəyişməz dəyərlər var, həqiqət var; dəyər və kamillik olan, dəyər yaradan həqiqət yolunda hərəkət var. Elə buna görə də, azadlıq bu dəyərlərlə məhdudlaşdırılır. Bu dəyərləri necə anlamaq və əldə etmək başqa bir məsələdir. Bəzi şəxslərin bu dəyərləri anlamaqda yanlış, bəzi şəxslərin isə düzgün yollar getməsi mümkündür. Bu, söhbətin mövzusundan xaricdir. Hər halda, azadlıq həqiqətlə və dəyərlərlə məhdudlaşır.

İslamda bu qədər dəyərli hesab edilən ictimai azadlıqdan bir xalqın dəyərli mənəvi və ya maddi sərvətlərini məhv etmək üçün istifadə olunsa, zərərlidir. Bir insanın həyatı da belədir: “Kim, bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur”. Qurana görə, bir insanı öldürmək bütün insaniyyəti öldürmək kimidir. Bu çox möhtəşəm sözdür. Bir insanın qətlinə səbəb olan şəxs bütün insaniyyəti məhv etmiş kimidir; çünki insaniyyət məqamına əl uzatmışdır. Lakin burada da istisna var: “bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi”. Yəni bu adamın özü başqasının canına qəsd

etmişsə, yaxud fəsad törətmişsə, məsələ ayrı cürdür. Baxın, sabit və qəti dəyər və həqiqətlər bu azadlığı məhdudlaşdırır; həyat haqqını məhdudlaşdırdığı kimi.

**Üçüncü fərq**

Başqa bir fərq budur ki, Qərbdə azadlığın hüdudunu maddi maraqlar təyin edir. Onlar əvvəlcə ictimai və fərdi azadlıqlar üçün məhdudiyyətlər müəyyən etdilər. Onların biri budur. Maddi maraqlar təhlükəyə düşdükdə azadlığı məhdudlaşdırırlar. Maddi maraqlara misal kimi bu ölkələrin inkişafını və elmi üstünlüyünü göstərmək olar. Təlim-tərbiyə azadlığı insanların əsla danılmaz hüquqlarından sayılır. İnsanların öyrənmək hüququ var. Lakin Qərb dünyasının böyük universitetlərində bu azadlıq məhdudlaşdırılır. Yüksək elm və texnologiyanı, onların sözü ilə desək, HIGH TEC-i öyrətmək olmaz. Müəyyən ölkələrə texnologiya köçürmək qadağandır. Niyə? Çünki bu elm köçürülsə, həmin supergücün inhisarından çıxacaq və o öz vəziyyətində qalmayacaq. Deməli, azadlığa sərhəd qoyulur; yəni müəllimin üçüncü dünya ölkələrindən, məsələn İrandan, yaxud Çindən olan tələbəyə bəzi elmlərin sirlərini öyrətmək haqqı yoxdur.

Xəbər və informasiyaları ötürmə azadlığı da belədir. Bu gün dünyanın bütün davası informasiya azadlığı üçündür. Qoyun xalq hadisələrdən xəbərdar olsun! Qoyun xalq bilsin! Qərbdə azadlığa dair təbliğatın əsas hissələrindən biri budur. Buşun prezident olduğu dövrdə isə Amerika İraqa hücum edərkən bir həftə, yaxud daha artıq müddətdə bütün xəbərlərə senzura qoyuldu. Bununla fəxr edib dedilər ki, heç bir jurnalist ABŞ-ın İraqa hücumundan bir şəkil, yaxud bir xəbər dərc etdirə bilməz. Hamı bilirdi ki, hücum olunub, amerikalılar özləri də xəbər vermişdilər, amma məsələnin təfərrüatından heç kimin xəbəri yox idi. Onlar iddia edirdilər ki, bu iş hərbi təhlükəsizliyə zərər vura bilər. Deməli, hərbi təhlükəsizlik amili azadlığı məhdudlaşdırdı, önünə maddi bir sərhəd və hasar çəkdi.

Başqa bir sərhəd hökuməti möhkəmlətməkdir. Təxminən 4-5 il əvvəl Amerikada bir qrup meydana çıxdı. Mətbuatı izləyənlər bu haqda oxuyublar. Mən o zaman bu hadisə haqda geniş məlumat topladım, bizim qəzetlər də yazdılar. Onlar Klintonun dövründə xüsusi bir məzhəb kimi Amerika hökuməti əleyhinə fəaliyyətə başladılar. Onlara qarşı hərbi və təhlükəsizlik tədbirləri gördülər, lakin xeyri olmadı. Sonra onların toplaşdığı evi mühasirəyə alıb od vurdular, təxminən 80 nəfər yandı. Şəkillərini dərc etdilər, bütün dünya da gördü. Bu 80 nəfərin arasında qadın da var idi, uşaq da; onların bəlkə bir nəfəri də hərbçi deyildi. Baxın, yaşamaq, əqidə və siyasi mübarizə azadlıqları bu həddə məhdudlaşdırılır. Deyilənlərə əsasən, maddi Qərb dünyasında da azadlığın hüdud və sərhədləri var və bunlar maddi sərhədlərdir.

Qərbdə əxlaqi dəyərlər azadlığa heç bir maneə yaratmır. Məsələn, Amerikada homoseksualizm geniş yayılmışdır. Bununla fəxr edir, küçələrdə mitinqlər keçirir, jurnallarda şəkillərini vururlar. Fəxrlə deyirlər ki, filan iş adamı və filan siyasətçi də bu qrupdandır. Heç kim xəcalət çəkmir və inkar eləmir. Daha acınacaqlı olan budur ki, bu hərəkata etiraz edən bəzi insanlar mətbuatın və qəzetlərin kəskin hücumuna məruz qalırlar. Deyirlər ki, bunlar homoseksualizm hərəkatına qarşı çıxırlar. Yəni əxlaqi dəyər azadlıq üçün heç bir hədd təyin etmir.

Başqa bir misal Avropa ölkələrinə aiddir. Orada məsələn, söz azadlığı faşizmin xeyrinə təbliğat zamanı məhdudlaşdırılır. Bu da maddi və siyasi məsələdir. Digər tərəfdən, çılpaqlığın təbliğatı məhdudlaşdırılmır. Yəni bəlli fəlsəfəyə, fəlsəfi köklərə və baxışa malik olan Qərb liberalizmində azadlığa maddi amillərlə hədd qoyulur, əxlaqi amillərlə deyil. İslamda isə əxlaqi hədlər var. İslamda azadlığın maddi hüdudlardan əlavə, mənəvi hədləri də var. Düzdür, kimsə ölkənin mənafeyinə qarşı hərəkət etsə, azadlığı məhdudlaşdırılır - bu məntiqlidir, amma mənəvi hədlər də mövcuddur.

Kiminsə azğın etiqadı varsa, eybi yoxdur. "Eybi yoxdur" deyəndə, əslində Allaha və mömin insanlara görə eybi var, lakin bu zaman

hökumətin üzərinə heç bir vəzifə düşmür. Müsəlman cəmiyyətində yəhudi, məsihi və digər dinlərə inananlar var. Bu gün bizim ölkəmizdə belələri var, İslamın erkən çağında da olub. Bunun heç bir eybi yoxdur. Lakin yanlış əqidəsi olan bir şəxs özlərini müdafiə edə bilməyən insanların canına düşüb onları da yoldan çıxarmaq istəsə, bu yolverilməzdir. Burada azadlıq məhdudlaşdırılır. İslam baxımından belədir. Yaxud siyasi, cinsi və elmi fəsadlar yaymaq istəsələr, yaxud bəzi fəlsəfəpərdazlar kimi ali təhsilin gənclərə xeyirli olmaması haqda məqalə yazsalar, bunun eyiblərini söyləməyə başlasalar, buna yol verilmir. Əlbəttə, böyük ehtimala görə, bunların 90 faizi təsirsiz olur, amma 10 faizi tənbəl gənclərə təsir edə bilər. Kimlərinsə yalan və kələklə insanları təhsildən uzaqlaşdırmasına icazə vermək olmaz.

İslamda aldatmaq, şayiə yaymaq və cəmiyyətdə xof yaratmaq azadlıqları yoxdur. Mənim gileyim budur ki, nə üçün azadlıq məsələlərinə dair İslamın əsaslarına və İslam ədəbiyyatına müraciət olunmur. Quranda Əhzab surəsinin 60-cı ayəsində belə buyurulur: “Əgər münafiqlər, qəlblərində (ruhlarında) xəstəlik olanlar və (mürciflər, yəni) Mədinədə qəsdən yalan şayiələr yayanlar (bu əməllərinə) son qoymasalar, şübhəsiz ki, səni onların üstünə qaldırarıq”. Burada "mürciflər" münafiqlərin və qəlbi xəstə olanların yanında qeyd edilir. Münafiqlər bir qrupdur, qəlbi xəstə olanlar başqa bir qrup. Mürciflərin adı da onların yanında çəkilir. Mürciflər müntəzəm olaraq xalqı qorxudanlardır. Yeni qurulmuş və çoxlu düşməni olan İslam cəmiyyətində Quran və Peyğəmbər (s) uğrunda könüllülər var. Ölkəni və bu böyük xalq quruluşunu müdafiə etmək üçün onların hamısı psixoloji cəhətdən hazır olmalıdırlar. Bu arada bir qrup insan xora kimi xalqın canına düşüb, ruh düşkünlüyü yaradır. Bunlar mürciflərdir. Quran deyir ki, bu mürciflər – yəni daim xalqda xof yaradanlar, insanları ümidsiz edənlər, ruhdan salanlar bu işlərindən əl çəkməsələr, səni onların üstünə qaldırarıq. Bu, azadlığın sərhədidir. Deməli, İslam məntiqində azadlığın başqa bir fərqi mənəvi dəyərlərdən ibarət hədlərə malik olmasıdır.

**Dördüncü fərq**

Daha bir fərq budur ki, Qərbin liberalist təfəkküründə olan azadlıq şəriət vəzifələrinə ziddir: Azadlıq – yəni şəriətdən azad olmaq. İslamda isə azadlıq, şəriət vəzifələri pulun o biri üzüdür. Ümumiyyətlə, insanlar şəriət hökmlərinə vəzifəli olduqları üçün azaddırlar. Belə olmasaydı, azadlığa ehtiyac qalmazdı, insanlar da mələk kimi olardılar. Mövləvi deyir ki, bir hədisə əsasən, Böyük Yaradan məxluqatı üç cür yaradıb. Onların birində ağıl, elm və səxavət cəm olub. Bu daim Allaha itaətdə olan mələkdir.

Bəşərin xüsusiyyəti belədir ki, onda bir-birinə zidd duyğu və istəklər var. O, bu müxtəlif istəklər arasında təkamül yolunu seçməlidir. Ona məhz bundan ötrü azadlıq verilib. Bu dəyərli azadlıq təkamül üçündür; necə ki, insan həyatının özü də təkamüldən ötrüdür: "Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!"[1] Allah cin və insanı çox uca məqam olan bəndəliyə nail olmaq üçün yaradıb. Həyat haqqı kimi azadlıq da bəndə olmağa müqəddimədir.

Qərbdə vəzifəni inkar etməkdə o qədər ifrata varıblar ki, təkcə dini təfəkkürləri yox, hətta qeyri-dini təfəkkürləri, praktik vəzifələrə, vacib və haramlara, əmr və qadağalara toxunan bütün ideologiyaları inkar edirlər. İndi bu amerikalı və amerikalıya bənzər liberalistlərin və onların peyğəmbərlərinin (onların ümmətləri başqa ölkələrdə, o cümlədən, təəssüf ki, bizim ölkəmizdə də var) axırıncı əsərlərində görünür ki, azad Qərb təfəkkürünün əmr və qadağalarla və ideologi prinsiplərlə zidd olduğunu söyləyirlər. İslam isə tamamilə bunun əksinədir. İslam azadlığı insana praktik vəzifə ilə birgə verir ki, onunla vəzifələrini düzgün yerinə yetirsin, böyük işlər görsün, böyük seçimlər etsin və təkamülə çatsın.[2]

---

[1] Zariyat/56.

[2] Pedaqoji universitetin tələbələri ilə görüşdəki çıxışdan: 1998.

**Sual:** Cəmiyyətdə və mətbuatda azadlıq barədə müzakirə aparanlara tövsiyəniz varmı?

**Cavab:** Azadlıq haqda iki məqama diqqət yetirmək lazımdır. Bu gün ölkə mətbuatında və mütəfəkkirlər arasında azadlıq məsələsi aktual mövzudur. Bu, yaxşı əlamətdir. İnqilabın əsaslı və təməl məsələlərinin müzakirə obyektinə çevrilməsi, bəzi şəxslərin bu haqda düşünüb, fikir bildirməsi həmişə gözlədiyimiz və az-çox baş vermiş məsələdir. Bu mövzu bu gün də gündəmdədir; mən də yazılanlara və deyilənlərə az-çox baxır, oxuyur və bəzən onlardan öyrənirəm. Fikirlər müxtəlifdir; yəni hamı eyni formada yazmır, bir-birinə zidd görüşlər var. Bu zidd görüşlərin hər iki tərəfində doğru və düzgün sözlər müşahidə olunur. Bu müzakirələri davam etdirmək yaxşı haldır. Kaş bizim nəzər sahiblərimiz mətbuatda köklü məsələlərin müzakirəsinə meyl göstərəydilər, mətbuatı məzmunsuz haldan çıxarıb, xalqı düşündürücü və istiqamətləndirici mövzulara yönəldəydilər. Biz həmişə tövsiyə edirik ki, inqilab mədəniyyətini gücləndirsinlər. Gücləndirmək üçün də belə işlər görmək lazımdır.

**Birinci tövsiyə**

Toxunmaq istədiyim iki məqamdan biri budur ki, Azadlıq məfhumu üçün bizim şüarlarımızdan olan istiqlaliyyətdən istifadə etməliyik; yəni müstəqil düşünək, düşüncədə təqlidçi olmayaq. Əgər çoxlu məsələlərimizin və inkişafımızın bünövrəsi olan bu amili nəzərdən qaçırıb başqalarını yamsılasaq, gözlərimizi təkcə Qərb təfəkkürünü göstərən bacaya açsaq, böyük səhv etmiş olacağıq və acı nəticələrlə üzləşəcəyik.

Buna əsasən, yazıb müzakirə edən bu şəxslərə birinci tövsiyəm budur ki, azadlıq anlayışını dərk etməkdə müstəqil olaq, müstəqil düşünək, asılı olmayaq.

**İkinci tövsiyə**

İkinci tövsiyəm budur ki, azadlıqdan sui-istifadə edilməsin. Bəzi şəxslər bu sözü tez-tez işlədirlər: "yeni əldə edilmiş mətbuat azadlıqları". Məncə, bu, həqiqətdən kənar sözdür və qaynağı xarici radiolardır. Düzdür, indi qəzet və jurnallar da bəzi sözlər yazır, hücumlar edirlər. Belə insanların bəziləri keçmişdə belə işlər görmürdülər, bəziləri isə görürdülər. Biz ötən illərdə mətbuatda prezident, müxtəlif məmurlar, hətta inqilabın bəzi təməl prinsipləri əleyhinə yazılan çoxlu məqalələr görmüşük. Heç kim onlara bir söz deməyib. Mən bu nümunələri xatırlayıram, toplantı uzanmasaydı, deyərdim.

Mən 6-7 il bundan öncə mədəni hücüm haqqında danışdım. Həmin çıxış müzakirəyə səbəb oldu və bəzi adamlar ona etiraz etdilər. Bəlkə də bəzilərinizin yadındadır. O zaman İslam Respublikası televiziyasında üç-dörd nəfərin iştirakı ilə bu barədə bir dəyirmi masa təşkil edildi. Onların biri mənim fikrimlə müvafiq idi, onu müdafiə edirdi, digərləri isə bütünlüklə rədd edirdilər ki, xeyr, bunlar yalnız xəyaldır. Deməli, görürsünüz ki, azadlıq var və heç kim müxaliflərə toxunmur.

Bəli, bəzilərinin qovluğu təmiz deyildi, əlləri bulaşmışdı, səhnəyə çıxmağa və bir söz deməyə qorxurdular. Nəsə desəydilər də, heç kimin onlarla işi olmazdı. Bu gün dediklərini o zaman da desəydilər, heç kim onlara heç nə etməzdi. Amma keçmişləri yaxşı olmadığına görə özləri qorxurdular. Onların inqilaba, imama və imamın İslam təfəkkürünə qarşı kinləri çoxdan bəllidir. O zaman onların özləri səhnəyə çıxmağa cürət etmirdilər. Son prezident seçkilərindən sonra isə yanlış təhlillərinə görə cəsarətləndilər. Onların yanlış təhlili bu idi: elə bilirdilər ki, otuz milyon insan quruluşun əleyhinə səs verib. Buna görə sevinirdilər. Halbuki otuz milyon insan quruluşun möhkəmlənməsinə səs vermişdi. İslam quruluşunun fəxrlərindən biri budur ki, inqilabın qələbəsindən 18 il ötdükdən sonra seçkilərdə səsvermə hüququ olan 32 milyon insanın 30 milyonu, yəni təxminən 90 faizi seçkilərdə iştirak edir. Onlar quruluşun müsbət cəhətini, mənfi cəhət kimi başa düşürdülər.

Öncə xarici radiolar seçkilərin ilk günlərindən müntəzəm fəryadlara başlayıb, bu azğınlığa və səhvə hazır olanlara xətt və istiqamət verirdilər ki, bəli, 30 milyon insan quruluşa qarşı narazılığını ifadə edib. Quruluşun müsbət cəhətini onun mənfi cəhəti kimi təqdim etmək istəyirdilər. Bu yazıqlar da ya inandılar, ya da özlərini aldatdılar; 30 milyon əleyhdarı olan bir ölkədə özlərinin də durub danışmalı olduqlarını düşündülər. İndi də cəsarət tapıb danışırlar. Halbuki heç bir fərq yoxdur. O zaman da qanunları pozur, məntiqi hədləri aşır və qanuna uyğun şəkildə təqib olunurdularsa, bu gün də elədir; heç bir şey dəyişməyib. Bu gün də kimlərisə yoldan azdırsalar, fəsada çəksələr, xof yaratsalar, yenə elə olacaq, heç bir fərq olmayacaq. Buna görə, "yeni əldə edilmiş azadlıq" sözünü təkrarlamaq lazım deyil. Bəzi məmurlar da mətbuata müraciətlə dönə-dönə deyirlər ki, azadlıqlardan çox istifadə eləməyin, azadlığın özü təhlükəyə düşə bilər. Bu nə sözdür?! Azadlıqdan nə qədər çox isifadə etsələr, bir o qədər yaxşıdır, lakin sərhəddən çıxmamaq şərtilə. İnsanlar Allahın verdiyi haqdan nə qədər çox istfadə etsələr, İslam quruluşu öz məqsədlərinə daha yaxınlaşar. Biz həmişə yazıçılardan gileylənmişik ki, niyə yazmırlar, niyə araşdırmırlar, niyə təhlil etmirlər.[1]

[1] Yenə orada.

## İkinci fəsil: Beynəlxalq hegemonluq, ABŞ və ABŞ-ın müsəlman İrana qarşı məqsədləri

**Sual:** Hegemonluq nədir və hegemon kimdir?

**Cavab:** Quranda hegemonluğun mənası budur ki, bir şəxs, bir qrup, yaxud bir cinah özünü haqqın fövqündə bilsin, haqqa tabe olmasın, özünü və öz gücünü haqqın meyarı hesab etsin. Quranın bizim üçün təsvir etdiyi tarixin ilk hegemonu İblisdir: "İmtina və təkəbbür etdi"[1]. O, ilk təkəbbür edəndir.

Bir müsəlmanın, möminin, yaxud təkallahlının hətta bir gün, bir an da İblis və şeytanla düşmənlikdən əl çəkməsini fərz etmək mümkün deyil. Ümumiyyətlə İslam xətti İblis və şeytan əleyhinə xətdir. Peyğəmbərlərin dəvəti zamanı hegemonlar Allahın dəvətini və tövhidi qəbul etməyib, ona qarşı mübarizəyə qalxan və hegemonluq edən şəxslər idilər: "(Şüeyb) tayfasının təkəbbürlü əyanları dedilər: "Ey Şüeyb! Səni ixrac edəcəyik".[2] Peyğəmbər haqqı deyib, xalqı haqqa çağıranda hegemonlar deyirlər: "Çox danışsan, səni ixrac edəcəyik".

Bu təkəbbürlü danışıq tonundan haqqa dəvət edənə qarşı istifadə edilir. Bu, hegemonluğa dair aydın təsviridir. Hegemonluq bugünkü dünyada mövcud olan istismarçı sistem, siyasi arenada supergüc xisləti və supergüc olmağa can atan hər bir şeydir. Hələ supergücə çevrilməyən, lakin özünü yarımçıq supergüc sayan qüvvələrin rəftarı da belədir.

Bu gün təəssüf ki, bütün dünya hegemon qrupların əməlləri ilə doludur. Onların hamısının başında Amerika durur. Dünyanın o başında olan bir dövlətin bölgə xalqlarının mənafeyinin əksinə olaraq, burada öz maraqlarını təmin etməyə çalışması hegemon ruhdur, başqa bir şey deyil. Bir dövlət ona müxalif olan hər hansı dövlətə açıq şəkildə və heç bir xəcalət çəkmədən "mən səni məhv edərəm" – deyir və özünü

---

[1] Bəqərə/34.
[2] Əraf/88.

buna haqlı bilir. Bu hegemon xislətdir. Bu gün ABŞ Latın Amerikası ölkələrinin bir çoxuna və dünyanın digər ölkələrinə qarşı bu işi görür. Hegemonluğun cavabı olmadığından, maraqları təhlükəyə düşdüyündən və maraqları hansısa dövlətin süqutu ilə daha yaxşı təmin olunduğundan, bu mövqeyi seçir.

Bu gün dünyanın siyasi mənzərəsinə baxsanız, çoxlu belə hallar müşahidə edərsiniz. Hansısa qüvvələr gəlib bir ölkəni qoruğa çevirir, bir xalqı öz evindən çıxarır, zorla orada başqa bir dövlət qurub əvvəlkinin yerində oturdur. Bu, hegemon hərəkətdir. Fələstin hadisəsində dünyanın hegemon gücləri əl-ələ verib bütün xalqı öz evindən didərgin saldılar. Çox böyük və qəribə olan bu məsələyə bu gün dünya vərdiş etmişdir. Bir xalqı ölkəsindən qovur, sonra dünyanın müxtəlif yerlərindən başqa insanları zorla oraya gətirib yalançı, qondarma bir xalq düzəldir, strateji ərəb regionunda böyük güclərin maraqlarını təmin etmək üçün başında bir hökumət də yaradırlar. Bu, sözügedən hegemonluqdur.

Bu gün amerikalıların minlərlə insanın öldürülməsindən çox soyuqqanlılıqla danışdığını görürsünüz. Hiroşimada bombanın partlamasını və minlərlə insanın qətlini adi hal sayıb deyirlər ki, bu addım məsləhət üzündən idi, biz bunu lazım bildik. Bu, hegemon xislətdir. Bir təyyarəni sərnişinləri ilə birgə vurub saldılar, etiraz edəndə də deyirlər ki, bir hadisə idi, oldu-bitdi, daha bu barədə danışmayın.

İnsan öldürmək və cinayət törətmək onlar üçün adi bir işdir. Lakin öz maraqları qarşıya çıxdıqda, yaxud məsələn, bir vətəndaşları dünyanın bir tərəfində bir qələt eləmiş və bir neçə nəfər qəzəblənib başına bir bəla gətirmişsə, bütün dünyaya səs salırlar. Çünki özlərinə heç bir bəşər övladına tanımadıqları həyat haqqını tanıyırlar. Bu, dünyanın indiki istismarçı sistemində mövcud olan hegemonkuqdur.

Biz bütün dünyaya elan etmişik ki, İslam inqilabı istismarçı sistemə müxalifdir.

**Sual:** İstismarçı sistem hansı xüsusiyyətlərə malikdir?

**Cavab:** İstismarçı sistem budur ki, bəzi dövlət və güclər hegemonluq, digər xalq, qrup, ölkə və dövlətlər də bunu qəbul etsinlər. Bu iki tərəf istismarçı sistemin tərəfləridir. Biz istismarçı sistemi rədd etdik, rədd edirik və onunla mübarizə aparırıq. Biz bu sistemin hər iki tərəfini müqəssir bilirik: həm istismar edəni, həm də istismar olunanı. Hegemonluq sözügedən istismarçı sistem deməkdir.

Siz bu gün Qərbə baxsanız, hegemonluğun və istismarçılığın bu xüsusiyyətinin əlamətlərini görərsiniz. Əlbəttə, dünyada heç bir ölkə öz istismarçılığını və hegemonluğunu ABŞ rejimi kimi həyasızcasına elan etmir. Lakin bu xüsusiyyət təkcə Amerikaya məxsus deyil. Bütün Qərb quruluşlarında, onlara tabe olan mürtəce və vassal dövlətlərdə və özləri güc hesab olunan dövlətlərdə istismarçı xüsusiyyətlər özünü göstərir; baxmayaraq ki, dünya onları böyük güc kimi qəbul etmir.

Avropadakı bu hicab qalmaqalına baxın. Verdikləri azadlıq şüarlarına rəğmən, özlərindən başqa və özlərinə zidd təfəkkürün kiçik əlamətinə və məhdud timsalına belə heç vəchlə dözmürlər. Bu, sözügedən hegemon ruhdur. Bu "ey Şüeyb, səni ixrac edəcəyik", "bizim düşündüyümüzdən fərqli danışdığın üçün sənə dözməyəcəyik" deməkdir.

Məzhəbçi quruluşu və azlığın çoxluğa hakimiyyətini qəbul etdirmək üçün Livan xalqına göstərilən təzyiq bütün demokratiya iddialarının ziddinədir. Ancaq bu işlərin dünyada demokratiya iddiasında olanlar tərəfindən icra olunduğunu görürük. Bu, dünyada istismarçılığın əlamətlərindən və hegemonluğun xüsusiyyətlərindəndir.

Görürsünüz ki, bütün dünyada mübariz, müsəlman və ixlaslı qruplar əleyhinə təbliğat aparanlar əksər hallarda hegemonluğu müdafiə edirlər. Onlar ağır həyat şəraitindən qurtulmaq üçün canlarından keçməyə hazır olan fədakar insanları terrorçu kimi təqdim edirlər. Bütün bunlar hegemonluğun xüsusiyyətlərindəndir.

Quranda hegemon adlandırılan şəxslərdən biri firondur. O, Musa (ə) haqda hegemon sözlər danışırdı. Buna əsasən, hegemonluq məsələsi

Quranın toxunduğu bir məsələdir. Və biz yuxarıda deyilən bütün xüsusiyyətlərə müxalifik.[1]

**Sual:** Nə üçün hegemon cəbhəyə və birinci növbədə Amerikaya böyük şeytan ləqəbi verildi? Nə üçün onların fəaliyyəti ən çox İran İslam Respublikasına qarşı yönəlmişdir?

**Cavab:** Düşməni tanımaq o bilgilərin hamısının nəticəsi, onları tamamlayan və təkmil edəndir. O olmasa, müsəlmanın qəlbi və beyni oğru, xain və soyğunçu qarşısında mühafizəsiz bir xəzinəyə çevrilər. Həcc əməllərindən şeytanı daşlamaq düşməni tanımağın və düşmənlə mübarizənin simvoludur. Əziz İslam peyğəmbəri (s) bəraət azanını həcdə ucaltdı, möminlərin əmirinin dili ilə bəraət ayələrini həcc mərasimində tilavət etdi. İslam və İslam ümməti nə vaxtsa qəddar düşmənlərdən qurtulsa və belə bir şey mümkün olsa, bəraət də mahiyyətini itirəcək. Lakin bu gün düşmənlər və döyüşlər varsa, düşməni unutmaq, bəraətə biganə yanaşmaq böyük və ziyanlı bir səhvdir.

Əgər qabaqkı məsələlər bəlli olsa, İslam dünyasının düşməni də tanınar. Hər hansı amil, şəxs, hökumət, yaxud quruluş müsəlmanları İslam kimliyinə yadlaşdırırsa, yaxud təfriqəyə çəkirsə, İslam izzətini və şərəfini əldə etməyə laqeyd, yaxud məyus edirsə, düşmənin işini görür; özü düşmən olmasa da, işi düşmən işidir.

Quranda şeytan peyğəmbərlərə qarşı çıxan, fəsad və pozğunluq törədən şər qüvvələrin adıdır: "Beləcə, Biz hər peyğəmbər üçün insan və cin şeytanlardan düşmənlər yaratdıq".[2] Bütün Quranda şeytan haqda danışılmış, vəhyin nazil olduğu müddət ərzində daim adı çəkilmişdir. Bu o deməkdir ki, düşmən müsəlman cəmiyyətlər tərəfindən heç zaman unudulmamalıdır.

Bu gün hegemonluğun siyasi cəbhəsindən ibarət olan şeytanın əsas səyi müsəlmanları öz gələcəklərinə ümidsiz, qiymətli elmi və

---

[1] Tələbə, şagird və müəllimlərlə görüşdəki çıxışdan: 1989.

[2] Ənam/112.

mədəni irslərinə etinasız etməyə yönəlmişdir. Dünya müsəlmanlarına ümid verən, onları İslama əsaslanan gələcək qurmaq haqda düşündürən hər bir şey hegemonluğun gözündə olduqca mənfurdur. Böyük şeytan müsəlman İranla ona görə düşməndir ki, İslam Respublikasının yaranması, çoxlu əhalisi, tükənməz maddi və mənəvi sərvətləri olan böyük ölkənin idarəsi müsəlmanlara İslamın izzət və şərəfini müjdələyir və onların qəlbində ümid yaradır.

İranda İslam Respublikasının yaranmasından ötən 19 ildə bütün dünya müsəlman xalqların rəftarında ümid əlamətlərini görmüşdür və görür. Zaman ötdükcə, hegemon dünyanın bu uca və davamlı dalğaya qarşı tədbirləri daha çox iflasa uğradıqca bu ümid daha da artmışdır.

Fələstinlilərin oyanışı və işğalçı sionistlər önündə İslam devizi ilə azadlıq mübarizəsinin başlanması, Avropada müsəlman xalqların oyanması və avropalıların əli, yaxud razılığı ilə baş verən qanlı faciələrə rəğmən, müsəlman Bosniya ölkəsinin yaranması, Türkiyə və Əlcəzairdə islamçıların Qərb demokratiyası yolu ilə hakimiyyətə gəlməsi, - əlbəttə, onların hər ikisi çevriliş, xuntanın müdaxiləsi və İslamın qlobal düşmənlərinin ədavəti nəticəsində yarımçıq qaldı - Sudanda İslam təməlli hökumətin qurulması və xarici əngəllərə rəğmən, Allahın yardımı sayəsində hələ də İslam iqtidarı yolunda irəliləməsi, uzun illər İslamı yaddan çıxarmış bir çox müsəlman ölkələrində İslam şüarlarının yenidən dirçəlməsi və digər çoxlu hadisələr İranda İslam Respublikası qurulmasının bütün İslam dünyasına və müsəlman ümmətə güclü təsirinin əlamətləridir.

Hegemonluğun müsəlman İranla düşmənliyi də eyni nisbətlə günbəgün daha ağır və daha şiddətli olmuşdur. Ardıcıl hərbi, iqtisadi, siyasi və informasiya təxribatlarının məğlubiyyətindən sonra hegemonluq indiyədək müsəlman İran əleyhinə fəaliyyət göstərən yeni cəbhə açmışdır. Bu cəbhə bir təbliğat müharibəsidir. Onda məqsəd İran xalqını və hökumətini ittiham etmək və nəticədə müsəlman xalqların qəlbində yaranmış ümid işığını söndürməkdir. Bu müharibədə göstərməyə çalışırlar ki, İran xalqı möhtəşəm inqilab hərəkətinə, onun

şüarlarına, İslam və Quranın hakimiyyətinə peşman olmuş, ölkə məmurları İslama və inqilaba arxa çevirmişlər. Fakt və nümunə kimi İran hökumətinin Amerika dövləti ilə dost münasibətlər qurmaq istədiyini iddia edirlər. Ölkə məmurlarının bu iddianı dəfələrlə inkar etməsi, İslama, inqilaba və mərhum imamın xəttinə eşq və sadiqliyə dair daimi təkidi hegemonluğun, xüsusən də hegemon ABŞ rejiminin media qurumlarının və hətta siyasi məmurlarının öz iddialarını müxtəlif söz və tərzlərlə təkrar etmələrinə, dünya və xüsusən də İslam dünyası miqyasında təhlillərdə, xəbər və reportajlarda dönə-dönə təkrarlamalarına mane olmur.[1]

**Sual:** Qlobalaşşma nədir? Nə üçün bəzi xalq və dövlətlər ondan qorxur, mitinqlərlə və digər aksiyalarla ona qarşı etirazlarını bildirirlər?

**Cavab:** Qardaş və bacılar! Mənim əziz övladlarım! Bu gün yalnız İranın yox, ABŞ və Avropanın inkişaf etmiş ölkələri sırasında olmayan bütün ölkələri əlavə bir təhlükə təhdid edir. Bu əlavə təhdid bir tərəfdən böyük güclərin və birinci növbədə Amerikanın birbaşa müdaxiləsi, digər tərəfdən isə qloballaşma dalğasıdır. İndi ABŞ-ın özündə də xalqın bir hissəsi bu dalğa əleyhinə nümayişlər keçirir.

Qloballaşma nədir? Yəni əsasən Birləşmiş Millətlər Təşkilatında sözü keçən və dünyanın dünənki müstəmləkəçilərindən olan qlobal güclərdən ibarət bir qrup və bir neçə ölkə öz mədəniyyətlərini, iqtisadiyyatlarını və adət-ənənələrini bütün dünyaya yaymaq istəyirlər. Onlar 95 faizi özlərinə məxsus olan bir korporasiya yaradır, 5 faizini də digər ölkələrə verirlər. İxtiyar və qərar onların əlindədir. Bu gün bir çox ölkələrin, üçüncü dünyanın bir çox siyasi şəxsiyyətlərinin, dünyanın bir çox ziyalılarının etiraz etdiyi, mübarizə apardığı və qorxduğu qloballaşma budur. Bizim məmurlarımız danışırdılar ki, beynəlxalq konfranslarda və Qoşulmayanlar hərəkatının iclasında iştirak edən bir çox ölkələr qloballaşmadan qorxurlar; çünki qloballaşmanın Amerikanın

---

[1] Böyük Rəhbərin hörmətli Allah evinin ziyarətçilərinə müraciətindən: 1998.

digər ölkələrin iqtisadiyyatına, mədəniyyətinə, ordusuna, siyasətinə, hökumətinə və təxminən hər bir şeyinə hakim olması demək olduğunu bilirlər. Bu hələ birbaşa müdaxilədən əlavə bir şeydir.[1]

**Sual:** Digər ölkələrlə əlaqə qurmaqda ABŞ-ın məqsədi nədir?

**Cavab:** Dünya ilə əlaqə və beynəlxalq fəaliyyətlər üçün amerikalıların yalnız bir səbəbləri var; onu da gizlətmir və açıq deyirlər. Bu səbəb ABŞ-ın maraqlarıdır. Kiminləsə əlaqə qurmalarının səbəbini soruşanda deyirlər ki, bizim maraqlarımız tələb edir. Onlar üçün öz maraqları önəmlidir. Amerika heç bir ölkəyə xeyir vermir. Əgər bir ölkəyə bir neçə milyon dollar kredit ayırırsa, ondan bir neçə dəfə artıq imtiyazlar alır. Siz bu gün bu regiona baxsanız, ətrafımızda olan ölkələrin yoxsulluq, gerilik, istibdad, fəsad və müxtəlif problemlər içərisində olduğunu görərsiniz. Məgər bunların Amerika ilə əlaqəsi yoxdur?! Bunların hamısının Amerika ilə əlaqəsi var, amerikalılar onlardan istifadə edirlər, amma onlara xeyir vermirlər. Amerikalılar dəfələrlə elan ediblər ki, müxtəlif ölkələrlə münasibətdə məqsədləri ABŞ dövlətinin maraqlarını təmin etməkdir. Bu sözün mənası nədir? Mənası odur ki, amerikalılara görə bir ABŞ vətəndaşının marağı kimliyindən asılı olmayaraq, hər bir İran vətəndaşının maraqlarına, bir amerikalı gənc iranlı gəncə tərcih edilir. Amerikanın beynəlxalq siyasətində əsas məqsəd budur.

Onlar yalandan və hiyləgərliklə insan hüquqlarından danışırlar. Amerika elə ölkələrin neftindən istifadə edir ki, onlarda bu günə qədər bir dəfə də xalq tərəfindən seçilmiş parlament olmamışdır. Hökumət başçısının, prezidentin xalq tərəfindən seçilmədiyi bu ölkələrdə Amerika demokratiyanın və insan hüquqlarının adını da çəkmir. Nə üçün? Çünki maraqları təmin olunur. Səddam rejiminin İranla vuruşduğu zaman onların maraqlarına uyğun olduğuna görə Səddamla hərtərəfli əməkdaşlıq etdilər. Səddam Küveytə hücum edib onların maraqlarını

[1] Tehranın böyük müsəllasında gənclərlə görüşdəki çıxışdan: 2000.

təhlükəyə salanda isə onunla mübarizə apardılar və Səddam zalım, cinayətkar və etimadsız ünsür oldu. Məgər əvvəl belə deyildi?![1]

**Sual:** Bu gün ABŞ İranda və dünyada hansı maraqları izləyir?

**Cavab:** Beynəlxalq istismarçı sistem mövcuddur və onun başında ABŞ rejimi durur. Keçmişdə digərləri olub, gələcəkdə də digər qüvvələrin olması mümkündür. Bu gün Amerika dünyada özünə maraqlar tərif etmişdir; gizli də deyil, məqalələrdə yazır, siyasi təhlillərdə deyirlər. Onların marağı təkqütblü dünya yaratmaqdan ibarətdir. Yəni dünya ölkələrinin başında Amerika adlı bir dövlət, ondan aşağıda isə bəziləri elmi və hərbi gücə, elmi inkişaflara malik olan müxtəlif dövlətlər durur; onlarla birtəhər keçinmək və ziddiyyət yarandıqda onların maraqlarını önə keçirmək lazımdır. Bu, Amerika təhlilidir. Hərbi, yaxud iqtisadi gücə malik olmayan dövlətlər də var. Onlara ad qoymuşlar: inkişaf etməkdə olan ölkələr, yaxud üçüncü dünya ölkələri. Amerikanın iqtidarını artırmaq üçün belə ölkələrin bütün imkanlarından istifadə etmək lazımdır; əgər onların enerjisinə - neft və qazına ehtiyacımız varsa, hansısa bir yolla onları ələ keçirmək lazımdır; əgər onların bazarına ehtiyacımız varsa, mümkün şəkildə bazarlarına yol tapmaq lazımdır; əgər onların arasında siyasi və iqtisadi güc saxlamağa ehtiyac varsa, bu yolu açmaq lazımdır; əgər həmin ölkələrdə maneçilik yaradan hökumətlər iş başındadırlarsa, onları kənarlaşdırmaq lazımdır; əgər o ölkələrdə maneçilik yaradan düşüncələr varsa, o düşüncələri cəmiyyətin beynindən silmək lazımdır; əgər o ölkələrdə satlıq şəxsiyyətlər varsa, onları almaq lazımdır; əgər o ölkələrdə bu siyasətə qarşı çıxan hökumətlərin əleyhinə təzyiq vasitəsi kimi istifadə edilməsi mümkün olan qüvvələr varsa, pul xərcləyib onları işlətmək lazımdır. Bu, hegemonluğun siyasətidir. Bu gün Amerika bu siyasəti aparır. Bir zaman dünyanın şərqində, qərbində, Asiyada, Hindistan yarımadasında, Avstraliyada, Kanadada və digər yerlərdə

[1] Yenə orada.

İngiltərə bu siyasəti aparırdı. Ondan öncə çar Rusiyası nüfuzu altında olan məhdud regionda bu siyasəti aparırdı. Əlbəttə, bu gün imkanlar daha modern və daha mütərəqqi olmuşdur.

Bu siyasət yalnız İslam Respublikası quruluşu əleyhinə yönəlmişdir? Xeyr! Bu siyasət hər yerdə yürüdülür. Biz İslam Respublikasında bu siyasəti görürük, digər dövlətlər də görürlər. Lakin hökumətlər fərqlidir. Bəzi hökumətlər və dövlət məmurları öz maraqlarını bu istismarçı istəklər qarşısında təslim olmaqda görürlər, bəzi hökumətlər üçün xalqın maraqları əhəmiyyət kəsb etmir, bəzi hökumətlər Amerikanın informasiya və kəşfiyyat şəbəkələrinin təsir və istismarından bütün vücudları ilə qorxurlar.[1]

**Sual:** ABŞ nə üçün İran İslam İnqilabına düşməndir? Amerikanın həqiqi yox, xəyali düşmən olduğunu iddia etmək mümkündürmü?

**Cavab:** Doğrudur ki, İran İslam İnqilabı Pəhləvi rejimini devirdi, amma bu mübarizə yalnız Pəhləvi rejiminə qarşı yox, həm də Amerikanın müdaxiləsinə, bu xalqın iliyinə qədər işləmiş nüfuz və istismarına qarşı mübarizə idi. İlk gündən bütün dünya da anladı ki, bu quruluşun və bu inqilabın düşmənlərinin önündə ABŞ durur. İndi biz gözümüzü bağlayıb özümüzü aldadaq və deyək ki, yox, Amerika bizə düşmən deyil?! O, düşmən olmadığını göstərmək üçün nə etmişdir?! Bizim sərvətlərimiz üzərinə həbs qoymamışdır?! İndi bu xalqın milyardlarla dollarına Amerikada həbs qoyulmuşdur. Keçmiş rejim Amerikadan çoxlu məhsullar almışdı, amma hələ İrana gətirilməmiş inqilab oldu. Bunları anbarlarda saxlayırlar. Biz bir neçə il onları qaytarmağa çalışdıq, amma qəbul etmədilər, öz əmlakımızı bizə vermədilər, halbuki pulunu almışdılar. Maraqlı burasıdır ki, özləri üçün saxlama haqqı da hesablayaraq borclarımızdan çıxmağa başlayıblar. Bir düşmən bundan artıq nə etməlidir ki, düşmən olmasına inansınlar?!

---

[1] Ərdəbil vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: 2000.

Bizim əleyhimizə səkkizillik müharibə baş verdi. Orta Şərq regionu ölkələrinin və bəzi xarici ölkələrin başçıları bu uzun illərdə mənə deyiblər ki, İraqın İrana hücumu öncədən razılaşdırılmışdı, amerikalılar məsələdən xəbərdar idilər, buna həvəsləndirmiş və şərait yaratmışdılar. Mənim əlimdə sənəd yoxdur, amma bütün faktlar bunu göstərir. Biz yazılı sənəd olmadan faktların təsdiqlədiyi bir çox məsələləri iddia etdik, müharibədən bir neçə il sonra özləri də etiraf etdilər. Məsələn biz dedik ki, amerikalılar bizim hərbi mərkəzlərimizdə hərəkətlərimiz, toplaşmalarımız və qüvvələrin yeri haqda peykdən alınmış məlumatları İraqa ötürür. İraqın özündə bu imkanlar yox idi. Biz o zaman bunu anladıq, faktlar bunu göstərirdi. Müharibə bitəndən bir neçə il sonra Avropa və Amerikada fəaliyyət göstərən bəzi təşkilatların özləri bunu açıqca söylədilər. Onlar müharibəyə şərait yaratdılar, həvəsləndirdilər, bütün müharibə dövründə Səddam Hüseynə kömək etdilər. İslam Respublikasının qələbəsi görünəndə isə dedilər ki, biz bu müharibədə qalibin olmasına imkan verməmərik. Əgər Səddam Xuzistanı alıb özünün dediyi kimi üç günə Tehrana girsəydi, o zaman qalib olacaqdı! Müharibədən sonra da harada imkan tapdısa, böyük güc kimi bu quruluşa və bu xalqa qarşı düşmənlik etdi. Bütün bunlarla yanaşı biz gözlərimizi bağlayaq?! Bu, ağıllı işdir?! Deyək ki, xeyr, inşallah pişik imiş?![1]

**Sual:** İran İslam İnqilabının mahiyyətcə antihegemon və antiamerika olması bəllidir. Amma ABŞ-la düşmənliyi bizmi başlatdıq? Bu təhlil düzgündürmü ki, Amerikanın casus yuvasının tutulması onun müsəlman İranla düşmənliyinə səbəb oldu və əslində buna başlayan və müqəssir biz olduq?

**Cavab:** Casus yuvasının tutulmasından sonra amerikalılar başladılar ki, nə üçün bu işi gördünüz, bu, təhqirdir, beynəlxalq normalara ziddir və s. Bəzi adamlar elə bilirlər ki, bizim tələbələrimizin

---

[1] Yenə orada.

tutduğu casus yuvası həqiqətən belə (normal səfirlik) olmuşdur. Xeyr! Bu inqilabdan sonra bu xalq və İslam Respublikası quruluşu Amerikaya çox göz yumdu. İnqilabın əvvəlində amerikalılara qarşı nifrətinə görə xalq səfirliyin əməkdaşlarını tutub imamın oturduğu Rifah və Ələvi mədrəsəsinə gətirdi. İmam isə onların azad edilməsinə və ölkədən çıxmaq istədikləri təqdirdə onlara şərait yaradılmasına dair göstəriş verdi; heç kim onlara toxunmadı.

Amerika isə əl çəkmədi. Onlar inqilabın ilk aylarında hər gün inqilab əleyhinə bir təxribat hazılayır, bu xalqa qarşı bir formada düşmənlik edirdilər. Onların düşmənliklərinə reaksiya olaraq bizim gənclərimiz Amerika səfirliyini tutdular, səfirliyin əməkdaşlarını bir müddət saxladılar, sonra da göndərdilər, məsələ bitdi və Amerika ilə əlaqə kəsildi. Yəni Amerikanın hegemon siyasəti İslam inqilabının birinci günündən onun əleyhinə təxribatlara başladı. Onlar əmin idilər ki, qısa müddətdə İslam quruluşunu və inqilabını məhv edəcəklər. Buna əmin idilər, lakin yanlış anlamış, xalqı, İslamı, ölkə məmurlarını və inqilabı tanımamışdılar. Bu gün də yanlış anlayırlar. Bu gün də Amerika məmurlarının danışıq tonu zahirən mülayimləşsə və dəyişsə də, əslində həmin şeydir. Onlar bu ölkənin siyasi və iqtisadi qaynaqlarına hakim olmaqdan azına qane olmurlar. Onlar inqilabdan qabaqkı vəziyyətin bərpa olunmasını istəyirlər. Təbii ki, birinci mərhələdə bunu demirlər, amma məqsədləri budur. Onlar xalqın oyanışına və müqavimətinə səbəb olan İslam hakimiyyətinə qarşıdırlar.[1]

**Sual:** Amerika ilə mübarizə dövri və taktiki bir mübarizədir, yoxsa daimi mübarizə? Nə üçün amerikalılar bizi kobudluqda və macəraçılıqda ittiham edirlər?

**Cavab:** İran xalqının mübarizəsi şüarçılıq, emosional, dövri və taktiki mübarizə deyil, ideoloji kökü olan və Qurandan qaynaqlanan dərin mübarizədir.

---

[1] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan: 1998.

Biz dünyada mövcud olan bütün hegemon əlamətlərə qarşı çıxırıq. Dünyanın digər hegemon dövlətlərindən daha hegemon olduğuna, bütün xalqlara və birinci növbədə bizim xalqımıza qarşı daha nadancasına və təkəbbürlülüklə hegemonluq etdiyinə görə ən çox Amerikaya qarşı çıxırıq. İran xalqının mübarizəsinin təhlili belədir. Əksəri qərəzli siyasi mərkəzlərə bağlı olan analitiklər İran hadisələrini obyektiv deyil, qərəzli təhlil edirlər. Onlar deyirlər ki, İranda iki cinah var: biri belə deyir, biri elə. Yaxud məsələn, deyirlər ki, filan şəxsiyyətlə razılaşmaq üçün hazırlıq görürlər. Bunlar bizim düşmənlərimizin reallıqdan uzaq təhlilləridir.

İranda kim İslam inqilabına, İslama və bu inqilabın İslam təməllərinə inanırsa, bu gün başında Amerikanın durduğu hegemon gücün bayraqdarları ilə daimi mübarizəyə də mütləq inanır. Lakin unutmayaq ki, informasiya vasitələri düşmənlərimizin əlindədir. Həm də onlar təbliğat yollarını çox yaxşı bilirlər, bunu öyrənmək üçün çoxlu pullar xərcləmişlər. Onlar çox uğurla bir xalqı kobudluqda, vəhşilikdə, normaları bilməməkdə və macəraçılıqda ittiham edə bilirlər. Səbəb yalnız budur ki, həmin xalq öz insani haqlarını tələb edir və bunu pozanlara qarşı çıxır. Bu bir neçə ildə bizim xalqımıza qarşı bu işləri gördülər. Bizsə burada oturduğumuz halda o təbliğatın təsiri altına düşməməliyik.

Nə üçün inqilabçı ölkə olan müsəlman İran daxilində Amerika əleyhinə fəryadı kimsə kobudluq və macəraçılıq bilməlidir?! Bu onların təbliğatıdır. Macəraçılığı sizin evinizə girən oğru edir, onu evdən qovan, ondan şikayət edən, başına qışqıran, yaxud orada-burada öz məzlumluğunu söyləyən sizlər yox.

Kobudluğu hər bir ölkənin, o cümlədən bizim ölkəmizin və xalqımızın yüzlərlə, minlərlə inqilabçı insanının canına heç bir dəyər tanımayan edir, düşmənlərin və belə güclərin kobudluğuna və vəhşiliyinə qarşı fəryad çəkən bizlər yox; Livanda və digər yerlərdə ABŞ qüvvələrinin, onların siyasi və hərbi muzdurlarının təzyiqi altında intihari əməliyyatlar keçirib öz varlıqlarını və qəzəblərini göstərən

zavalıllar yox. Bəli, beynəlxalq media bu hərəkəti kobudluq, macəraçılıq, normalardan çıxmaq kimi göstərir, öz əməllərini isə görmürlər.[1]

**Sual:** Amerikanın düşmənliyini aradan qaldırmaq mümkündürmü? Yəni nə qədər bədxah olsa da, düşməni düşmənlikdən daşındırmaq olmazmı? Belə bir şey mümkündürsə, onun şərtləri nədir?

**Cavab:** Mən bu suala iki cavab verəcəyəm:

Bir cavab budur: Mən baxanda təbii şəkildə belə bir imkan görmürəm. Təbii ki, bu bir siyasi baxışdır; başqa bir siyasi adamın fərqli fikri də ola bilər. Mənim başa düşdüyüm, bir tərəfdən bu ölkəni, inqilabı və xalqı tanıdığıma, digər tərəfdən də hegemonluq, hegemon hökumətlər və onların zəif xalqlara baxış tərzi haqda bildiklərimə görə, eləcə də tarixdən, xalqların taleyindən və dünyanın siyasi mütəfəkkirlərinin sözlərindən anladığım budur ki, bu düşmənlik bitməyəcək. Səbəb olaraq qısa bir cümlə deyə bilərəm: Çünki İslam hökuməti yalnız bir ölkədə yeni bir quruluşun və rejimin yaranması deyil, dünya üçün bir örnəyin yaranması deməkdir. Amerikalılar üçün problem də budur.

Biri var bir ölkədə yeni bir rejim hakimiyyətə gəlir və hansısa dövlətə, hansısa siyasətə müxalif olur. Hər halda, müzakirə aparırlar, bir addım bu geriyə çəkilir, bir addım o çəkilir və razılaşırlar. Bu məsələdə isə elə deyil. Bu quruluş müsəlman xalqlar üçün bir örnək sayılır. Düzdür, üz vurmur, qəzetlərdə yazmır, xüsusən də güclü şəxsiyyətləri bunu çox gizlədirlər. Amma bu bir həqiqətdir ki, İslam dünyasında - Misirdə, Şimali Afrikada, Orta Şərqdə və bizim Şərq rejionumuzda müsəlman xalqlar hərəkətə gəlir, fəallaşır və gözləri İrana baxır.

Bu təcrübə dünya müsəlmanlarına görə uğurlu təcrübədir. Bizim düşmənlərimiz deyirdilər ki, bu təcrübə beş il də davam gətirməyəcək; deyirdilər ki, iki il də davam gətirməyəcək. İslam quruluşunun ömründən iyirmi bir il ötür və dünyada hamı etiraf edir ki, bu gün on il

---

[1] Vilayət hədisi, c. 2, səh: 304-305.

öncədən və inqilabdan on il öncədən dəfələrlə güclənmişdir; xalqın etimadını və xalqla əlaqəni qorumuş, çoxlu işlər görmüş, öz müstəqilliyini gücləndirmiş, şüarlarını böyük miqyasda həyata keçirmişdir. Sözsüz ki, dünyanın heç bir yerində və heç bir şəraitdə şüarlar qısa zamanda həyata keçə bilməz - xüsusən də bu qədər müxalif və düşmən olduqda. Lakin ölkə yaxşı inkişaf etmiş və uğurlu bir örnəyə çevrilmişdir. Əgər bununla razılaşsalar və olduğu kimi qəbul etsələr, sanki digər ölkələr üçün bu örnəyin altından imza atmışlar.

Onlar razılaşmağa hazırdırlar, amma bu şərtlə ki, İslam Respublikası daha İslam Respublikası olmasın; nə İslam olsun, nə də respublika; nə xalqa güvənsin, nə İslama əsaslansın. Belə olsa, o zaman məmnuniyyətlə razılaşarlar. Hökumətin başında kim olursa-olsun, bir zaman mənim kimi bir insan da özünü səadətin zirvəsindən rəzalətin dibinə endirib iş başında qalmaqdan ötrü bütün amallarından, islamiyyət və xalqçılıqdan vaz keçsə, onunla razılaşarlar. Onlar şəxslərə qarşı deyillər, istiqamətlərə, amallara və xətlərə qarşıdırlar. Nə qədər ki, ölkə respublikaçı və xalqçıdır, özü də bu möhtəşəm yerin və böyük İranın fəal müsəlman xalqına və nə qədər ki, İslama əsaslanır, məncə düşmənlikdən əl çəkən deyillər.

İkinci cavab: Əgər düşmənliyin bitməsi mümkün olsa, yalnız İranın iqtidarı, inkişafı və istiqlaliyyəti ilə mümkün olar, xarlığı və təslimçiliyi ilə yox. Əgər müsəlman İran siz gənclərin və bu gün inkişaf etməkdə olan nəslin iradəsi ilə elmdə inkişaf edib sənaye, üstün sənaye, texnologiya, üstün texnologiya və bu gün ehtiyac duyulan elm sarıdan ona hegemonluq edilməyəcək həddə böyük nailiyyətlərə imza atsa, öz hərbi gücünü və ölkənin iqtisadi təməllərini möhkəmlədə bilsə, məhrumiyyətləri aradan qaldırsa, bütün sahələrdə ölkənin zəngin sərvətlərindən istifadə edə bilsə, xalqın siyasi dərk səviyyəsini yüksəltsə, o zaman onların düşmənliyi azala bilər. Yəni əgər mümkün olsa, o zaman mümkün olar.

Bəzilərinin CIA ekspertlərinin istəyinə uyğun olaraq yaxınlıqdan, müzakirə və münasibətlərdən dəm vurması və məsələni adiləşdirməsi

bu xalqa qarşı ən böyük təhqir və xəyanətdir. Bədxah düşmənlərin düşmənliyini aradan qaldırmaqdan yalnız bu ölkənin iqtisadi cəhətdən öz təməllərini möhkəmləndirdiyi, məhrumiyyətləri aradan qaldırdığı, işsizlik problemini həll etdiyi, gənclərin gələcəyini işıqlandırdığı, ali təhsilli gənclərin iş və maliyyə problemlərini həll etdiyi, ölkənin kinosunu, incəsənətini, mətbuatını milli maraqlara uyğun şəkildə idarə edən sənət adamları yetişdirdiyi zaman danışmaq olar. Bunlar baş versə, düşmənliyi aradan qaldırmaq haqda düşünmək olar. Bunlar baş vermədikcə düşmənə hər növ yaxınlaşmaq, düşmən qarşısında hər hansı loyallıq nümayiş etdirmək onun düşmənliyini və zalımlığını gücləndirmək deməkdir.[1]

**Sual:** Belə düşmənlərimiz olduğu halda özümüzü müdafiə etmək, düşmənə zərbə vurmaq və ya onun zərbəsinin qarşısını almaq imkanımız varmı?

**Cavab:** Mənim cavabım budur ki, bəli, var. Burada şüarçılıq etmək fikrim yoxdur. Bu bir həqiqətdir ki, bu gün bu regionda tanıdığımız ölkələr - Orta Şərq ölkələri, Fars körfəzi ölkələri, Şərqi Asiya, Mərkəzi Asiya və yeni müstəqil olmuş ölkələr arasında İrandan başqa heç bir ölkənin belə gücü yoxdur. Böyük ölkələr var, amma onların da başqa səbəblərdən bu gücü yoxdur. Bizim dəlillərimiz isə özümüzə xasdır. Bizdə həqiqətən bu imkan var.

Bu müsbət cəhətlərdən və bu həqiqəti təşkil edən elementlərdən ibarət uzun siyahı yazmaq olar, lakin mən onların bəzisinə işarə vuracağam:

Əvvəla böyük bir dəlil budur ki, biz bu günə qədər özümüzü müdafiə edə bilmişik. Məşhur bir məsəl var ki, bir şeyin mümkünlüyünə ən güclü dəlil onun mövcudluğudur. Heç kim ehtimal verə bilməz ki, bu qatı düşmənlər İslam inqilabı və quruluşu ilə vuruşmaq istəmirdilər. Onlar bunu istəyirdilər, bütün qüvvələrini də işə saldılar, amma biz

---

[1] Ərdəbil vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: 2000.

varıq, yaşayırıq və daha da güclənmişik. Bu gün bizim ruh yüksəkliyimiz və fəallığımız keçmişdəkindən çoxdur; ümumi və milli həvəsimiz də keçmişdəkindən artıqdır. Bu göstərir ki, onlar bacarmayıblar.

Bundan əlavə bir neçə əsaslı dəlil də var. Mən siz gənclərin bu haqda fikirləşmənizi istəyirəm. Bir dəlil düşmənin zəifliyi, bir dəlil İslam Respublikasının təməllərinin möhkəmliyi, bir dəlil İslam Respublikasında təbii formada mövcud olan emosional dayaqdır.

Düşmənin zəifliyinə qısa şəkildə işarə vurum: Bu gün hətta iqtisadiyyat, milli sərvət, elmi və hərbi inkişaf baxımından yüksək səviyyədə olan ABŞ kimi bir güc də böyük təhlükə qarşısındadır və daxildən təhdid olunur. Amerika rəsmilərinin sözlərində bunu görmək olmaz. Biz də bayırdan baxdığımıza görə bunu düzgün görə bilmərik, amma Amerikanın siyasi filosof və mütəfəkkirləri bu xəbərdarlığı edirlər və çoxlu kitablarda yazmışlar.

ABŞ-da indiki çağı onun altmışıncı illərinə - 1960-cı ildən 1970-ci ilə qədər sürən Vyetnam mübaribəsi çağına bənzədirlər. Onlar düşünürlər ki, altmışıncı illər Amerikanın zəiflədiyi illərdir. O zaman Vyetnam müharibəsi gedirdi. Amerika universitetlərində, küçələrində daim hökumətə qarşı iğtişaşlar baş verirdi. Müharibə bitəndən sonra həmin iğtişaşlar da müəyyən həddə sona çatdı.

Bu gün - üçüncü minilliyin ilk onilliyində deyirlər ki, onların vəziyyəti altmışıncı illərdə olduğu kimidir; lakin dağılma daxildəndir, əxlaqi dağılma və iman dağılmasıdır. Xalq və gənclər üçün ortaq inam nöqtəsi yoxdur. Elm inkişaf edir, laboratoriyalar işləyir, elm, sənaye, atom və digər istehsallar inkişaf edir, amma milli kimlik günbəgün zəifləyir. Bunu onlar deyirlər. Bu, mühüm zərbədir. Biz bunu Amerika prezidentinin jestlərində müşahidə etməyi, yaxud sözlərində eşitməyi gözləmirik, amma həqiqətdir. Dünyada bu zəifliyin əlamətini görmək üçün Amerikanın beynəlxalq nüfuzunun zəifləməsinə baxa bilərik. Amerikanın embarqoları dünyada güclü reaksiyalarla üzləşir; Amerikanın ümumi məsələlər barədə qərarları Avropada və digər

yerlərdə dövlətlərin etirazına səbəb olur; Amerikanın qlobal iqtisadi seçimləri dünyada xalqların və siyasi qüvvələrin böyük etirazı ilə rastlaşır.

Amerikanın nüfuzu tənəzzül halındadır. Soyuq müharibə dövründən və SSRİ-nin dağılmasından sonra iddia etdilər ki, biz böyük dünya imperatorluğunun başçısı olmalıyıq. Lakin dünya hətta nüfuzlu bir supergüc kimi də onların sözünü dinləmir. Qaz istehsalına dair İranla müqavilə bağlamış neft şirkətinin fəaliyyətini qadağan etdilər, dərhal bir Fransa şirkəti onun yerini tutdu. Qanun qəbul etdilər, fəryad qopardılar, yazdılar, amma faydası olmadı. Məsələ belədir. Amerikanın siyasi nüfuzu tənəzzülə uğramışdır. Bu, Amerika iqtidarının zəiflik əlamətlərindən biridir.

Bunlar zəifdirlər. Son nümunəsi Kemp-Deyvid-2 məsələsidir. Yasir Ərəfatı və sionizm rejiminin prezidentini aparıb 15 gün Kemp-Deyviddə saxladılar ki, Amerika üçün bir siyasi aktivlik, yeni siyasi həyat və siyasi nüfuz əlaməti kimi ondan istifadə etsinlər, amma bacarmadılar, iflas etdiklərini etiraf etdilər. Amerikalılar Kemp-Deyvid-2 məsələsində rusvayçı şəkildə iflas etdilər, heç bir tərəf onlara təslim olmadı. Bu məğlubiyyət yalnız bugünkü hadisədə məğlubiyyət deyil, ABŞ-ın Orta Şərq sülhü ideyasının iflasıdır. Bunlar onun nümunələridir. Buna əsasən, düşmənin və Amerika rejiminin zəifliyi məsələnin bir tərəfidir.

Məsələnin digər tərəfi İslam Respublikasının təməllərinin möhkəmliyidir. Burada siyasi sistem imana, etiqada, dinə və duyğulara əsaslanır. Bu gün sizin bu xidmətçinizlə bu bölgənin və ölkənin digər bölgələrinin gəncləri arasında mövcud olan bu əlaqə, bütün ölkədə məmurlarla xalq arasında olan möhkəm bağlar kreativ, yeni və misilsiz bir şeydir, heç bir yerdə belə deyil. Bu əlaqə kompliment deyil, dini əlaqədir. Onların fəqih rəhbərliyi ilə qatı düşmən olmasının səbəbi budur. Fəqih rəhbərliyi quruluşu mərkəz tutaraq milyonlarla qəlb arasında dini rabitə yaratmaqdır. Bu hər hansı şəxsə görə deyil, məsələ kimlik, məna və şəxsiyyət məsələsidir. Buna görə ona düşmən olurlar və təbii ki, bu düşmənliklərin faydası da yoxdur.

Bu gün Allaha şükür olsun ki, elm hövzələrində, bəzi universitetlərdə və digər təhsil müəssisələrində yeni gənc nəsildən ibarət İslam mütəfəkkirləri yaranmışdır. Onlar düşmənin maneələrinə rəğmən, mövzuları incələyir, təhlil və izah edirlər. Yəni onların istəmədiyi iş həyata keçmiş, İslam ağacının yeni budaqları cücərmişdir və ona qarşı heç bir iş görə bilmirlər. Bu gün düşmənin yaydığı şübhələrə güclü və həlledici cavablar verilir. Bu əlaqə belə də qalacaq.

İşarə vurduğum başqa bir məsələ İslam Respublikasının siyasi dayağıdır. Siz görün hansı ölkənin rəhbəri, prezidenti başqa bir ölkəyə gedəndə əhali tərəfindən öz prezident və rəhbərlərindən də yaxşı qarşılanırlar?! Harada belə bir hadisə baş verir?! İslam Respublikasının prezidentləri digər ölkələrə səfər edəndə isə bu iş dəfələrlə baş vermişdir və baş verir.

Mən prezident olarkən Pakistana getdim. Beynəlxalq informasiya vasitələri bu xəbəri gizlətməyə çalışsalar da, Pakistanda qarşılama mərasimi elə izdihamlı keçdi ki, deməyə məcbur oldular. Bütün beynəlxalq informasiya vasitələrində bir neçə gün bu böyük hadisəyə təəccüb ifadə olundu. İslamabadda, Lahurda və bizim getdiyimiz digər yerlərdə milyonlarla insan bu gün sizin Meşkində və srağagün Ərdəbildə gördüyünüz izdihamla bizi qarşıladı.

Bizim prezidentimiz Sudana getdi, sabiq prezidentlərimizin biri Pakistana getmişdi - onlar da eyni şəkildə qarşılanmışlar. Bu gün şiə və ya sünnilərdən ibarət müsəlmanlar harada hisslərini azad ifadə edə bilirlərsə, İslam Respubilkasının məmurlarını belə qarşılayırlar. Təbii ki, xalqların xarakterləri müxtəlif, bəziləri daha güclü, bəziləri daha zəifdir, amma bu siyasi dayaq hər yerdə var.

Amerika ölkələrin belə tərəfdarlığını pulla almaq istəyir, amma ala bilmir. Mən Ziyaülhəqqin dövründə Pakistana getmişdim. O zaman amerikalılar və Amerikaya bağlı bəzi rejimlər orada milyard həcmində pullar xərcləyirdilər, amma faydası olmurdu. Məndən iki-üç il sonra bir Amerika prezidenti Pakistana getmək istədi. Pakistanın cənub

bölgəsinin əhalisi mitinqlər keçirdi və onun səfəri baş tutmadı. Belə siyasi dayaq İslam Respublikasına məxsusdur.[1]

**Sual:** İranla ABŞ arasında mövcud əlaqənin kəsilməsi İranın ziyanına deyilmi? Başqa sözlə desək, ABŞ-la əlaqələrin yaradılması iqtisadi, siyasi və ictimai cəhətlərdən İranın problemlərini həll edə bilməzmi?

**Cavab:** Təbliğat aparırlar ki, İranla Amerika dövlətinin əlaqəsinin kəsilməsi İran xalqının ziyanınadır. Əslində isə belə deyil və tamamilə İran xalqının xeyrinədir. Bu, effektini itirmiş bir üsuldur. Onlar xalqları inandırmaq istəyirlər ki, kimin Amerika ilə əlaqəsi olsa, iqtisadi və maddi cəhətdən bütün problemləri aradan qalxar. Xeyr! Bir zaman bəzi sadəlövh hökumətlər belə düşünürdülər. İnqilabın əvvəlində bizim ölkəmizdə də bəzi hökumətlər bu düşüncələrə sahib idilər. Dünyanın müxtəlif bölgələrinin təcrübəsi isə bunun əksini sübut etdi. Əlcəzairdə xalqın iqtisadi problemləri vardı. Onları inandırdılar ki, Amerika ilə əlaqə bu düyünləri açacaq və nəticədə buna getdilər. Amma Əlcəzairin bugünkü vəziyyətini özünüz görürsünüz: xalqdan uzaq və zalım xunta, xalq və İslam hərəkatlarına qarşı güclü repressiya, güclü mafiyalar. Bir neçə ay öncəyə qədər qəzetlərdə oxuyur və televiziya kanallarında görürdünüz ki, bir neçə gündənbir Əlcəzairin bir kəndində, yaxud ölkənin ətraf qəsəbələrinin birində tanınmaz quldurlar tərəfindən 20 nəfər, 50 nəfər, 100 nəfər qətliam olunurdu.

İmam keçmiş SSRİ-nin başçısına məktubunda buyurdu ki, ölkənizdə yeni islahatlar aparırsınızsa, ehtiyatlı olun Qərbə və Amerikaya yönəlməyin, onlar sizə hakim olmasınlar. Bu tövsiyəyə əməl olunmadı və bu gün vəziyyətlərini görürsünüz. Amerika ilə əlaqənin iqtisadi nəticələrini bu gün Rusiyada görürsünüz. Mən adlarını çəkmək istəmirəm, amma bir çox ölkələrin Amerika ilə çox yaxşı və yüksək əlaqələri var, amma iqtisadi cəhətdən vəziyyətləri sıfırdan da aşağı

---

[1] Yenə orada.

səviyyədə və olduqca pisdir, milli valyutaları həddən artıq dəyərsizdir. Bunlar İran xalqı üçün təcrübədir.

İran xalqı öz maddi və iqtisadi vəziyyətini yaxşılaşdırmaq istəyirsə, - şübhəsiz ki, yaxşılaşdıracaq - bunun bütün təbəqələrin əzmkarlığına, iradəsinə, qərarına və işinə, hökumətlə əməkdaşlığa, ölkə məmurlarını dəstəkləməyə, işdə şücaətə, xarici siyasətlərdən və əcnəbi mediadan təsirlənməməyə ehtiyacı var. Bir ölkənin vəziyyətini düzəldən amillər bunlardır, Amerika ilə əlaqə və hegemonların boyunduruğu altına girmək yox. İran xalqı düşmənin bu aldadıcı təbliğatına uymayacaq.

Siz əziz gənclər bizim bir ömür yaşadığımız, İran xalqına qarşı çətinliklərini, əzablarını və təhqirlərini bütün vücudumuzla hiss etdiyimiz dövrü görməsəniz də, onu öyrənə, o zaman xalqımızın hansı vəziyyətdə olduğunu oxuya bilərsiniz. İran xalqı bu ölkədə Amerika ilə dost münasibətlərin təcrübəsini on illər boyu sınaqdan keçirmişdir. Bu ölkə sionistlərin və amerikalı oliqarxların istirahət məkanı olmuşdu; buraya gəlib əylənirdilər. Onlar buraya texnologiya gətirmirdilər, elm gətirmirdilər, universitetlərin səviyyəsini yüksəltmirdilər, buranın gənclərini maarifləndirmirdilər, onlara elm öyrətmirdilər.

İranlılar o zaman heç bir beynəlxalq elmi işdə nəzərəçarpacaq səviyyədə iştirak etmirdilər. Lakin bu gün həmin gənclər dünyanın elm yarışlarında yüksək yerləri tuturlar. O zaman İran dünyada sayılan bir ölkə deyildi. İranın adı yalnız hansısa məhsuluna görə çəkilirdi - xüsusi məclislərdə neft, ümumi məclislərdə xalça və döşənəcək. Ancaq bu gün İranın gəncləri, döyüşçüləri, görkəmli şəxsiyyətləri, böyük insanları, istedadlı və yaradıcı gəncləri, İran gənclərinin zəhmətlərinin bəhrəsi xalqların və İranın dostlarının gözünü qamaşdırır. Sizin uğurlarınız bütün İslam dünyasında ürəkləri sevindirir. Nə üçün siz bir yarışda qələbə çalanda Misirdə, Fələstində, Suriyada, Türkiyədə və hətta Latın Amerikasının bəzi ölkələrində insanlar ayağa qalxır, atılıb-düşür və şadlıq edirlər. Çünki bu gün İran dünyada əzizdir. Bu əzizlik müqavimətin və hegemonluğa "yox" deməyin nəticəsidir. Düşmənin

qabağa verdiyi bəzi qüvvələr "yox" sözünü xalqdan almaq istəyirlər, amma Allahın yardımı ilə bacarmayacaqlar.[1]

**Sual:** İranla müzakirəyə və əlaqə yaratmağa can atmaqda Amerikanın məqsədi nədir?

**Cavab:** Qəti olan budur ki, onlar İslam Respublikasının və İran xalqının xeyrini güdmürlər. Bu aydın məsələdir. İnqilabdan ötən bu 19 il boyunca indiyə qədər Amerikanın həm hökuməti, həm mətbuatı, media qurumları, televiziya və radioları İran xalqına bacardıqları qədər zərbə vurublar, arxadan xəncər endiriblər, hörmətsizlik, xəyanət ediblər və yalan danışıblar. Səkkizillik müharibə zamanı və iqtisadi məsələlərdə bunlar bir dəfə də bizim xeyrimizə bir iş görməyiblər. İndi də belədir.

Bəs məqsədləri nədir? Məqsəd bir neçə şeydir. Mən qısa şəkildə deyəcəyəm, siz bunlar haqda düşünün. Xüsusən ali təhsilli gənclər, şagirdlər, universitet və hövzə tələbələri yaxşı diqqət yetirsinlər. Bunlar mühüm məsələlərdir. Zahirdə kiçik görünən bu məsələlərlə çox vaxt bir xalqın taleyi həll olunur. Belə bir dönəmdə xalq, gənclər, məmurlar və hamı məsələnin nədən ibarət olduğunu anlamayanda yayınma başlayır və bu yayınma Allah eləməmiş, hər şeyin məhvi ilə nəticələnir. Adətən belə olur. Odur ki, yaxşı diqqət yetirməniz çox vacibdir.

**Birinci məqsəd: Vəhdət amilini ixtilaf amilinə çevirmək**

Bunların məqsədi nədir? İranın müzakirə aparmaq istədiyini daim təkrarlamaqda ABŞ hökumətinin və onun xəbər imperatorluğunun məqsədi nədir?

Burada bir neçə məqsəd güdürlər. Biri budur ki, bunlar bu günə qədər İran xalqının birlik amili olan məsələni onun ixtilaf amilinə çevirmək istəyirlər. İndiyə qədər İran xalqı Amerika dövlətinin onların düşməni olduğunu bildiklərinə görə, cüzi ixtilafları olsa da, hamısını kənara qoyub Amerikanın düşmənliyi qarşısında birləşirdilər. Amerika

---

[1] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan: 1998.

ilə mübarizə bu xalqın birlik amillərindən biri olmuşdur. Bunlar istəyirlər ki, bu ajiotajla həmin birlik amilini ixtilaf amilinə çevirsinlər; bu onun əleyhinə, o bunun əleyhinə; bu desin müzakirə, o desin müzakirənin nə faydası var, başqa birisi də desin ki, nə zərəri var; bir qrup belə danışsın, bir qrup elə. Onlar da İran xalqının düşmənlə mübarizədə malik olduğu böyük milli birliyi onun ixtilafına alət etsinlər.

**İkinci məqsəd: Müzakirə mövzusunu adiləşdirmək**

İkinci məqsəd budur ki, Amerika ilə müzakirə və münasibət məsələsini təkrarlamaqla məntiqli dəlillərə görə İran xalqının gözündə ən çirkin işlərdən biri olan bu işin qəbahətini ortadan götürsünlər. Cümə namazında mümkün olan qədər onun məntiqli dəlillərinin nə olduğunu deyəcəyəm. Onlar bunun qəbahətini ortadan götürmək istəyirlər. İsrail ərəblərlə münasibət məsələsində bu işi gördü.

Bir zaman ərəb hökumətləri İsraillə söhbət etməyi və hətta İsrailin adını çəkməyi çox çirkin iş bilirdilər. Onlar müzakirə məsələsini ortaya qoymaqla onları bir-bir ərəb xalqının sıralarından xaric etdilər. Elə iş gördülər ki, tədricən bu məsələnin qəbahəti götürüldü. Hətta İsraillə həmsərhəd olmayan və ondan heç bir təhlükə və zərər görməyən hökumətlər də öz evlərində oturub İsraillə müzakirədən danışırlar. Doğrudan buna nə lüzum var?! Amma edirlər; çünki adiləşmişdir.

İran xalqı çox güclü dəlillər və məntiqli əsaslandırmalarla ABŞ dövlətini özünün düşməni bilir. Mən sonra buna toxunacağam. Bütün dünya xalqları da bunu görmüşlər və buna hörmətlə yanaşırlar. Onlar tədricən bunun qəbahətini ortadan götürmək və adi bir işə çevirmək istəyirlər.

**Üşüncü məqsəd: Dünyada təkqütblü sistemi təkmilləşdirmək**

Üçüncü məqsəd budur ki, İranla müzakirənin özü böyük güc olan Amerika üçün çox əhəmiyyətlidir. Bəziləri təəccüb edib deyə bilərlər: məgər İran nədir ki, böyük güc olan Amerika üçün onunla müzakirə stolu arxasında oturmaq bu qədər əhəmiyyət kəsb etsin?! Bəli, çox

əhəmiyyətlidir. Təsadüfən böyük güc olduğu üçün çox əhəmiyyətlidir. Böyük güc dünyanın bütün siyasi güclərindən üstün olan və onları öz iradəsinə məcbur edə bilən gücdür.

Bir gün dünyada iki böyük güc - Amerika və Sovet vardı. Onların hər biri bir bölgəyə nəzarət edir və istədikləri işi görə bilirdilər. Hətta Amerika bu düşməninə yaxın Avropa ölkələrində özünün Kroz və digər raketlərini yerləşdirmişdi. Zavallı avropalılar da bir söz demirdilər; çünki keçmiş Sovet qarşısında müdafiə üçün lazım idi. Sovet də öz təsir regionunda bu işləri görürdü. Bu gün SSRİ dağıldığından Amerika dünyada təkqütblü sistem yaratmağa iddialı və çox israrlıdır; adı dünya olan böyük imperiyanın başında tək özünün durmasını istəyir.

Amerikanın siyasi nəzəriyyəçiləri bunu deməkdən çəkinmirlər, ABŞ mətbuatında bu məzmunda elmi-siyasi məqalələr çap olunur. Təxminən bir ay öncə Amerikanın bir mətbu orqanında gördüm ki, siyasi yazılar yazan bir məşhur amerikan yazıçı dünyaya müraciətlə ABŞ-ın vahid dünya imperiyasının başında durmasını əsaslandırır; Amerika bu gün belədir, elədir və sair. Ümumiyyətlə onların iddiaları budur, bunu istəyirlər.

Bu qədər iddialı və siyasi qüdrəti olan bu böyük gücə bir yerdə dəyər və etibar tanımır, hörmət etmirlər. O yer haradır? İran İslam Respublikası. İslam Respublikası və İran xalqı dünyada Amerikanın böyük güc sindromunu sındırdı. Mən dəfələrlə demişəm ki, böyük güclərin əsas qüdrətləri heybətlərinə görədir. Bunlar daxil olduqları hər bir yerdə top-tüfəng işlətmirlər, qeyz və heybətləri dövlət başçılarını və siyasi liderləri qorxudur və güzəştə vadar edir.

Müsəlman İran ilk gündən aydın dəlillərə görə Amerikanın qarşısında möhkəm dayandı, ona təslim olmadı və onunla müzakirə aparmayacağını elan etdi. İndi isə onun "çox gözəl, baş üstə, biz də müzakirə apararıq" deməsi Amerika üçün böyük əhəmiyyət kəsb edir. Deyəcəklər ki, budur, böyük güc kamil oldu, boyunduruq altına girməyən bu ölkə də təslim oldu və qarşısında əyildi. Buna əsasən, müzakirənin özü onlar üçün çox əhəmiyyətlidir.

Əlbəttə, əlaqə məsələsində belə deyil. Sonra deyəcəyəm ki, amerikalılar əlaqə barədə başqa şey fikirləşirlər. Onlar üçün böyük əhəmiyyət kəsb edən müzakirədir; İranın müzakirə stolu arxasında oturmasını istəyirlər. Müzakirələr başlanandan sonra isə böyük macərası olan əlaqə məsələsi ortaya çıxacaq.[1]

**Sual:** İranla müzakirə nə üçün Amerikaya bu qədər önəmlidir? Buyurduğunuz məqsədlərdən əlavə, İran İslam Respublikasının Amerika ilə müzakirəyə razılaşmasının böyük şeytana başqa xeyirləri də varmı?

**Cavab:** İran İslam Respublikasının və İran xalqının hərəkəti dünyanın hər bir tərəfində İslam hisslərinin oyanmasına səbəb oldu, Afrikada, hətta Avropada müsəlmanlar İslam devizi və öz İslam hissləri ilə mübarizəyə qalxdılar. Bu mübarizələrin bəzisi hakimiyyətə qarşı siyasi mübarizələrdir, bəzisi isə islahat uğrunda mübarizələr. Hər halda, mübarizə aparırlar. Bunların hamısı İslam Respublikasından, imamdan və bu xalqdan qaynaqlanmışdır.

Mən İslam dünyasında elə adamlar tanıyıram ki, Əhli-beyt (ə) məzhəbini heç bir təbliğat olmadan, yalnız bizdəki müharibəyə görə qəbul etmişlər. Siz gənclərin, əlillərin, döyüşçülərin müharibəyə getməsinə dair xəbərlərin dünyaya yayılması, anaların şücaətlə müqavimət göstərməsi, cəsurluğu dünyada bəzi adamları müsəlman, bəzilərini şiə etdi, bəzilərini inqilaba, imama və İran xalqına daha da vurğun etdi və İslam hissləri meydana çıxdı. Əslində bütün bunların mərkəzi İran xalqı və İslam Respublikası quruluşudur.

İslam Respublikası Amerika ilə müzakirə stolu arxasında otursa, amerikalılar bu cəhətdən arxayın olacaq, dünyanın hər bir yerində deyəcəklər: "Siz nədən ötrü çalışırsınız? Siz ki İran ola, İrana çata, nə etsəniz, onlar kimi bir quruluşa və şücaətə sahib ola bilməzsiniz. Amma nəhayət onlar da müzakirə stolu arxasına keçməyə məcbur oldular.

---

[1] Cümə namazı xütbələrindən: 1998.

Daha siz nə deyirsiniz?!" Yən İran xalqının və İran İslam Respublikası quruluşunun Amerika ilə müzakirə stolu arxasında oturmağa razılaşması onu İslam dünyasının oxşar mübarizəsi sarıdan arxayın edəcək.

Baxın, bir çox ölkələrdə hökumətlər Amerika dövləti ilə dostdur, onun nüfuzu və təsiri altındadırlar, siyasi mövqeləri Amerika dövlətinə bağlı və ümumilikdə Amerikaya tabedirlər. Amerika hökm edir ki, filan yerlə əlaqəni kəsin, filan yerlə ticarət əlaqələri qurun, filan yerlərlə bazarlıq etməyin, nefti belə edin, misi elə edin və s. Amerikaya təslim olan bu hökumətlərdə tədricən bu fikir yaranır ki, İran İslam Respublikası adlı bir hökumət Amerikaya heç bir əhəmiyyət vermir, Amerika da ona ciddi ziyan vura bilmir. Bəs bizim Amerikadan bu qədər qorxmağımıza səbəb nədir?!

Bu sual bu gün necə deyərlər, üçüncü dünyanın müsəlman və qeyri-müsəlman ölkələrinin bir çox məmurlarında yaranmış və ABŞ rejimi üçün ciddi problemə çevrilmişdir. İslam Respublikasını görəndən sonra onlarda Amerika tabeliyindən çıxma meylləri yaranmışdır. Düşünürlər ki, İslam Respublikası Amerikaya heç bir əhəmiyyət vermir, qarşılığında Amerika da ona qarşı əsaslı bir iş görə bilmir. Düzdür, bəzən qart-qurt eləyir, misal üçün, Damato qanunu qəbul edir və bu qanun da bir neçə aydan sonra öz-özünə ləğv olur. Əsaslı bir iş görə bilmir. Bəs nə üçün biz özümü əbəs yerə Amerikaya əsir etmişik?

Amerikanın dostlarında və tabe dövlətlərində bu fikrin yaranması onun üçün olduqca təhlükəlidir. Amerika cavab axtarır. Bir iş görüb onları başa salmalıdır ki, baxın, saldığımız iqtisadi blokada və tətbiq etdiyimiz sanksiyalar nəhayət İslam Respublikasını yordu, o gəlib diz çökməyə və iddialarından əl çəkməyə məcbur oldu. O özünə tabe hökumətləri başa salmaq istəyir ki, bizimlə olmayan salamat qala bilməz, İslam Respublikası da nəhayət əyilməyə məcbur oldu.

Müzakirəni bir böyük güc olaraq Amerika üçün həqiqətən önəmli edən başqa bir məsələ də var. On doqquz, yaxud iyirmi ildir dünya siyasətində iki mübariz qütb arasında döyüş gedir. Bir tərəfdə hegemon

qütb, bir tərəfdə isə İslam qütbü dayanır. Hegemon qütbə ABŞ rəhbərlik edir, İslam qütbünün mərkəzində isə İslam Respublikası quruluşu durur. İndiyə qədər İslam qütbü uğurla inkişaf etmişdir. Siz dünyaya baxsanız, İslam hərəkatının ətri belə duyulmayan bəzi ölkələrdə ən azı özlərinə uyğun şəkildə İslam hökumətlərinin qurulduğunu görərsiniz; Türkiyədə, Əlcəzairdə və həmçinin digər yerlərdə. Düzdür, bunların hamısına qarşı tədbir gördülər, amma xalqın hisslərinə heç nə edə bilməzlər. Xalqın hisslərinə qarşı Türkiyədə Rifah partiyası iqtidarına, yaxud başqa bəzi iqtidarlara qarşı gördükləri tədbiri görə bilməzlər. Xalqın hissləri öz yerində qalır.

İndiyə qədər bir-birinə qarşı mübarizə aparan hegemon və İslam qütblərinin bir-birinə qarşı mübarizəsində inkişaf və qələbə İslam qütbünə məxsus olmuşdur. İslam qütbü həmişə inkişaf etmiş, hegemon qütb isə inkişaf edə bilməmişdir. Bunlar İslam Respublikasının müzakirə aparmaq istədiyinə dair fikir formalaşdıranda İslam Respublikasının təslim olduğunu, onlara tərəf keçdiyini, güzəştə getməyə və müzakirə aparmağa məcbur olduğunu söyləməklə bu döyüşdə nəhayət İslam qütbünün məğlub və geri çəkilməyə məcbur olduğunu, hegemon qütbün isə qalib gəldiyini göstərmək istəyirlər.

Onlar düşmənin qələbə çaldığını və İslamın geri çəkilməyə məcbur olduğunu göstərmək istəyirlər. Demək istəyirlər ki, inqilabçı İslam sözlərini geri götürdü və yolundan göndü; demək istəyirlər ki, bu 19 ilin onunda imamın söylədiyi, imamdan sonrakı 9 ildə də məmurların və xalqın söylədiyi bütün sözlər kənara qoyuldu, unuduldu və yanlış hesab edildi. İmam dəfələrlə buyurmuşdu ki, biz düşmənlə razılaşmayacaq, ona təslim olmayacağıq. Bu şayiələr həmin keçmişi pisləmək məqsədi güdür. Hər bir halda Amerika İslam Respublikasının təslim olmasını, Amerika ilə müzakirə stolu arxasında oturmaq istəməsini, özünün hegemonluğa qarşı söz və iddialarından əl çəkməsini

yayaraq bundan maksimum bəhrəni götürəcək. Təbliğat ajiotajı bundan ötrüdür.[1]

**Sual:** Siz nə üçün Amerika ilə müzakirəyə müxalifsiniz və quruluşun məmurlarını bundan çəkindirirsiniz?

**Cavab:** Müzakirə nədir? Sizin Amerika ilə oturub danışmanızla, müzakirə etmənizlə problemlər həll olunacaq? Belə deyil. Siyasi leksikonda müzakirə bazarlıq deməkdir. Amerika ilə müzakirə aparmaq - Amerika ilə bazarlıq etməkdir. Bazarlıq da alış-verişdir, yəni bir şey al, bir şey ver. Sən İslam inqilabından Amerikaya nə vermək istəyirsən ki, ondan bir şey alasan. Sizin Amerikaya verib qarşılığında nəsə almaq istədiyiniz nədir? Biz Amerikaya nə verə bilərik? O bizdən nə istəyir? Bilirsinizmi nə istəyir: "Onlardan (möminlərdən) yalnız yenilməz qüvvət sahibi, (hər cür) şükrə layiq olan Allaha iman gətirdiklərinə görə intiqam alırdılar".[2] Allaha and olsun ki, Amerika İran xalqının müsəlman olması və əsl Məhəmməd (ə) İslamına sadiq olması qədər heç bir şeyindən narahat deyil. O istəyir ki, siz bu sadiqliyinizdən əl çəkəsiniz. O istəyir ki, sizin bu dik boynunuz olmasın. Razısınız?!

Deyirlər gəlin girovlarla bazarlıq edin.[3] Bu da sadəlövhlükdür. Biz əlbəttə, əvvəldən elan etdik ki, gücümüz çatan qədər girovların azad olunmasına kömək etmək istəyirik. Biz girovların sahibi deyilik, onlar məzlum və məhrum insanlardır, müxtəlif səbəblərə görə girovları saxlayırlar. Bizim prinsiplərimiz baxımından eybi olmayan həddə və sözümüzün kəsəri qədərincə kömək etməyə hazırıq; amma Amerikaya görə yox, insani borcumuza, insaniyyətə və prinsiplərə görə. Bunlar bizim prinsiplərimizdir. Amerika kimdir?! Biz Amerikaya görə bu işi görərik?! Fərz edək bir nəfər gəlib Amerikaya görə bu işi gördü; Amerika hansı cavabı verəcək?

---

[1] Yenə orada.

[2] Buruc/8.

[3] 1985-1991-ci illərdə Livanda Qərb vətəndaşlarının girov götürülməsi hadisəsinə işarə vurulur.

Dünənki və srağagünkü telekslərdə oxuduq ki, Buş girovların azadlığı üçün göstərdiyi köməyə görə Suriyaya təşəkkür etmişdir. Digər tərəfdən də Amerika hökuməti Suriyaya xəbərdarlıq etmişdir ki, elə bilməyin bu girovların azadlığı sizin Amerika ilə rabitələrinizin adiləşməsinə kifayət edəcək; siz siyasətlərinizə yenidən baxmalısınız. Sonra sadalayır ki, ərəblərin İsraillə müharibəsinə aid siyasətlərə yenidən baxın; yəni Kemp-Deyvid müqaviləsinə qoşulun.

Amerikanın belə boyunduruqları altına girən xalqın və hökumətin başına kül ələnsin! Amerikanın azca zəiflik duyduğu şəxslərə qarşı gözləntisi belədir. Açıq şəkildə deyir ki, siyasətlərinizə - ərəblərlə İsrailin müharibə siyasətlərinə yenidən baxmalısınız. Gedib hegemon, insani prinsiplərə və beynəlxalq hüquqa inanmayan təkəbbürlü bir qurumla stol arxasında oturmağımızı istəyən şəxslər necə də sadəlövhdürlər! Amerikalılar beynəlxalq hüquq və prinsiplərə inanmırlar.

ABŞ-ın cinayətkar zabitinin əmri ilə raket atıb bir neçə yüz nəfərlik sərnişin təyyarəsini suya saldılar, kişini, qadını, uşağı və böyüyü məhv etdilər, amma Amerika hökuməti bu zabiti mühakimə etmədi. Eşitdim ki, Amerikanın indiki prezidenti[1] həmin zabitə ləyaqət ordeni vermişdir. Bunlar belədirlər. Siz nə deyirsiniz?! Məgər bunlar beynəlxalq hüquq tanıyırlar?! Məgər bunlar insan hüquqları tanıyırlar?! Xeyr! Mən Amerika ilə müzakirənin əleyhinəyəm. İslam Respublikası hökumətinin mənim icazəm olmadan belə bir iş görməsi imkansızdır və təbii ki, özləri də bununla müvafiq deyillər.[2]

**Sual:** Sizcə nə üçün bəzi adamlar müzakirədən danışırlar?

**Cavab:** Mən düşünürəm ki, hegemonluğun zirvəsi olan Amerika ilə müzakirəyə getməli olduğumuzu düşünən şəxslər ya sadəlövhdürlər, ya qorxurlar. Mən dəfələrlə demişəm ki, hegemonluq öz güc və imkanlarından daha çox öz heybətindən və qəzəbindən bəhrələnir.

---

[1] Ata Corc Buş.

[2] Vilayət hədisi, c. 4, səh: 170-172.

Ümumiyyətlə hegemonluq qəzəblə, heybətlə, onu-bunu qorxutmaqla yaşayır.

İndi Amerika üçüncü dünya ölkələri ilə, hətta son zamanlar sərvətli və güclü xalqlarla elə danışır ki, sanki o istəməsə, bunlar nəfəs ala bilməzlər. Afrika və Asiyadakı üçüncü dünya ölkələri öz yerində, bu gün Amerika SSRİ və Avropa ilə də belə danışır. Təəssüf ki, bu ölkələrin başçıları da inanırlar. Halbuki əgər dünyanın bütün ölkələri, yaxud bütün sərvətli ölkələri yox, on yoxsul ölkəsi birləşib Amerikadan qorxmamaq, ona bac verməmək barədə yekdil qərara gəlsələr, özlərindən strateji, hərbi və iqtisadi istifadəyə icazə verməsələr, təkcə Amerika yox, dünyanın bütün hegemon cinahını yerində oturda bilərlər.

Buna aydın dəlil odur ki, hansı yoxsul ölkədə inqilab baş verir və bir hökumət iş başına gəlib Amerikaya bac verməkdən boyun qaçırırsa, Amerika o hökuməti məğlub etmək, ortadan götürmək və öz tərəfdarı olan bir hökuməti gətirmək üçün bütün qüvvələrini səfərbər edir. Nə üçün? Çünki qorxur və bilirlər ki, hətta Latın Amerikasında, yaxud Afrikanın sonunda bir inqilabçı dövlət olsa, maraqlarını təmin edə və istədikləri işi görə bilməyəcəklər.

Nikaraquada bir hökumət iş başına gəlmişdi. Bu ölkə çox yoxsul, kiçik, əhalisi az və maliyyə mənbələri çox zəif olan bir ölkə idi, amma eyni zamanda Amerika əksinqilabçılara o qədər pul verdi və müxtəlif tərəflərdən o qədər təzyiq göstərdi ki, hakimiyyətdən getməyə məcbur oldular. O yazıqların da sosial və iman təməlləri o qədər də möhkəm deyildi, təzyiqə davamları yox idi, əvvəldən də başqa bir yerə söykənmişdilər. Odur ki, bacarmadılar və kənara çəkildilər.

Əgər Amerika inqilabçı dövlətlərdən qorxmursa, onların müqaviməti Amerika üçün dözülməz deyilsə, nə üçün onları devirmək istəyir? Əgər ehtiyacı yoxdursa, haradasa inqilabçı bir hökumət iş başına gəlsə, Amerika desin ki, sizinlə əlaqəni kəsirik və sizə kömək etməyəcəyik. Nə üçün o hökuməti məhv etmək üçün təxribat hazırlayır? Ona görə ki, həmin hökumət iş başında qalsa, bunlar daha maraqlarını təmin və orada hegemonluq edə bilməyəcəklərini başa düşürlər. Deməli,

hətta bir inqilabçı dövlət də öz təsiri qədərincə Amerikanı geriyə oturda, yaxud saxlaya bilər. Bunlar göstərdikləri kimi məğlubedilməz deyillər.

Amerikanın iddia etdiyi kimi gücünün olmamasına və zəif insanları qorxudan heybətinin həqiqi gücündən olduqca artıq olmasına başqa bir aydın dəlil odur ki, çox yerlərdə güc və şiddət işlətmək istəyirlər, amma qadir olmurlar. Hansı dəlilə əsasən? Dəlil budur ki, bacardıqları yerdə, misal üçün Panamada bunu etdilər. Əgər Amerika Panamada gördüyü işi[1] digər inqilabçı ölkələrdə, çox qəzəbli və pərt olduğu Kubada görə bilsəydi, görərdi. Deməli, bacarmır. Əgər bu işi həmin regionda, yaxud digər regionlarda Amerika siyasətinə qarşı çıxan digər ölkələrdə görə bilsəydi, görərdi. Dəlil budur ki, Panamada gördü.

Bunlar insani məsələlər haqda düşünmürlər. ABŞ dövləti beynəlxalq qanunlar barədə fikirləşmir. Bunlar xalqların hüququna hörmətlə yanaşmırlar. Nə vaxt bacarsalar, bir ölkəyə daxil olur, o ölkənin xalqının hüququna etina etmədən hökumət və dövlətlərini devirirlər. O şəxsi də götürüb apardılar, öz ölkələrində həbsxanaya saldılar. Harada bacarsalar, bunu edirlər. Harada etmirlərsə, deməli, bacarmırlar. Həqiqət budur.

Aydın nümunəsi bizim inqilabçı ölkəmizin özüdür. Hərbi hücuma keçmək istədilər, amam bacarmadılar. Təbəs hadisəsini xatırlayırsınızmı? Deməli, gəldilər, amma bacarmadılar. Əgər bacarsaydılar, on dəfə də gələrdilər. Bacarmadılar, ona görə gəlmədilər, gücləri yox idi, məğlub olacaqlarını bilirdilər. Bacardıqlarını düşündükləri yerlərdə əsla nəzərə almadılar ki, dünyanın o başından qalxıb helikopter və təyyarə ilə İran sərhədlərini keçməsi bu xalqın hüququnu pozmaq, beynəlxalq qanun və normaları tapdamaqdır. Əvvəlki nadan[2] elə bilirdi bacaracaq. Sonra məğlub oldu və gördü ki,

---

[1] 1989-cu ildə ABŞ-ın Panamaya hərbi müdaxiləsinə işarə vurulur. Bu yürüşdə Amerika hərbçiləri Panamanı işğal edib Silahlı Qüvvələrin Mərkəzi Qərargahının sədri General Noryeqanın iqamətgahına daxil oldular və onu tutaraq Amerikaya apardılar.

[2] Ceyms Karter.

bacarmır. Əgər bacarsaydı, yenə də gələrdi, lakin bacarmadı. Şübhə yoxdur ki, bu 11 ildə Amerika İslam Respublikasını məhv etməyi bacarsaydı, edərdi; amma bacarmayıb. Bu, imamın buyurduğu sözün mənasıdır. İmam haqlı olaraq belə demişdi: "Amerika heç bir qələt eləyə bilməz".[1]

**Sual:** Hər halda, ABŞ böyük iqtisadi və hərbi imkanlara malikdir. Sizcə bu imkanlardan heç cür yararlanmaq olmaz?

**Cavab:** Amerikanın iqtidarından və gücündən qorxmaq çox yanlışdır. Amerikaya bağlı olan, onunla əlaqələr quran, başçıları Amerikanın dostları olan və Amerikaya qarşı ən kiçik hörmətsizliyə belə icazə verilməyən çoxlu ölkələr var. Amerika həmin ölkələr üçün nə etdi?! Onların hansı problemini həll etdi?! Onların həyatındakı hansı kor düyünü açdı?! Hansı sərvəti başlarından tökdü?! Onlara hansı xeyri toxundu?! Nə üçün Amerika iqtidarından qorxuya düşürsünüz?

Əksinə, bu xain oğru qapısını açıq qoyan ölkələrə daxil oldu və nə vardısa, apardı. Əgər bir şey verdisə, bazarlarına gedib mal almalarından və nəticədə zavodlarının işləməsindən ötrü idi. O da hər malının qiymətini iki qat artırırdı. Əgər kredit verdisə, ona görə verdi ki, həmin kreditlə gedib özlərinin, yaxud müttəfiqlərinin məhsullarını alsınlar. Əgər silah verdisə, ona görə verdi ki, bu silahdan öz düşmənlərinin yox, onun düşmənlərinin əleyhinə istifadə etsinlər. Nümunəsi bizim köhnə rejimimizdir.

Belə deyil ki, Amerika hansısa ölkə ilə pis münasibətdə olsa, o ölkə dünyada nəfəs çəkə biməsin və hansı ölkə ilə yaxşı münasibətdə olsa, daha arxayın olsun. Amerikalıların özləri belə təbliğ və təlqin edirlər ki, hansı ölkənin onlarla münasibəti pis olsa, bütün yolları bağlanacaq. Xeyr! Belə deyil. İllərdir bizim xalqımızın dilindən "Amerikaya ölüm!" şüarı düşmür, yollar da üzümüzə bağlanmamışdır. İradə ilə çalışdıqda yolumuzu aça bilirik. Məgər dünya Amerikanındır?! Dünyanın sahibi

[1] Vilayət hədisi, c. 4, səh: 166-169.

olduqlarını iddia edən bu quldur, təkəbbürlü və fəsadlı hegemonlar kimdirlər?! Qələt edirlər. Bunlar kiminləsə dost olsalar, onun başına xeyir-bərəkət yağmayacaq. Bunlar dost olduqları xalqlara bədbəxtlik və fəlakət gətirirlər.[1]

**Sual:** Bu məsələ fəal diplomatiyaya zidd deyilmi?

**Cavab:** Bəzi şəxslər fəal diplomatiyadan danışırlar. Bəli, fəal diplomatiya lazıdır. Biz düşünürük ki, bizim Xarici İşlər Nazirliyimiz dünya səviyyəsində istisna etdiyimiz bir neçə yerdən başqa hər yerdə fəaliyyət göstərsin. Əlbəttə, dəfələrlə demişik ki, başucalığını, hikməti və məsləhəti qoruyun. Gedib bütün dövlətlərlə, müxtəlif sistemlərlə, müxtəlif etiqadlarla, müxtəlif üsullarla münasibət qursunlar. Eybi yoxdur, lakin qadağan olunmuş zona var; oraya keçmək olmaz.

Avropa bir nümunədir. Həzrət imam Avropa dövlətləri ilə əlaqə yaratmağa icazə vermişdi. Bizim Xarici İşlər Nazirliyimiz də çox fəaliyyət göstərdi. İndi mən soruşuram: Bir çox Qərbi Avropa dövlətləri ilə dost münasibətlərimizə və ticari əlaqələrimizə rəğmən, onlar İslam Respublikası ilə həqiqətən gözlənilən tərzdə rəftar etdilər?! Xeyr! Üstəlik, onlar Amerikadan zəifdirlər. Bunu müxtəlif hadisələrdə gördük. Onlar İslam Respublikasına və İslama müxalif üzlərini göstərdilər. Məsələ İslam məsələsidir.[2]

**Sual:** Bəzi ABŞ məmurları hərdən İran xalqını tərifləyir, yaxud keçmişdə İran haqda gördükləri işlərə təəssüflənirlər. Təəssüf ki, bəzi sadəlövh, yaxud qorxaq adamlar da bu tərif və təəssüfləri ciddi sayırlar. Siz bu haqda nə düşünürsünüz?

**Cavab:** ABŞ məmurları bəzən riyakar fikirlər səsləndirir, İran xalqını yarımçıq tərifləyir, yaxud İran quruluşunun və məmurlarının bir hissəsinə dair xoş sözlər söyləyirlər. Onların məqsədi İranda siyasi, iqtisadi və əgər mümkün olsa, hərbi istismarlarını bərpa etməkdir. Onlar

---

[1] Yenə orada, səh: 169-170.

[2] Yenə orada, səh: 172.

İran bazarlarına və sərvətlərinə göz dikmişlər. İranın inqilabçı və müsəlman xalqı və quruluşu İslam dünyasında məhvi asanlıqla mümkün olmayan əzəmətli oyanış yaratdığına görə İranı qane etməklə və susdurmaqla bu beynəlxalq oyanışı məhv etmək istəyirlər. Ən əsası da budur. Onlar dünyaya demək istəyirlər ki, bu işə başalayanların özləri Amerikaya təslim oldular, baş əydilər. Buna əsasən, məqsəd sağlam əlaqələr deyil. Onlar təbliğat məqsədilə həmin sözləri deyirlər. Təəssüf ki, bəziləri də ölkə mətbuatında və digər yerlərdə həmin sözləri təkrarlayırlar. Sanki Amerika ilə əlaqə ölkənin bütün iqtisadi problemlərini həll edəcək. Bu yalan və həqiqətə ziddir.

Dünya ilə əlaqə və beynəlxalq fəaliyyətlər üçün amerikalıların yalnız bir səbəbləri var; onu deyir və gizlətmirlər. Bu səbəb Amerikanın maraqlarıdır. Kiminləsə əlaqə qurmalarının səbəbini soruşanda deyirlər ki, bizim maraqlarımız tələb edir. Onlar üçün öz maraqları önəmlidir. Amerika heç bir ölkəyə xeyir vermir. Əgər bir ölkəyə bir neçə milyon dollar kredit ayırırsa, ondan bir neçə dəfə artıq imtiyazlar alır. Siz bu gün bu regiona baxsanız, ətrafımızda olan ölkələrin yoxsulluq, gerilik, istibdad, fəsad və müxtəlif problemlər içərisində olduğunu görərsiniz. Məgər bunların Amerika ilə əlaqəsi yoxdur?! Bunların hamısının Amerika ilə alaqəsi var. Amerikalılar onlardan istifadə edirlər, amma onlara xeyir vermirlər.

Amerikalılar dəfələrlə elan ediblər ki, müxtəlif ölkələrlə münasibətdə məqsədləri ABŞ dövlətinin maraqlarını təmin etməkdir. Bu sözün mənası nədir? Mənası odur ki, amerikalılara görə bir ABŞ vətəndaşının marağı kimliyindən asılı olmayaraq, hər bir İran vətəndaşının maraqlarına, bir amerikalı gənc iranlı gəncə tərcih edilir. Amerikanın beynəlxalq siyasətində əsas məqsəd budur.

Onlar yalandan və hiyləgərliklə insan hüquqlarından danışırlar. Amerika elə ölkələrin neftindən istifadə edir ki, onlarda bu günə qədər bir dəfə də xalq tərəfindən seçilmiş parlament olmamışdır. Hökumət başçısının, prezidentin xalq tərəfindən seçilmədiyi bu ölkələrdə Amerika demokratiyanın və insan hüquqlarının adını da çəkmir. Nə üçün? Çünki

maraqları təmin olunur. Səddam rejiminin İranla vuruşduğu zaman onların maraqlarına uyğun olduğuna görə Səddamla hərtərəfli əməkdaşlıq etdilər. Səddam Küveytə hücum edib onların maraqlarını təhlükəyə salanda isə onunla mübarizə apardılar və Səddam zalım, cinayətkar və etimadsız ünsür oldu. Məgər əvvəl belə deyildi?!

İndinin özündə Amerika və Avropada amerikalılar tərəfindən həm İran hökumətinə, həm də İranın ictimai rəyinə təzyiq göstərmək üçün çoxlu mərkəzlər fəaliyyət göstərir. Mənim bu mərkəzlər haqda məlumatım var. Onlar zahirdə tədqiqat mərkəzləri olsalar da, əslində İslam quruluşu əleyhinə siyasi və informasiya təzyiqi göstərmək və ictimai rəy formalaşdırmaq üçün təsis olunmuşlar. Mən bu mərkəzlərin adlarını da bilirəm, fəaliyyətlərinin nə olduğnu, nə iş gördüklərini də. Beləl追 sözdə dostluq ifadə edirlər, siyasi və hərbi kadrları, müdafiə nazirləri, Fars körfəzində olan silahlı qüvvələrinin komandanı isə quldurcasına danışırlar. Casus şəbəkələri də məxfi təxribatlarla məşğuldur. Vaxtın az olduğuna görə mən bu barədə çox danışmaq istəmirəm. Təəssüf ki, bunların bəzisi müəyyən gərgin durumlardan istifadə edib İranın daxilinə gələ və onunla-bununla görüşə bilmişlər. Bunların biri İrandan qayıdanda orada məruzə edib ki, İranda hər şey bitmişdir, biz yalnız səfirimizi təqdim etməliyik. Bir nəfər eşidib deyib ki, yaxşı yuxu görmüsünüz, xeyirli olsun. Burada ona nə demişlər ki, o hər şeyin həll olunduğu qənaətinə gəlmişdir? Onunla kim danışmışdır?[1]

**Sual:** İran xalqını və İslam quruluşunu diz çökürmək üçün düşmənin dövri məqsədləri hansılardır?

**Cavab:** Düşmən üç dövri məqsədi izləyir: birincisi milli birliyi pozmaq, İran xalqının vəhdətini sıradan çıxarmaq, ikincisi xalqın qəlbindəki imanı və təsirli inamları - yəni onu geriqalmış və başıqapazlı xalqdan qabaqcıl, cəsarətli və dünyada sözü keçən bir xalqa çevirən inam və etiqadları məhv etməkdir. Bu uğurlar bir sıra etiqad və

---

[1] Tehranın böyük müsəllasında gənclərlə görüşdəki çıxışdan: 2000.

inamların sayəsində ərsəyə gəldi. Bu inamlar olmasaydı, insanlar hərəkət etməz və xalq uğur qazanmazdı. Düşmən bu inamları bizim xalqımızın beynindən çıxarmaq istəyir. Üçüncüsü xalqın ümidini və təsəvvüründə olan gələcəyi məhv etməkdir. Deməli, düşmən üç amili məhv etməyə çalışır: milli birliyi, təsirli və müqavimət bəxş edən inamları, bir də ümid ruhunu. Onlar bu amilləri məhv etməyin adını islahat qoyurlar.[1]

**Sual:** Mümkünsə düşmənin bu üç dövri məqsədini daha çox açıqlayın.

**Cavab:** Bilirsiniz ki, bu böyük xalqın daxilində ixtilaf amilləri mövcuddur; bəzi bölgələr arasında etnik və coğrafi fərqlər var. Lakin rəşadətli İran xalqı inqilabdan öncədən bu günə qədər öz birliyini bütün təfriqə amillərindən üstün tutmuş və düşmənin istəyinin əksinə olaraq, bütün həssas zamanlarda öz vəhdətini qoruya bilmişdir. Bizim xalqımız həmin birliyə görə müharibədə qələbə çaldı. Bizim hökumətlərimiz nə iş görə bilmişlərsə və Allahın yardımı ilə quruculuq sahəsində bu günə qədər hansı inkişafa nail olmuşlarsa, xalqın birliyinə görə olmuşdur. Düşmən bunu görə bilmir. Təbəqələri bir-birinə qarşı qoymaq, ruhanini bir tərəfdə, universitet mənsubunu bir tərəfdə, bazar adamını bir tərəfdə, fəhləni bir tərəfdə, əkinçini bir tərəfdə, gəncləri bir tərəfdə, ortayaşlıları bir tərəfdə bir maraq və tələblə məşğul və digərlərinə bədgüman etmək düşmənin arzusudur. Cəmiyyətə təhlükəsizlik bəxş edən amillər var. Bütün xalq onlara etimad edir, ixtilaf zamanı onlara müraciət edib ixtilafları kənara qoyur. Düşmən bu amilləri sıradan çıxarmağa çalışır.

Düşmənlərin ikinci məqsədi inamları məhv etməkdir. Baxın, mənim əzizlərim! İnsanlar hansı mərhələdə fəaliyyət göstərirlərsə, uyğun fiziki və zehni hərəkət, uyğun iradə bir sıra inamlardan irəli gəlir. Cəbhədə düşmənlə vuruşan əsgəri bir sıra inam və etiqadlar buna vadar

---

[1] Yenə orada.

edir. Bu etiqadlar ondan alınsa, indiyə qədər qırğı kimi düşmən üzərinə şığıyan bu əsgər soyuq bir varlığa çevrilib bir kənara düşəcək. Etiqad və inamlar belədir. İslam etiqadları, ilahi mükafata inam, İran xalqının təcavüzkar düşmənlər və Amerika qarşısında haqlı olmasına inam bu xalqı hərəkətə gətirib çox azğın və cəllad Pəhləvi rejimini ortadan götürdü, məhv etdi, İslam quruluşu yaratdı və düşmənlərin istismarına son qoydu. Həmin inamlar səbəbindən bu xalq iyirmi ildir düşmənin müxtəlif təxribatları qarşısında duruş gətirir. Düşmənin məqsədi nədir? Düşmənin məqsədi xalqdan bu inamları almaqdır. Bu isə heç də asan deyil.[1]

**Sual:** Düşmənin dövri məqsədlərində daxili cəbhənin rolu nədən ibarətdir?

**Cavab:** Amerikanın bu ölkəni ələ keçirməsində heç bir mənfəəti olmayan bəzi qüvvələr səhvən, nadanlıq və bəzi kin-küdurət üzündən uyğun istiqamətdə çalışırlar. Təbii ki, insanlar müxtəlifdir; bəzilərinin kini var, bəzilərinin müəyyən kompleksi var, bəzilərinin kimdənsə gileyi var və bir dəsmaldan ötrü saraya od vurmaq istəyirlər; şəxsi bir düşmənliyə, şəxsi bir kinə, məhrum olduğu bir vəzifəyə, yaxud nəyisə yanlış anladığına görə ölkənin zərərinə, düşmənin isə xeyrinə tamamlanan bəzi sözlər danışır, hərəkətlər edir, mövqe seçir, iş görürlər. Bilin ki, bu əcnəbi radiolar milyonlarla dollar vəsaitlə idarə olunur. Bu şəkildə təbliğat aparmaqda məqsəd var: onlar öz dinləyiciləri olan ölkələrin ictimai rəyinə təsir göstərmək istəyirlər. Onlar bir nəfəri, bir sözü və bir cərəyanı əbəs yerə müdafiə etmirlər. Ağıllı adam düşmənin ona əl çaldığını görən kimi fikirləşməli, öz-özünə deməlidir ki, mən hansı qələti etdim, hansı işi gördüm ki, düşmən mənə əl çalır? Və beləliklə özünə gəlməlidir. Əfsuslar olsun ki, bəzi adamlar düşmənin əl çalmasından xoşlanırlar. Əgər futbol meydançasında bizim hücumçumuz səhvən öz qapımıza qol vursa, hansı tamaşaçılar ona əl

---

[1] Yenə orada.

çalar? Təbii ki, rəqib komandanın azarkeşləri. Düşmənin sənə əl çaldığını görürsənsə, öz qapına qol vurduğunu anlamalısan. Gör nə üçün bunu etdin. Gör hansı səhvə yol vermisən, problem haradadır. Axtar öz problemini tap və tövbə et.[1]

**Sual:** Siz bu il həzrət İmam Xomeyninin vəfatının ildönümü münasibətilə onun məqbərəsində etdiyiniz çıxışda İran xalqının xəbərdar olmasından ötrü düşmənin İslam inqilabına qarşı mübarizə planlarını ümumi şəkildə təsvir edəcəyinizə dair söz verdiniz. Sizdən bu planları açıqlayamanızı istəyirik.

**Cavab:** Mən inqilabın əvvəlindən bu günə qədər müxtəlif məsələlərdə və quruluşun müxtəlif işlərində yaxından iştirak edən, həm insanları, həm fikirləri, həm də dünyanın media təbliğatını tanıyan bir adam kimi ümumi bir nəticəyə gəlmişəm. Onun xülasəsi budur: Amerika İslam Respublikası quruluşunu devirmək üçün hərtərəfli bir plan hazırlayıb və onu hər cəhətdən ölçüb-biçmişdir. Bu plan Sovet Sosialist Respublikaları İttifaqının dağılmasında baş verən prosesin simulyasiyasıdır. Onlar İranda həmin layihəni icra etmək istəyirlər. Onların sözlərində buna dair aydın dəlil və faktlar var. Bu bir neçə ildə onların təkəbbürlü, hegemon və bəzən düşünülməmiş çıxışlarında - özləri də deyirlər ki, filan müsahibəni tələsik verdik - bu iddianın düzgünlüyü aydın görünür. Onlar İranın şəraitinə uyğun olaraq keçmiş sovetlərin dağılma planını İranda icra etmək istəyirlər. Onlar bir neçə məsələdə səhvə yol verirlər. Bu da Allahın lütfüdür.[2]

**Sual:** Lütfən Amerikanın SSRİ-nin dağılmasına dair layihəsini və bu layihənin icra tərzini açıqlayın.

**Cavab:** Bizim düşmənlərimiz həssas mövqelərdə səhvə yol verirlər. Bunlar elə səhvlər deyil ki, mən deyəndən sonra düzəldə bilsinlər. Xeyr! Onlar reallıqları anlamaqda səhv edirlər. Bu səhv fikir

---

[1] Yenə orada.

[2] Quruluşun məsul işçiləri ilə görüşdəki çıxışdan: 2000.

əsasında proqram hazırlayırlar və proqramları da səhv çıxır, uğursuz olur. Onlar Pəhləvi rejimini müdafiə etmək üçün plan hazırladılar və bütün qüvvələri ilə onu icra etməyə çalışdılar. Lakin İran məsələlərini, xalqı, ruhaniləri və dini düzgün anlamaqda səhvə yol verdiklərinə görə iflasa uğradı. Burada da taleləri məhz belə olacaq və iflas edəcəklər.

Bunlar bir neçə məsələdə səhv edirilər: birinci səhvləri budur ki, cənab Xatəmi Qorbaçov deyil; ikinci səhvləri budur ki, İslam kommunizm deyil; üçüncü səhvləri budur ki, İslam Respublikasının xalq quruluşu proletariat diktaturası deyil; dördüncü səhvləri budur ki, unitar İran bir-birinə yapışdırılmış respublikalardan ibarət ittifaq deyil; beşinci səhvləri budur ki, İranda dini və mənəvi rəhbərliyin əvəzsiz rolu zarafat deyil. Bu səhvləri bir-bir izah edəcəyəm.

SSRİ-nin dağılmasına dair Amerika planı haqda fikirlərimin əsas hissəsi 1991-ci ildə hər gün SSRİ-yə aid xəbərlərdən götürdüyüm qeydlərdən ibarətdir. Bu qeydlər sonradan bizim dostlarımızın rus və qeyri-rus qaynaqlarından hazırladığı çoxlu informasiyalarla təkmilləşdi. İndi onları geniş şəkildə söyləmək istəmirəm, amma əslində genişdir.

Amerikanın Sovet İttifaqının dağılmasına dair planı dedikdə üç məqama diqqət yetirməliyik:

Birinci məqam budur ki, planın Amerika planı olması Qərb blokunun digər dövlətlərinin bu işdə Amerika ilə əməkdaşlıq etməməsi demək deyil. Bütün Qərb və bütün Avropa bu sahədə Amerika ilə ciddi əməkdaşlıq etdilər; misal üçün Almaniyanın, İngiltərənin və digər bəzi dövlətlərin rolu aydın görünürdü. Bunlar ciddi əməkdaşlıq etdilər.

İkinci məqam budur ki, biz SSRİ-nin dağılmasında daxili amilləri görməzdən gəlmirik. Xeyr! Sovet quruluşu daxilində dağılma amilləri vardı və düşmən həmin amillərdən səmərəli istifadə etdi. Daxili amillər hansılar idi? Güclü iqtisadi yoxsulluq, xalqa təzyiq, güclü repressiya və bürokratiya. Bəzi yerlərdə irqi və milli məsələlər də vardı.

Üçüncü məqam budur ki, Amerikanın, yaxud Qərbin bu planı hərbi plan deyildi, birinci növbədə media planı idi və əsasən plakat, qəzet, film və digər vasitələrlə icra olundu. Bu planın təxminən 50-60

faizi mediaya və mədəni vasitələrə aid idi. Mənim əzizlərim! Mənim 7-8 il öncə söylədiyim mədəni hücum məsələsinə ciddi yanaşın. Mədəni hücum zarafat deyil. Media və təbliğat amilindən sonrakı amil də siyasi və iqtisadi amil idi, hərbi amil yox idi.

Bu plan nədən ibarət idi? Qorbaçov 1985-ci ildə iş başına gələndə qabaqkı qoca baş katiblərə nisbətən gənc kadr, aydın və mehriban insan idi. O, birinci növbədə "perestroyka" və ikinci növbədə "qlasnost" şüarlarını irəli sürdü. "Perestroyka" yenidənqurma və iqtisadi islahat, "qlasnost" isə ictimai islahat, söz azadlığı və bu kimi məsələlərdir. İlk bir-iki ildə media qurumları tərəfindən Qorbaçovun üzərinə təhlil, şərh, təşviq, istiqamətləndirmə və təklif seli hücum etdi. İş o yerə çatdı ki, Amerika mərkəzləri Qorbaçovu ilin adamı adlandırdılar. Bu, soyuq müharibə dövrünə - yəni amerikalıların SSRİ-də hər bir uğurun kölgəsini top atəşinə tutduqları dövrə aiddir. Qorbaçovdan qabaq SSRİ-də görülən yaxşı işləri də ciddi şəkildə inkar edir, əleyhinə əks-təbliğat aparırdılar. Amma birdən-birə Qorbaçova qarşı fərqli mövqe sərgilədilər. Qərbin bu açıq qucağı böyük bir təşviqatçı kimi Qorbaçovu aldatdı. Mən iddia edə bilmərəm ki, Qorbaçovu qərblilər, yaxud CIA hakimiyyətə gətirmişdi. Dünyada bəzi adamlar bunu iddia edirdilər. Mən isə bunun əlamətlərini həqiqətən görmürəm və pərdə arxasından xəbərim yoxdur. Amma bu qətidir ki, qərblilərin açıq qucağı, gülər üzü, təbəssümü, hörməti və həvəsləndirməsi Qorbaçovu aldatdı. O, qərblilərə və amerikalılara inandı, amma aldandı. Qorbaçovun yazdığı "Yenidənqurma - ikinci inqilab" adlı kitabda bu aldanmanın əlamətlərini sezmək olar.

SSRİ-nin ozamankı repressiv mühitində bu şüarlar rezonans doğururdu. Təxminən 1990-1991-ci ildə illərdə Qorbaçov SSRİ daxilində şəhərlərarası səfər məhduyyətini götürdü. SSRİ-nin yaranmasından 73 il sonra, otuzillik Stalin dövründən, on səkkiz, ya ondoqquzillik Brejnev dövründən və digər dövrlərdən sonra cənab Qorbaçovun "qlasnost" sahəsində gördüyü işlərdən biri səfər icazəsi idi.

Siz görün belə bir şəraitdə söz azadlığı məsələsini ortaya atmaq nə deməkdir, necə rezonans və heyrət doğurar. Bütün bu dövrdə bütün SSRİ-də ən mühüm qəzet Pravdadır; bir qəzet də gənclərə aiddir. Bir neçə elmi nəşr də vardı, amma qəzet çoxluğu və müxtəlif səpkili kitablar əsla gözə dəymirdi. Sosializmin bəzi əsaslarını tənqid etdiyinə görə bir yazıçıya uzun illər ölkədən çıxmaq qadağan olundu. Amerikalılar bu məsələdə də çox təbliğat apardılar. Bu, inqilabdan öncədən mənim yadımda qalmışdır.

Belə bir şəraitdə Qorbaçov tərəfindən bu şüar irəli sürüldü. Onlar bəzi səhvlərə yol verdilər. Mən indi bu səhvləri demək istəmirəm, söhbət əsnasında bəziləri bəlli olacaq. Bir müddətdən sonra Qərbin təbliğatı gücləndi, Sovet Respublikalarında Qərb mədəniyyəti, Qərbin simvolları, geyim forması, Mak Donalds və bu kimi məsələlər peyda oldu. Mənim söylədiklərim bir küncdə oturan hövzə tələbəsinin fikri deyil. Mən həmin günlərdə Amerika jurnallarının özündə - Taym və Nyusvikdə oxudum ki, Moskvada Mak Donalds restoranları açılıb. Bunlar mühüm bir xəbər, SSRİ-də Qərb və Amerika mədəniyyətinin uğuru kimi qeyd olunmuşdu.

Qorbaçovun islahat şüarları bir-iki il yüksəlməkdə idi. Sonra qəflətən onun yanında Yeltsin adlı başqa bir qüvvə peyda oldu. Yeltsinin rolu təyinedicidir. Onun işi budur ki, daim ayaqlarını yerə çırpıb desin ki, bu siyasətlərin faydası yoxdur, bu sürət azdır, gec oldu, islahat gecikdi və sair. Bəlkə də Qorbaçovun yerində ağıllı siyasətçi olsaydı, həmin islahatı Çində olduğu kimi, məsələn, iyirmi il ərzində problemsiz icra edərdi. İş elə bir həddə çatdı ki, Qorbaçov öz müavini olan Yeltsini vəzifəsindən azad edəndə Amerika və Qərb mediası isə nəinki azad etmədi, hətta gücləndirdi də.

O təxminən bir il, yaxud daha uzun müddət qərblilərin və amerikalıların təbliğatında görkəmli, aydın, islahatçı və məzlum bir şəxsiyyət kimi gündəmdə qaldı. Sonra Rusiyada prezident seçkiləri keçirildi. Bilirsiniz ki, hər respublika ayrıca seçki keçirirdi. Daha doğrusu, seçki keçirilmirdi, qərara gəldilər ki, keçirilsin. Qorbaçovun

işlərindən biri seçki keçirmək idi. Çar dövründən sonra sovetlərdə bir seçki də keçirilməmişdi. Çar dövrü seçkiləri isə bizdəki şah rejiminin seçkilərinə bənzəyirdi. Təsadüfən məşrutə tarixləri də bir il fərqlə eynilə İran məşrutəsinin tarixinə uyğundür. Çar dövründə olan Duma bizim Pəhləvi rejimi dövründəki Milli Şura Məclisimiz kimi formal bir parlament idi. Kommunistlər hakimiyyətə gələndə isə parlament və seçkilər sona çatdı. İndi 73 ildən sonra bütün Sovetdə yox, Rusiya Respublikasında birinci seçkilər keçirilməlidir. Namizəd kimdir? Cənab Yeltsin. Və radikal qüvvə olan Yeltsin böyük səslə prezident seçildi.

Bundan sonra əsl macəra başlayır. 1991-ci ilin iyununda Yeltsinin prezident seçilməsindən SSRİ-nin rəsmən dağıldığı dekabra qədər təxminən yeddi ay ötdü. Yəni bu bir neçə il hazırlıq işlərinə sərf olundu. Bu işlərin bəzisi Qorbaçov, bəzisi isə onun istifadə müddəti bitəndən sonra Yeltsinin əli ilə görüldü. Amerikanın və Qərbin nəzərdə tutduğu planın icrası Yeltsinin hakimiyyətə gəlməsi ilə sürətləndi. Yeltsin hakimiyyətə gəlib Rusiyanın prezidenti və SSRİ-nin ikinci adamı olan kimi təşəbbüsü ələ aldı. Yeltsinin prezident seçilməsindən 3 gün sonra Amerika prezidenti Corc Buş elan edir ki, üç Baltikyanı respublika - Latviya, Litva və Estoniya Sovetə məxsus deyil və SSRİ bu üç respublikanın müstəqilliyini rəsmən tanımalıdır. Əgər rəsmən tanımasa, Amerikanın söz verdiyi yardımlar dayanacaq. İndi yadımda deyil ki, məqsəd Ronald Reyqanın vaxtında söz verilən yardımlar idi, yoxsa Buşun dövründə söz verilən. Hər halda, cənab Qorbaçova yardım söz vermişdilər. Bir müddətdən sonra Yeltsin bu üç respublikanın müstəqilliyini rəsmən tanıdığını elan etdi. Yeltsinin rolunun güclənməsindən ötrü 2 ay sonra məşhur Avqust çevrilişi baş verdi. Bu çevriliş o zaman tamamilə şübhəli görünürdü. Amerikanın CNN və digər televiziya kanallarının kameraları Moskvada güclü fəaliyyətə başladı və Yeltsinin üzərində mərkəzləşdi. O zaman bizim öz televiziyamız CNN-in reportajlarını yayımladı. Biz Yeltsinin tankın üstünə çıxıb xalq qarşısında çıxış etdiyini gördük: "Xeyr! Biz çevriliş edənlərə təslim olmarıq!" Bundan sonra o, parlamentə getdi. Çevriliş

edənlərin öz əllərinin altında – Dumada olan Yeltsinlə işləri yox idi, amma Krım yarımadasında tətilini keçirən Qorbaçovu tutdular. Yeltsin də meydan sulayır və şüarlar söyləyirdi. Dünyada bir media ajiotajı yaratdılar. Təbii ki, reallıqdan çox da əsər-əlamət yox idi. Moskva küçələrində bir qədər tank göründü, amma üç gündən sonra dedilər ki, çevriliş edənləri yatdıqları yerdə tutublar. Çevrilişin nəticəsində ikinci şəxs olan Yeltsin əslində birinci şəxs oldu. O zaman bizim Xarici işlər nazirimiz Mərkəzi Asiya respublikalarına səfərdən dönmüşdü. Mən ondan vəziyyət haqda soruşdum. Dedi aydındır ki, artıq SSRİ-nin prezidenti Yeltsindir, Qorbaçov deyil. Bu, bütün dünyaya bəlli idi. Sonra digər respublikalar bir-bir müstəqillik istəməyə başladılar. Qorbaçov buna qarşı çıxır, Yeltsin isə deyirdi ki, biz qəbul edirik və 2-3 gündən sonra Qorbaçov da qəbul etməyə məcbur olurdu. Buna əsasən, belə bir vəziyyət yaradıldı ki, Qorbaçov ya geri qalmamaq üçün önə keçib həmin fikirləri səsləndirməyə, ya da bir neçə gündən sonra tabe olmağa məcbur olurdu. Çünki beynəlxalq təbliğat hücumu Yeltsinin dediyindən başqa sözlərə imkan vermirdi.

Bu proses iyun ayından başlanmışdı. Onun ardınca Qorbaçovun partiyanın baş katibliyindən kənarlaşdırılması məsələsi gündəmə gəldi. Sonra Kommunist partiyasının ləğvi təklif olundu və amerikalıların həzz aldığı məsələ baş verdi: kommunizmin məğlubiyyəti elan edildi. Sonra da nəhayət Qorbaçovun istefası şayiəsi yayıldı. O zaman bir müsahibədə Qorbaçovdan soruşuldu ki, siz istefa verəcəksiniz, yoxsa yox. Dedi ki, gözləyirəm Amerikanın Xarici işlər naziri Moskvaya gəlsin, görək nə olur. Amerikanın Xarici işlər naziri Moskvaya gəldi və Qorbaçovdan qabaq Yeltsinlə görüşdü; özü də Kremlin əsas görüş zalında. Bunun mənası o idi ki, Oorbaçov bitmişdir. Üç gündən sonra isə Qorbaçov istefa verdi və SSRİ-nin dağılması elan edildi. Bu, Amerikanın SSRİ-də uğurla həyata keçirdiyi plandır. Yəni bir böyük gücü çox ağıllı planla, bir qədər pul xərcləyib bəzi şəxsləri almaqla və media qurumlarını işə salmaqla 3-4 illik bir proses və 6-7 aylıq yekun işlər nəticəsində tamamilə devirib məhv etdilər.

Burada sizə deyim ki, SSRİ-nin dağılmasından sonra Rusiya onların istədiyi kimi ikinci Braziliyaya çevrilmədi. Onlar istəyirdilər ki, Rusiya Braziliya kimi üçüncü dərəcəli bir ölkəyə çevrilsin: yüksək istehsal, amma kütləvi yoxsulluq, problemlər və dünya siyasətində heç bir təsirə malik olmamaq. İndi dünyanın harasında Braziliyanın sözü, fikri və nəzəri kiminsə diqqətini cəlb edir?! Onlar Rusiyanı bu hala salmaq istəyirdilər, amma alınmadı. Nə üçün? Çünki Rusiyanın yaxşı və güclü xalqı var; etnik baxımdan möhkəm xalqdır. Həm də sənaye inkişafı, atomu, alimləri, tədqiqatları və digər imkanları böyükdür. İndi bu texnoloqlar özləri üçün ölçüb-biçmiş və İslam Respublikasından ötrü də belə bir yuxu görmüşlər. Onlar düşünmürlər ki, İran İslam Respublikası SSRİ-nin taleyini yaşasa, bugünkü Rusiya kimi bir ölkə olacaq. Xeyr! Onlar düşünürlər ki, İran Pəhləvi dövründəki bir ölkə səviyyəsinə enəcək; yəni Türkiyədən sonra onuncu sırada duracaq. Çünki burada atom yoxdur, elə elmi inkişaf yoxdur, 300 milyonluq əhali yoxdur və Rusiya kimi dünyanın ən böyük ölkəsi deyil.

Reallıq budurmu?! Reallıq onların planlaşdırdığından yerlə-göy qədər fərqlidir. Onlar böyük səhvə yol verdilər. Mənim həqiqətən heyfim gəlir ki, dini və imamı sevən, şərafətli, mömin və bizim özümüz kimi bir hövzə tələbəsi olan əzizimiz Xatəminin adını qərblilər kimi hallandıraq və onu Qorbaçovla müqayisə edək. Onlar bu müqayisəni etdilər və açıq dedilər ki, İranda da Qorbaçov hakimiyyətə gəldi. Yaddan çıxarmayaq ki, təəssüflü də olsa, bu söz daxildə bəzilərinin xoşuna gəldi və bunun təhqir olmasını başa düşmədilər. Bu təhqirin arxasında duran təxribatı isə heç başa düşmədilər. Qərəzli qüvvələrlə, nə baş verdiyini və nə istədiklərini anlayanlarla işim yoxdur, amma bəzi qərəzsiz adamlar da nə olduğunu və düşmənin nə etmək istədiyini anlamadılar.[1]

[1] Yenə orada.

**Sual:** Siz böyük fərq və səhvlərə işarə vurub buyurdunuz ki, Amerika keçmiş SSRİ-nin dağılmasına dair planı İranda icra etmək təşəbbüsündə səhvə yol vermişdir. Lütfən bu məsələni daha artıq izah edin.

**Cavab:** Gəlin qayıdaq həmin fərqlərə. Birinci fərq bizim prezidentimizin cənab Qorbaçovla fərqidir. Qorbaçov böyük ehtimalla hətta marksizmin əsaslarına çox da inanmayan, Sovet quruluşunu qəbul etməyən aydın bir insan idi. Onun özü müxtəlif şəkillərdə bunu demişdi. Əlbəttə, hakimiyyətə gələndə çox açıq deyə bilmirdi, amma hər halda bildirirdi. Lakin İslam Respublikası bizim prezidentimizin dini və etiqadı, imam isə mürşidi və rəhbəridir. Onun özü bir ruhanidir. Onlar əvvəlcə öz xəyalpərəstlikləri ilə bəzi sözlər danışdılar. Hələ də siyasətçiləri və təxribatçıları həmin sözləri deyirlər. Onların bir qrupu isə son iki ildə baş verənlərdən qorxuya düşmüş və dəfələrlə demişlər ki, yox, bu da özlərindəndir, fundamentalistlərdəndir. Təsadüfən bunu düz başa düşüblər. Qorbaçov marksizmin əsaslarına inanmırdı və Qərbi sevirdi; danışdığı sözlər qərblilərin sözləri idi, sadəcə olaraq rus dilində söyləyirdi. Onun irəli sürdüyü məsələlər onlara aid idi, onları sevirdi. Burada bəzi çox xırda məsələlər - səfərlər, yalançı və əbəs imtiyazlar və sair var. Mən bunlar haqda danışmaq istəmirəm, çünki yeri deyil. Sizin özünüz bunları araşdıra bilərsiniz.

İkinci fərq budur ki, İslam marksizm deyil. Marksizmi heç Sovet xalqı da qəbul etmirdi. Bəli, Kommunist partiyası marksist idi. Amma bu partiya SSRİ-nin 300 milyona yaxın əhalisi arasında bir neçə milyon üzvdən təşkil olunmuşdu; bəlkə də 10, yaxud 15 milyon üzvü vardı. Kommunist partiyasının üzvlərinə həmişə xüsusi imtiyazlar verilirdi. Bu baxımdan güman etmək olar ki, həmin insanlar üçün də birinci amil imtiyazlar olmuşdur. Odur ki, marksizm bir din kimi onlar üçün əhəmiyyət kəsb etmirdi. İslam isə xalqın dini, imanıdır, xalq ona eşq bəsləyir. Bu böyük xalq məhz İslamdan ötrü öz əzizlərini, ciyərparələrini meydana yolladı, qanlı cəsədləri qayıdanda da onlar üçün ağlamadı, Allaha şükür etdi. Siz belə ana və atalar görüb-

eşitmisinizmi?! Bizim hər birimiz bəlkə də yüzlərlə beləsini görmüşük. Mən minlərlə belə insanı yaxından görmüşəm. Bu gün də dörd şəhid ata-anası bizim yanımıza gəlir. Onlar bəzi neqativ hallardan şikayət etsələr də, övladlarının İslam yolunda şəhid olmasına sevinirlər. Bu xalq bütün vücudu ilə İslama bağlıdır. Əlli il antiislam fəaliyyətindən sonra bu xalq böyük imamının, din alimlərinin və təqlid müctəhidlərinin rəhbərliyi ilə möhtəşəm hərəkat yaratdı və İslam quruluşunu hakimiyyətə gətirdi. İslam həmin amildir ki, İranda adı və bayrağı ucalanda bütün məlumatlı və ayıq müsəlmanlar kimlik, şəxsiyyət və ucalıq hiss etdilər. Bunlar bizi marksizmlə müqayisə edirlər. Allaha şükür olsun ki, düşmənlərimizi axmaq etmişdir.

Üçüncüsü budur ki, İslam quruluşu kommunizm deyil, gənc, dinamik, fəal bir xalq quruluşudur. Mən bir neçə gün əvvəl cənab Xatəmiyə deyirdim ki, dünyada heç bir ölkə – hətta Qərbin demokratik ölkələri, ABŞ, Fransa və digər ölkələr də bizim quruluşumuz qədər xalqçı olduqlarını iddia edə bilməzlər. Qərb demokratiyasında insanlar seçki məntəqələrinə gedib səs verirlər. Partiya deyir ki, filankəsə səs ver, o da bülleteni qutuya salır və iş bitir. Səsvermədə iştirak edənlər də bəzən səsvermə hüququ olanların 37 faizini təşkil edir. Misal üçün, ABŞ-da keçirilən son seçkilərdə təxminən 37 faizdən artıq seçici iştirak etmədi. Onlar heç bir seçkidə sizin prezident və parlament seçkilərində gördüyünüz 67 və 70 faizli göstərici ilə iştirak etmirlər. Səs verənlər də gəlib səs verib gedirlər. Burada isə elə deyil. Burada xalq məmurlarını sevir, onlarla emosional rabitəyə sahibdir, yalnız səs verməklə məsələ bitmir. Burada məmurların biri xəstələnəndə bütün ölkə əllərini qaldırıb dua edir, Allahdan şəfa diləyir; sanki öz övladlarına dua edirlər. Burada ölkənin məmuru işarə edəndə xalq təhlükəli işlərə atılır, canını fəda edir. Qərbin demokratik ölkələrində belə bir şey yoxdur, nəinki proletariat diktaturasında. Özləri deyirlər ki, qəti prinsiplərindən biri diktatorluqdur; yəni seçkisiz seçkilər. Sovet hökumətinin 70 ildən artıq sürən hakimiyyəti boyu son zamanlarda keçirilən Rusiya seçkilərindən öncə bir seçki də keçirilmədi. Biz isə 21 ildə 21 seçki keçirmişik. Bunlar

bir-biri ilə müqayisəolunasıdır?! Orada proletar təbəqəsinin nümayəndələrinin həyatı Kreml sarayına xasdır. Biz isə burada kilim üzərində oturur və bununla fəxr edirik. Burada ölkə məmurlarından hansı bacarırsa, öz yaşayışını xalqın məişət tərzinə yaxınlaşdırmaqla fəxr edir. Sovet quruluşunda Stalin hakimiyyətdə olanda ölməyincə başqa heç bir əlac yox idi. Otuz il hakimiyyətdə olurdu və nəhayət hadisə ilə, yaxud hadisəsiz, ya da güclü rus arağı içdiyinə görə ölürdü, sonra məsələn Xuruşşov hakimiyyətə gəlirdi, ondan sonra da Brejnev. Brejnev də 18-19 ildən sonra ölürdü və başqa bir nəfər hakimiyyətə gəlirdi. Bu quruluş xalqın səsinə və seçkilərinə əsaslanan, hər dörd ildən bir parlament və prezident seçkiləri keçirilən İslam Respublikası quruluşundan fərqlidir. Rəhbərlik səviyyəsində bunlardan da üstündür. Çünki mənəvi rəhbərliyin mənəvi öhdəliyi var. Dini ekspertlər və xalq ondan hətta bir günah da etməməsini gözləyirlər. Əgər bir günah etsə, öz-özünə vəzifəsindən kənarlaşır; sözü nə özünə əsas olur, nə də xalqa. Bu dinamik, canlı, fəal və daim yenilənən quruluş qapalı, durğun və dəyişməz proletariat diktaturası ilə müqayisəolunasıdır?!

Bir məsələyə də toxunmaq istəyirəm və o, yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək sistemidir. Bu əməl hamıya vacib olsa da, biz məmurların vəzifəsi daha ağırdır. Biz münasib üsullardan istifadə etməliyik. Xalq da buna borcludur. Bir qəzetdə yazılan dörd məqalə ilə yaxşı işlərə dəvət etmək nə vaciblikdən çıxır, nə də təsirdən düşür. Quruluşun möhkəmliyi, inkişafı, kamilliyi və xeyri yaxşı işlərə dəvət etməkdən və pis işlərdən çəkindirməkdən asılıdır. Bunlar quruluşu gənc saxlayır. Bizim iyirmibirillik quruluşumuz SSRİ-nin yetmiş ildən artıq sürən qoca kommunist quruluşu ilə müqayisədə təbii şəkildə də gəncdir. Amma belə bir quruluşun ömründən yüz il ötsə də, yaxşı işlərə dəvət olunsa, siz hər hansı bir şəxsdə pis bir iş görən kimi onu çəkindirməyi özünüzə borc bilsəniz, bu İslam quruluşu həmişə təravətli və yeni qalar. Yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək yalnız ümumi təbəqəyə aid deyil. Siz yüksək vəzifədə çalışanları da yaxşı işlərə dəvət etməlisiniz. Demirəm ki, onlardan xahiş edin. Siz deməlisiniz: "Cənab!

Bunu etmə. Bu iş düzgün deyil!" Dəvət etmək və çəkindirmək yüksəkdən olmalıdır. Yaxşı işlərə dəvət etmənin ruhu və modeli əmr və qadağadır, xahiş, minnət və yalvarmaq deyil. Demək olmaz ki, xahiş edirəm bu səhvi etməyin. Xeyr! Demək lazımdır ki, cənab, bu səhvi etmə, nə üçün belə edirsən? Qarşı tərəf kim olursa-olsun, fərqi yoxdur. Mənim kimi kiçik bir hövzə tələbəsinin tutduğu postdan yüksəkdə olsa da, yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək lazımdır.

Sonrakı səhv ölkəyə dairdir. İran yekdil ölkədir. Hətta ötən əsrlərdə ayırılan hissələrin əhalisi də ürəkdə bizimlə olmaq, bu anaya qoşulmaq istəyirlər. Bu hara, Sovet Respublikaları İttifaqı hara?! On beş Respublikanı sancaqla, daha doğrusu qamçı ilə bir-birinə bağlayıb dırnaqarası bir ölkə yaratmışlar. Bəllidir ki, qamçı götürülən kimi bir-birindən ayrılacaqlar. Elə də oldu.

Yeri gəlmişkən deyim ki, İranda milliyyət məsələsini qabartmağa çalışırlar. Bəzi qüvvələr milli hissləri təhrik edib həqiqi vəhdət amilini, yəni İslamı və dini inkar etməklə buna can atırlar. Bizim ölkəmizin vəhdət amilinin fars dilindən ibarət olduğunu düşünənlərin fars dilinə sevgisi əsla mənimki qədər deyil. Lakin İran xalqının vəhdət amili fars dili deyil, İslam dini, İslam inqilabında və quruluşunda təcəssüm olunan dindir. Bu amilin nəticəsində türkdilli insanlar da öz türk dillərində deyirlər: "Azərbaycan oyaqdır! İnqilaba dayaqdır!" Bir kürd öz kürd dilində bunu deyir, bəluc öz bəluc dilində, ərəb də öz ərəb dilində. Bəzi qüvvələr İran xalqının güclü mənəvi birlik amili olan İslam inancını zəiflətməyə çalışırlar. Xeyr! Ölkə və xalq birdir. Düzdür, birliyi həm də tarixə, coğrafiyaya, adət-ənənələrə və mədəniyyətə görə, amma əsasən xalqın müxtəlif hissələrini bir-birinə birləşdirən və hamıya birlik hiss etdirən dinə və rəhbərlik məsələsinə görədir.

Rəhbərin üzərinə vəzifələr düşür. Rəhbərin vəzifəsi quruluşu və inqilabı qorumaqdır. Ölkəni idarə etmək ölkənin siz məmurlarının vəzifəsidir. Sizin hər biriniz öz sahənizdə ölkəni idarə edirsiniz. Rəhbərin əsas vəzifəsi bu müxtəlif sahələrin quruluşla, İslamla və inqilabla fərqli hava çalmasından ehtiyatlı olmaqdır. Harada belə bir

hava çalınsa, rəhbər işə qarışmalıdır. Rəhbər də bir şəxs, bir adam, bir hövzə tələbəsi, bir Əli Xamenei və digər xameneilər deyil. Rəhbər bir institut, şəxsiyyət, xalqın imanından, sevgisindən və eşqindən irəli gələn bir həqiqət və hörmətdir. Əli Xamenei kimi yüzlərlə insan bu həqiqət yolunda canlarını və hörmətlərini verərlər. Bunun əhəmiyyəti də yoxdur. Mən bir kəs deyiləm. Sözün həqiqi mənasında qəlblərin imamı olan böyük imamımız da belə idi. O, quruluşu və onun rəhbərliyini qorumaq üçün hər şeyini verməyə hazır idi. Bu təsir var. Danışdıqları sözlərlə, gördükləri işlərlə bu təsiri sıradan çıxara bilməmişlər və bilməyəcəklər. Belə rəhbərliyin mövcud olmadığı repressiya dövründə də dindar xalqın qəlbi rəhbərə ehtiramla döyünürdü. Lakin rəhbərin zahirdə real kimliyi və qanuni mövqeyi yox idi. Təqlid müctəhidləri və böyük din alimləri formasında öz təsirini dəfələrlə göstərmişdi. Məhz buna görə müstəmləkənin hansısa rüsvayçı müqaviləsinə işarə edəndə müqavilə məhv olurdu; münasib olmayan bir hadisəyə işarə vuranda o hadisə xalqın qəzəbinə tuş gəlirdi. Bir neçə min nəfərin öz canını fəda etdiyi və öldürüldüyü 15 Xordad hadisəsində bizim böyük imamımız qanuni mənada rəhbər deyildi, böyük bir ruhani idi. Bunu görməzliyə vura bilməzlər. SSRİ-də isə belə bir şey yox idi. Əgər olsaydı, elə olmazdı, Yeltsinin meydana atılıb gələcək işlərə ağıldan kənar və qaydasız bir sürət vermək istədiyini duyanda qulağından tutub səhnədən kənarlaşdırardı, xalq da bu rəhbəri dəstəkləyərdi. Orada belə bir şey yox idi.[1]

**Sual:** Siz sözlərinizdə rəhbər amilinə toxundunuz. Bundan əlavə, dəfələrlə hökuməti və İslam Respublikasının digər orqanlarını müdafiə etmisiniz. İstəyirik rəhbər amilini, həmçinin uyğun müdafiənin səbəb və hədlərini izah edəsiniz?

**Cavab:** Mən ölkənin bütün qanuni orqanlarını ciddi müdafiə edirəm. Fərdlərdə, şəxsiyyətlərdə və orqanlarda mənim üçün

---

[1] Yenə orada.

əhəmiyyətli olan onların mövqe və vəzifələrini müdafiə etmək, işlərini yaxşı yerinə yetirməyə yardımçı olmaqdır. Prezident, Ali Məhkəmə sədri, İslam Şurası Məclisinin sədri, onların tabeliyində olan qurumlar, ölkənin qanuni orqanları bu baxımdan mənim üçün eynidir. Mən onların hamısının vəzifəsini dəstəkləyir və müdafiə edirəm. Bu müdafiə həm də ona görədir ki, mən yüksək rütbəli məmurların hamısını yaxından tanıyıram. Onlarda ixlas, din və sədaqət görürəm. Təbii ki, bu dəstəklər mütləq deyil. Mənim bu əziz qardaşların hamısı ilə peymanım din və inqilab peymanıdır.

Qeyd etdiyim kimi, rəhbərin məqsədi, kimliyi və əsas məsuliyyəti quruluşu qorumaqdır. Mənim bir şeyim yoxdur. Canım və hörmətim bu yola fəda etmək üçün dəyərsiz bir şeydir. Mən bunları bağışlamağa hazıram. Həyatın ləzzətli dövrü olan gəncliyimiz bu yolda keçib, bu gün də qocalıq dövrünü yaşayırıq. Bu gün elə yaşdayam ki, həyat mənim üçün o qədər də ləzzətli deyil. Həyatın ləzzətləri bu gün bizim üçün daha ləzzətli deyil. Ömrün sonunda, fiziki və digər bəşəri enerjilərin zəif çağında həyata vurğunluq olmur. Mənim canım və hörmətim bu yolunkudur. Sərvətim də Allaha şükür olsun ki, yoxdur.

Mənim indiki vəzifəmə rəğbətim yoxdur. Bəlkə də sizin çoxunuz bunu bilmir, amma aranızda bilənlər az deyil ki, mənim bu vəzifəyə heç bir sevgim yoxdur, yalnız üzərimə düşən vəzifəni yetirməyə çalışıram. İndi çalışıramsa, yalnız buna görədir; əvvəldən belə olmuşdur. Dini Ekspertlər Məclisinin ozamankı iclasında mənə səs verənlər bundan ciddi şəkildə imtina etdiyimi grdülər. Lakin üzərimə vəzifə düşəndən sonra dedim ki, gözəl şəkildə yerinə yetirməliyəm; üzərimə məsuliyyət düşəndə zəiflik göstərən adamlardan deyiləm. Xeyr! Bu mənim vəzifəmdir, Allahın yardımı və hidayəti ilə onu yerinə yetirəcəyəm.[1]

**Sual:** İslam inqilabına, dini dəyərlərə və İran xalqına hücum etməkdə düşmənin son məqsədi nədir? Onlar nə istəyirlər?

---

[1] Yenə orada.

**Cavab:** İstər xarici, istərsə də daxildə olan ikiüzlü və münafiq düşmənlərin əsas məqsədi din və İslam hökumətini devirməkdən ibarətdir. Onlar üçün məsələnin məğzi budur və bundan azına razı deyillər. Onlar bilirlər ki, hakimiyyət dinin və dini hökmlərin əlində olduğu, İslam Şurası Məclisinin qərarlarında dinin meyar seçildiyi və dinə uyğun konstitusiyanın qüvvədə olduğu zaman bu ölkədə bir iş görə bilməzlər. Nə qədər ki, ölkə məmurları din, İslam və fiqh əsaslarına sadiqdirlər, bunlar bir iş görə bilməzlər. Onlar bu sadiqliyi məhv etmək istəyirlər. Məqsəd budur. Onlar İslamın erkən çağında yaranmış təcrübəni yenidən təkrarlamağa çalışırlar.[1]

**Sual:** İslamın erkən çağında yaranan və düşmənin təkrarlamağa çalışdığı təcrübə hansıdır?

**Cavab:** Mən siz əziz qardaş və bacılara tövsiyə edirəm ki, tarixlə tanış olun. Tarix dərsdir. Tarixdən çoxlu dərslər öyrənmək və çoxlu təcrübələr toplamaq olar. Bəzi qüvvələr bizim dövrümüzün hadisələrini tarixdən istifadəsi mümkün olmayan müstəsna bir hadisələr kimi göstərməyə çalışırlar. Bu səhvdir. Həyatın rəngləri, üsulları dəyişir, amma əsas təməlləri və əsas cəbhələri dəyişmir.

Erkən İslam çağında İslama vurulan ən böyük və ən mühüm zərbə İslam hökumətinin imamətdən şahlığa çevrilməsi idi. İmam Həsənin (ə) və Əli ibn Əbu Talibin (ə) hökuməti Şam şahlığı ilə əvəzləndi. İmam Həsən Müctəba (ə) o zaman İslamın özünü qorumaqdan ibarət olan daha böyük bir məsləhət üçün buna dözməyə məcbur oldu; İmam Həsəni (ə) siyasi hakimiyyətdən saldılar. Hakimiyyət özünün dini mərkəzindən xaric olub dünyagirlərin, dünya sahiblərinin əlinə düşdükdə, bəllidir ki, sonra da Kərbəla hadisəsi baş verəcək, bu faciə qarşısıalınmaz və qaçılmaz bir hadisə olacaq. İslam hakimiyyəti əsas mərkəzindən, yəni imamətdən alınandan 20 il sonra Peyğəmbərin (s) övladı olan İmam Hüseyni (ə) Kərbəlada faciəli vəziyyətdə qətlə

[1] Tehranın böyük müsəllasında gənclərlə görüşdəki çıxışdan: 2000.

yetirdilər. Düşmənin əsas hücumu və planı budur ki, hakimiyyəti əsl mərkəzindən, yəni imamət və din mərkəzindən xaric etsin; sonra istədiyi işi görə biləcəyinə əmindir.[1]

**Sual:** Daxili və xarici düşmənlərin əsas məqsədi nədir və onların bu məqsədinin həyata keçməsinə əsasən nə mane olur?

**Cavab:** Əziz gənclər! Bilin ki, islamçı, inqilabçı, yaxud dini işlər gördüyünüzdə – dua məclislərində iştirak etdiyinizdə, etikaf etdiyinizdə, inqilabın qələbə günündə, yaxud Qüds günündə yürüşdə iştirak etdiyinizdə, ölkə məmurlarına, misal üçün, prezidentə və digərlərinə hörmət bildirdiyinizdə, dindarlığınızın və inqilaba sevginizin əlaməti olan hər bir hərəkətinizdə bu münafiqlər lərzəyə düşür və narahat olurlar. Bunlar öz sözləri, fikir, mövqe və təbliğatları, hərdən də bəzi iğtişaşlarda rolları ilə xarici düşməni həvəsləndirirlər. Xarici düşmən elə bilir ki, İranı tutmalı, İran xalqına hakim olmalı, inqilabın və İran xalqının 21 illik inqilabi müqavimətini qırmalıdır. Əslində bunlar təqsirkardır. Bunlar düşmənə ümid bağışlayırlar.

İstər xarici, istərsə də daxildə olan ikiüzlü və münafiq düşmənlərin əsas məqsədi din və İslam hökumətini devirməkdən ibarətdir. Onlar üçün məsələnin məğzi budur və bundan azına razı deyillər. Onlar bilirlər ki, hakimiyyət dinin və dini hökmlərin əlində olduğu, İslam Şurası Məclisinin qərarlarında dinin meyar seçildiyi və dinə uyğun konstitusiyanın qüvvədə olduğu zaman bu ölkədə bir iş görə bilməzlər. Nə qədər ki, ölkə məmurları din, İslam və fiqh əsaslarına sadiqdirlər, bunlar bir iş görə bilməzlər. Onlar bu sadiqliyi məhv etmək istəyirlər. Məqsəd budur. Onlar İslamın erkən çağında yaranmış təcrübəni yenidən təkrarlamağa çalışırlar.

Mən siz əziz qardaş və bacılara tövsiyə edirəm ki, tarixlə tanış olun. Tarix dərsdir. Tarixdən çoxlu dərslər öyrənmək və çoxlu təcrübələr toplamaq olar. Bəzi qüvvələr bizim dövrümüzün hadisələrini tarixdən

---

[1] Yenə orada.

istifadəsi mümkün olmayan müstəsna bir hadisələr kimi göstərməyə çalışırlar. Bu səhvdir. Həyatın rəngləri, üsulları dəyişir, amma əsas təməlləri və əsas cəbhələri dəyişmir.

Erkən İslam çağında İslama vurulan ən böyük və ən mühüm zərbə İslam hökumətinin imamətdən şahlığa çevrilməsi idi. İmam Həsənin (ə) və Əli ibn Əbu Talibin (ə) hökuməti Şam şahlığı ilə əvəzləndi. İmam Həsən Müctəba (ə) o zaman İslamın özünü qorumaqdan ibarət olan daha böyük bir məsləhət üçün buna dözməyə məcbur oldu; İmam Həsəni (ə) siyasi hakimiyyətdən saldılar. Hakimiyyət özünün dini mərkəzindən xaric olub dünyagirlərin, dünya sahiblərinin əlinə düşdükdə, bəllidir ki, sonra da Kərbəla hadisəsi baş verəcək, bu faciə qarşısıalınmaz və qaçılmaz bir hadisə olacaq. İslam hakimiyyəti əsas mərkəzindən, yəni imamətdən alınandan 20 il sonra Peyğəmbərin (s) övladı olan İmam Hüseyni (ə) Kərbəlada faciəli vəziyyətdə qətlə yetirdilər. Düşmənin əsas hücumu və planı budur ki, hakimiyyəti əsl mərkəzindən, yəni imamət və din mərkəzindən xaric etsin; sonra istədiyi işi görə biləcəyinə əmindir.

Mən sizə deyirəm ki, bu gün düşmən qadir deyil. Bu gün İran xalqı kimi sayıq bir xalqın, bu xalqın yüksək düşüncə sahiblərinin və İran İslam İnqilabı kimi böyük bir inqilabın sayəsində nə ABŞ, nə də ondan böyük bir maddi güc İslam dünyasını İmam Həsənin (ə) sülhü kimi bir hadisəyə məcbur etməyə qadir deyil. Düşmən çox təzyiq göstərsə, burada Kərbəla hadisəsi baş verər.[1]

**Sual:** Düşmənlər inqilaba zərbə vurmaq və Amerikanı yenidən bu məmləkətə qaytarmaq üçün çox səy göstərmiş, Allahın lütfü sayəsində indiyədək müvəffəq olmamışlar. Bu düşmənlərə sözünüz və mesajınız nədir?

**Cavab:** Düşmənə bir söz demək istəyirəm; harada olursa, kim olursa-olsun. Bizim əsas düşmənlərimiz casus şəbəkələrində bu

---

[1] Yenə orada.

məsələləri planlaşdıranlardır. ABŞ Konqresinin İran quruluşu ilə mübarizə üçün ayırdığı və ondan dəfələrlə artıq pullar harada xərclənir? Bəllidir ki, belə planlara sərf olunur. Şübhəsiz belədir. Bu düşmənlər bilsinlər ki, Amerikanın bu məmləkətə qayıdış yuxusu pərişan və çinçıxmaz bir yuxudur.

Bu dəyərsiz daxili ünsürlər, tərk edilmiş və mənfur siyasi qruplar, xalqın çürük diş sayağı çıxarıb bir tərəfə tulladığı bu ünsürlər 18-19 ildir ki, xalqdan, imamdan, imamın adından və yolunda inqtiqam almaq üçün pusquda durmuşlar. Bunlar da bilsinlər ki, səhv etdilər. Bu məsələdə də səhv etdilər; özlərini ifşa edib iç üzlərini göstərdilər.

Düzdür, bizim təhlükəsizlik orqanlarımıza namərdcəsinə zərbə vurdular. Bizim polisimizə də zərbə vurdular. Lakin İslam Respublikasının xidmətçiləri, ixlaslı və namsız-nişansız əsgərləri məlumatları toplayır, kimin harada nə etdiyini bilirlər. Onlar bu işlərlə xalqı istiqlaliyyət və əziz İslam yolunda mübarizədən, düşmənlərlə mübarizədən daşındıra bilməzlər.[1]

**Sual:** Xalqın müxtəlif təbəqələri, məmurlar və xüsusən gənclər üçün indiki vəziyyətdə müxtəlif vəzifələr düşünmək olar. Sizcə ən mühüm vəzifə hansıdır?

**Cavab:** Düşməni tanımaq hər bir işdən mühümdür. Düşmən özünü dost kimi göstərmək, xalqların şüarlarını dəyişdirmək istəyir. Necə ki, bəzi ərəb rəsmiləri arasında sionizmlə mübarizə şüarını başqa bir şüara çevirdilər. Onların işlərindən biri şüarları dəyişdirməkdir. Elə xalq və dövlət təslim olar ki, düşməni tanımasın, yaxud fəsada və bədbəxtliyə düçar olsun. Əgər düşməni tanısa (mən gənclərə bunu tövsiyə edirəm), o zaman şüarlar aydın və ayıq olar, Allahın lütfü ilə, düşmən öz istədiyini İran xalqından ala bilməz.[2]

---

[1] Xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 1999.
[2] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan: 1999.

## Üçüncü fəsil: Mədəniyyət, mədəni hücum və mədəni hücumda Qərbin məqsədləri

**Sual:** Mədəni müstəqillik daha əhəmiyyətlidir, yoxsa siyasi və iqtisadi müstəqillik? Mədəni müstəqilliyin mənası nədir?

**Cavab:** Mədəni müstəqillik bunların hamısından əhəmiyyətlidir. İslam Respublikası əvvəldən göstərdi ki, Qərbin pozğun və fəsad dolu mədəniyyətinin boyunduruğu altına girməyəcək. Mən qətiyyətlə deyirəm ki, böyük güclərin əsl istismarı mədəni istismardır. Yəni bir xalq öz mədəniyyətini, inamlarını, etiqadlarını, adət-ənənələrini və daha üstün mərhələdə öz əlifbasını və dilini başqa bir xalqa sırıya bilsə, deməli, o xalqa həqiqətən hakim olmuşdur. Son iki yüz ilin bir dönəmində fransızlar digər ölkələrdə bunu etdilər, bir dönəmində ingilislər, son dövrlərdə isə amerikanlar. Onlar öz dillərini, əlifbalarını, mədəniyyətlərini və adət-ənənələrini bacardıqları hər bir ölkəyə ixrac etdilər. Bir ölkə iqtisadi baxımdan müstəqil olsa və əcnəbi güclərdən asılı olmasa da, əcnəbi güclər öz mədəniyyətlərini bu ölkəyə hakim edə bilsələr, onu ələ keçirmiş sayılırlar.

Mədəniyyət hava və su kimidir. Mədəniyyət mənim və sizin həyatımıza hakim olan adət-ənənələrdir. Mədəniyyət bizim inamlarımız, etiqadlarımız, şəxsi və ictimai həyatın, bir cəmiyyətin üzləşdiyi məsələlərdir. İslam Respublikası Qərb mədəniyyətini rədd edib dedi ki, bizim müstəqil İslam mədəniyyətimiz var.

İslam davranışda, fərdi həyat tərzində, yemək-içməkdə, geyinməkdə, dərs oxumaqda, hökumətlə münasibətdə, bir-biri ilə münasibətdə və alış-verişdə müsəlmanların vəzifəsini müəyyən etmişdir. Biz bunları qərblilərdən öyənmək və onları yamsılamaq istəmirik. İslam Respublikası bunu əvvəldən elan etdi.[1]

---

[1] Vilayət hədisi, c. 4, səh: 50-51.

**Sual:** Qərbin inkarı nə deməkdir? Məqsəd onların elm və texnologiyasının inkarıdır, yoxsa başqa bir şey nəzərdə tutulur?

**Cavab:** Bu çox əhəmiyyətli sualdır. Mən bu barədə bir neçə məqama toxunmaq istəyirəm. Əvvəla, Qərbi inkar etmək - onun texnologiyasını, elmini, inkişafını və təcrübələrini inkar etmək demək deyil. Heç bir ağıllı insan bunu etməz. Qərbi inkar etmək – onun istismarçılığını inkar etməkdir; istər siyasi istismarçılıq olsun, istər iqtisadi və yaxud mədəni. Mən bu qısa vaxt ərzində Qərbin mədəni istismarçılığı haqda bir neçə cümlə demək istəyirəm. Bu, sizin üçün faydalı ola bilər.

Qərb mədəniyyəti gözəllik və çirkinliklər məcmusundan ibarətdir. Heç kim Qərb mədəniyyətinin bütünlüklə çirkin olduğunu deyə bilməz. Xeyr! Bütün mədəniyyətlər kimi, o da gözəl cəhətlərdən xali deyil. Heç kim öz qapılarını bu və ya digər əcnəbi mədəniyyətin üzünə mütləq şəkildə bağlamaq istəməz. Qərb mədəniyyəti Şərq mədəniyyəti və dünyanın digər mədəniyyətləri kimi, həm yaxşı, həm də pis elementlərdən təşkil olunub. Ağıllı bir xalq və toplum yaxşı elementləri götürüb öz mədəniyyətinə əlavə edər, onunla öz mədəniyyətini zənginləşdirər, pis elementləri isə rədd edər. Dediyim kimi, bu məsələdə Avropa, Qərb, Amerika, Latın Amerikası, Afrika və yaxud Yapon mədəniyyətləri arasında heç bir fərq yoxdur - hamısı bərabərdir. Biz hər hansı bir mədəniyyətlə rastlaşdıqda, təbii olaraq bacardığımız qədər onun gözəlliklərini götürməli, bizə münasib olmayan pis və zərərli cəhətləri və bizim baxışımızdakı gözəlliklərlə ziddiyyət təşkil edənləri rədd etməliyik. Bu, ümumi bir prinsipdir. Qərb mədəniyyəti haqda isə mühüm bir məqam var, sizin buna diqqət yetirmənizi istəyirəm. Qərbin, yəni avropalıların mədəniyyətinin, bizim bildiyimiz qədər, başqa mədəniyyətlərdə olmayan bir eybi var. Bu, hakimolma hissidir. Bu, qəti humanitar, coğrafi və tarixi dəlillərə əsaslanır. Onlar dünyada elmi üstünlüyə malik olan kimi, on doqquzuncu əsrdə birbaşa müstəmləkəçilik formasını alan siyasi və iqtisadi hökmranlıqları ilə öz mədəniyyətlərini yeritməyə başladılar, xalqların mədəniyyətinə qarşı

mübarizə apardılar. Bu, pis haldır. Hər hansı bir xalqın başqa bir ölkəyə öz mədəniyyətini qəbul etdirməyə qalxması əsla qəbuledilməzdir. Əgər çox yaxşı da olsa, xalq ona sırınan mədəniyyəti qəbul etməz. Siz yəqin ki, öz meylinizlə yediyiniz qatıq-çörəyi zorla ağzınıza qoyulan kabab-plovdan üstün tutarsınız. Hər hansı bir iş zorla olduqda, güc göstərildikdə, amiranə və təkəbbürlü şəkildə yeridildikdə, hər bir xalq ona qarşı çıxar. Bu, belə də olmalıdır. Misal üçün, qalstuk Qərbə aid bir şeydir. Qərblilər bunu istəyirlər, sevirlər, öz ənənələrinə uyğundur. Siz isə başqa bir ölkənin vətəndaşı ola-ola, əgər təsadüfən kostyum geyinməyi seçmisinizsə və qalstuk taxmırsınızsa, mədəniyyətsizmi hesab olunmalısınız?! Nə üçün? Bu sizin mədəniyyətinizdir, mənim günahım nədir?! Əgər kostyum geyinmisinizsə, bant və ya qalstuk da taxmalısınız, yoxsa filan məclisdə iştirak edə bilməzsiniz, mədəniyyətsiz, nəzakətsiz və səliqəsiz adam sayılacaqsınız! Bu, Qərb mədəniyyətinin zorla qəbul etdirilməsidir. Qərbli qadının öz adət-ənənəsi var. Onların qadın məsələsinə, qadının geyiminə, kişilərlə əlaqəsinə və cəmiyyətdə roluna dair xüsusi normaları var. İndi bunların yaxşı, ya pis olmasından danışmırıq. Məsələ burasındadır ki, onlar bu mədəniyyəti zorla dünyanın digər xalqlarına qəbul etdirmək istəyirlər. Bu, Qərb mədəniyyətinin pis xüsusiyyətidir.

Mən bir dəfə bir misal vurub dedim ki, bir var özünüz öz seçiminizlə yüksək kalorili bir qidanı, yaxud hər hansı dərmanı qəbul edəsiniz, bir də var sizi huşsuz edib, yatıra, yaxud əl-ayağınızı bağlayıb sizə bir ampul vuralar. Fəsadlı rejim və ölkə başçılarının vasitəsi ilə Qərb mədəniyyətini xalqlara köçürməyə çalışmışlar. İran xalqına etdiklərinə görə Allah azğın Pəhləvi rejiminin günahından keçməsin! Onlar da belə idilər. Onlar müxtəlif üsul və yollarla Qərb mədəniyyətini ölkəmizə hakim etməyə çalışdılar, bundan ötrü İran xalqını, milli mədəniyyəti, milli inamları təhqir etdilər.

Qacarlar sülaləsinin sonlarında qərblilərin İrana hücumu başlandı, Pəhləvilərin dövründə isə zirvə həddinə çatdı. O dövrdə yetişənlər İran xalqını özünü idarə etməyə, işləməyə, bir şey düzəltməyə, dünyaya nə

isə təqdim etməyə və yaxud əldə edilmiş məlumatları artırmağa layiq bilmirdilər. Nə üçün belə idi? Bu, xalqın mədəniyyətinin, milli kimliyinin təhqirinə və əcnəbi mədəniyyətin qəbul etdirilməsinə görə idi. Milli kimlik mədəniyyətlə formalaşır. Hər bir xalqın kimliyi onun mədəniyyətidir. Bunu yaralamaq olmaz. İran xalqının Qərb mədəniyyətinə qarşı çıxması buna görədir. Qərb mədəniyyətinin gözəllikləri də var. Onların mədəniyyətinin gözəlliklərini götürməyin eybi yoxdur, amma öncə o gözəlliklərin nədən ibarət olduğu müzakirə mövzusu olmalıdır.[1]

**Sual:** Bz nə üçün Qərb, Avropa və Amerika mədəniyyətindən qaçmalı, qarşısında beynimizi qıfıllamalıyıq? Bu mədəniyyətin idarəsi kimlərin əlindədir?

**Cavab:** Bu, əhəmiyyətli sualdır. İnqilabdan sonra xalq müəyyən həddə bunun cavabını tapmışdır. Lakin yenə də bu barədə bir neçə cümlə demək istəyirəm.

Qərb mədəniyyəti insanın fəsadına hesablanmış, bəşəri dəyərlərə düşmən, qızıl və güc sahiblərinin və qüdrət imperatorlarının əlində alət olmuş bir mədəniyyətdir. Bu mədəniyyətlə Adəm övladlarını bütün insani fəzilətlərdən ayırmaq, insanları əxlaqsız, müti, təslimçi, Allahdan və mənəviyyatdan xəbərsiz məxluqlara çevirmək istəyirlər. Onların maraqları bu mədəniyyəti yaymaqla təmin olunur. Bu çılpaqlıq mədəniyyəti və qadınla kişinin qeyd-şərtsiz qarışması Qərb mədəniyyətinin əsaslarından biridir, ilk gündən insanların fəsadı və bəşəriyyətin insani dəyərlər çərçivəsindən ixrac edilməsi üçün düşünülüb. Onların bəşəriyyətə ürəkləri yanmır.

Ən böyük televiziya və radio kanalları ən böyük zavod və mədənlərin sahiblərinə və ən varlılara məxsusdur. Sionizm təşkilatı bəşər nəslini fəsada çəkmək üçün təxminən yüz əlli il öncədən proqram hazırlamış, fəsadı və pozğunluğu yaymağa başlamışdır. Onlar qadınları

---

[1] Böyük Rəhbərin "İslam inqilabı və gənclər" günündə gənclərlə sual-cavab toplantısındakı söhbətlərindən: 1999.

bəşər iffətindən uzaqlaşdırdılar. Müsəlman ölkələrinin və digər uzaq ölkələrin qadınları öz yerində, heç Avropa və Amerika qadınları da fəsada, pozğunluğa və insani dəyərlərdən uzaqlaşmağa son əlli ildəki kimi ifratçı şəkildə düçar olmamışdılar. Onlar kişiləri də fəsada, rahatlığa, tənbəlliyə, eyş-işrətə və istehlakçılığa sürüklədilər, heyvani yaşayış tərzinə məcbur etdilər. Dünyanın müxtəlif ölkələrində bu supergüclərin istibdad və istismarı altında olan kişi və qadınlar tərəfindən təhdid olunmamaq üçün beyinləri korladılar.

Bu gün Afrikada və Latın Amerikasında müstəmləkəyə çevrilmiş ölkələrin əhalisinin əxlaq fəsadı son həddədir. Onlar öz-özlərinə belə olmamışlar. Müstəmləkə və hegemonluq onları fəsada sürükləmək, onlardan gələcək təhlükənin, mübarizə və oyanışın qarşısını almaq, özlərinin müstəmləkəçi və hegemon mərkəzlərinin şeytani imperatorluğunu qorumaq üçün proqramlar icra etmişlər.

Mənfur Pəhləvi sülaləsinin hakimiyyətindən qabaq bizim xalqımıza qarşı uyğun proqramların icrasına başladılar, bu mənfur rejimin dövründə isə həmin prosesi gücləndirdilər. Müstəmləkəçilik və hegemonluq bu muzdur ailənin şahlığı dövründə cəmiyyətdə Qərb mədəniyyətinin genişləndirilməsinə çox çalışdı və təəssüf ki, müvəffəq oldu. Bu gün ölkə daxilindəki bəzi iranlı ailələrdə həmin adət-ənənələrə, geyim və davranış tərzlərinə təmayül görünürsə, Qərbin rəzil və xəyanətkar müəllimlərinin on illərlə bu ölkədə geniş yayılmış təlimlərinin nəticəsidir. İnqilab baş verib xalqın mədəniyyətində və fikirlərində möhtəşəm dəyişiklik yaratsa da, hələ də Qərb həyat tərzi üçün sino gedən bir çox şəxslər təəssüf ki, çirkin bataqlıq olan Qərb mədəniyyətinin fəsadlarından - qadın və kişinin insani şəxsiyyəti və ailə kimi prinsipial bəşəri təməllərin heç birinin sağlam qalmadığı fəsadlardan xəbərsizdirlər.

Baxın, bu gün ABŞ və İngiltərədə homoseksualizm rəsmiləşmiş, qanuniləşmişdir. Onlar bundan xəcalət çəkmirlər, bizim danışmağa utandığımız işləri görürlər. Bizim xalqımız bilsin: iki həmcinsin evlənməsinin qanunla mümkun olduğu bir ölkədə ailə təməli qalarmı?!

Bu gün hakimiyyətdə olanları və onların təbliğatçılarını çıxmaq şərti ilə, ABŞ və Avropa xalqının ümumi təbəqəsi ailə təməllərinin sarsılmasından narahatdırlar. Qadın və kişilər ailə institutunun məhv olunmasından eyni dərəcədə əziyyət çəkirlər. Bu günü-gündən artır və əlbəttə, son zərbədir. Ailə insanın rahatlıq yeridir. Rahat və dinc ailə olmadan heç bir insan həyatın əsl ləzzətini dada bilməz. Onlar bu təməlləri dağıdıb məhv edirlər. Bu, Qərb mədəniyyətidir. Belə azadlığın, pozğunluğun, çılpaqlıq mədəniyyətinin və qadın-kişi qarışmasının nəticəsi məhz budur.[1]

**Sual:** Qərb, xüsusən də ABŞ və Avropa ölkələri nə üçün İslam ölkələrinin müsəlman inancına və dini hisslərinə hücum etdilər və bu hücumda hansı üsullardan istifadə olundu?

**Cavab:** İngiltərənin ozamankı siyasi lordları və yüksək rütbəli məmurları təxminən bütün dünyanın siyasi planını cızırdılar. Əslində onlar bütün dünyada işləyirdilər - Avstraliyadan tutmuş Mərkəzi Asiyaya, Hindistan yarımadasına, İrana, Orta Şərqə, Şimali Afrikaya və Amerikaya qədər. Bu kiçik ada dünyanın bütün ölkələrinə hökmranlıq edirdi.

Onlar bu nəticəyə gəldilər ki, nefti, qazı və ozamankı dünyanın gələcək enerjisini təmin etmək iqtidarında olan, təyyarələrin və indiki sürətli əlaqə vasitələrinin olmadığı dövrdə Şərqlə Qərb arasında strateji baxımdan həyati nöqtə hesab olunan bu həssas bölgədə mövqelərini möhkəmlətmək istəyirlərsə, İslam haqda düşünməyə və ona çarə qılmağa məcburdurlar. Xalqın dini vicdanının və İslam inancının ayıq olduğu təqdirdə onların planlarının həyata keçməsi imkansız idi.

Onların bu fikri dəqiq idi və düz anlamışdılar. Onlar üçün əsas maneə İslamdan ibarət idi. Biz ingilisləri dedik, amma Avropanın digər ölkələri də təqsirsiz deyildilər, Fransa, İtaliya, Portuqaliya, Belçika da var idi. Lakin o zaman dünyanın müxtəlif bölgələrində görülən işlərin

[1] Vilayət hədisi, c. 3, səh: 62-66.

hamısında əsas mərkəz İngiltərə idi. Siyasətdə və cəmiyyətlərin həyatında hər xalqın öz növbəsi var. Onda onların növbəsi idi, çapıb-talayır və amansızlıqla qarət edirdilər.

Növbə İslam ölkələrinə çatdıqda bu fikrə düşdülər ki, bu ölkələrin inkişaf etməkdə olan nəsillərini dindən ayırmalıdırlar. Bu iş üçün iki iş görülməli idi:

Biri cinsi məsələlərin yayılması və ona şəraitin yaradılması idi. İslam dini digər dinlərdən daha dəqiq olsa da, təkcə o yox, bütün dünya dinləri insanların cinsi özbaşınalığına qarşı çıxır. Dinlər bunun üçün qayda və hədd müəyyənləşdirib. Cinsi istəkləri məhdudlaşdırmadan insan ruhunun yetkinləşməsi mümkün deyil. İnsanın ehtirası heç bir sərhəd tanımasa, heyvan kimi olub insani tərəqqidən uzaq düşər. Buna görə də dinlər şəhvətpərəstliyə və cinsi özbaşınalığa müxalifdirlər.

Hər bir cəmiyyətdə dinlərlə sadə və asan mübarizə yolu cinsi özbaşınalığa rəvac verməkdir. İranda bu işə başladılar. Bu sahədə görülən ən mühüm işlərdən biri hicab qadağası idi. Başqa bir iş spirtli içkiləri yaymaq idi - onlar bu işi də gördülər. Başqa birisi qadınla kişi arasındakı əlaqə məhdudiyyətini aradan qaldırmaq idi. Bu, sınaqdan keçmiş işlərdəndir. Yeni elmi cihazlar və sivilizasiyanın inkişafı, məsələn, kinoteatrlar, radio, televiziya və sair vasitələr də onlara bu işləri asanlıqla görmək imkanı verirdi. Bu sadalananlar hələ elm, savad, düşüncə və beyinə aid olmayan işlərdir.

Bəziləri səhvən elə düşünürlər ki, cinsi özbaşınalığa səbəb olan amil elm və bilikdir. Xeyr! Elm və bilik ikinci məsələ idi. Birinci məsələ yalnız mədəni məsələlər – düşüncə və elm fəsadına, ehtiraslı əməllərə yol açmaq və xalqın həyatını pozğunlaşdırmaq idi. Birinci iş bu idi və bunu etdilər. Buna görə də İranda, eləcə də digər ölkələrdə qərblilərin bu hücumu ilə yoldan çıxan ilk şəxslər savadlılar yox, əksər savadsızlar idi. İndi də belədir.

Zalım şah dövründə fəsada qərq olanların əksəriyyəti savadsızlar və cəmiyyətin orta təbəqəsi idi. Bəli, rifah təsirlidir, kömək edir. Rifah,

israfçılıq və məişət imkanları onların istədiyi və planlaşdırdığı fəsada kömək göstərirdi. Bu bir məsələ idi.

Başqa bir məsələ elm və düşüncə məsələsi idi. Təbii ki, Avropanın əldə etdiyi elmi tərəqqilər cəlbedici idi. Bu yeni elmi düşüncələr İslam ölkələrinə daxil olarkən onlar bunu xalqı dindən uzaqlaşdırmağa, ürəklərdə olan din-iman işığını söndürməyə və dini vicdan ayıqlığını ortadan götürməyə vasitə etdilər.[1]

**Sual:** Lütfən birinci iş haqda daha artıq məlumat verin.

**Cavab:** İslam dini digər dinlərdən daha dəqiq olsa da, təkcə o yox, bütün dünya dinləri insanların cinsi özbaşınalığına qarşı çıxır. Dinlər bunun üçün qayda və hədd müəyyənləşdirib. Cinsi istəkləri məhdudlaşdırmadan insan ruhunun yetkinləşməsi mümkün deyil. İnsanın ehtirası heç bir sərhəd tanımasa, heyvan kimi olub insani tərəqqidən uzaq düşər. Buna görə də dinlər şəhvətpərəstliyə və cinsi özbaşınalığa müxalifdirlər.

Hər bir cəmiyyətdə dinlərlə sadə və asan mübarizə yolu cinsi özbaşınalığa rəvac verməkdir. İranda bu işə başladılar. Bu sahədə görülən ən mühüm işlərdən biri hicab qadağası idi. Başqa bir iş spirtli içkiləri yaymaq idi - onlar bu işi də gördülər. Başqa birisi qadınla kişi arasındakı əlaqə məhdudiyyətini aradan qaldırmaq idi. Bu, sınaqdan keçmiş işlərdəndir. Yeni elmi cihazlar və sivilizasiyanın inkişafı, məsələn, kinoteatrlar, radio, televiziya və sair vasitələr də onlara bu işləri asanlıqla görmək imkanı verirdi. Bu sadalananlar hələ elm, savad, düşüncə və beyinə aid olmayan işlərdir.

Bəziləri səhvən elə düşünürlər ki, cinsi özbaşınalığa səbəb olan amil elm və bilikdir. Xeyr! Elm və bilik ikinci məsələ idi. Birinci məsələ yalnız mədəni məsələlər – düşüncə və elm fəsadına, ehtiraslı əməllərə yol açmaq və xalqın həyatını pozğunlaşdırmaq idi. Birinci iş bu idi və bunu etdilər.[2]

---

[1] Vilayət hədisi, c. 6, səh: 74-76.
[2] Vilayət hədisi, c. 6, səh: 75-76.

**Sual:** Bu gün İslam quruluşunu devirmək və ya yayındırmaq üçün düşmən ən çox səyini hansı məsələyə yönəltmişdir?

**Cavab:** Bu gün düşmən özünün ən böyük səyini mədəni hücum üzərində toplamışdır. Mən bunu bir mədəniyyət mənsubu kimi deyirəm, siyasi adam kimi yox.

Döyüş səhnəsinə baxdıqda onun bir tərəfində İslamın və məzlumların nicatının tərəfdarı və dünya hegemonlarının düşməni olan siz İran xalqını, digər tərəfində isə sizin düşmənlərinizin – yəni hegemon və antiislam cəbhə başçılarının, onların davamçılarının və bu arada şəxsi maraqlarına və nəfsi istəklərinə görə hegemonluq siqnalının və onun izdihamının arxasınca düşmüş rəzil adamların dayandığını görürük. İndi müharibə gedir, zarafat deyil. Hərbi müharibə bitdi. Üstəlik, düşmən – yəni beynəlxalq hegemonluq bacarsa, yenə də hərbi müharibəyə başlayar, amma bu onun üçün asan deyil.

İndi elmi, mədəni və siyasi bir müharibə gedir. Kim bu döyüş səhnəsini aydın görsə, xəbərləri anlasa, dəqiq məlumatı olsa, səhnəyə bir nəzər yetirməklə indi düşmənin ən çox mədəni yollarla təzyiq göstərdiyini bilər. Muzdur qələm sahibləri, dinini, qəlbini və vicdanını satmış elm və mədəniyyət mənsubları az deyil. Əksəri ölkə xaricində və tək-tük ölkə daxilində olan bu adamlar hegemonluğun fəsad süfrəsində əyləşib onların məqsədləri üçün qələm işlətsinlər, şeir də yazsınlar, iş də görsünlər; elə görürlər də.[1]

Biz dəfələrlə demişik, yenə də deyirik ki, mədəni təxribat hazırlanır və mən onu öz gözlərimlə müşahidə edirəm. Bu, şüarçılıq deyil, buna dair dəlillər var, mən bunu görürəm. Bu gün düşmən daxildə çox zirək üsulla bizim əleyhimizə güclü mədəni bir müharibə aparır. Demək istədiyim giriş budur.

Biz bu mədəni müharibə qarşısında nə iş görməliyik? Adət budur ki, ölkədə bir mədəni problem göründükdə, yaxud eşidildikdə - indi bu

[1] Vilayət hədisi, c. 4, səh: 161.

problem vardır – hamımız üzümüzü hökumətə çevirib deyək ki, hökumət, siz nə üçün fəaliyyət göstərmirsiniz? Bunun adi misalı da hicabsızlıq, yaxud bəzi uzaq şəhər və bölgələrdə yayılan qədim saz, nağara və bu kimi şeylərdir. Bəzən bu haqda bizə yazırlar, məlumat çatır, bəzi qardaşların şikayətçi və narahat olduğunu bilirik.

Təbii ki, bunlar pis əlamətlərdir; bunda şübhə yoxdur. Lakin mədəni təxribat bunlar deyil. Bunlar həmin təxribatın kiçik simptomlarıdır və əhəmiyyəti çox azdır. Bu gün ölkə qadınları hicab və görkəm baxımından inqilabdan qabaqkı dövrdən olduqca çox fərqlənirlər. İnqilabdan qabaqkı dövrə nisbətən bizim bu qədər fərqləndiyimiz az sahə var. Siz görün cəmiyyətin müxtəlif sahələrindən - istər məzhəbə və dinə aid olan, istər elmi məsələlərə, istərsə də siyasi, iqtisadi və digər məsələlərə aid hansı sahədə indiki vəziyyətlə ozamankı vəziyyət arasında bu qədər fərq var?! O zaman qadından bir şey qalmamışdı. O zaman xüsusən böyük şəhərlərdə qadının hörmətinin, hicabının və paklığının qalmasına qoymurdular. Bugünkü vəziyyət isə o zamanla müqayisəolunası deyil. Bəli, şübhəsiz, bundan da yaxşı olmalıdır, amma bugünkü vəziyyət o zamanla müqayisəolunası deyil. Bu bizim mədəni tənəzzül, cəmiyyətin məhvi, düşmən təhlükəsi və hücumu kimi baxmalı olduğumuz amil deyil. Bu başqa bir şeydir. Bəzən bu da onun əlamətlərindən ola bilər.

Cənablar! Gənc nəsil düşmənin vasitəsi ilə tədricən tələf olmaqdadır. Biz buna imkan verməməliyik. Biz gənc nəsli qorumalıyıq ki, müharibə olsa, müdafiə etsin; daxildə bir hadisə baş versə, iştirak etsin; elm və tədqiqat növbəsi çatdıqda dərs oxusun və özünü hazırlasın; gələcəkdən söhbət düşdükdə ona hazır olsun. Etimad və ümid amili olan bu gənc nəsil üzərində müxtəlif forma və üslublarla tədricən işləyirlər. Bu fəaliyyətlər əsasən mədəni istiqamətdədir. Düzdür, gəncləri fəsada çəkən mərkəzlər var. Bu, qeyri-mədəni və praktik

tərəfidir. Lakin hamısından təhlükəli olan gənclərin zehni və düşüncəsidir. Bununla məşğul olmaq lazımdır.[1]

**Sual:** Mədəni hücuma necə qarşılıq vermək olar və bu döyüşün əsgərləri nə etməlidirlər?

**Cavab:** Mədəni hücuma özü kimi cavab vermək lazımdır. Mədəni işə və mədəni hücuma tüfənglə cavab vermək olmaz. Onun silahı qələmdir. Bunu deyirik ki, ölkənin elmi-mədəni işlərində çalışan məmurlar və siz əziz elm və mədəniyyət mənsubları – müəllim, tələbə və ruhanilərdən tutmuş şagirdlərə və ölkənin təhsil sistemindən kənarda uyğun fəaliyyət gösətərən şəxslərə qədər hamınız bu gün bu döyüşdə əsgər olduğunuzu anlaya, necə müdafiə etməli və hansı işi görməli olduğunuzu biləsiniz.

Hərbi döyüşdə olduğu kimi burada da gözləri açmaq və cəbhəni öyrənmək lazımdır. Hərbi döyüşdə hansı tərəf düşmənin vəziyyətini öyrənmədən, onu nəzarətdə saxlamadan, gözünü bağlayaraq və başını aşağı salaraq irəliləsə, məğlub olar. Mədəni döyüşdə də belədir. Əgər düşmənin çalışdığını bilməsəniz, yaxud bunu bilənə qulaq asmasanız, mədəni komandandan əmr almasanız, yaxud o sizin qüvvənizdən istifadə etməsə, manevri və koordinasiyanı düzgün aparmasa, bunun arxasınca məğlubiyyət gələcək.

Radio, televiziya, məktəblər, Mədəniyyət nazirliyi, qəzetlər, jurnallar və ölkənin bütün elmi-mədəni toplumu bu baxımdan məsuliyyət daşıyır.[2]

**Sual:** Bəzi qüvvələr mədəni hücumu inkar etməyə, görməzliyə vurmağa çalışırlar. Bu reallığı görməzliyə vurmaq onun əhəmiyyətini azaldırmı?

**Cavab:** Bizim dəfələrlə təkidlə vurğuladığımız mədəni hücum məsələsi aydın bir həqiqətdir. Onu inkar etməklə hücumun özünü dəf

[1] Vilayət hədisi, c. 8, səh: 22-24.
[2] Vilayət hədisi, c. 4, səh: 161-162.

edə bilmərik. Mədəni hücumu inkar etmək lazım deyil - bu var. Əmirəlmömininin (ə) sözü ilə desək, səngərdə səni yuxu aparmışsa, bu, qarşı səngərdəki düşmənin də yatması anlamına gəlmir;[1] səni yuxu tutub, çalış yuxudan oyan. Biz milli və İslam mədəniyyətimizin özü kimi, mədəni inqilabın da düşmənlərin təhdidi altında olduğunu anlamalıyıq.

Mənim yadımdadır, müharibənin əvvəllərində düşmənin bəzi yerlərə raket hücumlarına dair məlumatlar gəlirdi. Bu məsələ müxtəlif inqilabi çevrələrdə hizbullahçı qüvvələr tərəfindən dəfələrlə təkrar olunurdu. Silahlı qüvvələrin başçısı olan o Allah bəndəsi[2] isə inkar edib deyirdi ki, yalandır, kim deyir İraq bizə hücum edir. Xalq arasında şayiə yayılmışdı ki, Eynxoş kəndini tutublar. O da oraya gedib televiziya müsahibəsi verdi və dedi ki, deyirlər Eynxoşu tutublar, amma mən indi Eynxoşda müsahibə verirəm. O çıxandan 3-4 saat sonra düşmən oranı tutdu. Bəli, düşmən Eynxoşun ətrafında idi, özündə deyildi. Amma bu o demək deyil ki, düşmən yoxdur.

Biz aydın bir məsələni inkar etməməliyik. Universitetdə, universitet xaricində, hətta bizim kütləvi informasiya vasitələrimizdə, yazılan kitablarda, tərcümələrdə, şeirlərdə, dünyada zahirən bizimlə əlaqəsi olmayan və yəqin ki, mədəni işçilər kimi siz cənabların eşitdiyi mədəni proqramlarda - hər yerdə inqilab əleyhinə çox təhlükəli mədəni cəbhə açılmışdır.

Bu, yüz il öncədən olan bir məsələ deyil. Bəli, yüz il öncə də İslam əleyhinə mədəni hücum vardı, amma insan yuxulu bir düşmən qarşısında olanda bir cür hərbi vəziyyətdə olur, ayıq düşmən qarşısında olanda bir cür. O zaman İslam dünyası yuxulu, hətta kefli və məst idi. Bəzən düşmən ona zərbə endirirdi, damarına bir iynə vururdu və və məsələ bitirdi. İndi isə İslam oyaqdır. Qərb dünyasının düşməni bu gün oyaq və pəhləvan kimi meydandadır. İmam kimi bir şəxsiyyətin dəyərli xatirəsi, bu qədər inqilabi resurs və bu qədər yaxşı gənc var. Bunlar zarafat deyil. Bu gün düşmən bizim qarşımızda 100, yaxud 50 il öncəki

---

[1]Nəhcül-bəlağə, məktub: 62.

[2] Prezident Bəni-Sədr nəzərdə tutulur.

hərbi jesti tutmur. Biz düşmənin yeni vəziyyətini bilməliyik; bilməsək və yatsaq, məhv olarıq. Döyüş adamı oyaq olmalıdır. İmam Əlinin (ə) sözü ilə desək,[1] sən yatmısansa, bu, qarşı səngərdəki düşmənin də yatması anlamına gəlmir; o oyaq da bilər.[2]

**Sual:** Hegemonluq Salman Rüşdi məsələsini nə üçün böyütdü? Həzrət imamın reaksiyası və Salman Rüşdinin edam hökmü düşmənin məqsədinə hansı təsiri göstərdi?

**Cavab:** Hegemonluğun Salman Rüşdi məsələsini bayraq etməsi o rəzil, bədbəxt, üzüqara məxluqdan və onun şeytani kitabından ən azı dünyanın bir hissəsində müsəlmanların əhval-ruhiyyəsinə zərbə vurmaq məqsədi güdürdü. Bu kitabdakı söyüşlərlə və kobud sözlərlə müsəlmanları bir qədər zəiflətmək istəyirdilər, lakin bu əməl başlarına bəla oldu. İmamın bu təxribata qarşı çox qətiyyətli və sərt reaksiyası onların hamısını çaşdırdı. Onlar bu kitabı yaymaqla və böyütməklə müsəlmanların ruhiyyəsini zəiflətmək istəyirdilər.

Bu kitab Qərb mətbuatında, xüsusən də Amerika jurnallarında bir-iki ay elə reklam olunurdu ki, kim baxsaydı, bunun bir təxribat olduğunu anlayardı. Bəlkə də siz bilmirsiniz, amma mən jurnallarda bunu görmüşdüm. Nə qədər yaxşı da olsa, bir kitabı bu qədər böyütməyə, jurnallarda yazmağa, barəsində reportaj hazırlamağa, satışından, nəşriyyatından, məzmunundan danışmağa, ixtisar etməyə, şəkil çəkməyə, film hazırlamağa, orada-burada yaymağa və bütün müsəlmanlara gülməyə lüzum yox idi. Hər kəs bilirdi ki, bu adi iş deyil. Müsəlmanların ruhiyyəsini zəiflədib qırmaq üçün bu kitabı geniş reklamlarla ortalığa çıxardılar.

İmamın reaksiyası və əks-zərbəsi o qədər güclü idi ki, vəziyyəti tamamilə dəyişdirdi. Hər yerdə müsəlman xalqların dəstək və rəğbəti ilə üzləşən bəlli edam hökmü vəziyyəti əvəzlədi, onları ruhdan saldı. Bundan sonra onların tərəfdarları özlərini müdafiə etməli oldular. O

---

[1] Nəhcül-bəlağə, məktub: 62.
[2] Vilayət hədisi, c. 9, səh: 27.

zamandan indiyədək Qərb və hegemon başçıların İslam Respublikasına birinci sözü budur ki, gəlin Salman Rüşdi məsələsini birtəhər həll edin. Beynəlxalq hegemonluğa bağlı fiqurların hansı haradasa İslam Respublikasının məmurları ilə münasibətdə olan adam tapdısa, birinci sözü, yaxud sözlərindən biri bu idi: "Bu məsələni birtəhər həll edin".

Bu əsaslı ilahi hökmü bir qədər sarsıtmaq üçün təzyiq göstərdilər, ajiotaj yaratdılar, ittiham etdilər, yazdılar, qınadılar, muzdur yazıçılarını və sənət adamlarını toplayıb uzun məktub imzaladılar, amma bacarmadılar. Bundan sonra da bacarmayacaqlar. Çünki Salman Rüşdinin edam hökmü ilahi ayələrə əsaslanır; ilahi ayələr isə güclü və sarsılmazdır.

**Sual:** Bütün bu təzyiqlərə rəğmən, sizcə Salman Rüşdi məsələsinin həlli nədədir?

**Cavab:** Həlli çox sadədir. Bir cinayətkar cinayət törədibsə, dünyanın digər cinayətləri kimi cəzalandırılmalıdır. Demirik ki, bizə versinlər. İngiltərə müsəlmanlarına versinlər, onlar ilahi hökmü icra etsinlər. Bununla da məsələ həll olunub bitəcək. Bu, açılmaz düyün deyil. Bu düyünü açmağın yolu budur. İlahi ayələrdə və qəti İslam hökmlərində müəyyən cəzaya məhkum edilmiş bu məxluq ilahi hökm əsasında cəzalanmalıdır.[1]

**Sual:** Qərb nə üçün öz ölkələrində və İran İslam Respublikasında qadınların hicabı üzərində bu qədər həssaslıq göstərir?

**Cavab:** Qərbdə qadın və kişi əlaqələrinin məhdudiyyətsiz olması, qadın və kişi münasibətlərində hicabın və pərdənin olmaması adi hal və normal işdir. Qərb ölkələrində bütün kişilərin, yaxud qadınların pozğun olduqlarını demirik. Xeyr! Belə bir iddia etmir və böhtan yaxmırıq. Bu, doğru da deyil. Heç şübhəsiz, onların arasında yaxşı və təmiz kişi və qadınlar da var, lakin ümumilikdə Qərb cəmiyyətlərində cinsi azadlıq

[1] Vilayət hədisi, c. 4, səh: 289-291.

hakimdir. Bu, orada bir mədəniyyətdir. Qərb mədəniyyətində cinsi ehtirasların azadlığı halal, icazəli və qeyd-şərtsiz bir məsələdir.

Bəzi Qərb ölkələri bu məsələdə çox inkişaf etmiş, öz həyatlarını xəcalətli formalara salmışlar. Onlar buna peşman olmuşlar. Bu, Qərb ölkələrinin mütəfəkkir, siyasətçi, texnoloq və idarəçilərinin çarəsiz qaldığı və onlar üçün doğrudan da problem yaradan məsələdir.

Qərb bu mədəniyyəti, xarakter və adəti bütün ölkələrə ixrac etdi. Başqa ölkələrdə belə fəsad yox idi; İslam ölkələrində və hətta Şərqin qeyri-müsəlman ölkələrində də belə bir şey mövcud deyildi. Bunu qərblilər idxal etdilər.

İslam Respublikası Qərbin bu fəsadlarına qarşı mübarizə apardı, qadın və kişinin qeyd-şərtsiz münasibətlərini düzgün saymadığını, hicabı, qadın və kişi arasında münasibətlərin İslam çərçivəsində olmasını məqbul saydığını əvvəldən elan etdi və bunun üzərində təkidlə dayandı. Bəzilərinə görə, bu ikinci dərəcəli və xırda məsələdir. Halbuki səhv edirlər; bu çox əhəmiyyətli məsələdir.

Burada deyim ki, Qərb dövlətlərinin İslam Respublikasına qarşı güclü müxalifət və ədavətinin ən mühüm səbəblərindən biri budur. Onlar buna çox həssas yanaşırlar. Əgər İslam Respublikası bu məsələdə güzəştə gedib qadın və kişinin qeyri-sağlam münasibətlərinə dair özbaşına Qərb mədəniyyətinə yaşıl işıq yandırsaydı, Qərbin siyasi və qeyri-siyasi təşkilatlarının İslam Respublikasına qarşı bir çox fəaliyyətləri ya azalardı, ya da bitərdi.

Bilirsiniz ki, bir vaxt bizim ölkəmizdə hicab qadağan edildi, amma dünyada heç kim buna etiraz etmədi. Bizim qonşu ölkəmiz olan Türkiyədə hicaba qadağa qoydular, son zamanlara qədər bu ölkənin bəzi iqtidarları eyni ənənəni davam etdirdilər. Bunun nümunələri son illərdə də göründü, amma dünyada heç kim buna etirazını bildirmədi və bildirmir.

Özünü mütərəqqi sayan, insan haqlarına böyük önəm verdiyini iddia və reklam edən Avropa ölkələrində - yəni Fransa və İngiltərədə bir neçə müsəlman qadının İslam hicabı ilə gəzmələrinə və məktəblərə

girmələrinə icazə vermədilər. Belə yerdə qadağa qoymağı və maneə yaratmağı düzgün bilir, bunda bir eyib görmürlər, amma cəmiyyətdə hicabı vacib bildiyi üçün hər yerdə İslam Respublikasına qarşı etiraz sərgiləyirlər. Əgər qadınların hər hansı bir geyim formasına müdaxilə etmək düzgün deyilsə, onların müdaxiləsi hicabı zəruri etməkdən də böyükdür. Çünki bu, təhlükəsizliyə daha yaxındır. Ən azı budur ki, bunlara eyni gözlə baxmaq lazımdır. Qərb isə belə etmir.

Qadınların geyim formasına müəyyən zəruri həddin qoyulduğu üçün Qərb İslam Respublikasını qınayır, kişi və qadının çılpaqlığının və hicabsızlığının icbari olduğu ölkələri isə tənqid etmir. Nə üçün? Çünki bu, Qərbin qəbul etdiyi mədəniyyətin ziddinədir. Onlar bu məsələ üzərində çox həssasdırlar.

Qərb spirtli içkilərin yayılmasına həssaslıq göstərir, onu xalqlarda və adət-ənənələrdə müsbət bir səciyyə kimi dəyərləndirir. Əgər bir ölkədə spirtli içkilər qadağan olunsa, istifadə edənlər üçün cəza tədbirləri nəzərdə tutulsa, həssaslıq göstərir və bunu mürtəcelik hesab edirlər. Spirtli içkilərin azad, icazəli olduğu, geniş yayıldığı, hökumətin ona qarşı çıxmadığı, hətta təbliğ etdiyi ölkələri isə alqışlayırlar.

Qərblilərə görə, Qərb mədəniyyətinə zidd olmadığı təqdirdə xalqı müxtəlif işlərə məcbur etmək mümkündür və bunun heç bir eybi yoxdur.[1]

**Sual:** İranlı qadının örnəyi necə olmalıdır? Qərb örnəklərindən nümunə götürmək qadınlar üçün hansı problemləri yarada bilər?

**Cavab:** Bugünkü dünyanın qadını örnək istəyir. Əgər onun örnəyi Zeynəb (ə) və Fatimeyi-Zəhra (ə) olsa, məsələləri düzgün anlayar, mövqeyi dərk etməkdə sayıqlıq, Allahın insanların üzərinə qoyduğu böyük vəzifələri yerinə yetirməkdə fədakarlıq göstərər, hər şeyindən keçməli olsa belə, ən yaxşı işləri seçər. Örnəyi Fatimeyi-Zəhra (ə), yaxud Zeynəb-Kübra (ə) olan müsəlman qadın belə olar.

[1] Vilayət hədisi, c. 4, səh: 51-54.

Əgər qadın ancaq dəbdəbə, eyş-işrət və ötəri həvəslər barədə düşünsə, köksüz və təməlsiz duyğulara təslim olsa, bu yolu gedə bilməz. Hörümçək toru kimi yolçunun ayağına dolaşan bu bağları özündən uzaqlaşdırıb, o yolu getməlidir. İnqilab və müharibə dövründə olduğu kimi, iranlı qadından indi də bu işi görməsi gözlənilir.
Bu yolda iranlı qadının örnəyi deyilənlərdir. Zeynəb (ə) örnəkdir. Zeynəb (ə) elmsiz bir qadın deyildi, ən yüksək elmlərə, ən uca və xalis bilgilərə malik idi. İmam Hüseynin (ə) qızı, Zeynəbin (ə) qardaşı qızı və şagirdi olan və adını Kərbəlada eşitdiyiniz Səkinə-Kübra bu günə qədər bütün İslam tarixində ərəb ədəbiyyatının qabaqcıllarından biridir. Tədqiqat və araşdırma ilə məşğul olanlar baxa bilərlər. Hətta Zeynəbi (ə), onun və Səkinənin atasını qəbul etməyənlər də etiraf edirlər ki, Səkinə elm və bilgi məşəlidir.

Bu yolla getmək elmdən, dünyabaxışından, aydınlıqdan, məlumatlardan və normalardan uzaqlaşmaq demək deyil. Bunlar onların fövqündə durur. İslam qadını yolu düzgün gedən, məqsədi düzgün seçən və bu yolda fədakarlığa hazır olan qadındır. Belə bir qadın əzəmət yaradır; necə ki, İran qadınları yaratdılar. Bunlar kompliment deyil.

Qadınlar inqilaba qoşulmasaydılar, inqilab qələbə çalmazdı, gənclər inqilab sıralarına qoşulmaq üçün evdən çıxmazdılar, anaları qoymaz, ən azı, onları həvəsləndirməzdi. Qadınlar inqilaba könül verməsəydilər, kişilər belə azad şəkildə inqilab sıralarında canfəşanlıq göstərməzdilər. İnqilabda qadının həm birbaşa, həm də vasitəli rolu böyük və ümumilikdə birinci dərəcəlidir. Müharibədə də belə idi.

Mənim hörmətli şəhid ailələri ilə çoxlu görüşlərim olub. Az ailələrdə ananın ruhiyyəsi atanın ruhiyyəsindən yüksək olmayıb. Ailələrin əksəriyyətində şəhid anasında şəhid atasından artıq ruh yüksəkliyi olmuşdur. Bu, möhtəşəm bir haldır. Bu, inqilabın qələbəsi və inqilab məqsədlərinin əldə edilməsi üçün mübarizə aparan, hər şeyini öz ilahi və dini məqsəd və amallarına fəda edən mömin qadınların rolunu göstərir.

Qadın üçün bu rol düzgündür. Qadının qərbli və avropalı örnəyi bunun əksidir. Bunların ikisi bir yerə sığmaz. Belə deyil ki, avropalılar qadının alim olmasını istəyirlər, İslam isə istəmir; onlar qadının ictimai sahədə çalışmasını istəyirlər, İslam isə istəmir. Belə deyil. İslam böyük alim qadınlar yetişdirmişdir. Bu gün də öz cəmiyyətimizə baxsanız, qadınlardan ibarət mütəxəssis, alim, doktor, tədqiqatçı və böyük incəsənət xadimlərinin az olmadığını görərsiniz. Onların arasında dəyər yaradan, düşüncə və məktəb sahibi olan insanlar var. Siyasi səhnədə, icraçı və qanunverici orqanlarda da belədir. Qadınlar ölkənin bütün sahələrində fəal iştirak edirlər. Bizimlə onların, İslamla Qərbin dəyərlər sistemi arasında problem bunlar deyil. Mübahisə başqa bir məsələdədir.

Bugünkü Avropanın qadın modeli qədim Roma və Yunan modelindən qaynaqlanır. O zaman da qadın kişinin kef çəkməsi üçün alət və hər bir şey bu qaydaya tabe idi. Bu gün də bunu istəyirlər. Qərblilərin əsas sözü budur.

Onlar müsəlman qadının daha çox nəyi ilə düşməndirlər? Onun hicabı ilə. Onlar sizin bu çadranızla, düzgün və əsaslı hicabınızla hər şeydən artıq düşməndirlər. Nə üçün? Çünki onların mədəniyyəti bunu qəbul etmir. Avropalılar belədirlər. Onlar deyirlər ki, biz necə düşünürüksə, dünya da elə düşünməlidir; öz cahiliyyətlərini dünyanın mədəniyyətinə hakim etmək istəyirlər. Onlar qadını Avropa tərzində - modabaz, israfçı, xalqın gözü qarşısında bəzənən, cinsi məsələlərə oyuncaq görmək və bu amilləri cəmiyyətdə qadınların vasitəsi ilə yaymaq istəyirlər. Harada qərblilərin bu məqsədlərinə qarşı çıxsalar, fəryad qoparırlar. Bunlar həm də dözümsüzdürlər. Bu iddialı qərblilər özlərinin qəbul etdikləri əsaslara qarşı ən mülayim etiraza belə dözmürlər.

Əsl İslam cəmiyyətlərindən başqa bütün dünyanı öz təsirləri altına sala bilmişlər. Siz Afrikaya, Latın Amerikasına, Şərqi Asiyaya və digər yoxsul bölgələrə baxsanız, orada da öz örnəklərinə rəvac verdiklərini görərsiniz; eyni formada bəzənmək, eyni formada istehlakçılıq və qadının oyuncaq olması. Onların atəşinin toxunmadığı yeganə yer İslam

cəmiyyətləri və birinci növbədə İslam Respublikasının böyük əhalisidir. Odur ki, buna qarşı güclü mübarizə aparırlar.

Bu gün siz qadınlar Qərb dünyasının cahil durumu qarşısında İslam dəyərlərinin keşikçilərisiniz. İslam mədəniyyətinin möhkəm qalasını qoruyan sizlərsiniz. Elmdə, mədəniyyətdə, siyasətdə - hər bir şeydə qadın İslam əsasında yetişməli, ictimai, iqtisadi və siyasi işlərdə öncül olmalı, ehtiraslı və cinsi məsələlərdə isə onun-bunun oyuncağına çevrilməməlidir. Bizim sözümüz budur.

İslam məktəbində qadın və kişi arasında bir qoruyucu və hicab vardır. Bunun mənası o deyil ki, qadınların kişilərdın fərqli bir aləmləri var. Xeyr! Onlar cəmiyyətdə, iş yerində birgə yaşayırlar, hər yerdə birgədirlər. İctimai problemləri qadın və kişilər birgə həll edirlər; müharibəni qadın və kişilər birgə edirlər və etdilər; ailəni birgə idarə edir və övlad böyüdürlər. Lakin ev və ailədən bayırdakı qoruyucu və hicab mütləq olmalıdır. Bu, İslam örnəyində əsas amildir. Əgər bu məsələyə riayət olunmasa, bu gün Qərbdə olan pozğunluq yaranacaq. Bu məsələyə riayət olunmasa, qadın müsəlman İranda görünən vəziyyətdən, yəni dəyərlərə sarı hərəkətdə öncüllükdən qalacaq. Qərblilər bütün gücləri ilə bu məsələyə təsir göstərmək istəyirlər; hər bir yerdə və hər bir kəsə qarşı bir yolla.

Məncə modabaqzlığa və dəbdəbəçiliyə meyl göstərmək, hər şeyin yenisini istəmək və kişilər qarşısında bəzənməkdə ifratçılıq bizim qadınlarımızın yoldan yayınmasının ən böyük amillərindən biridir. Qadınlar buna qarşı müqavimət göstərməlidirlər.

Qərblilər qadını öz istədikləri məxluqa çevirmək üçün daim yenilənən modalar düzəltməyə, gözləri, ürəkləri və düşüncələri belə zahiri və kiçik məsələlərlə qarışdırmağa möhtacdırlar. Bunlarla məşğul olan insan həqiqi dəyərlərə qovuşa bilərmi?! Bunlar haqqında düşünməyə macal da tapmaz. Özünü kişilərin diqqətini cəlb etməkdə alətə çevirmək istəyən qadın mənəvi saflıq haqqında düşünməyə macal taparmı?! Məgər bu mümkündür?! Onlar bunu istəyirlər. Onlar istəmirlər ki, üçüncü dünya ölkələrində qadınlar amalçı, aydın təfəkkürə

və böyük məqsədlərə malik olub böyük məqsədlərə doğru hərəkət etsinlər, həyat yoldaşlarını və övladlarını da aparsınlar. Gənc qadınlar Qərb mədəniyyətinin və təfəkkürünün bu gözəgörünməz və çox təhlükəli kəməndindən ehtiyatlı olmalı, digər qadınları da bundan uzaqlaşdırmalı və çəkindirməlidirlər.[1]

**Sual:** Bu gün Qərb dünyası ailə böhranı ilə üz-üzədir. Bunun səbəbi nədir və çıxış yolunu nədə görürsünüz?

**Cavab**: Bu gün dünyada əsaslı bir problem olan ailə məsələsi haradan qaynaqlanır? Qadın məsələsinə baxış tərzindən, yaxud qadın və kişi əlaqələrinə baxışdan. Nə üçün bəşər varlığının təbii və köklü bir qurumu olan ailə indi dünyada bu qədər böhran içərisindədir? Belə ki, bugünkü dırnaqarası sivil Qərb dünyasında ailə təməlinin möhkəmləndirilməsinə dair kiminsə hətta çox yumşaq bir sözü də olsa, onu yaxşı qarşılayırlar; həm qadınlar yaxşı qarşılayırlar, həm kişilər, həm də uşaqlar. Siz dünyadakı ailə probleminin bu cəhətini, ailə məsələsində yaranmış böhranı düzgün və diqqətlə araşdırsanız, görərsiniz ki, bu, iki cinsin münasibətlərinə, birgəyaşayışına və qarşılıqlı əlaqələrinə aid məsələlərin həll olunmamasından, başqa sözlə desək, baxışın yanlış olmasından irəli gəlir. İndi biz kişilərin yürütdüyü fikirlər tərəfdə dayanıb deyirik ki, qadın məsələsinə baxış düzgün deyil. Ancaq əslində kişi məsələsinə baxış da düzgün deyil - fərqi yoxdur. Həmçinin iki cinsin tutduğu yer və mövqeyə baxış da yanlışdır.

Çoxlu çatışmazlıqlar və problemlər var. Çıxış yolu nədir? Çıxış yolu budur ki, biz ilahi yolları tapaq. Çünki vəhyin qadın və kişi haqda sözü mühüm məsələləri ehtiva edir. Görək vəhy bu barədə nə deyir. Vəhy təkcə moizə etməklə kifayətlənməmiş, nümunə də göstərmişdir. Allah-Taala mömin insanlar üçün tarixi bir misal göstərərək buyurur: "Allah iman gətirənlər üçün fironun xanımını misal vurur".[2] Allah fironun xanımını misal vurur. Həzrət Musanın (ə) zamanında iman

[1] Vilayət hədisi, c. 8, səh: 215-219.
[2] Təhrim/11.

uğrunda çalışıb fədakarlıq göstərən çoxlu insanlar vardı, Allah isə Fironun həyat yoldaşının adını çəkir. Bu nədən irəli gəlir? Allah-Taala qadınların tərəfini tutmaq istəyir? Yoxsa məqsəd başqa bir şeydir? Məqsəd budur: bu qadın mənəvi hərəkətdə elə zirvəyə çatıb ki, yalnız onu misal vurmaq olar, başqasını yox. Fironun həyat yoldaşı mövzusu tarixi baxımdan Fatimeyi-Zəhra (ə) və Məryəm-Kübra (ə) dövründən öncəyə aiddir. O nə peyğəmbərdir, nə peyğəmbər övladı, nə peyğəmbərin həyat yoldaşı, nə də hansısa bir peyğəmbərin ailə üzvü. Lakin bu xanımın mənəvi tərbiyəsi, inkişafı və uğuru elə bir həddə çatıb ki, Allah-Taala Quranda onu möminlərə nümunə göstərir.

Əlbəttə, onun əksi, yəni fəsadlı bir qadın nümunəsi də ortaya qoyulur. Allah ən pis insanlara nümunə göstərmək üçün buyurur: "Və Allah kafir olanlar üçün Nuh və Lutun xanımlarını misal vurur"[1]. Yenə də qadınları misal vurur. Nuh (ə) və Lutun (ə) dövründə çoxlu kafirlər, pis adamlar vardı, amma Quran onları misal çəkir.

Qadın cinsinə, onun ən yaxşı və ən pislərinə qarşı Allahın bu diqqəti nədən irəli gəlir? Bəlkə də Allah dünyanın ozamankı əhalisinin yanlış baxışına (təəssüf ki, bu gün də həmin baxış müəyyən həddə qalmışdır), öz qızlarını torpağa gömən Ərəbistan xalqının rəftarına, həmçinin o günün böyük imperiyaları olan Roma və İran kimi ölkələrin xalqlarının rəftarına işarə vurmaq istəyir.

Bugünkü Avropa mədəniyyətinin kökü qədim Roma mədəniyyətinə qayıdır. Yəni bu gün bütünlüklə Avropa və Qərb mədəniyyətinə və onun ardınca Amerika mədəniyyətinə hakim olan elementlər Roma imperiyasında mövcud olan qayda və prinsiplərdir. Bugünkü meyarlar onlardan ibarətdir. O zaman da qadınları böyük məqama ucaldıb hörmət edir, müxtəlif zinətlərlə bəzəyirdilər. Amma nə üçün? Kişidə mövcud olan ən aşağı və ən maddi bir hissi doyurmaq üçün. Bu, insana və qadına qarşı necə də böyük təhqirdir!

---

[1] Təhrim/10.

İranda da eynilə belə olmuşdur. Sasani şahlarının hərəmxanaları haqda məlumatınız var. Hərəmxana nə deməkdir? Hərəmxana - qadının təhqiri deməkdir. Bir kişi imkanı çatdığına görə özünü min qadın saxlamağa haqlı bilir. Əgər həmin şahın bütün xalqı da belə imkana malik olsaydı, hər biri öz qədərincə min, beş yüz, dörd yüz, yaxud iki yüz qadın saxlayardılar. Bu, qadına hansı baxışdan xəbər verir?

Belə bir dünyada əziz Peyğəmbər (s) elə bir qız tərbiyə edir ki, əlinin Allahın Peyğəmbəri (s) tərəfindən öpülməsinə layiq olur. Peyğəmbərin (s) Fatimeyi-Zəhranın (ə) əlini öpməsini duyğusal mənada izah etmək əsla düzgün deyil. Öz qızı olduğuna və onu sevdiyinə görə əlini öpdüyünü düşünmək çox səhv və çox kiçik yanaşmadır. Məgər belə bir dəyərli şəxsiyyət, özü də Allah vəhyinə və ilhamına arxalanan ədalətli və hikmətli bir insan əyilib qızının əlini öpər?! Xeyr! Burada məqsəd başqadır. Bu onu göstərir ki, bu gənc qız, dünyadan köçərkən on səkkizdən iyirmi beşə qədər - on səkkiz də deyiblər, iyirmi beş də - yaşı olan bu xanım insani paklığın zirvəsində durmuş və qeyri-adi bir şəxs olmuşdur. Bu, İslamın qadına baxışıdır.[1]

**Sual:** Qadının insani cəhətini inkişaf etdirmək üçün nə etmək lazımdır?

**Cavab:** Siz elmdə yüksək səviyyədə olan, lakin insani məsələlərdə və ictimai münasibətlərdə iki cinsdən biri olaraq pozğunluğa düşmüş bir qadını təsəvvür edin. Elə bilirsiniz bunun dəyəri var?! Düzdür, alim olan qadın müəyyən mənada bu pozğunluqlara daha az düçar olur. Savadsızlığın zərərlərindən biri budur ki, qadınları pozğunluğa daha çox çəkir. Lakin pozğunluq həddi məhdud bir hədd deyil.

Hətta yüksək elmi səviyyədə olan bir xanımda da əziz insani cəhətin qədri bilinməyə, - o cəhət kişidə də əzizdir, qadın və kişi bunu özlərində canlandırmaq üçün çalışıb elm və hikmət öyrənirlər - diqqət

---

[1] Vilayət hədisi, c. 9, səh: 56-59.

və hörmətdən kənarda qala bilər. Bunun dəyəri varmı?! Qadında və kişidə olan insani cəhət inkişaf etdirilməlidir. Bu bir dəyər məsələsidir.

Bizim cəmiyyətimizdə İslamın dəyər məsələləri dirçəlməlidir. Misal üçün, hicab bir dəyərdir. Daha yüksək məsələlərə giriş olmasına baxmayaraq, hicab məsələsinin özü bir dəyərdir. Bizim hicab üzərində bu qədər təkid göstərməyimiz ondan ötrüdür ki, hicabı qorumaq qadının öz uca mənəvi məqamına çatmasına və qarşısında yaradılmış çox təhlükəli uçurumlara yuvarlanmamasına kömək edir.

Bu mədəniyyətin tam əksi bugünkü Avropaya hakim olan Roma mədəniyyətidir. O, iki-üç şeydən başqa hər şeylə razılaşır. Onların biri və bəlkə də ən əhəmiyyətlisi qadın və kişi cinsi arasında qanun-qaydalı məsafənin qorunması, başqa sözlə desək, Qərbdə cinsi azadlıq adlandırılan məsələnin əksi olan dözümlülükdür. Onlar buna qarşı çox kəskin mövqe seçirlər, başqa məsələlər önəmli deyil. Onlara görə mürtəce bu amil üzərində dayanan şəxsdir. Bir ölkədə müəyyən qaydalarla qadınla kişi arasında pərdənin olması mədəniyyətə ziddir! Doğru deyirlər. Onların Roma sivilizasiyasının xarabalıqları üzərində qurduqları mədəniyyət bundan başqa bir şey deyil. Dəyər baxımından isə yanlış, əksi isə düzgündür.

Biz qədim zamanlardan indiyə qədər qadını bu qədər təhqirə məruz qoyan Qərb dünyasına qarşı tələbkarıq. Siz baxın, Avropada və Qərb ölkələrində bir müddət öncəyə qədər qadınların müstəqil əmlak hüququ yox idi. Mən bir dəfə buna dair dəqiq statistika çıxardım və bir söhbətdə - deyəsən dörd-beş il bundan öncəki cümə namazında söylədim. Bu gün irəli sürülən bütün iddialara, Qərbdə günbəgün daha artıq müşahidə olunan maraqlı və qəribə hicab qadağasına, sonsuz və nəzarətsiz cinsi qarışmalara baxmayaraq, - elə bilirlər ki, bu, qadına hörmət və dəyərdir - iyirminci əsrin əvvəllərinə qədər qərbli qadının özünə aid olan sərvətdən azad istifadə etmək haqqı olmamış, əri qarşısında özünün şəxsi əmlakına sahib sayılmamışdır. Bir qadın ərə getdikdə onun sərvəti və bütün mülkü ərinin ixtiyarına keçirdi, ondan istifadə etməyə haqqı çatmırdı. Nəhayət iyirminci əsrin əvvələrində

tədricən qadınlara mülkiyyət hüququ, iş hüququ verildi. Yəni qadın ən elementar insan haqlarından məhrum idi. Digər tərəfdən, İslamda da hörmət olunan sözügedən həqiqi dəyərlərin tam əks tərəfi üzərində daha çox təkid olundu. Bizim hicab barədə bu qədər təkidimizin səbəbi budur.

Bizcə, qadın geyimi haqqında edilən söhbətlər çox yaxşıdır. Lakin diqqətli olmaq lazımdır ki, bu sahədə heç bir məsələ Qərbin təbliğat hücumundan təsirlənməsin. Ondan təsirlənsə, zərərli olacaq. Məsələn, deyək ki, hicab olsun, amma çadra olmasın. Bu yanlış fikirdir. Əlbəttə, hicablı qadın üçün çadranın yeganə geyim növü olduğunu demək istəmirəm. Xeyr! Mən deyirəm çadra hicabın ən yaxşı növüdür, bizim milli əlamətimizdir, heç bir eybi də yoxdur və qadının heç bir fəaliyyəti ilə ziddiyyət təşkil etmir. Əgər həqiqətən ictimai-siyasi işlər görmək və elmi fəaliyyətlər göstərmək istəsə, çadra qadının rəsmi geyimi ola bilər. Qeyd etdiyim kimi, çadra hicabın ən yaxşı növüdür.

Düzdür, çadrasız da hicablı olmaq mümkündür, lakin onun sərhədlərini mütləq müəyyənləşdirmək, tapmaq lazımdır. Bəziləri Qərbin əks-təbliğatından qurtulmaq üçün çadradan qaçırlar. Amma bu zaman həqiqi hicaba üz tutmurlar. Çünki Qərb ona da hücum edir.

Siz elə bilirsiniz biz çadranı kənara qoysaq, məsələn, Qurani-kərimdə də göstərilən[1] paltar və örpəklərdən istifadə etsək, bizdən əl çəkəcəklər?! Xeyr! Onlar bununla qane olmayacaqlar. Onlar öz çirkin mədəniyyətlərinin burada eynilə şah dövründə olduğu kimi hakim olmasını istəyirlər. O zaman qadının ümumiyyətlə hicabı yox idi. Hətta bu yerlərdə növbə belə işlərə çatanda pozğunluq daha çox olur. Şah dövründə bu Tehranda və ölkəmizin başqa şəhərlərində olan pozğunluq Avropa şəhərlərindən çox idi. Avropada adi qadının paltarı və geyimi vardı, burada isə elə deyildi. Biz gördüklərimiz, eşitdiklərimiz, bildiklərimiz və indi o zamandan mənim yadımda qalan mənzərələr haqda düşündükdə, insan doğrudan da təəccüblənir ki, nə üçün belə

[1] Nur/31.

olmalıdır. Çox təəssüf ki, bu gün geriqalmış müsəlman və qeyri-müsəlman ölkələrinin çoxunda vəziyyət eynilə belədir. Buna görə də, dəyər məsələlərinə çox diqqətlə, həssaslıqla və geri çəkilmədən riayət etmək lazımdır.[1]

[1] Vilayət hədisi, c. 9, səh: 60-63.

## Dördüncü fəsil: Gənclər, gəncliyin xüsusiyyətləri və gənclərdən gözləntilər

**Sual:** Bu xalqın böyük bir hissəsi gənclik çağını yaşayır. Siz gəncliyi necə görürsünüz və İran gəncləri haqda fikriniz nədir?

**Cavab:** Gənclik dövründə, xüsusən də gəncliyin əvvəllərində insanda bəzi meyl və maraqlar yaranır. Əvvəla, yeni kimliyi formalaşmaqda olduğuna görə özünün yeni şəxsiyyətinin rəsmən tanınmasını istəyir. Bu əksər hallarda baş vermir, ata-analar sanki gənci yeni kimlik və şəxsiyyətində tanımaq istəmirlər. İkincisi, gəncdə bəzi hiss və duyğular yaranır, fiziki və psixoloji baxımdan yetkinləşir, əksərən ətrafındakıların, ailənin, qohumların və cəmiyyətin xəbərsiz olduğu, yaxud etinasız yanaşdığı yeni dünyaya qədəm qoyur. Buna görə, tənhalıq və qürbət hissi keçirir. Mən istəyirəm ki, böyüklər bu sözləri eşidib öz gənclik çağlarını yada salsınlar. Üçüncüsü, insan gənclik dövründə - istər həddi-büluğun əvvəllərində və istər sonralar çoxlu məchul məsələlərlə rastlaşır, onun üçün sual doğuran yeni məsələlər qarşıya çıxır, beynində şübhə və suallar yaranır. O bunlara cavab verilməsini istəyir, amma çox zaman vaxtında və ürəkaçan cavab verilmir. Odur ki, boşluq və məchulluq hiss edir. Dördüncüsü, gənc öz vücudunda böyük enerjilərin olduğunu hiss edir, özündə həm fiziki, həm də düşüncə və zehin baxımından istedadlar duyur. Həqiqətən də gəncdə böyük bacarıqlar var. O bununla dağları yerindən qopara bilər. Amma gənc hiss edir ki, onun bu potensialından, çoxlu enerji və bacarıqlarından istifadə olunmur. Buna görə də puçluq və faydasızlıq hiss edir. Beşincisi, insan gənclik çağında ilk dəfə olaraq, təcrübə etmədiyi və çox şeylər bilmədiyi böyük bir dünya ilə üz-üzə gəlir. Həyatda onun qarşısına çoxlu hadisələr çıxır və o, vəzifəsinin nədən ibarət olduğunu bilmir, bələdçiyə və düşüncə yardımına ehtiyac duyur. Ata-analar da çox zaman iş-güclə məşğul olduqlarından övladla maraqlanmırlar və onlara bu düşüncə yardımı edilmir. Bu sahədə məsuliyyət daşıyan mərkəzlər çox zaman lazım olan və ehtiyac duyulan

yerdə olmurlar. Odur ki, ona bu kömək olunmur və gənc dayaqsızlıq hiss edir. Əksərən bizim gənclərimizdə bu hisslər var; bir tərəfdən tənhalıq hissi, bir tərəfdən dayaqsızlıq hissi, bir tərəfdən çoxlu bacarıqları hiss etmək və bu bacarıqların istifadə olunmamasını düşünmək. Bu hisslər hamının üzərinə bəzi vəzifələr qoyur; hamının, xüsusən də hökumətin, ruhanilərin, radio və televiziyanın, Bəsicin, İdman komitəsinin və müxtəlif mədəni mərkəz və qurumların üzərinə məsuliyyət düşür. Bunlar gənc nəsil qarşısında məsuliyyət daşıyırlar. Xüsusən də bizim ölkəmizdə gənclər sayca çox, mənən imanlı, böyük işlərə hazırlıqlı və istedad baxımından böyük potensiala malikdirlər. Mən dəfələrlə demişəm ki, iranlı gənclərin orta istedad həddi dünya gənclərinin orta istedad həddindən yüksəkdir. Bu, elmi araşdırmanın nəticəsi və qəti məsələdir. Bu istedad, bu böyük say və bu bacarıqlar İran kimi bir ölkəyə təkamül, tərəqqi və inkişaf yollarında böyük köməklər edə bilər.

Bəzi şəxslər gənc nəslə qarşı etiqad və iman baxımından ifratçı şəkildə səhv və yanlış mühakimələr yürüdürlər. Mənim fikrim budur və araşdırmalar da göstərir ki, iranlı gənc mömin, iffətli, pak, olduqca güclü dini istedadlara malik və mənəvi məsələlərə meylli bir gəncdir. İranlı gənc – istər qız, istər oğlan həm psixoloji, mənəvi və zehni imkanlar baxımından, həm də iman imkanları baxımından çox yaxşı səviyyədədir. Bu, məmurların üzərinə böyük vəzifə qoyur.[1]

**Sual:** Biz ictimai və siyasi məsələlərdə bəzən ifratçı və təfritçi mövqelər müşahidə edirik. Bunun zərərləri də olur. Bu xüsusda gənclərə tövsiyəniz nədir?

**Cavab:** Üslub fərqlərindən çox da qorxmaq lazım deyil. Üslub fərqləri pis bir şey deyil. İndi misal üçün, iki siyasi xətt mövcuddursa, bir gəncin buna, o biri gəncin isə o birinə inanmasının eybi yoxdur. Zərərli olan düşüncəsiz və mütaliəsiz addım atmaq, cəld qərarlar

---

[1] Tehranın böyük müsəllasında gənclərlə görüşdəki çıxışdan: 2000.

çıxarmaq, coşmaq və mütaliəsiz işləməkdir. Mən əziz gəncləri bundan çəkindirirəm. Gənclik zəruri olaraq cəld qərar vermək demək deyil. Düzdür, gənclər addım atmaqda cəsarətli olurlar, görmək istədikləri işin dolanbaclarında çox da ilişib qalmırlar. Lakin bu, coşmaq, biçimsiz addım atmaq və üsulsuz hərəkət etmək demək də deyil. Gənc biçimsiz iş də görə bilər, biçimli iş də; yəni tamamilə düşüncə və fikirlə işləyə bilər. Əgər bu xüsusiyyət, yəni fikirləşmək, düşünmək, araşdırmaq və haqqı axtarmaq xüsusiyyəti mövcud olsa, - bütün bu xüsusiyyətlərin gəncdə olması tamamilə mümkündür; onların bəziləri, misal üçün, həqiqəti axtarmaq ümumiyyətlə gənclərin xüsusiyyətlərindəndir - üslub fərqlərinin heç bir eybi yoxdur, azğınlığa bais olmaz, ən azı ciddi zərərlər yaranmaz.

Ayrısını inkar etmək haləti - yəni insanın ictimai məsələlərdə bir mövqe seçib "yüz faiz belə olmalıdır və bundan başqası doğru deyil" – deməsi düzgün və yaxşı hal deyil. Düzdür, bəzi etiqad üsulları belə olmalıdır. Yəni düşüncə ilə araşdırmaq və möhkəm bir nöqtədə dayanıb qətiyyətlə demək lazımdır ki, belədir və bundan ayrısı düzgün deyil. Burada belə bir halət pis deyil, yaxşıdır. Lakin ictimai, siyasi məsələlərdə, müxtəlif ictimai münasibətlərdə bu uyğun deyil. Mənim fikrimcə, insan qarşı tərəfin fikirlərinə dözməli və onun reaksiyasından sonra da düşünməlidir. Belə olsa, mənim fikrimcə, heç bir problem yaranmaz.[1]

**Sual:** Gənc və gənclik dövrü haqda İslamın baxışı necədir?

**Cavab:** İslamın gənclər haqda fikri bu gün bizim təklif etdiyimiz, gənc nəsildən umduğumuz və gənc nəsil üçün istədiyimizlə tam uyğundur. Əziz Peyğəmbər (s) gəncləri tapşırmış, gənclərlə ünsiyyət qurmuş, böyük işlər üçün onların enerjisindən istifadə etmişdir. Bu il Əmirəlmöminin Əli ibn Əbu Talib (ə) ili adlandırılmışdır. Siz Əmirəlmömininə (ə) yalnız qırx yaşlı, əlli yaşlı və altmış yaşlı bir

---

[1] Gənc həftəsi münasibətilə gənclərlə görüşdəki çıxışdan: 1998.

şəxsiyyət kimi baxmayın. O həzrətin gənclik çağındakı parlaq siması həmişəyaşar örnəkdir və bütün gənclər onu özlərinə nümunə seçə bilərlər. İmam Əli (ə) gənclik çağında Məkkədə fədakar, ağıllı, fəal və qabaqcıl bir gənc idi, bütün sahələrdə Peyğəmbərin (ə) önündən böyük maneələri aradan qaldırırdı, təhlükəli yerlərdə sinəsini sipər edirdi və ən ağır işləri üzərinə götürürdü. O öz fədakarlığı ilə Peyğəmbərin (ə) Mədinəyə hicrətinə şərait yaratdı, Mədinədə də qoşun komandiri, fəal dəstələrin başçısı, alim, ağıllı, qorxmaz və səxavətli insan oldu. Döyüş zamanı şücaətli əsgər və komandir, hökumət məsələlərində bacarıqlı kadr, ictimai işlərdə də tam mütərəqqi bir gənc idi. Əziz Peyğəmbər (s) təkcə Əli (ə) kimi bir şəxsdən yox, özünün on ildən bir neçə ay artıq sürən hakimiyyəti dövründə gənc amilindən və gənc qüvvəsindən maksimum istifadə etdi.

Əziz Peyğəmbər (s) ömrünün ən həssas anlarından birində böyük bir vəzifəni on səkkiz yaşlı bir gəncə verdi. Döyüşlərdə əziz Peyğəmbərin (s) özü komandirlik edirdi, lakin həyatının son həftələrində bu dünyadan köçəcəyini və Roma imperiyası torpaqlarına qoşun yeritməyin özü tərəfindən imkansız olduğunu hiss edəndə bu işi on səkkiz yaşlı bir gəncə tapşırdı. Çox böyük və çətin olan bu işə elə adam seçilməli idi ki, heç bir maneə onun önünü kəsə bilməsin. Peyğəmbər (s) əlli yaşlı, altmış yaşlı, müharibə, döyüş və cəbhələr görmüş səhabələrdən birini komandir təyin edə bilərdi, amma on səkkiz yaşlı bir gənci təyin etdi. Bu gənc Üsamə ibn Zeyd idi. Peyğəmbər (s) onun imanından və şəhid övladı olmaq imtiyazından da istifadə etdi. Üsaməni göndərdiyi yer atası Zeyb ibn Harisənin iki il öncə şəhadətə qovuşduğu yer idi. Peyğəmbər (s) böyük və ağır bir qoşuna komandirliyi on səkkiz yaşlı bu gəncə tapşırdı. Bütün böyük, yaşlı səhabələr və Peyğəmbərin (s) parlaq keçmişli sərkərdələri qoşunda yer alırdılar. Peyğəmbər (s) ona dedi ki, atanın şəhid olduğu yerə, yəni ozamankı Roma imperiyasında və bugünkü Şamda yerləşən Mutəyə qədər gedər və orada düşərgə salarsan. Sonra ona döyüş tapşırıqları verdi. Peyğəmbərə (s) görə gənc amili bu qədər əhəmiyyətlidir.

Bu gün bizim üsamələrimiz, gənclərimiz çoxdur. Möhtəşəm qız və oğlanlarımız, bütün fəal sahələrdə - dərsdə, siyasətdə, ictimai fəaliyyətlərdə, yoxsulluğu aradan qaldırmaq və quruculuq üçün görülən müxtəlif işlərdə, proqram hazırlanan və imkan yaradılan hər bir işdə iştirak etməyə hazır olan çoxsaylı gənclərimiz var. Bu, ölkə üçün çox mühüm amildir. Bu nəsil ölkənin ən böyük təcrübələrindən birini – yəni məcburi müharibə təcrübəsini qüdrətlə və uğurla başa çatdıran nəslə bənzəyir.

Siz əziz qardaş və bacıların bilməsi pis deyil ki, İslam İnqilabının Mühafizəçiləri Korpusu yarananda üzvlərinin əksəri gənc və yeniyetmələrdən ibarət idi. Korpusun bugünkü yüksək rütbəli zabitləri o zaman ya tələbə idilər, ya universiteti yenicə bitirmişdilər, ya da hələ universitetə daxil olmamışdılar. Uzun illər müharibəni idarə edən korpus komandiri imam tərəfindən bu vəzifəyə təyin ediləndə təxminən 26 yaşlı gənc idi. İnqilab bu təcrübədən bir dəfə də istifadə etmiş, gənclərin böyük və qurucu rolunu isbatlamışdır.[1]

**Sual:** Bir müsəlman gənc və onun xüsusiyyətləri haqda sizin tərifiniz necədir? Bir gənc necə öz həyat yolunu keçib məqsədlərinə çata bilər?

**Cavab:** Sözsüz ki, asanlıqla keçmək olmaz. Sizin qoyduğunuz bu şərt mənim cavab işimi çox çətinləşdirir. Heç bir mühüm və ciddi işi asanlıqla görmək olmaz. Hər halda, insan dəyərli bir şey əldə etmək istəyirsə, bir qədər zəhmət çəkməli və çalışmalıdır. Bu qaçılmazdır. Lakin baxın, mən əsasən gənclərin malik olduğu bu mühüm xüsusiyyətlər arasında üçünün çox bariz olduğunu düşünürəm. Əgər onlar müəyyən olunsa və düzgün istiqamətə yönəldilsə, yəqin ki, sizin sualınıza cavab vermək olar. Həmin üç xüsusiyyət bundan ibarətdir: enerji, ümid, yaradıcılıq. Bunlar gəncdə olan üç qabarıq xüsusiyyətdir. Əgər təbliğat vasitələri - istər dini, istər elmi-mədəni natiqlər, istər radio

---

[1] Tehranın böyük müsəllasında gənclərlə görüşdəki çıxışdan: 2000.

və televiziya və istər məktəblər bizə etdikləri mədəni köməklərdə bu üç mühüm xüsusiyyəti həqiqətən düzgün yönəldə bilsələr, düşünürəm ki, bir gənc çox asanlıqla İslamın yolunu tapa bilər. Çünki İslamın bizdən istədiyi də öz potensiallarımızı aktuala çevirməkdir.

Quranda çox önəmli bir məqam var. Bunu siz əziz gənclərə demək istəyirəm. Bu məqam təqvaya diqqət yönəltməkdir. İnsanlar təqvanı təsəvvür edəndə yadlarına namaz, oruc, ibadət, zikr və dua düşür. Bunların hamısı təqvada ola bilər, amma heç biri təqvanın mənası deyil. Təqva - özündən ehtiyatlı olmaqdır; təqva odur ki, insan nə iş gördüyünü bilsin, özünün hər bir hərəkətini iradə, fikir və qərarla seçsin. Sanki bir insan ram bir at üzərində oturub cilovu əlində tutub və haraya getdiyini bilir. Təqva budur. Təqvası olmayan şəxsin hərəkətləri, qərarları və gələcəyi isə öz əlində deyil. Nəhcül-bəlağənin bir xütbəsində işlədilən ifadə ilə desək, o, nadinc bir at üzərinə atılmış şəxs kimidir; özü ona minməyib, yaxud minibsə də, at sürməyi bacarmır; cilov əlindədir, amma ata necə minməyin lazım olduğunu, haraya getməli olduğunu bilmir. At onu haraya çəksə, o da getməyə məcburdur. At dəcəl olduğu üçün şübhəsiz ki, onu qurtuluş gözləmir.

Təqvanı belə izah etsək, fikrimcə, yolu asanlıqla getmək olar; əlbəttə, yenə də çox asanlıqla yox, amma hər halda, mümkün olar. Bir gəncin islamçı kimi yaşamaq yolunu tapması doğrudan da böyük işdir; yəni dindardırsa, görsün nə edir; bu addım, bu söz, bu dostluq, bu dərs, bu iş və dərk düzgündür, yoxsa düzgün deyil; onun fikirləşdiyi düzgündür, yoxsa düzgün deyil. Bu təqvadır. Əgər dindar olmasa, bu vəziyyət onu dinə yönəldər. Qurani-kərim buyurur ki, o, təqvalılar üçün hidayətdir. Demir ki, möminlər üçün hidayətdir. Yəni bir şəxsin dini olmasa da, təqvası olsa, - kiminsə dini olmaya, lakin dediyim mənada təqvası ola bilər - Qurandan hidayət alıb mütləq mömin olar. Lakin möminin təqvası olmasa, güman ki, imanı da möhkəm olmaz. Bu onun bəxtindən asılıdır. Əgər yaxşı şəraitdə olsa, imanı qalar; yaxşı şəraitdə olmasa, imanı da qalmaz.

Buna əsasən, təqvanın bu üç xüsusiyyətini işlədə və düzgün yönəldə bilsək, fikrimcə, çox yaxşı olar. Gənclər İslamın bəyəndiyi formada yaşasınlar. Xüsusən də xoşbəxtlikdən bu gün bizim ölkəmiz İslam ölkəsidir. Bu çox əhəmiyyətli məsələdir. Hakimiyyət – yəni milli iqtidar İslamın əlindədir. Ökəni idarə edənlər İslama möhkəm bağlıdırlar. İman xalqın da ruhuna hopmuşdur. Odur ki, müsəlman olmaq və müsəlman yaşamaq üçün çox əlverişli şərait var.

Mən qısa bir misal vurub cavabı bitirmək istəyirəm. Sizlər təəssüf ki, müharibə dövründəki inkişafı görməmisiniz. Əlbəttə, müharibəni görməməyiniz təəssüflü deyil, lakin ovaxtkı misilsiz mənzərəni dərk etmədiyinizə görə insan təəssüflənir. Sizinlə həmyaşıd olan 18-20 yaşlı gənclər mənəviyyat və paklıq baxımından bəzən qırx il Allah yolunda çalışmış bir arif həddinə çatırdılar. İnsan bunu onların vücudunda hiss edirdi; az da deyildilər, çox idilər. Mən o zaman belə gənclərin qarşısında həqiqətən kiçik olduğumu hiss edirdim. Təvazökarlıq üçün belə etmirdim. Bilirsiniz ki, insan bir böyüyün qarşısında durduqda, onun üstünlüklərini gördükdə öz zəifliyini anlayır. Mən Bəsic üzvü olan bir gəncin, döyüşcü bir gəncin qarşısında həmin hissi keçirirdim. Şərait belə idi; adi bir gənci belə dəyişdirə bilirdi.

Siz dünya gənclərinin vəziyyətindən xəbərdarsınız; rep qrupları, min cür əxlaq və düşüncə bəlaları. Dünya gəncləri doğrudan da min cür bəlalara düçar olmuşlar. İndi mövcud olan rep qruplarından və bu kimi insanlardan bizim dövrümüzdə də vardı. Bizim dövrümüzdə "The Beatles" adlı bir qrup məşhur idi. İndi eşitmişəm ki, qocalıblar. Bir qədər öncə xarici jurnalların birində onların barəsində yazı gördüm; harada olduqlarını və nə iş gördüklərini yazmışdılar. Həmin psixoloji sıxıntı və problemlər onları belə işlərə sövq edirdi. İndi geriqalmış və ucqar ölkələrdə onları yamsılayanlar o yazıqların hansı xəstəliyə tutulduqlarını anlamırlar. Elə bilirlər bu, inkişafdır, halbuki bir tənəzzül və süqutdur. Dünya belə bir vəziyyətə düşəndə bizim gənclərimiz elə idilər. İranda gənc zəngin, ehtiyacsız, başıuca, qəlbində güclü sevincə, vəzifəni yerinə yetirmək hissinə və aydın məqsədə malik idi - nə iş

gördüyünü və kimin üçün çalışdığını bilirdi. O, Allahın lütfü ilə qalib və Allah-Taalanın ona verdiyi həqiqi və mənəvi yüksəlişə sahib idi.[1]

**Sual:** Bir övlad kimi sizdən soruşmaq istəyirəm ki, yeniyetməlik çağında Allah haqda hansı təsəvvürə malik idiniz? O zaman əhval-ruhiyyəniz necə idi? Siz Allahla danışmaq, Allahdan istəmək və Allahla rabitə qurmaq barədə yeniyetmələrə hansı tövsiyələri edərdiniz?

**Cavab:** Yeniyetməlik çağında - yəni ibtidai məktəbi bitirib hövzə tələbəsi olduğum zaman dua və ibadətə çox əhəmiyyətli yanaşırdım. Allaha dair hansı təsəvvürümün oluğunu indi xatırlamıram. Həm də insan Allahın müqəddəs zatı haqda çox fikirləşməməlidir.

Allah-Taalanın varlığı aydın məsələ və aksiomdur. İnsanın bütün vücudu buna şəhadət verir. İnsan vəsvəsəyə düşməsə, özünü vəsvəsələrə qərq etməsə, beyni, qəlbi və ruhu Allahın varlığını təsdiqləyər. Allahın varlığının dəlil-sübuta ehtiyacı yoxdur; baxmayaraq ki, buna çoxlu dəlil-sübutlar da vardır.

Mən o zaman dua, zikr və ibadətlə çox məşğul olurdum. Mənim üçün önəmli olan bunlar idi. Xatırlayıram ki, hələ həddi-büluğa çatmamış Ərəfə gününün əməllərini yerinə yetirdim. Ərəfə gününün əməlləri həm də uzundur; yəqin ki, onlarla tanışsınız, gənclərin çoxu tanışdırlar. Bu, bir neçə saat çəkdi. Əməllər zöhr və əsr namazlarından sonra başlanır. İnsan o əməllərin hamısını yerinə yetirmək istəsə, bəlkə də çox uzun olmayan günlərdə axşama yaxın qurtarar.

Mənim anam dua, ibadət və müstəhəb əməllərlə çox məşğul olurdu. Xatırlayıram ki, kiçik həyətimizin kölgəli hissəsində palaz sərib anamla birgə otururduq. Bu əməllərin açıq səma altında yerinə yetirilməsi müstəhəbdir. Hava isti idi. Yadımda qalan budur ki, ya yay idi, ya bəlkə də payız, amma günlər nisbətən uzun idi. Biz kölgədə oturub saatlarla Ərəfə gününün əməllərini yerinə yetirirdik. Həm dua oxuyurduq, həm də zikr deyirdik. Anam namaz da qılırdı, mən və bəzi

[1] Gənc həftəsi münasibətilə gənclərlə görüşdəki çıxışdan: 1998.

bacı-qardaşlarım isə oxuyurduq. Mənim gənclik və yeniyetməlik çağım belə olmuşdur, mənəviyyat, dua və ibadətlə ünsiyyətdə keçmişdir.

O zaman bizim bir üstün cəhətimiz var idi. Bu cəhət bu gün də gənclikdə olsa, dua, zikr və namaz ona şirin gələr və əsla yorucu olmaz. Bu üstün cəhət mənalara fikir verməkdir. Baxın, namazdan yorulan adam ya onun mənasını bilmir, ya da mənasına diqqət yetirmir. Namazın mənasını bilən və ona diqqət yetirən adamın namazdan yorulması əsla mümkün deyil.

Əgər insan duanın, misal üçün, Əbu Həmzə Sumali, yaxud İmam Hüseynin (ə) Ərəfə günündəki duasının mənasını anlasa, ona diqqət yetirsə, belə gözəl duadan yorulması imkansızdır. Yəni bu dualarda belə seçilmiş, üstün və mərifətli bəndələrin Allaha dediyi sözlər o qədər şirin, təsirli və həqiqidir ki, insanın fitri istəklərini bəyan edir və kiminsə nə zamansa ondan yorulması mümkün deyil. Mənim gənclərə tövsiyəm budur ki, ibadətlərini diqqətlə yerinə yetirsinlər. Mən israr etmirəm ki, çox ibadət edin. Siz istəsəniz, çox ibadət edin, istəsəniz, az, amma etdiklərinizdə diqqətli olun.

Təbii ki, hamı vacib ibadətləri yerinə yetirməlidir. Bunlar güzəşt ediləsi deyil. Hər kəs öz vacib ibadətlərini yerinə yetirməlidir. Vacib ibadətlər də çox deyil. Sutka ərzində yalnız 17 rəkət namaz bizim vacib ibadətimizdir. Bu çox deyil, 17 bir dəqiqədən, yaxud ən çoxu 17 iki dəqiqədən ibarətdir.

Mən demirəm ki, gənclər çoxlu müstəhəb ibadətlər etsinlər, dua oxusunlar, Quran oxusunlar, yaxud müstəhəb namazlar qılsınlar. Mən deyirəm ki, nə qədər edirlərsə, diqqətlə etsinlər. Əgər diqqətlə yerinə yetirsələr, bəhrə götürər və oxuduqlarından həqiqətən istifadə edərlər. Ərəb dilini bilməyənlər üçün yaxşı tərcümələr olunub. Mən bəzi dua tərcümələrini görmüşəm; həqiqətən yaxşıdır.

Bilməniz pis deyil ki, mən bu dualara ədəbi cəhətdən baxanda onların ən gözəl ərəb mətnlərindən olduğunu görürəm. Kumeyl duası, İmam Hüseynin (ə) Ərəfə günündəki duası, Əbu Həmzə duası, yaxud Şəban ayının münacatı ərəb dilində ən gözəl ədəbi mətnlərdir. Düzdür,

bu dualar qədim mətnlərdir. Bilirsiniz ki, dil dəyişir. Misal üçün, Sədinin Gülüstanı qədimdir, qədim dildədir, amma ədəbiyyat və incəsənət adamları onun gözəlliyindən bəhrələnirlər. Bu duaların həm sözləri, həm də mənaları olduqca gözəldir.

Səhifeyi-Səccadiyyədə olan məfhum və məzmunlar olduqca gözəldir. İnsan bəzən təəccüb edir ki, bir beyin bunları bir-birinin yanına düzüb necə belə gözəl mətnlər alındırmışdır. Mən tövsiyə edirəm ki, uşaqların Allahla rabitəsi diqqətli və mənəvi rabitə olsun, xüsusən namazlarını mənəvi halda qılsınlar.

Mənəvi halda və diqqətlə dua etsinlər, kiminlə danışdıqlarını, nə istədiklərini bilsinlər. Bilsinlər ki, bu istəyin cavabı var. Quranda bizə belə deyilmişdir: "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim!" [1] Başqa bir yerdə də belə gəlmişdir: "Allahın lütfündən (mərhəmətindən) istəyin!" [2] Bunlar Allahın vədləridir və Allahın vədələri ən doğru vədlərdir. Əgər Allahı çağırsanız, Allah mütləq sizə cavab verəcək. Əgər ünsiyyət qursanız, cavabların çoxunun həmin anda verildiyiniz görəcəksiniz. Yəni insan düşünməməlidir ki, duanın cavabı mütləq Allahdan istədiyi puldur və o çatmalıdır.

Bəzən cavab həmin anda sizə veriləndir. Sizin qəlbinizdə elə nur yaranır ki, cavabınızı həmin saatda aldığınızı görürsünüz. İnsan bəzən hiss edir ki, dua zamanı yaranan haldan başqa bir şey istəmir. İnsanın qəlbində Allahın xatirəsi canlananda belə olur.

**Sual:** Sualımı başqa cür verirəm: Siz Allahı necə tanıdınız?

**Cavab:** Mən iman formasında ailəmdən götürdüm, etiqad formasında isə sonralar elmi kitabları mütaliə etməklə və düşünməklə əsaslı etiqada nail ola bildim. Mənim əzizlərim! Elmi əsaslı etiqad lazımdır, amma insanı xilas edən və hərəkətə gətirən amil imandır. Əbuzər müsəlman olanda İslam peyğəmbəri (s) nəzm, ilkin səbəb və digər teoloji arqumentləri izah edib deməmişdi ki, bu dəlilə görə Allah

[1] Qafir/60.
[2] Nisa/32.

var, birdir və bu bütlər tanrı deyil. Xeyr! O, gözəl sözləri ilə Əbuzərin qəlbinə iman salmışdı.

İnsanın qəlbində iman yaradan sözü insana istər ata-ana desin, istər başqa bir böyüyü söyləsin, istər hər hansı hadisədən anlasın – fərqi yoxdur. Bu, insan üçün dəlil-sübutlardan faydalıdır. Dəlil-sübut da mütləq lazımdır, çünki bəzi amillər bu imanda şübhə oyada bilər. Şübhələrdən qorunmaq üçün insanın elmi əsaslara ehtiyacı var.

Elmi əsaslandırma insanın söykəndiyi və arxayın olduğu bir divar kimidir. Bu zaman heç kəs onu şübhəyə sala bilməz. Lakin insanı hərəkətə vadar edən və həyatın müxtəlif sahələrində yardımçı olan amil iman, sevgi, eşq və həvəsdən yaranan etiqaddır.

**Sual:** Bir yeniyetmə duada Allahdan nə istəsin?

**Cavab:** Nə istəsə, eybi yoxdur. Hər halda, yeniyetmənin də arzuları var. Bəzən insanın arzuları ailəsi ilə birgə yaşadığı evin otağından kənara çıxmır; yəni çox kiçik olur. Elə onu da Allahdan istəsin, eybi yoxdur. Allahdan hər şey istəyin, heç bir şeyi kiçik və ya pis saymayın. Allahdan hər şey istəmək olar.

Allahla bəndələrin fərqi budur. Allahın bəndələrindən bəzi şeyləri istəmək pisdir, Allahdan isə heç bir şeyi istəmək pis deyil. Allahın qüdrəti, elmi çoxdur, sizin ehtiyacınızı da bilir və sizin Onunla əlaqə qurmanızı xoşlayır. Bu əlaqə Ondan istəməklə qurulur. Çox gözəl! İstədiyinizi diləyin, Allah da inşallah verəcək; xeyrinizə olsa, Allah verəcək.

Allahdan gələcəyinizi, uğur və inkişafınızı, sağlamlığınızı istəyin, güclü iman istəyin. Dualarımızda çox təkid göstərilən istəklərdən biri də dəyişməz, aydın və həvəsli yəqin və imandır. Bunu Allahdan istəyin, Allah verər. Dünya istəyin, axirət istəyin, ata-ananız və dostlarınız üçün xeyir istəyin. Dua budur.[1]

---

[1] Yeniyetmə və gənclərlə görüşdəki çıxışdan: 1998.

**Sual:** Biz gənclər necə örnək götürüb özümüzü onunla müqayisə edək?

**Cavab:** Mən müəyyən bir şəxsin adını çəkib deyə bilmərəm ki, sizin örnəyiniz mütləq o olsun. Hər halda, hər kəsin bir zövqü var. Seçdiyi örnəyin şəxsiyyəti və rəftarı insanın amalları ilə tam uyğun gəlməlidir.

Bəzi adamlar bir aktyoru, məsələn, xarici bir aktyoru özlərinə örnək seçirlər. Bu məntiqli ola bilməz. Onun cəmiyyəti və həyatı başqadır. İranın iqtidarını, başucalığını, gələcəyini, İslam təlimləri və hökmləri əsasında gənc nəslin gələcəyini düşünən müsəlman və iranlı bir yeniyetmə bu çərçivələrdən kənar örnək seçə bilməz.

Buna əsasən, örnəyi baxış, istiqamət və məqsədlər baxımından bizə uyğun ola böyük şəxsiyyətlərdən seçmək lazımdır. İslamın erkən çağının müsəlmanları arasında çox dəyərli və yaxşı şəxslər var; bugünkü və keçmiş görkəmli şəxsiyyətlər arasında da var. Həqiqətən dəyərli şəxsiyyətlərimiz var. İmamların həyatına baxın. İmam Həsən (ə) və İmam Hüseynin (ə) həyatında, imamların gəncliyində hər bir gənc və yeniyetmə qız və oğlanı cəlb edən olduqca dəyərli cəhətlər var. Onların hamısı insanlara cəlbedici, gənc və yeniyetmələrimizə isə örnək ola biləcək şəxsiyyətlərdir.

**Sual:** Uyğun olmayan örnəklərin daha cəlbedici olmasının səbəbi nədir? Biz gənclərimizin sizin buyurduğunuz örnəklərə müraciət etməsi üçün nə etməliyik?

**Cavab:** Həqiqətən dəyərli olan hər hansı şəxs düzgün təqdim olunsa, cəlbedici olar. İslamın erkən çağının bəzi parlaq simalarının bizim bir qisim gənclərimiz üçün cəlbedici görünməməsi onlarda həmin şəxsiyyətlər haqda düzgün məlumat və tanışlığın olmamasına görədir. Təbii ki, bunu ümumiləşdirmək olmaz. Onlar gənclərimizin bir qismi üçün cəlbedici olmasa da, başqa bir qismi üçün cəlbedicidir.

Kimsə deyə bilər: "Necə olur ki, biz onları tanımırıq, amma hansısa xarici adam tanıyır". Bəli, təsadüfən belədir. Çünki imamların, İmam

Həsənin (ə) və İmam Hüseynin (ə) həyatı bizə çox bəsit şəkildə təkrar olunmuş, dərin cəhətlər göstərilməmişdir. Onların həyatında olan çoxlu xırdalıqlar bizim baxışımız altından asanlıqla keçir və biz onlara diqqət yetirmirik. Amma hansısa belə nümunə onlarla tanış olmayan bir şəxsin qarşısına çıxanda çox böyük və əhəmiyyətli görünür.

Radio və televiziyanın əhatə dairəsi olduqca genişdir. Orada həqiqətən yaxşı proqramlar hazırlansa, cəlbedici ola bilər. İmamların həyatını yeni dillə öyrədin. Yalnız imamları demək istəmirəm, amma təbii ki, onlar həqiqətən ən üstün və ən gözəl örnəklərdir.

Onlarda ən yaxşı üsullar, ən gözəl surət və ruhlar vardır. Amma İslamın erkən çağında imamlardan başqa çoxları da olmuşdur. Həm də yalnız erkən çağa məxsus deyil, keçmişdə və öz tariximizdə də olduqca çoxlu böyük şəxsiyyətlərimiz olmuşdur. Onların hamısı bizim gənclərimizə örnək ola bilərlər. Əgər bunlar yaxşı dillə və incəsənət üslublarından istifadə ilə təqdim olunsalar, gənlərimiz üçün cəlbedici olarlar.

İnsan əvvəldə bunları gəncə təqdim etməsə, gənc də məsələyə bir qədər bəsit yanaşsa, gözü bir şəklə, bir plakata düşəndə, bir jurnalda bir xəbər oxuyanda və fərz edin həyatında gözəl bir cəhəti, idman, incəsənət və yaxud başqa bir cəhətdən üstünlüyü olan şəxsi görəndə özünə örnək seçir. Həqiqi sima və gözəlliklər göstərilsə, bizim gənclərimiz onlara üz tutarlar.[1]

**Sual:** Tələbə bir qız kimi həzrət Zəhranın (ə) həyatını necə örnək seçə bilərik? Gənclikdə sizin örnəyiniz kimlər olmuşlar?

**Cavab:** Yaxşı sualdır. Əvvəla deyim ki, kimsə bizə örnək göstərib "sizin örnəyiniz budur" deməməlidir. Təyinatlı və zorla sırınan örnək yaxşı ola bilməz. Örnəyi özümüz tapmalıyıq. Baxıb görək gözümüzün qarşısında olan simaların hansını daha çox bəyənirik. Hansını çox bəyənsək, təbii ki, örnəyimiz də o olacaq. Məncə müsəlman gənc,

---

[1] Yenə orada.

xüsusən imamlarımızın, Peyğəmbər (s) ailəsinin və erkən İslam çağı müsəlmanlarının həyatı ilə tanış olan müsəlman gənc üçün örnək və model tapmaq çətin olmaz. Belə örnəklər az deyil. İndi sizin özünüz xoşbəxtlikdən həzrət Zəhranın (ə) adını çəkdiniz. Mən Fatimeyi-Zəhranın (ə) müqəddəs şəxsiyyəti haqda bir neçə cümlə demək istəyirəm. Bu, başqa imamlar və böyük şəxsiyyətlər haqda düşünmək üçün də sizə ipucu verə bilər. Elm, sənaye və texnologiya dövründə, böyük maddi sivilizasiyalar dünyasında və bütün bu yeniliklər əsrində yaşayan siz xanımlar, məsələn 1400 il bundan əvvəl yaşamış örnəyinizdən nə götürə bilərsiniz? Onun hansı cəhətdən sizin bugünkü vəziyyətinizə bənzədiyini düşünür və ondan öyrənmək istəyirsiniz. Məsələn, bilmək istəyirsiniz ki, o, universitetə necə gedib, yaxud dünyanın siyasi hadisələri haqda nə düşünüb?! Təbii ki, bunlar deyil.

Hər bir insanın şəxsiyyətində təməl xüsusiyyətlər vardır. Onları müəyyən etmək və nümunəni onlarda axtarmaq lazımdır. Məsələn, fərz edin, müxtəlif hadisələrlə rastlaşdıqda insan necə davranmalıdır? Bu məsələlər bəzən metro, qatar, reaktiv təyyarə və kompüter olan dövrə aiddir, bəzən də bunların mövcud olmadığı bir dövrə. Lakin sözügedən müxtəlif hadisələr həmişə insanı əhatə edir.

İnsan bu məsələlərdə iki növ mövqe seçə bilər: biri məsuliyyətli, biri isə laqeyd. Məsuliyyətli yanaşmanın da müxtəlif növləri var: hansı ruhiyyə ilə, gələcəyə hansı baxışla? İnsan ona örnək olacaq şəxsiyyətdə bu əsas xətləri tapmalı və həyatında icra etməlidir.

Mən bu mövzuya bir dəfə də toxunmuşam. Bizim söhbətlərimizdə bəzən yaxşı sözlər də olur, lakin çox zaman diqqət yetirilmir və beləcə itib-batır. Həzrət Zəhranın (ə) doğum tarixi məsələsində ixtilaflar vardır. O, altı, yaxud yeddi yaşında olarkən Əbu Talib dərəsi məsələsi qarşıya çıxdı. Əbu Talib dərəsindəki dövr İslamın erkən çağında çox çətin bir dövr olmuşdur. Peyğəmbərin (s) dəvəti başlanmışdı, Məkkə xalqı, xüsusən cavanlar və qullar tədricən Peyğəmbərə (s) iman gətirirdilər. Əbu Ləhəb, Əbu Cəhl və digər tağut böyükləri gördülər ki, Peyğəmbəri (s) və ətrafındakı insanları Mədinədən ixrac etməkdən başqa yol

qalmayıb. Onlar belə də etdilər: onlarla ailədən, Peyğəmbərdən (s), onun qohumlarından və Əbu Talibin özündən (Əbu Talib də böyük şəxsiyyətlərdən idi) ibarət çoxlarını uşaqlı-böyüklü Məkkədən çıxardılar. Bunlar Məkkədən çıxdılar, amma haraya getsinlər? Təsadüfən, cənab Əbu Talibin Məkkənin yaxınlığında, təxminən bir neçə kilometrliyində bir dərədə mülkü vardı. Oranın adı Əbu Talib dərəsi idi. Ora dağ yarığı və kiçik bir dərə idi. Məkkədə gündüzlər hava isti, gecələr isə olduqca soyuq idi. İndi siz fikirləşin ki, nə qədər dözülməz bir vəziyyət yaranmışdı. Onlar üç il bu dərədə yaşadılar. Nə qədər aclıq çəkdilər, çətinlik gördülər, Allah bilir. Peyğəmbərin (s) çətin dövrlərindən biri bu dövr idi. Bu dövrdə əziz Peyğəmbərin (s) vəzifəsi təkcə bir cəmiyyəti idarə etmək mənasında olan rəhbərlik deyildi. O, çətinliyə düşmüş bu insanların yanında öz hərəkətini müdafiə etməyi bacarmalı idi.

Bildiyiniz kimi, vəziyyət yaxşı olanda rəhbərin ətrafına yığışan insanlar da vəziyyətdən razı olurlar. Deyirlər Allah atasına rəhmət eləsin ki, bizi belə yaxşı vəziyyətə çıxarıb. Amma çətinlik görəndə hamı tərəddüdə düşüb deyir ki, biz bu vəziyyətə düşmək istəmirdik, o buna bais oldu.

Əlbəttə, güclü imanı olanlar dayanırlar. Hər halda, bütün çətinliklər Peyğəmbərin (s) çiyninə düşürdü. Bu əsnada, çox çətin psixoloji durumunda onun dayağı və ümidi olan cənab Əbu Talib və həmçinin Peyğəmbərə (s) ən böyük psixoloji köməyi göstərən Xədiceyi-kübra bir həftənin içində dünyadan köçdülər. Çox qəribə bir hadisə idi; yəni Peyğəmbər (s) tək-tənha qaldı.

Mən bilmirəm siz indiyədək bir işçi qrupun başçısı olmusunuzmu və bir toplumun məsuliyyətinin nə demək olduğunu bilirsinizmi? Belə bir şəraitdə insan doğrudan da çarəsiz qalır. Bu şəraitdə Fatimeyi-Zəhranın (ə) roluna baxın. İnsan tarixin künc-bucağında bu məqamları tapmalıdır. Lakin təəssüf ki, belə məsələlər üçün fəsil ayırmırlar.

Fatimeyi-Zəhra (ə) Peyğəmbərə (s) bir ana, müşavir və təbib kimi olub və buna görə ona “ummu əbiha”, yəni atasının anası demişlər. Bu,

o zamana aiddir, yəni bu qızın altı-yeddi yaşı olan zamana. Əlbəttə, ərəb cəmiyyətlərində və isti yerlərdə qızlar fiziki və psixoloji cəhətdən daha tez inkişaf edirlər - məsələn, bizim indiki 10-12 yaşlı qızlarımız qədər. Bu, məsuliyyət hissidir. Bu, bir gənc üçün örnək ola bilməzmi: böhran zamanı tez məsuliyyət hiss edib fəaliyyətə başlamaq, vücudunda olan böyük potensialı xərcləmək, yaşı misal üçün, əllini ötmüş və təqribən qocalmış atasının üzündən qəm-kədəri silmək?! Bu, bir cavan üçün nümunə ola bilməzmi?! Bu, çox əhəmiyyətli məsələdir.

Növbəti nümunə həyat yoldaşı kimi roludur. Bəzən insan elə bilir ki, xanım evdə və mətbəxdə xörək bişirməli, otağı təmizləməli, döşəkləri səliqəyə salmalı və qədimdə olduğu kimi, döşəkcəni hazırlayıb kişinin idarədən, yaxud dükandan gəlməsini gözləməlidir. Xanımın işi təkcə bunlar deyil. Siz baxın, görün Fatimeyi-Zəhra (ə) necə xanım olub. Peyğəmbərin (s) Mədinədə olduğu on ilin təxminən doqquzunda həzrət Zəhra və həzrət Əmirəlmöminin (ə) bir-birinə həyat yoldaşı olmuşlar. Bu doqquz ildə kiçikli-böyüklü təqribən altmış müharibə baş vermişdir. Həzrət Əli (ə) onların əksərində iştirak edib. İndi siz baxın, bu xanım evdə oturub, əri isə daim cəbhədədir. Cəbhəyə getməsə, işlər axsayar. Döyüş məsələləri ona bu qədər bağlıdır. Məişət vəziyyətləri yaxşı deyil. Eşitdiyimiz kimi, “onlar öz iştahları çəkdiyi halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər”[1] - yəni doğrudan da çox kasıb yaşayırdılar. Halbuki o, həm də rəhbərin, Peyğəmbərin (s) qızıdır. Bu baxımdan da bir növ məsuliyyət hiss edir.

Görün belə bir ərə yardımçı olmaq üçün xanımda necə ruh yüksəkliyi olmalıdır. O, ailə nigaranlığı və həyat problemləri baxımından ərini arxayın etməli, ona ürək-dirək verməli, uşaqlarını belə gözəl tərbiyə etməlidir. Siz deyə bilərsiniz ki, İmam Həsən (ə) və İmam Hüseyn (ə) imam idilər. Axı Zeynəb imam deyildi. Fatimeyi-Zəhra (ə) onu bu doqquz ildə tərbiyə edib. Çünki o həzrət Peyğəmbərdən (s) sonra çox yaşamayıb.

---

[1] İnsan/8-9.

Belə evdarlıq etdi, həyat yoldaşı oldu və bununla tarixin həmişəyaşar ailəsinin həyatında əsas mərkəzə çevrildi. Məgər bunlar bir cavan qız, bir evdar xanım üçün nümunə ola bilməzmi?! Bunlar çox mühumdur.

Peyğəmbərin (s) vəfatından sonra məscidə gəlməsi və bəlli xütbəni oxuması da çox böyük məsələdir. Bizlər bədahətən nitq söyləyənlər olduğumuz üçün bu sözlərin nə qədər əzəmətli olduğunu anlayırıq. 18 yaşlı, 20 yaşlı, uzaqbaşı 24 yaşlı bir qız - o həzrətin yaşı dəqiq məlum deyil, doğulduğu il haqda fikir ayrılığı var - bütün dərd və problemlərinə rəğmən, məscidə gəlir və izdiham qarşısında hicabla çıxış edir. Bu çıxışın bütün sözləri tarix kitablarında qeyd olunmuşdur.

Ərəblər yaddaşın güclülüyü ilə məşhur idilər. Bir nəfər gəlib 80 beytlik bir qəsidə oxuyurdu, məclis bitdikdən sonra 10 nəfər onu yazırdılar. Dövrümüzədək gəlib çatan bu qəsidələr çox zaman belə qalmışdır. Şeirlər ictimai yerlərdə oxunur və qeyd olunurdu. Belə çıxış və hədislər də çox zaman belə olub. Oturub yazıb, əzbərləyib və günümüzədək saxlayıblar. Əbəs sözlər tarixdə qalmır, hər söz qalmır. O qədər sözlər deyilib, çıxışlar edilib, şeirlər söylənib, amma qalmayıb və heç kəs onlara etina etməyib. Lakin tarix bu çıxışı öz qəlbində saxlayır, üstündən 1400 il keçəndən sonra oxuyan hər bir insan ona hörmətlə yanaşır. Bu da bir üstünlüyü göstərir. Məncə bu, gənc qız üçün örnəkdir.

Siz doğru deyirsiniz. Təqsir bu işləri idarə edən bizlərdədir. Məqsədim dövlət işləri deyil, mənəvi və dini işlərdir. Biz bu cəhətləri gənc nəslə lazımınca göstərməmişik. Lakin sizin özünüz də bu sahələrdə işləyə bilərsiniz. Bütün imamların həyatında belə məqamlar var.

İmam Cavadın (ə) həyatı da örnəkdir. Elə uca məqamlı və əzəmətli İmam Cavad (ə) 25 yaşında dünyadan köçdü. Bunu biz demirik, qeyri-şiələrin yazdığı tarix kitabları deyir. O həzrət gənclik, uşaqlıq və yeniyetməlik çağında Məmunun və digərlərinin yanında hörmət qazandı. Bunlar çox mühüm məsələlərdir. Bunlar bizim üçün örnək ola bilər.

Öz dövrümüzdə da örnək var. İmam Xomeyni örnəkdir. Bizim Bəsic üzvü olan gənclərimiz örnəkdirlər: həm şəhid olanlar, həm də bu gün yaşayanlar. İnsanın təbiəti elədir ki, dünyadan köçmüş və şəhid olmuş insanlar haqda daha asan danışa bilir. Görün necə örnəklər tapmaq olar. Biz müharibə zamanı öz şəhər və kəndlərindən çıxmış və tamamilə adi bir adam kimi nəzərə çarpan adamlar görmüşük. Qeyd etdim ki, keçmiş rejim istedadları inkişaf etdirə, yaxud aşkara çıxara bilmirdi. Bunlar o rejimdə adi adam idilər. Bu quruluşda isə əməl meydanı olan müharibəyə gəldilər, birdən-birə istedadları aşkara çıxdı, böyük bir komandir, sonra da şəhid oldular. Belələri bizdə çox olmuşdur.

Bir neçə il öncə "Mənim komandirim" adlı broşürlərdə bunların bioqrafiyasını yazırdılar; gənc əsgərlərin komandirləri haqda xatirələri idi. Bilmirəm bu iş davam edir, ya yox. Bu şəxsiyyətlərin əzəmətini göstərən qısa bir əhvalat, kiçik bir xatirə danışırdılar. Bunlar örnək ola bilərlər. Öz elmi şəxsiyyətlərimiz, idmanda öncüllərimiz, ədəbi şəxsiyyətlərimiz, incəsənət xadimlərimiz arasında, həqiqətən üstün cəhətləri olan şəxsiyyətlərdə də örnəklər tapmaq olar.

Söz yox ki, insan örnəyi öz meyarları ilə seçir. Mən xahiş edirəm seçmək istədiyiniz hər bir örnəkdə qeyd etdiyim təqva meyarını mütləq nəzərə alın. Təqva - vaz keçiləsi bir şey deyil. Təqva həm dünya həyatı üçün lazımdır, həm də axirət həyatı üçün.

Məndə hansı şəxsiyyətlərin təsir buraxdığına gəlincə isə, deməliyəm ki, çoxlu şəxsiyyətlər olmuşdur. Gənclikdə mənə çox təsir göstərən şəxs ilk növbədə mərhum Nəvvab Səfəvi idi. O, Məşhədə gələndə mənim təxminən 15 yaşım vardı. Mən güclü şəkildə onun şəxsiyyətinin təsiri altına düşdüm. Sonra Məşhəddən getdi və bir neçə aydan sonra çox acınacaqlı vəziyyətdə şəhid edildi. Bu da bizdə onun təsirini daha da gücləndirdi. Sonra məndə imamın güclü təsiri olmuşdur. Mən Quma gəlməzdən və mübarizələrin başlanmasından öncə imamın adını eşitmiş, lakin onu görməmişdim. Onu sevir, ona hörmət bəsləyirdim. Səbəbi də bu idi ki, Qum hövzəsində bütün gənclər

onun dərsinə rəğbət göstərirdilər. Gənclər onun dərslərini bəyənirdilər. Mən də Quma köçəndə onun dərsinə getməyə tərəddüd etmədim, əvvəldən getdim və Qumda olduğum müddətdə həmişə ardıcıl olaraq bir dərsinə gedirdim. O da məndə çox təsir buraxdı. Əlbəttə, atamın və anamın da çox təsiri olub. Mənim üzərimdə çox dərin təsirlər buraxan şəxslərdən biri də anamdır. O çox təsirli bir xanım idi.[1]

**Sual:** Ölkə məmurları gənclərlə necə rəftar etməlidirlər?

**Cavab:** Mənim ölkə məmurlarına, müdirlərə və proqram hazırlayanlara sözüm budur: Ölkədəki bu möhtəşəm gənc toplumunu coşub-daşan təlatümlü bir çay bilin. Bu çay daim axmaqdadır və illər sonra da axacaq. Bu çayla iki cür rəftar etmək olar:

Biri budur ki, oturub ağılla və elmi yolla əvvəla bu çayın əhəmiyyətini öyrənəsiniz; ikincisi bu çayın suyuna ehtiyacı olan yerləri təyin edəsiniz; üçüncüsü isə kanal çəkib suyu həmin yerlərə yönəldəsiniz. O zaman Allahın bu gözəl neməti sayəsində minlərlə tarla və bağ yaşıllaşar və hər bir xarabalıq abad olar. Siz bu çayı elektrik stansiyalarına yönəldib böyük bir enerji mənbəyi yarada və bütün ölkəni işıqlandıra bilərsiniz. Belə etsəniz, bu çay bərəkətli, misilsiz və müstəsna bir şey olar və İran xalqı bundan ötrü hər gün Allaha yüz dəfə şükür etsə, yenə də az olar. Bunun şərti proqram hazırlamaq, suyu yönəltmək, yolu açmaq, ehtiyacı olan yeri tanımaq, bu dəyərli neməti və ilahi hədiyyəni düz həmin yerə çatdırmaqdır. Bunun nəticəsi isə yaşıllıq, abadlıq, gözəllik və bərəkət olacaq.

Başqa bir rəftar budur ki, bu səmərəli və bol sulu çayı öz başına buraxa, onun haqqında fikirləşməyə, onun üçün proqram hazırlamaya və qədrini bilməyəsiniz. Nəticə nə olar? Tarlalar quruyar, bağlar məhv olar, bundan əlavə, həmin suyun özü də hədər gedər. Ən yaxşı halda bu çayın suyu şor sulara qarışıb hədər gedər, yaxud bataqlığa və müxtəlif çirkabların toplandığı mərkəzə çevrilər. Daha pis forması budur ki, bir

---

[1] Gənc həftəsi münasibətilə gənclərlə görüşdəki çıxışdan: 1998.

selə çevrilib xalqın hər şeyini məhv edər. Əgər proqram, diqqət və iş olmasa, bu nəticələrə gətirib çıxarar.

Allah-Taala bizim xalqımıza və ölkəmizə bu neməti bağışlamışdır. Bu neməti işlətməli olan şəxs - nemətin şükrünün mənası da budur - kimdir? Yuxarıdan aşağıya qədər bütün məmur və müdirlər.

Bu gün gənci olmayan, əhalisinin yaşının yuxarı olmasından əziyyət çəkən ölkələr var. Biz öz ölkəmizə baxanda simaların, təbəssümlərin gənc, başların dik, qol və bədənlərin güclü olduğunu görürük. Həm gəncin düşüncəsi parlayır, həm də fiziki gücü öz təsirini göstərir. Buna əsasən, gəncin qədrini bilmək lazımdır.

Bəzi adamlar bu amillə layiqincə rəftar etmirlər. Bəzən gənclər üçün proqram hazırlamaq əvəzinə onlara tərif yağdırırlar. Mən gənclərlə görüşəndə daim onları tərifləyib gözəl cəhətlərini deməyi sevmirəm. Bunlar yalnız səs dalğalarıdır, buna ehtiyac yoxdur. Təəssüf ki, bəzi şəxslərdə bu eyib var. Harada bacarmırlarsa, gənclərin adlarını çəkirlər; harada aciz qalırlarsa, gəncləri bayraq edirlər. Gəncin real vəziyyətinə, onu narahat edən məsələlərə, onun hərəkət tərzinə diqqət yetirmədən və gənc üçün düzgün proqram hazırlamadan tərif yağdırmaq və gəncdən mif düzəltmək düzgün deyil.

Başqa bir eyib budur ki, bəzən gənclərdən istehlak məhsulu kimi, sırf seçkilərdə iştirak etmək və kimlərinsə adını qaldırmaq üçün istifadə olunur. Bunların hamısı mənfi amillərdir və görülməli iş bunlar deyil. Görülməli iş bunlar deyil. Görülməli iş odur ki, ölkənin mədəni, iqtisadi və siyasi məmurları oturub bu əzəmətli fenomeni düzgün dərk etsinlər və onun üçün proqram hazırlasınlar. Ölkənin buna ehtiyacı var.

Bizim ölkəmizin geniş torpağı və böyük imkanları var. Düzdür, çoxlu problemlər də var. Bizim ölkəmiz sulu ölkələrdən deyil, bəzi təbii çatımazlıqlar da var. Onun otrasında böyük bir səhra yerləşir. Lakin bu əllər püxtələşmiş və zəngin beyinlərdən fərman alsa, bütün bu çatışmazlıqları büküb kənara tullayar və ölkə inkişaf edər; bu şərtlə ki, elmli və dəqiq proqram işlənsin.

Bu əziz gənc mənim bir sözümü söylədi. Bəli, mən dəfələrlə demişəm ki, müxtəlif səviyyələrdə - ölkə miqyasından vilayət miqyasına, rayon və kəndlərə qədər gənc məsələsinin arxasında milli və ümumi bir iradə durmalıdır. Şəhər gəncinin kənd gənci ilə, Tehranda yaşayan gəncin ölkənin ən ucqar şəhərində yaşayan gənclə fərqi yoxdur. Gənclik xüsusiyyətləri hamıda eynidir. Bəzən əyalətdə yaşayanların istedadı çox da olur. Bizə lazım olan da budur.

Mən siz gənclərə demək istəmirəm ki, özünüz heç bir məsuliyyət daşımırsınız. Xeyr! Bu sözü heç vaxt deməyəcəyəm. Sonra deyəcəyəm ki, məsuliyyətin bir təməli özünüzsünüz. Həmçinin deməyəcəyəm ki, bütün bu problemlər qısa və çox məhdud bir zamanda aradan qalxmalıdır. Xeyr! Bunlar üçün proqram hazırlamaq lazımdır və bu proqramlar uzunmüddətlidir. Bəzi məqsədlər üç il, bəzisi beş il, bəzisi isə on il ərzində təmin olunur. Amma proqram hazırlanmasa, on il yox, onlarla il ötsə də, xeyri olmaz. Mən heç kəsi tələsdirmək istəmirəm - nə sizi, nə məmurları; nə siz ayağınızı yerə çırpın ki, nə oldu, nə də məmurlar əl-ayağa düşüb tələsik bir şey hazırlasınlar və desinlər ki, bu da filankəsin cavabı; filan yerdə belə bir söz deyib, buyurun, bu da bizim proqramımız. Bunların heç birinin faydası yoxdur. Gənc bu gün üzərinə düşən işini səbirlə görməli, məmurlar da məsuliyyətlə və ağılla oturub bu barədə əsaslı bir şey fikirləşməlidirlər. Bəzən xırda, ötəri və emosional məsələlər üçün komissiyalar yaradılır: filan məsələ üzrə komissiya; məsələnin özü isə bir nəfərin, yaxud bir qrupun məşğul olması qədər əhəmiyyətli olmur. Kimlərsə bu barədə düşünməlidirlər.

Milli Gənclər Komitəsinin yaranması yaxşı haldır. Mən bu komitənin rəhbərlərindən narazı deyiləm, amma mənim dediyim bu iş sırf Milli Gənclər Komitəsinin işi deyil, bütün hökumətin, iqtisadi və siyasi qərar mərkəzlərinin işidir. Hamı bu işə qoşulmalıdır. İdarəçilik və icra baxımından Milli Gənclər Komitəsinin üzərinə də müəyyən rol düşür. O da öz işini görməlidir. Buna əsasən, ümumi proqram hazırlamaq lazımdır.

Hakimiyyət orqanları arasında əməkdaşlıq burada da özünü göstərməlidir. Mənim üç hakimiyyət orqanının əməkdaşlığına dair çağırışlarımın, hər üç hakimiyyətin başçısına məktub yazaraq bunu təkidlə istəməyimin səbəbi budur ki, yalnız ötəri, dövri və siyasi cinah məsələləri haqda düşünən bir neçə nəfərin sayəsində bu orqanlar arasında yaranan ziddiyyət ölkəyə böyük ziyanlar vurur. Qanunverici hakimiyyət, icra və məhkəmə hakimiyyəti bir-biri ilə əməkdaşlıq etməlidirlər. Sözsüz ki, burada ən böyük məsuliyyət icra hakimiyyətinin üzərinə düşür. Bu orqan bütün səviyyələrdə çalışıb müntəzəm fəaliyyət göstərməlidir. Bu, ölkənin köklü məsələsidir, zarafat deyil.

Əgər bu müntəzəmlik olsa, biz aktiv, ümidli və işgüzar bir nəsli olan ölkəyə sahib olarıq, on il ötəndən sonra kim bizim ölkəmizə baxsa, bütün sahələrdə işgüzar əllərdən, beyin və qəlblərdən ibarət bir ordu müşahidə edər. O zaman daha heç kim öz ata yurdunu, müqəddəs torpağını və əziz İranı tərk etməyə rəğbət göstərməz, kiçik və əhəmiyyətsiz bir şeyə ümid edib xarici bir ölkənin və xalqın təhqirini qəbul etməz. Ömrünün sonuna qədər orada qalsa da, ona "əcnəbi" və "özgə" deyəcəklər. Bir gün də vəziyyət dəyişsə, bu günlərdə Almaniya neonasistlərinin etdiyi kimi, öz ölkələrində xaricilərin üstünə düşəcəklər. Mən dəfələrlə demişəm ki, bunlar qalstuk bağlayan, odekolon vuran və adlarını sivil qoyan vəhşilərdir. Hansı ölkənin gəncləri tökülüb əncəbiləri belə vurur və parçalayırlar. Almaniyada belə edirlər, bu yaxınlarda Avstriya və İtaliyada belə etdilər. İranlı gənc hansısa yarışda qalib gəlmək üçün oraya getməyə can atır; elə bilir ki, orada qədrini biləcəklər. Xeyr! Orada işə bacarığın olana qədər səni işlədəcək, şirəni çəkəcək və özünə bir şey verməyəcəklər. Həm də öz evində deyilsən, əcnəbi və yadsan. Bir gün də həmin ölkənin gəncləri keflənib üstünə düşə bilərlər ki, sən əcnəbisən, səni çıxarmaq istəyirik. Lakin qeyd etdiyim müntəzəm iş görülsə, heç kim öz evindən, bu böyük iş və fəaliyyət mərkəzindən üz çevirməyə rəğbət göstərməz, bütün bu gənclər iş bazarına - elmi işlərə, sənaye, aqrar təsərrüfat, xidmətlər, istehsal və yaradıcılıq işlərinə qoşular, hər cəhətdən kamil bir ölkə qurarlar. Həmin

proqramlı işin nəticəsi belə olar. Bu milli iradə yaransa və bu proqramlar həyata keçsə, mənzərə belə olar. O zaman dərsə və təhsilə yeni başlayan gənc də bu mənzərəni görüb həvəslə dərs oxuyar və ölkədə elmin səviyyəsi yüksələr.

İndi isə gələk məsələnin mənfi tərəfinə. Əgər bu işlə məşğul olmasalar, lazımi proqramlar haqda fikirləşməsələr, yetişməkdə olan nəsil üçün cəmiyyətdə yer açmasalar, nə baş verəcək? İşsiz və bacarıqsız bir ordu xalqın əlində qalacaq; nə ümidi olacaq, nə həvəsi, nə gələcəyi, nə öz vətəninə qarşı qürurunu ifadə etmək üçün dili, nə də ümumiyyətlə qüruru. Əlbəttə, bu dediklərim ən azıdır. Bundan da pisi ola bilər. Hamı - həm proqram hazırlanlar, həm icraçılar, həm media rəhbərləri, radio, televiziya və qəzetlər bunun üçün məsuliyyət daşıyırlar. Radio, televiziya və qəzetlər həmişə gəncə dərd-qəmdən uzaq zadəgan və əyyaş bir gənc örnəyi təqdim etməsinlər. Bəzi mətbu orqanları fəlsəfəpərdazlıq edib elə danışmasınlar ki, gənc insanın məqsədinin hansı yolla olursa-olsun, bir ovuc pul qazanmaq olduğunu düşünsün. Əgər bir elmi diplom ala bilsə, bu da pul qazanmağa vasitə olsun; bu alınmasa, başqa hansı yolla mümkün olsa - qaçaqla, xarlıqla, həqarətlə, soyğunçuluqla olsa da, pul qazanmağa çalışsın. Pulu əsas göstərmək olmaz. Pul dəyər deyil; məqsəd pul qazanmaq deyil. Pul yaşamaq üçün bir vasitədir, məqsəd olmaqdan çox kiçikdir. Gənc üçün yanlış örnək göstərib, onun istedadını, yaradıcılığını işlətmək, çoxlu fəaliyyət göstərmək, elm və ixtisas əldə etmək yerinə pul qazanmaq haqda düşünməsinə səbəb olmasınlar. Biz gəncdən soruşuruq ki, nə üçün dərs oxumursan? Deyir ki, atamın bu qədər pulu və sərvəti var, dərs oxumağa ehtiyacım yoxdur. Deməli, dərs pul üçündür. Bu pulla bikar, əyyaş və sırf istehlakçı olsa da, onun fikrincə, eybi yoxdur. Bu düşüncə tərzi düzgündür?! Bu ən yanlış düşüncə tərzidir. Kütləvi informasiya vasitələri bu baxımdan məsuliyyət daşıyırlar.

Biz əlçatmaz uzaq gələcəkdə yox, yaxın gələcəkdə özümüz üçün belə bir gün təsvir edib ona ümid bəsləyə bilərik. Nə üçün bəsləməyək?! Bu məmləkətin gənci yetmişinci və səksəninci illərdə möcüzə yaratdı.

Bu məmləkətin gənci o zamana qədər heç bir xalqın görə bilmədiyi işi gördü, sizin bu Rəşt şəhərinizdə, vilayətin və ölkənin digər şəhərlərində elə fəallıq göstərdi ki, dünyanın bütün müstəmləkəçilərinin himayə etdiyi və təpədən-dırnağa qədər silahlı bir rejim daha nəfəs ala bilmədiyini görüb qaçmağa məcbur oldu. Bu təcrübə bizdən sonra təkrar olundu, bizdən öncə isə heç yerdə baş verməmişdi. Digər yerlərdə baş verən inqilablar partizan döyüşlərinin, bomba və güllələrin nəticəsində baş vermişdi. Bu isə İran gəncləri tərəfindən həyata keçən təcrübə idi.

Nelson Mandela həbsxanadan çıxandan bir az sonra, hələ Cənubi Afrikada qələbə çalmazdan öncə İrana gəlib mənimlə görüşdü. Biz onunla Cənubi Afrikanın vəziyyəti haqda danışdıq. Mən ona dedim ki, bizim belə bir təcrübəmiz var, düşünürəm ki, sizin ölkədə də həyata keçə bilər. O təcrübə budur ki, qadın və kişilərdən ibarət könüllü insanlar - bunlar bizim ölkəmizin əksəriyyətini təşkil edirdilər - küçələrə çıxsınlar. Bizdə xalq yumruq, silah, top-tüfəng və silahlı dəstələrlə yox, boş əllə küçələrə çıxdılar, üzlərini də bağlamadılar. Bununla rejimə təzyiq göstərdilər və rejim artıq dayana bilmədiyini gördü. Daha nəyi idarə edəcəkdi?! Dedim ki, mənim fikrimcə, bu örnək Cənubi Afrikada həyata keçə bilər. O, başını tərpətdi. Gedəndən bir-iki ay sonra qəzetlərdə Cənubi Afrikada izdihamlı xalq nümayişlərinə dair xəbərlər oxuduq. Mən bildim ki, bu toxum cücərdi; eynilə İranda olduğu kimi. Cənubi Afrikanın böyük şəhərlərinin bütün küçələri qaralarla doldu. Bəzi ağdərililər də onlarla birgə nümayişə çıxdılar və dedilər ki, biz də irqi ayrıseçkiliyə etiraz edirik. Nəticə əldə edildi və ölkənin başçısı bir iş görə bilmədiyini anladı. Əvvəlcə yerinə başqa birisini qoydu. O da gördü ki, mümkün deyil. Odur ki, sakit bir ötürmə ilə hakimiyyəti qaradərililərə verdilər və Mandelanın özü prezident oldu. Bu hadisəni təkrarlamaq mümkündür. Xalqların azadlığına dair bu örnək yetmişinci və səksəninci illərdə iranlı gənc tərəfindən göstərildi; yetmişinci illərdə İslam inqilabı möcüzəsi, səksəninci illərdə isə səkkizillik müharibədə qalibiyyət möcüzəsi baş verdi.

İslam inqilabı möcüzəsi yetmişinci illərdə, səkkizillik müharibə möcüzəsi isə səksəninci illərdə baş verdi. Müharibənin əvvəllərində ənənəvi hərbi sərəncamlara adət etmiş bəzi qardaşlar deyirdilər ki, siz nə danışırsınız, 50 tanka qarşı 50 tank lazımdır; İraq 50 tankla hücuma keçirsə, biz də 50 tankla qarşısına çıxmalıyıq, amma yoxumuzdur. Doğru deyirdilər, yoxumuz idi. Mənim özüm bir gecə təxminən 120 tanka ehtiyacı olan bir briqadanın tanklarını saydım, gördüm 17 tank var. İraqlı döyüşçülərin qarşısında yerləşən bir ordu briqadasında 120 tank yerinə 17 tank vardı. Deyirdilər mümkün deyil, amma iranlı gənc mümkün olduğunu göstərdi. Bəsic üzvü, ordu, yaxud korpus zabiti və ya əsgəri olan gənclər möcüzə yaratdılar, mümkünlüyünü göstərdilər.

Bütün mütərəqqi döyüş texnikasına malik bir ordu getmək üçün gəlməmişdi. Məgər İraq ordusu İrana qayıtmaq üçün gəlmişdi?! Qayıtmaq istəsəydi, gəlməzdi. Xusitanı ələ keçirmək, neft mənbələrini İslam Respublikasından almaq, bu rüsvayçılığı və xarlığı İslam Respublikası üçün əbədiləşdirmək, onun sərvətli və neftli bir vilayətini qoruya bilmədiyini demək üçün gəlmişdilər. Bir müddət sonra isə çoxlu ziyanla, 50-60 min əsir verərək yollarını döndərdilər, bizim gənclərimizin qəzəb və iradə qamçısı altından qaçdılar və ölkələrinə qayıtdılar. Sonra da bütün dünya onların təcavüzkar olduğunu təsdiqlədi; yəni həm hərbi baxımdan məğlub oldular, həm də siyasi baxımdan. Bu işi kimlər gördü? Bizim gənclərimiz. Bu bir möcüzə idi. Yetmişinci və səksəninci illərdə bu möcüzələri yaradan iranlı gənc iki mininci və iki min onuncu illərdə nə üçün yarada bilməz?! Nə üçün bu möhtəşəm möcüzəni möhkəmlədib dünya miqyasında genişləndirə bilməz?! Nə üçün iranlı gənci bütün dünya gənclərinin örnəyinə çevirə bilməz?! Buna hansı dəliliniz var?! Bu mümkündür.

Mən məmurlara deyirəm ki, bizim gənclərimizə gözütoxluq, əxlaqi iffət, özünəinam, sədaqət və şücaət öyrədin, onlarda polad iradə, ictimai nizam-intizam və işçi vicdanı yaradın, sonra da onlar üçün proqram hazırlayın. Bu işlər mümkündür və bu gələcək həyata keçəcək.

Ötən iyirmi iki il ərzində bu ölkəni bütün çətin və təhlükəli keçidlərdən keçirməyi bacaranlar bunu yenə də bacararlar. Nə üçün özünüzdə ümidsizlik yaradırsınız?! Nə üçün öz daxilinizdəki ümidsizliyi başqalarına da keçirirsiniz?! Sən məyus olmusansa, kənarda otur, icazə ver bu əhali öz yolu ilə getsin. Bir nəfərin, yaxud bir qrupun məyusluğu böyük bir xalqın önünü kəsməməlidir. Mən deyirəm ki, gənclərə təriflər yağdırmaq əvəzinə onlarla açıq və səmimi danışın, problem və imkanları deyin, sonra da imkanlar yaratmağa və problemləri aradan qaldırmağa çalışın. O zaman bu gənclərin özləri sizin ordunuz olacaq, problemləri aradan qaldırmanız üçün sizə yardım göstərəcəklər. İnsani münasibətlərdə gəncin səmimiyyətdən çox heç bir şeydən xoşu gəlmir.[1]

**Sual:** Başucalığına, iqtidara, şərəfə, bütün gözəlliklərə və yaxşılıqlara nail olmaq üçün gəncin qarşısında hansı yol var?

**Cavab:** Mənim əzizlərim! Hər bir gənc yaşadığı ölkənin və böyüdüyü torpağın şərəfli, başıuca, qüdrətli, bütün gözəlliklərə və yaxşılıqlara malik, sivil əhalisinin, elmi və praktik inkişaflarının olmasını istəyir. Bu hər bir gəncin arzusudur. Bunun üçün qarşıda iki yol var: biri həqiqi yoldur, biri isə yalançı və saxta yol. Həqiqi yolu tapmaq, zəhmətlərinə qatlanmaq və bədəlini ödəmək lazımdır.

Həqiqi yol nədir? Həqiqi yol odur ki, iranlı gənc öz torpağında öz toxumunu səpməyə, öz mədəni sərvətlərindən, iradəsindən istifadə etməyə, öz şəxsiyyət və müstəqilliyinə dəyər tanımağa və əcnəbi örnəkləri kənara qoymağa qərar versin.

Bizim xalqımız üçün həqiqi sivilizasiya İran sivilizasiyası, öz istedadlarımızdan irəli gələn, özümüzə məxsus və ictimai şəraitimizə uyğun olan sivilizasiyadır. Həqiqi çıxış yolu yerli yoldur. Öz sağlam toxumumuzu əkməli və ona qulluq etməliyik. Biz ona-buna təqlid arxasınca qaçmamalı, əcnəbi dildə danışmağa və onların köhnə

---

[1] Gilan vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: 2001.

təcrübələrindən borc götürməyə can atmamalıyıq. Bu o demək deyil ki, digərlərinin elmi nailiyyətlərindən istifadə etməyək. Xeyr! Birmənalı olaraq düşünürəm ki, bəşərin bütün elmi təcrübələrindən bəhrələnmək lazımdır. Biz pəncərələri bağlamırıq; dünyada kim yaxşı iş görmüşsə, onu seçirik.

Mən bir dəfə mədəni hücumla mədəni mübadilənin fərqini söylədim. Mədəni hücum mənfi bir işdir. Mədəni mübadilə isə müsbət. Bir var insan bədənində yaranan nöqsanı aradan qaldırmaq üçün axtarıb faydalı və münasib qida və dərman tapsın, öz meyli ilə də qəbul etsin. Bir də var ki, biz seçməyək, bizim əl-ayağımızı bağlasınlar, yaxud bihuş edib bizə lazım olanı yox, özləri istədiklərini bədənimizə köçürsünlər. Bunların bir-biri ilə fərqi yoxdur?! Mən deyirəm İran xalqı özünü zəif göstərməməlidir ki, düşmən ən müasir üsullarla özü istədiyini və öz mədəniyyətinin tör-tüküntülərini İran xalqına köçürməyə qalxsın.

Bir gün bir qrup qərbpərəst gözlərini bağlayıb dedilər ki, biz hər şeyi Qərbdən almalıyıq. Onlar Qərbdən nə aldılar? Avropalıların yaxşı xüsusiyyətlərindən biri təhlükəli işlərə girişməkdir. Onların uğurlarının əsas səbəbi budur. Bizim qərbpərəstlərimiz İrana bunu gətirdilər?! İranlılar risk zamanı qorxmaz oldular?! Onların başqa bir yaxşı xüsusiyyəti yorulmazlıq və işdən qaçmamaqdır. İrana bunu gətirdilər?! Qərbin ən böyük və ən mahir alimləri və kəşf sahibləri uzun illər çətin şəraitdə otaqlarında oturub nəyisə kəşf etmişlər. İnsan onların həyatını oxuyanda necə yaşadıqlarını görür. Elmdən ötrü belə yorulmazlıq hissini İrana gətirdilər?! Bunlar Qərb mədəniyyətinin yaxşı cəhətləri idi. Bunları gətirmədilər. Bəs nəyi gətirdilər? Qadın və kişinin məhdudiyyətsiz əlaqələrini, əyyaşlıq azadlığını, stol arxasında oturmağı, ləzzət və ehtirasları dəyər saymağı gətirdilər.

Quldur Rza xanın Qərbdən bizə gətirdiyi ilk hədiyyə geyim formasından və hicabın götürülməsindən ibarət idi; özü də silah gücünə və özünün kazak quldurluğu ilə: paltarlar uzun olmamalı, qısaldılmalıdır, papaq filan cür olmalıdır və sair. Sonra onu da dəyişib dedilər ki, bundan sonra yalnız şlyapa qoymaq olar. Başına Pəhləvi

papağından başqa bir şey qoyanı, yaxud qısa paltar geyinəni döyürdülər. Bunları Qərbdən götürdülər. Qadınlara hicab bağlamaq yasaq idi. Çadra çoxdan götürülmüşdü. Başlarını yaylıqla da örtsəydilər və çənələrini bir qədər tutsaydılar, döyülürdülər. Nə üçün? Ona görə ki, Qərbdə qadınlar başıaçıq gəzirdilər. Qərbdən bunları gətirdilər, bu xalqa lazım olanı gətirmədilər; elm gəlmədi, təcrübə gəlmədi, ciddilik və çalışqanlıq gəlmədi, riskə atılmaq gəlmədi. Hər halda, hər bir xalqın yaxşı xüsusiyyətləri də var. Gətirdiklərini də dərhal qəbul etdilər. Fikir və düşüncə gətirdilər, amma təhlil etmədən qəbul etdilər. Dedilər ki, Qərbdən gəldiyinə görə qəbul etmək lazımdır; geyim və yemək forması, danışmaq və yol yerimək tərzi Qərbdən gəldiyinə görə qəbul etmək lazımdır, bunun oyan-buyanı yoxdur. Bu bir ölkə üçün ən təhlükəli haldır və düzgün deyil.

Həqiqi həll yolu budur ki, bir xalq özü olsun, öz beyni ilə düşünsün, öz gözü ilə görsün, öz iradəsi ilə seçsin və faydalı olanı götürsün. Biz mədəniyyətimizi qoruyub öz əl-qolumuzla işləməliyik. Bizim yeganə işimiz tərcüməçilik olmamalıdır. Bəzi adamlar hətta düşüncəni də tərcümə olunmuş şəkildə qəbul edirlər, onu meyarlarla ölçmək istəmirlər. Deyirlər bu sözü filan psixoloq, sosioloq, yaxud iqtisadçı dediyinə və bu formulu irəli sürdüyünə görə daha oyan-buyanı yoxdur, kim onun ziddinə danışsa, sanki küfr etmişdir. Onlar bir müddət sonra öz sözlərindən dönür və başqa söz deyirlər. Bu cənab o zaman onların ikinci sözünü təhlil etmədən qəbul edir. Bu bir ölkə üçün bədbəxtlikdir. Həqiqi həll yolu budur ki, bir xalq öz əli ilə işləsin, özü üçün işləsin, öz düşüncəsi və beyni ilə fikirləşsin, nəzəriyyə yürütsün və öz yaradıcılığı ilə inkişaf etsin, eyni zamanda bütün təcrübələrdən də yararlansın.

Yalançı həll yolu nədir? Yalançı həll yolu budur ki, bir xalq zahiri dəyişikliklə könlünü xoş edib əsaslı hərəkətdən üz çevirsin. Bir də görürsünüz ki, nə məlumatı, nə savadı, nə iradəsi olan, nə təcrübə göstərmiş, nə bir iş görmüş bir adam öz geyimini və görkəmini filan Qərb artistinə, yaxud gəncinə bənzədir. Bu, yalançı həll yoludur. Siz bu

işlə mədəni oldunuz və dəyişdiniz?! Keçmiş rejimdə muzdur və xain şah bu yalançı həll yolunu "böyük sivilizasiya darvazası" adı altında xalqa ərməğan etmək istəyirdi. Əlbəttə, illərlə bunun üzərində işləmişdilər. Bu ölkədə əxlaqi fəlakət yüksək həddə, mənəvi, psixoloji və elmi iflas misilsiz idi. Böyük sivilizasiya darvazası və İran modernizmi adı altında ölkənin mənəviyyatının olan-qalanını da hərraca qoymaq istəyirdilər. Əcnəbi qarşısında, Amerikanın və sionizmin pəncəsində məğlub olan əyyaş və savadsız şah, təhqir olunmuş və aşağılanmış xalq – belə İran modernizmi onlarınkıdır. Bu, modernizm və həqiqi sivilizasiya deyil. Həmin yalançı yolun timsalı bu idi ki, pul çıxan hər bir sahədə xarici şirkətlərin işçi və muzdurları yuva salmışdılar. Təbii ki, yerli şəriklərinin vasitəsi ilə bu işi görürdülər və yerli şərikləri də saraya, ozamankı xain və asılı məmurlara bağlı olurdular. Belə modernizmin faydası yoxdur. Bu bir xalq üçün bədbəxtliyə, fəlakətə və hər şeyin məhvinə səbəb olar. Əgər bu inqilab baş verməsəydi, şimşək səsi bu məmləkətdə hər şeyi təlatümə gətirməsəydi, qəlbləri yerindən oynatmasaydı, Allah bilir bu gün bizim ölkəmiz hansı vəziyyətdə idi. Siz Asiya və Afrikanın bəzi inkişaf etməmiş ölkələrinə baxın. Şübhəniz olmasın ki, bu əlverişli coğrafi və tarixi mövqeyə rəğmən, bizim vəziyyətimiz onlardan da pis olardı. İnqilab bu ölkənin köməyinə çatdı, bu xalqı heç zaman çıxa bilməyəcəyi bir uçurumdan xilas etdi. Buna əsasən, belə həll yolu yalançı həll yoludur və gənc onun arxasınca getməməlidir.

Mənim əziz övladlarım! Təqlidçilik ardınca qaçmayın, beyninizin, iradənizin və imanınızın gücləndiyi, əxlaqınızın pak və gözəl olduğu yol və üsul barədə fikirləşin. O zaman siz bu ölkənin mədəniyyətini və bu xalqın həqiqi sivilizasiyasını saxlayan bir dirək kimi olacaqsınız.

Mən sizə deyirəm: Bu gün Qərbin, xüsusən də ABŞ-ın və sionizmin postmodern təbliğat qurumları sizin beyniniz, fəaliyyətiniz, hissləriniz və iradəniz üçün layihələr hazırlayırlar. Elə bilməyin ki, onlar boş oturmuş və bizim ölkəmizdə olan otuz milyon gənci unutmuşlar. Onlar bu otuz milyon gənci görürlər, öz məqsədlərindən ötrü proqram da hazırlayırlar. Onlar bizim gənclərimizin əxlaqı, düşüncəsi, etiqadı və

imanı üçün proqram hazırlayırlar. Bəzən ölkəmizin mətbuatında, yaxud mədəni arenasında danışılan əksər sözlərin izahı budur və bu baxışla təhlil olunmalıdır. Onlar dünyanın fədakar və dəyərli gənclərinin örnəyinə çevrilmiş nəsli keyfiyyətsiz insanlara çevirmək istəyirlər.

Siz bu gün Fələstinə baxanda həyəcanlanırsınız. Bizim bu əziz qızımız deyir ki, kaş bizim baxışımız Fələstinə çataydı. Bilirsiniz fələstinlilər kimdən öyrənmişlər?! Əlli ildir Fələstin işğal olunmuşdur. İyirmi il, əlli ol öncə də Fələstində gənc vardı, lakin bu gün bu şəkildə meydana çıxan fələstinli gənc bu fədakarlığı kimdən öyrəndi? Onun örnəyi kimdir? Onun örnəyi Livanın mübariz, mömin və ixlaslı gəncləridir. Bunu mən demirəm, özləri deyirlər. Qəzzə zolağında və İordan çayının fələstinlilər yaşayan qərb sahillərində keçirdikləri nümayişlərdə Livan Hizbullahının rəhbəri Seyid Həsən Nəsrullahın şəklini qaldırır və yürüş edirlər. Onlar Hizbullahın bayrağını Əqsa məscidinin günbəzi üzərinə vurdular. Təbii ki, sionistlər orada qalmasına qoymadılar, amma onlar vurmuşdular. Buna əsasən, o, fələstinli gəncin örnəyi oldu. Livan Hizbullahının zənnimcə gündə iyirmi saat yayımlanan əl-Mənar televiziya kanalının ən çox tamaşaçısı işğal olunmuş fələstin daxilindədir. Nəinki onun proqramlarını izləyir, hətta onu dadlı su sayıb susuz insan kimi hər zərrəsini içirlər.

Livanlı gəncin örnəyi kimdir? Livan Hizbullahı haradan meydana çıxdı? Hansı torpaqda cücərdi? Onun örnəyi sizsiniz. O sizin şüarlarınızı verir, sizin işlərinizi görür, sizin alnınıza bağladığınızı alnına bağlayır, Bəsic kimi hərbi parad göstərir. Buna əsasən, o gənclərin örnəyi Gilanın özündə nümunələri az olmayan şəhid döyüşçülərdir. Onlar fədakarlığı, Allah üçün danışmağı və Allah üçün işləməyi bunlardan öyrəndilər. Gilan diviziyasının komandir müavini olan Şəhid Əmlaki cəbhədə kimyəvi bombalara məruz qalanda yanındakı Bəsic üzvünün maskası olmadığına görə öz maskasını onun üzünə taxmışdı. Qəhrəman budur. Düzdür, hər ikisi şəhid oldular, amma bu qəhrəmanlıq qaldı. Bunlar yaddan çıxmır: "Allah yolunda öldürülənləri heç də ölü zənn etmə! Əsl

həqiqətdə onlar diridirlər!"[1] Bunlar yaşayırlar; həm Allahın yanında yaşayırlar, həm bizim qəlbimizdə, beynimizdə və həyatımızda. Gilanın şəhərlərinin birindən olan şəhid atası cəbhədən gətirilmiş şəhid övladının kəsilmiş boğazını öpdü, amma ah çəkmədi. Bunlar örnəkdir. Bu örnəkləri bizdən almaq, gözümüzdən salmaq, onların yerinə öz yalançı və qondarma örnəklərini vermək istəyirlər; bizim dəyərlərimizi alıb öz dəyərlərini sırımaq istəyirlər.

Bu gün Qərb mediası istər televiziya, istər radio sahəsində milyardlıq proqramlarla, daim verdikləri və təəssüf ki, bəzi daxili qüvvələrin də aldandığı, əsir və nökər olduğu və təkrarladığı müsahibələrdə siz iranlı gəncləri inandırmaq istəyirlər ki, siz boş bir qabsınız və bu qabı biz doldurmalıyıq; bu gün sizdə bunu dolduracaq bir şey yoxdur, dünən də olmayıb, təbii ki, sabah da olmayacaq. Sizin tarixinizi inkar edir, keçmişinizi tapdamaq istəyirlər; yalnız bir neçə əsr öncəki qədim tarixi yox, hətta son iyirmiillik tarixi də ayaqları altında tapdamaq və inkar etmək istəyirlər. Onlar mədəniyyət və örnək yaratmaq, iranlı gənci və İranın yeni nəslini təhqir olunmuş, başıqapazlı bir nəslə çevirib belinə minmək, sözlərini diktə etmək və istədikləri işi gördürmək istəyirlər. Bir adamı yerə mahmızlamaq üçün ən yaxşı yol budur ki, desinlər: sən heçnəsən, heçkimsən və tarixin yoxdur; özünü heçnə sayması üçün bir xalqın fəxrlərini inkar edirlər.

Mirzə Kiçik dünyanın ozamankı iki böyük gücünə - yəni ruslara və ingilislərə böyük bir “yox” deyən yalqız bir kişi idi. O nə ruslarla razılaşdı, nə ingilislərlə. Onun kənarında ozamankı hökumətlə və sonra hakimiyyətə gələn Rza xanla mübarizə aparan, amma ruslara sığınan, Bakıya gedib dəm-dəsgah toplayaraq İrana qayıdan və onlara muzdur olan şəxslər vardı. Mirzə Kiçik xan isə qəbul etmədi və işbirliyinə getmədi. O həm ingilislərlə vuruşdu, həm rus kazakları ilə, həm də Rza xanın və ondan qabaqkıların ordusu ilə. O, Ehsanullah xanla və digərləri ilə də razılaşmadı. Gilanlı gənc Mirzə Kiçik xanın məzarı başına

---

[1] Ali-İmran/169.

gedəndə Gilan meşələrində məzlum şəkildə ölsə də, bu yalqız, imanlı və pak kişinin öz şəxsiyyətini İran tarixinə qeyd etməsini, ölməsini, lakin bir məşəl olmasını görür. Biz mübarizə dövründə Mirzə Kiçik xanın adını xatırlayanda və həyatını oxuyanda ondan güc alırdıq. O öz səyini, iradəsini, şəxsiyyətini və kimliyini xərclədi ki, bir nəslə kimlik, şəxsiyyət, güc və iradə bəxş etsin. Bu çox dəyərli məsələdir. Onun kimilər az idilər. Onlar qürbətdə mübarizə apardılar və qürbətdə də öldülər. Amma görürsünüz ki, bu gün qərib deyillər. Tarixin gərdişi qəribədir. O, şeyxfəzlullahların, mirzəkiçikxanların, xiyabanilərin və digərlərinin qərib öldükləri kimi qərib qalmalarına qoymadı və qoymayacaq. Düşmənlər bu fəxrləri iranlı gəncdən almaq istəyirlər.[1]

**Sual:** Hal-hazırda gənclərin ən mühüm ehtiyacı nədən ibarətdir?

**Cavab:** Bu haqda çox danışırlar. Məncə, gəncin əsas ehtiyacı kimlikdir; öz kimliyini və məqsədini tanımalı, kim olduğunu, nə üçün işləmək və çalışmaq istədiyini bilməlidir. Düşmən iranlı gəncin kimliyini ondan almaq, məqsədləri ortadan götürmək, üfüqləri qaraltmaq istəyir; ona demək istəyir ki, sən əskik və məhdud bir varlıqsan, mənim yanıma gəl, səni qanadlarım altına alım. Sərvətli İran ölkəsi, bizim çox əhəmiyyətli və strateji regionumuz və bu xalqın hər cəhətdən göstərə bildiyi çoxlu təsirlər gənclərin şəxsiyyətini təhqir etməklə düşmənin ixtiyarına keçir. Bu gün düşmənin siz gənclərə dair planı budur. Siz çox ayıq olmalısınız. Bu sözləri sizə deməkdə məqsədim ölkə məmurlarının gənc nəsil qarşısında məsuliyyətini görməzdən gəlmək deyil. Bunu əvvəlcə dedim. Onlar da məsuliyyət daşıyırlar, onların vəzifəsi də öz yerində, amma siz də məsuliyyət daşıyırsınız.[2]

**Sual:** Bəzi adamlar yetişməkdə olan nəslin dini dəyərlərdən üz çevirdiyini sübut etməyə çalışırlar. Bu doğrudurmu?

---

[1] Gilan vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: 2001.

[2] Yenə orada.

**Cavab:** Mən bu sözü qətiyyətlə rədd edirəm. Bu o demək deyil ki, mədəni yollarla fəsad törədən amilləri görmürəm, yaxud onlardan xəbərsizəm. Xeyr! Mənim peyk antenləri, internet, azğın roman, film, musiqi və digər amillər haqda yetərincə məlumatım var və onlara əhəmiyyətsiz yanaşmıram. Mən ömrümü gənclərin arasında keçirmişəm, özüm gənc olanda çevrəmiz xaricində olan tələbə gənclərlə rabitə qurmuşam. Bu günə qədər mənim gənclərlə əlaqəm kəsilməmişdir. Odur ki, gənclik dövrünün nə olduğunu və bu gün bizim gənclərimiz arasında nəyin baş verdiyini bilirəm. Amma düşünürəm ki, bugünkü gənc nəsil o qədər də zəif deyil. Bunu yanlış anlamışlar. Bu nəsil 30-35 il öncəki cəmiyyətdən dəfələrlə pak və yaxşı bir mühitdə yetişmişdir. O cəmiyyətdə doğulanlar dini hidayət sahəsində elə əzəmətli iş görüb polad kimi möhkəm imanlar təqdim edə bildilər. Mən düşünürəm ki, bu nəsil o nəslə nisbətən daha yaxşı mühitdə yetişmişdir, dəfələrlə yaxşı və üstün hazırlığı və ayıqlığı var. Mənim iyirmi yaşım olanda bu gün siz iyirmi yaşlı gənclər kimi məlumatlı deyildim. Bu gün iranlı gənc ayıq, siyasi məlumatlı və təhlil qabiliyyətinə malikdir. Hamısından üstünü də budur ki, imanlıdır.

Ötən il bir sıra mətbu orqanında məzhəbə, dini düşüncəyə, inqilaba, imama və hər bir şeyə qarşı edilən mədəni hücumlara baxmayaraq, rəcəb ayının etikaf günləri çatanda Tehran universitetinin məscidinin ən izdihamlı etikaf mərkəzlərindən olmasına nə səbəb oldu? Kim gənclərə dedi ki, gedin etikaf edin, üç gün oruc tutun, məsciddən bayıra çıxmayın, orada vaxtınızı ibadətlə, zikrlə, dua və təvəssüllə keçirin?! Kim belə bir sərəncam vermişdi?! Mənim xəbərim var ki, Rəştdə də gənclərin ümid qibləsinə çevrilən məscid və mərkəzlər var; oraya gedib mənəvi cəhətdən bəhrələnirlər.

İnqilab dövründə yetişmiş gəncin dini məlumatı var, imanı güclüdür. Düzdür, mənəvi və düşüncə qidasına daim ehtiyacı var. Bəli, mənə yazılan və burada bir qədəri oxunan məktubda yazılanı təsdiqləyirəm. Gənclərin ixtiyarına mədəni işlər, imkan və fəaliyyətlər

buraxılmalıdır. Aydın ruhanilər və mömin universitet rəhbərləri gənclərin imanı qarşısında məsuliyyət hiss etməlidirlər.

Ölkə məmurları - xüsusən də mədəni məmurlar və birinci növbədə təlim-tərbiyə işçiləri gənclər üzərində siyasi işi sınaqdan keçirməsinlər. Bu, xəyanətdir. Elmi-mədəni vəzifəsi olan hər hansı məmur, yaxud müdir öz mədəni işini partiya və cinah siyasətlərinin xidmətində işlətsə, xəyanət etmişdir. Həm gənc nəslin fəsada uğradığını düşünənlər səhv edirlər - çünki üç-dörd qız və oğlanı xoşlamadıqları paltarda görmək mütləq onların pis olmasına dəlalət etmir - həm də gənclərdən siyasi məqsədlər üçün və siyasi bir məhsul kimi istifadə etdiklərini düşünənlər. Səhvə yol verən üçüncü qrup da var - onlar İslam quruluşunun sonunu görməyə can atanlardır. Onlar gənclərin daha İslam quruluşunu müdafiə etmədiklərini düşünüb həvəslənirlər. Bunlar da çox səhvdədirlər.

Bizim düşmənlərimiz bu ölkə və bu inqilab haqda çox səhvə yol verdilər. Hər dəfə səhv edəndə də uğursuzluqla üzləşdilər. Səhvin təbii sonucu uğursuzluqdur. Onlar bizim xalqımızı, inqilabımızı, məmurlarımızı və gənclərimizi tanımadıqlarına görə səhv təhlil edir, səhv işlər görürlər və nəticədə uğursuzluqla üzləşirlər. Neçənci dəfədir ki, belə olur. İnqilab qələbə çalanda deyirdilər ki, iki aydan artıq davam gətirməyəcək. Halbuki bu əzəmətli inqilabı dünyaya səs salmış bir xalq etmişdi. İki ay ötəndən sonra ölkə daxilində olan sadəlövh əksinqilabçılar soruşdular ki, bəs nə oldu? Dedilər ki, altı aydan sonra mütləq bitəcək. Beləcə altı ay-altı ay müddəti uzatdılar.[1]

**Sual:** İndiyədək göstərdiyiniz fəaliyyətlərdə nə qədər gənclərə vəzifə tapşırmısınız və bu işdən hansı təcrübəni əldə etmisiniz? Sizin fikrinizcə, ölkənin elmi inkişafında gənclərin vəzifəsi nədir?

**Cavab:** İnqilabın əvvəllərindən mənim səlahiyyətimdə olan işlərdə gənclərə vəzifə vermişəm; həm silahlı qüvvələrdə, həm dövlət işlərində,

[1] Yenə orada.

həm prezidentlik səlahiyyətləri daxilində. Mənim təcrübəm budur ki, biz gəncə etimad göstərsək - sözsüz ki, söhbət ləyaqətli və səlahiyyəti gəncdən gedir, hər bir gəncə hər bir vəzifəni tapşırmaq olmaz - işi gənc olmayandan daha yaxşı və daha məsuliyyətlə yerinə yetirəcək; həm sürətlə yerinə yetirəcək, həm daha yeni və daha artıq yaradıcı şəkildə təhvil verəcək. Yəni işdə inkişaf prosesi qorunacaq. Qeyri-gənc isə belə deyil. O işi aktual olaraq yaxşı yerinə yetirə bilər, lakin onda inkişaf prosesi getməyəcək. Əksərən belədir.

İnqilab Şurasında olanda bu barədə bizə və o şurada olan digər dostlara etiraz olunurdu. Həmin şurada olan əsasən 60, 70 və 75 yaşlı insanlar gənclərə çox da inanmırdılar. Onlar deyirdilər ki, siz nahaq yerə gənclərə üz verir, onları əsas işlərə daxil edirsiniz. Onlar gənclərə çox imkan yaradılmasını istəmirdilər. İstəyirdilər ki, gənclər onlara qulaq assınlar, onların ardınca getsinlər. Deyirdilər ki, onlar gəncdirlər, biz qocayıq, gərək bizim arxamızca gəlsinlər. Gənclərə çox etimad göstərmək istəmirdilər. Biz isə onlara güvənir, etirazçılara işin yaxşı və uğurlu getməsini göstərərək əməli surətdə cavab verirdik.

Sualınızın digər hissəsində ölkənin elmi inkişafına toxundunuz. Baxın, gənclik bacarıq dövrüdür. Bu bacarıq nəyə sərf olunmalıdır? Mənim fikrimcə, əsasən elm öyrənməyə, özündə paklıq və təqva yaratmağa, fiziki baxımdan güclənməyə - yəni idmana sərf olunmalıdır. Bu üç məsələ çox mühümdür. Əgər məndən "Siz gəncdən nə istəyirsiniz?" – sualına qısa cavab istəsələr, deyərəm ki, təhsil, mənəvi saflıq və idman. Düşünürəm ki, gənclər bu üç xüsusiyyətə malik olmalıdırlar.

Təhsil tədqiqata və elmi işlərə də şamil olur. Gənclərdə bu qüvvə olduğundan elm üçün çox çalışmalıdırlar. Eşitdiyimə görə universitetlərdə gənclər çox da ağır elmi işlərə girişmirlər. Bu yaxşı hal deyil. Necə olur ki, biz elm öyrənməyən, orta məktəb səviyyəsində qalıb universitetə getməyən bir gəncə gedib dərs oxumasını tövsiyə etməliyik, universitetdə çətin elmi işdən qaçan tələbəyə isə elmi işi tövsiyə etməməliyik?! Bəs nə üçün universitetə gəlməsini istəyirik?! O, elmi

inkişaf etdirmək üçün universitetə gəlməlidir. Düşünürəm ki, gənclər elm öyrənməkdə həqiqətən gənclik enerjilərindən xərcləməlidirlər.

**Sual:** Sizcə bizimlə inkişaf etmiş ölkələr arasındakı fərq bitəcəkmi və bu sahədə gənclərin rolu nədən ibarətdir?

**Cavab:** Mənim fikrim budur ki, bəli, tamamilə bitəcək. Ola bilsin biz onların getdiyi yollarla gedib məsafəni bitirə bilməyək. Lakin dünyada istədiyin qədər kəsə yollar vardır. Biz Allahın yaratdığı bu təbiəti yaxşı tanımamışıq - minlərlə yol var. Bir yol indiki sənaye sivilizasiyasının getdiyi, hər bir addımdan sonra növbəti addıma səbəb olan yoldur. Biz nə üçün dünyada yeni bir bacanın açılmasına, yeni kəşfin edilməsinə ümidsiz olmalıyıq? Bir zaman elektrik enerjisi kəşf olunmamışdı. Yəni dünyada mövcud idi, amma onu tanımırdılar. Birdən tanıdılar və əldə edildi. Bəli, buxar enerjisini tanımırdılar. Ondan öncə odu tanımırdılar, sonra isə tanıdılar. Nə üçün bu dünyada tanınmaz bir şeyi tanımağa məyus olmalıyıq? Hər gün tanınmaz şeylər tanınmaqdadır. Biz bu sahədə işləməli və bizi sürətli elmi inkişafa tam hazır edən yola çatmalıyıq. Çarəsi də təkcə budur ki, gənclər, xüsusən də elm, təhsil və tədqiqatla məşğul olanlar çətin işlərdən qaçmasınlar.

Gənclikdə nə istəsəniz, etmək olar. Yəni hər üç sahədə - həm elm, həm mənəvi saflıq, həm də idman sahəsində gənclik çağında işləyin. Hamı bilir ki, qocalıqda idmanın gənclik dövründəki qədər təsiri olmur. Lakin mənəvi saflıq haqda əksərən bunu bilmirlər. Elə bilirlər ki, insan qalıb qocaldıqda ibadət etməli və mənəvi saflıq əldə etməlidir. Halbuki o zaman nəfsi paklamaq çətin, bəzən də qeyri-mümkün olur. Qocalıqda nəfsi paklamaq çətin olur, sizin vaxtınızda - gənclikdə isə çox asandır. Hər halda, gənclər bu üç işə ciddi yanaşsınlar.[1]

---

[1] Gənc həftəsi münasibətilə gənclərlə görüşdəki çıxışdan: 1998.

**Sual:** Əcnəbilərin maneçilik törətməsi səbəbindən biz Qərb texnologiyasından uzağıq. Bizim gənclərimiz Qərb texnologiyasından necə istifadə edə, həm də onun əsiri olmaya bilərlər?

**Cavab:** Nə üçün əsir və məftun olsunlar?! Bu bir bəşəri istedaddır. Bir nəfər öz düşüncəsini və zehnini işlədib bu böyük, həmçinin əsas hissəsi məchul olan təbiətdə bir şey öyrənə bilmişdir. Siz özünüz də bu işi görə bilərsiniz; özünüz də beyninizi işlədib bunu əldə edə bilərsiniz.

Əgər məftun olmağın mənası insanın bir şeyi təqdir etməsidirsə, bunun eybi yoxdur. Bəli, təqdir etmək lazımdır. Nə eybi var?! Bir insan beyninin inkişafından və üstünlüyündən xəbər verən hər bir məsələ təqdirəlayiqdir; bizim də tərifləməyimizin eybi yoxdur. Lakin bu özünü onun qarşısında kiçik görmək və aşağılamaq anlamında olsa, əsla yolverilməzdir.

Əgər sizin də ixtiyarınızda həmin imkanlar olsa, onun kimisini və ondan yaxşısını yaradarsınız. Siz bu bir neçə ildə bizim gənc və yeniyetmələrimizin qatıldığı riyaziyyat, fizika, kompüter və digər olmpiadalarda iranlı uşaqların öz taylarından, yəni dünyanın əksər ölkələrindən önə keçdiklərini görmüsünüz. Məgər belə deyil?! Halbuki bu imtahan və sınaqlarda iştiraklarının tarixçəsi çox qısadır.

Buna əsasən, biz anlaya bilərik; yəni bir iranlı yeniyetmə asanlıqla kəşf edə bilər. Əgər zehin və istedadını işlətsə, həqiqətən dərs oxusa və istəsə, o da böyük işlər görə bilər.

Mən dəfələrlə öz mütəfəkkirlərimizə demişəm ki, sizin dediyiniz bu məsələ - yəni Qərbin bizdən çox öndə olması bir həqiqətdir. Biz Qərbin arxasınca, onun hərəkət etdiyi yolla gedib bugünkü nöqtəyə çatmaq istəsək, əsrlər çəkəcək və bacarmayacağıq. Bizim qısa yollara ehtiyacımız var. Qısa yol varmı? Mütləq var. Hanı? Mən bilmirəm; gedin tapın.

Mövcud kəşflərin hamısı qısa yollardır. Baxın, bir zaman buxar enerjisi ilə hərəkət yox idi, digər enerjilərdən istifadə edirdilər. Amma bir nəfər buxar enerjisini kəşf etdi. Yəni təbiətdə buxar enerjisi əvvəldən vardı, amma sonradan birisi onu kəşf etdi. Bu bir qısa yol deməkdir.

Qısa yolları kəşf edin. Sizin gördüyünüz və bu gün həqiqətən dünyanın bütün işlərinin, yaxud onların böyük bir hissəsinin istifadə etdiyi elektrik enerjisi həmişə təbiətdə mövcud olmuşdur, sonradan yaranmamışdır. Bir nəfər gedib bu qısa yolu tapmış və ondan keçmişdir.

Çox gözəl, hələ çoxlu qısa yollar mövcuddur. Böyük alimlər açıq söyləyirlər ki, biz hələ təbiət aləminin, o cümlədən insan vücudunun çoxlu sirlərinə vaqif olmamış, çox şeyi kəşf etməmişik. Kim kəşf edə bilər? Düşünə bilən, alim olan, günün elmlərindən istifadə edən şəxs. Belə bir şəxs yeni yollar kəşf edə bilər. Siz həmin şəxs olun; iranlı gənc həmin şəxs olsun. O nə üçün özünü indiyədək bu yolu gedən şəxslərdən kiçik saymalıdır?![1]

**Sual:** Yeniliyə təmayülün insan xüsusiyyətlərindən biri sayıldığını və əsasən bəzək və geyim kimi məsələlərdə təzahür olunduğunu nəzərə alaraq, bunlara qarşı tədbir növü haqda fikrinizi bilmək istəyirik. Dövlət qurumları indiyədək hansı işləri görmüşlər? Bu işlər uğurlu olmuşdurmu, yoxsa yox?

**Cavab:** Sizə cavab olaraq indi deyə biləcəyim budur ki, gözəlliyə, gözəlləşməyə və gözəlliyi sevməyə təmayül fitri bir şeydir. Əlbəttə, bunun yeniliyə təmayül məsələsi ilə bir qədər fərqi ola bilər. Yeniliyə təmayül daha geniş bir məfhumdur, sizin dediyiniz bəzənmə, geyim və bu kimi məsələlər isə xırda məsələlərdir. İnsanın, xüsusən də gəncin gözəllikdən və gözəlləşmədən xoşu gəlir. Ürəyi istəyir ki, özü də gözəl olsun. Bunun eybi yoxdur. Bu təbii və zəruri bir haldır, İslamda da qadağan olunmamışdır. Qadağan olunan fitnə və fəsaddır.

Bu gözəllik və gözəlləşmə cəmiyyətdə süqutun və fəsadın yaranmasına - yəni əxlaqi pozğunluğa səbəb olmamalıdır. Necə? Yolları bəllidir; əgər qadın və kişi münasibətlərində qeyd-şərtsiz əlaqə və sərbəstlik olsa, fəsada bais olacaq; əgər ifratçı modabazlıq şəklinə düşsə, fəsadla nəticələnəcək; əgər bu gözəlləşmək - başla, görkəmlə, geyimlə və

---

[1] Yeniyetmə və gənclərlə görüşdəki çıxışdan: 1998.

bu kimi məsələlərlə maraqlanmaq həyatın əsas məşğuliyyəti olsa, azğınlıq və tənəzzül yaradacaq. Tağut dövründə zadəgan xanımları bəzənmə stolu arxasında otururdular. Sizcə bu neçə saat çəkirdi? Altı saat. Bu həqiqətdir. Bizim dəqiq xəbərimiz var ki, altı saat otururdular. Bir insan bəzənmək üçün bu qədər vaxt sərf edir. Misal üçün, toya getmək üçün saçını, yaxud üzünü filan formada düzəltmək istəyir. Əgər iş bu formaya düşsə, azğınlıq və tənəzzüldür. Lakin öz-özlüyündə özünü göstərmək və yadların qarşısında bəzənmək niyyəti ilə olmasa, başa, görkəmə və paltara diqqət yetirməyin eybi yoxdur.

İslamda "təbərrüc" qadağandır. "Təbərrüc" - cəlb etmək və fitnə yaratmaq üçün qadınların kişilər qarşısında özünü göstərməsi deməkdir. Bu bir növ fitnədir və çox eybi var. Eybi təkcə bu deyil ki, bu gənc qız, yaxud gənc oğlan günaha düşəcək. Bu əvvəli, bəlkə deyə bilərəm ki, ən kiçiyidir, davamı isə ailələrə çatır. Ümumiyyətlə qeyd-şərtsiz əlaqə ailənin təməli üçün həlakedici zəhərdir. Çünki ailə eşqlə yaşayır. Əgər bu eşq - gözəlliyə və qarşı cinsə eşq digər yüz yerdə təmin olunsa, ailənin möhkəmliyi üçün lazım olan güclü dayaq məhv olacaq, ailələr dağılacaq, bu gün təəssüf ki, Qərb ölkələrində, xüsusən də Şimali Avropa və Amerika ölkələrində mövcud olan vəziyyət yaranacaq.

Son zamanlar amerikalılar ciddi şəkildə bu problemlə üzləşmişlər. Orada ailələrin dağılması ciddi böhrana çevrilmişdir. Bu böhranın zərəri ilk növbədə qadınların özünə toxunur. Düzdür, kişilər də çox çətinlik çəkirlər, lakin daha çox qadınlara toxunur, sonra da dünyaya gələn nəslə. Dünyada və ABŞ-da mövcud olan indiki azğın nəsli görürsünüz? Bunların hamısı oradan başlayır. Yəni bu, dayanmadan belə problemlər doğuran bir tendensiyadır.

İslamda gözəllik məsələsinə böyük önəm verilmişdir. Çox eşitmişik ki, deyilir: "Allah gözəldir və gözəlliyi sevir". Bizim hədis kitablarımızda zahiri görkəmi gözəlləşdirmək haqda çoxlu rəvayətlər mövcuddur. Nikah kitablarında kişi və qadının özlərinə fikir vermələrinə dair geniş söhbətlər açılır. Bəzi adamlar elə bilirlər ki, misal üçün, kişilər saçlarını qırxdırmalıdırlar. Xeyr! Şəriətdə gənclər üçün saç

saxlamaq müstəhəb əməl sayılır. Hədisdə göstərilir ki, gözəl saç ilahi nemətlərdəndir, onun qiymətini bilin. Yaxud misal üçün, rəvayətdə deyilir ki, əziz Peyğəmbər (s) dostlarının yanına gedəndə su qabına baxır və zahiri görkəmini səliqəyə salırdı. O zaman indiki güzgülərdən yox idi, Mədinə əhalisi də yoxsul idi. Peyğəmbərin (s) bir su qabı vardı, insanların yanına gedəndə ondan güzgü kimi istifadə edirdi. Bu onu göstərir ki, səliqəli görkəm, yaxşı geyim və gözəlliyə meyl İslam şəriətində bəyənilmişdir. Lakin pis və zərərli olan bunun fitnə-fəsad və özünü göstərmək üçün vasitə olmasıdır. Qeyd etdiyim kimi, onun zərərləri ailəyə və sonrakı nəslə qədər davam edir.

Bu yaxınlarda Amerika jurnallarının birində bir yazı gördüm; öz qəzetlərimiz də onu işıqlandırmışdılar. Yazmışdılar ki, 10-12 yaşlı iki uşaq məktəbdə pusqu qurmuş və avtomatla bir qrup uşağa və müəllimə atəş açmışlar. Əvvəlcə həyəcan siqnalını işə salmış, uşaqlar toplaşandan sonra isə hamını atəşə tutmuşdular. Baxın, bir cəmiyyət üçün belə bir vəziyyət doğrudan da çox pis və acınacaqlıdır. Soyuqqanlı və laqeyd bir cinayət! Səbəb isə pis tərbiyədir! Bunların hamısı həmin cinsi sərbəstliyin davamıdır.[1]

**Sual:** Gənc həyəcana ehtiyac hissini özündə necə təmin edə və ondan yararlana bilər?

**Cavab:** Yaxşı sualdır. Sözsüz ki, həm də çətindir - yəni asan suallardan deyil. Baxın, həyəcan xüsusi sahələrə aiddir. Həyəcanın aşkar göründüyü yerlər var. Misal üçün, idman, xüsusən də idmanın futbol kimi bəzi növləri həyəcanlıdır. Futbolun xisləti belədir, voleybol və tennis oyunları ilə fərqlənir. Oyunun quruluşu elədir ki, onda mübarizə, həyəcan və bu kimi amillər çoxluq təşkil edir. İdman ümumi şəkildə həyəcanlı bir şeydir. Sənət işləri də həyəcanlıdır. Bunlar həyəcanı aşkar olan yerlərdir.

[1] Gənc həftəsi münasibətilə gənclərlə görüşdəki çıxışdan: 1998.

Həyəcan təkcə bu məsələlərə məxsus deyil. Gənc nə olursa-olsun, özünün maraq göstərdiyi sahəni tapa bilsə, o həyəcanı asanlıqla özündə təmin edə bilər. Misal üçün, gənc vaxtı, əynimdə ruhani libası olanda, libasın və mühitin yaratdığı məhdudiyyətlər zamanı bizim də həyəcanımız vardı və o həyəcan təmin olunurdu. Necə? Mən şeiri sevirdim. Buna inanmaq sizin üçün çox çətin ola bilər. Bir şeir məcilsi vardı. Şeiri sevən 4-5 dost iki saat, üç saat oturub şeir haqda danışır və şeir oxuyurduq. Maraq göstərən adam üçün bu işin həyəcanı bir futbolçunun futbol meydançasında oynaması, yaxud bir azarkeşin futbola tamaşa etməsi kimidir; bu da öz həyəcanını onlar qədər təmin edir. Odur ki, sahələr məhdud deyil.

Sizin dediyiniz mühəndislik tələbəsinə bir misal vurum. Siz deyirsiniz ki, o, dərs oxuyur, həyəcanı yoxdur. İnsan dərs deyəndə elə bilir ki, onun həyəcanı yoxdur. Düzdür, dərs sinfinin həyəcanı yoxdur, amma onun yanında universitetdə, yaxud bayırda yaxşı imkanlarla təchiz olunmuş bir təcrübə otağı olsa, - deyəsən indi qayda belədir ki, gənclər mühəndislik təhsilinin bir dövründə gedib zavodlarda praktika keçirlər - bu gənc nəzərdə tutduğu yaradıcılığını, düşündüyü fikrini orada yarada və həyata keçirə bilsə, onda həyəcanı az olacaq? Bunda həyəcan çoxdur.

Qardaşımıza deyirdim ki, tədqiqat işi görsün. Tədqiqat işi eşqlə, həvəslə görülməlidir. İnsanın məcbur edildiyi tədqiqat əlbəttə ki, quru, həyəcansız və faydasız bir şey olar. Lakin sevdiyiniz, maraq göstərdiyiniz, qəbul imtahanında iştirak etdiyiniz, universitetdə dərsini oxuduğunuz, yaxşı müəllimini də gördüyünüz bir fənn üzrə təchizatlı bir təcrübə otağı da olsa, fikir və yaradıcılığınızı orada həyata keçirə bilsəniz, çox yaxşı olar.

Demək istəyirəm ki, gənclərin həyəcanını necə təmin etmək məsələsinə bir sual və nigaranlıq kimi baxmamalıyıq. Xeyr! Əgər müxtəlif sahələrdə şərait olsa, gənc özü maraq göstərdiyi yerdə həyəcanını təmin edəcək.

Ölkə məmurları kimi bizim, eləcə də ölkəni sevən hər bir kəsin – istər dövlət məmurlarının, istər qeyrilərin və gənclərə məxsus sahələrin görməli olduğu iş gənclərin düzgün və sağlam fəaliyyətinə şərait yaratmaqdır. Məsələn, bir gənc ədəbiyyat həvəskarıdır, yaxud birinin iqtisadiyyata marağı var. Təbii ki, iqtisadiyyatın laboratoriyası yoxdur. Lakin birdən elan olunur ki, filan yerdə İranın, yaxud xarici bir ölkənin filan iqtisadçısının dərsi, yaxud seminarı var və çıxış edəcək. Bu uyğun sahəyə marağı olan gənc üçün çox mənalıdır. Bilet alıb tez getsin, özünü çatdırsın, müəllimdən soruşsun. Bunların hamısı həyəcanlıdır. Yəni Allahın yardımı ilə inqilabın əvvəlindən etibarən yüksələn templə gedən iş və fəaliyyət prosesi davam etsə və gənclərə şərait yaradılsa, onlar gəncliyin faydalarından bu həyəcanı təmin edə bilərlər. Düzdür, qəbul edirəm ki, mövcud problemlər səbəbindən bu sahə indiyədək 19 il qədərincə inkişaf etməmişdir. Bu 19 ilin 8 ili doğrudan da müharibə etmişik. İlk 2-3 ili məmurların məlumatsızlığı və təcrübəsizliyi olub. Bunlardan sonra yavaş-yavaş başlanıb.[1]

**Sual:** Dindarlıq və sivilizasiya gənclərin beynində bir-birindən ayrı olan iki mövzudur. Siz gənc olarkən bu haqda nə düşünürdünüz?

**Cavab:** Mən yeniyetmə çağımda - 13-14 yaşımda bu barədə nə düşündüyümü xatırlaya bilmirəm. Həqiqətən yadımda deyil və o zamandan dəqiq bir söz deyə bilmərəm. Mən burada sizə bir söz deyim:

İndi sizi maraqlandıran bu sual və fikirlər bizim dövrümüzdə sizin yaşda olanları əsla maraqlandırmırdı. Mümkün deyildi ki, bu yaşlarda olan bir nəfər elmi işlərdə sizin indiki vəziyyətinizdən öndə olsun. Bu tamamilə məqbuldur. Mən yeniyetmə olarkən, hövzəyə daxil olandan 2-3 il sonra dərsdə çox inkişaf etmiş, qısa zamanda çoxlu dərslər oxumuşdum, savadım yaxşı idi, amma günün mədəni və ictimai məsələlərinə dair təsəvvürüm eyni yaşda olan bugünkü gənclər qədər deyildi.

[1] Yenə orada.

Bunun səbəbi o zaman heç kimə düşünmə imkanı verməyən şəraitlə bağlı idi. Bəziləri çörək haqda düşünür, bəziləri öz problemləri ilə məşğul olur, bəziləri başqa məsələlərlə maraqlanırdılar. Şərait insana bu məsələlər haqda düşünmə fürsəti vermirdi. Buna görə o zaman dindarlığı sivilizasiya ilə uyğunlaşdırmaq üçün nə etdiyimizi deyə bilmərəm.

Yeri gəlmişkən deyim ki, sivilizasiya və dindarlığın bir-birinə zidd olması fikri çox köhnə və qədim sözlərdəndir. Bunu bilin. Bu, günün sözü deyil. Avropalılar Orta əsrlər kilsəsinin təhrif etdiyi məsihiliyin hakim olduğu zaman sivilizasiya əlamətləri ilə rastlaşdılar. Bəllidir ki, o dindarlıq sivilizasiya ilə ümumiyyətlə uyğun deyil. O dindarlığa görə Qaliley olan şəxs mütləq yandırılmalıdır. Kimsə yeni kəşf edirsə, mütləq məhv edilməli və kafir elan olunmalıdır.

Bir-biri ilə uyğunlaşmayan dindarlıq və sivilizasiya mövzusu o dövrə, həm də Avropaya məxsusdur. Avropalılar özlərinin bütün artıq və pis şeylərini qəsdən müstəmləkə altında olan ölkələrə ötürdükləri kimi, bu düşüncəni də çox hiyləgərliklə tədricən bizim cəmiyyətimizə ötürmüşlər. Cəmiyyət daxilində də bu düşüncələri yaymağı sevən şəxslər vardı. Bu, 40-50 il öncəyə aiddir. Bəzi yerlərdə indiyədək qalmışdır və bəzi şəxslər bu sözləri danışırlar. Əslində isə bu, günün sözü deyil.

Dindarlıq və sivilizasiya nə üçün bir-biri ilə ziddiyyət təşkil etməlidir?! Sivilizasiya elmi nizam-intizamla, inkişaflardan və yaxşı təcrübələrdən istifadə etməklə yaşamaqdır. Dindarlıq isə həyatda düzgün istiqamətə - ədalət, insaf, paklıq və sədaqət istiqamətlərinə malik olmaq, Allaha üz tutmaqdır. Bunlar bir-birinə ziddir?! İnsan bu istiqamətlərə malik olub o şəkildə yaşaya bilər. Bizim alim və mütəfəkkirlərimizin çoxu dindar olmuşlar. Avropanın indiki sivilizasiyasının əsasən sonrakı mərhələlərdə öncüllərinin çoxu da dindar olmuşlar.

İslam sivilizasiyası öz dövründə tarixin parlaq sivilizasiyalarından oldu. Onun əlamətləri bu gün də mövcuddur. Bu gün Allaha şükür

olsun ki, müsəlman xalqların çoxu, xüsusən də bizim xalqımız günün mədəniyyətinə malikdir, günün elmindən istifadə edir və onu öyrənməyə çalışır. Harada çalışırlarsa, böyük nailiyyətlər əldə edirlər; həm də dindardırlar və bunun ziddiyyəti yoxdur.[1]

**Sual:** Gənclərin məqsədində çaşqınlıq və bəzən həyata ümidsizlik olduğu halda, sizcə necə proqram hazırlayaq, nəyi məqsəd və meyarı seçək?

**Cavab:** Mən sizin kimləri nəzərdə tutduğunuzu bilmirəm. Yəqin ki, məqsədiniz gənc və yeniyetmə nəsil deyil. Çünki gənclərin çoxu belə deyil; bəziləri belədirlər, bəziləri isə yox. Mən əmin deyiləm ki, özünüz də belə olasınız. Bəlkə sizin də heç bir çaşqınlığınız yoxdur. Amma təbii ki, bəzi gənclər belədirlər.

Mənim əziz övladlarım! Baxın, həyatın məqsədi həyatın özünün fövqündə durmalıdır. Bir şeyi həyata məqsəd seçmək həyatı onun üçün vasitə bilmək deməkdir. Məgər belə deyil?! Yən insanın həyatı həmin məqsəd üçün vasitə və hazırlıqdır. Əgər var-dövlətli olmağı həyata məqsəd seçsək, insanın öz həyatını, onun dəyərli anlarını pul qazanmaq üçün sərf etməsinə dəyərmi?! Pulla nə etmək istəyir? Üç-dörd gün də pullu yaşasa, nə olasıdır?!

Yəni insan həyatının bir hissəsini xərcləyir ki, onsuz da yaşayacağı digər hissəni daha keyfiyyətlə başa vursun. Bu, çox ziyanlı bir bazarlıqdır. Həyatın məqsədi bunlardan çox üstün olmalıdır.

İnsanın dünyaya gəlməsinin, bir müddət yaşayıb dünyadan köçməsinin özü insanı yaradanın bu hərəkətdə və bu yerdəyişmədə məqsədli olduğunu göstərir. Biz elə etməliyik ki, həyat məqsədimiz yaradanın məqsədinə yaxınlaşsın, uyğunlaşsın. Ən doğru olan budur. İnsan həyatı elə qurmalıdır ki, bitəndə əldə etdiyinə sevinsin, ömrünün sonlarında, bu dünyadan köçməyə hazırlaşanda əliboş olduğunu hiss etməsin.

---

[1] Yeniyetmə və gənclərlə görüşdəki çıxışdan: 1998.

Siz hər hansı maddi məsələni məqsəd seçsəniz və həyatı ona sərf etsəniz, dünyadan köçəndə əlinizin boş olduğunu görəcəksiniz. Sizin bu maddi dünya həyatının fövqündə duran bir məqsədiniz olmalıdır. Bu, Allahın razılığı və axirət evinin abadlığıdır. Siz bunu əsas məqsəd seçməlisiniz ki, həyat bitəndə işinizi gördüyünüzü hiss edəsiniz.

Sanki bir təlim, təhsil, iş və ya idman kursu üçün bizi 10-20 günlük bir düşərgəyə aparırlar. Məlumdur ki, düşərgəyə getməkdə insanın məqsədi var. Bu on gün bitəndə insan nə isə əldə etməlidir. Əgər əldə olunan həmin on günə aid olsa, ziyan etmiş, yəni nəticədə heç bir şey əldə etməmiş olarıq.

Düşərgə misalı əslində qüsurlu misaldır, çünki ondan sonra sizin zehninizdə başqa bir mərhələ və həyat var, bu dünyadan köçdüyümüzdə isə daha heç bir şeyimiz olmayacaq, əlimizdə bu sərmayədən heç bir şey qalmayacaq. Öləndən sonra əlimizdə burada özümüz üçün hazırladıqlarımız olacaq. Məqsəd belə seçilməlidir.

Bəs bu məqsədi necə seçmək olar? Siz öz həyatınıza xalqa xidmətin də olduğu düzən versəniz və bu məqsəd təmin olunsa, həyatı bitirdiyinizdə böyük iş görmüş olduğunuzu və əlidolu getdiyinizi hiss edəcəksiniz. Nə üçün? Çünki ömrünüzü xalqa xidmətə həsr etmisiniz.

Məqsəd mədəniyyətə, ölkəyə, bəşəriyyətə xidmət və Allah-Taalanın razı olduğu hər hansı bir iş olduqda da belədir və həyatınız bitəndə getdiyiniz an əliniz doludur. Nə üçün? Çünki cavabdehlik daşıdığınız şəxsin istəyini həyatınız dövründə təmin etmisiniz və indi Onun sorğu-sualına doğru gedirsiniz. Siz Onun istədiyi işi görmüsünüz və əldə etdiklərinizi təqdim etmək istəyirsiniz.

Şəhidlik məqamının bu qədər yüksək və dəyərli olmasının səbəbi budur ki, şəhid əslində özünün bütün həyatını Ona verir, Allah-Taalanın insanı yaradarkən nəzərdə tutduğu məqsədə - yəni ədalətin bərqərar edilməsinə, insanlar üçün xoşbəxt həyatın təmin olunmasına, insanların Allaha yaxınlaşmasına və ilahi hökmlərin cəmiyyətdə həyata keçməsinə həsr edir. Məqsəd bunlardır və gözəl həyat budur.

İnsanın Allah yolunda şəhid olması o deməkdir ki, o bu yolda mübarizə aparmış, çalışmış və nəhayət canını əldən vermişdir. Bu yolda təbii ölümlə ölsə, yenə də çox dəyərlidir. Amma öldürülsə, yəni şəhid edilsə, təbii ki, daha dəyərli və uca olar. Onun məqamı buna görə yüksəkdir ki, bütün həyatını bu yola həsr etmişdir.

Belə düzən verməlisiniz. Siz baxın, əgər öz cəmiyyətinizə, ölkənizə düzən vermək istəyirsinizsə, görün cəmiyyətdə mövcud olan, yaxud gələcəkdə olması mümkün işlərin hansı biri cəmiyyəti və insanları uca ilahi və dini məqsədlərə yaxınlaşdıra bilər; hansıdırsa, onu da seçin.

Onu seçsəniz və sözsüz ki, yolunda çalışsanız, sizin bu məqsədiniz - yəni bu düzəniniz özünüz üçün də rahat həyat yarada bilər. "İlahi məqsəd seçək" sözü o demək deyil ki, ömür boyu ac yaşamalı və pis ömür sürməliyik. Xeyr! Tamamilə ilahi istiqamətə malik olub, eyni zamanda həyati ehtiyacları təmin etmək də olar.

Siz cəmiyyətdə xalqın xeyrinə olan hansı peşəni seçsəniz, şübhəsiz, gəliri də olacaq, münasib həyat tərzini də təmin edəcək. Amma siz ilahi əmrə əməl etməniz üçün cəmiyyətə xidmət etməyi seçsəniz, özünüzü o məqsədə yaxınlaşdırmış olacaqsınız.[1]

**Sual:** Sizcə dəyərləri qorumaq və bugünkü gənclərdə müharibə dövrünün mənəvi ab-havasını yaratmaq üçün nə etmək olar?

**Cavab:** İmam Xomeyni 81, yaxud 82-ci ildə Bostanın fəthi zamanı etdiyi müraciətində "ən böyük zəfər" ifadəsini işlətdi. Bəzi şəxslər elə bildilər ki, ən böyük zəfər Bostan uğrunda döyüşdür, amma imam bunu nəzərdə tutmurdu. İmam deyirdi ki, ən böyük zəfər belə ayıq canları fəth etmək, belə insanlar yetişdirməkdir. Doğrudan da İslam Respublikasının ən böyük qələbəsi gəncləri ruhi əzəmət və yüksəlişin belə zirvəsinə çatdırmaq idi. Onlar özlərinə güvənib möhkəm dayandılar, dünyanın güclü və yekdil hücumu qarşısında öz ölkələrini,

---

[1] Yenə orada.

varlıqlarını və İslamı müdafiə edə bildilər. Onun bir nümunəsi məcburi müharibə idi. Biz indi də dünyanın hücumuna məruz qalırıq.

Mən meydana yeni qoşulmuş və hər yerdən bixəbər olan - ən yaxşı halda bixəbər, pis halda isə qərəzlidirlər - bəzi mətbu orqanlarını, qəzetləri və insanları görürəm. Onlar elə bilirlər ki, ölkəni inqilabdan öncəki pozğunluğa qaytarmaq bir hünərdir. Onlar buna çalışırlar. Nə qədər nadanlıq, nə qədər təəssüflüdür! Bizim gənclərimiz gənclik dövründə özlərini ölkənin tutulduğu keylikdən xilas edə bildilər; hərəkət edib İranı qurtardılar. İran əldən çıxmışdı, biz itmiş, əl-ayaq altda əzilmişdik. Qərbin sözün həqiqi mənasında iqtisadi və siyasi istismarçılığa, müstəmləkəçiliyə giriş olan mədəni çirkab seli bizi həqiqətən məhv etmişdi. İnqilabın və İslamın qüdrətli əli həmin gənclərin vasitəsi ilə ölkəni xilas etdi. Bəzi qüvvələr bu fəxrli dövrü unutdurmaq, xalqı qabaqkı keyliyə qaytarmaq istəyirlər. Bunu kim istəyir? Bunu ölkənin və xalqın düşmənləri istəyirlər.

Zənnimcə, bunu bəlkə də bir çıxışımda demişəm: Bu yaxınlarda, bayramdan öncə Amerika jurnallarının birində məşhur bir amerikalı yazar tərəfindən baş məqalə yazılmışdı. Xülasəsi bu idi ki, İran kimi - əlbəttə, o pis ifadə işlətmişdi, misal üçün, qanuna məhəl qoymayan - ölkələrlə mübarizə aparmaq üçün hərbi və iqtisadi yollardan istifadə edə bilmərik. Bunlar sınanmış və iflasa uğramış yollardır. Biz mədəni yollardan istifadə etməliyik. O, açıq-aşkar hansı işlərin görülməli olduğunu da yazır. Həmin səhifənin ortasında tam çılpaq bir qadın şəkli vurub deyir ki, onlara qalib gəlmək üçün bunları yaymalıyıq. Doğru da deyir. Yolu budur. Təəssüf ki, bəzi şəxslər ölkədə nə iş gördüklərini anlamırlar. Əlbəttə, Allahın gücü və qüvvəsi ilə qoymayacağıq və bacarmayacaqlar. Biz onların bu ölkəyə və bu inqilaba xəyanət edib onu bitirmələrinə icazə verməri k. Lakin başlarında bu həvəs var. Xalqı ölkənin ozamankı bədbəxt və fəlakətli vəziyyətinə qaytarmaq istəyirlər.

Mənim fikrimcə, bizim gənclərimiz bu gün də dindar, mömin və pakdırlar. Siz bizim universitetlərimizə, laboratoriyalarımıza, ölkənin şəraitinə baxın. Siz görün inqilabın qələbəsinin ildönümündə, yaxud

Qüds günündə yürüşdə sel kimi küçələrə axışan bu əhalinin əksəriyyəti kimlərdir. Onların əksəriyyəti gənclərdən ibarətdir. Həmin ilahi ruh, ilahi duyğu və coşqu hələ də ölkədə var və təsirlidir. Bu hisslər ölkəni yenə də qurtuluş sahilinə çatdıracaq.

İndinin özündə, şübhəsiz ki, bizim iqtisadi və digər problemlərimiz var. Bunlar bir gün bitəcək. Lakin bu problemləri bitirəcək amil mənəvi hisslərdən, İslama və inqilaba üz tutmaqdan başqa bir şey olmayacaq. Yenə də ölkəni həmin gənc qız və oğlanlar xilas edəcəklər. Mən dəfələrlə demişəm ki, gənc nəsil çətin dövrlərin və böyük problemlərin açarıdır. Meydana atıldıqda - Allaha şükür olsun ki, bu gün də meydandadır - xırda və çətin düyünlər açılacaq. Bizim gənclərimiz mömin və dindardırlar, ölkələrini və İslamı sevirlər, Amerikanın və əcnəbinin hökmranlığına qarşıdırlar. Bunun özü işini görəcək. Apardıqları təxribatlar və hazırladıqları hiylələr inşallah heç bir təsir bağışlamayacaq. Allah da kömək edəcək. Həzrət Bəqiyyətullah – yəni İmam Mehdi (ə) də inşallah bu yolun, bu işin və bu gənclərin dayağı olacaq.

Sonda bir məqamı da xatırlatmaq istəyirəm. Gənclərin gördüyü işlər kiçik işlər deyil. Mənim dediyim bu işlər - dərs oxumaq, tədqiqat aparmaq, incəsənət və idmanla məşğul olmaq kiçik işlər deyil. Mən xahiş edirəm bu işləri görən şəxs onların kiçik olduğunu düşünməsin. Xeyr! Bu iş ölkə miqyasında təyinedici bir amilə çevrilir. Fərz edin bir sənətkar təklikdə dəyərli bir sənət işi yaratmaq qərarına gəlir. O deyə bilməz ki, mən fərdi bir iş görürəm, özüm tənhayam və bu iş kiçikdir. Xeyr! Siz işinizi yaxşı görsəniz, başqa yüz nəfər də sizin kimi fikirləşsə, həmin möhtəşəm inkişaf və böyük iş baş tutar. İdman məsələsində də eynilə belədir, dərs oxumaqda, tədqiqatda da. Gənclərin xüsusi işlərində də belədir. Bu eynilə yürüş günü kimidir. Əgər hamı "bir nəfər nəyi dəyişdirər ki?" – deyib yürüşə çıxmasa, o zaman İslam inqilabının qələbəsi günündə, yaxud cümə namazında belə milyonluq izdiham əmələ gəlməz. Lakin bizdə hər kəs öz vəzifəsini yerinə yetirməyə çalışır. Mən təkid və təkrar etmək istəyirəm ki, bu gənclərin - Quran,

məlumatlar, maarifçilik sahəsində çalışanların, hövzədə, universitetdə işləyənlərin, kitab yazanların, hər hansı sahədə çalışanların hər birinin işi mühüm və ölkəni ucaldacaq işdir.[1]

**Sual:** Yeniyetmənin bu ölkənin indiki durumu, mədəniyyəti, iqtisadiyyatı və siyasəti üçün hansı addımı atmasını gözləyirsiniz?

**Cavab:** Mən qeyd etdiyim kimi, yeniyetmələrin gələcəkdən çox indiki vəziyyətlə maraqlanmasını gözləyirəm. Siz indi ömrün qızıl çağını yaşayırsınız. Bu dövr – yəni 10-11 yaşlardan 22-23 yaşlara qədər həqiqətən qızıl dövrdür; öyrənmək, beyni və düşüncəni gələcəyə hazırlamaq dövrüdür; xüsusən də ölkəmizdə günün imkanlarının mövcud olduğu bir gündə.

Mən qorxuram ki, uşaqlar sabah nəçi olmaları haqda çox fikirləşib artıq, qeyri-real və daha çox mövhumatçılıq və xəyalpərəstlik gətirən təxəyyüllərə qapılsınlar, nəticədə indiki vəziyyətlərindən də olsunlar.

Mənim tövsiyəm budur ki, uşaqlar öz istedadlarından və zamanlarından istifadə etsinlər, yaxşı dərs oxusunlar. Bizə bu gün lazım olan ən böyük iş uşaqların ciddi dərs oxumasıdır.

Bizim orta məktəblərimizin proqramları çox da ağır deyil. Amma bəzi gənclərimiz çox vaxt gileylənirlər ki, dərs bizi yorur və dərs oxuya bilmirik. Məndə olan məlumatlara görə bu gün elm, sənaye və texnologiya baxımından bizdən irəlidə olan bir çox ölkələrdə orta məktəb dərsləri bizim məktəblərimizin dərslərindən olduqca çoxdur; həm həcmi çoxdur, həm də çətindir.

Gəncin beyni güclü, məlumat yükünü çəkmək bacarığı olduqca çoxdur. Onlara çoxlu mətnlər əzbərlətdirirlər. Bizim dərslərimiz isə həcm və məzmun baxımından çox da ağır olmasa da, bəzi gənclərimiz əlavə mütaliələr etməyə vaxt ayırmırlar. Halbuki məncə gənc həm dərs oxuya, həm də mütaliə və idman edə bilər.

---

[1] Gənc həftəsi münasibətilə gənclərlə görüşdəki çıxışdan: 1998.

Vaxtınızı ciddi işlərə sərf edin. Bunların hamısı ciddidir; idman və oyun da ciddidir. Gənc üçün belədir. Düzdür, bəzi işlər ciddi deyil. Bəzən insan ümumilikdə saatlarla oturub televiziya reklamlarına tamaşa edir. Misal üçün, bir filmdən qabaq iyirmi dəqiqə reklam verirlər. Bu iyirmi dəqiqələr yığışıb çox olur.

Mən vaxtı belə keçirməklə razı deyiləm. Bunlar ümumilikdə bizdən saatlarla vaxt ala bilər. Bəzi işlər artıq işlərdir. Dərs oxumaq, mütaliə və idman etmək isə lazımlı işlərdir. Gənclər bu yaşlarda bunların hamısından istifadə edib özlərini gələcəyə hazırlaya bilərlər.

Siz görün sizdə hansı istedad özünü göstərir. Bəzi şəxslər oturub insanların istedadlarını kəşf etməlidirlər. Həqiqət budur ki, gəncin və yeniyetmənin daxilində olan istedad hər hansı bir formada özünü göstərir. İstedadlı bir insanın 18, 19 və 20 yaşlarına qədər hansı işə və hansı sahəyə daha həvəsli, meylli və bacarıqlı olduğunu hiss etməməsi bəlkə də imkansızdır. İstedadınızın hansı sahədə uğurlu olduğunu anladıqda - ya özünüz kəşf etdiyinizdə, ya da müəllim, yaxud ata-ana dedikdə nə olursa-olsun, həmin sahəyə üz tutun; deməyin ki, kiçik, yaxud azdır.

Bizim ölkəmizin hər şeyə ehtiyacı var. Ölkənin prezidentə, sənətkara, nazirə, həkimə ehtiyacı var. Hər bir ölkənin hər cür insana ehityacı var. Biz bir peşəyə yiyələndikdə həyatımızın yaxşı olacağını və sonra həyatın məqsədlərinə daha asanlıqla çatacağımızı düşünə bilmərik. Xeyr! Belə deyil. Bəzən insanın həyatı düşünmədiyi yerdə həm daha yaxşı keçir, həm də həyatın Allahın razılığını qazanmaqdan ibarət olan uca məqsədlərinə yaxınlaşır və öz həyatından daha düzgün bəhrə götürə bilir.

Deyilənlərə əsasən, mənim əziz gənc və yeniyetmələrə tövsiyəm budur ki, vaxtdan və indiki zamandan maksimum istifadə edin. Bu da proqramsız mümkün deyil. Gərək oturub öz beyinləri ilə proqram hazırlasınlar. Proqramın ümumi bir forması yoxdur ki, mən deyim hamı belə proqram hazırlamalıdır. Xeyr! Hər kəs öz yaşına, ailə vəziyyətinə, imkanlarına, yaşadığı şəhərin və ailənin vəziyyətinə görə bir cür

proqram hazırlaya və bir cür imkana malik ola bilər. Hamı proqramla öz zamanından maksimum istifadə etsin.[1]

**Sual:** Bu günlərdə təxminən bütün qrup və şəxsiyyətlər gənc nəslə müraciətlər edirlər. Bu müraciətlərdə məqsəd gənclərin maraq və xoşbəxtliyindən daha çox bəlkə də qrup maraqlarıdır. Siz gənclərlə səmimi, xeyirxah və yönəldici əlaqəsi olan bir insan kimi gənclərdən nə gözləyirsiniz?

**Cavab:** İndi həmin qanlı günlərdən on bir il ötür. İran xalqının gənc nəslinin özündən qabaqkı qara günləri unutmağa haqqı yoxdur. İran xalqının möhtəşəm hərəkətində gənc nəsil öncül olmalıdır. Gənc nəsil, xüsusən də gənc tələbə nəsli üçün laqeydlik və soyuqqanlılıq yolverilməzdir. Ölkənin taleyini düşünməyən, dünyada ölkəsi əleyhinə koordinasiya edilən hadisə və düşmənlikləri görməyən, onlara qarşı etiraz fəryadını ucaltmayan bir gənc özünə inqilabçı bir xalqın gənc vətəndaşı adını qoymağa layiq deyil. Gəncin ruhu çətin dönəmlərdə ölkənin və xalqın dadına çatan, onları xilas edən aktiv ruhdur.

Bugünkü nəslin gənci Rza xanın və Məhəmmədrza şahın repressiv dövründə yaşamadığı üçün bəxtəvərdir. Ozamankı gənclərin çəkdiyi çətinliklər heç zaman bugünkü gənclərin yadından çıxmamalıdır. Əlbəttə, bu fədakarlıq təkcə bizim millətə məxsus deyil. Digər xalqların gənc və yeniyetmələri də ölkələrinin işğalı, yaxud xalqlarına hakim olan qapalı və qorxunc dövrdə fədakarlıq etmişlər.

Bu gün siz gənclərin vəzifəsi budur ki, inqilabı bütün vücudunuza, ruhunuzun dərinliklərinə apara, inqilab anlayışını və onun düşüncə təməllərini dərindən dərk edə, bu xalqın ehtiyaclı olduğu və iki cəbhədə mübarizə apardığı vaxt üçün özünüzdə saxlayasınız. Birinci cəbhə inqilabı iqtisadi, hərbi və ya siyasi baxımdan təhdid edən cəbhədir. Siz o ehtiyatı inqilabı və ölkəmizi zamanın tələblərinə uyğun şəkildə qorumaq üçün işlətməlisiniz. İkinci cəbhə quruculuq cəbhəsidir. Ən yaxşı

[1] Yeniyetmə və gənclərlə görüşdəki çıxışdan: 1998.

qurucular inqilabçı qurucilardır. İnqilab bağının ən yaxşı bağbanları inqilabdan baş qaldıran və ruhlarına inqilabın hopduğu şəxslərdir. Siz gənclər özünüzü hər an bu iki cəbhəyə hazırlamalısınız.

Mən bütün qrupları tanıyan, pərdə arxasında cərəyan edən beynəlxalq proseslərdən, düşmən hiylələrindən xəbərdar olan və inqilabın əvvəlindən onlarla işləyən bir insan kimi deyirəm: Əziz gənclər! Düşmən sizin üzərinizdə böyük sərmayə qoymuşdur. Diqqətinizi toplayın. Onlar bir qrupu laqeydliyə çağırır, bir qrupu ümidsiz və məyus edirlər. Ümidsizlik gəncin ən böyük bəlasıdır. Gənclər məyusluğun gənc ruhuna təəssüf ki, daha tez yol tapdığını bilsinlər. Ümid də belədir. Düşmənin gənclərə təlqin etmək və sırımaq istədiyi ümidsizlik qarşısında özünüzdə müqavimət yaradın.

Düşmən paklıq və səmimiyyət tərənnümü olan gənci fəsada, müxtəlif natəmizliklərə və napaklıqlara çəkmək, eləcə də yanlış siyasi təfəkkürlər aşılamaqla onların bir qismini doğru yoldan yayındırmaq istəyir. İnqilabın əvvəllərində bu ölkədə bir qrup gənc əllərinə silah götürüb Şərqin və Qərbin mübarizə apardığı inqilabçı dövlətlə vuruşmağa başladılar. Düşmən bu yazıq uşaqların beyninə yanlış siyasi fikir yeritmişdi. 1979-1980-ci illərdə tələbələr Tehran Universitetində barrikada qurub, silah götürüb inqilabçı dövlətə və xalqa atəş açırdı. Bu iş hansı meyarla başadüşülən və inanılasıdır?! İnqilabın düşmənləri qarşısında sinəsini sipər etməli və həyatı bahasına olsa belə, bu inqilabı qorumalı olan bir tələbənin özü inqilabın bəlasına çevrildi. Bu əsla inanılası deyil, lakin baş verdi.

İnqilab ona qarşı çıxmaq istəyən heç bir amilə dözməyən coşqun dalğadır. İnqilab onları və onlardan böyüyünü də yuyub apardı. Bəzi qüvvələr inqilabla razılaşıb birtəhər özlərini qurtara bildilər, bəzi qüvvələr isə bu təlatümlü okeanda batıb məhv oldular. Və heç şübhəsiz, mənəvi məhvləri fiziki məhvlərindən daha təhlükəlidir.

Bu gün gənci inqilabın məsul şəxslərindən, öncüllərindən və ölkənin rəhbərlərindən ayrı olduğunu duymağa sövq edən hər bir fikir düşünülmüş şəkildə təlqin edilən yanlış siyasi təfəkkürlərdəndir. Bu

gün xalq və iqtidar əl-ələ verib bir-birinin yanında dayanmalı, bütün gücləri ilə müstəmləkəçiliyin və hegemonluğun bütün tilsimlərini qırmağa və məhv etməyə çalışmalıdırlar. Bu çox əhəmiyyətli və həssas bir məsələdir. Sizi hidayət edəcək və etməli olan təfəkkür İslam təfəkkürüdür. Siz universitetlərdə İslam təfəkkürlərinə və İslam işinə çox əhəmiyyətli yanaşmalısınız.[1]

[1] Vilayət hədisi, c. 2, səh: 305-307.

## Beşinci fəsil: Ziyalılıq cərəyanı, universitet və tələbələr, tələbələrin xüsusiyyətləri, tələbə hərəkatları və universitetlərdə baş verən son hadisələr

**Sual:** Ziyalılar, onların İran tarixində, xüsusən də Məşrutə hərəkatından sonrakı rolu haqda çoxlu sözlər deyilmişdir. Siz də bu barədə danışmış və İranda ziyalılıq cərəyanının əvvəldən xəstə doğulduğunu söyləmisiniz. Ölkəmizin tarixinin bu hissəsini və məşhur ziyalılarımızda xəstəliyin səbəb və nümunələrini sizdən eşitmək istərdik.

**Cavab:** Mən bilmirəm sizin müasir tarixdən nə qədər məlumatınız var, onu nə qədər oxumusunuz. Yaxşı olar ki, boş vaxtınız olan yay fəslində proqramlı şəkildə bir qədər müasir tarixi, o cümlədən tənbəki məsələsini mütaliə edəsiniz. Bu mövzuda kitablar da yazılıb, onları oxuya bilərsiniz. Sözsüz ki, qərəzsiz şəkildə yazılmız kitabları deyirəm. Çünki ortada din və ruhaniliyin adının olduğuna və bəzi yazıçılar dinlə düşmən olduqlarına görə belə böyük bir uğuru etiraf və bəyan etmək istəməmişlər.

Başqa bir cəhətdən, Mirzə Fətəli Axundzadə də Mirzə Mülküm xana oxşayır. Axundzadə Xamenedəndir. Mən qədim xamenelilərdən və bəzi qohumlarımdan onun haqqında eşitmişəm. O, Oktyabr inqilabından əvvəl Qafqaza getdi, Rusiya çarlarının süfrəsində oturdu, onların köməyi ilə və onların sayəsində İran istibdadı əleyhinə mübarizə apardığını xəyal etdi. Bu mübarizə etimadlı və məqbul mübarizə deyildi. Bunların məqsəd seçdiyi birinci məsələ avtoritorizmə qarşı siyasi mübarizə yox, xalqın dininə, etiqadlarına və yerli prinsipial ənənələrə qarşı çıxmaq idi. Mən bu barədə sonra danışacağam.

Hacı Səyyah üçüncü nümunədir. O öz həyatını qələmə alıb. Bu kitabı oxuyan adam orada azad və böyük ruhanilərə qarşı sifarişli qərəzliliyin olmasına şübhə etməz. Müəllif orada ruhanilərin adını

çəkməməyə və onlarla bağlı olan hadisələrin üstündən keçməyə səy göstərib. İranda ziyalılıq belə doğuldu.

İranda ziyalılığın sonrakı təbəqələri də etimadlı insanlar deyildilər, daha çox şahzadələr, zadəgan övladları idilər. Abdullah Müstövfinin özünün yazdığı üçcildlik tərcümeyi-halına baxın. Onun özü də həmin ziyalılardan, həm də Qacar sarayının zadəgan övladlarındandır. Əlbəttə, o, ortabab şəxsiyyətdir, mənfi olduğu nəzərə çarpmır. Siz o kitaba baxsanız, ilk ziyalılıq mesajlarının sahiblərinin kimlər olduğunu bilərsiniz. Qacarlar dövrü belə keçdi. İranın bütün ziyalıları arasında vətənpərvər, qərəzsiz və xeyirxah ziyalılar az idi.

Sonra Rza xanın dövrü başladı. Bu dövrdə ölkənin universitet müəllimlərdən, yazıçılardan və aydın mütəfəkkirlərdən olan birinci dərəcəli ziyalıları Rza xana çalışırdılar. Rza xan mədəniyyət və elmdən çox-çox uzaq olduğundan, onların Rza xanı müdafiə etməsini heç nə ilə izah etmək olmur. Rza xan nə savadlı idi, nə mədəniyyətli idi, nə də millətçi. Hamı onun ingilislərin siyasətini icra etdiyini bilirdi. Ziyalıların özləri görürdülər ki, Rza xanı ingilislər hakimiyyətə gətirdilər, şah kimi gücləndirdilər və maneələrini aradan qaldırıb yolunu açdılar. O zaman ziyalılar Rza xan xuntasının ideoloqları idilər; görmək istədiyi hər bir işin ideoloji və düşüncə təməllərini hazırlayır, hüquqi əsas yaradırdılar.

Mən vəzifəli şəxs kimi yox, bir ruhani, hövzə tələbəsi, təqribən bütün gəncliyini dövrünün ziyalıları arasında keçirən və İran ziyalılarının tanınmış simalarının çoxu ilə ya yaxından, yaxud əsərləri vasitəsi ilə tanış olan, şair, yazıçı və ya mədəniyyət xadimi olan bu insanları yaxından və yaxşı tanıyan bir tələbə kimi sizinlə danışmaq istəyirəm. Mən istəyirəm bu dövrün cavanları olan sizlər bir qədər ölkənizin mədəni mühiti ilə tanış olasınız. Siz də ziyalı təbəqənin nümayəndələri sayılırsınız. Görün yolun harasındasınız? Əvvəl nə olmusunuz? İndiyədək nə baş verib və nə baş verə bilər? Sizin bunlara diqqət yetirmənizi istəyirəm.

Rza xan gedəndən və qəribə hökumət təşkil olunandan sonra ozamankı ziyalıların bir qismi kommunist partiyasına qoşuldular.

Sovetə bağlı olsalar da, onlar ən sədaqətli ziyalılardan idilər. O zaman onların özləri də Sovetə bağlı olduqlarını qəbul və bəzən etiraf edirdilər. Onları Sovet yaratmışdı və dəstəkləyirdi. Onlar İranda SSRİ-nin beşinci kolonu funksiyasını yerinə yetirirdilər.

Siz bu Kiyanvərinin və İslam Respublikası dövründə tutulan başqa kommunist rəhbərlərin xatirələrinə baxın. Onların xatirəsi çap olunub. Onlar 50-60 il bundan qabaqkı hadisələri yazıblar. Onlar bəlkə də bütün həqiqətləri yazmayıblar, amma sözlərinin məcmusundan o zaman Kommunist partiyasının necə olduğunu başa düşmək olar. Buna baxmayaraq, ən sədaqətli və ən səmimi ziyalıların orada toplaşmışdılar. Onların biri Cəlal Ali-Əhmədin özü idi. Mən burada onun bəzi sözlərini söyləyəcəyəm. Mərhum Cəlal Ali-Əhməd Kommunist partiyasında idi. Xəlil Məliki və digərləri də əvvəl bu partiyada olmuşdular.

Mənim yadımda deyil ki, bu sözü onun özündən eşitmişəm, yoxsa bir dostum danışıb. Cəlal Ali-Əhməd 1968-ci ildə Məşhədə gəlmişdi. O mərhumla iştirak etdiyimiz bir məclisdə bu sözlərdən çox danışıldı. Buna görə güman edirəm ki, özündən eşitmişəm, yaxud ola bilər kimsə eşidib və mənə danışıb. O deyirdi ki, biz Kommunist partiyasının otaqlarında daim bir otaqdan o birinə keçirdik. Məqsədi bu idi ki, partiyada müəyyən mərhələləri keçirdik. Deyir nəhayət divarın arxasından səs gələn bir yerə çatdıq. Dedik ora haradır? Dedilər bura Moskvadır. Dedik ki, onda biz yoxuq və qayıtdıq. Yəni partiyanın xaricə bağlı olduğunu duyan kimi kənara çəkilib, ondan xaric oldular. O, Xəlil Məliki və başqaları ilə birgə üçüncü qüvvəni yaratdı. Səmimilər orada idilər. Bu dövr təqribən Doktor Müsəddiqin dövrünə və 1953-cü ilin 19 avqustuna qədər davam etdi.

19 Avqustdan sonra zalım rejimə etiraz məsələsində ziyalılar arasında çox dərin sükut yarandı. Qırxıncı illərdə hakimiyyətin qəzəbinə gələnlərin çoxu əllinci illərdə onun itaətkar əməkdaşlarına çevrildilər. Ali-Əhməd "Ziyalıların xidməti və xəyanəti" kitabında əllinci illərin ziyalılarından danışır. O bu kitabı 1964-cü ildə yazmağa başlayıb, 1968-ci ildə bitirmişdir. 1968-ci ildə Ali-Əhməd Məşhədə gələndə biz onunla

görüşdük. O, söhbət əsnasında dedi ki, uzun müddətdir bir işə başlamışam. Sonra bildik ki, 1964-cü ildən bu kitabı yazmağa başlayıbmış. O, bəzi məsələlərə dair bizdən məlumat istəyirdi; elə bilirdi bizim xəbərimiz var. Bundan bildik ki, belə bir kitab yazır. Bu kitab onun ölümündən sonra çap edildi, keçmiş rejim tərəfindən çapına icazə veriləsi bir kitab deyildi; qəti qadağan olunan kitablardan sayılırdı və yayılması imkansız idi.

Əlbəttə, burada Ali-Əhməd çox yaxşı mövqe seçir. Lakin yenə də görürsünüz ki, dinə etiqad bəsləyən, iranlı və yerli ənənələri sevən, onlara sadiq qalan, fars dilini və ədəbiyyatını sevən, Qərbə yad və qərbpərəstliyə düşmən olan bu adam bəzi məsələlərdə Qərb ziyalıları kimi düşünür, fikirləşir, danışır və mühakimə yürüdür. Mən ziyalılığın İranda xəstə doğulduğunu deyəndə bunu nəzərdə tuturam.

Görək bu xəstəlik nə idi və harada özünü göstərirdi. Bunu sizə Ali-Əhmədin dilindən deyirəm. Ali-Əhməd ziyalılığın xüsusiyyətləri haqda deyir ki, bir qisim xüsusiyyətlər ziyalının avamcasına xüsusiyyətləridir. O deyir "avamcasına" sözünün mənası bu deyil ki, adi insanlar ziyalını belə təsəvvür edirlər. Xeyr! Hətta ziyalının özü də bəzən belə düşünür. Bunlar üç xüsusiyyətdən ibarətdir:

1. Din və məzhəbə müxaliflik - yəni ziyalı gərək dinə qarşı çıxsın;
2. Qərb ənənələrinə və Avropaya rəğbət;
3. Təhsil.

Bu, ziyalılığa dair avam təsəvvürlərdir. Ziyalının xüsusiyyətləri budur. Yəni dindar bir şəxs dövrün əllaməsi, ən böyük filosof, yaxud incəsənət xadimi olsa da, ziyalı sayıla bilməz. Sonra deyir ki, avam təfəkkürün məhsulu olan bu xüsusiyyətlər əslində alim və ziyalı dili ilə deyilməsi mümkün olan iki xüsusiyyətin sadələşdirilmiş formasıdır. Bu iki xüsusiyyətin biri yerli mədəniyyət və ənənələrə etinasızlıq prinsipidir - bu daha avam söhbəti deyil, qətidir; digəri isə elmi dünyagörüşə, elmi əlaqəyə və qəza və qədərin yalanlığına etiqaddır. O buna misallar da vurur.

Onlar ziyalılığı Qərbdən öyrənmişdilər. Lakin Qərbdə olan ziyalılıqda belə bir xətt və istiqamət yoxdur. Axı nə üçün bir ziyalı mütləq yerli ənənələrinə etinasız yanaşmalıdır? Səbəb nədir? Ziyalı düşüncə fəaliyyəti ilə məşğul olan adamdır, daha çox beyni ilə işləyir. Ziyalı əzələlərindən daha çox sinirləri ilə fəaliyyət göstərir. Ziyalı budur. Ali-Əhməd kitabının sonrakı fəsillərində müxtəlif ziyalı təbəqələrini - şairdən, yazıçıdan, mütəfəkkirdən başlayaraq universitet müəlliminə, tələbəyə, orta məktəb müəlliminə və jurnalistə qədər hamısını sayır. Onların sonuncusu müxbir və jurnalistlərdir.

Öz beyni ilə, təfəkkürü ilə işləyən adam nə üçün mütləq öz tarixinə, vətəninin və ölkəsinin ənənələrinə yad və hətta düşmən olmalı, dinə qarşı çıxmalıdır? Bu sualın cavabını o mərhumun öz sözlərində, yaxud bu barədə deyilmiş digər sözlərdə tapmaq olar. Səbəb budur ki, ziyalılıq – yəni intellektuallıq məsələsinin ilk dəfə Fransada yarandığı dövr Fransa və Avropa xalqının Orta əsrlər dövründən çıxdığı zaman idi. Onlar qara, kobud və xurafatçı kilsə məsihiliyini kənara qoyub, rədd etmişdilər. Bu məsihilik alimi öldürür, ixtiraçını və kəşf edəni sürgünə yollayır, özünü və kitabını məhv edirdi. Belə bir şəraitdə aydın insanların meydana çıxıb bu xüsusiyyətlərə malik olan və heç bir ağıllı adamın qəbul etmədiyi söz və xurafatlarla dolu bir dini kənara qoyması, yeni işlərə başlaması, Fransanın yeni ensiklopediyasını yazması və digər böyük işlər görməsi təbii idi. Və təbii ki, bu insanlar həmin dinə arxa çevirməli idilər. Təqlidçi İran ziyalısı da Qacarlar dövründə ilk dəfə intellektuallığı ölkəyə daxil edib ona "münəvvirülfikr" adnı qoydu, sonra isə eyni antidin xüsusiyyətli ziyalıya çevrilib, İslama qarşı çıxdı: ən məntiqli təfəkkürlərə, ən aydın təlimlərə, ən möhkəm dəlillərə və ən təmiz əxlaqi dəyərlərə söykənən, o zaman İranda, ziyalılığın Qərbdə görmək istədiyi işi görən İslama. Çünki müstəmləkə dövrünün bir dönəmində qərbli ziyalılar Qərbin istismarına məruz qalmış bölgələrin xalqlarını himayə etdilər. Məsələn, İspaniya Kubanı müstəmləkəyə çevirib onun şəkər sərvətini ələ keçirəndə, fransalı Jan Pol Sartr Kuba xalqını, Fransa müstəmləkəsi əleyhinə mübarizə aparan Fidel Kastronu

və Çe Gevaranı müdafiə edib, “Kubada şəkər müharibəsi” adlı kitab yazırdı.

Başqa sözlə desək, Qərb ziyalıları müəyyən bir zaman kəsiyində zəif xalqların mənafeyindən ötrü öz dövlət və hökumətləri ilə mübarizə aparırdılar. İranda bu iş kimin tərəfindən görülürdü? Mirzə Şirazinin, Tehranda Mirzə Aştiyaninin, Fars vilayətində Seyid Əbdülhüseyn Larinin. Bunlar müstəmləkəyə qarşı mübarizə aparırdılar. Bəs müstəmləkə müqaviləsinin bağlanmasına və müstəmləkəçilərin müdaxiləsinə kim kömək göstərirdi? Mirzə Mülküm xan və onun kimilər, həmçinin Qacarların ziyalı sayılan kadrları. Yerlər tamamilə dəyişmiş və eyni zamanda xurafatçı məsihiliklə mübarizə İran ziyalılarında öz yerini İslamla mübarizəyə vermişdi. Deməli, ziyalılaın xüsusiyyətlərindən biri İslamla düşmənlik və ona qarşı çıxmaq idi.

Əlbəttə, indinin özündə də Pəhləvi dövrü ziyalılarının yazıçı, şair, tədqiqatçı, şərhçi və bioqrafiklərdən ibarət davamçıları bəzən uyğun xətti aydın şəkildə davam etdirir və Mirzə Fətəli Axundzadə kimiləri peyğəmbər kimi tərifləyirlər. Mirzə Fətəli dinə qarşı çıxdığına və İslamla mübarizə apardığına görə həm gedib çarların süfrəsində oturdu, onların çörəklərini yedi və yardımlarını qəbul etdi, həm də sonradan bolşevik və kommunistlər bizim Xameneyə gələndə, Mirzə Fətəli Axundzadənin şərəfinə konsert verdilər.

Mən özüm uşaqlıq çağımı orada keçirmədiyimdən, bu hadisəni uşaqlığını orada keçirənlər illər sonra mənə danışıblar. 1945-1946-cı illərdə Pişəvərinin zamanında, Təbriz və Azərbaycanın bir hissəsi Sovet silahlı qüvvələrinin ixtiyarına keçib, işğal ediləndə və sonralar tar-mar edilən dırnaqarası yerli hökumət qurulanda bolşeviklər Mirzə Fətəli Axundzadənin şərəfinə Xameneyə gedib konsert verdilər. Yəni bu adamın həm çar hakimiyyətində tərəfdarı vardı, həm də bu hakimiyyəti devirən bolşeviklərin arasında. Şəxsiyyətin necə şübhəli olduğunu görürsünüzmü?! Çar rejiminin və kommunist quruluşunun müştərək cəhəti nədir: dinlə, İslamla düşmənlik. Bu adam da İslamla düşmənlik carçısı olmuşdur.

Əlbəttə, məncə həqiqi ziyalılıqda nə dinlə ziddiyyət var, nə ibadətlə. Bir insan həm gələcəyə baxan, düşüncə işi ilə məşğul olan, inkişaf uğrunda çalışan mənada ziyalı, həm də mərhum Doktor Behişti, Şəhid Mütəhhəri və bizim gördüyümüz həqiqətən mömin ziyalı şəxsiyyətlərin çoxu kimi dindar ola bilər. Dinə qarşı çıxmağa əsla lüzum yoxdur.

Dinsizliyi ziyalılığın mütləq şərti kimi göstərəndə nəticə belə olur: Dövrümüzün ən böyük filosofu olan, Fransadan Henri Korbin kimi filosofların və böyük şəxsiyyətlərin gəlib neçə il yanında qalan və elmindən bəhrələr götürən Əllamə Təbatəbai ziyalı deyil, amma məsələn, dinin təməllərinə, klassik təməllərə və irançılıq prinsiplərinə sadiq olmayan, bir neçə gün Avropada, yaxud Amerikada qalan filan cırtdan şair ziyalıdır və kim Avropada daha çox qalmışdırsa, daha ziyalı sayılır. Görün İranda ziyalı adına necə yanlış tərif verilmiş, necə çirkin cərəyan yaradılmışdır.

Ölkənin çox əhəmiyyətli məsələlərində ziyalılar belə çıxış etdilər və kənarda dayandılar. 19 Avqust hadisəsində ziyalılar tərəfindən həqiqi mübarizə görünmədi. Düzdür, 19 avqust bizdən çox qabaq olub, lakin bu hadisədə Pəhləvi rejiminin sərt tədbirləri Doktor Müsəddiqə və milli hərəkata meylli ziyalıları elə vəziyyətə saldı ki, birdəfəlik kənara çəkildilər və onlarda heç bir həqiqi mübarizə müşahidə olunmadı. Əslində ziyalılıq missiyası onların xalqın xeyrinə və onun gələcəyi naminə ortaya çıxıb şeir demələrini, yazmalarını, danışmalarını, xalqı maarifləndirmələrini tələb edirdi, amma bu işlər baş vermədi.

Sonra 5 iyun hadisələri baş verdi. Bu, indiki əsrdə xalqla hakim rejim arasında baş verən ən böyük hadisə idi. 5 İyunda, Aşura günü İmam Xomeyninin Qum şəhərindəki çıxışı ertəsi və daha sonrakı gün Tehranda konkret təşkilatçılıq olmadan xalqın izdihamlı etirazı ilə nəticələndi. Çap olunmuş sənədlər də həmin günlərdə bu hadisənin qarşısını almaq üçün Dövlət Şurasında aparılan müzakirələri əks etdirir. Siz görün o çıxış və xalqın bu izdihamı necə böyük rezonans yaratmışdı. İmamın hərəkəti ən güclü şəkildə baş tutmuş və xalqı hərəkətə

gətirmişdi. Sonra isə rejimin əsgərləri küçələrə dolub xalqı atəşə tutdular. Biz dəqiq sayını öyrənə bilməsək də, bu hadisədə bir neçə min nəfər öldürüldü, qanlar töküldü.

Ali-Əhməd "Ziyalıların xidməti və xəyanəti" kitabında məncə bu ifadələrlə yazır ki, bizim ziyalılarımız öz əllərini 5 iyun qanı ilə yudular; yəni dodaqlarını da tərpətmədilər. Bu tanınmış ziyalılar - yəni şeir deyənlər, hekayə, məqalə yazanlar, siyasi təhlillər edənlər, xalqa rəhbərlik iddiasında olanlar, hən hansı bir ictimai məsələdə bir məqalə vasitəsi ilə bildirdikləri fikirlərin hamı tərəfindən qəbul olunmasını gözləyənlər sükut etdilər. Onlar xalqdan bu qədər uzaq idilər və bu uzaqlıq beləcə davam etdi.

Bəzən onlardan çox zəif tərpənişlər görünürdü, lakin rejim bir dəfə çığıran kimi qayıdıb gedirdilər. Belə nümunələrdən biri tanınmış bir adam idi. O, bir neçə il bundan əvvəl dünyasını dəyişdi. Adını çəkmək istəmirəm, kitabını deyəcəyəm; kim anlasa, anlayıb. Bu şəxs inqilabdan əvvəl "Ay papaqlı, ay papaqsız!" adlı pyes yazmışdı. Biz o zaman bu pyesi oxuduq. O, bu pyesdə ziyalının rolunu müəyyənləşdirmişdi. Bu simvolik ifadədə "papaqsız" sözündə məqsəd ingilislər, "papaqlı" sözündə isə amerikalılar idilər. Pyesin birinci pərdəsində ingiltərəlilərin, ikinci pərdəsində isə amerikalıların nüfuz dövrü əks olunurdu. Hər iki dövrdə xalqın müxtəlif təbəqələri öz mövqelərinə görə hərəkət edir, çalışırdılar. Bu pyesdə "eyvandakı kişi" adlanan ziyalı isə ümumiyyətlə kənarda qalırdı. O görür, bəzən bir söz də deyir, amma özünü təhlükəyə atmır və meydana daxil olmur. Bu pyesi o cənab yazdı. Mən o zaman, Məşhəddə namazdan sonra tələbə və cavanlar üçün söhbət edən ərəfədə bu kitab mənim əlimə düşdü. Mən dedim ki, kitabın müəllifi olan bu cənabın özü də eyvandakı kişidir. O əslində özünü təsvir edib: tamamilə kənarda.

İranda ziyalı təbəqəsinin görə biləcəyi ən pis işi bizim ziyalılarımız onbeşillik İslam hərəkatı dövründə gördülər: ümumiyyətlə kənarda qaldılar. Nəticədə xalq onlardan uzaqlaşdı. Düzdür, onların kiçik bir qismi müəyyən həddə meydanda qaldılar. Onların biri mərhum Ali-

Əhmədin özü idi. Hətta onun şagirdləri, dostları və onu sevənlər də bu hərəkətə qoşulmadılar, çox uzaqdan hərəkət etdilər.

Həbsxanalar xalqla, ruhanilərlə, tələbələrlə, adi insanlarla, fəhlə və tacirlərlə dolu idi. Bu uzun illər ərzində ən çox dustaq imamın xəttinə aid idi. Onların hərəkatı rejimi bezdirmişdi. Sizin hamınızın tanıdığı bu məşhur şəxsiyyətlər həbsə düşdülər, saatlarla işgəncə altında fəryad etdilər, onlar isə yox.

Bəzən xırda bir şey üstündə bunlardan da həbsə düşən olurdu, amma demək olar ki, dərhal tövbənamə yazırdılar. Bu gün bizim zamanımızda ziyalılığı irticaya çəkmək istəyən, sonra haqlarında danışacağım bəzi tanınmış şəxsiyyətlər arasında həbsdə məktub yazan, yalvaran və ağlayanlar da vardı. Biz bunları çox yaxından tanıyırıq. Özləri də bilirlər ki, biz onları tanıyırıq, amma cavanlar tanımırlar. O dövrün ziyalıları inqilaba qədər göstərdilər ki, xalqın düşüncə rəhbərliyi üçün etimadlı təbəqə deyillər.[1]

**Sual:** Ölkənin bütün orqanlarında və ümumi xalqda dəyişiklik yaratmış İslam inqilabı ziyalılara və onların xəstəliyinin aradan qaldırılmasına təsir göstərə bildimi? İslam inqilabı yeni ziyalı nəsli yaratmışdırmı?

**Cavab:** İnqilaba 1-2 il qalmış bir tendensiya müşahidə olundu, hərəkat dalğası öz əqidə və düşüncələri ilə birgə müxtəlif çevrələrə yol tapdı. İslama etiqad bəsləməyənlərin çoxu hərəkatın hesabına ona inandılar. Hicaba heç bir inamı olmayan çoxlu qızlar vardı. Hərəkat dövründə heç kim onlara bir kəlmə də söz demədən, özləri hicaba gəldilər. Yəni imamın İslam hərəkatı genişləndiyindən, zirvəyə çatdığından, Kərbəla rəngi aldığından, nə qədər çox tələfat verirdisə, nə qədər çox şəhid və fədai verirdisə, bir o qədər də tərəfdar toplayır və dairəsini genişləndirirdi. İnqilabın əhatə dairəsi genişləndikcə hərəkatın dindən - İslam prinsiplərinə və təlimlərinə etiqaddan ibarət mesajı da

[1] Tehran Universitetinin tələbələri ilə görüşdəki çıxışdan: 1998.

yayılırdı. Bu, bir qrupa da şamil oldu. Adlarını çəkmək istəmədiyim müəyyən şəxslər meydana atıldılar və nəhayət inqilab qələbə çaldı.

İnqilabın qələbəsindən sonra İranda ziyalılıq məhv olmadı, qaldı, amma əslində yeni bir ziyalılıq yaranmışdı. İnqilab dövründə şairlər, yazıçılar, tənqidçilər, tədqiqatçılar, rejissorlar, kinematoqraflar, aktyorlar, ssenaristlər və rəssamlar iki qrupa bölündülər: biri inqilabın yaratdıqları, biri isə qabaqkı dövrdən qalan, lakin inqilabın nəticəsində mahiyyət etibarilə dəyişənlər. İranda ziyalılığın meydana çıxdığı zamandan təxminən 100 il ötəndən sonra o, ilk dəfə olaraq yerliləşdi. Ziyalılıq məsələlərində fəal olanlar, ziyalı dairələrində çalışanlar, yəni yazıçılar, şairlər, rəssamlar, müxtəlif incəsənət xadimləri və digər ziyalılar ilk dəfə olaraq bu ölkədə bir iranlı kimi düşündülər, bir müsəlman kimi danışdılar, incəsənət və ədəbiyyat məhsulları istehsal etdilər. Bu, yeni bir dövr idi.

Düzdür, bəzən müqavimət göstərilirdi, amma hər şey inqilab üçün hazırlıq idi və bu möhtəşəm inqilab ölkəyə ən böyük xeyri gətirdi. Bunu bilin ki, hər bir düşüncə, hər bir qələm, hər bir iş buna hazırlıq idi. Buna görə də, ölkədə yerli və dini ziyalılıq hərəkatı özünün müxtəlif sahələrində hər şeyi öz təsiri altına saldı, bəstəkardan tutmuş musiqiçiyə, ədəbiyyatçıya, şairə, incəsənət xadimlərinə qədər hamısı dini düşündülər, dini işlədilər, ən azı buna çalışdılar. Bu, çox yeni və səmərəli hal idi və davam etdi.

Müharibə bu sahədə istedadların çiçəklənməsinə zəmin yaratdı. Bildiyiniz kimi, hər bir ölkədə ədəbiyyat və incəsənəti çiçəkləndirən amillərdən biri ağır hadisələr, o cümlədən müharibələrdir. Ən gözəl romanlar, ən yaxşı filmlər, bəlkə də ən dəyərli şeirlər müharibələrdə və müharibə ilə bağlı yazılıb, deyilib, istehsal olunub və yaradılıb. Bizim müharibədə də belə oldu.

Biz müharibədə məzlum idik. Biz müharibədə tamamilə məzlum bir xalq idik. Biz heç kəsə təcavüz etməmişdik, heç kimə heç bir bəhanə verməmişdik. Biz İraq sərhədlərinə sarı bir güllə də atmamışdıq. Amma inqilabın təbiəti belədir: bizə hərbi hücum edəcəkdilər.

Afrikanın milli rəhbərlərindən olan Əhməd Seku Ture Qvineya Respublikasının prezidenti idi. Mən prezident olanda o bir neçə dəfə İrana gəldi. Bu səfərlərin biri müharibə dövrünə təsadüf edirdi. O deyirdi ki, məcburən qatıldığınız bu müharibəyə görə təəccüblənməyin. Beynəlxalq müstəmləkəçi və hegemonların, qlobal güclərin əleyhinə baş verən hər bir inqilaba qarşı görülən ilk işlərdən biri qonşularından birini onun üstünə qaldırmaqdır. Bu ümumi qayda sizə də şamil oldu, təəccüb etməyin. O mənə dedi ki, sizə bir sərhəddən hücuma keçiblər, amma mənə beş sərhəddən, beş qonşu ölkədən hücum ediblər. Kiçik ölkə olduğundan, ətrafında çoxlu ölkələr var idi. O da inqilabçı olduğundan, inqilab yolu ilə hakimiyyətə gəldiyindən, oxşar hücuma məruz qalmışdı.

Müharibədə hamı iştirak edirdi. Müharibə zamanı rəhbərin rolu birinci dərəcəlidir. Bizim rəhbərimiz bütün xalqın iştirakını təmin etdi. Bu səfərbərlik, könüllülər, Mühafizəçilər korpusunun yaradılması, ordunun əzəmətli hərəkəti, xalqın köməyi, iştirakı, görülən çoxlu işlər - bütün bunlar ziyalıların inkişafına lazım olan əlverişli şəraiti düzgün istiqamətdə gücləndirirdi.

Bu dediklərim əksəriyyətə aiddir, bunda istisnalar da var. Elə müharibə dövründə bir yazıçı müharibə haqda bir hekayə yazdı. O bu hekayədə müharibədən ötrü İranı günahkar çıxardı. Baxın, nəyin bahasına olursa-olsun, öz yanlış mövqeyindən çəkinmək istəməyən şəxs belə olur. Əhvaz, Abadan və Xürrəmşəhr şəhərləri düşmənin hərbi hücumuna məruz qalan, rəhbəri, hökuməti və silahlı qüvvələri daxil bütün xalqı döyüşə atılan İslam Respublikasında hansı iradı tutmaq olar?! Bu roman əvvəldən axıra qədər xalqa və onun iqtidarına iradla, məsxərə və təhqirlə doludur. Bunlar bəzi köhnələrdən baş verdi, ümumi vəziyyət isə belə deyildi. Döyüşdən sonralara və çox sonralara qədər gedən ümumi proses düzgün istiqamətdə idi.

Ziyalı aləmində bu, bir inkişaf, tərəqqi və ziyalı təbiətinə uyğun iş idi. Ziyalının təbiəti inkişaf etməkdir və doğrusu bu idi ki, həmin

səhvdən və xəstəlikdən qurtulsun. Bu, inqilabdan öncəki şəraitdə mümkün deyildi. İnqilab bu şəraiti təmin etdi.[1]

**Sual:** Bu günlərdə bəzi ziyalılar İslam inqilabının və müqəddəs müdafiənin dəyərlərini sual altına salmaqla sizin işarə vurduğunuz xəstəliyin təsirlərini göstərir, quruluşla düşmən olan və inqilabın qələbəsindən onunla razılaşmayan siyasi cinahlar da bu qarşıdurmanı alovlandırırlar. Lütfən bu məsələlərə aydınlıq gətirin.

**Cavab:** Müharibədən sonrakı dövrdən İran ziyalılarını inqilabdan öncəki xəstəliyə salmaq üçün ciddi səylər başlanıb: mürtəcelik, keçmişə qayıdış, dindən, yerli ənənələrdən küsmək, Qərbə üz tutmaq, ona qeyd-şərtsiz sevgi və asılılıq, Avropa və Amerikadan gələn hər bir şeyi qəbul etmək, əcnəbiyə məxsus hər bir şeyə hörmətlə yanaşmaq, özümüzə aid olanları isə aşağılamaq. Bu əslində həm İran xalqına, həm də onun təməl prinsiplərinə qarşı təhqirdir. Mən bunu müşahidə edirəm.

Bunlar kimlərdir? Təbii ki, təxminən bilmək olar; mən burada dəqiq söz deyə bilmərəm. Nə İslama, nə də İrana heç zaman iman gətirməyən bir qrup insan var. Bu ilahi, dini, həqiqi, yerli - adını nə qoyursunuzsa-qoyun - ziyalılığın İranda mövcud olduğu bir neçə ildə bunlar baş qaldıra bilmədilər; ya bir kənara çəkildilər, ya ölkədən xaricə getdilər və öz tanrılarını, qiblələrini, məşuqlarını orada tapdılar. Bu xalq, bu ənənələr, bu tarix və bu mədəniyyət onlar üçün heç bir əhəmiyyət kəsb etmədi. Təbii ki, bu xalqın gələcəyi də onlar üçün əhəmiyyətsizdir. Danışıb iddia edə bilərlər, amma keçmiş göstərir ki, onlar səmimi deyillər, xalqın qayğısına qalmır və özlərini düşünürlər.

Bəzi qüvvələr də bunların təsiri altına düşənlərdir. Təmtəraqlı adlar insanları çaşdırır. Dəqiq deyə bilmərəm, amma güman ki, bəziləri muzdurdurlar. Pula xidmət edən sahələrdən biri də ədəbiyyat, incəsənət, qələm və şeirdir. Bu, təəccüblü deyil. Biz əslində lənətə və nifrətə layiq olan bəzi şahlara şeir deyib onları tərifləyən böyük şairlər

---

[1] Yenə orada.

görmüşük. Bizdə pula, dünyaya və ehtiraslara görə mənfur və çirkin əsasları himayə edən adamlar çox olub; halbuki onlardan uzaqlaşmalı idilər. Bu, başadüşüləndir. Əlbəttə, dedim ki, bu fikir dəqiq deyil, gümandır. Güman edirəm ki, onlar prosesi geriyə qaytarmaq istəyirlər. Bizim müsəlman ziyalılarımız buna imkan verməməlidirlər.[1]

**Sual:** Xəstə ziyalılarla necə rəftar etmək və ziyalı irticasının qarşısını necə almaq olar? "Buna imkan verməməlidirlər" dedikdə məqsədiniz nədir və nə etmək lazımdır?

**Cavab:** “Buna imkan verməməlidirlər” sözündə məqsədim bu deyil ki, qalxıb dalaşmalıdırlar. Xeyr! Ziyalının işi yumruqlaşmaq və dalaşmaq deyil. Mədəniyyət xadimlərinin və ziyalıların işi elə mədəni işlərdir. Onun vasitələri mədəni vasitələrdir. Uyğun sahələrdə çalışan cavanlar gərək fəal olsunlar. Gənclər! Özünüzü islah edin. Bir xalq inkişaf və təkamül yolunu keçmək üçün düşüncə baxımından möhkəm bir yerə arxalanmalıdır. Məzhəbsiz, imansız, əxlaqi, dini və mənəvi təməllərə etiqadı olmayan bir topluma bağlanmaq və onların sözü ilə irəliləmək istəyən bir xalqın, bir nəslin, bir cavanın ayağının altı boşalar, gənc nəsil Pəhləvi dövrünün gənc nəsli kimi olar: ümidsiz, faydasız, fəsada meylli, sapqınlığa hazır. O zaman kiminsə onları yenidən düzgün yola yönəltməsi üçün çoxlu imkanlar, İslam inqilabı kimi bir hərəkət lazım olacaq, amma o, bir ölkədə bir əsrdə, yaxud bir neçə əsrdə asanlıqla meydana gəlmir.

Bütün vücudumuzla mövcud vəziyyəti qorumalıyıq. Uzun illər ziyalılıqla və mədəni fəaliyyətlərlə bu xalqa heç bir xidmət göstərməyənlər, ən azı heç bir mühüm problem zamanı xalqın yanında olmayanlar, xalqa çatmayanlar, yəni onun rəhbəri və öncülü olmaq istəyən, lakin həmişə ondan geri qalan və kənara çəkilən bir qrupun yenidən ölkəyə qayıdıb öz fikir və mədəniyyətlərini hakim etməsinə icazə verməyin. Bu gün bəzi mətbu orqanlarında, jurnallarda və

---

[1] Yenə orada.

mədəniyyət sahələrində keçmişə, xəstə ziyalılığa qayıdışı izləyən məqamlar görünür. Bu, günün problemidir. Bu, çox əsaslı və mühüm məsələdir.[1]

**Sual:** Əvvəlcə ciddi şəkildə mədəni mübarizə aparan bu qrupun indi məsələni siyasi müstəviyə keçirdiyi nəzərə çarpır. Sual budur ki, ziyalıların xarakter və xüsusiyyətləri necədir? Quruluşun məmurları, mədəni qurumları, media orqanları və xalq onlara qarşı nə zaman uğurlu çıxış edə bilərlər?

**Cavab:** Mənim hiss etdiyim və görülən işlərin məcmusundan anladığım budur ki, hərtərəfli bir hücum planlaşdırılmışdır. İnqilabın əvvəldə din, iman, ruhani, təqva və bu kimi məsələlərlə maraqlanmayan ziyalı və sənətkarları cəlb edə bilməməsi təbii idi. Əlbəttə, bəziləri inqilaba cəlb olundular. Onların ayıq vicdanları olduğuna görə inqilab onları özünə çəkdi. Bəziləri də kənarda qaldılar və inqilab onları cəlb edə bilmədi.

İnqilabın ilk illərində bunlar nəfəs almağa cürət etmirdilər. Mənim inqilabdan öncədən yaxından tanış olduğum, xarakter və xüsusiyyətlərini bildiyim bu qrup çətin, ağır və təhlükəli işlərə qoşulan deyillər. Əvvəllərdə inqilab seli bunları evlərinə çəkilməyə və uzaqbaşı bağlı qapılar arxasında bir-biri ilə dərdləşməyə vadar etmişdi. Sonra tədricən jurnal buraxdılar, yazdılar, bir yerdə danışdılar, kimsə onların xeyrinə nəsə dedi, bir yerdə şeir oxudular və heç kim etiraz etmədi. Bunlar da gördülər ki, bu şəraitdə təşkilatlanmaq və işləmək olar.

Onlar inqilabın arxa cəbhəsini tamamilə öz əllərinə keçirmək istəyirlər. İnqilabın arxa cəbhəsi xalqdır. Ön xətdə məmurlar durur, sonra məmurlara möhkəm bağlı olanlar, sonra da ümumi xalq. Onlar düşündülər ki, məmurların arxasında duran ümumi xalqın boynuna kəmənd atsaq, ələ keçirə bilərik və hər şey bitər.

[1] Yenə orada.

Dorğudan da bunu bacarsalar, inqilaba güclü zərbə vurmuş olarlar. Əgər arxa cəbhədə olanların düşüncəsini, fikrini, qəlbini, meylini və bəzən əqli seçimini bir tərəfə yönəldə bilsələr, onları əllərinə keçirmiş olarlar. Bu doğrudur. Amma bunu bacarарlarmı?! Məncə bu barədə qənaətləri sadəlövhcəsinədir. Onlar bacaracaqlarını güman edib başladılar. Məqsəd budur.

Kinoteatrda, mətbuatda, hətta dövlətin tabeliyində olan radio və televiziyada, mədəni zallarda, festivallarda və müxtəlif mədəni mərkəzlərdə həmin qrupun bir üzvünün çalışdığı hiss olunur. Əvvəlcə sırf mədəni formada hərəkət etdilər, indi isə həm də siyasiləşmişlər; hökuməti və quruluşu tənqid edir, quruluşun keçmişi üzərinə sual işarəsi qoyurlar. Bu baş vermişdir. Bu, çox təhlükəli haldır.

Təhlükəli dedikdə məqsəd bu deyil ki, çarəsi yoxdur, yaxud çətindir. Xeyr! Olduqca asandır. Bu şərtlə ki, xəstə və həkim xəstəliyin nə olduğunu bilsinlər. Bunu biləndən sonra müalicəsi çox asan olar. Təhlükəli olan bizim bunu dərk etməməyimizdir.

Biz elm və mədəniyyət mənsubu olduğumuza görə belə şeyləri ayırd edirik. Elmi-mədəni çevrədə olan insanın bir şey anlaması üçün əl vurması, yaxud gözlə görməsi lazım deyil. Mən bu gün bunu tamamilə hiss edirəm. Bunu bizim həm jurnalistlərimiz, həm radio və televiziyamız, həm təbliğat qurumlarımız, məsələn Mədəniyyət nazirliyi, İslam Təbliğatı Komitəsi, Təhsil nazirliyi və digərləri bilsinlər. Bu gün problem budur.

Qeyd etdim ki, təbiətləri zəifdir, bir pıqq eləsən, geri çəkilərlər. Təbiətləri mömin təbiəti, iman və etiqad əsasında deyil. Danışanda "dünya həyatı haqqındakı sözləri sənin xoşuna gələr"[1]. Gözəl danışırlar. Qələm adamlarının və maddi məsləkli ziyalı təbəqənin xisləti belədir; danışanda yeri-göyü bir-birinə qatırlar. Eşidən elə bilir ki, bu, ruhunun dərinliyindən danışan dərdli bir insandır. Yaxınlaşanda isə görürsən ki, yox, heç bir şey deyil, dildən bir qədər də o tərəfə keçmir. Bunların bir

---

[1] Bəqərə/204.

çoxu müstəmləkə, sionizm, zülm və bu kimi məsələlər haqda da yazmışdılar, amma xalqın atıldığı meydana qədəm qoymağa hazır olmadılar, hətta xalqa arxa da çevirdilər. Bunlar şiddətli şəkildə pul və nəfs əsiridirlər. Təbliğat qurumları ehtiyatlı olub bu barədə fikirləşsinlər. Heç bir qurum da təxribatlara qarşı biçimsiz və münasib olmayan sərt bir iş görməsin.

İki cür iş görmək olar: biri neqativ, biri isə pozitiv. Neqativ iş onların təxribatlarının qarşısını almaq, pozitiv iş isə düzgün mədəni işlər görmək, yaxşı minbər və moizə etmək, xalqı düşüncə cəhətindən maarifləndirməkdir. Bizim qəzetlərimizin, jurnallarımızın, natiqlərimizin, orada-burada, məscidlərdə, tribunalarda, o şəhərdə-bu şəhərdə daim çıxışlar edən hörmətli məmurlarımızın əsas sözü bu olsun. Ona-buna hücum etmək yerinə inqilabdan, onun faydalarından, gücündən, dəyərlərindən və bu dəyərlərə sadiq olmağın zəruriliyindən danışın. Bu da mədəni sahədir.[1]

**Sual:** Tarixə əsasən, böyük İslam sivilizasiyasında elm və din həmişə bir-birinin kənarında olmuşdur. Siz həmişə gəncləri tarixi öyrənməyə və ondan dərs götürməyə çağırırsınız. Hövzə və universitetin birliyini, başqa sözlə desək, elm və dinin birgəliyini yaxşı anlayıb əhəmiyyətinə vaqif olmamız üçün, lütfən, bu ölkədə elm və dinin ayrılmasının tarixçəsini izah edin.

**Cavab:** Bizim ölkəmizdə elm və din min il bir-birinin yanında olub. Bizim tariximizin böyük alimləri, həkimləri, astronomları və riyaziyyatçıları, adları və kəşfləri bu gün də dünyada məşhur olan şəxslər ilahi alimlər və dini mütəfəkkirlər olmuşlar. Tibbə dair yazdığı kitab hələ də dünyada mötəbər elmi kitab sayılan, özü müxtəlif sahələrdə bəşər tarixinin parlaq siması hesab olunan, bu min ildə dünyanın bütün elm sahələrində tanınan, indi də tanınmaqda olan və elm tarixinin bəzi nailiyyətlərinə imza atan İbn Sina həm də bir din alimi

---

[1] Vilayət hədisi, c. 7, səh: 266-269.

olmuşdur. Məhəmməd İbn Zəkərriyya Razi, Əbu Reyhan Biruni və İslam dünyasının digər alimləri, mütəfəkkirləri, kəşf və ixtiraların müəllifləri də belə olmuşlar. Bizim ölkəmizdə və İslam dünyasında vəziyyət belə idi.

Dinin hakim olduğu, xalqın din və mənəviyyatdan tam uzaqlaşmadığı vaxta qədər vəziyyət belə idi. Avropalılar, qərblilər, sionist siyasətçilər və İslam dünyasını məhv etmək üçün plan cızan mütəfəkkirlər elmi siyasi məqsədlərlə ölkəmizə daxil etdikləri vaxtdan onu dindən ayırdılar və nəticədə din elmdən, elm də dindən uzaq bir sahəyə çevrildi.

Elm hövzələrində yeni inkişaf etmiş üsullara qapı açılmadı. Bunun ardınca axtarmaq lazımdır ki, nə üçün indiki və ötən əsrdə əvvəllər hövzələrdə tədris olunan qeyri-dini elmlər hövzələrdən yığışdırıldı və qabaqkı əsrlərdə özləri həmin sahələrin alimləri, varisləri, mütəxəssis və mütəfəkkirləri olan alimlər onları rədd etdilər. Bunun iki səbəbi vardı və hər iki səbəb qərblilərin dünya miqyasında təbii elmlərə yiyələnməsindən irəli gəlirdi. Bu səbəblərin biri budur ki, din alimləri din düşmənləri və kafirlər tərəfindən yayılan istənilən elmə bədbin yanaşır və onu rədd edirdilər. İkinci səbəb isə bu idi ki, həmin düşmənlər və kafirlər elmi onlara öyrətmək istəmir, sahib olduqları elmi dini mərkəz olan elm hövzələrinə buraxmırdılar. Hər ikisi bir-birindən qaçır, bir-birinə düşmən olmuşdular. Əsas səbəb də bu idi ki, bütün dünyada, o cümlədən İslam ölkələrində elm antidin siyasətlərin əlində bir alətə çevrilmişdi.

Qərb dünyasında elmi tədqiqatın zirvəsi sayılan on doqquzuncu əsr dindən ayrılıq və dinin həyatdan çıxarılması əsridir. Bu təfəkkür bizim ölkəmizə də təsirini buraxdı və universitetlərimizin əsas özülü qeyri-dini amillər üzərində quruldu. Din alimləri universitetdən üz çevirdilər, universitet də din alimlərindən və elm hövzələrindən. Bu acınacaqlı hal həm elmi hövzələrə, həm də universitetlərə mənfi təsir buraxdı. Elm hövzələrinə mənfi təsir buraxdı; çünki din alimlərinin fəaliyyətini yalnız və yalnız mücərrəd məsələlərlə məhdudlaşdırdı,

onları real aləmdən xəbərsiz etdi, elmi inkişaflar onlar üçün məchul qaldı, yeniliyə meyl, İslam fiqhində və dini hökmlərin tədqiqində yeniliyin zərurəti hövzələrdə yaddan çıxdı. Dinin və İslam fiqhinin tədqiqində bu yenilik həmişə mövcud olmuşdu; çünki fiqh cəmiyyətin ehtiyacını təmin etmək üçün Qurana və sünnəyə istinaddan başqa bir şey deyil. Hövzələr həyat reallığından, dünyada baş verən hadisələrdən və həyata keçən nəhəng dəyişikliklərdən xəbərsiz qaldı və bir sıra fiqhi məsələlərlə, əksər hallarda cüzi hökmlərlə məhdudlaşdı. Fiqhin əsas məsələləri, o cümlədən cihad, hakimiyyət, İslam cəmiyyətlərinin iqtisadiyyatı, xülasə, hökumət fiqhi kənarda qaldı, yaddan çıxdı və tərk edildi. Cüzi, çox cüzi və əksər hallarda həyatın mühüm sahələrindən uzaq məqamlara daha artıq diqqət yetirildi. Bu, elmi hövzələrə vurulan zərbə idi. Siyasi qüvvələr də bundan istifadə etdilər, təbliğatla və şeytani üsullarla hövzələri bacardıqları qədər həyat yeniliklərindən uzaq saxladılar.

Xəmiri dindən və elmi hövzələrdən ayrı yoğrulan universitet də nə dini, nə İslam əxlaqı, nə siyasi əxlaqı, nə bir vətəndaşın ölkəsinə və xalqına qarşı hisslərinə sahib olan bir qrup insanın əlinə düşdü. Son yetmiş ildə Əmir Kəbir kimi bəzi insanlardan və sonralar meydana çıxan çox azsaylı bir neçə nəfərdən başqa bu ölkədə ali təhsil işlərinə rəhbərlik edənlərin çoxu əcnəbilərin maraqları qarşısında İran xalqının maraqları üçün heç bir üstünlük tanımayan, bu xalqın və bu ölkənin gələcəyindən daha çox başqa məsələlər haqda düşünən insanlar idilər.

Təsadüfi deyil ki, İran xalqı bəlli elmi keçmişinə, parlaq istedadına - müxtəlif xalqlar üzərində tədqiqat aparan və bizim tanıdığımız şəxslərin hamısı İran xalqının orta bəşəri səviyyədən yüksək istedada malik olduğunu söyləmişlər - zəngin və dərin İslam mədəniyyətinə, əsrlər boyu yetişən çox böyük alimlərinə, oxumağa və öyrənməyə qarşı təbii həvəsinə baxmayaraq, dünyanın elm və bilik zirvələrinə sarı dördnala hərəkət etdiyi son iki yüz, yaxud yüz əlli ildə geriqalmış qrup və xalqlardan olmuşdur.

Əgər bu xalqı özbaşına buraxsaydılar, elmdə öncül olardı, əvvəldən cəmiyyətlərin öz daxilindən baş qaldıran və çiçəklənən elmlərin çoxunda inkişaf edərdi, dünya ilə birgə irəliləyər və bu qədər geri qalmazdı.

İranda Qərbin müasir elmlərinə yol açıldıqdan sonra xəyanətkar və qafil qüvvələr bu xalqın geri qalması və inkişaf etməməsi üçün bəzi işlər gördülər. Uzun illər və hətta əsrlər boyu bizim xalqımız elmin zirvəsində dururdu, dünyanın heç bir yerində elm bizdə olduğu qədər inkişaf etməmişdi. Siz eşitmisiniz ki, Orta əsrlər qaranlıq və zülmət əsridir. Bu gün də avropalılar hər hansı bir xalqı pisləmək istəyəndə deyirlər ki, bunlar Orta əsrlərə aiddirlər. Orta əsrlər - Avropa xalqlarının cəhalət və zülmət əsrləridir. Məhz bu əsrlərdə İranda və İslam ölkələrində elmin parlaq dövrü yaşanırdı. İbn Sina, Əbu Reyhan Biruni, Məhəmməd ibn Zəkəriyya, böyük astronom və riyaziyyatçı olan Ömər Xəyyam, təbiət elmlərində bizim ən böyük alimlərimiz, ən böyük ədiblərimiz, elmi əsərləri bu gün də dünyada mühüm sayılan ən böyük riyaziyyatçılarımız, astronomlarımız və təbiblərimiz Orta əsrlərdə yaşamışlar. Bəli, Orta əsrlər avropalılar üçün zülmət və qaranlıq əsrləridir, biz müsəlmanlar üçün isə elmi inkişaf əsrlərdir. Avropalılar bu həqiqəti gizlədirlər, Qərb tarixçiləri bunu dillərinə gətirmirlər. Biz də adət etmiş və inanmışıq.

Belə bir parlaq keçmişə malik olan xalq bu ölkəyə hakim olan zalım şah rejimi dövründə və əsasən son iki yüz, yaxud yüz əlli ildə, yəni Qacarlar dövrünün sonlarından Pəhləvilər dövrünün axırına qədər elmi inkişaf baxımından bu qədər tənəzzülə uğradı. Onlar bunu etdilər. Bunun əsas səbəbi ölkəmizdə dinin elmdən ayrılığı idi. Bizim ölkəmizdə təbii elmlərin mütəxəssisləri, alim və tədqiqatçıları dindən ayrı qaldılar və nəticədə xalqlarına və ölkələrinə yaramadılar. Ən yaxşıları gedib əcnəbilərə xeyir verdilər, bir qismi də burada əcnəbilər üçün çalışdılar. Bu universitetlərdə dərs oxumuş ziyalılar Pəhləvi rejimində ən xəyanətkar şəkildə ölkəni idarə edənlər idilər. Onlar bu universitetlərin məzunları idilər. Allah rəhm elədi və İslam inqilabı baş verdi. Bu

cəmiyyətin müasir ziyalıları tərəfindən tədricən universitet təhsili alan və siyasi işlərlə məşğul olan nəsli o qədər köksüz və etiqadsız idi ki, onlar iş başına gəlsəydilər, Allah bilir bu xalqın və bu ölkənin başına nə oyun açacaqdılar; bu xalqın var-yoxunu, olan-qalanını yandırıb məhv edəcəkdilər. Allaha şükür olsun ki, macal tapmadılar, İslam inqilabı baş verdi və bu sülaləni devirdi.

İslam quruluşunda elm və din yanaşı hərəkət etməlidir. Hövzə və universitetin birliyi bu deməkdir. Hövzə və universitetin birliyinin mənası bu deyil ki, mütləq hövzə ixtisasları universitetdə və universitet ixtisasları hövzədə tədris olunsun. Xeyr! Buna ehtiyac yoxdur. Əgər hövzə və universitet bir-biri ilə əməkdaşlıq etsə, bir-birinə yaxşı münasibət bəsləsə və kömək göstərsə, elm və din adlı bir müəssisənin iki şöbəsi kimi olarlar. Elm və din müəssisəsi bir şeydir. Bu müəssisənin iki şöbəsi var: biri elm hövzələri, digəri isə universitetlər. Amma bunlar bir-biri ilə əlaqədə, bir-birinə qarşı xoş niyyətdə olmalı, birgə işləməli, bir-birindən ayrılmamalı və bəhrələnməlidirlər. Bu gün elm hövzələrinin öyrənmək istədiyi elmləri universitet mənsubları onlara öyrətsinlər, universitet tələbələrinin ehtiyaclı olduğu din və dini bilgiləri də hövzə alimləri onlara öyrətsinlər. Universitetlərdə ruhani nümayəndələrinin fəaliyyəti bundan ötrüdür. Çox yaxşı olar ki, bu əlaqələr proqramlı şəkildə idarə olunsun. Bu ən yaxşı və ən təbii vəhdətlərdən biridir.

Bildiyiniz kimi, zalım rejimin ruhaniləri universitet təhsili almış insanlardan ayrımaq üçün bütün vasitələrdən istifadə etdiyi repressiya dövründə bir qrup sayıq, savadlı, ağıllı, məsləhəti bilən və xeyirxah ruhanimiz universitetlərlə əlaqələri möhkəmləndirdilər. Bu yönümdə ən yaxşı işlər mərhum Ayətullah Mütəhhəri kimi alimlərin universitetlərdəki çıxışlarıdır. Mərhum Doktor Müfəttih də belə ruhanilərin ən fəallarından idi.

Hövzə və universitet tələbələri bir-birinin qədrini bilsinlər, bir-biri ilə tanış olsunlar, əlaqə saxlasınlar, özgə kimi baxmasınlar və qardaşlığı qorusunlar. Universitetlərdəki ruhanilər sözdən qabaq əməlləri ilə din

aliminin və din tələbəsinin kamil nümunələrini universitet mənsublarına göstərməyə çalışsınlar. Göstərsinlər ki, hər ikisi bir-birinə qarşı müsbət fikirlə və sevgi ilə əməkdaşlıq edirlər. Bu, hövzə və universitetin əməkdaşlığı, birliyidir. Əlbəttə, bu iş üçün proqram hazırlanmalı və düzgün idarə edilməlidir.

Xoşbəxtlikdən, İslam inqilabı İslam düşmənlərinin, daha doğrusu dünyada din düşmənlərinin uzun illər boyu əyirdiklərinin hamısını pambıq etdi və işlərinin məhsulunu yoxa çıxardı. Onlar bu gün İranda baş verənlərin qarşısını almaq üçün milyardlar xərcləmişlər. Siz bu gün qadınların İranda hicaba, iffətə, gənclərin dinə sarı hərəkət etdiyini görürsünüz. Quruluş Qurana əsaslanan bir quruluşdur. Görürsünüz ki, Qum Elm Hövzəsinin alimləri cəbhələrdə fəal döyüşçü kimi iştirak edirlər. Qum Elm Hövzəsi Hərbi Təbliğat Komitəsi yaratmışdır. Bu gün həmin qardaşların bəzisi burada iştirak edirlər. Görürsünüz ki, bizim universitetimizdə din, Allah və İslam maarifi tədris olunur. Universitetlərin rektorları, müəllimləri, ali təhsilə aid nazirlər dindardırlar. Bütün bunlar bizim düşmənlərimizin illər öncə plan cızıb İranda qarşısını almağa çalışdıqları məsələlərdir. Lakin inqilabın və İslamın sayəsində bunlar baş verdi. Bunların qədrini bilin və bunları qoruyun.[1]

**Sual:** Universtetlərdə islahat aparmaq, onları İslama sövq etmək, həmçinin hövzə və universitet arasında əməli birlik yaratmaq üçün bəzi din alimləri və ruhanilər rəhbərin nümayəndələri, yaxud müəllim, təbliğatçı və məscid imamı kimi universitetlərdə fəaliyyətə başlamışlar. Sizcə onlar vəzifələrini uğurla yerinə yetirmək və tələbələr üzərində müsbət təsir buraxmaq üçün nə etməlidirlər?

**Cavab:** Universitetdə fəaliyyət göstərən, müəyyən bir məqsədlə universitetə yollanan bir ruhanidə ümumi şərtlərdən əlavə, bir neçə xüsusiyyət də olmalıdır. Hər halda, universitetdə çalışan şəxs alim,

---

[1] Vilayət hədisi, c. 3, səh: 86-92.

təqvalı, əməldə ehtiyatlı olmalıdır və sair. Bu aydın məsələlərdən əlavə, fəaliyyətinin səmərəli olması üçün başqa iki-üç şərt də mütləq lazımdır.

Birinci şərt odur ki, universiteti və tələbəni tanısın. Əgər bu xüsusiyyət olmasa, səmərəsi olmaz, ya da çox az olar. Təsəvvür edin, universitetdə fəaliyyət göstərən bir ruhani onun misal üçün, bazar, yaxud məscidlə zehni, psixoloji, praktik və düşüncə fərqlərinə varmasa, bazara, yaxud məscidə getdiyi kimi, eyni hal, xüsusiyyət və sözlərlə oraya getsə, böyük ehtimalla rəftarında səhvə yol verər. Universiteti olduğu kimi tanımaq, tələbəni tanımaq, onun problemlərini anlamaq lazımdır. Mən bunların bəzilərinə toxunacağam. Deməli, birinci məsələ mühiti və tərəf-müqabili tanımaqdır.

İkinci şərt tələbəni sevmək və ona güvənməkdir. Kimin tələbənin və gəncin görkəmindən acığı gəlirsə, ayağını universitetə qoymasın. Kim universitetlərdə tədris olunan elmləri cəhalət bilir və ümumiyyətlə elm saymırsa, universitetə getməsin. Universitetdə çalışan ruhani tələbənin və uyğun elm ocağının missiyasına və dərsinə güvənməli, tələbəyə sevgi göstərməli, onun da bizim övladımız kimi bir gənc olduğunu bilməlidir. Oradakılar bizim uşaqlarımızdır. Bizim uşağımız da bəzən kobudluq edir, o da; bizim uşağımız da bəzən bir şeyin təsiri altına düşür, o da. Ruhani onlara övladları və yaxınları kimi baxmalıdır. Demirəm ki, uşağı qədər sevsin. Bu adətən mümkün olmur; amma məhəbbət göstərsin, bu təbəqəyə sevgi və şəfqətlə baxsın, bu elmi, bu dərsi və bu yeri sevsin.

Keçmişdə bəzi yaxşı alimlər yeni elmlərlə tanış deyildilər və onları ümumiyyətlə elm saymırdılar. Mən bunu həqiqətən görmüşəm; bu, fərziyyə deyil. Mən təqvalı və mömin bir alim görmüşdüm. O, bunları elm hesab etmir, hətta ərəb dilindən başqa bir dildə yazılmış kitabda olanları elm saymırdı. Fars dilində yazılmış kitabları cəhalət sayır və deyirdi bunlar nədir. Baxın, bu bir növ düşüncə tərzidir. Əlbəttə, bu gün belə düşüncələr yoxdur. Bu düşüncələrin başqa şaxələri də var; desəm, çox təəccüb edərsiniz. Bu fikirlər qədim dövrə aid olsa da, mən özüm belə bir şəxsi görmüşəm. Bir nəfər vardı. O, çap olunmuş kitabı

oxumağa layiq bilmirdi. Deyirdi ki, bu kitablar boş şeydir. Kitab gərək böyük vərəqlər üzərində Əbdürrəhimin, yaxud başqa bir şəxsin xətti ilə yazılsın və daş üsulu ilə çapı olunsun.

Bunu bariz bir nümunə kimi dedim. Məlumdur ki, indiki alimlər, yeni inqilabçı mərkəzlərdə, xüsusən də universitetlərdə çalışanlar arasında belə düşünən yoxdur. Mən demək istəyirəm ki, universitetdə sizinlə tələbə arasında özgəliyin ən az əlamətinin belə yaranmamasını istəyirsinizsə, - düşmənlərin təxribatları və qeyd etdiyim düşüncə tərzi sayəsində 50-80 ildə bu özgəlik yaranıb - tələbə ilə əlaqənizi sevgi əsasında qurmalı, onun missiyasına, təhsil aldığı dərsə və mərkəzə güvənməlisiniz.

Barəsində danışdığım düşüncə tərzi yeni və qədim düşüncə mərkəzləri arasında ayrılıq yaratmırdı?! Düşmən də buna kömək etdi. Bu ayrılığın təsirlərinin aradan qalxmasını və bu yaranın sağalmasını istəyirsinizsə, universitetə kifayət qədər sevgi və inamınız olmalıdır. Müxtəlif fəsad amilləri qarşısında qalmış bu nazlı, pak, faydalı və qayğıya layiq gəncləri sevgi və məhəbbətlə qorumaq lazımdır. Onları özbaşına buraxmaq olmaz. Universitetə bu ruhiyyə ilə gedin.

Çox əhəmiyyətli olan üçüncü şərt budur ki, universitetə gedən şəxs onun bu mərkəzlə və bu insanlarla əlaqə tərzinin mühüm işlərə çox böyük təsir buraxdığını bilsin. Bunu moizə etməklə bərabər tutmayın. Biz dini söhbətlər etmək üçün səfərlərə çıxırdıq. Bəzi yerlərdə anlayırdıq ki, işlər korlandı, minbər alınmadı. Minbər üzərindəki adamın özü korladığını bilir. O zaman deyirdik ki, korlanıbsa, korlanıb, problem yoxdur, uzaqbaşı sonrakı ongünlükdə dəvət etməyəcəklər; yaxud ağır paket verəcəkdilərsə, buna görə yüngül paket verəcəklər; yaxud deyəcəklər ki, bu ruhani təzədir və başqa birisini dəvət edəcəklər. Yəni mənim pis danışmağımın və işləri korlamağımın təsiri bu qədər idi. Bəzən isə belə deyil və insan anlayır ki, burada işlər korlansa, təsiri çox ağır olacaq.

Təsəvvür edin sizin övladınız siyasi, yaxud etiqadi baxımdan ilk dəfə bir qrup fırıldaqçının tələsinə düşüb. Bunlar onun diqqətini elə

məsələlərə yönəldiblər ki, əlbəttə, şeytani və yanlışdır, amma cəlbedicidir və siz övladınızın bu məsələlərə yaxınlaşmasına imkan verməzdiniz. Bu övlad üçün bir şübhə yaranıb. O, ruhani, din alimi və inandığı şəxs olan siz atanın yanına gəlib deyir ki, ata, filan məsələ necədir? Siz burada hansı hissi keçirərsiniz? Düşünərsiniz ki, mən bu suala cavabda bir qədər səhvə yol versəm, uşağımı əldən verəcəyəm.

Bu, uçurumun əvvəlidir. Daha burada səhlənkarlıq etmir, əsəbiləşmir, düşüncə iradəsinin cilovunu bərk tutub yüngül və əsassız sözlər deməyə tələsmirsiniz. Onun cavabını vermək iqtidarında olmadığınızı görsəniz, deyərsiniz ki, eybi yoxdur, filankəsin yanına gedib soruşarıq. Siz o düşmənin cavabını vermək üçün daha savadlı birisini axtararsınız. Tələbəyə bu hisslə yanaşmaq lazımdır. Tələbə təkcə bir nəfər deyil, böyük bir toplumdur.

Bu gün universitetdə təhsil alan şəxs bizim kimi deyil ki, aktuallığı ilə potensiallığı arasında yetmiş il fasilə olsun. Bu tələbənin potensialının aktuala çevrilməsi üçün on beş, yaxud on il vaxt lazımdır. O, yaxın gələcəkdə aktual qüvvəyə çevriləcək. Yəni iki ildən sonra bakalavr diplomu alır, beş, yaxud altı ildən sonra doktor olur, bir ixtisasa yiyələnir, iki il də ora-bura qaçır. Yəni on ildən sonra bütün qurumların çoxlu pul verib istəyəcəyi bir mütəxəssisə çevrilir. Onda o, Proqram və Büdcə Komitəsinin bir eksperti, yaxud Məskən Nazirliyinin yüksək rütbəli mühəndisi, yaxud filan siyasi idarənin müdiri olur, yaxud filan tikinti və ya təsərrüfat şirkəti açır, ölkə belə kadrların əlinə keçir. Odur ki, tələbəyə əhəmiyyətsiz yanaşmayın.[1]

**Sual:** Universtetlərdə çalışan ruhanilərin, xüsusən də rəhbər nümayəndələrinin qarşısında bəzi problem və maneələr var. Onları müəyyən cinahlara sarı çəkməyə, yaxud sıradan çıxarmağa səy göstərilir. Bu barədə nə deyə bilərsiniz?

---

[1] Vilayət hədisi, c. 5, səh: 211-214.

**Cavab:** Təəssüf ki, universitetlərdə ruhani nümayəndələr məsələsinin gündəmə gəldiyi bir neçə il öncədən bəzi qüvvələr fikirləşdilər ki, gərək bu ruhanini ələ alsınlar, ya da sıradan çıxarsınlar. Bəzi universitetlərdə bu əlamət müşahidə olundu. Bütün universitetləri demirəm, amma bəlkə də onların çoxunda bu şəkildə bir mücadilə və dartışma başladı.

Bu amillər universitetdə çalışan möhtərəm ruhaninin və din aliminin fəaliyyətinə çox böyük maneə yaradır, onu istəmədiyi işlərə sövq edir. Mənim fikrimcə, imkan daxilində bu işlərdən uzaqlaşmaq lazımdır; bəziləri buna imkan verməsələr və insanı çıxılmaz vəziyyətdə qoysalar belə. Eyni zamanda harada olmağımız lazımdırsa, orada da olmalıyıq.

Siz universitetlərdə bütün tələbələrə, hətta xətt və istiqamət baxımından xoşlamadığınız bir tələbəyə də məxsus olmağa çalışmalısınız. Düzdür, bu çətin, bəzi yerlərdə isə hətta qeyri-mümkündür, lakin hər yerdə belə deyil.

Mənim fikrimcə, çox yerdə, bəlkə deyə bilərik əksər yerlərdə ruhani elə rəftar edə bilər ki, hətta siyasi düşüncə baxımından onu qəbul etməyən bir tələbə də həqiqətən yaxşı insan olduğunu desin; haradasa bir ürək sözü, psixoloji çətinliyi, beynində və ya düşüncəsində problemi olanda ona sığınmağın mümkünlüyünü düşünsün. Bu zaman düzgün namaz qılmaq istəsə, bu ruhaninin arxasınca gedir və məsciddə namaz qılır. Universitetlərdə bu istiqamətdə hərəkət etmək lazımdır. Nümayəndəlik şöbəsi bəzilərinin qarşısında ixtilafın bir tərəfi kimi olmamalıdır. Bu məsləhət deyil.

Bəli, dediyim kimi, bəzən sizi buna sövq edirlər. Mən bunu başa düşürəm. Sizin bəziləriniz bilirsiniz ki, mən bir neçə il bundan öncədən işlədiyiniz universitetlərdə baş verən hadisələrin xırdalıqlarından xəbərdaram; bilirəm ki, əziyyət verirlər, qoymurlar, problem yaradırlar, bəzən ruhanini müəyyən işlərə çəkirlər. Lakin mümkün həddə

müqavimət göstərmək, bu dartışmaların fövqündə durmaq və bütün qrupları saxlamaq lazımdır.[1]

**Sual:** Bu sahədə tələbələrin İslam birliklərinin rolu nədən ibarətdir?

**Cavab:** İslam birlikləri doğrudan da müsəlman qüvvələri toplamaq üçün yaxşı imkandır. Onlar universitetlərdə çalışan ruhanilərə yardımçı olmalıdırlar. İslam birliyi universitetdə çalışan ruhani ilə həqiqətən əməkdaşlıq etsə, ona itaət göstərsə, sözlərini və tövsiyələrini ata tövsiyəsi kimi qəbul etsə, ruhanini özünə arxa və dayaq etməyə çalışsa, düşünürəm ki, universitetdə dini təfəkkürü çox yaxşı formada genişləndirmək olar. Bəzi yerlərdən xəbər alırıq ki, belə deyil; İslam birliyi ruhaniyə qarşı çıxır, yaxud qarşıdurma yaradır. Təbii ki, bu zaman qüvvələr parçalanır, bəzən də toqquşur və bir-birini ortadan götürür.[2]

**Sual:** Ruhanilərdən əlavə, universitet rektorları və müəllimlər də tələbələrin dini tərbiyəsində təsirli amildirlər. Bəzən bu şəxslərin dindar tələbələrə həqarət gözü ilə baxmaları və elmlərini əsirgəmələri hiss olunur. Bu barədə fikriniz nədir? Belə şəxslərə qarşı hansı tədbiri görmək lazımdır?

**Cavab:** Mən bir neçə il bundan əvvəl bir söz dedim, bəziləri səs-küy saldılar. Dedim ki, universitetlərin rəhbərliyi həm də elmi rəhbərlik olmalıdır. İndi də fikrim budur. Universitetin başında elə adam durmalıdır ki, orada olanlar bu şəxsi rəis kimi qəbul etsinlər. Sözsüz ki, əməl və etiqadla yanaşı olan elmdən söhbət gedir. Bu quruluşun başının bədənindən ayrılmasını istəyən, ümumiyyətlə İslama etiqad bəsləməyən, yaxud İslamı və hizbullahçıları məsxərə edən, yaxud, mömin tələbəni ələ salan etiqadsız bir şəxs işlərin başına keçməməlidir. Xeyr! Onun qolundan tutub kənara qoyun. Bizim siniflərimizdə dərs

---

[1] Vilayət hədisi, c. 5, səh: 220-221.

[2] Yenə orada.

demək istəyirsə, eybi yoxdur. Hansı müəllim gəlib dərs desə, qəbul edərik. Biz hər bir kəsin elmindən bəhrələnirik; hətta bizi qəbul etməyənlərin belə. Elmini öyrətsin, biz çox təvazökarlıqla oturub onun elmindən bəhrələnərik, quruluş onun elmindən istifadə edər. Lakin universitetin idarəsində təyinedici olması əsla yolverilməzdir. Kimsə çadralı, yaxud hicablı qıza təhqir gözü ilə baxırsa, onu təhqir edin, heç nəyi nəzərə almayın; kimsə saqqal saxlayan hizbullahçı gəncə təhqir gözü ilə baxırsa, belə gəncləri süründürürsə, onu təhqir edin. Bəzən bizə belə məlumatlar çatır.

Dəyər Allaha itaətdə, imanda, ölkəyə və cəmiyyətə qayğıdadır, şıq geyinməkdə deyil. Şəhvətli ləzzətlərindən və yeyib-içməyindən keçməyən, ümumiyyətlə ağır vəzifəyə yaxın durmayan bir insan hansı haqla bu quruluşda mühüm şəxsiyyət olduğunu deyə bilər?! Elmi də onun şəxsi həyatının və qarnının qulluğundadır, xalqdan ötrü deyil. Elminin də dəyəri yoxdur. Sizin nazirliyinizdə və universitetinizdə inqilabla bir istiqamətdə hərəkət etməyənin elminin də dəyəri yoxdur. Bəli, elmini bizim tələbələrimizə öyrətsə və tələbələrimiz ondan istifadə etsələr, sözümüz yoxdur; bu şərtlə ki, öyrətsin. Mən eşitmişəm ki, bəziləri hətta elmlərini də əsirgəyirlər. Mən bilmirəm, siz araşdırın, görün həqiqətən belədir, yoxsa yox. Deyilənə görə, sinifdə bir şey öyrətmir və tələbəni yetişdirmirlər. Belə bir şəxs ümumiyyətlə işə yaramır. Elmini öyrətmək istəyən şəxsdən isə öyrənsinlər; universitetdə dərs desin, problem yoxdur. Amma bu quruluşa, bu təfəkkürə, bu İslam hərəkatına, bu inqilaba etiqadı olmayınca, ona geniş imkanlar verməməliyik. Bu meyarlara cavab verən bir müəllim, yaxud rektor təyin etdikdə isə hamı ona hörmət etməli və doğrudan da gözünün üstündə saxlamalıdır. Tələbə də beə şəxsə hörmət etməlidir.[1]

**Sual:** Sizin fikrinizcə, universitetlərdə qeyri-inqilabçı kadrlardan istifadə etmək olarmı? Əgər olarsa, bunun hansı şərtləri var?

---

[1] Vilayət hədisi, c. 5, səh: 271-272.

**Cavab:** Keçmişdə universitet İslam mədəniyyətindən uzaq düşmək baxımından ən pis yerlər sırasında idi. Keçmiş rejim və onun mədəni qurumları universitetlərdə qəsdən bu işi görmüşdülər və bunun arxasında siyasi məqsədlər dayanırdı. Məncə bu gün universitetə girmək elm hövzəsinə girmək kimi başa düşülməlidir. İnsan elm hövzəsində din, etiqad və dindarlıq öyrəndiyi kimi, hətta İslam və inqilab əsaslarından uzaq bir tələbə də universitetdə təhsil aldığı müddət ərzində bu məsələlərlə tanış olmalı və dindar insana çevrilməlidir.

Məhz buna görə universitetdə dini tərbiyəyə və gənclərin həvəskar inqilabi təmayüllərinə əhəmiyyətli yanaşmaq lazımdır. Bu yalnız söyləməklə baş vermir. Bunun üçün bəzi hazırlıqlar lazımdır. Universtetlərdə işə götürülən kadrlar, təsirli və həssas mərkəzlərdə çalışanlar inqilabı həqiqətən ürəkdən qəbul edən insanlar olmalıdırlar. Biz demirik ki, universitetlərdə tədqiqat aparan, yaxud tədris edən hər bir müəllim və mütəxəssis birinci dərəcəli inqilabçı olmalıdır. Xeyr! Bu insan çox savadlı ola, inqilab da onun elmindən istifadə edə bilər. Biz ondan elmdən artıq bir şey istəmirik. Amma həmin məsələdə də inqilabla düşmənlik etməməlidir. Çünki bu hiss olsa, onun elmi inqilaba xidmət göstərə bilməz.

Deməli, həssas mərkəzlərdə, bütün universiteti, yaxud elm və tədris işlərini idarə edənlər, müdirlər, mühüm sahələrə nəzarət edənlər həqiqətən inqilabçı kadrlar olmalı, digərlərində də inqilaba qarşı düşmənlik hissi olmamalıdır. Hansı səviyyədə olursa-olsun, inqilaba müxalif olan şəxsin universitetdə çalışması zərərlidir; hətta təhsil üçün də zərərlidir. Mən mühakimə yürüdə bildiyim bəzi fənlərdə bunu görmüşəm. Müəllimin həmin fəndə şagird yetişdirmək bacarığı var, amma inqilaba etinasızlıq, yaxud müxaliflik səbəbindən hətta tələbə yetişdirməyə də vaxt ayırmır, inqilabçı tələbə və inqilab universiteti onun marağında deyil, hətta bu işə nifrəti də var.[1]

---

[1] Vilayət hədisi, c. 3, səh: 74-75.

**Sual:** Gənc və tələbə xüsusiyyətlərindən irəli gələrək, tələbələrin bəzi zəiflikləri və problemləri var. Həm onların özləri buna diqqət yetirməli, problemləri aradan qaldırmağa çalışmalı, öz zəif cəhətlərinə qarşı sayıq olmalı, həm də tələbələri yönəltmək, İslama uyğun yetişdirmək və onlara yol göstərmək istəyən şəxslər bu məsələlərə diqqət yetirməlidirlər. Lütfən bu barədə fikrinizi bildirin.

**Cavab:** Tələbənin xüsusiyyətlərini təhlil formasında deyə bilmərəm. Lakin eyni zamanda biz tələbələrdə bəzi xüsusiyyətlər görürük. Bunlar tələbənin daxili, yaxud xarici problemləridir.

Bir problem yad və zərərli mədəniyyətlərdən təsirlənmək, laqeydlik və pozğunluqdur. Tələbə bu mədəniyyətlərin hücumuna məruz qalır və bu, universitetlərin problemidir. Mən tələbə və universitet toplantılarında dəfələrlə demişəm ki, nə üçün hövzəyə daxil olan şəxs adətən dindar xaric olur, universitetə daxil olan isə belə olmur. Nə üçün belə olmalıdır? Doğrudan da düzgün gözləntidir və sonda belə olmalıdır. Lakin reallıq belə deyil. Reallıq budur ki, universitet xüsusi yaşda olan gənclərin çoxluğuna, qız və oğlanların olmasına görə müxtəlif məqsədlərin, növbənöv qeyri-sağlam əxlaqi və mədəni təmayüllərin təhlükəsi altında qalmış bir mərkəzdir.

Tələbə bazarda oturub xarici jurnal, kitab və digər amillərdən əsla xəbəri olmayan gənc deyil. Tələbə prinsip etibarilə xəbərdar olur, məlumatlanır, dünya məsələləri ona çatır və bununla da mədəni təhlükələrə, dinə biganəliyin, dini və inqilabi dəyərlərə laqeydliyin təsirinə məruz qalır. Bu, tələbə və universitetlərin problemlərindən biridir.

Qabaqkı problemə yaxın problemlərdən daha birisi düşüncə uçurumlarına və sapqınlıqlarına məruz qalmaqdır. Keçmişdə marksizmin çox aktiv vaxtında universitetlə əlaqəsi olan hər bir kəs bunu aydın şəkildə görürdü. Ümumiyyətlə universitetdə beyninə marksizm təfəkkürləri toxunmayan bir müsəlman tələbəni çox çətinliklə tapmaq olardı.

Ölmüş, yaxud hələ də yaşayan və bu gün sizin haqlı olaraq fikirlərinə etiraz etdiyiniz bəzi məşhur müsəlman ziyalıların düşüncə nöqsanlarının kökü onların tələbəlik və universitet dövrünə qayıdır. Marksist təfəkkürlər yayılırdı, biri onu rədd etmək üçün yenə də marksizm təlimlərindən istifadə edirdi; yəni qaçdığı tələyə düşürdü.

Bu əlamət inqilabdan öncəki iki onillikdə İslama dair tam məlumata yiyələnmədən marksizmlə qarşılaşanların düşüncə və sözlərində çox görünürdü. Marksist təfəkkür onlara təsir etmiş, bütün beyinlərinə və zehinlərinə hopmuşdu. O zaman belə bir şey duyulurdu, bu gün isə yoxdur, taxud ən azı ideoloji formasında yoxdur; baxmayaraq ki, onun tör-töküntüləri indi də var və məhv olmayıb. Eyni zamanda bu gün yeni sapqınlıqlar da yaranıb.

Dünya təkcə marksizmə görə yoldan çıxmayıb. Marksizmdən qabaq da yanlış, azğın və İslam əleyhinə olan təfəkkürlər olub, marksizmdən sonra da olub, indi də var. Bu gün dünyada bəzi Avropa filosofları, yaxud fəlsəfəpərdazları vasitəsilə müəyyən təfəkkürlər yayılır. Mən ad çəkmək istəmirəm, qoy sözüm elə ümumi qəbul olunsun.

Bu gün ABŞ və Avropanın bütün dünyaya qarşı yeni müstəmləkəçiliyinin yolbasanı olan və Qərb üslubunda demokratik cəmiyyətlərin yaradılmasını təbliğ edən təfəkkürlər var. Siz görürsünüz ki, dünya bunun üzərində həssasdır. Hicaba riayət edərkən bu cəmiyyətlərin geyiminə azca belə toxunulsa, bütün dünyaya səs salarlar. Hicabın qadağası zamanı isə kimin geyiminə toxunulursa-toxunulsun, dünyada onun yüzdə biri qədər də səs çıxmaz. Bu reallıqdır. Bu gün hegemon dünyanın səssiz-səmirsiz bütün dünyaya hakim etməyə çalışdığı yeni sistem və sivilizasiyanın əlamətlərindən biri də budur.

Bu çoxdan var, amma bu gün bir təfəkkür, ideologiya və məktəb formasına düşüb. "Açıq cəmiyyət" layihəsi belə nümunələrdəndir. Ümumiyyətlə açıq cəmiyyət nə deməkdir? Cəmiyyəti nə açır? Nə olmasa, cəmiyyət açıq cəmiyyət olmaz və faydasız olar; onda hətta demokratiyanın min şərti olsa belə? Bunlar bu gün dünyada mövcud

olan yanlış təfəkkürlərdir. Mən indi bunlara qarşı nə etməli olduğumuz haqda danışmaq istəmirəm, qısaca deyirəm ki, tələbə gənc müxtəlif qisimlərdə olan bu təfəkkürlərin hücumu qarşısındadır.

Üçüncü problem diploma meyl, maddi həyata və gəncliyin ləzzətlərinə diqqətin çoxluğudur. Elm hövzələrində bəzən sonradan nə isə yaransa da, ənənəvi olaraq belə bir şey yoxdur. Lakin işi təhsil almaq olan tələbə gənc bu işlərə sövq edilib və qovulub. O, gələcəyi, gələcəkdəki dükanı, işi, pulu, hansı fənnin daha gəlirli olmasını, insana daha geniş imkanlar yaratmasını düşünür. Bu da böyük problemlərdəndir və bu haqda düşünmək lazımdır; çünki elmə ziyan dəyir.

Başqa bir problem siyasi qrupların alətinə çevrilmək problemi və universitetdə aparılan siyasi işlərdir. Bəzən tələbələrin özünün heç bir xüsusi siyasi ideya və məqsədi olmur, lakin bir siyasi qrupun, yaxud cərəyanın alətinə çevrilir. Onlar ondan çomaq kimi istifadə edir və istədikləri şəxsin başına vururlar. Bu da çox böyük və əhəmiyyətli bir problemdir.

Başqa bir problem işlərdə çaşqınlıq problemidir. Tələbə təbii olaraq aydındır; yəni aydın və ziyalı qruplardan sayılır, ölkənin vəziyyətinə dair fikir və əqidə sahibidir, fikrini də bildirmək istəyir. Tələbə yalnız "biz belə düşünürük və belə etmək istəyirik" deməklə qane olmur. Həm də onun bilməsinin və fikir bildirməsinin tabeliklə ziddiyyəti yoxdur. Tabe olur, amma qəbul etdiyi işin səbəbini bilmək istəyir. Bilməsə, tədricən şübhə yaranar, bu şübhə və qaranlıq onun tabeliyini də zəiflədər. Deməli, tələbənin problemlərindən biri budur. Tələbələr adətən hadisələrdən xəbərsiz olduqlarından və işlərin əsl mahiyyətini bilmədiklərindən radioda, yaxud qəzetdə bir xəbər yayılan kimi beyinləri çalışmağa başlayır. Xarici təsirin olmadığı təqdirdə belə olur, təsir olduqda isə müsibət yaranar.

Və nəhayət, bir mühüm məsələ də, bəlkə də bəzilərinə görə ən mühüm problem olan kimliyin olmaması, cəmiyyət, tarix, gələcək və özü qarşısında həqiqi missiyasını dərk etməməsidir. Tələbə doğrudan

da kim olduğunu bilmir. O bilmir ki, indi kimdir və gələcəkdə üzərinə hansı rol düşəcək; çörək və ad-san dalınca qaçan bir tacir kimidir. Başqa sözlə desək, tələbənin həqiqi missiyası onun özü üçün tam aydın deyil. Bunlar tələbənin problemləridir.

Bu problemlərin bir qismini dedik, heç şübhəsiz, bunlardan çoxdur, başqa məsələlər, problemlər və çoxlu xırdalıqlar da var: müəllim və tələbə, rektor və tələbə, müxtəlif tələbə qrupları arasında olan müxtəlif əlaqələr, dinsiz tələbə ilə dindar arasında olan qarşıdurma, hətta dindarların özlərinin arasında olan çəkişmə və digər müxtəlif problemlər var.[1]

**Sual:** Tələbə hərəkatının xüsusiyyətləri hansılardır?

**Cavab:** Mənim ölkəmizin inqilabdan öncədən inqilaba qədərki və ondan sonrakı tələbə hərəkatının xüsusiyyətləri haqda deyə biləcəklərim bunlardır:

Birinci xüsusiyyət məsləhətçiliyin qarşısında amalçılıq - amallara eşq bəsləmək, onlara vurğunluqdur. Bəzən hansısa maneələr insanın gözünü tutur, amalları çox uzaqda və əlçatmaz göstərir. Bu çox təhlükəli haldır. Bəzən amallar unudulur. Gənclərin arasında isə amallar hiss olunur, yaşanır, canlı və əlçatandır. Buna görə də ondan ötrü çalışırlar. Bu çalışmanın özü səmərəli bir işdir.

İkinci xüsusiyyət sədaqət, paklıq və səmimiyyətdir. Tələbə hərəkatında kələk, saxtakarlıq, hiylə və adətən adi həyatda işlədilən qeyri-insani üsullar ya azdır, ya da təbii olaraq yoxdur. Adi həyatda, siyasətdə, ticarətdə və ictimai münasibətlərdə hər bir şəxs sözünə diqqət yetirir ki, görsün bu sözdən nə qazanır və nə itirir. Bu onun nə qədər zirək, bacarıqlı və ağıllı olmasından asılıdır. Lakin tələbələr adətən sözü yaxşı və düzgün olduğu, özünə və həqiqətə gözəl göründüyü üçün deyir və izləyirlər. Bunu ümumiləşdirmək istəmirəm və tələbələrin hər

---

[1] Vilayət hədisi, c. 5, səh: 215-219.

birinin hər bir sözdə belə olduğunu demək istəmirəm. Bu, əksərən belədir.

Üçüncü xüsusiyyət müxtəlif partiya, siyasət, millət və digər bağlantılardan azadlıqdır. Tələbə toplumunda bu xüsusiyyəti müşahidə etmək olar. Onlarda adətən müxtəlif siyasi və qeyri-siyasi qrupların öz adamları üçün qoyduğu məhdudiyyətlərdən əsər-əlamət yoxdur. Gəncin belə məhdudiyyətlərə hövsələsi çatmır. İnqilabdan öncə bəzi partiyalar bir sıra işlər görür, universitetə çatanda isə dayanırdılar. Üç-dörd nəfəri üzvlüyə götürmələri mümkün idi, lakin nəzərdə tutduqları qayda-qanunları, dünyada partiyalar üçün normal olan çox kəskin partiya qanunlarını tələbələr arasında düzgün icra edə bilmirdilər. Çünki tələbə haradasa özü nəzəriyyə yürüdür. O zaman Kommunist partiyası fəal idi, çox böyük təşkilatı vardı, Sovetlərlə əlaqədə idi və ümumiyyətlə onlar üçün işləyirdi. Lakin universitetə çatanda çoxlu partiya həqiqətlərini tələbələrdən gizlətməyə məcbur olurdular.

Tələbə hərəkatının dördüncü xüsusiyyəti fərdlərə söykənməməkdir. Yəni bu hərəkat Şərif Sənaye Universitetində var; bu gün də mövcuddur, 10 il bundan qabaq da olub, 10 il sonra da olacaq. Lakin nə 10 il bundan qabaq siz vardınız, nə də 10 il sonra siz burada olacaqsınız. Amma bu hərəkat var, çünki fərdlərə arxalanmır, mühitə və mövcud topluma aiddir.

Çox əhəmiyyətli olan beşinci xüsusiyyət budur ki, onda insan fitrəti baxımından pis sayılan hallara – misal üçün, zülmə, hegemonluğa, ayrıseçkiliyə, ədalətsizliyə, saxtakarlığa və ikiüzlülüyə qarşı mənfi reaksiya var, onları özündən uzaqlaşdırır. İnqilabın əvvəlində münafiqlər inqilabın imkanlarından istifadə edib gənclərin və tələbələrin arasına girməyi bacardılar. Onların münafiq olduğu bəlli olanda isə əksər yerlərdə onlardan üz çevirdilər. Nə üçün onlara münafiq deyirdilər? Çünki iddia edirdilər ki, dini ideologiya əsasında təşkilat yaratmışlar, çalışır və gələcək qururlar; lakin əməldə məlum olurdu ki, xeyr, dini ideologiyadan əlamət yoxdur. Təfəkkürlər marksizmlə qarışmış təfəkkürlərdir; o da xalis marksizm yox, qarışmış, eklektik

formada. Əməl, fəaliyyət və mübarizədə də əsas məqsədləri hakimiyyətə gəlmək idi. Əldə edilməsində çox rolları olmayan, qrup kimi isə əsla rolları olmayan hakimiyyətə gəlmək üçün çalışırdılar. Onların arasında bəlkə də kimlərsə xalqa qoşulub bəzi işlər görmüşdülər. Onların münafiqliyi aşkara çıxanda, zahirlərinin iç üzləri, sözlərinin ürəkləri və iddialarının əsl istədikləri ilə eyni olmadığı bəlli olanda gənc tələbələr onlardan üz çevirdilər.

Tələbə hərəkatında və universitetlərin mahiyyətində olan altıncı xüsusiyyət budur ki, ona təkcə emosiyalar hakim deyil, onda həm də məntiq, təfəkkür, təhsil, öyrənməyə və araşdırmağa meyl də mövcuddur. Bunun zəif və güclüsü var; bəzən az, bəzən isə çox olur. Bizim fikrimizcə, bunlar tələbə hərəkatı, yaxud tələbə oyanışı adlanan amilin xüsusiyyətləridir.[1]

**Sual:** Bu xüsusiyyətləri bilmək nə üçün vacibdir?

**Cavab:** Tələbə hərəkatı, yaxud daha düzgün ifadə ilə desək, tələbə oyanışı yeni bir şey deyil; yalnız İrana aid bir şey də deyil. Qeyd etdiyimiz kimi, bu, universitetə aiddir. Hər halda, bu oyanışın bəzi xüsusiyyətləri, bəzi məqsədləri var və bəzi nəticələrə səbəb olur. Bu xüsusiyyətlərlə yaxşı tanış olsaq, ondan ölkə və cəmiyyət üçün tükənməz bir sərvət kimi istifadə oluna bilər. Lakin yaxşı tanış olmasaq, sizin xəbərdar olmadığınız və işləndiyi yerini bilmədiyiniz bir sərvət kimi əldən çıxar. Ən pis hal budur ki, bu xüsusiyyətlərin sahibi olan sizlər onlardan xəbərdar olmayasınız, bir oğru, bir hiyləgər isə burada gizli bir xəzinə olduğunu və o xəzinənin hansı işlərə yaradığını bilsin. Bu zaman həmin oğru gəlib ondan istifadə edər. Bu, daha zərərli haldır. Ən vacib işlərdən biri budur ki, əvvəla tələbənin özü, ikincisi tələbə və universitetlərin rəhbərləri, üçüncüsü isə ölkənin məsul şəxsləri mahiyyətcə tələbəyə məxsus olan bu fenomeni aşkarlamalı, tələbə

---

[1] Şərif Sənaye Universitetində görüşdəki çıxışdan: 1999.

oyanışını, tələbə hərəkatını, necə adlandırmanızdan asılı olmayaraq, bu amili tanımalıdırlar.

Bu fenomenin mənşəyi universitetdə və tələbədə olan bəzi xüsusiyyətlərdir. Gənclik yaşı, enerjisi, gücü və bacarığı, tələbənin bu dövrdə tanış olduğu istər elmi, istər siyasi və ictimai bilgilər, tələbəlik asudəliyi, – tələbə məişət və çörək problemləri, həyatın yükləri ilə üzləşmir, nisbətən azaddır, həm də heç bir yerdə işləmir - tələbələrin xüsusi bir yerdə toplanması, cəmiyyətin ümumi ab-havasından təsirlənməsi, onları həm müsbət, həm mənfi cəhətdən özündə əks etdirməsi olduqca əhəmiyyətli və eyni zamanda çox faydalı olan bu fenomenin amillərindəndir. Onlardan istifadə olunmasa, yaxud pis istifadə olunsa, çox təhlükəli olar.[1]

**Sual:** Tələbə hərəkatından mənfi istifadənin təhlükələri, başqa sözlə desək, tələbə hərəkatının təhdidləri hansılardır?

**Cavab:** Qeyd etdiyim kimi, tələbə hərəkatını təhdid edən amillərin biri yad ünsürlərin ona tamah salması, ondan sui-istifadə etməsidir. Bizim özümüzün yaxından şahid olduğumuz və işlərini gördüyümüz bir dövrdə bəzi qüvvələr tələbə hərəkatının başının bədənindən ayrılmasını istəyirdilər. Gənclər, xüsusən də tələbələr harada bir iş görürdülərsə, bunlar üzlərini turşudur və ona dözmürdülər. Bunlar əlverişli bir sahənin olduğunu, ölkədəki tələbə və gənc nəslin danışdığını, təyin etdiyini gördükdə əvvəlcə sürünə-sürünə, sonra yavaş-yavaş yarımqalxmış vəziyyətdə, sonra da boyunlarını uzadaraq gəlirlər ki, biz də varıq. Əgər hakimiyyətə can atan qərəzli, pis niyyətli və pis keçmişli siyasi qüvvələr tələbə hərəkatına sarı gəlib özlərini ona yapışdırmaq istəsələr, bu bir təhdiddir. Bəzən mənim yanıma gələn tələbə birliklərinə və təşkilatlarına bu təhlükəli qüvvələrin kim olduğunu açıq şəkildə demişəm. Bu söhbət yayıla bilər deyə, burada ad çəkmirəm, onlar üçün isə adlarını çəkmişəm. Bəzən pis bir insan,

---

[1] Yenə orada.

natəmiz bir niyyət yaxşı bir niyyətdən, yaxşı bir insandan, yaxşı bir hərəkətdən sui-istifadə etmək istəyir. Bu zaman insanın ürəyi yanır, bacardığı təqdirdə bunun qarşısını almağa çalışır. Burada da elədir. Tələbələr ehtiyatlı olmalıdırlar. Demək olmaz ki, kimsə tələbələrdən ehtiyatlı olsun. Bu, məqsəddən yayınmaq olar. Tələbələr özləri ehtiyatlı olmalıdırlar ki, pis fikirli insanlar, qruplar, təşkilatlar, pis fikirli, pis adlı və pis keçmişli qüvvələr onlara yaxınlaşmasınlar. Bir xeyir iş görmək istəyirlərsə, gedib özləri görsünlər, tələbələrlə işləri olmasın.

Tələbə hərəkatını təhdid edən amillərdən başqa birisi, qeyd etdiyim kimi, amallardan uzaqlaşmaqdır. Mənim əzizlərim! İnqilabdan illər öncə 16 azər (7 dekabr) günündə bir cinayət hadisəsi baş verdi. İnqilabın əvvəlində 16 azəri unutdurmaq üçün bir iş gör görmək olardı; çünki bizdə çoxlu hadisələr baş vermişdi. Lakin ölkənin başçıları və xeyirxah insanları bu günün xatirəsinin yaşamasını istəyirlər. Nə üçün? Çünki həmin gün bir haqq sözə görə universitetdə bir hadisə baş verdi. Sonralar cəllad cəbhə gənclərin istədiyi bu uca məqsədə görə onlara qarşı çıxdı və bu da üç nəfərin öldürülməsi ilə nəticələndi. Məsələ nədən ibarət idi? Amerika ilə qarşıdurmadan. Nə zaman? Amerikanın siyasətinin, dövlətinin, rejiminin, təhlükəsizlik və hərbi qüvvələrinin bu ölkənin bütün sahələrinə hakim olduğu zaman. Bu ölkədə aşkar və gizli olan hər şey amerikalıların əlində idi. Bu gün amerikalıların müsəlman İranın onlara arxa çevirdiyinə görə necə qəzəbləndiklərini görürsünüz. Bu həmin günü xatırladıqlarına görədir. Onlar burada dayanıb bütün regiona, ərəb ölkələrinə, Türkiyəyə və digər yerlərə ağalıq edir, əmr verirdilər, buranı özlərinki bilirdilər.

Buna da diqqət yetirin: sizin ölkəniz coğrafi baxımdan çox həssas bir nöqtədə yerləşir. Düzdür, o zaman SSRİ-yə görə amerikalılar üçün bir cəhətdən daha həssas idi. Bu gün SSRİ yoxdur. Lakin əvvəla çox mühüm olan Orta Asiya ölkələri, ikincisi isə Qərb və xüsusən də ABŞ üçün çox əhəmiyyətli olan Rusiya var. Rusiya indi ölümlə həyat arasında qalmış bir vəziyyətdədir. Onlar bilirlər ki, dünyanın ən böyük ölkələrindən biri olan və ən həssas regionlarından birində yerləşən

Rusiya öz ayağı üstə möhkəm dayanıb Amerikanın təsiri altına düşməməyi bacarsa, Amerika və dünyanın təkqütblü perspektivi üçün təhlükəli olacaq, keçmiş sovetlərin başqa bir formasına çevriləcək. Buna görə Rusiya çox mühüm yerdir. Deməli, bu gün SSRİ olmasa da, Orta Asiya və Rusiya var. Digər tərəfdən, bir gün SSRİ-nin təsiri altında olan və bu gün amerikalıların tamah saldığı İraq və Suriya kimi ölkələr var. Yəni İran İslam Respublikasının coğrafi və geosiyasi mövqeyi, çox mühüm və regionda spesifikdir.

Amerikalılar baxıb görürlər ki, burada heç bir istinad yerləri yoxdur; hətta zəif bir səfirlikləri, maraqları qoruyan bir dəftərxanaları da yoxdur. İndi bu ölkədə bir amerikalı məmur belə çalışmır. Maraqlarını qoruyan tərəf isveçrəlilərdir. Burada ABŞ-ın heç bir mövqeyi yoxdur. Çalışıblar, bir müddətdir təzyiq də göstərirlər, lakin bizim məsul işçilərimiz müqavimət göstərir və icazə vermirlər. Deyirlər ki, Tehranda ABŞ maraqlarını qoruyan ofis fəaliyyət göstərsin. Bunlar əslində satqın ünsürlərlə əlaqə qurmaq üçün Tehranın ortasında bir kəşfiyyat mərkəzi açmaq istəyirlər, məqsədləri budur.

Bugünkü qəzəblərinin bir səbəbi də inqilabdan öncə buradakı vəziyyətləridir. Elə bir şəraitdə tələbələr ABŞ-ın vitse-prezidentinin İrana gəlməsinə qəzəbləndilər və öz qəzəblərini bəlli şəkildə nümayiş etdirdilər. Nəticədə isə 16 Azər hadisəsi baş verdi. İndi o hadisədən təxminən 40 il ötür, lakin xatirəsi hələ də yaşayır.

İslam inqilabı ölkənin siyasi coğrafiyasını bütünlüklə dəyişdirdi. Bu gün siyasi istiqamət keçmişdən tam fərqlidir. İndi müstəqil, dini, islami və həqiqətən xalqçı bir quruluş yaranmışdır. İran ABŞ hegemonluğuna nifrət bəsləyən bütün insanların diqqət mərkəzinə çevrilmişdir. Çoxlu xalqlar İranın Amerika əleyhinə şüarlar səsləndirməsinə sevinirlər. İmkan olsaydı, mən burada elə adlar çəkərdim ki, hamınız təəccüb edərdiniz. Böyük və məşhur ölkələr amerikalıların istismarçılığına qarşı var gücü ilə və açıq-aşkar danışan bir xalqın olmasına çox sevinirlər. Belə bir şəraitdə bir qrup adamın tələbə adı altında 16 Azər hərəkatına zidd fikirlər səsləndirməsi, çox

puç, zəif, məntiqsiz və əsassız olaraq Amerikaya rəğbət göstərməsi tələbə hərəkatına arxa çevirməkdir. Bu ümumiyyətlə tələbə hərəkatı deyil. Bu tam başqa bir şeydir, onun əksidir. Onlar əsas məsələni unutdurmaq məqsədilə Amerikaya müxaliflik məsələsini çox kiçik, dəyərsiz və köksüz olan siyasi cinahlarla izah etmək istəyirlər. Bu yolverilməzdir. Bu, tələbə hərəkatını təhdid edən amillərdəndir. Deməli, tələbə hərəkatını təhdid edən amillərin biri amallara və amalçılığa arxa çevirməkdir.

Ölkədə ictimai ədalət məsələsi gündəmdə olanda tələbə bunu müdafiə etməlidir. İctimai ədalət elə bir şeydir ki, hətta siyasi dəlillərə və müxtəlif məqsədlərə görə təkidlə bu siyasəti zəiflətmək istəyənlər də, sonda bacarmadılar və onu dəstəkləməyə məcbur oldular. Dünyada hegemonlardan və soyğunçulardan başqa heç kimin ictimai ədalətdən açığı gəlməz. Ölkədə bu siyasət gündəmdə olanda onu kim müdafiə etməlidir? Bu haqda hamıdan çox kim düşünməlidir? Onun üçün kim çalışmalı, onu təmin etməyin yolları haqda tədqiqat aparmalı, araşdırmalı və dəyirmi masa keçirməlidir? Tələbələrdən başqa kim?! Diqqət yetirmək lazımdır ki, bu tələbə hərəkatı və tələbə oyanışı əsla məqsədlərin əksinə sarı getməsin. Deməli, bu hərəkatı təhdid edən amillərin biri məqsədlərə arxa çevirmək, amalları unutmaq və onları yaddan çıxarmaqdır.

Tələbə hərəkatını təhdid edən mühüm amillərdən biri də bəsit olmaqdır. Mənim əzizlərim! Bəsit düşünməkdən ciddi şəkildə çəkinin. Tələbə xaraktercə dəqiq və dərin düşünəndir. Eşitdiyiniz hər bir söz üzərində diqqətlə düşünün. Nə üçün İslam dinində bir saat fikirləşmək illərlə ibadət etməkdən dəyərli sayılır? Ona görə ki, siz fikirləşsəniz, ibadətləriniz də, quruculuq fəaliyyətiniz də, mübarizələriniz də mənalı olacaq, dostunuzu və düşməninizi də tanıyacaqsınız.

Müharibədə öz cəbhələri ilə düşmən cəbhəsini seçməyən insanları təsəvvür edin. Onlar sərgərdan halda öz dövrələrinə fırlanır, bəzən buraya atəş açırlar, bəzən oraya; bəzən yuxarıya atəş açırlar, bəzən özlərinə. Baxın, düşüncə olmasa, insan belə olur. Bəzi qüvvələr

fəryadların, şüarların, yalançı rəng və oyunbazlıqların arasında tələbə təbəqəsini buna sövq etmək istəyirlər. Bu, tələbə hərəkatı üçün təhlükəli amildir. Fikirləşmək lazımdır. Fikirləşməklə edilən seçim düzgün olar. Bir düşüncəli adam hansısa seçimdə səhv etsə, onunla asanlıqla danışmaq olar. Düşüncəsiz adam isə hər hansı bir seçimi etsə, onunla danışmaq, məntiqli söhbət etmək mümkün olmaz. O, təəssübünə, bilməzliyinə və cəhalətinə təslim olub. Düşüncəli və diqqətli adamdan bir səhv baş versə də, xeyirxah bir insan onunla danışıb deyə bilər ki, filan dəlilə görə bu iş səhvdir. Bəsit olmaq lazım deyil. Hər bir şüara, hər bir xoş sözə, hər bir isti ağıza etimad etmək olmaz. Düşünmək lazımdır. Əsas məsələ düşüncədir. Alim və istedadlı insanlardan əsas gözlənti budur.

Təhdidlərdən başqa birisi partiya və qrupların alətinə çevrilməkdir. Bunu qabaqca da dedim. Ehtiyatlı olun ki, müxtəlif partiya və qrupların təhlükəli caynaqları sizi tələyə salmasın. Onlar azad düşüncəli bu təbəqənin müsbət xüsusiyyətlərinin çoxunu alacaqlar. Bu baş versə, insan inqilab düşmənlərinin xidmətinə keçər və təhlükəli bir şey alınar; həyatı, sərmayəsi və gələcəyi həqiqətən hədər gedər və insan həsrət içində yanar.[1]

**Sual:** Tələbələri düzgün yetişdirmək üçün nə etmək, onları İslam quruluşuna və xalqa xidmətə cəlb etmək üçün hansı amilləri nəzərə almaq lazımdır?

**Cavab:** Tələbə yetişdirməkdə iki əsas amil var. Onların heç birinə əhəmiyyətsiz yanaşmaq olmaz. Əgər əhəmiyyətsiz yanaşsaq, ziyanını çəkəcəyik. Bu amillərin biri elm, tədqiqat, elmi işgüzarlıq, elmi istedadların çiçəklənməsi və bu tip məsələlərdən, biri də dindarlıqdan, düzgün hərəkətdən, tələbənin mənəvi və psixoloji sağlamlığından ibarətdir. Universitetlərdə bu iki amili bir-birindən ayırmadan ölkənin bütün imkanları daxilində onlara riayət etmək lazımdır.

---

[1] Yenə orada.

Birinci amildə səhlənkarlıq göstərsək, nəticə nə olar? Hamı bilir. Tələbəyə elm və tədqiqat öyrədə bilməyən, tələbəni bir alim, müəllim, yaradıcı və nəhayət cəmiyyətin saysız-hesabsız sahələrindən biri üçün aktual başçı edə bilməyən bir mərkəzdən universitet çıxmaz. Bu sahədə müəllim, dərs vəsaiti, təhsil şəraiti, laboratoriya və elmi jurnallar məsələsi var. Bunlar həmişə bizim dilimizin əzbəridir, hamımız onlarla məşğuluq. Sizin təxminən hamınız universitet mənsubları olduğunuza görə, bu məsələləri çox yaxşı bilir və bunlarla məşğul olursunuz. Ölkənin imkanları həddində bu sahələrdə günbəgün inkişaf etməliyik!

İkinci amil dindarlıqdan, düzgün hərəkətdən, tələbənin mənəvi və psixoloji sağlamlığından ibarətdir. Düzdür, siz buna da diqqət yetirirsiniz. Mən həm təbii şəkildə belə bir qrupun bu ikinci amildən də xəbərsiz olmadığını bilirəm, həm də sizin təxminən hər birinizlə istər bu şurada, istər şura xaricində oturub-durduğuma görə bundan xəbərdaram. Lakin ölkənin ümumi universitetlərində bu ikinci amilə - yəni tələbənin dindarlıq və ayıqlıq məsələsinə, onun məqsədsiz bir elm adamı halətindən çıxıb məqsədli bir elmi kadra çevrilməsi amilinə yetərli diqqət mövcud deyil.

İnsan kompüter deyil. Kompüterə bir proqram yükləyirlər, o da məsələnin cavabını hesablayır. İnsan isə belə deyil. İnsan özü öz proqramını tənzim etməli, qərar verməli, istiqamət seçməlidir. Biz bu ikinci istiqaməti yaddan çıxarsaq, universitet imamın dəfələrlə xəbərdarlıq etdiyi universitet olacaq.

Universitetdə çalışmış, onu bizdən yaxşı tanıyan, həm də dini hisslərə malik olan siz cənablar bunu yaxşı dərk edirsiniz. Universitetin dindən ayrı və dinə yad olması böyük bir faciə deməkdir. Bu faciəni aradan qaldırmaq olduqca çoxlu tələfatlara və böyük problemlərə səbəb ola bilər. Bu problemlərin sonra aradan qalxıb-qalxmaması da bəlli deyil.

İslam Respublikasının xüsusiyyəti belədir ki, onun kadr yetişdirmə aparatı düzgün hərəkət etməli və İslam Respublikasının məqsədlərinə uyğun kadrlar hazırlamalıdır. Biz yalnız alim olan, bir

xalqın, xüsusən də müsəlmanların malik olduğu müqəddəs arzulara yiyələnməyən bir insan yetişdirmək istəsək, yaxşısı budur ki, tələbələrimizi qrup-qrup elm mərkəzlərinin bizdən daha imkanlı və daha modern olduğu ölkələrə göndərək, gedib orada elm öyrənib qayıtsınlar. Məqsəd bu deyil. Məqsəd budur ki, ölkə elm və düşüncə baxımından layiqli insanların vasitəsilə və öz məqsədləri istiqamətində hərəkət etsin. Bu yalnız o zaman mümkün olar ki, bu insanlar həmin məqsədləri bilib qəbul etsinlər.

Universiteti bitirən şəxs – yəni universitetin məzunu nə inqilaba, nə dinə, nə ölkəyə, nə milli istiqlaliyyətə və böyük milli arzulara qarşı məsuliyyətli olacaqsa, bu universitet elmi baxımdan nə qədər yüksək olsa da, dəyəri olmaz, onun məhsulu və məzunu asanlıqla müxtəlif siyasi qüvvələrin ixtiyarına keçər.

Bu amil bizim universitet proqramlarımızı müəyyən etməlidir. Biz universitetdə dini, inqilabi ruhiyyəni və milli asılılığa nifrəti diqqət mərkəzində saxlamalıyıq. Asılılıq məsələsi xüsusi əhəmiyyətə malikdir. Təəssüf ki, bu gün dünyanın siyasi mövqe baxımından kiçik ölkələri, necə deyərlər, keçmiş üçüncü dünya və əsasən müsəlman ölkələri belə asılı vəziyyətdə olub gözlərini başqalarına dikmişlər.

Bu asılılığı elm öyrənməyə həvəslə səhv salmaq olmaz. Bəzən elm bizim düşmənimizin əlində olur; düşmənin yanına gedib diz üstə oturar və ondan elm öyrənərik. Bunun eybi yoxdur. Elmin dəyəri o qədər ucadır ki, insan ona görə hətta müxalif olduğu şəxsin yanına da gedə bilər. Bu bir məsələdir, elmdən başqa cəhətlərdə - siyasətdə, mədəniyyətdə və digər sahələrdə düşmənin təsiri altına düşmək isə başqa bir məsələdir. Bizim üçün, necə deyərlər, üçüncü dünya üçün istədikləri və planlaşdırdıqları ikincisidir. Təsadüfən birincinin baş tutmaması üçün işlər də görmüşlər.

On illərdir indiki geriqalmış dünya üçün beyinlərin qaçışından ibarət böyük problem gündəmdədir. Bunlar yaxşı və seçilmiş insanları oğurlayıb aparır, öyrənənlərin və istedadlıların həmin ölkələr üçün

çalışmasına da imkan vermirlər. Odur ki, ikinci məsələnin əhəmiyyəti birinci məsələdən çox olmasa da, ən azı onun qədərdir.

Universitetlərdə dini dirçəltmək lazımdır. Bizim universitetimiz dinsiz doğulmuşdur. Bu aydın məsələdir. İndiki formada olan universitet əvvəldən dinsiz doğulmuşdur, bunu planlı şəkildə belə etmişlər. Bu o demək deyil ki, hansısa universitetin təsisçisi dindar adam olmuş, yaxud olmamışdır; ümumiyyətlə buna dəxli yoxdur. Universitetin özülü qeyri-dini və hətta antidin təməllər üzərində qurulmuşdur; əvvəldən dinsiz doğulmuş ölkəmizin ziyalı çevrəsi kimi.

Əsaslı və güclü dinin xüsusiyyəti belədir ki, müxtəlif yerlərə, çevrələrə nüfuz etmək üçün kimdənsə icazə gözləmir. Din universitetə, ziyalı çevrələrinə və elmə də nüfuz etmiş, hər yerə girmişdir. Lakin bünövrə yanlış bünövrə idi. Bu bünövrə dəyişməli və yenə qabaqkı kimi olmasına imkan verməməliyik; təbii ki, düşmən də bikar oturmur.

İnqilabdan sonra mədəni inqilab - yəni universiteti İslam istiqamətinə qaytarmaq üçün həqiqətən böyük zəhmətlər çəkilmişdir. Bəzi müəllimlər, tələbələr və müxtəlif məsul işçilər Allahın və xalqın yanında həqiqətən unudulmaz xidmətlər göstərmişlər. Bu işlərin hamısı gözəldir, lakin yarımçıqdır, tam deyil. Mədəni İnqilab Ali Şurası universiteti dindar, inqilabçı, siyasi cəhətdən ayıq və aktiv tələbə yetişdirən bir mərkəzə çevirməyi özünün ən mühüm və vacib vəzifələrindən bilməlidir. Bu sizin üzərinizə düşən işlərdən biridir. Bunu etməsəniz, xalqın düşmənləri onun əksini edəcəklər. Necə ki, indi müxtəlif üsullarla etməkdədirlər.[1]

**Sual:** Təəssüf ki, ölkənin siyasi mühitində, xüsusən də universitetlərdə ruhaniləri və elm hövzələrini gözdən salmaq istiqamətində işlər aparılır. Bu işdə məqsəd nədir və ümumiyyətlə ruhanilərə nə üçün belə hücumlar edirlər?

---

[1] Vilayət hədisi, c. 9, səh: 23.

**Cavab:** Bu, sadə bir iş və yalnız qrup məsələsi deyil. Bəllidir ki, elm hövzələrində təhsil və tədris sistemi əvvəldən dəqiq araşdırma, tədqiqat, yenilik, yaradıcılıq və elmi əsasları tənqid üzərində qurulmuşdur. Bəzi qüvvələrin elm hövzələrini təqlidçi kimi göstərməsi, onun Mütəhhəri, Behişti kimi şagirdlərini müstəsna nümunələr sayması düzgün deyil. Təbii ki, hövzəni düzgün tanımayan, onun nə olduğunu bilməyən adam belə səhvə yol verə bilər. Böyük ehtimalla və bəlkə də əminliklə demək olar ki, bunlar qərəzsiz şəkildə deyilir. Yəni burada pis niyyət yoxdur, amma həqiqətə ziddir və müxtəlif fəsadlara səbəb ola bilər. Bu, dinin bayraqdarı və nümayəndəsi olan ruhanilərin elmi və mənəvi dəyərinin tələbələrin gözündən düşməsinə gətirib çıxarır. Buna bənzər iş inqilabdan öncə daha naşı üsullarla görülürdü və təsirsiz ötüşmürdü. İnqilabdan qabaq universitet mənsubları həqiqətən ruhaniləri çoxdanışan, çox gözləntisi olan və heç bir şey bilməyən nadan adamlar sayırdılar. Mən onların çoxusu ilə rastlaşmışam. Məsələn, bir məclisdə bir hövzə tələbəsindən iki sanballı söz eşidəndə deyirdilər ki, ruhanilərin arasında həqiqətən sizin kimilər varmı? Halbuki həmin tələbə adi bir tələbə idi. Onlar ruhaniləri tanımırdılar, ölkənin elm mərkəzlərinin ruhanilər haqda təsəvvürü yanlış idi. Elm hövzəsi ümumiyyətlə elm və tədqiqat mərkəzi olmuşdur. Əgər ölkəmizdə elm üçün elmin, qarşılıqsız elmin nümunəsi varsa, bu, qədimdən fəaliyyət göstərmiş elm hövzələridir. Onlar isə buranı elmsiz bir yer bilirdilər.

Ruhani çevrələrdə və hövzə tələbələri arasında olan, Allahın lütfü ilə hələ də böyük həddə qalan zahidliyi və dünyaya etinasızlığı müasir universitet adamlarına müftəxorluq kimi tanıtdırmışdılar. Harada konkret işarə vurmadan "müftəxorlar" deyirdilərsə, ruhaniləri nəzərdə tuturdular. Belə təbliğat aparmışdılar.

Bu təbliğatın hədəfi nə idi? Hədəf ruhanilər deyildi, din idi. Biz ruhanilərin, fiqhin heysiyyətini, fiqhin elmi səviyyəsini və bir ölkənin ümumi hərəkətinə təsirini inkar etsək, yaxud sual altına salsaq, əslində böyük və təsirli bir təbəqənin dini təmayülünə zərbə vurmuş olarıq.

Onlar bu işi görmək və düşmən dəyirmanına su tökmək istəyirlər. Odur ki, universitetdə bu məsələyə çox diqqət yetirmək lazımdır.[1]

**Sual:** Tələbə, universitet, elm və tələbə hərəkatından söz düşdü. Son zamanlar universitetlərdə cərəyan edən və 1999-cu ilin iyul hadisəsində görünən proseslərə əsasən, onlara hansı tövsiyə və mesajlarınız var?

**Cavab:** Mənim tələbələrə sözüm budur ki, düşməndən ehtiyatlı olsunlar, onu yaxşı tanısınlar, bu işdə əsla diqqətsizliyə yol verməsinlər. Doğma adamlar görkəmində hər yerə soxulan özgələri tanıyın, gizli əlləri görün. Heç kəsi diqqətsizliyinə görə tərifləmirlər; gözlərini yumduğuna görə heç kəsə "afərin" demirlər. Diqqətsiz bir insana ziyan toxunanda məsuliyyət daşıyan və qınanan birinci şəxs özüdür. Ehtiyatlı olun. Tələbə qiymətli və dəyərli bir təbəqədir. Düşmən tələbəni hədəf seçmişdir. Bir neçə ildir tələbələri quruluşun qarşısında qoymağa çalışırlar, lakin bacarmırlar. Bundan sonra da bacarmayacaqlar. Onların bir qrup adamı fürsətdən istifadə edərək bulanıq sudan balıq tutmaq istəsə, tələbələrin içinə daxil olub bəzi şüarlar səsləndirsə, bəzi sözlər desə də, elə bilməsinlər ki, biz səhv edəcəyik. Xeyr! Biz səhvə yol verməyəcəyik. Biz öz tərəf-müqabillərimizi tanıyırıq. Tələbə bizim övladımızdır, bizə, bu ölkəyə məxsusdur. Tələbə adı altında, yaxud tələbələrin arasına girməklə fəsad törətmək istəyən düşməndir. Tələbələrin özü sayıq və diqqətli olmalıdırlar.[2]

---

[1] Vilayət hədisi, c. 9, səh: 29-30.
[2] Xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 1999.

## Altıncı fəsil: İctimai proseslərdə aparıcı şəxslərin rolu, haqq və batili ayırd etməkdə onların səhvə yol verməsinə səbəb olan amillər

**Sual:** Aşura hadisəsində iki qrup nəzərə çarpır: bir qrup cəmiyyətin aparıcı qüvvələrindən, İmam Hüseyni (ə), həmçinin Yezidi və Əbu Süfyan ailəsini yaxşı tanıyan adamlardan, bir qrup da aparıcı adamlara baxan avamlardan ibarətdir. Kərbəla hadisəsində bu iki qrupun rolu nədən ibarətdir və onların taleyindən necə ibrət almaq olar?

**Cavab**: Kufədən məktub yazıb İmam Hüseyni (ə) dəvət edənlərin adlarına baxanda, hamısının cəmiyyətin aparıcı, seçilmiş və görkəmli şəxslərindən olduğunu görürsünüz. Məktubların sayı çoxdur. Kufədən İmam Hüseynə (ə) yüzlərlə səhifə, bəlkə də bir neçə xurcun, yaxud böyük bağlama şəklində məktub göndərildi. Bütün məktubları böyüklər, başçılar, görkəmli və adlı-sanlı şəxsiyyətlər və sözügedən aparıcı insanlar yazmışdılar. Lakin məktubların məzmununa baxanda bəlli olur ki, haqq tərəfdarı olan bu aparıcı insanların hansıları dinlərini dünyalarına qurban verməyə və hansıları dünyalarını dinlərinə qurban verməyə hazır olan şəxslərdir. Məktubları ayırmaqla anlamaq olar ki, dinlərini dünyaya qurban verməyə hazır olanlar sayca çoxluq təşkil edir. Nəticədə Müslim ibn Əqil Kufədə şəhid edilir, 18 min sakini Müslimlə beyət etmiş bu Kufədən İmam Hüseynlə (ə) vuruşmaq üçün 20-30 min nəfər, yaxud daha artıq insan Kərbəlaya yollanır.

Avam insanlar aparıcı insanların arxasınca hərəkət edirlər. Bilmirəm həmişə ağıllı insanları düşündürən bu amilin böyüklüyü bizə tam aydın olur, yoxsa yox. Kufə hadisələrini mütləq eşitmisiniz. İmam Hüseynə (ə) məktub yazdılar. O həzrət ilk mərhələdə Müslim ibn Əqili Kufəyə göndərdi. Öz-özünə düşündü ki, Müslimi oraya göndərim; əgər vəziyyətin əlverişli olduğunu xəbər versə, özüm də oraya yollanaram. Müslim ibn Əqil Kufəyə daxil olan kimi şiə başçıların evinə gedib imamın məktubunu oxudu. İnsanlar dəstə-dəstə gəlib hamısı hörmət ifadə etdilər. Kufənin hakimi Nöman ibn Bəşir zəif və mülayim bir şəxs

idi. O dedi ki, kimsə mənimlə vuruşmasa, mən onunla vuruşmaram. Buna görə Müslimlə vuruşmadı. Vəziyyətin sakit olduğunu görən xalq Müslimə beyət etməyə başladı.

Batil cəbhəsinin, yəni Bəni-Üməyyə tərəfdarlarının aparıcı şəxslərindən iki-üçü Yezidə məktub yazaraq bildirdi ki, Kufəni istəyirsənsə, layiqli bir şəxsi vali yolla, çünki Nöman ibn Bəşir Müslim ibn Əqilin qarşısında müqavimət göstərə bilmir. Yezid də Bəsrənin hakimi olan Übeydullah ibn Ziyada fərman verdi ki, Bəsrədən əlavə Kufəni də idarə etsin. Übeydullah ibn Ziyad Bəsrədən Kufəyə qədər dayanmadan çapdı. Onun Kufəyə gəlişində də aparıcı qrupun rolu bəlli olur. İmkan olsa, onun bir hissəsini sizə danışacağam.

Übeydullah ibn Ziyad Kufənin darvazasına çatanda gecə idi. Kufənin adi camaatı - təhlil qabiliyyəti olmayan avam insanları atlı bir şəxsin dəm-dəsgahla və üzü niqablı şəkildə şəhərə daxil olduğunu görəndə elə bildilər İmam Hüseyndir (ə), irəliyə qaçıb "salam olsun sənə, ey Allah Rəsulunun oğlu" – deyə qışqırdılar. Avam adam belədir. Təhlil qabiliyyəti olmayan adam təhqiqatı da gözləmir, atlı bir şəxsin dəm-dəsgahla şəhərə girdiyini görən kimi onunla bir kəlmə danışmadan yanlış güman etdilər. Biri "o, İmam Hüseyndir" deyən kimi, hamısı "İmam Hüseyn! İmam Hüseyn!" – deyə qışqırdılar, salam verdilər, xoşgəldin dedilər, məsələnin aydın olmasını gözləmədilər.

Übeydullah da onlara əhəmiyyət vermədi, özünü darülimarəyə çatdırıb oradan Müslim ibn Əqilə qarşı mübarizə planının icrasına başladı. Onun əsas işi Müslim ibn Əqilin tərəfdarlarına güclü təzyiq göstərməkdən, hədələməkdən və işgəncə verməkdən ibarət idi. Bu məqsədlə Hani ibn Ürvəni hiylə və kələklə darül-imarəyə gətirdi, onu döyməyə başladı. Xalqın bir qrupu onun rəftarına etiraz üçün darülimarəni mühasirəyə alanda, yalan və hiylədən istifadə edib onları dağıtdı. Bu dövrdə də, necə deyərlər, haqq tərəfdarı olan, haqqı tanıyıb seçən, lakin dünyalarını haqdan üstün tutan aparıcı insanlar qrupunun rolu aşkar olur.

Digər tərəfdən, həzrət Müslim çox adamla hərəkətə başladı. İbn Əsirin tarixində göstərilir ki, zənnimcə 30 min nəfər Müslimin ətrafına toplaşmışdı, bunların təkcə 4 min nəfəri əllərində xəncər iqamətgahının ətrafında dayanıb onun lehinə şüar səsləndirirdilər. Bu hadisələr zilhiccə ayının doqquzuna aiddir. İbn Ziyad xalqı qorxutmaq üçün aparıcı insanların bəzilərini onların içinə göndərdi. Onlar xalqın arasında gəzib deyirdilər ki, kiminlə vuruşmaq istəyirsiniz? Nə üçün vuruşursunuz? Əgər yaşamaq istəyirsinizsə, evlərinizə qayıdın. Bunlar Yezid, İbn Ziyad, Üməyyə övladlarıdır, pulları, xəncərləri, dəyənəkləri var, onların isə heç nəyi yoxdur. İnsanları qorxudub Müslimin ətrafından elə dağıtdılar ki, işa namazında o həzrətin yanında heç kəs qalmadı, heç kəs. Sonra İbn Ziyad elan etdi ki, əhali Kufə məscidinə gəlib işa namazını mənim imamlığımla qılmalıdır. Tarix yazır ki, Kufə məscidi İbn Ziyadın arxasında işa namazına dayanan cəmiyyətlə doldu.

Nə üçün belə oldu? Mən baxanda deyirəm ki, haqq tərəfdarı olan aparıcı qrup müqəssirdir. Onların bəzisi son dərəcə pis rəftar etdilər. Məsələn kim? Məsələn Şüreyh Qazi. Şüreyh Qazi Bəni-Üməyyədən deyildi, kimin haqlı olduğunu bilir, nə baş verdiyini anlayırdı. Hani ibn Ürvəni yaralı şəkildə zindana salanda onun qəbiləsi Übeydullah ibn Ziyadın sarayının ətrafını nəzarətə götürdülər. İbn Ziyad qorxdu. Onlar deyirdilər ki, siz Hanini öldürmüsünüz. İbn Ziyad Şüreyh Qaziyə dedi ki, get gör Hani sağdırsa, bunu camaata xəbər ver. Şüreyh gördü ki, Hani ibn Ürvə sağdır, amma yaralıdır. Hani Şüreyhə müraciətlə dedi ki, ey müsəlmanlar, bu nə vəziyyətdir? Bəs mənim qəbiləm haradadır? Nə üçün mənim yanıma gəlmirlər? Nə üçün gəlib məni buradan xilas etmirlər? Məgər ölüblər?! Şüreyh Qazi deyir ki, Haninin sözlərini darülimarənin ətrafını saranlara demək istəyirdim, amma Übeydullahın casusunun orada olduğuna görə cürət etmədim. "Cürət etmədim" nə deməkdir? Yəni dünyanı dindən üstün tutmaq.

Bəlkə Şüreyh bu bir işi görsəydi, tarix dəyişərdi. Bəlkə Şüreyh camaata "Hani sağdır, amma yaralıdır, zindandadır və Übeydullah onu öldürmək istəyir" desəydi, Übeydullah hələ güclənmədiyindən, onlar

tökülüb Hanini xilas edərdilər. Hani xilas olandan sonra güclənərdilər, əhval-ruhiyyələri yüksələrdi, darülimarəni mühasirəyə alar, Übeydullahı tutardılar; ya öldürərdilər, ya da göndərərdilər getsin. Sonra Kufə İmam Hüseynin (ə) olardı, daha Kərbəla hadisəsi baş verməzdi. Kərbəla hadisəsi baş verməsəydi, İmam Hüseyn (ə) hakimiyyətə gələcəkdi. Hüseyn hökuməti 6 ay sürsəydi də, tarix üçün çox faydalı olardı; hərçənd bu daha artıq sürə bilərdi.

Bəzən yerində edilən bir hərəkət tarixi xilas edir və bəzən qorxudan, zəiflikdən, dünyagirlikdən və yaşamaq hərisliyindən qaynaqlanan yersiz bir hərəkət tarixi azğınlığa sürükləyir. Ey Şüreyh Qazi! Nə üçün Haninin o vəziyyətdə olduğunu görəndə haqqa şəhadət vermədin? Dünyanı dindən üstün tutan aparıcı insanların eybi və təqsiri budur.

Übeydullah ibn Ziyad Kufənin qəbilə başçılarına "gedin xalqı Müslimin ətrafından dağıdın, yoxsa evinizi yıxaram" deyəndə nə üçün ona itaət göstərdilər? Axı qəbilə başçılarının hamısı Əməvi - Bəni-Üməyyə qəbiləsindən deyildilər və Şamdan gəlməmişdilər! Onların bəziləri İmam Hüseynə (ə) məktub yazanlar idilər. Onların biri Şəbəs ibn Rəbəi idi. O, məktub yazıb İmam Hüseyni (ə) Kufəyə dəvət etmişdi. Übeydullahın uyğun əmrindən sonra isə Kufə əhalisini təhdid etməyə, tamahlandırmağa və qorxutmağa başladı. Nə üçün bunu etdilər?

Əgər Şəbəs ibn Rəbəi kimilər həssas anda İbn Ziyaddan qorxmaq əvəzinə Allahdan qorxsaydılar, tarix dəyişərdi. Onlar xalqı dağıtdılar. Tutaq ki, avam adamlar dağıldılar, bəs Müslimin ətrafında olan ayıq möminlər nə üçün ondan uzaqlaşdılar? Onların arasında yaxşı və görkəmli şəxslər vardı, bəziləri sonradan Kərbəlada şəhid oldular, amma burada səhvə yol verdilər. Sözsüz ki, Kərbəlada şəhid olanlar səhvlərinin ödəncini verdilər. Onlar haqda danışmır, adlarını da çəkmirik. Lakin aparıcı insanların bəziləri Kərbəlaya da gedə bilmədilər, bu onlara nəsib olmadı. Düzdür, sonradan Təvvabin (tövbə edənlər) qrupunu yaratmağa məcbur oldular.

İmam Hüseyn (ə) öldürüləndən, Peyğəmbər (s) övladı şəhid ediləndən, faciə baş verəndən, tarixin hərəkəti enişə doğru başlayandan sonra daha nə faydası?! Odur ki, tarixdə Təvvabin qrupunun sayı Kərbəla şəhidlərinin sayından bir neçə dəfə artıqdır, Kərbəla şəhidlərinin hamısı bir gündə öldürüldü, tövbə edənlər də bir gündə öldürüldülər, amma tövbə edənlərin tarixdəki təsiri Kərbəla şəhidlərinin təsirinin mində biri qədər də deyil. Ona görə ki, zamanında gəlmədilər, işi vaxtında görmədilər, gec qərar verdilər və gec seçim etdilər. Nə üçün imamın nümayəndəsi olduğunu bildiyiniz Müslim ibn Əqili yalqız qoydunuz? Gəlmişdi, beyət etmiş, onu qəbul etmişdiniz. Avamla işimiz yoxdur, aparıcı insanlara deyirəm. Nə üçün axşamüstü və axşam vaxtı Müslimi yalqız qoydunuz və o, Tuənin evinə sığınmalı oldu?

Əgər aparıcı insanlar Müslimi yalqız qoymasaydılar və onların sayı məsələn, 100 nəfərə çatsaydı, bu 100 nəfər Müslimin ətrafını tutar, birinin evini qərargah edər və müdafiə olunardılar. Müslim tək olsa da, onu tutmaq bir neçə saat çəkdi. İbn Ziyadın əsgərləri bir neçə dəfə hücum etdilər, Müslim isə təkbaşına hamısını geriyə qovdu. Əgər əhalinin 100 nəfəri onunla qalsaydı, məgər tuta bilərdilər?! Əlavə insanlar da onlara qatılardılar.

Deməli, bu mərhələdə aparıcı qrup zəiflik göstərib Müslimdən uzaqlaşdılar. Baxın, hansı cəhətdən yanaşırıqsa, aparıcı insanları görürük; aparıcı insanların vaxtlı qərarı, aparıcı insanların vaxtlı seçimi, aparıcı insanların lazımi anda dünyaya göz yumması, aparıcı insanların lazım olan anlarda Allah üçün hərəkət etməsi! Tarixi və dəyərləri xilas edən, qoruyan bunlardır. Lazım olan anda lazım olan işi görmək lazımdır. Əgər geciksəniz və vaxt ötsə, daha faydası olmaz.

Əlcəzairdə İslam cəbhəsi seçkiləri udmuşdu, lakin ABŞ-ın və digərlərinin təhriki ilə xunta iş başına gəldi. Qurulduğu birinci gündə hərbi hökumətin gücü yox idi. Əgər həmin gün və həmin saatlarda - mən onlara xəbər də göndərmişdim - İslam cəbhəsinin rəhbərləri xalqı küçələrə çıxara bilsəydilər, hərbi qüvvə heç bir iş görə bilməyəcəkdi, məhv olacaqdı və Əlcəzairdə İslam hakimiyyəti ilə nəticələnəcəkdi.

Lakin hərəkətə keçmədilər; zamanında qərar verməli idilər, amma vermədilər. Bəziləri qorxdu, bəziləri zəiflik göstərdi, bəziləri işi pozdu, bəziləri də rəhbərlik üstündə çəkişməyə başladılar.

1979-cu ilin fevral ayının onunda axşamüstü Tehranda hərbi hakimiyyət elan olundu. İmam xalqı küçələrə çağırdı. Əgər o həmin anda belə bir qərar verməsəydi, bu gün Məhəmmədrza bu məmləkətdə hələ də hakimiyyətdə idi. Onlar hərbi hökuməti möhkəmlətsəydilər və xalq evlərində qalsaydı, əvvəl imamı və Rifah mədrəsəsinin sakinlərini, sonra digər bölgələrin əhalisini qətliam edəcəkdilər, Tehranda 500 min adam öldürəcəkdilər və məsələ bitəcəkdi. Necə ki, İndoneziyada bir milyon nəfəri öldürdülər və bitdi. Bu gün də həmin cənab iş başındadır və çox hörmətli bir şəxsiyyətdir. Sanki heç nə baş verməyib. İmam isə lazım olan anda lazım olan qərarı verdi.

Əgər aparıcı insanlar təyin etdikləri işi zamanında və vaxt itirmədən görsələr, tarix qurtular və hüseynlər kərbəlalarda öldürülməzlər.[1]

**Sual:** Aparıcı adamların dünyaya və onun nemətlərinə üz tutması onların haqdan yayınıb batilə meyl göstərməsinin ən əsas amillərindən biridir. İkinci xəlifənin zamanından başlayıb Osmanın dövründə pik həddinə çatan siyasət səhabələri və aparıcı adamları çoxlu mal-dövlətə sahib etdi. Aparıcı adamlar arasında meydana çıxan bu tendensiyaya dair nümunələr göstərə bilərsinizmi?

**Cavab:** Səid ibn As Bəni-Ümməyyədən və Osmanın qohumu idi. İmam Əli (ə) serialında cadugərin öldürüldüyü epizodda da gördüyünüz Vəlid ibn Üqbədən sonra onun işlərini sahmana salmaq üçün Səid ibn As hakim təyin olundu. Onun iştirak etdiyi bir məclisdə bir nəfər dedi ki, Təlhə ibn Abdullah nə qədər səxavətli insandır! Yəqin ki, kiməsə pul vermiş və yaxşılıq etmişdi. Kufənin yaxınlığında çox böyük bir tarla vardı. O zaman Kufənin ətrafında səfalı və məhsuldar

[1] Mühafizəçilər korpusunun "Məhəmməd Rəsulullah (s)" diviziyasının zabit və əsgərləri ilə görüşdəki çıxışdan: 1996.

torpaqlar olmuşdur. Bu böyük tarla da Mədinədə Peyğəmbərin (s) səhabəsi olmuş Təlhənin idi. Səid ibn As dedi ki, belə bir mülkü olan səxavətli olmalıdır. Mənim də belə bir bağım olsaydı, sizin vəziyyətinizi çox yaxşılaşdırardım.[1]

Siz bunu Peyğəmbər (s) dövrünün və Peyğəmbərin (s) vəfatından sonrakı ilk illərin zahidliyi ilə müqayisə edin. Görün böyük şəxsiyyət və səhabələr həmin bir neçə ildə necə yaşamış, dünyaya hansı gözlə baxmışlar, 10-15 il ötəndən sonra isə vəziyyət necə dəyişmişdir.

Növbəti nümunə Bəsrə şəhərinin hakimi olan və hakimiyyət məsələsində məşhurlaşan cənab Əbu Musa Əşəridir. Cihad zamanı minbərə çıxıb xalqı həvəsləndirdi, cihad və fədakarlığın fəzilətinə dair hədislər söylədi. Çoxlarının minib cihada getmək üçün atları yox idi. Hər kəs öz atına minib getməli idi. O, piyada cihad etməyin savabından da danışdı, bu əmələ o qədər fəzilət saydı ki, atı olan bəzi adamlar da atdan imtina edib piyada gedəcəklərini söylədilər. Onlar atlarını qovub dedilər ki, gedin, siz bizi böyük savablardan məhrum edirsiniz, biz piyada vuruşub bu savablara nail olmaq istəyirik. Bəzi şəxslər daha ayıq idilər, dedilər səbir edək, tələsməyək, görək piyada cihad haqqında ağız dolusu danışan hakimin özü necə gedəcək; görək əməli də sözü kimidir, yoxsa yox; piyada, yaxud atlı getmək barədə isə sonra qərar verərik. İbn Əsir yazır ki, Əbu Musa sarayından çıxanda qiymətli əşyalarını qırx dəvəyə yükləyib özü ilə apardı.[2] O zaman tank yox idi, vəzifə də etibarsız idi. Bəzən döyüşün ortasında xəlifədən xəbər gəlirdi ki, siz Bəsrə hakimliyindən azad olunmusunuz. Ondan sonra qayıdıb saraydan bu qədər qiymətli əşyanı götürmək mümkün olmur; buna qoymazlar. Bu səbəbdən hara gedirdilərsə, sərvətlərini özləri ilə aparmağa məcbur olurdular. O, qiymətli əşyalarını qırx dəvəyə yüklədi və saraydan çıxarıb döyüşə yollandı. Atlarını buraxıb cihada piyada getmək istəyənlər cənab Əbu Musanın atının cilovunu tutub dedilər ki, bunları nə üçün özünlə döyüşə aparırsan; biz piyada gedirik, bizi də mindir;

---

[1] İbn Əsir, əl-Kamil, c. 3, səh: 137-140.

[2] Yenə orada.

piyada getməyin savab olduğunu dediyin kimi, özün də bir qədər atdan en və piyada get. Əbu Musa qamçısını çəkib onların baş və üzlərinə vuraraq dedi ki, rədd olun, boş-boş danışmayın. Onlar da dağılışdılar. Düzdür, buna dözmədilər, Mədinəyə gedib cənab Osmana şikayət etdilər, o da Əbu Musanı vəzifəsindən kənarlaşdırdı. Peyğəmbər (s) səhabələrindən, böyük şəxsiyyətlərdən və aparıcı adamlardan olan Əbu Musa belə idi.

Üçüncü nümunə Kufənin hakimi Səd ibn Əbi Vəqqasdır. O, beytülmaldan borc götürmüşdü. O zaman beytülmal hakimin əlində deyildi. Böyük şəhərlərə bir nəfəri hakim, bir nəfəri də maliyyə məmuru kimi təyin edirdilər və hər ikisi birbaşa xəlifənin özünə tabe idi. Kufədə hakim Səd ibn Əbi Vəqqas, maliyyə məmuru isə çox böyük və hörmətli səhabə olan Abdullah ibn Məsud idi. Səd beytülmaldan bir qədər borc almışdı. İndi neçə min dinar olduğunu bilmirəm, amma sonra onu qaytarmadı. Abdullah ibn Məsud tələb edərək dedi ki, beytülmalın pulunu ver. Səd ibn Əbi Vəqqas dedi ki, yoxumdur. Aralarında mübahisə yarandı. Əmirəlmömininin (ə) səhabələrindən və çox böyük bir insan olan Haşim ibn Ütbə onlara yaxınlaşıb dedi ki, ayıbdır, sizin hər ikiniz Peyğəmbər (s) səhabəsisiniz, camaat sizə baxır, dalaşmayın, gedin məsələni bir yolla həll edin. Abdullah ibn Məsud mümkün olmadığını görüb bayıra çıxdı. O, əmanətdar insan idi. Gedib camaatın bir qismini gördü, dedi ki, gedin filan malları onun evindən çıxarın. Sədə xəbər verdilər, o da başqa bir qrupu göndərib dedi ki, gedin qoymayın. Səd ibn Əbi Vəqqasın beytülmala borcunu vermədiyinə görə böyük bir dava düşdü. Səd ibn Əbi Vəqqas şura səhabələrindəndir, altınəfərlik şuranın bir üzvü də odur. Bir neçə ildən sonra isə belə vəziyyətə düşdü. İbn Əsir yazır ki, Kufə əhalisinin parçalandığı birinci hadisə bu idi. Səbəb isə aparıcı şəxslərdən birinin bu şəkildə dünyagirlik etməsidir.

Başqa bir misal vurum. Müsəlmanlar gedib Afriqiyyəni - yəni Tunis-Məğrib regionunu fəth etdilər, qənimətləri döyüşçülərin arasında böldülər. Qənimətlərin xümsünü Mədinəyə göndərməli idilər. İbn

Əsirin tarixində yazılır ki, külli miqdarda xüms yığılmışdı. Xüms Mədinəyə çatanda Mərvan ibn Həkəm dedi ki, hamısını 500 min dirhəmə alıram və ona satdılar.[1] 500 min dirhəm az pul deyildi, amma həmin mallar bundan olduqca çox idi. Sonralar xəlifəyə bildirilən iradlardan biri də bu idi. Xəlifə də səbəb göstərib deyirdi ki, o mənim qohumumdur, məişət vəziyyətinin yaxşı olmadığına görə ona kömək etmişəm. Burada da aparıcı şəxslər maddiyyata qərq oldular.

Növbəti nümunə yenə də sizin tanıdığınız Vəlid ibn Üqbəyə aiddir. Səd ibn Əbi Vəqqasdan sonra Vəlid Kufənin hakimi təyin olundu. O da Bəni-Üməyyə tayfasından və xəlifənin qohumlarından idi. O, Kufəyə daxil olanda hamı təəccüb etdi ki, bu nə deməkdir, axı bu adam hakimliyə layiq deyil! Vəlid həm axmaqlığı, həm də azğınlığı ilə məşhur idi. "Əgər bir fasiq sizə (pis) bir xəbər gətirsə, dərhal (onun doğruluğunu) yoxlayın, yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız"[2] ayəsi onun barəsində nazil olmuş, Quran onu fasiq adlandırmışdı. O gətirdiyi bir xəbərlə bir qrup insanın həyatını təhlükəyə salmışdı. Sonra ayə nazil oldu ki, fasiq bir insan xəbər gətirəndə araşdırın, sözünə qulaq asmayın. Həmin fasiq insan Vəlid idi. Bu, Peyğəmbərin (s) dövrünə aiddir. Meyarların, dəyərlərin və insanların yerdəyişməsinə baxın. Xalqın hər gün oxuduğu Quranda fasiq adlandırılmış bu adam indi Kufənin hakimi təyin edilir. Buna həm Səd ibn Əbi Vəqqas təəccüb etdi, həm də Abdullah ibn Məsud. Abdullah ibn Məsudun gözü Vəlidə düşəndə dedi ki, biz Mədinədən çıxandan sonra sən mömin olmusanmı, yoxsa xalq fəsada uğrayıb sənin kimisini bir şəhərə əmir göndərir?[3]

Səd ibn Əbi Vəqqas da başqa cəhətdən təəccüb etdi. Dedi ki, sən axmaq adam idin, indi ağıllımı olmusan, yoxsa bizim çox axmaq olduğumuza görə səni bizdən üstün tuturlar? Vəlid cavabında dedi ki, narahat olma, ey Əbu İshaq, nə biz zirək olmuşuq, nə də sən axmaq

---

[1] İbn Əsir, əl-Kamil, c. 3, səh: 88-91.
[2] Hucurat/6.
[3] İbn Əsir, c. 3, səh: 82-83.

olmusan. Bu bir şahlıq məsələsidir.[1] İlahi hakimiyyətin, xilafət və vilayətin şahlığa çevrilməsinin özü acınacaqlı bir hadisədir. Dedi ki, biri bu gün ona sahibdir, biri sabah. Səd ibn Əbi Vəqqas hər halda Peyğəmbər (s) səhabəsi idi. Bu söz ona ağır gəldi. Dedi: "Görürəm ki, xilafəti şahlığa çevirmisiniz".

Bir zaman cənab Ömər cənab Salmana dedi ki, səncə mən şaham, yoxsa xəlifə? Salman böyük və çox mötəbər şəxsiyyətlərdən, dəyərli səhabələrdən idi, fikri böyük əhəmiyyət kəsb edirdi. Məhz buna görə Ömər bunu ondan soruşdu. Salman cavab verdi ki, sən xalqın malından bir dirhəm, ondan az və ya çox götürüb lazım olmayan yerdə xərcləsən, deməli, xəlifə deyilsən, padşahsan. Salman meyar göstərdi. İbn Əsirin rəvayətində deyilir ki, Ömər ağladı. Böyük moizədir! Məsələ xilafət məsələsidir. Vilayət - yəni sevgi, xalqla əlaqə və insanlara məhəbbətlə yanaşı olan hakimiyyət yalnız hökmranlıq deyil. Şahlığın mənası isə bu deyil, şahın xalqla işi yoxdur. Padşah hökmdardır; nə istəsə, onu da edir.

Bunlar görkəmli və aparıcı insanlara aid idi. Bu bir neçə il ərzində aparıcı insanların vəziyyəti bu həddə çatdı. Təbii ki, bu, Raşidun xəlifələri dövrünə aiddir. O zaman ehtiyatlı idilər, bu məsələlərə əhəmiyyətli yanaşırdılar. Onlar uzun illər Peyğəmbərin (s) yanında olmuşdular, onun fəryadı hələ də Mədinədə hiss olunurdu və o cəmiyyətdə Əli ibn Əbu Talib (ə) kimi bir şəxs vardı. Sonralar hakimiyyət Şama köçürüləndə isə bu amillər də yox idi. Bu, aparıcı şəxslərə dair kiçik nümunələrdir. İbn Əsirin tarixi, yaxud bizim bütün müsəlman qardaşlarımızın mötəbər saydığı digər tarix kitabları araşdırılsa, yüzlərlə yox, minlərlə belə nümunə görmək olar.[2]

**Sual:** Sizcə belə acı taleyi yaşamamaq üçün nə etmək lazımdır?

**Cavab:** Mənim əzizlərim! İnsan ictimai dəyişiklikləri gec anlayır. Ehtiyatlı olmaq lazımdır. Təqva da budur. Təqva odur ki, hakimiyyət dairələri yalnız özlərindən ibarət olanlar özlərindən ehtiyatlı olsunlar,

---

[1] Yenə orada.

[2] Cümə namazı xütbələrindən: 1998.

hakimiyyət dairələri geniş olanlar isə həm özlərindən, həm də başqalarından ehtiyatlı olsunlar. Başda oturanlar həm özlərindən, həm də bütün cəmiyyətdən ehtiyatlı olsunlar ki, dünyagirliyə, dünya bəzəklərinə və xudpəsəndliyə üz tutmasınlar. Bu o demək deyil ki, cəmiyyəti abadlaşdırmasınlar. Cəmiyyəti abadlaşdırsınlar, çoxlu sərvət qazansınlar, amma özləri üçün istəməsinlər. Bu pisdir. Kim İslam cəmiyyətini varlandıra, böyük işlər görə bilsə, böyük savab etmiş olar. Bu bir neçə ildə Allahın lütfü ilə ölkəni abadlaşdıranlar, quruculuq işləri görənlər, zəhmət çəkənlər çox yaxşı işlər görmüşlər. Bu, dünyagirlik deyil. Dünyagirlik odur ki, insan özü üçün istəsin, özü üçün hərəkət etsin, beytülmaldan, yaxud digər yerlərdən özünə götürmək haqda düşünsün. Bundan ehtiyatlı olmalıyıq. Hamı bu məsələdə ehtiyat yolunu tutmalıdır. Ehtiyat olmasa, cəmiyyət tədricən dəyərlərdən uzaqlaşar, yalnız zahiri qalar, sonra gözlənilmədən İmam Hüseyn (ə) qiyamı kimi böyük bir imtahan qarşıya çıxar və imtahandan keçə bilməz.[1]

**Sual:** Haqq yolu ilə getməkdə ən böyük səhvlər hansılardır? Tarixdə zahid və abid insanların səhvə yol verərək batil cəbhəsində yer almasının səbəbi nədir? Bu səhvin səbəb və şəraiti nədən ibarətdir?

**Cavab:** İbadətdə diqqət olmasa, ibadətin bəndəlikdən, Allahla ünsiyyətdən və Onun qarşısında təslimçilikdən ibarət olan ruhuna diqqət yetirilməsə, insan üçün müxtəlif təhlükələr yarana bilər. Onların biri qapalılıqdır. Bu günlərdə adlarını çox eşitdiyiniz Xəvaric qruplaşmasının bəzi üzvləri elə ibadət edir, Quran ayələrini elə oxuyur və elə gözəl namaz qılırdılar ki, hətta Əmirəlmömininin (ə) səhabələri də təsir altına düşürdülər. Döyüş ərəfəsində Əmirəlmömininin (ə) tərəfdarlarından biri gecə yarısı onların birinin ibadət etdiyini və gözəl səslə bu ayələri oxuduğunu gördü: "Məgər axirətdən qorxan, Rəbbinə ümid bəsləyən, gah səcdəyə qapanıb, gah da ayaq üstə durub gecə

---

[1] Yenə orada.

saatlarını ibadət içində keçirən (müti bəndə kafirlə birdirmi)?!"[1] O bundan təsirlənib Əmirəlmömininin (ə) yanına gəldi. Hətta Əmirəlmömininin (ə) yaxın səhabələri olan ayıq-sayıq və məlumatlı insanlar da çox zaman belə səhvlərə yol verirdilər.

Əbəs deyil ki, Əmirəlmöminin (ə) buyurmuşdur: "Heç kim bu işi (Xəvaricin darmadağın edilməsini) görə bilməz, bu fitnəni yatırmağı bacarmazdı". Bu iş üçün həqiqətən həzrət Əlinin (ə) xəncəri, ayıqlığı, özünə güvənməsi və öz yoluna inamı lazım idi. Bəzən aparıcı adamlar da təsir altına düşürdülər. Əmirəlmöminin (ə) həmin səhabəsinə buyurdu ki, sabah sənə deyəcəyəm. Ertəsi gün müharibə bitəndə və Xəvaric qruplaşmasından on nəfərdən də azı sağ qalanda, digərləri döyüşdə öldürüləndə həzrət öz tərəfdarlarına, səhabələrinə nəsihət və ibrət olsun deyə ölülərin arasında gəzir, bəzisi ilə danışırdı. Arxası üstə uzanmış bu ölülərin birinə çatanda imam onu qaldırmalarını istədi. Bəlkə də buyurdu ki, onu oturdun və oturtdular. Sonra yaxın səhabələrindən olan həmin şəxsə buyurdu ki, bunu tanıyırsanmı? Dedi ki, xeyr, ey Əmirəlmöminin. Buyurdu ki, bu ötən gecə Quran oxuması ilə səni valeh edən şəxsdir.

Bu necə Quran oxumaqdır?! Bu necə ibadət etməkdir?! Bu, ibadət ruhundan uzaqlaşmaqdır. Əgər insan ibadət, namaz və Quran ruhu ilə tanış olsa, İslamın həqiqətinin və məğzinin təcəssüm olunduğu Əli ibn Əbu Talibin (ə) bir tərəfdə durduğunu görərkən bütün şübhələrdən çıxıb ona qoşular. Bunu təyin etməmək Qurandan və dindən uzaqlaşmaq və nəticədə Əliyə (ə) xəncər çəkməkdir.

Deməli, məsələnin bir tərəfi sözügedən qapalılıq, düşüncəsizlik, bizim Bəni-Üməyyə və Bəni-Abbas xilafəti zamanı müşahidə etdiyimiz böyük və əsaslı səhvlərdir. Bəziləri dindar, ibadətçi və zahid insanlar idilər, adları abidlərin, zahidlərin, əxlaqlı və düzgün insanların sırasında qeyd olunmuşdur, amma səhv edirdilər; haqq cəbhəsini batil cəbhəsi ilə qarışdırmaq kimi böyük bir səhv. Ən böyük səhv budur. Kiçik səhvlər

---

[1] Zumər/9.

bağışlana bilər. Bağışlanmaz səhv isə kiminsə haqq cəbhəsini batil cəbhəsi ilə səhv salması, haqqı ayırd edə bilməməsidir.

Əmmar Yasir kimilərin böyüklüyü burada görünür. Əmirəlmömininin (ə) bu böyük səhabəsinin böyüklüyü ondadır ki, heç bir şəraitdə səhvə düşmədi və cəbhəni itirmədi. Mən Siffeyn döyüşünün müxtəlif yerlərində bu böyüklüyü görmüşəm. Sözsüz ki, bu yalnız Siffeyn döyüşünə məxsus deyil, möminlərin çaş-baş qaldığı bir çox yerlərdə qarşıya çıxıb güclü ayıqlığı və aydınlaşdırıcı sözləri ilə şübhəni aradan qaldıran Əmmar Yasir idi. İnsan Əmirəlmömininlə (ə) bağlı müxtəlif hadisələrdə, o cümlədən Siffeyn döyüşündə bu maarifləndirici və böyük kişinin rolunu görür.

Siffeyn döyüşü aylarla uzandı. Qəribə döyüş idi. Döyüşçülər qarşı tərəfdəkilərin ibadət etdiyini, camaat namazı qılıb Quran oxuduğunu, hətta Quranı nizələrə sancdığını görürdülər. Belə namaz qılan şəxslərə xəncər çəkmək üçün çox ürək və cəsarət lazım idi.

Bir hədisdə İmam Sadiqdən (ə) nəql olunmuşdur ki, əgər Əmirəlmöminin (ə) qiblə əhli ilə vuruşmasaydı, sona qədər pis və azğın qiblə adamlarının hökmü bəlli olmayacaqdı. Əli ibn Əbu Talib (ə) bu yolu açıb hamıya nə etməyin lazım olduğunu göstərdi. Bizim uşaqlarımız təcavüzkar cəbhənin bəzi səngərlərini ələ keçirib döyüşçülərini əsir tutanda səngərlərindən möhür və təsbeh tapırdılar. Bəli, Əmirəlmömininin (ə) qarşısında durub namaz qılan və nəticədə bəzi adamları şübhəyə salan şəxslər kimi! Belə adamların yanına gedən Əmmar Yasir idi. Bu ayıqlıq üçün Əmmar Yasir kimi bir nəfər lazımdır.

Əgər əməl və ibadətlərin Allaha diqqətdən və Onun bəndəliyindən ibarət olan ruhu aydın olmasa, insan bu vacib əməllərin hər birində özünü Allah bəndəliyinə yaxınlaşdırmağa çalışmasa, işi dayaz olar. Dayaz iş və iman isə həmişə təhlükə altındadır və biz İslam tarixində bunun nəticələrini görmüşük.

Qeyd etdim ki, bəzi dindar, müqəddəs, abid və zahid insanlar gedib zalım, işğalçı, günahkar, xəbis, yalançı və riyakar xəlifənin yanında oturur, ona üç-dörd nəsihətli söz deyirdilər. O da ya saxtakarlıq

və riyadan, ya da bəlkə də qəlbinin bir küncündə həqiqətən təsirləndiyindən göz yaşı tökürdü. Bəziləri də məst olanda həyəcanlanır, onlar üçün bir qədər söhbət edən bir nəfəri gətirir, onun sözləri ilə ağlayırdılar. Sonra bu sadəlövh, nadan alimlər də onların zahirinə aldanır və həmin xəlifələrin müridi olurdular.

İslam tarixində belə qəribə hadisələr baş vermişdir. Abbasi xəlifəsi məşhur abid və zahid olan Əmr ibn Əbidə hörmət edir və deyirdi ki, Əmr ibn Əbid digər təqva və zahidlik iddiaçılarından fərqlidir. Siz həmin Əmr ibn Əbidə, Məhəmməd ibn Şəhab Zöhriyə və onlar kimilərə baxsanız, öz dövrlərində haqq cinahının böyük başağrılarından olduqlarını görərsiniz. Gedib öz vücudları ilə batil cəbhəsini gücləndirir, haqq cəbhəsini – yəni Peyğəmbərin Əhli-beytini (ə) yalqız və məzlum qoyur, öz nadanlıqları ilə düşmənə yardım edirdilər.[1]

**Sual:** Siz cəmiyyətdə aparıcı və görkəmli şəxslərin rolundan, taleyüklü məsələlərdə onların yayınma və süqut amillərindən danışıb İslamın erkən çağından buna dair nümunələr göstərdiniz. Bəs bu gün İslam inqilabının aparıcı şəxslərini daha çox hansı təhlükə təhdid edir?

**Cavab:** Xalq arasında sözü keçən, sözləri, hərəkətləri, əməlləri, rəftarları və yazıları xalqa təsir edən şəxsləri bir neçə böyük təhlükə təhdid edir. Onlar çox ehtiyatlı olmalıdırlar. Biri yorulmaq, biri rahatlığa meyl, biri təslimçiliyə meyl, biri nağd maraqlardan yapışmaq təhlükəsidir. Sonuncu təhlükə Fələstin inqilabını yayındıran şəxslərin düçar olduğu bəladır. Öz xalqlarını başladıqları düzgün yoldan yayındıran bütün rəhbərlər bu təhlükəyə məruz qalmışlar. İctimai rəyə təsir göstərə bilən qüvvələrin üzərinə ağır vəzifələr düşür. Onlar öz imanlarını, dünyaya etinasızlıqlarını gücləndirməli, Allahın lütf və mərhəmətinə inamlarını artırmalı, düşmənə əsla güvənməməlidirlər. Düşmən zərbə vurmaq istəyir. Əgər bir ölkənin aparıcı şəxsləri - dilləri, qələmləri, rəftarları və imzaları ilə bir xalqa təsir göstərən qüvvələr

[1] Vilayət hədisi, c. 4, səh: 136-139.

təslimçiliyə, rahatlığa, rifaha və eyş-işrətə meyl salıb ağır işlərdən yorulsalar, o zaman təhdid yaranar. Buna görə Əmirəlmömininin (ə) qısa xəlifəliyi çağında ən çox müraciəti, qınağı və tövsiyəsi vəzifə verdiyi və böyük ölkəsinin müxtəlif sahələrini tapşırdığı şəxslər olmuşdur. Bizim böyük imamımız dəfələrlə ölkə məmurlarına, bizə, öz şagird və yetirmələrinə bu haqda tövsiyələr verirdi. O tövsiyələrin məzmunu bu idi ki, rahat həyatın gözəlliklərinə vərdiş edib Allah yolundakı işlərindən qalmasınlar.[1]

**Sual:** İslam dünyasında böyük Aşura hadisəsinin baş verməsində sadaladığınız amillərdən başqa bir amil də təsirli olmuşdurmu?

**Cavab:** İmamların həyatına baxanda bu vəziyyətin yaranmasına gətirib çıxaran başqa bir amil də nəzərə çarpır. Bu amil haqq tərəfdarlarının İslam dünyasının taleyinə laqeyd qalması və əhəmiyyətsiz yanaşmasıdır. Bəzi şəxslər bir müddət bir qədər aktivlik göstərdilər, lakin hakim qüvvələr sərt qarşılıq verdilər. Misal üçün, Mədinə şəhərinə hücum zamanı bunlar Yezidin əleyhinə etiraz səslərini ucaltdılar. O, zalım bir adamı göndərib onları qətliam etdi, bu insanlar da hər şeyi kənara qoydular və problemləri unutdular. Təbii ki, bunlar Mədinə əhalisinin hamısı deyildilər, həm də öz aralarında çəkişən bir qrup idilər. Onlar İslam təlimlərinin tam əksinə əməl etdilər; nə düzgün birlik və təşkilatçılıq vardı, nə qüvvələrin bir-biri ilə yetərli əlaqəsi. Nəticədə düşmən amansızlıqla hücum etdi, bunlar da ilk addımda geri çəkildilər. Bu, mühüm məsələdir.

Bir-biri ilə mübarizə aparan, bir-birinə zərbə vuran haqq və batil cinahlarının mövqeyi aydındır. Haqq cinahının batilə zərbə vurduğu kimi, batil də haqqa zərbə vurur. Bu cinahların hansı tez yorulsa, nəticə bilinir və yorulan tərəf məğlub olur.

Peyğəmbərlərin təlimlərinin yaşamasının səbəbkarı onlar tərəfindən təkrar olunan tövhid sözü, dini fəzilət və dəyərlərdir. Bu gün

---

[1] Həzrət İmam Xomeyninin vəfatının ildönümündə çıxışdan: 2000.

həmin təlimlər bütün dünyanı bürümüşdür. Dünyanın hansı tərəfinə baxsanız, peyğəmbərlərin təlimlərini görərsiniz. Halbuki bir neçəsindən başqa təxminən bütün peyğəmbərləri öldürmüşlər. Musaya (ə) o qədər əzab verdilər, İsa ibn Məryəmi (ə) bəlli təqib və təzyiqlərə məruz qoydular, amma onların təlimləri bu günədək qalmışdır.

Əsas səbəb odur ki, peyğəmbərlər meydandan qaçmadılar, birinin məğlubiyyəti digərinin batillə döyüşdən imtina etməsinə bais olmadı. Bir neçəsini çıxmaq şərti ilə bütün peyğəmbərlər düşmənləri tərəfindən təqib olunmuşlar. Eyni zamanda ya öldürülən, ya yandırılan, ya həbs edilən, ya diri-diri mişarla doğranan və hakim qüvvələrin bütün bu işgəncələrinə məruz qalan bu qrupun fəaliyyətinin nəticəsi göz önündədir: Bu gün dünya peyğəmbərlərin təlimlərinin təsiri altındadır. Dünyanın hər bir yerində peyğəmbərlərin təlimləri görünür. Bütün yaxşı xarakterlər, ədalət və sülh kimi gözəl prinsiplər peyğəmbərlərin təlimləridir. Bunların hamısının yaşamasının amili yorulmamaq və meydandan qaçmamaqdır. İmam Hüseynin (ə) dövründə və İslam tarixinin bu qədər faciə törədilən bəlli hissəsində bu prinsip mövcud deyildi. Onların bir-biri ilə əlaqələri yox idi, tez məğlubiyyət hiss edir, yorulur, səhnəni tərk edirdilər, nəticədə isə düşmən irəliləyirdi.

Bir dəfə bu təcrübədən düzgün istifadə olundu və onda da qəti qələbə hasil oldu. Bu bizim dövrümüzdəki İslam inqilabında baş verdi. Allah-Taala Böyük İmamı elə yaratmışdı ki, məğlubiyyət və yorulmazlıq hiss etmirdi, onun ruhunda uğursuzluğa yer yox idi, ən çətin vəziyyətlərdə də inkişaf niyyəti vardı. Sizin özünüz səkkizillik müharibə dövründə yaxından gördünüz ki, ən ağır durumlarda da geri çəkilmək qəsdi olmayan şəxs möhkəm dağ kimi dayanan imam idi. İnsanın arxasında belə möhkəm bir dağ duranda rahat mübarizə aparar.

O, mübarizə çağında da belə idi; bütün çətinliklərə, uğursuzluqlara, dəyənəklərə, təzyiqlərə, sürgünə və yaşın çoxluğuna baxmayaraq, yenə də mübarizəni davam etdirirdi. Böyük İmam mübarizəyə başlayanda gənc deyildi, 63 yaşı vardı. Mənim yadımdadır, 1962-ci ildəki çıxışlarında deyirdi ki, mən nədən qorxmalıyam. Məni

öldürsələr, əziz Peyğəmbərin (s) və Əmirəlmömininin (ə) dünyadan köçdüyü yaşda vəfat edəcəyəm. Bundan böyük xoşbəxtlik ola bilərmi?! Onun məntiqi bu idi.

İmam 63 yaşında və qocalıq çağında mübarizəyə başladı. Çünki şərait o zaman münasib idi. O, qocalıq çağında bütün zəhmətlərə dözdü, 80 yaşında da bu böyük inqilabın rəhbərliyini öhdəsinə götürdü və 90 yaşına qədər sizin şahidi olduğunuz ağır hadisələrdə ona rəhbərlik etdi. ABŞ və SSRİ-nin təhdidi, iki supergücün birliyi, səkkizillik müharibə, Təbəsə hücum, iqtisadi, siyasi və informasiya blokadası heç zaman bu uca dağı qorxutmadı, heç bir tufan onu tərpədə bilmədi. Buna görə də qələbə çaldı.

Bu təcrübəyə bir dəfə bizim inqilabımızda əməl olunmuşdur. Xalq və mübarizəni sevənlər bu kişinin arxasında dayandılar, həmrəylik nümayiş etdirdilər, hətta ən zəif insanlar da bir-birinin ardınca prosesə qoşuldular və nəhayət düşmən məğlub oldu. Bu gün düşmən bizə məğlub olmuşdur.[1]

---

[1] Mühafizəçi günü münasibəti ilə Mühafizəçilər korpusunun məsul işçiləri və əməkdaşları ilə görüşdəki çıxışdan: 1995.

## Yeddinci fəsil: Milli birlik, milli təhlükəsizlik, onları qorumağın yolları, milli təhlükə və onlara qarşı tədbirlər

**Sual:** Siz novruz bayramı münasibəti ilə etdiyiniz müraciətinizdə milli birliyi və milli təhlükəsiziliyi ilin şüarı adlandırdınız. Lütfən bu barədə açıqlama verin və milli birlikdə məqsədin, eləcə də hazırkı çağda milli birliyi pozan əsas amillərin nədən ibarət olduğuna aydınlıq gətirin.

**Cavab:** Bu ilin əvvəlində dedik ki, ilin şüarı milli birlik və milli təhlükəsizlik olsun. Ölkənin vəziyyətini və beynəlxalq məsələləri nəzərə alaraq həqiqətən demək olar ki, məmurların və xalqın diqqətdə saxlamalı olduğu iki mühüm şüar bunlardır. Əgər milli birlik və milli təhlükəsizlik təmin olunsa, hökumət də öz işlərini, mühüm vəzifələrini və qurucu proqramlarını icra etməyə macal tapar, iqtisadi problemlərlə məşğul olar, xalqla maraqlanar, xalqın məişət vəziyyətini və ölkənin mədəni problemlərini həll edər. Əgər təhlükəsizlik, yaxud birlik olmasa, ixtilaf, çaxnaşma və daim siyasi gərginlik olsa, ziyan görən birinci qüvvə hökumət olacaq və öz vəzifələrini icra edə bilməyəcək. Hökumət vəzifələrini icra etməyəndə isə xalqın, aztəminatlı təbəqələrin, gənclərin və müxtəlif qurumların proqramlarına ehtiyaclı olanların vəziyyəti bəlli olar. Buna əsasən, bu iki şüar böyük əhəmiyyət kəsb edir. Mən milli birlik üzərində daha çox dayanmaq istəyirəm. Çünki təhlükəsizlik də birlikdən irəli gəlir. Birlik olmasa, milli təhlükəsizlik də təhlükəyə düşər. Birlik dedikdə məqsədimiz nədir? Yəni bütün xalq bir cür düşünsün?! Xeyr! Yəni bütün xalq eyni siyasi xətdə olsun?! Xeyr! Yəni bütün xalq bir şeyi, bir şəxsi, bir cinahı, bir qrupu dəstəkləsin?! Xeyr! Birliyin mənası bunlar deyil. Birlik odur ki, təfriqə, nifaq, çaxnaşma və iğtişaş olmasın. Hətta dini baxımdan eyni olmayan iki qrup da birləşə, bir-birinin kənarında dura və dalaşmaya bilər. Bu birliyi sıradan çıxaran amillərdən biri daim xalqın düşüncə arenasına atılan qeyri-konkret məfhumlardır. Onları hərə bir cür izah edir; bir qrup belə, bir qrup elə izah edir və nəticədə lazımsız ixtilaf və qarışıqlıq yaranır. Təbii ki, düşmən bütün bu

məsələlərdən qazanır. Çox güman ki, bunların hamısında, yaxud bəzisində düşmənin əli də var. Biz bunu görməzdən gələ bilmərik.

Təəssüf ki, bu gün bəzi şəxslər həssas olmuşlar; düşmən deyən kimi inadkarlıqları tutur ki, nə üçün belə deyirsiniz. Düşmən var, düşməni görməzdən gələ bilməzsiniz. Düşmənini, onun səngərlərini, silahlarını görmədiyinə və təxribatını anlamadığını görə heç bir xalqa və topluma afərin demirlər. Düşmənin özü açıq deyir ki, mən düşmənlik edirəm. Düşmənin özü deyir ki, mən İranda qarışıqlıq yaratmaq üçün büdcə ayırır, düşüncələri gərginləşdirmək üçün radio kanalı açır, İran xalqının iki yerə bölünməsini istəyirəm. İndi biz deyək düşmən yoxdur?! Bu sadəlövhlük deyil?! Düşmən işləyir. Təbii ki, biz ayıq olsaq və səhvə yol verməsək, düşmən heç bir iş görə bilməz. Şübhəsiz ki, bizim səhvimiz, diqqətsiliyimiz və səhlənkarlığımız düşmənin uğur qazanmasında mühüm və əsaslı amillərdir.

Mən tarixə müraciət edib buna iki misal vurmaq istəyirəm. Siz görün bu qeyri-konkret məfhumlar bir cəmiyyəti necə ikiyə bölür:

Bir nümunə Siffeyn döyüşünə aiddir. Əmirəlmömininin (ə) qoşunu Müaviyənin qoşununa üstün gələndə onlar Quran kitablarını nizələrə taxdılar. Bu hərəkət Əmirəlmömininin (ə) qoşununda ikitirəlik yaratdı. Bunun mənası o idi ki, bizimlə sizin aranızda Quran var. Bəzi adamlar dedilər ki, biz Quranla vuruşa bilmərik, bəziləri isə dedilər ki, bunlar Quranla döyüşə girmişlər, Quranın vərəqlərini qaldırırlar, əslində isə onun məzmunu ilə - yəni Əmirəlmömininlə (ə) vuruşurlar. Hər halda, müsəlmanların qoşununda ikitirəlik yarandı və zəiflik baş verdi. Bu, düşmənin işi idi.

İkinci nümunə də həmin müharibədə baş verdi. Əmirəlmöminin (ə) Quranın mühakiməsinə məcbur edildikdən sonra onun düşərgəsi daxilindən öz adamları ayağa qalxıb şüar verdilər ki, hakimiyyət yalnız Allaha məxsusdur. Bəli, bəllidir və Quranda da var ki, hakimiyyət Allaha məxsusdur, amma bunlar nə demək istəyirdilər. Onlar bu şüarla Əmirəlmömininі (ə) hakimiyyətdən salmaq istəyirdilər. Əmirəlmöminin (ə) onların planını ifşa etdi. Dedi ki, hökm və hakimiyyət Allaha

məxsusdur, amma bunlar onu demək istəmirlər. Bunlar demək istəyirlər ki, Allah təcəssüm olunub cəmiyyəti idarə etməlidir; yəni Əli (ə) olmamalıdır. Bu şüar bir qismi Əmirəlmömininin (ə) düşərgəsindən xaric edib bədbəxt, nadan, qafil, yaxıngörən, bəziləri isə qərəzli olan qrupa qoşdu və Xəvaric amili meydana çıxdı.

Təəssüf ki, indi bizim cəmiyyətimizdə buna bənzər işlər görülür. Verilən şüarların bəzisi aydın və yaxşıdır, amma düşmən onlardan sui-istifadə edir. Mən bu gün iki sözü izah edəcəyəm. Ümidvaram siz əzizlər və müsəlman xalq bu iki məsələyə elə diqqət yetirəsiniz ki, qəlblərində xəstəlik olanlar bundan sonra nə desələr və yazsalar da, nifaq salmağı bacarmasınlar. Bu sözlərin biri şiddət, biri isə islahatdır.[1]

**Sual:** Uzun müddətdir mətbuatda şiddət haqda yazır və quruluşa sadiq qüvvələrin bir hissəsini şiddətdə ittiham etməyə çalışırlar. Sual budur ki, şiddət nədir və İslamın buna baxışı necədir?

**Cavab:** Şiddət öldürmək, döymək, həbs etmək, kobud davranmaq və aşağılamaqdır. Şiddətin mənası aydındır. Artıq neçə aydır bizim bəzi mətbu orqanlarımız daim yazırlar ki, şiddət yaxşıdır, yoxsa pis; yaxud filankəs şiddətin tərəfdarıdır, filankəs isə ona müxalifdir; yaxud İslam şiddəti qəbul edir və ya qəbul etmir. Bu məsələ bu qədər mühüm və müşküldür, yoxsa bunun arxasında başqa niyyətlər gizlənib?

İslamın şiddətə baxışı aydındır. İslam şiddətdən istifadəni prinsip seçməmiş, amma qanuni yerlərdə bunu inkar da etməmişdir. İki cür şiddət var: biri qanuni şiddətdir - yəni qanun bu şiddəti icra edir. Yazır ki, kim filan işi görsə, onu həbs edin. Bu şiddətdir, amma pis deyil və insanların hüququna təcavüzün qarşısını alır. Bu şiddət qanunu pozan və təcavüzkar insana qarşıdır. Təcavüzkara qarşı şiddət işlədilməsə, cəmiyyətdə təcavüz çoxalar. Burada şiddət lazımdır. Şiddətin bir növü də qanunsuz şiddətdir. Məsələn, bir nəfər yersiz, özbaşına və qanuna

[1] Cümə namazı xütbələrindən: 2000.

zidd olaraq kiməsə qarşı zor işlədir, bir şillə vurur. Bu yaxşıdır, yoxsa pisdir? Bəllidir ki, pisdir. Bunda şübhə yoxdur.

İslam Peyğəmbərin (s) davranışı və fərdi əxlaqı haqda buyurur: "Allahın mərhəməti səbəbinə sən onlarla yumşaq rəftar etdin. Əgər qaba, daşürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər"[1]. Peyğəmbəri (s) xalqla münasibətdə yumşaq və mülayim olmasına görə mədh edir və deyir ki, sən sərt və kobud deyilsən. Həmin Quran başqa bir yerdə Peyğəmbərə (s) deyir: "Ey Peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş, onlarla sərt (şiddətli) davran!"[2] Qabaqkı ayədə qeyd olunan sərtlik və şiddət anlayışı burada da var, lakin orada möminlərlədir, davranışda, fərdi rəftardadır, burada isə qanunun icrasında, cəmiyyətin idarəsində və nizam-intizam yaratmaqda. Orada şiddət pisdir, burada isə yaxşıdır.

Əziz Peyğəmbər (s) Məkkəyə daxil olarkən on üç il ona əziyyət, işgəncə verən, yalançı adlandıran və bütün problemləri yaradan insanlarla üzləşdi. Onların hamısına dedi ki, siz azadsınız; onlardan intiqam almadı. Lakin elə həmin səfərdə bəzi şəxslərin adını çəkib dedi ki, bunları harada görsəniz, öldürün. Onlar dörd qadın və dörd kişidən ibarət idi. Burada şiddət lazım idi, amma orada mülayimlik.

İslam günahı isbat etmək haqda deyir ki, insanları güdməyin, onun-bunun günahını izləməyin, əsassız olaraq insanları günahkarlıqda ittiham etməyin. Günah sübuta yetdikdə isə buyurur: "Allahın dini barəsində (cəzanın icrasında) onlara qarşı ürəyiniz yumşalmasın". Yəni günahkarı cəzalandırmalısınız, ona ürəyiniz yanmasın.

İslam kompleks dindir, təkyönümlü deyil. İslam hökuməti zorakılıq, təcavüz, iğtişaş və qanun pozuntusu qarşısında qaldıqda qüdrətlə, qətiyyətlə və şiddətlə rəftar etməli, xalqı ilə ümumi rəftarında isə mehriban və mülayim olmalıdır: "Sizin əziyyətə düşməyiniz ona ağır gəlir, o sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir, möminlərlə şəfqətli, mərhəmətlidir". Peyğəmbər (s) sizin çətinliklərinizə görə əziyyət

[1] Ali-İmran/159.
[2] Tövbə/73.

çəkir. Həmişə belədir; xalqa toxunan hər bir ziyana görə ona ürəyi yananlar əziyyət çəkirlər. Deməli, orada elə olmaq lazımdır, burada isə belə.

Peyğəmbər (s) hicrətin onuncu ilində vida həcci adlanan son həcc ziyarəti üçün Məkkəyə gedəndə Əmirəlmöminin (ə) Yəməndə məmuriyyətdə idi. Peyğəmbər (s) o həzrəti əhaliyə din öyrətmək, kömək etmək və onların zəkatını almaq üçün Yəmənə göndərmişdi. Əmirəlmöminin (ə) Peyğəmbərin (s) həccə getidyini eşidən kimi tez özünü Məkkəyə çatdırdı. Yəmən əhalisindən bir qədər zəkat alınmışdı. Onların arasında o zaman çox dəbdə olan Yəmən paltarları da vardı. Bu karvanla getmək üçün Əmirəlmömininin (ə) vaxtı yox idi. O özünü Peyğəmbərə (s) çatdırmağa tələsirdi. Odur ki, həmin malları gətirmək üçün bir nəfəri karvanın başçısı təyin etdi və həcc əməllərini əvvəldən Peyğəmbərlə (s) birgə yerinə yetirmək üçün özünü cəld Məkkədə Peyğəmbərə (s) çatdırdı. Həmin karvan çatanda Əmirəlmöminin (ə) onların yanına getdi, gördü ki, onlar Yəmən paltarlarını öz aralarında bölmüş və hər biri gözəl bir paltar geyinib gəlmişlər. Buyurdu ki, nə üçün bunları geyinmisiniz? Dedilər ki, qənimət və zəkat olduğu üçün bunlar bizə məxsusdur. Buyurdu ki, Peyğəmbərə (s) çatmadan, xəzinəyə təvil verilmədən bölünməsi düzgün deyil, qanuna və dinə ziddir. Buna görə paltarları onlardan aldı. Bəziləri özləri verdilər, vermək istəməyənlərdən də zorla aldı. Təbii ki, çox imanı olmayan bir kəsdən bir imtiyaz alınanda inciyər. Onlar Peyğəmbərin (s) yanına gəlib Əmirəlmöminindən (ə) şikayət etdilər. Peyğəmbər (s) buyurdu ki, nə üçün şikayət edirsiniz, məgər nə olub? Dedilər ki, Əli (ə) bunları bizdən aldı. Peyğəmbər (s) onların cavabında buyurdu ki, bu iş üçün Əlini qınamayın, o, ilahi qanunlar məsələsində sərt və şiddətli insandır.

İslamın təyin etdiyi sərhəd şiddətin qanuni olmasıdır. Qanuni şiddət nəinki yaxşı, hətta vacibdir. Qeyri-qanuni şiddət isə nəinki pis, hətta cinayətdir və ona qarşı tədbir görmək lazımdır. İslamın baxışı budur. Daha bundan ötrü mübahisəyə ehtiyac yoxdur və heç kim İslamın əsaslarını və həqiqətləri bilmədən bəzi mətbu orqanlarını

təhrikedici və azdırıcı manşetlərlə doldurmasınlar. Xalqın bu mövzular üstündə bir-biri ilə vuruşmasını istəyən düşmənlərin məqsədi başqadır. Onlar şiddəti ümumi bir məsələ hesab edir, qanuni və qeyri-qanuni şiddət arasında fərq görmür və qanuni şiddətə də qarşı çıxırlar. Onlar deyirlər ki, kimsə Tehranın küçələrində iğtişaş törətsə, xalqın təhlükəsizliyini pozsa, mal-mülkünü tələf etsə, uşaqlarını təhlükəyə salsa, ona qarşı tədbir görməyin, çünki bu, şiddətdir. Halbuki onların özləri dünyanın müxtəlif yerlərində ən kobud və ən faciəli işləri görürlər. İndi radiosu şiddətlə düşmənliyin təbliğatçılarından olan və daim şiddət əleyhinə şüarlar səsləndirən sionizm rejimi hər gün Livanın cənubunu bombalayır, qadını, uşağı, kiçiyi və böyüyü məhv edir. Dünyanın müxtəlif yerlərində olan dostları da belədirlər.[1]

**Sual:** Buyurduğunuz şüarlardan biri də islahatdır. Təəssüf ki, bəzi mətbu orqanları bu barədə cəmiyyətdə şübhələr yaradır və milli birliyi pozurlar. Sizcə islahat nədir və İslam inqilabı islahata qarşı çıxırmı?

**Cavab:** İslahat həmişə sevilmiş sözlərdən biridir. Yeni hökumət iş başına gələndən islahat siyasətini irəli sürmüşdür. Hər hansı fəsaddan əziyyət çəkən bütün insanların qəlbi bu şüarla döyünür və islahatın tərəfdarıdırlar. İslahat çox yaxşı bir şeydir. Amma o nədir? Düşmən burada da işə qarışır, onun xəbər imperatorluğu təbliğat fəaliyyətinə başlayır və ölkə daxilində bəzi qüvvələrin peyda olub islahat, bəzi qüvvələrin də antiislahat şüarı verməsinə bais olur. Məgər kimsə islahata müxalif ola bilərmi?! Düşmənin işi belədir. Düşmənin işi şübhə yaymaq və öz məqsədlərindən ötrü cəmiyyəti qarışdırmaqdır. Düşmən islahatı sevmir. Bu barədə qəti fikir bir kəlmədir: islahat ya inqilab, İslam və iman islahatıdır, ölkənin bütün məmurları, bütün mömin xalq və bütün fikir sahibləri də onunla razıdırlar, ya da Amerika islahatıdır və ölkənin bütün məmurları, bütün mömin xalq və bütün sayıq insanlar ona müxalifdirlər.

---

[1] Tehranın cümə namazı xütbələrindən: 2000.

İslahat barədə İmam Hüseyndən (ə) iki cümlə nəql olunmuşdur. O buyurur: "Babamın ümmətinin işlərini islah etməkdən ötrü qiyam edirəm"[1]. O, islahat barədə düşünür və islahat aparmaq istəyirdi. Başqa bir yerdə də buyurur ki, İslam ümmətinin və İslam ölkəsinin islahını istəyirəm. Bu, İmam Hüseynin (ə) şüarıdır.

İslahat nədir? İslahat hər bir nöqsanlı sahənin düzəlməsi deməkdir. İnqilabın özü böyük bir islahatdır. Dünyanın siyasi ədəbiyyatında inqilabı islahatın qarşısında qeyd etsələr də, mən bu terminlə danışmaq istəmirəm. Mən İslam termini olan islahatdan danışıram. İnqilabın özü ən böyük islahatdır. İslahat inqilabın mahiyyətində və kimliyində yatır. İnqilabçı, sayıq və şücaətli bir xalq daim baxır ki, keçmişdən qalmış, zaman boyu diqqətsizlik, yanlış idarəçilik və təcavüzlər səbəbindən yaranmış fəsadların nə olduğunu görsün və onları islah etsin; səhvlərini görüb düzəltsin. İslahatsız inqilab ola və heç bir cəmiyyət islahatsız yaşaya bilməz. İnqilabın əvvəlindən hamı islahatın yaranmasını arzulamış, hər kəs öz iradəsi qədərincə buna çalışmışdır. Bu gün bir hökumət islahatı özünə şüar seçmişdir. Çox gözəl! Mən bu hökumətin məmurlarının, islahat şüarı verənlərin, o cümlədən möhtərəm prezidentimizin islahatda məqsədlərinin nə olduğunu bilirəm. Onlar İslam islahatını istəyirlər.[2]

**Sual:** Siz islahat üçün hədd və şərtlər tanıyırsınızmı?

**Cavab:** Məncə islahat zəruri və lazımlı bir məsələdir və ölkəmizdə həyata keçməlidir. Bizdə islahat çarəsizlikdən yaranmır ki, hansısa hökumət başçısı ağır tələblər qarşısında qalıb müəyyən sahələrdə islahatlar aparsın. Xeyr! İslahat bizim quruluşumuzun inqilabçı və dini kimliyindəndir. Əgər yeni-yeni islahatlar aparılmasa, quruluş çürüyər və yolundan yayınar. İslahat vacib əməldir. İslahatın sahələri hansılardır? Bu başqa bir mövzudur. İslahatın özü lazımlı bir işdir və baş verməlidir. İslahat aparılmasa, bu gün mövcud olan bəzi hallar

[1] "Bihar əl-ənvar", c. 44, səh. 329.
[2] Tehranın cümə namazı xütbələrindən: 2000.

yaranar: sərvət ədalətsiz bölünər, cəmiyyətin iqtisadi sisteminə rəhmsiz korrupsionerlər hakim olarlar, yoxsulluq artar, həyat ağırlaşar, ölkənin sərvətlərindən düzgün istifadə olunmaz, beyinlər qaçar, qalan beyinlərdən də maksimum istifadə olunmaz. İslahat baş verdikdə isə bu neqativ hallar və onlarla belə hal yaranmaz. Deməli, birinci məsələ budur ki, islahat zəruri və lazımi işdir.

İkinci məsələ budur ki, islahat tərif olunmalıdır. Əvvəla islahat aparmaq istəyən adamlar kimi bizim özümüz üçün tərif olunmalı və nə iş görmək istədiyimiz bilinməlidir. İkincisi isə xalq üçün tərif olunmalı, islahat dedikdə məqsədimizin nə olması bilinməli və hər kəs islahatı özü istədiyi kimi izah etməyə qalxmamalıdır. Dövlət məmurları, Ali Məhkəmə, parlament və digər qurumların məsul işçiləri bu işi görə bilərlər. İslahata müəyyən tərif verilməli, onun sonunda çatacağımız vəziyyətin təsviri həm xalq, həm məmurlar üçün asanlaşmalı, onlar nə əldə etmək istədiklərini bilməlidirlər. Cənab Qorbaçovun problemi bu idi ki, eyib və noqsanları bilirdi, amma görülməli işlərə dair aydın təsviri yox idi. Əgər var idisə də, xalq onu bilmirdi. Buna əsasən, islahat barədə müəyyən tərif verilməsə, kənar örnəklər üstün gələr və sovetlərdə baş verən hadisə qarşıya çıxar. Onlar nə iş gördüklərini bilmədiklərinə görə Qərb islahatının naşıcasına təqlidinə başladılar. Bizim böyük imamımız uzaqgörənliklə onlarda bu zəif cəhəti gördü və Qorbaçova yazdığı məktubunda xatırlatdı. O yazdı ki, siz sosializm və kommunizm iqtisadiyyatının kor düyünlərini Qərb kapitalizminə keçməklə açmaq istəsəniz, nəinki cəmiyyətinizin dərdinə dərman edə bilməyəcəksiniz, hətta digərləri gəlib sizin səhvlərinizi düzəltməli olacaqlar. Çünki bu gün marksizm iqtisadi və ictimai məsələlərdə dalana dirənmişdirsə, Qərb dünyası da eyni məsələlərdə başqa formada və həmçinin digər məsələlərdə problem içərisindədir. Mən buna görə dəfələrlə demişəm ki, imam həqiqətən bir həkim idi. O, dünyanın media və informasiya qələbəliyi arasında əsas amili təyin etmişdi.

Xoşbəxtlikdən bəzi məmurlar və ən çox da əziz prezidentimiz dəfələrlə deyib ki, bizim islahatımız İslam və inqilab islahatıdır. Məqsəd

Mədinətün-Nəbiyə - Peyğəmbər (s) dövlətinə nail olmaqdır. Bunlar yaxşıdır. Amma daha dəqiq təriflər və daha aydın təsvirlər lazımdır. Bunlar qərblilərin və əcnəbilərin əlini kəsmək baxımından yaxşıdır. Bəlli olur ki, onların istədikləri nəzərdə tutulmur. Bunu hamı anlayır, amma yenə də izah olunmalı və daha çox təsvir edilməlidir.

Üçüncü məsələ budur ki, islahata qüdrətli və təqvalı bir mərkəz tərəfindən rəhbərlik edilməlidir ki, nizamsızlıq yaranmasın. On il ərzində yaxşı və gözəl şəkildə görülməli işi iki il ərzində görmək istəsəniz, böyük problemlər qarşıya çıxar. Təhlükəli bir yolda normal həddən yüksək sürətlə gedən bir avtomobil qəzaya uğramasa, təəccüb etmək lazımdır. Sayıq, qüdrətli və təqvalı bir mərkəz nəzərdə tutulan işlərə həddən artıq sürətin verilməsinə qoymur, iş qaydasında və düzgün görülür.

Keçmiş SSRİ-də bu işlər başlayanda Qərbin film, kitab, qəzet, geyim və sair örnəklərinin qapısı açıldı; yəni iddialar reallıqda Qərbin bəlli nümunələrini təcəssüm etdirdi. Bu çox təhlükəli haldır. Burada KİV-in rolunu nəzərdən qaçırmayın. Medianın üzərinə vəzifə düşür, qəzetlər həssas mərkəzlərdir. Qəzetlər üzərində həssaslığın əsas hissəsi buna görədir. Mətbuat və qəzet məsələsinin azadlığa dəxli yoxdur. Kimsə bizə azadlığı başa salmağa qalxmasın. Eybi yoxdur, amma biz azadlığın mənasını bilir və onu ürəkdən istəyirik. Azadlıqda məqsəd də söz və fikir azadlığıdır. Lakin siz öz vəzifənizdən irəli gələrək gedib bir qaçaqçının dükanını bağlasanız, o deyə bilməz ki, mənim ticarətimə mane olursunuz. Xeyr! Burada söhbət ticarətin azadlığından getmir, ticarət azad, qaçaqçılıq isə yasaqdır. Burada da söhbət söz azadlığından getmir. Söz və fikir azaddır, təxribat aparmaq, yoldan çıxarmaq isə qadağandır; özü də bizim ölkəmizin bugünkü həssas şəraitində.

Mən ölkənin bəzi media məmurlarına dəfələrlə demişəm ki, düşmənin təbliğat hücumuna qarşı mübarizə gücünüz və bacarığınız olan gün mətbuat, qəzet, kitab, film və bu kimi amillərin çoxluğuna hamıdan çox mən şərait yaradacağam. Siz deyin görək xalqın mədəni, etiqadi, dini təməllərini, inqilabçılıq, fədakarlıq və şəhadət ruhiyyəsini

zəiflədən, özü də sayı-hesabı bilinməyən filmlərin qarşısında neçə film hazırlamısınız? Mən bu sahədə təhlükə hiss edirəm. Əlbəttə, əsaslı və uzunmüddətli iş budur ki, yaxşısını istehsal etmək haqda düşünək. Lakin yaxşının meydana çıxmasına qədər qəbul edə bilmərəm ki, bu palçıq seli gəlib gənci, uşağı və müxtəlif təbəqələri qərq etsin, inqilab təfəkkürünə qarşı mübarizədə düşməni sevindirən və ona yol göstərən bütün üsullardan istifadə olunsun, kimsə qarşı çıxsa da, cəld ittihamlara məruz qalsın. Bu, azadlıq deyil. Bu, ağıldan deyil. Bu, ölkə idarəsi deyil. Siz KİV-in roluna diqqət yetirmək üçün məsuliyyət daşıyırsınız. Bu olduqca mühüm məsələdir. Xüsusən bizim indiki şəraitimizdə yazılı media qurumları və qəzetlər üzərində həssaslıq olduqca əhəmiyyətlidir. Bu təsvirlə onların düşmənin xeyrinə nə qədər rol oynadığı bəlli olur. Bu sahədə iddiaçılar quruluşun tərəfdarı olan vahid cəbhə, müxtəlif hakimiyyət orqanlarının məmurları və müxtəlif sahələrin məsul işçiləri olmalıdırlar. İddiaçı yalnız Ali məhkəmə, yaxud filan ruhani deyil, hamı bu sahədə iddiaçı olmalıdır.

Dördüncü məsələ islahat sahəsində konstitusiyanın tələblərinə əməl etməkdir. Konstitusiyada hər şeydən çox İslamın rolu, onun qanun, struktur və təyinatlar üçün mənbə və qaynaq olması üzərində təkid olunur. Konstitusiyanın tələblərinə dəqiqliklə əməl olunmalıdır. Siz görün düşmən bizim konstitusiyamızla necə rəftar edir: bir hissəsini inkar edir, bir hissəsini isbat; bir yerdə konstitusiyaya əsaslanır, bir yerdə əleyhinə danışır. Konstitusiya bizim böyük milli, dini və inqilabi əhd-peymanımızdır. Bizim hər şeyimiz olan İslam dini konstitusiya ilə təmsil olunur. Konistutiyanın dördüncü maddəsi hər şeyi aydınlaşdırmışdır. Əgər digər qanunlarda, hətta konstitusiyanın özündə icra, yaxud qanun mərhələsində İslamla ziddiyyət təşkil edən bir qanun olsa, bu maddə ona hakimdir. Elm hövzələrinin hermenevtik və elmi termini olan hakimliyi nəzərdə tuturam. Sözsüz ki, bunu demək zəruri deyildi; deyilməsəydi də, hakimliyi bəlli idi. Burada isə açıq şəkildə yazılmışdır. Buna əsasən, islahat zamanı konstitusiyanın tələblərinə tam riayət olunmalıdır.

Beşinci məsələ düşmənə yol açan hər hansı radikallıqla - yəni Yeltsin modeli ilə mübarizədir. Bütün orqanlar Yeltsin modelinə qarşı sərt mübarizə aparmalı, bir şöhrətpərəstin, aldanmışın, qərəzlinin, yaxud qafilin bir hərəkəti öz düzgün halından çıxarmasına, yarış və ziddiyyət halı yaratmasına qoymamalıdırlar.

Altıncı məsələ xaricilərin və qərblilərin müdaxiləsinə qarşı ciddi mübarizə, onların işarəsinə etinasızlıq və bədgümanlıqdır. Təbii ki, diplomatiya və xarici əlaqələr mövzusu başqa mövzudur. İnsan diplomatiya məqamında verir-alır, müqavilə bağlayır və hər bir iş görür. Lakin quruluşun əsas məsələlərində onların istəyinə şübhə ilə baxmaq lazımdır. Onların niyyətləri əsla yaxşı deyil. Biz səkkizillik müharibədə gördük ki, bütün Avropa Səddama kömək etdi; Fransa kömək etdi, Almaniya kömək etdi, İngiltərə kömək etdi, keçmiş Yuqoslaviya kömək etdi, ozamankı Şərq bloku kömək etdi. Düzdür, biz diplomatiya məqamında heç zaman demirik ki, siz Səddama kömək etdiyinizdən biz sizinlə əlaqələrimizi kəsirik. Xeyr! Diplomatiya başqa bir dünyadır. Bu gün bizim xarici siyasətimizdə irəli sürülən "gərginliyi azaltmaq" siyasətini biz də təsdiq edirik. Gərginlik azaldılmalıdır. Lakin gərginliyi azaltmaq kiminsə onlara inanmasından fərqli bir şeydir. Nə o bizə inanır, nə də biz ona. Diplomatiya sahəsində fəalliyyət göstərənlər mənim nə dediyimi yaxşı anlayırlar. Ümumiyyətlə diplomatiya real döyüş sahəsidir. Lakin bu döyüş eyni masa arxasında, təbəssümlə, "sabahın xeyir" və "gecən xeyrə qalsın" deməklə aparılır. Diplomatik münasibətlərin olması heç zaman düşmənə inam sayılmamalıdır. Ona inanmaq olmaz.

Yeddinci məsələ müxtəlif sahələrdə aparılan islahatların bir-birinə uyğunluğudur. Bu çox əhəmiyyətli məsələdir. Baxın, mənim əzizlərim! Bəzi sahələrdə islahat mürəkkəb, çətin və sürəti zəifdir. Məsələn, iqtisadi sahədə iş çox zəif gedir. Gəlirin ədalətli bölgüsü də belədir; çox çətin işdir, asan deyil. Yoxsulluğa son qoymaq, məhrum bölgələri dirçəltmək – bunların hamısı islahatdır. İdari işlərdə islahat olduqca çətin, mürəkkəb və ağırdır. Bunlar gec baş verir. Cənab Qorbaçovun

"Qlasnost" siyasətinə görə çətin deyil, asan işdir; bir gündə iyirmi qəzetə də yayım icazəsi vermək olar! Lakin bu zaman uyğunluq pozulur. Belə olmaz. Uyğun hərəkət etməli, çətin sahələrlə yanaşı irəliləməliyik. Mən həm də buna görə deyirəm ki, məişət məsələsi prioritet təşkil edir. Çünki məişət məsələsi çətin sahədir. Siz bütün qüvvənizi toplayıb tam səmimiliklə, xeyirxahlıqla və həvəslə işləsəniz, xüsusi bir sürətiniz olacaq. Bu zaman digər sahələri də eyni sürətlə inkişaf etdirməlisiniz. Bu bərabər və uyğun sürətə riayət etməsəniz, o zaman çox əsaslı problemlər yaranar. Onların bəzisi proqnoz verilir, bəzisi isə verilmir. Proqnoz verilənlərin bəzisinin qarşısını almaq mümkündür, bəzisində isə mümkün deyil.

Səkkizinci məsələ ölkədə milli parçalanma amillərinə qarşı ciddi mübarizədir. Mən xüsusən Ölkə nazirliyində və digər yerlərdə çalışan aidiyyətli məmurlara deyirəm ki, diqqətli olun. Bu gün müxtəlif etnik qrupların təhrik edilməsi ciddi məsələdir. Bizim aidiyyətli məmurlarımız bunu görürlər. Bütün iranlı milliyyətlər İranı və İslam Respublikasını sevir, İranı öz vətənləri bilirlər. Mənim türkdilli regionla əlaqəm bəllidir. Uzun müddət bəluclar yaşayan bölgədə yaşamış və onlarla yaxından ünsiyyətdə olmuşam. Bəzi başqa milliyyətlərlə də yaxın-uzaq əlaqələrim olub. Əlaqəm olmayanlar haqda da kifayət qədər məlumatım var və ictimai ruhiyyələrini bilirəm. Mən müxtəlif vəzifələrdə çalışarkən həmin bölgələrə çoxlu səfərlər etmişəm. İranlı milliyyətlər müsəlmandırlar, bu torpağı sevirlər, öz şərəf və rifahlarını başıuca və azad İranda görürlər. Düşmən isə təhrik etməklə məşğuldur. Düşmənin təhriklərini əhəmiyyətsiz saymaq olmaz. Ehtiyatlı olun. Bu olduqca əhəmiyyətli məsələlərdəndir. İndi bu işlərdə təşəbbüsü hökumətin əlindən almağa yönəlmiş səylər hiss olunur. Əgər Allah eləməmiş, belə bir vəziyyət yaransa, problemlər qarşıya çıxacaq, onlara çoxlu pul, iradə və zaman sərf olunacaq və ölkə məmurları əsas işlərdən qalacaqlar.[1]

---

[1] Quruluşun vəzifəli işçiləri ilə görüşdəki çıxışdan: 2000.

**Sual:** Hal-hazırda cəmiyyətin hansı sahələrdə islahata ehtiyacı var?

**Cavab:** Bizim idarə proqramlarında, iqtisadiyyatda, məhkəmə və təhlükəsizlik məsələlərində, qanun və qaydalarda islahatlara ehtiyacımız var. Bizim ehtiyacımız var ki, idarələrimizdə hamı bərabər tutulan və ayrıseçkiliyə yol verilməyən qanunlar olsun. Ayrıseçkilik varsa, bu bir fəsaddır və islah olunmalıdır. Rüşvət və korrupsiya olmamalıdır; varsa, fəsaddır və islah olunmalıdır. Qazanc yolları qanuni olmalıdır. Kimlərinsə qeyri-qanuni yollarla sərvət toplaması fəsaddır və islah olunmalıdır. Kimlərinsə xüsusi imtiyazlardan istifadə edib çoxlu sərvətlər toplaması və bunun hesabına digərlərinin yoxsul qalması fəssaddır və islah olunmalıdır. Cəmiyyətdə inhisarçılığın yaranması və hamının imkanlardan bərabər şəkildə istifadə edə bilməməsi fəssaddır və islah olunmalıdır. Peşə təhlükəsizliyinin və qanunun aliliyinin təmin olunmaması, cəmiyyətdə çalışmaq istəyənlərin əl-qolunun bağlanması fəsaddır və islah olunmalıdır. Cəmiyyətdə istehlaka təmayülün artması, iqtisadi fəaliyyətlərdə dəllallığın istehsaldan üstün tutulması fəsaddır və bunları islah etmək lazımdır. İslahat bunlardır. Xalqın, xüsusən də ölkənin bəzi məmurlarının intizamsızlığı və ictimai nizam-intizamın olmaması fəsaddır; məsuliyyət hissinin olmaması fəsaddır; gənclərdə insani xarakterlərin - şücaətin, səmimiyyətin, sədaqətin, fəallığın və həvəskarlığın inkişaf etməməsi fəsaddır; cəmiyyətdə qeyri-sağlam cinsi münasibətlərin olması fəsaddır; cəmiyyətdə narkomaniyanın olması, ümumi dərk və şüurun ideal həddə olmaması fəsaddır; məmurların öz vəzifələrini bilməməsi fəsaddır; ailələrin, şəhər, küçə, yol və kəndlərin təhlükəsizliyini pozan insanlar varsa, bu fəsaddır; cinayətin olması, ədalətli məhkəmənin olmaması, məhkəmə proseslərinin uzanması və cinayət axtarışlarının gecikməsi fəsaddır. Bunları islah etmək, cinayətin qarşısını almaq lazımdır. İnqilab bizə bu islahatları aparmağı əmr edir. Hamı cəmiyyətdə belə islahatların aparılmasını istəyir. Təbii ki, bu

islahatlar komplimentlə həyata keçmir. Bunlar qətiyyətlə və konkret addımlarla həyata keçə bilər.[1]

**Sual:** Dediniz ki, düşmən islahat məsələsinə müdaxilə edib Amerika islahatı adlandırdığınız işləri dəstəkləyir. Lütfən bu islahatı izah edin.

**Cavab:** Biz gördük ki, indiki məmurlar – istər icraçı hakimiyyətin, istər məhkəmə hakimiyyətinin məmurları qeyd olunan istiqamətlərdə çalışıb proqramlar hazırladılar. Çox gözəl! Amma düşmən bəzi işləri islahat sayır. Amerikalılar deyirlər ki, sizin hicabınız, əxlaqi və dini sərhədlər götürülsün, Quranın hakimliyinə və qanunların konstitusiyada göstərilən şəkildə İslamla uyğulaşdırılmasına son verilsin. Bunlar Amerika islahatıdır. İran xalqı öz nailiyyətlərini ucuz əldə etməmişdir. İran xalqı öz müstəqilliyini, siyasi yetkinliyini, şərəf və şəxsiyyətini ucuz qazanmamışdır.

Dünya gücləri və quldurlar öz nüfuzlarını genişləndirməyə və maraqlarını təmin etməyə çalışırlar. Onlara "Siz Fars körfəzində nə edirsiniz? Sizin ölkəniz hara, Fars körfəzi hara?" deyəndə, cavab verirlər ki, burada bizim maraqlarımız var. Qəribədir! Deməli, sizin maraqlarınız harasa qoşun yeritməyi tələb etsə, qoşun yeritməlisiniz?! Sizin maraqlarınız digər xalqların maraqlarından üstündür?! Bu supergüclərin gördükləri işlər öz maraqlarından ötrüdür. Əgər islahatçılıq şüarını dəstəkləyirlərsə, yalandır. Onlar həqiqi islahatı müdafiə etmirlər, bu ölkədə islahata, inqilabın özünə də qarşıdırlar. Onlar bu xalqın müqavimət və müstəqillik ruhunu məhv etmək məqsədilə şüar verir və danışırlar. Bəzi şəxslər də onların sözlərini təkrarlayırlar. Bunun özü acınacaqlı haldır. Mən indi bu haqda danışmaq istəmirəm. Bəzi şəxslər dostdan çox düşmənə etimad edir, dostdan çox əcnəbiyə xoş üz göstərir, dostu qoyub əcnəbinin sözlərini təkrarlayırlar. Bunun özü çox dərdli və acınacaqlı haldır. Mən bu gün bu

---

[1] Yenə orada.

haqda danışmaq istəmirəm, amma hər halda, bunu siz İran xalqına söyləməyə də bilmirəm. Mən nəhayət bir gün deyəcəyəm ki, bəzi adamlar bu ölkədə düşmənin xeyrinə və bu xalqın əleyhinə, təcavüzkarın xeyrinə və məzlumun əleyhinə hansı işləri görməkdədirlər. Hələlik isə bu mövzunu bağlayıram.[1]

**Sual:** Bu gün bəzi cinahlar və siyasi şəxsiyyətlər hökumət və quruluşun digər orqanları üçün bəzi prioritetlər tanıyırlar. Onlardan biri də siyasi inkişafdır. Ölkənin şəraitini nəzərə alaraq, siz hansı məsələni birinci prioritet sayırsınız?

**Cavab:** Bu gün insanın məqamı, şəxsiyyəti, şərəfi və ucalığı haqda çox danışırlar. Şübhəsiz ki, bu, İslam prinsiplərindəndir. Amma insan hörmətini tapdamaq baxımından ailə başçısı və ata olan bir insanın hər bir imkanın olduğu bir cəmiyyətdə öz övladlarının ibtidai ehtiyaclarını təmin edə bilməməsindən pis nə ola bilər?! Hansı təhqir bundan ağırdır?! İnsani şəxsiyyəti, şərəfi və ucalığı tapdamaq baxımından bundan böyük bir şey varmı?! Səhərdən axşama qədər işləyir, axırda da mənə, sizə, yaxud başqa bir məmura məktub yazır ki, mən iki aydır evimə ət aparmıram. Biri var cəmiyyətdə ət və meyvə yoxdur, mən və siz də yemirik; biri var cəmiyyətdə rifah imkanları yoxdur, biz də istifadə etmirik; biri var bayramda bizim övladlarımız da yeni paltar geyinmirlər. Bu zaman heç kim aşağılıq hiss etmir: "Bəla ümumi olanda ona dözmək də asan olur". Lakin cəmiyyətdə hər şey olanda, kimlərsə qeyri-qanuni yollarla özləri üçün təmtəraqlı həyat tərzi qura biləndə, pul xərcləməyə heç bir məhdudiyyət tanımayan təbəqələr olanda, döyüşçülərdən, hərbçilərdən, dövlət işçilərindən, müəllimlərdən, kəndlilərdən, məhrum və ucqar bölgələrin əhalisindən ibarət böyük bir toplum uşaqlarının pendir-çörəyini təmin edə bilmirlərsə, insani şəxsiyyət və şərəfi tapdamaq baxımından bundan böyük nə ola bilər?! Siz kimə cavab vermək istəyirsiniz?! Siz kimi razı salmaq istəyirsiniz?!

---

[1] Tehranın cümə namazı xütbələrindən: 2000.

Bəli, məişət məsələsi şübhəsiz ki, birinci prioritetdir. Məişət olmasa, din də yoxdur, əxlaq da yoxdur, iffət və paklıq da yoxdur, ümid də yoxdur. Nöqsanları və yoxsulluğu aradan qaldırmaq üçün çalışmaq və gecə-gündüzünü buna həsr etmək məqsədilə bir mövqe əldə edən şəxsi qınamazlar. Prioritetləri təyin edin. Cəmiyyətin əsas məsələləri bunlardır.

Mənim əzizlərim! Bilin ki, sizin düşməninizin, bu inqilabın və bu quruluşun düşməninin istifadə edəcəyi ən kəsərli silah xalqın yoxsulluğu və iqtisadi problemləridir. Bu məsələ üzərində fikirləşmək lazımdır. Xalqın iqtisadi problemləri sizin sözlərinizdə haqlı olaraq təkrar olunan işsizlik məsələsi, çoxlu çatışmazlıqlar və problemlərdir. Əlbəttə, bunun kənarında müxtəlif fəsadlar, sui-istifadələr, ayrıseçkiliklər, idari və hüquqi problemlər də var. Sizin üçün birinci prioritet xalqın ümidini qorumaq, qarnını doyurmaqdır.[1]

**Sual:** Düşmənin ciddi şəkildə sıradan çıxarmağa çalışdığı amillər var. Sizcə hansı yolla milli birliyi təmin edib düşmənlərin təxribatlarını zərərsizləşdirmək olar?

**Cavab:** Milli birliyi təmin etməyin yollarından biri budur ki, xalq arasında nüfuzlu şəxslər - məmurlar, tanınmış din xadimləri, ruhanilər, siyasi xadimlər öz sözlərində xalqın bir qisminin qəlbində digərinə qarşı incikliyin yaranmasına və fitnənin törənməsinə xidmət edən bir iş görməsinlər. Fitnə törətmək və xalqı bir-birinə inamsız etmək düşmənlərin bu xalqa qarşı proqramlarının tərkib hissəsidir. Əcnəbi radioların, informasiya mərkəzlərinin sözlərinin demək olar ki, yarısı planlıdır. Məqsəd xalqın bir qismini digərindən küsdürməkdir. Oturub planlar hazırlayırlar ki, bundan ötrü nəyi necə deyək. Dil və qələmləri işləyənlər birinci növbədə sözlərinin etimadsızlıq yaratmamasına çalışmalıdırlar. Xalqın bir-birinə, yaxud məmurlara qarşı etimadsız olması da bir növ fitnə törətmək və başqa bir günahdır. Bəzi qüvvələr

[1] İslam Şurası Məclisinin deputatları ilə görüşdəki çıxışdan: 2000.

şayiə yaymaqla, xəbər qondarmaqla və müxtəlif dezinformasiyalarla - bəzən xəbərin özü doğru ola, amma dinləyicidə yalan və qeyri-gerçək təsəvvür formalaşdıran şəkildə deyilə bilər - xalqda, gənclərdə, oxucularda və dinləyicilərdə quruluşun məmurlarına qarşı etimadsızlıq yaratmaq, onları şübhəyə salmaq istəyirlər. Bunun faydası nədir? Xalqın və ölkənin inkişaf sürətini azaltmaqdan başqa heç bir faydası yoxdur; məmurları tərəddüdə salmaqdan, xalqı gələcəyə ümidsiz etməkdən və xalqdan möhtəşəm ümid qüvvəsini almaqdan başqa heç bir faydası yoxdur. Bəzi adamlar xalqda bütün quruluşa, yaxud bəzi məsul şəxslərə qarşı inamsızlıq yaratmağa çalışırlar. Halbuki söz həqiqətən düzgündürsə, onu bir yolla həmin məmurun, yaxud ondan yuxarıdakı məmurun qulağına çatdıra və olduqca daha yaxşı nəticələr əldə edə bilərlər. Bir hadisə baş verir, bir yerdə bir terror və cinayət törədilir, sonra isə heç bir məsuliyyət hiss etməyən şəxslərin dilindən oxucuda qeyri-obyektiv təsəvvür yaradan yanlış sözlər eşidilir. Məsələlərdən xəbərdar olanlar bunların həqiqətdən nə qədər uzaq olduqlarını, yaxud qəsdən uzaqda dayandıqlarını görürlər. Bunlar milli birliyi pozan amillərdir. Buna əsasən, milli birlik bir xalqın ən mühüm arzularından biridir.

Bir xalq söz birliyi ilə iqtisadi işlərə başlasa, inkişaf edər; müharibə baş versə, qalib gələr. Milli birliklə xalqın heysiyyətini daha yaxşı qorumaq olar. Bir xalq özünün bütün böyük amallarını milli birliyin sayəsində əldə edə bilər. İxtilaf, təfriqə, parçalanma, cinah, qrup və şəxslərin bir-birinin qarşısında dayanması heç nəyə xidmət etmir. Bu bir prinsipdir. Ümidvarıq hamı buna riayət etsin. Bizim ictimai rəylə işləyən məmurlardan istəyimiz və tələbimiz budur.[1]

**Sual:** Milli təhlükəsizlik hansı sahələrə şamil olur? Cəmiyyət və inqilab hansı təhlükələr və kimlər tərəfindən təhdid olunur?

---

[1] Qədir Xum bayramında həzrət İmam Rzanın (ə) ziyarətçilərinin toplantısında çıxışdan: 2000.

**Cavab:** Milli təhlükəsizlik çox əhəmiyyətli məsələdir. Bu həm daxili, həm də xarici təhlükəsizliyə şamil olur. Xarici təhlükəsizlik odur ki, bir ölkə sərhədlər xaricindəki qüvvələr tərəfindən təhdid olunsun, yaxud müharibə baş versin və hərbi qüvvələr bir ölkənin sərhədlərinə hücum etsinlər; yaxud bir ölkə əleyhinə bəzən qarşıdurma və iğtişaşlara səbəb olan siyasi və media hücumu edilsin. Bu da ölkələrdə dəfələrlə görünmüş və problemlər yaratmışdır. Daxili təhlükəsizlik böyük fəaliyyətlər tələb edir. Əgər bütün aidiyyətli məmurlar var gücləri ilə çalışsalar, bu böyük istəyi təmin edə bilərlər. Odur ki, təhlükəsizlik kiçik məsələ deyil.

İlin əvvəlində qeyd etdiyim kimi, təhlükəsizlik olmasa, iqtisadi fəaliyyətlər də olmaz, ictimai ədalət də, elm və elmi inkişaf da və ölkənin bütün sahələri tədricən dağılar. Təhlükəsizlik fundamental şərtdir.

Təhlükəsizliyin daha mühüm və nisbətən az əhəmiyyətli misalları var. Bütün insanların öz gündəlik həyatlarında ya rastlaşdıqları, ya da digərlərindən eşitdikləri təhlükələr əhəmiyyətli olsa da, çox da qorxulu deyil. Təbii ki, aidiyyətli qurumlar bunların də qarşısını almalıdırlar. Oğurluq belədir. Polislər buna qarşı ciddi mübarizə aparmalıdırlar. Bəzi şəxslər özlərinin kiçik və dəyərsiz məqsədlərindən ötrü ailələrin təhlükəsizliyini pozurlar. Bu da bir misaldır, amma birinci dərəcəli misal deyil. Laqeyd, quldur insanlar şər xislətlərə malik olub cəmiyyətin təhlükəsizliyini pozurlar. Bu, təhlükədir. Bizə bu haqda bəzi məlumatlar çatır. Şübhəsiz ki, sizin bəziləriniz də haradasa görmüş, yaxud eşitmisiniz. Heç bir qayda-qanun tanımayan bəzi quldur insanlar küçələrdə, məhəllələrdə insanların təhlükəsizliyini pozurlar. İnsanların yaşadıqları və işlədikləri yerlərdə təhlükəsizliyi pozan bu quldurlara qarşı tədbir görmək hüquq və mühafizə orqanlarının borcudur. Bir kəsici alət və ya silah tapan kimi hər bir qələti etməyə haqlarının çatdığını düşünənlər bilməlidirlər ki, cəmiyyətin təhlükəsizliyini pozmağın cəzası yalnız bir neçə gün həbs olunmaq deyil. İslam dini cəmiyyətin təhlükəsizliyini pozan və xalqı qorxudan insanlar üçün daha

ağır cəzalar təyin etmişdir. Əgər belələrinə, həmçinin oğrulara, xüsusən də bunu özlərinə peşə seçənlərə ilahi cəza verilsə, heç şübhəsiz, böyük təsirlər buraxar. Dünyanın bəzi təbliğat şəbəkələrindən və media hücumlarından çəkinməsinlər, Allahın hökmünə baxsınlar. İlahi hökm hər şeyi öz yerində və düzgün qədərincə təyin etmişdir.

İqtisadi təhlükəsizlik də başqa bir sahədir. İqtisadi mərkəzlərin təhlükəsizliyini pozanlar, qeyri-qanuni işlərlə və "qoçaqlıqla" kiçik sərmayələri və xalqın imkanlarını öz xeyirlərinə müsadirə edənlər, qanunlardan sui-istifadə yollarını bildiklərinə görə ümumi və dövlət imkanlarını "qoçaqlıqla" mənimsəyənlər və bacardıqları hər bir yerdə sui-istifadə edənlər iqtisadi təhlükəsizliyi pozurlar. Əgər bir ölkədə iqtisadi vəziyyət anormaldırsa, bir neçə səbəbdən biri də qanundan yayınma imkanlarının mövcud olmasıdır. Kimlərsə bu imkanlardan sui-istifadə edib öz ciblərini doldurur, xalqın və dövlətin imkanlarını mənimsəyirlər.

Bunların hamısından üstünü ictimai təhlükəsizliyin pozulmasıdır. Milli təhlükəsizlik də əsasən bu sahəyə aiddir. İş yerlərinin, elm mərkəzlərinin, universitetlərin təhlükəsizliyini pozurlar. Mən işarə vurdum ki, bir Amerika rəsmisi bir ay öncə İranda təhlükəsizliyin pozulacağını xəbər vermişdi. Məqsədi bu təhlükəsizlikdir. Bunlar proqram hazırlayırlar. Həm xalq sayıq olmalıdır, həm də bunların təxribatlarının hədəfi seçilənlər. Düşmən inqilabın əvvəlindən indiyədək dəfələrlə iş yerlərini iğtişaşa, tətilə sövq etməyə və işçi qüvvəsini ölkədə quruculuq işlərindən saxlamağa çalışmışdır. Bu günədək bacarmamışdır, amma hər halda planlar cızırlar.

Universitetlərdə təhlükəsizliyi pozurlar. Bu işi bir-iki dəfə sınaqdan keçirdilər, amma tələbələrin özləri düşmənə zərbə vurdular və buna imkan vermədilər. Bəzi yerlərdə düşmənin uğur qazanması da mümkündür. Tələbələr arasında və universitetlərdə iğtişaş törətməklə, təhlükəsizliyi pozmaqla, şüar, mitinq və digər adlarla dərslərin tətil olunmasına, müəllim və tələbələrin bikar qalmasına çalışırlar. Bu gün bizim tələbələrimizin parlaq istedadlarını hamı görür. Biz bəzi yerlərdə

tələbələrin fəaliyyətləri arasında həqiqətən yaxşı və aydın gələcək müjdələyən ümidverici işlər müşahidə edirik. Buna baxmayaraq, düşmənin işlərindən biri də universitetlərin təhlükəsizliyini pozmaqdır. Onlar dərs oxumağın, sinfə getməyin, dərs deməyin, laboratoriyada işləməyin imkansız və çətin olmasına çalışır, 1999-cu ilin iyul ayında Tehranda yaranan vəziyyəti - insanların, gənclərin, uşaqların, qadınların, yolçuların və evinin pəncərəsi arxasında oturan şəxsin canının təhlükəyə düşməsini təkrarlamaq istəyirlər. Nə üçün? Çünki bir qrup adam kobud və inadkar şəkildə küçəyə çıxıb iğtişaş törətməyi, maşınları yandırmağı, yaxud şüşələrini sındırmağı lazım bildi. Onun üçün bir bəhanə də gətirdilər. Bir ölkədə, öz evində təhlükəsizliyi pozmaq və iğtişaş törətmək üçün hansı bəhanə əsas ola bilər?! Bəllidir ki, belə bir hadisə baş verəndə hüquq-mühafizə orqanları və Bəsic qüvvələri sakit otura bilməzlər. Belə təhlükələr qarşısında kim sayıq olmalıdır? Xalqın özü, gənclərin, fəhlələrin, tələbələrin və bu təxribat əməllərinə hədəf seçilənlərin özləri. Onlar diqqətli olmalı, bir nəfər təhrik etməkdə çox həddini aşanda qolundan yapışmalı və bilməlidirlər ki, bu adamın danışan dili düşmənin dili, boğazından çıxan səs də düşmənin səsidir. Harada araşdırmışlarsa, bu nəticəyə gəlmişlər. Xalqın sayıqlığından əlavə, təhlükəsizliyi qorumaq vəzifəsi aidiyyətli qurumların - Təhlükəsizlik nazirliyinin, Ölkə nazirliyinin və hüquq-mühafizə orqanlarının vəzifəsidir. Xalqın hökumətdən ən mühüm tələbi budur. Bu, aidiyyətli qurumlardan həm də mənim ən mühüm tələbimdir. Hamı diqqətli və ehtiyatlı olmalı, hadisələrdə sayıqlıq göstərməlidir. Biz düşmənə istədiyi işi görməsinə icazə verməməliyik.

Daxili təhlükəsizlik bəzən sərhədlərdən xariclə əlaqədar olur; məsələn xaricdən müdaxilələr görünür. Baxın, bir neçə gün öncə ABŞ-ın bir naziri çıxış etdi. Amerikalılar yarım əsrə yaxın vaxt ötdükdən sonra indi etiraf edirlər ki, 19 Avqust çevrilişini onlar etmişlər. Onlar zalım, diktator və azğın Pəhləvi rejimini dəstəklədiklərini etiraf edirlər. 19 Avqust çevrilişindən 47 ilə yaxın vaxt ötür. İndi etiraf edirlər ki, o çevrilişi biz etmiş, diktator, zalım, azğın və asılı şah hökumətini 25 il

dəstəkləmişik. İndi etiraf edirlər ki, biz İranla müharibədə Səddam Hüseynə yardım etmişik. Sizcə məzlum İran xalqı bu mövqeyin və bu etirafların qarşısında hansı hissi keçirir? İraq rejimi səkkiz il bizə qarşı müharibə apardı, şəhərləri bombaladı, həyati əhəmiyyətli obyektləri dağıtdı, gəncləri şəhid etdi, trilyonlarla həcmdə milli sərvət məhv oldu, imkanlar əldən çıxdı, böyük bir tarixi cinayət baş verdi. O zaman biz həmişə təkrarlayırdıq ki, amerikalılar Səddam Hüseynə kömək edirlər. Müharibə dövrünün çıxışlarında dəfələrlə bu sözü demişik. Onlar isə inkar edir və bitərəf olduqlarını söyləyirdilər. Amma müharibədən 12 il sonra, bu gün ABŞ-ın bir naziri açıq bir çıxışında Səddam Hüseynə kömək etdiklərini rəsmən etiraf edir. Soruşmaq lazımdır ki, sizin bu etiraflarınızın bizə nə xeyri var?! Zalım, qəddar və xalq düşməni olan Məhəmmədrza Pəhləvini 25 il bu xalqa hakim etdiniz. Onlar bu xalqı bədbəxt günə qoydular. Siz etiraf edirsiniz ki, bəli, o zaman biz bu işi gördük?! Bu etiraf indi nəyə yarayır?! Bir nəfər vurub insanın əziz övladını öldürür, sonra deyir ki, bağışlayın. Bunlar isə "bağışlayın" da demir, üzr istəmir, yalnız etiraf edirlər. Sizin etdiyiniz 19 Avqust çevrilişinə görə bu ölkə uzun illər zülm və fəsad içində qaldı; indi deyirsiniz ki, bəli, biz etdik?! Sizin o zamana dair bu etirafınızın bizim bu zamanımıza nə xeyri var?! Mən indi deyirəm ki, 20-25 ildən sonra ABŞ-ın başqa bir nazirinin də "bəli, filan vaxt İran əleyhinə filan təxribatı biz hazırladıq, filan işi biz gördük, düşmənlərini silahlandırdıq, daxildə müxaliflərini idarə etdik" deməsi mümkündür. Cinayətdən illər sonra və indi də oxşar cinayətlərlə məşğul olduğunuz halda bu etirafın İran xalqına nə faydası var?! Siz çıxışlarınızda iki kəlmə deyirsiniz ki, İranın böyük xalqı və qədim mədəniyyəti var. Bu xalqa qarşı etdiyiniz bu qədər xəyanəti, düşmənliyi və zülmü unutdurmaq üçün bu sözlər kifayətdir?! Siz uşaq aldadırsınız?! Bu xalq qədim xalqdır. Bu xalqın özü qədim xalq olduğunu və zəngin mədəni irsə sahib olduğunu gözəl bilir. Biz sizdən qabaq bilirik ki, bizim coğrafi mövqeyimiz çox önəmlidir və strateji əhəmiyyət daşıyır. Siz zəhmət çəkib bunları indi anlamısınız? Bunlar xalqlarla həmişə quldurcasına və amiranə rəftar etmək istəyirlər.

Bu gün bəşəriyyətin böyük bəlasına çevrilən ABŞ-ın böyük eybi budur ki, dünya xalqları ilə quldrucasına və ağa kimi davranmaq istəyir; OPEK-lə, xalqlarla, ölkələrin xarici siyasəti ilə quldurcasına davranır. Quldurluq nə üçündür? Bir amaldan ötrüdür? Xeyr! Öz maraqlarından ötrü, mənafeyini təmin etmək üçün quldurluq edir. Hansısa ölkənin və ya xalqın hər hansı səbəbdən bu quldurun boyunduruğu altına girməsi mümkündür, amma İran xalqı kimi bir xalqın məmurları sizə borclu deyillər, boyunları sizin bıçağınız altda deyil, sizin bildiyiniz gizli eyibləri yoxdur; elə bir iş görməyiblər ki, sizin ifşa etmənizdən qorxsunlar. Onların xalqla əlaqələri var. İran xalqı da şərəf, İslam, möhkəm əqidəli və müstəqil həyat üçün müqaviməti sınamış bir xalqdır. Belə bir xalq sizin boyunduruğunuz altına girmək istəmirsə, cinayət törətmiş və günah etmiş olur?! Bir xalq bu quldurluğu qəbul etməsə, "biz sizin quldurluğunuzu və hegemonluğunuzu rədd edirik" desə və açıq şəkildə belə bir mövqe nümayiş etdirsə, siz onu hansı vasitə və texnika ilə məğlub edə bilərsiniz?! Bunu bacararsınızmı?!

Böyük güclər hamını inandırmaq istəyirlər ki, biz dünyada istədiyimiz hər bir işi görürük. Bəzi yerlərdə həqiqətən istədiklərini edirlər, amma nə üçün? Həmin ölkələrin başçılarının muzdur və zəif olduqları üçün. Böyük güclər yalandan iddia edirlər ki, istədikləri hər bir işi görə bilirlər. Böyük güc olan ABŞ-ın bütün vücudu ilə bu xalqa və onun məqsədlərinə qarşı çıxmasına baxmayaraq, İslam hökuməti və İran xalqı özünün iyirmiillik müqaviməti və inkişafı ilə sübut etdi ki, nə o, nə başqa bir böyük güc, nə də bütün böyük güclərin birliyi hüquqlarını bilib müdafiə edən ayıq və şücaətli xalq qarşısında heç bir qələt eləyə bilməz.[1]

---

[1] Yenə orada.

**Sual:** Milli təhlükəsizliyin bir sahəsi də iqtisadi təhlükəsizlikdir. İqtisadi təhlükəsizlik nə deməkdir? Bu məsələni qabartmaq kapitalın və investorların ölkədən qaçmasına səbəb olmurmu?

**Cavab:** Bu günlərdə iqtisadi təhlükəsizlikdən çox danışılır. Bu, vacib məsələdir, biz də bunu qəbul edirik. Biz də düşünürük ki, ölkədə iqtisadi fəaliyyət, inkişaf və hər növ iqtisadi quruculuq mümkün olmalı, bu işə və uyğun fəaliyyətə təşəbbüs göstərənlər təhlükəsiz halda işlərini görə bilməlidirlər. Allaha şükür olsun ki, həm hüquqi, həm də icraçı orqanlar bu haqda razılığa gəlmişlər. Mən də onlara kömək edəcəyəm ki, ölkə üçün əhəmiyyətli olan bu işi görsünlər. Amma bunu da deyim: Kimsə güman etməsin ki, iqtisadi təhlükəsizlik yaratmaq - iqtisadi müftəxorlara, iqtisadi sui-istifadəçilərə və zəlilərə yol açmaq deməkdir. İqtisadi təhlükəsizliyin mənası o deyil ki, ölkənin sağlam qanun və qərarları görməzliyə vurulsun. İqtisadi təhlükəsizliyin mənası odur ki, bu ölkənin əhalisi və hər hansı bir təbəqədən olan insanlar iqtisadi fəaliyyətlə məşğul olmaq - istər sənaye işləri ilə, istər aqrar təsərrüfat, sərmayə qoyuluşu və ya ticarətlə məşğul olmaq istəsələr, heç kəsin onlara mane olmayacağını bilsinlər. Amma bunun mənası o deyil ki, müharibə və ya quruculuq dövründə iqtisadi dolanbaclardan istifadə edib qanunsuz sərvətlər qazananlar iqtisadi təhlükəsizlik adı altında eyni işləri görmək imkanına malik olsunlar. İqtisadi təhlükəsizliyin mənası iqtisadi anarxiya deyil; qoçaqlara, sui-istifadə edənlərə və hər bir fürsətdən qeyri-qanuni yolla ciblərini doldurmağı gözləyən şəxslərin bəhrələnməsi deyil. Bunu yaddan çıxarmayın.

Qanunun icazə verdiyi hər bir investisiya təhlükəsiz olmalıdır. Kimsə güman etməsin ki, iqtisadi təhlükəsizlik indiyədək ölkə məmurları, yaxud ölkənin qanuni qurumları tərəfindən pozulmuşdur. Xeyr! İqtisadi təhlükəsizlik də çox zaman sui-istifadə edən adamlar tərəfindən pozulur. Harada bir sui-istifadəçi varsa, işlərdə bir növ

pozuculuq var və təhlükəsizlik pozulur. Buna əsasən, iqtisadi təhlükəsizlik də mühüm məsələdir və biz bunu ciddi sayırıq.[1]

**Sual:** Xeyli vaxtdır iqtisadi inkişaf və onun ictimai ədalətlə əlaqəsi haqda müzakirələr gedir. Bəzən onu ictimai ədalətdən fərqli bir şey hesab edirlər. Bəzi qüvvələr ictimai ədalət haqda müzakirələri investisiya təhlükəsizliyinin pozulmasına və nəticədə iqtisadi inkişafın dayanmasına səbəb kimi göstərirlər. Bunların arasında hansı əlaqə var? İslam Respublikası quruluşunun və onun məmurlarının uyğun siyasəti necə olmalıdır?

**Cavab:** Bu gün bizim ölkəmiz ağır bir iqtisadi dövrdən keçid halındadır. Bundan sonra inşallah xalqın rifah içində olduğu açıq, azad və yaxşı bir dövr başlayacaq, xalq bu möhtəşəm təbiətin nemətlərindən və ölkəmizdə olan geniş imkanlardan istifadə edəcək. Bunun üçün hamının səyinə ehtiyac var. Lakin bu dövrdə ölkənin ümumi inkişafına mane olan amillərdən biri yanlış siyasət nəticəsində ölkədə əmələ gələn təbəqələrarası fərqin çoxalmasıdır. Bundan çox ehtiyatlı olmaq lazımdır. Bəzi adamlar yalnız özlərini düşünürlər. Bunlar nə məzlum və məhrum təbəqələr, nə yoxsullar, nə də ölkənin gələcəyi barədə düşünür, yalnız öz ciblərini, şəxsi həyatlarını və bacardıqca artıq sərvət toplamağı fikirləşirlər. Aidiyyətli qurumlar belələrinin daim fərqləri artırmalarına imkan verməməlidirlər. İctimai ədalət əsas məsələdir. Ölkədə iqtisadi inkişaf olsa, ancaq ictimai ədalət olmasa, bu iqtisadi inkişaf yoxsulların işinə yaramaz və məhrumluğu aradan qaldıra bilməz. Bu gün bir çox ölkələrdə, o cümlədən inkişaf etmiş Avropa və Qərb ölkələrində istehsal yuxarı səviyyədədir, böyük zavodlar işləyir, sərvət istehsal olunur, lakin məhrumluq da mövcuddur. Televiziyalarda və kameralar önündə bu ölkələr haqda göstərilənlər yaxşı yerlərdir; yoxsul məhəllələri, ağır yaşayışları, aclıqları, məhrumluqları, həsrətləri göstərmirlər, hündür binaları, xiyabanları, böyük bağları və gözəl yerləri göstərirlər. Sənaye

---

[1] Xorasan vilayətinin Bəsic üzvləri ilə görüşdəki çıxışdan: 1999.

inkişaf etsə və iqtisadi irəliləyiş olsa, ancaq ictimai ədalət olmasa, həmin vəziyyət yaranar. Bəzi ölkələrin vəziyyəti isə onlardan da pisdir. Biz isə bunu istəmirik. Biz cəmiyyətdə yalnız iqtisadi inkişafı istəmirik. Biz ictimai ədalətin təmin olunduğu iqtisadi inkişafı istəyirik. Əlbəttə, demirik ki, ictimai ədalət olsun, iqtisadi inkişaf isə olmasın. Çünki iqtisadi inkişaf olmayan yerdə ictimai ədalət çox da mühüm amil olmur, cəmiyyətdə rifah və lazımi imkanlar yaratmır. Əgər ictimai ədalət iqtisadi inkişafla yanaşı olsa, cəmiyyət çiçəklənər. Biz ictimai ədaləti təmin etməyə bilmərik.

Məmurlar insanların sağlam və qanuni iqtisadi fəaliyyətlərinə imkan verməlidirlər; çünki, İslamda pul qazanmaq xoşagəlməz hesab olunmur. Onlar qeyri-qanuni yolların, saxtakarlığın, hiylənin, fırıldağın və ümumi sərvətlərdən sui-istifadənin isə qarşısını almalıdırlar. Bunlar qadağandır. Təbəqələr arasındakı fərqlər azaldılmalıdır. Bəzi şəxslərin beytülmaldan aldıqları maaş, mükafat və hədiyyələr ümumiyyətlə başadüşülən və məqbul deyil. Dövlət əmlakından və beytülmaldan hər kəs haqqı qədərincə və işinin dəyəri miqdarında istifadə etməlidir. Bəzi şəxslərin geniş istifadə etməsi yolverilməzdir. Əlbəttə, İslam inqilabı ölkədə bu ayrıseçkilik bütünü sındırdı. İnqilabdan öncə yoxsulla varlı arasında fərq qaçılmaz sayılırdı. Kimsə "gözünün üstə qaşın var" deməyə cürət etmirdi. İslam inqilabı bu ictimai ədalət yolunu açdı, amma buna əməl etməliyik. Qanun qəbul edən, qərar verən və proqram hazırlayan şəxs ictimai ədaləti diqqətdə saxlamalıdır. Bir neçə gün bundan qabaq İslam Respublikası televiziyası Buşəhrin kəndlərindən birində yerləşən bir məktəbi göstərdi. Bu reportaja baxanda mənim ürəyim ağrıdı. Bu ölkənin bir tərəfində bir qrup gənc elə çətin şəraitdə məktəbə gedir, amma bir neçə kilometr o tərəfdə dənizin ortasında görün sel kimi gələn pullarla nələr edirlər! İslam Respublikası quruluşunda belə bir hal olmamalıdır. Məmurlar ehtiyatlı olmalıdırlar. Hər kəs üzərinə düşən vəzifəsini dəqiq yerinə yetirməlidir. Məsul şəxslər ədaləti təmin edib məhrum və yoxsul təbəqələrin məişət səviyyəsini yaxşılaşdırsınlar. Məqsəd təhlükə zamanı məmləkəti xilas

edənlərdir. Allah eləməmiş, bu məmləkəti bir təhlükə təhdid etsə, yenə də həmin fəhlələr, müəllimlər, məhrum təbəqələr və aztəminatlı işçilər gedib müdafiə və sinələrini sipər edəcəklər.[1]

**Sual**: İctimai ədalət mövzusuna aid bir sualım var. Ötən bir neçə ildə sizin çıxışlarınıza rəğmən, bu mövzu siyasi oyunlara qatıldı və sizin buyurduğunuz məqsədə o qədər də yaxınlaşmadı. İndi bu mövzuya prinsipial baxmağın, insanların sərvətlərini araşdırmağın, özü də bu işi dövlət rəsmilərindən başlamağın zamanı çatmayıbmı?

**Cavab**: Bu çox yaxşı fikirdir. Demək asan, buna əməl etmək isə çox-çox çətindir. Bəzi məmurlara sarı gedən kimi, təbii ki, onların gileyi, şikayəti və səsi ucalır. Görəcəksiniz ki, işin özünə də əngəl törədilir və baş tutmur. İctimai ədalət mövzusunun həyata keçməsi mənim ciddi fikrimdir. Bunda heç bir şübhə yoxdur, bunu dəfələrlə demişəm. Lakin bununla mən məşğul olmalı deyiləm, məhkəmə və dövlət orqanları məşğul olmalıdır. Bunun bir hissəsi gərək yaxşı qanunların sayəsində həll olunsun, bir hissəsi icranın sayəsində, bir hissəsi də daha yüksək qurumların təftişi ilə; yəni dövlət qurumları öz tabeliklərində olanlara bu yönümdə nəzarət etməlidirlər. Hər halda, mən bu məktubu yazanla həmfikirəm və ümidvaram ki, nəticə əldə olunsun.

Sözsüz ki, bu barədə bəzi işlər görülür. Mən bir qədər əvvəl bu haqda Ali Məhkəməyə sorğu yolladım. Məlumat verdilər, bildim ki, bəzi işlər görülməkdədir. Lakin işin gedişi məni razı salacaq həddə deyil, nəinki amalçı olan siz gəncləri.[2]

**Sual**: Ölkənin iqtisadi problemlərinin, işsizlik, ev və digər bu kimi problemlərin həlli üçün praktik yol nədir? İslam iqtisadiyyatı adlı bir şey varmı? Mümkünsə, bunu izah edin.

**Cavab**: Bəli, İslam iqtisadiyyatı adlı bir şey var. Bu barədə kitab da yazılmışdır. Dövlətin, inqilabın əvvəlindən indiyə qədər icra edilən bəzi

---

[1] Müəllimlərlə görüşdəki çıxışdan: 2000.

[2] Şərif Sənaye Universitetində görüşdəki çıxışdan: 1999.

iqtisadi fəaliyyətlər, misal üçün, bank əməliyyatları və digər işlər sözügedən İslam iqtisadiyyatı əsasında aparılıb. Mənim fikrimcə, ölkənin iqtisadi problemləri həllolunandır. Bu sahədə münasib proqramlar da hazırlanmışdır. Ötən il cənab prezident bir qrupun köməyi ilə çoxlu zəhmətdən sonra "İqtisadi koordinasiya proqramı" adı ilə tanınan bir proqram hazırladı. Yaxşı proqram idi. Onu mənə gətirdilər, mən də təsdiqlədim. Əgər o proqram icra olunsa, yaxşı nəticələr əldə olunar. Lakin onu beşillik proqramın daxilində yerləşdiriblər. Beşillik proqram bizim çoxlu məsləhətləşmələrdən sonra gördüyümüz çoxlu işlərə və elan etdiyimiz siyasətlərə uyğun olsa, şübhəm yoxdur ki, beş ildə nəzərəçarpacaq dəyişiklik yaranacaq. Demirəm ki, bütün problemlər həll olunacaq, lakin şübhəsiz, təsiri hiss olunacaq. Bu şərtlə ki, o siyasətlərə dəqiqliklə riayət olunsun. Əlbəttə, biz həm hökumətin özünə, həm də parlamentə tövsiyə etdik ki, mümkün olan həddə diqqət yetirsinlər və bu siyasətlər proqramların maddələrində görünsün. Düşünürük ki, bunların hamısı, yaxud böyük əksəriyyəti mümkündür.[1]

**Sual**: Ölkənin bir çox rəsmiləri arasında yaranmış aristokratlığa qarşı qətiyyətli tədbir görülməməsinin səbəbi nədir? Nə üçün konstitusiyanın dövlət məmurlarının əmlakının araşdırılmasına dair müddəası dəqiqliklə icra olunmur?

**Cavab**: Əvvəla deyim ki, konstitusiyada dövlət məmurlarının əmlakının dəqiq araşdırılmasına dair müddəa yoxdur. Bu yalnız bəzi rəsmi şəxslərə, o cümlədən rəhbərə, prezidentə və digərlərinə aiddir. Bunlar vəzifəyə seçiləndə lazımi qurumları öz əmlakları barədə məlumatlandırmalıdırlar. Vəzifədən kənarlaşanda da hesabat verməlidirlər ki, bu müddətdə nə qazandıqları məlum olsun. Təbii ki, bu maddə icra olunur. Mən özüm prezidentliyə başlayanda və onu bitirəndə, həmçinin sonrakı vəzifəmdə dəfələrlə bu blankı doldurub Ali

---

[1] Yenə orada.

Məhkəməyə göndərmişəm. Digərləri də bunu edirlər. Lakin aristokratlığa dair sualınız çox düzgün sualdır. Mən bu sualın, bu tələbin və bu istəyin tələbə gənclərdə olmasını hiss etsəm, həqiqətən Allaha şükür edərəm. Bunu bilin: aristokratlığa meyl elə bir şey deyil ki, qanunla, məhkəməylə, istintaqla və bu kimi işlərlə ona əlac qılmaq mümkün olsun. Bu çox çətin məsələdir. Bu elə məsələlərdəndir ki, bütün ölkə - xalqın duyğuları, iradəsi, daha aydın desək, xalqın ümumi mədəniyyəti bunu dəf etməli və buna əlac qılmalıdır. Aristokratlığa meyl göstərənlər, zadəgan həyat tərzi üçün sino gedənlər, yəni aristokratlara məxsus və xalqın orta səviyyəsindən uzaq yemək, geyinmək, yaşamaq və hərəkət etmək istəyən şəxslər xalqın arasında nəyinsə yaxşı olmasına və dəyər sayılmasına dair bəzi baxış və zehniyyətlər yaradırlar. İnqilabın qələbəsindən öncə də belə idi. İnqilabdan qabaq hökumət məmurları bacardıqları qədər artıq cah-calalla, təkəbbürlülüklə, fironluqla, zadəganlıqla və bahalı paltarlarla görünürdülər. Bir qrup avam insanın da daha çox xoşu gəlirdi. Belə mədəniyyət formalaşdırmışdılar. İnqilabdan sonra əksinə oldu və buna görə də eyş-işrət adamları xalqın qorxusundan bundan çəkindilər. Bu gün isə tədricən həmin vəziyyətə qayıtmaq istəyirlər. Mənim fikrimcə, zadəganlıq ölkə üçün zərərlidir. Məmurların zadəganlığı isə ikiqat zərərlidir. Çünki varlı adamlar özlərinin halal, yaxud haram mallarından xərcləyirlərsə, hər halda öz malları ilə zadəganlıq edirlər. Məmurlar bunu edəndə isə öz mallarını deyil, xalqın malını xərcləyirlər. Bu aristokratlıq xalqın ümumi hissi ilə, yazmaqla, deməklə və bu düşüncəni yaymaqla düzələ bilər. Bu, bir mədəniyyətə çevrilməlidir. Bu, xüsusi məhkəmə, mühakimə və bu kimi məsələlərlə düzələn deyil.[1]

**Sual:** Siyasi təhlükəsizlik də milli təhlükəsizliyin bir sahəsidir. Bu haqda da çoxlu müzakirələr aparılır. Bu təhlükəsizlik növünün əsl mənası nədir? Sizcə siyasi sahədə milli təhlükəsizliyi pozmaq olarmı?

---

[1] Yenə orada.

**Cavab:** Siyasi təhlükəsizliyin mənası budur ki, cəmiyyətdə siyasi təfəkkür və bilgilər aydın, nifaqdan, ikibaşlı danışmaqdan və ikibaşlı düşünməkdən uzaq olsun; mənası budur ki, siyasi məsələləri xalqa izah etməli olanlar xalqa qarşı əmanətdar olsunlar; mənası budur ki, cəmiyyətin düşüncə təlimlərini yazmalı və yaymalı olanlar yalan danışmasınlar, aldatmasınlar, saxtakarlıq etməsinlər və zahirən şirin olan xörəyə zəhər qatmasınlar. Bu, siyasi təhlükəsizlikdir. Bu xalqın zalım düşmənlərlə, soyğunçu və hegemon güclərlə mübarizədə iyirmiillik məzlum fədakarlığını inkar edən qələm sahibi ölkənin bu siyasi təhlükəsizliyini pozur və düşüncə təhlükəsizliyini pozur. Ölkə daxilində qanunun, dövlətin imkanlarından və ixtiyarına buraxılan digər imkanlardan istifadə edib filan düşmən ölkənin dövlət rəsmilərinin və siyasətçilərinin əməllərini təmizə çıxaran, zahirən gözəl formalarla bir qrupa yedirdən şəxs siyasi və düşüncə təhlükəsizliyini pozur. Bu da yol oğruları və sərhəddəki quldurlar kimidir, fərqi yoxdur. Məgər onlar nə edirlər? Onlar da qaçaq məhsul gətirib xalqın balalarını müxtəlif fəlakətlərə, xəstəliklərə və narkomaniyaya yoluxdururlar. Bunu edən ondan təhlükəli iş görməsə də, kiçik iş görmür.

Bunlar beyinləri azdırır, yoldan çıxarırlar. Mən mətbuat haqda çox söhbətlər etmişəm. Heş kəs mənim bu ölkədə azad fikrin, azad qələmin, azad sözün və plüralizmin tərəfdarı olduğumu inkar edə bilməz. Mənim fikrim budur. Mən deyirəm ki, ölkədə müxtəlif düşüncə, söz və üslublar düzgün formada ortaya qoyulmalıdır. Lakin müxtəlif fikirlərin deyilməsi bir məsələdir, xalqa yalan demək, yalan yazmaq, həqiqətləri təhrif etmək və düşmənin mikrofonuna çevrilmək başqa məsələdir. Mənim mətbuat üçün qəbul edə bilmədiyim ikincisidir.

İyirmi qəzetin yerinə iki yüz qəzet də nəşr olunsa, eybi yoxdur. Kimin bacarığı və deməyə sözü varsa, yəqin ki, oxucu da tapar. Bunun eybi yoxdur. Amma bu xalqın imkanları, beytülmalı və köməyi ilə nəşr olunan qəzet onun maraqları əleyhinə yalan və iftira dolu yazılar dərc edib ölkədə İsrail və Amerika radiolarına səsgücləndirici olacaqsa, bu, qəbulediləsi deyil.

Bəzi qüvvələr İslamın zəruri hökmlərini, məsələn qisası inkar edirlər. Bu da başqa bir məsələ, təhlükəsizliyin başqa bir formada pozulmasıdır. Mən səfərdə olduğum üçün bu məsələnin dəqiq kökünə çata bilməmişəm, dedim ki, araşdırsınlar.

Kimlərsə bu məmləkətdə hegemon təbliğat mərkəzlərinin, sionizmin beynəlxalq media şəbəkəsinin dəstəyi ilə çalışacaqlarını düşünürlərsə, səhvə yol verirlər. Belə bir şey olmayacaq. Belə canlı və ayıq əhalisi, belə mömin gəncləri olan bu məmləkətdə hər şey xalqın iradəsinə, istəyinə və imanına uyğun olmalıdır. Özlərinin buradakı muzdurlarına, həmçinin əcnəbi ağalarının dəstəyinə bel bağlayanlar bilsinlər ki, belə bir şey olmayacaq. Bu xalq mömin və müsəlman xalqdır. Bu xalq quruluşun və ölkənin təhlükəsizliyi, dövlət məmurlarının işləyə bilməsi, alimin, tələbənin və quruculuqla məşğul olan hər bir kəsin işini görə bilməsi üçün canını vermişdir. Məgər düşmənin siyasi və təhlükəsizlik mərkəzləri bu xalqı və bu böyük dini iradəni məğlub edib ölkəni ələ keçirə bilərlər?! Bilsinlər ki, bu ölkə İslam ölkəsi və bu xalq İslam üçün qiyam etmiş bir xalqdır. Bu xalq bu gün də İslam quruluşunu istəyir.

İslam quruluşunun aydın məsələləri, əmr və qadağaları var. İslam quruluşu ədalət quruluşudur; onda hər bir ədalətsizlik məhkum, hər bir ayrıseçkilik yolverilməzdir. İslam quruluşu milli istiqlaliyyət quruluşudur; onda hər bir asılılıq yolverilməzdir. İslam quruluşu qardaşlıq və səmimi münasibətlər quruluşudur; onda hər bir təfriqə yolverilməzdir. İslam quruluşu məmurların xalqa xidmətçi olduğu və xalq üçün çalışdığı bir quruluşdur; onda məmurlarla xalq arasında hər hansı ayrılıq yolverilməzdir. Kiminsə bu quruluşda xalqın düşmənlərinin istəyinə uyğun, quruluşun və xalqın ümumi İslam istiqamətinin əksinə çalışması, İslam quruluşunun da sakit və laqeyd qalması imkansızdır. Düşüncə işləri ilə məşğul olanlar fikirlərini bu məsələ üzərində mərkəzləşdirməlidirlər.[1]

---

[1] Xorasan vilayətinin Bəsic üzvləri ilə görüşdəki çıxışdan: 1999.

**Sual:** Milli təhlükəsizliyi qorumaq təbii ki, bütün xalqın, xüsusən də məmurların borcudur. Lakin bu sahədə Bəsic təşkilatında toplaşan, İslama və İslam inqilabına etiqad bəsləyən gənclərin üzərinə xüsusi rol düşür. Düşmən isə bu rolu inkar edib Bəsici sual altına salmaqla əslində milli təhlükəsizliyi pozmaq və onu özünün ən mühüm dayağından məhrum etmək istəyir. Mümkünsə bu barədə fikrinizi bildirin.

**Cavab:** Mən bugünkü gənc nəslə demək istəyirəm ki, düşmən özünün güclü media və siyasi hücumu ilə o zaman bu məmləkətdə çalışan və bu gün də xalqın əksərini təşkil edən şəxslər üçün yeni olmayan aydın həqiqətləri də gizlətmək istəyir. O zaman bizimlə müharibəyə başlayıb sərhədlərimizin təhlükəsizliyini pozan və dünyanın bütün supergücləri tərəfindən dəstəklənən İraqa yardımlar etdi. Bəzi qüvvələr ya ağılsızlıqdan, ya da xainlikdən ABŞ rejiminin düşmənliyinin İran xalqına nə qədər ziyan vurduğunu və indi də vurmaqda olduğunu yaddan çıxarmaq, inkar etmək istəyirlər. Biz o zaman təhlil kimi deyirdik ki, ABŞ rejimi İraqa kömək edir. Müharibədən sonra isə dəqiq informasiyalar yayıldı ki, elektron cihazlar, silah-sursat, döyüş taktikası və maliyyə baxımından birbaşa və dolayısı ilə İraqa kömək etmişlər. NATO da kömək etdi, bir çox ərəb ölkələri də kömək etdilər. Onlar təhlükəsizliyi pozmaqla inqilab quruluşunu devirmək və diz çökürmək istəyirdilər. Yenə də bu məmləkətin iradəli gəncləri, bu ölkənin pak və imanlı insanları, Bəsic, korpus, ordu, arxa cəbhələrdə köməyini əsirgəməyən bütün mömin və pak insanlar düşmənin bütün təxribatlarına üstün gəlib işğalçı rejimə, onun ABŞ, SSRİ və digərlərindən ibarət bütün himayədarlarına zərbə endirdilər, İran xalqını dövrün qəhrəmanı kimi bütün dünyanın gözündə ucaltdılar, ən böyük nemət olan təhlükəsizliyi və sərhədlərdə sabitliyi təmin etdilər. Müharibə zamanı ölkənin təxminən yarısı raket atəşlərinə məruz qalırdı. Bizim gənclərimiz həmin bölgələrdə qadın, kişi, tacir, alim, tələbə, fəhlə, siyasətçi, rəis - təhlükəsizliyə ehtiyacı olan hər kəs, hətta naşükürcəsinə onu inkar edənlər üçün də təhlükəsizlik

yaratdılar. Bu gənclərin imanlı qəlbi və möhkəm iradəsi bütün xalqın təhlükəsizliyini təmin etdi.

Düşmən bu gün də məyus deyil və niyyətindən əl çəkmir. Hərbi təhlükənin bitdiyini düşünmək düz deyil. Düşmən bacardığı hər bir yerdə təhlükəsizliyi pozur; nə vaxt bacarsa, bu xalqın hərbi və fiziki təhlükəsizliyini də pozar. Gördünüz ki, kiçik bir bəhanə tapıb, yaxud düzəldib bu yay tətilində Tehranda təhlükəsizliyi pozdular. Bəhanəni ya özləri düzəldirlər, ya da kiçik bir səbəb tapıb təhlükəsizliyi pozur, küçələrə çıxır, şüşələri sındırır, mağazalara od vurur, maşınları yandırır, xalqı təhdid edirlər. Odur ki, düşmən təhlükəsizliyi pozmaqdan məyus olmamış və əl çəkməmişdir.

Mömin qüvvələr təhlükəsizliyin qarantıdırlar, inqilabın əvvəlindən bu günə qədər bu xalq üçün təhlükəsizlik yaratmaq istədiklərini də göstərmişlər. Kimlərinsə onları inkar etməsi ya ağılsızlıqdır, ya da xəyanət; ikisindən biridir. Xalq, ölkə, hər bir qurucu və həyati fəaliyyət üçün təhlükəsizlik yaratmağı bacaran qüvvələr hava və su kimi lazımdır. Bəzi qüvvələr onların xidmətlərini inkar etmək istəyirlər. Hüquq-mühafizə orqanlarının əməkdaşları və xalqımızın ümumi Bəsic qüvvələri mömin və ixlaslı insanlardan ibarətdir, sarsılmaz dayaq sayılırlar. Allaha şükür olsun ki, bizim korpus və orduda xidmət göstərən ixlaslı hərbçilərimiz az deyil. Bunların imanlı təşkilatlar olmasına şübhə yoxdur. Amma idarə vəzifəsi kimi ölkəni müdafiə edən qüvvələrlə dini vəzifəsini yerinə yetirməyə çalışan, imanın, eşqin və ruhun dərinliyindən irəli gələn hisslərin qəti əmrinə tabe olan qüvvələr arasında fərq var. Belə qüvvələrin adı Bəsicdir.

Bəsicin xidmətlərini inkar etmək ölkənin ən böyük ehtiyacını və xeyrini inkar etməkdir. Müharibədə bizim Bəsicimiz olmasaydı, canlı qüvvə problemi yaranardı. Müharibədən sonrakı dövrdə Bəsic olmasaydı və bu gün Bəsic olmasa, bu inqilabın, bu quruluşun və bu ölkənin bütün qurucu hərəkətlərində canlı qüvvə problemi yaranar. Bəsicin xidmətlərini inkar və ona qarşı hörmətsizlik etmək ya ağılsızlıqdandır, ya xainlikdən. Nə qədər ki, bu ölkəyə təhlükəsizlik

lazımdır, nə qədər ki, bu ölkənin və bu xalqın təhlükəsizliyə ehtiyacı var – təbii ki, təhlükəsizliyə həmişə ehtiyac var - Bəsic qüvvəsinə, Bəsic məqsədinə, Bəsic idarəçiliyinə, Bəsic eşqinə və imanına da ehtiyac var.[1]

**Sual:** Müsəlman İranın böyük və dindar xalqına müxtəlif tövsiyələr vermisiniz. Lütfən milli təhlükəsizlik haqda tövsiyənizi də buyurun.

**Cavab:** İran xalqına isə deyirəm: Ey böyük və qəhrəman xalq! Siz 20 ildir inqilabın bu ölkədən qovduğu düşməni qüdrətlə qapı arxasında saxlayıb, heç bir bacadan daxil olmasına imkan verməmisiniz. Sayıq olun. Mən buna görə son bir neçə ildə İran xalqına və vəzifəli şəxslərə dəfələrlə demişəm ki, düşmən yol axtarır. Düşmən harada bir pəncərə tapsa, oradan daxil olacaq. Diqqətinizi toplayın. Düşmən bizim milli təhlükəsizliyimizi hədəf seçmişdir. Bir xalq üçün milli təhlükəsizlik hər şeydən vacibdir. Milli təhlükəsizlik olmasa, heç bir hökumət işləyə, quruculuqla məşğul ola bilməz. Əgər hərc-mərclik olsa və təhlükəsizlik pozulsa, məmləkətin heç bir problemi həll olunmaz; nə iqtisadiyyatı, nə mədəniyyəti, nə ictimai, nə də siyasi məsələlər. Təhlükəsizlik olmasa, bunların hamısı məhv olar. Düşmən bunu hədəf seçmişdir. Ölkənin hər hansı yerində olan İran xalqı bunu anlamalıdır. Sözsüz ki, anlayır və bilir. Allaha şükür olsun ki, xalq sayıqdır.[2]

---

[1] Yenə orada.

[2] Xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 1999.

**Səkkizinci fəsil: Cinahlar, onların doğma və özgəyə bölünməsi, bu iki qrup arasındakı sərhədlər, mətbuatın vəziyyəti, səkkizillik müharibə, Bəsic, Fələstin və sionizm rejimi**

**Sual:** Əcnəbilərin müdaxiləsi ilə başlanmış siyasi cəkişmələrə əsasən, ölkənin problemlərdən əsas çıxış yolunu nədə görürsünüz?

**Cavab:** Konstitusiyaya əməl etmək ölkənin problemlərdən əsas çıxış yoludur. Bu da ona əməl edən qüvvələrin - istər konstitusiyanın icra yollarını təyin edənlərin, məsələn, qanunverici orqanın, istər onu icra edən icraçı hakimiyyətin, istərsə də ədalətə və qanun pozuntularına nəzarət edən məhkəmə orqanının və bu ölkənin bütün qurumlarının ixlası, səmimiliyi, məsuliyyət və ilahi vəzifəni yerinə yetirmək hissini özlərinə meyar seçməsindən asılıdır. Əsas məsələ budur.[1]

Bizim konstitusiyamız mütərəqqi bir konstitusiya, çox güclü və ağıllı şəkildə yazılmış qanunlar toplusudur. Onda hər şey lazımınca nəzərə alınmışdır. Mən bütün məmurlara, qanuni mərkəzlərə və bütün xalqa qanunlara riayət etməyi tövsiyə edirəm. Biz qanunlara riayət etsək, düşmən tamahkarlığını davam etdirə bilməz. Qanuna riayət olunmalıdır. Qanun düşmənin yolunu bağlayır. Haradasa iğtişaşçıların düşmənin təbliğat qurumları tərəfindən təsdiqləndiyi görünsə, düşmənə ən yaxşı cavab qanunun icra olunmasıdır.[2]

**Sual:** Bu günlərdə siyasi dartışmalarda eşidilən solçu, sağçı, modern, klassik və digər terminlər nə dərəcədə düzgündür?

**Cavab:** Bunların hamısı sözdür, həqiqət deyil. Həqiqət sizin üzərinizə düşən vəzifə və məsuliyyətdən ibarətdir. Əhəmiyyətli olan və bizi Allah qarşısında cavabdehlik daşımağa vadar edən odur.[3]

---

[1] İslam Şurası Məclisinin deputatları ilə görüşdəki çıxışdan: 2000.
[2] Qum əhalisi ilə görüşdəki çıxışdan: 2000.
[3] İslam Şurası Məclisinin deputatları ilə görüşdəki çıxışdan: 2000.

**Sual**: Sizin bir bölgünüz partiya və cəmiyyətlər arasında fərqli reaksiyalara səbəb oldu. Qeyd etdiyiniz "doğma və özgə" məsələsinin kökü Qurana gedib çıxır. Lakin hegemonluğun və daxildəki aldanmışların qeyri-həqiqi bölgülər apardığı indiki şəraitdə bu məsələ olduqca əhəmiyyətli və diqqətəlayiqdir və həqiqi sərhədlər yarada bilər. Lütfən "doğma və özgə" bölgüsünün tərifi və bunların arasındakı sərhədi açıqlayın. Doğma və özgə xalqa da aiddirmi, yoxsa yalnız siyasi qruplara şamil olur?

**Cavab:** Mən siyasi xətlərə başqa bir prizmadan yanaşıram. Mənim üçün adlar deyil, beyinlər, qəlblər və əməllər əhəmiyyət daşıyır. İslam, dəyərlər, imam, milli maraqlar və bu ölkənin taleyi kimi daha çox düşündürürsə, hansı xəttə, hansı cəmiyyətə və siyasi cinaha bağlı olursa-olsun, mənim üçün daha əzizdir. Çalışın özünüzü meyarlara uyğunlaşdırın. Xalq sizdən bunu istəyir. Xalq İslamı, İslam hakimiyyətini və özünün islamçı iqtidarını istəyir. Düşmənə və onun əlaltılarına inanmayın. Siyasi xətlərin daxildə digər xətlərlə düşməncəsinə rəftar etməsi, həqiqi düşmənə isə qucaq açması pis haldır. Mən bunu sevmirəm. Xalq bunu sevmir. Cəsarətlə deyə bilərəm ki, Allah da bunu sevmir.

Doğma və özgə bizdə var, yoxsa yox? Əgər xalqda deyiriksə, yoxdur. Xalqın hamısı doğmadır. Siyasi cinahlar arasında isə doğma və özgə vardır. Doğma kimdir? Doğma qəlbi İslam və inqilab üçün döyünən, imama hörmət bəsləyən, xalqa yalnız dildə deyil, həqiqətən hörmət edəndir. Özgə kimdir? Özgə əmrini əcnəbidən alan, əcnəbini, Amerikanın qayıtmasını ürəkdən sevəndir. Özgə inqilabın əvvəllərindən Amerika ilə dost münasibətlər qurmağa çalışan, imama hörmətsizlik edən, Amerikaya isə sevgi bildirən, kimsə imamı təhqir edəndə narahat olmayan, sərhədlər xaricindəki düşmənləri, yaxud onların əməkdaşlarını təhqir edəndə isə narahat olandır. Adları nə olursa-olsun, kim olurlarsa-olsunlar, fərqi yoxdur, beləlləri yaddırlar. İndi cümə namazında ad çəkmək istəmirəm; kim belə olsa, özgədir. Allah eləsin bizdə beləlləri olmasın. Dövlət qurumları diqqətlərini

toplasınlar. Hüquq-mühafizə orqanları, Təhlükəsizlik nazirliyi, Ölkə nazirliyi, korpus, Bəsic və digər qurumlar diqqətli olsunlar. Bəzi xeyirxah insanlar bu baxımdan mətbuatdan şikayətçidirlər. Əks təqdirdə, heç kim azad mətbuata qarşı çıxmır. Bu inqilabın fəlsəfəsi azadlıqdır; söz və fikir azadlığı. Amma belə olmasın ki, düşmənin sözünü, istəyini və təhlilini digər sözlərdən önə keçirək, onu prinsip və meyar seçək. İnsan öz düşməni ilə dostluq edənə inana bilməz.

Siyasi qrup və cinahlar bir-biri ilə dil tapsınlar, əməkdaşlıq etsinlər. İnamsızlıq, ittiham, bir-birini aşağılamaq və bir-birindən küsmək yolverilməzdir. İndi deyirlər ki, siyasi üslub fərqlərimiz var. Mən onların həqiqətən nə qədər mühüm siyasi fərqlərinin olduğunu bilmirəm. Əgər fərqləri emosional deyilsə, həqiqətən iqtisadi və siyasi sahələrə baxış fərqləri varsa, çox gözəl, həmin fərqlər çərçivəsində bir-biri ilə rəqabət aparsınlar - bunun eybi yoxdur - amma bunu düşmənliyə və kin-küdurətə çevirməsinlər. Düşmənin fürsət gözlədiyini və cinahları bir-biri ilə döyüşdürmək istədiyini unutmayın.[1]

**Sual:** Aldanmış doğmaların hərəkət lokomotivi kimdir? Bu yalnız sərhədlər xaricindədir, yoxsa daxildə də var?

**Cavab:** Bu qatarın lokomotivi xaricdədir. Daxildəki əsas işləri idarə edənlər də düşmənlərdir. Bunlar mənim ötən il Əmirəlmöminin (ə) haqda danışarkən dediyim Qasitin – yəni zülmkarlar cəbhəsidir. İmam Əlinin (ə) hökuməti qarşısında üç cəbhə vardı: Qasitin, Mariqin və Nakisin. Mariqin (yolunu azanlar, yaxud dindən çıxanlar) və Nakisin (əhdi pozanlar) daxili cəbhə və doğmalar idilər. Onlar ya öz tamahkarlıqları, vəzifəpərəstlikləri və müəyyən kompleksləri, ya da cəhalətləri, axmaqlıqları və təəssübkeşlikləri səbəbindən aldanıb tələyə salınmış doğmaları idilər. Qasitin cəbhəsi isə düşmən cəbhə idi və Əli (ə) ilə barışmırdı. Əmirəlmömininə (ə) dedilər ki, ey möminlərin əmiri, qoyun Əbu Süfyan oğlu Müaviyə bir neçə gün hakimiyyətdə qalsın.

[1] 1999-cu ilin iyul hadisələri haqda çıxışdan: 1999.

İmam buyurdu ki, yox, mən hökumət başçısıyamsa, o bu hökumətdə vali ola bilməz, vəzifəsindən kənara çəkilməlidir. Onlar Əmirəlmömininini (ə) günahlandırıb dedilər ki, siyasəti zəifdir. Bu günə qədər də bəzi yazıçılar bunu söyləyirlər, amma əslində öz siyasətləri zəifdir. Əmirəlmöminin (ə) burada çox peşəkar siyasət yürütdü. Əbu Süfyan oğlu Müaviyə cənab Təlhə və Zübeyr deyildi ki, istədiyini verəndə sakit otursun. Xeyr! Bu, Qasitin cəbhəsi, Əli (ə) cəbhəsi ilə razılaşmayan, heç bir şəraitdə yola gəlməyən, qarşısındakı bir addım geri çəkilən kimi bir addım irəliyə gələn və savaşdan başqa çarəsi olmayan bir cəbhə idi. Əmirəlmöminin (ə) bunu bilirdi. Odur ki, İmam Əli (ə) iş başında olduğu zaman Qasitin cəbhəsi heç bir iş görə bilmədi və həmişə məğlub oldu. Əli (ə) də doğma cəbhədə olan təəssübkeş, kinli, anlamaz və aldanmış qruplar tərəfindən şəhid edildi, belə özgələr tərəfindən yox. Məhz bu zaman – yəni onun şəhadətindən sonra həmin özgələr – Qasitin qrupu hakimiyyəti ələ keçirdi və bir neçə ildən sonra amallarının nə olduğunu göstərdi; Həccac ibn Yusif, Yisif ibn Ömər Səqəfi kimilər Kufəyə hakim təyin olundular, Yezid ibn Müaviyə hakimiyyətə gəldi; bəlli oldu ki, bu qrup hansısa məsələdə Əli (ə) ilə razılaşan qrup deyilmiş.

Bu gün də eynilə elədir. Düşmən cəbhəsi doğma olan qafil insanlardan başqadır, lakin bu zavallılar aldanır, səhvə yol verir, diqqətsizlik edirlər. Bəzən bir hadisəyə görə bir insanda kin-küdurət yaranır və bununla da quruluşa, haqq sözə, imama və onun yoluna qarşı çıxır. Əsas düşmən bu deyil. Bu, aldanmış insandır. Bu, ürək yandırmalı adamdır. Əsas düşmən bunun arxasında gizlənən, ölkə daxilində özünü göstərməyən, xaricdə isə göstərəndir. Beynəlxalq cəbhədə Amerikanın CIA və sionistlərin MOSSAD casus təşkilatlarına vəfalı bir üzv kimi şəxsiyyəti bəllidir; danışır, həqiqətləri söyləyir, İslam və müsəlmanlara qarşı mübarizə üçün məqsədlərini bəyan edir. Onun ölkə daxilindəki adamı isə özünü hökumətin əlinə vermir, bu hökumətin xalqın iradəsinə arxalanan, xalq tərəfindən sevilən və xalqın imanına güvənən qüdrətli hökumət olduğunu bilir, ondan qorxub özünü gizlədir, sözlərini birinci,

ikinci və bəzən üçüncü vasitə olan aldanmış adamların dili ilə söyləyir. Bir də görürsünüz ki, aldanmış, bixəbər və qafil bir ruhani, hissiyyata qapılan, məsələnin mahiyyətini düşünməyən bir tələbə, zamanı və düşməni tanımayan, yaxud bəzən kiməsə qarşı kini olan hətta inqilabçı bir fərd onun sözünü danışır. Bu öz sözü deyil, düşmənin sözüdür. Bizim düşmənimiz "onların sizə qarşı ədavəti ağızlarından çıxan sözlərdən aşkar olur" ayəsində göstərilən şəxsdir. Bizim düşmənimiz bu inqilab üçün nəinki ürək yandırmamış, hətta bəzi dönəmlərdə ona qarşı çıxmış, bəziləri Pəhləvi rejimi dövründə inqilaba qarşı çalışmış, bəziləri İslam quruluşu hakimiyyətə gələndən sonra pozuculuqla məşğul olmuş, bəziləri bir müddət qorxub kənara çəkilmiş, gizlənmiş, imkan yaranandan sonra tısbağa qınından sürüşüb çıxmış şəxsdir.[1]

**Sual:** Siz doğma kateqoriyasında olan cinah və qruplara dəfələrlə nəsihət vermiş, onları öz aralarındakı sərhədləri qabartmamağa, özləri ilə əcnəbilər arasındakı fərq və sərhədi isə daha da qabartmağa dəvət etmiş, onlardan özlərinə yeni sərhədlər tərif etməyi istəmisiniz. Bu yeni sərhədlər nədən ibarətdir?

**Cavab:** Mənim müxtəlif cinahlara müraciətim budur: Əziz qardaşlar! Doğmalar! Gəlin yeni sərhədlər tərif edin. İslam quruluşu bu izdihamlı xalqın imanına güvənir. Siyasi baxımdan xalqın bir qismi bir cinahı, başqa bir qismi başqa bir cinahı dəstəkləyə bilər, amma hamısı İslama etiqadlıdır. Elə bilməsinlər ki, seçkilərdə bir cinah qələbə çaldıqda vəziyyət bir cür, başqa bir cinah qələbə çaldıqda isə başqa cürdür. Xeyr! Bunlar siyasi üslub və seçimlərdir. İslama etiqad bu xalqa məxsusdur. Xalq istər parlament, istər prezident, istər digər seçkilərdə bu məmləkəti İslam dəyərlərinə əsaslanaraq yoxsulluqdan, ayrıseçkilikdən, ədalətsizlikdən və digər neqativ hallardan xilas etmək istəyən adama səs verir. Xalq İslamı istəyir. Quruluşun daxilində olan bu iki cinah yeni sərhədlər tərif etsinlər. Əvvəla öz aralarındakı sərhədi

---

[1] Tehranın cümə namazı xütbələrindən: 1999.

qabartmasınlar və bir qədər dostlaşsınlar; ikincisi isə əcnəbilərlə sərhədlərini qabartsınlar.

Baxın, hökumətin quruluşun müxalifləri ilə necə rəftar etməsi bir məsələdir, quruluş daxilində filan siyasi cinahın müxalif qarşısında öz mövqeyini necə tərif etməsi başqa bir məsələdir. Təxribata başlamayınca cəmiyyət daxilində hətta quruluşa müxalif qüvvələrin də can, mal, namus və heysiyyətləri hökumətə əmanətdir. Biz onları müdafiə etməliyik və edirik. Bir oğru küçədə oğurluq edəndə soruşmuruq ki, quruluşa müvafiq adamın evindən oğurluq etmisən, yoxsa müxalif; kimdən oğurluq etmiş olsa, cəzalandırırıq. Qanunsuz şəkildə insan öldürəndən kimi öldürdüyünü soruşmuruq, öldürmüşdürsə, cəzalanmalıdır, fərqi yoxdur. Polisə və təhlükəsizlik məmuruna tapşırıq verəndə demirik ki, get əhalisinin əksəriyyəti quruluşu qəbul edən bölgənin, evin və yaxud şəhərin təhlükəsizliyini qoru. Xeyr! Hökumətin bütün fərdlər qarşısında vəzifəsi var; istər müsəlman olsunlar, istər qeyri-müsəlman; quruluşu qəbul etsinlər, yaxud etməsinlər. Nə qədər ki, düşmənə, təxribatçıya və düşmən qüvvəsinə çevrilməyiblər, hökumətin onlarla rəftarı möminlərlə və digər insanlarla olduğu kimidir, heç bir fərqi yoxdur. Bu bir məsələ. Siyasi cinahların rəftarı isə hökumət kimi deyil. Siyasi cinahlar mövqelərini müəyyən etməlidirlər. Onlar İslama, inqilaba, imamın yoluna və bu quruluşun İslam əsasına müxalif olan şəxsə qarşı mövqelərini açıq bildirməli, həmçinin zahirdə dindar, əslində isə inqilabi dəyişikliyi və inqilabın özünü əsla qəbul etməyən qapalı və fanatiklərlə sərhədlərini müəyyən etməlidirlər. Demirik ki, vuruşsunlar, dalaşsınlar, yalnız öz mövqelərini müəyyən etsinlər. Bizim siyasi cinahlara sözümüz budur.

Təbii ki, xalqın mövqeyi aydındır. Mənim müraciətim xalqa deyil, xalq bilir. Mən o gün də dedim ki, bu böyük, şücaətli, mömin, cəsarətli, inqilabçı, vəfalı, fədakar və səmimi xalqdan həqiqətən heç bir şikayətim yoxdur. Gözlənti siyasi cəhətdən təsirli qüvvələrdən, yazanlardan, danışanlardandır. Onlar düşmənin istəyinin həyata keçməsinə mane olmalıdırlar.

Düşmənin quruluş əleyhinə əsas fəaliyyəti bu gün də mədəni və psixoloji sahədədir. Xalqı ölkənin gələcəyinə inamsız və ümidsiz etmək, inqilaba, dövlət məmurlarına, müxtəlif sahələrdə - icraçı orqanda, məhkəmə orqanında, qanunverici orqanda çalışan dindar məmurlara etimadı sarsıtmaq, məmurları bir-birindən uzaqlaşdırmaq, ixtilaf yaratmaq və gələcəyə dair qaranlıq təsvir formalaşdırmaq istəyirlər. Mən buna görə mətbuatdan narazıyam. Azğın mətbu orqanları məhz bu işləri görürdülər; gələcəyi pis, məyusedici, həqiqətdən uzaq, indiki vəziyyəti də qeyri-real təsvir edir, cəmiyyətdə gərginlik, təbəqələrdə bir-birinə qarşı inamsızlıq yaradırdılar. Bəziləri hətta məmurların bacarıqsız olmasına dair fikir formalaşdırmağa çalışırdılar. Bu da həmin qələtlərdəndir. Xeyr! Hökumət bacarıqlıdır, imkanları var, işlərini görə bilir, məşğuldur, Allahın yardımı ilə öz vəzifələrini yerinə yetirir. Düşmənin istədiyi bunlardır. Heç kəs buna kömək etməməlidir.[1]

**Sual:** Siyasi cinah və şəxsiyyətlər düşmən qarşısında necə fəaliyyət göstərirlər? Cinahların uyğun əməllərini təqdir edirsinizmi?

**Cavab:** Mənim ölkədəki siyasi cinahlara və siyasi şəxsiyyətlərə bugünkü və daimi sözüm budur: Düşmənə özünüzü elə göstərməyin ki, sizin vasitənizlə inqilabın qəlbində dəlik açıb öz təsirini genişləndirə bilməsini hiss etsin. Mən məhz buna görə hərdən bəzi şəxslərdən, yaxud bəzi mətbu orqanlarından gileylənmişəm. Onlar elə bir iş görməsinlər ki, düşmən quruluşun içinə yol tapıb öz nüfuzlarını genişləndirə bilməsini hiss etsin. Dedik ki, onun nüfuzu nə qədər çox olsa, milli şərəf, iqtidar və ölkənin gələcəyinin təmin olunması işi zəifləyəcək. Kimsə düşmənə hər hansı imkan yaradırsa, kimsə Amerikaya qarşı düşmənliyin elan olunması günü olan 13 Abanı Amerika qarşısında zəlillik gününə çevirmək istəyirsə, kimsə milli birliyi möhkəmlətmək əvəzinə həmişə təfriqə haqda düşünürsə, düşmənin nüfuzuna şərait yaradır. Deməli, bu şəxs milli birliyin, milli maraqların tərəfdarı olduğunu iddia edə bilməz.

---

[1] Tehranın cümə namazı xütbələrindən: 2000.

İslam quruluşunda bir qrup insanın düşmənə sevgi bəsləməsi çox pis haldır. Bununla kifayətlənməyib onun sözlərini təkrarlayır; bununla da kifayətlənməyib quruluşun müqəddəslərini sual altına salırlar; bununla da kifayətlənməyib düşmənin istədiyi işi görürlər. Yəni birinci şərt olan xalqın imanını sarsıdır, gənclərin qəlbindəki qorxmazlığı və özünəinamı məhv edir, dəhnə götürüb bu quruluşa vurur, onda dəlik açmaq istəyirlər. Bu işləri görürlər, sonra da quruluş onlara qarşı tədbir görür və qanuna uyğun olaraq onları cinayətkar elan edir. İslam quruluşunda cinayətkar olmaq əbədi ləkədir; təbii ki, tövbə edib vurduğu ziyanı aradan qaldıran, yaratdığı qaranlığı aydınlaşdıran, keçmiş səhvini düzəldən şəxsdən başqa. O zaman Allah-Taala ondan keçər və onun cinayəti yaxşılığa çevrilər. Amma nə qədər ki, bu işləri görməyib, bir cinayətkardır. Cinayətkar sayılandan sonra kimlərsə qanunun ziddinə olaraq bu cinayətkarı müdafiə etməyə başlayırlar. Bu, ən pis işlərdəndir. Bir ölkədə ən pis hallardan biri ölkənin müxtəlif orqanlarının bir-birini ittiham etməsidir. Bu mənasızdır, ölkəni idarə edən qurumların birliyini sarsıdır. Bir təşkilat o zaman ideal işləyə bilər ki, şöbələr bir-birini tamamlasın, bir-birinə kömək göstərsin; nəinki birinin fikri-zikri o birini gözdən salmaq, o birinin fikri-zikri də başqa birisini məhv və bədnam etmək olsun. Belə olmaz! Cinayətkar cinayətkardır. Düzdür, öz cinayəti qədərincə cinayətkardır, artıq yox. Bütün cinayətlər eyni deyil. Bir cinayət, pis bir iş bütün yaxşı işləri məhv edə bilməz. Xeyr! Belə deyil. Lakin cinayət cinayət sayılmalıdır.[1]

**Sual:** Sizcə daxili siyasi qruplar arasındakı ixtilaflar böyük və əhəmiyyətlidir, yoxsa bunlar qəsdən böyüdülür? Bu ixtilafları azaltmağın yolu nədir?

**Cavab:** Mənim əzizlərim! Bəzən çox böyük göstərilən siyasi cinah ixtilafları bu qədər böyük və əhəmiyyətli deyil. İnsanlar öz yollarını gedirlər. Xalqın yolu İslamın, inqilabın, Allahın və Böyük İmamın

---

[1] Mühafizəçilər, müharibə əlilləri, tələbə və şagirdlərlə görüşdəki çıxışdan: 2000.

yoludur. Xalqın belə süni xətlərlə işi yoxdur. Düşmən müxtəlif cinahları bir-biri ilə daha çox vuruşdurmaq istəyir. Mən tam səmimiyyətlə dəfələrlə ən müqəddəs məkan olan cümə namazında və digər yerlərdə siyasi cinahlara demişəm ki, oturun bir-birinizlə söhbət edin, müzakirə aparın, eyni fikirdə olduğunuz məsələləri prinsip seçin, onlara əsaslanaraq ixtilafları həll edin. Prinsiplər üzərində dayansanız, cüzi ixtilaflar əhəmiyyətini itirəcək. Bir qismi qəbul etdi, bir qismi isə inadkarlıq etdi və hələ də edir. Bu inadkarlığın mənası nədir? Nə üçün kimlərsə xalqın birliyini, milli vəhdəti, milli təhlükəsizliyi, milli maraqları və ölkənin mənafeyini cinah maraqlarına qurban verməlidirlər? Bunda düşmənin əli yoxdursa, çox pisdir; varsa, qat-qat pisdir.

Mən yenə də hamını İslam quruluşunun əsas prinsipləri - konstitusiya, İslam, imamın yolu, xalqın maraqları və bu xalqa ədavət bəsləyən hər bir kəslə mübarizə əsasında birliyə çağırıram. Bu bütün xeyirxah, qayğıkeş və doğruçu insanları bir yerə toplaya bilən aydın xətdir.[1]

**Sual:** Siyasi fərqlərə dair daxili siyasi qruplara hansı tövsiyələriniz var?

**Cavab:** Siyasi xətt və cinah başçılarına deyirdik ki, doğmalar əbəs məsələlər üzərində bu şəkildə bir-biri ilə çəkişsələr, düşmən süi-istifadə edər. Buyurun, bu da real nümunəsi. Gördünüz düşmən necə istifadə etdi?! Gördünüz düşmən necə sancdı?! Bu məsələləri kənara qoyun. Biz demirik ki, hamı bir cür fikirləşsin, amma siyasi iş və dartışmalar üçün bir hədd və qırmızı xətt tanıyın, necə gəldi bir-birinizlə çəkişməyin. O qədər dartışarsınız ki, düşmən də bu şəkildə gəlib işlərə qarışar. Mətbuat qanunu və digər müxtəlif məsələlərdə necə qalmaqal yarandı. Hamısı da xətt və cinah məsələləri idi. Nə üçün? Çünki parlamentdə bir qanun qəbul olunur.

---

[1] Qum əhalisi ilə görüşdəki çıxışdan: 2000.

Mən xüsusi bir siyasi cinaha işarə vurmuram, müraciətim hamıyadır. Mənim üçün xətlərin və siyasi üslubların fərqi yoxdur. Mənim üçün meyar olan Allahın, imamın və İslamın yolu, xalqın maraqlarını uca tutmaq, ölkəni və onun gələcəyini qorumaqdır. Mənim üçün fərqi yoxdur ki, filankəs a cinahındadır, yoxsa b cinahında. Mən hamıya deyirəm. Siz də sayıq olun.[1]

**Sual**: Bir müddətdir prinsip və üsullar haqda müzakirələr gedir. Bu sahədə bəzi çaşdırıcı yollardan da istifadə olunur. Lütfən deyin ki, prinsip və üsullar arasında sərhədi üçün meyar nədir? Prinsipləri necə təyin etmək olar?

**Cavab**: Prinsiplər müxtəlif sahələrdə olan müxtəlif üsullarla səhv salınmır. Prinsiplər bir quruluşun fikir bünovrələri və hökumətin əsasıdır. İslam dini prinsiplərdəndir; istiqlaliyyət prinsiplərdəndir; dini quruluş prinsiplərdəndir; İslam qanunlarına riayət etmək prinsiplərdəndir; xalqın və ölkənin ümumi istiqamətinin dindarlığa sarı getməsi və cəmiyyəti ideal İslam cəmiyyətinə sarı aparmaq prinsiplərdəndir. Prinsiplər bu qəbildəndir. Üsullar isə odur ki, bir nəfərin Zeydlə arası yaxşıdır, Əmrlə pisdir; birinin ondan xoşu gəlir, digərinin xoşu gəlmir. İqtisadi sahələrdə məsələ üsul kontekstindən üstündür, amma prinsip deyil. Fərz edin bir nəfər iqtisadi tarazlıq siyasətini düzgün sayır, biri isə bu siyasətin əleyhinə çıxıb, başqa bir siyasəti düzgün sayır. Bunlar üsuldan da yüksəkdir, lakin prinsiplərlə səhv salınmamalıdır. Bu və ya digər siyasi üsula malik olan bir şəxs bir vəzifəyə seçildikdə ona uyğun hərəkət edir. Sonra başqa birisi gəlir və işləri başqa formada həyata keçirir. Lakin prinsiplər həmişə qorunur. İndi siz baxın, bir zaman hökumətin başçısı bir şəxs idi, sonra başqa bir nəfər oldu, məndən sonra daha başqa bir nəfər hökumət başçısı oldu. Bütün bu dönəmlərdə siyasi və iqtisadi üsullar müxtəlif cəhtələrdən fərqlənsə də, düşüncə təməlləri - yəni İslama etiqad, imama, İslam

[1] Xalqın müxtəlif təbələri ilə görüşdəki çıxışdan: 1999.

quruluşuna və xalq hakimiyyətinə inam isə həmişə qorunub. Bu inamlar hətta hökumətlərin dəyişməsi ilə də dəyişmir. Buna görə səhv salına bilməz.[1]

**Sual**: Sizin fikrinizcə, bəzən vilayət sözünü pis tərif və müdafiə etmirlərmi? Həmçinin vilayəti müdafiə və vilayətə itaət iddiasında olanlar pis işləmirlərmi?

**Cavab**: Niyə ki, təsadüfən, çox yerlərdə pis müdafiə olunur. Bəziləri pis müdafiə edirlər, bəzilərinin pis işləmələri mümkündür. Belə şeylər var, onları inkar etmək olmaz. Necə ki, Allahın tərəfdarı olan və dindarlardan sayılanların çoxu pis əməllər edirlər. İslam dininin tərəfdarı olan şəxslər arasında çoxları pis işlər də görürlər. Bu hər yerdə ola bilər və var. Lakin əsas məqam budur ki, kimsə vilayəti, dini, İslamı, İslam quruluşunu, yaxud bir şəxsi müdafiə məqsədilə pis çalışırsa, biz bu pisliyi onun müdafiə etdiyinə aid etməməliyik; deməliyik ki, onunla işim yoxdur, amma bu şəxs düz etmir. Bəzən yaxşı məqsəd güdməyən bəzi şəxslərin burada məsələni qarışdırmaları müşahidə olunur. Bir şəxs dinin, yaxud başqa bir həqiqətin tərəfdarıdır və pis rəftar edir. Bu zaman onun müdafiə etdiyi həqiqətə bəzən bunlar tərəfindən hörmətsizlik olunur. Bu düzgün deyil.[2]

**Sual**: Vətəndaşların Nəzarət Şurası tərəfindən öz təbii haqları olan seçilmə hüququndan məhrum edilməsi xalqın quruluşa etimadsızlığına bais olmurmu?

**Cavab**: Mənim cavabım budur ki, xeyr, olmur. Səlahiyyətə nəzarət qanunda nəzərdə tutulmuş məsələdir və heç kim qanuna əməl olunmasından şikayət etməməlidir. Nəzarət Şurasının bu işi qanun çərçivəsindədir, konstitusiyaya əsaslanır. Bunun kökü konstitusiyadadır və digər qanunlarda da təsdiq olunmuşdur. Bu nəzarət adi vətəndaşlar üçün deyil. Bu, zərərli, pis və ləyaqətsiz bir insanın həssas mərkəzlərə

---

[1] Şərif Sənaye Universitetində görüşdəki çıxışdan: 1999.

[2] Yenə orada.

daxil ola bilməməsi üçündür. Bu nəzarət təkcə parlamentə aid deyil, prezidentə də şamil olur. Siz təsəvvür edin, xarici ölkələr tərəfindən dəstəklənən, ixtiyarında çoxlu pul olan, özünü müxtəlif şəkillərdə bəzəyən peşəkar bir fırıldaqçı namizədliyini irəli sürsə, xalqın çoxunu aldatmağı bacarsa və prezident olsa, bu məmləkətin vəziyyəti necə olar?! Səlahiyyətə nəzarət onun üçündür ki, ölkə qanunlarına əsasən bu həssas vəzifələrə - istər parlamentə, istər prezidentliyə, yaxud bu şuranın nəzarətində olan başqa yerlərə, məsələn Dini Ekspertlər Məclisinə daxil olmaq səlahiyyətinə malik olmayan şəxslərin qarşısı alınsın, onlar bu həssas mərkəzlərə yol tapa bilməsinlər. Səlahiyyətə nəzarət yaxşı bir şeydir, pis deyil. Tənqid edənlərin və irad bildirənlərin iddiası budur ki, Nəzarət Şurası kimisə rədd, yaxud təsdiq edəndə siyasi görüşləri nəzərə alır. Sözsüz ki, bu doğru deyil. Nəzarət Şurasında çalışanların özləri bunu həmişə inkar etmişlər. Mən də onların işinə yaxından şahid olduğum qədərincə, belə bir şey hiss etməmişəm. Ola bilsin kimsə nə vaxtsa bir məsələni düzgün anlamayıb və səhvə yol verib. Bu başqa məsələdir.[1]

**Sual**: Sizin hökuməti və cənab prezidenti müdaifə etməyiniz onların siyasətlərini qəbul etməyiniz anlamına gəlirmi?

**Cavab**: Mən prezidenti müdafiə etmişəm və edəcəyəm. Bu mənim borcumdur. Mən bunu etməliyəm. Hökuməti də müdafiə edəcəyəm. Düzdür, hökumət üzvləri arasında üsul və siyasətlərini bəyənmədiyim insanlar var. Onların özləri və dövlət məmurları da bilirlər. Ola bilsin xalq bilmir, buna lüzum olmayıb. Lakin bilməli olanlar bilirlər. Bəzi tənqidlərim olub, nə zaman lazım olmuşsa, tənqidləri onlara bildirmişəm. Lazım olan yerdə sərt davranmışam və ciddi surətdə islah olunmasını istəmişəm. Lakin soruşursunuz ki, hökuməti və prezidenti müdafiə etməyiniz onların siyasətlərini qəbul etməkdir, yoxsa yox. Mən bilmirəm "onların siyasətləri" deyəndə nəyi nəzərdə tutursunuz. Bizim

---

[1] Yenə orada.

gördüklərimiz onların işləri, əməlləridir və bunlara dair yadıma heç bir irad düşmür. İşlərini yerinə yetirirlər. Təbii ki, insanlar eyni deyillər. Fərdlərdə olan zəiflik, qüvvə və bacarıq müxtəlifdir, şəxsi üslublar da müxtəlifdir, danışıq tərzləri də. Bəziləri bir şeyi elə müdafiə edir və haqqında danışırlar ki, onu müdafiə edən başqa birisi ilə fərqlənirlər. Dəqiq insan məsələnin məğzini öyrənib dərinə getməlidir. Əgər bunlara diqqət yetirsəniz, mənim fikrimcə, problem yaranmaz.

**Sual**: Əgər siyasət və əməllərdə eyib olsa, onu bildirmək lazımdırmı? Sizin hökuməti müdafiə əmrinizə qarşı çıxmamaq üçün bunu necə bildirməliyik?

**Cavab**: Mən heç zaman tənqidin qarşısını almamış və heç kəsə qadağa qoymamışam. Düzgün və xeyirxah tənqidin zərəri yoxdur, lakin tənqid təxribatla sonuclanmamalıdır. Bəzi qüvvələr təxribat şəklində tənqid edirlər. Bu yaxşı deyil. Çiynində ölkənin ağır məsuliyyəti olan və böyük işləri, məsələn, iqtisadiyyatı sahmana salmasını gözlədiyimiz şəxsi gücləndirməsək, nə zamansa bir zəiflik görünəndə bunu örtməsək, belə bir şey gözləyə bilərikmi?! Belə olan halda bizim istədiyimizi – yəni öz vəzifəsini yerinə yetirməsinə ümidvar ola bilərikmi?! Mənim fikrimcə, ölkə məmurlarına kömək etmək, onlara yardım göstərmək hamının borcudur. Düzdür, o zamana qədər ki, onlar düzgün İslam və imam xəttində hərəkət etsinlər. Bu xətdən yayınan kim olursa-olsun, müdafiəediləsi deyil. Bunda heç bir fərq yoxdur; yuxarıdan aşağıya hamıya aiddir. Mənim özüm də beləyəm. Əgər Allah eləməmiş, mən də düzgün İslam xəttindən uzaqlaşsam, məni dəstəkləmək, yaxud fərmanlarıma itaət göstərmək daha xalqa vacib olmaz. Düzdür, bəzən səhv və üslub fərqi ola bilər. Üslub fərqinə görə ölkə məmurlarını və müxtəlif sahələrin başçılarını öz himayəmizdən məhrum etməməliyik. Xeyr! Onları müdafiə etməliyik.

Siz də bilin, mənim əzizlərim! Bu gün bu ölkə hökumətin və xalqın bir yerdə olduğuna görə qüdrətlidir. Dünyanın heç bir yerində belə bir şey yoxdur. Bunu sizə məlumat əsasında deyirəm. Hətta demokratik

ölkələrdə də sizin burada müşahidə etdiyiniz vəziyyət yoxdur. Bizdə bir məmur oturub xalqla səmimi surətdə danışır; nə onlar bundan qorxurlar, nə də bu onlardan qorxub özgəlik hissi keçirir. Xoşbəxtlikdən, bu ölkədə belə nümunələr çoxdur, oralarda isə belə deyil. Bu da dinin və İslamın sayəsində əldə olunub. Öz iddialarına görə demokratik olan dinsiz və ateist hökumətlərlə xalq arasındakı pərdə digər yerlərdən çox-çox qalın idi. Yəni hökumətin və xalqın bu birliyi dinə və İslama görədir. Bunu əldən vermək olmaz. Bu çox faydalı bir şeydir. Dövlət məmurları ilə xalq arasında olan bu əlaqə - xalqın dəstəyi və məmurların xalqa sevgi və qayğıkeşliyi çox dəyərli bir şeydir.[1]

**Sual**: İnqilabın həqiqi dostlarının mühakiməsi haqda fikriniz nədir? (Burada iki nəfərin adı çəkilib. Mən adları oxumayacağam; istər yaxşılığa çəkilsin, istər pisliyə) Bu gediş İslam quruluşuna yaraşırmı?

**Cavab**: Baxın, kiminsə inqilab dostlarından olduğu üçün mühakimə olunmaması fikri məntiqsiz fikirdir. İnqilab dostlarından olan şəxs gərək bu inqilabın qanunlarına görə cinayət sayılan bir iş görməsin və məhkəməlik də olmasın; hər hansı yolla məhkəməlik olsa da, bəraət qazansın. Əgər bir nəfər cinayət törətmişsə, inqilabın həqiqi dostu olduğuna görə onun mühakimə olunmamasını deyə bilmərik. Bu düzgün məntiq deyil. Burada adları çəkilən bu iki nəfərin vəziyyəti, əvvəllər və indi inqilabın həqiqi dostları olub-olmamaları, yaxud birinin belə olması, birinin isə olmaması ilə işim yoxdur. Lakin məhkəmənin hökmünə görə, inqilabın dostlarından olan kimdənsə bir xəta baş vermişsə, bu, onun məsuliyyətə cəlb olunmasına mane olmamalıdır.[2]

**Sual**: Mümkünsə, ruhani məhkəməsi və onun əhəmiyyəti barədə məlumat verin.

**Cavab**: Ruhani məhkəməsi düzgün, əsaslı, qanuni və lazımlı bir orqandır. Düzdür, ajiotaj yaradır, düzgün olmayan iradlar bildirirlər. Bu

---

[1] Yenə orada.
[2] Yenə orada.

məhkəmə zamanında təşkil edilmiş, mühüm və əsaslı işlər də görmüşdür. Bütün təbəqələr kimi, ruhani təbəqəsi də səhv və cinayət edə bilən bir təbəqədir. Başqa bir tərəfdən, bunların xüsusiyyəti və mövqeyi elədir ki, bir ruhanini mühakimə və sorğu-sual etməyə cürəti və bacarığı olan bir məhkəmənin olması zəruridir. Qarşı tərəf özü ruhani olduqda, bu nə bilirsə, o da bildikdə, onu daha yaxşı mühakimə edə bilər. Bütün bunlar nəzərə alınmışdır. Bəziləri deyirlər ki, imamın dövründə bu məhkəmə olmayıb. Boş sözlərdir. Bu məhkəmə imamın dövrünə aiddir. Bu məhkəməni o yaradıb və lazım görüb. Bu məhkəmə böyük işlər görmüşdür. Odur ki, yaxşı və qanunda müəyyən olunmuş məhkəmədir. Bəli, imam bir dəfə bu məhkəmə yox, ümumiyyətlə Ali Məhkəmə barədə deyib ki, ən azı xalqın yarısı onlardan narazıdır. Çünki müraciət edənlərin yarısı ya məhkumdurlar, ya da məhkumların tərəfdarları. Hər halda, narazı qalırlar. Ruhani məhkəməsi də belədir.[1]

**Sual**: Siz Ruhani məhkəməsinin işini ədalətli bilirsinizmi?

**Cavab**: İşi qanunidir. Mən heç bir məhkəmə haqda mühakimə yurudub onların tamamilə ədalətli olduğunu deyə bilmərəm. Amma hələ ki, biz bunlardan ədalətsiz bir şey görməmişik. İşləri pis olmayıb. Qanunsuz və ədalətsiz hökmlər çıxardığını göstərən bir fakt varsa, araşdırılmalıdır, lakin mən bunlardan ədalətsiz iş müşahidə etməmişəm.[2]

**Sual**: Belə bir məhkəmənin olması konstitusiyaya uyğundurmu?

**Cavab**: Bəli, konstitusiyaya tam uyğundur. Əlbəttə, indi bu sualın geniş cavabının yeri deyil. İndi 16-17 ildir ki, bu məhkəmə fəaliyyət göstərir. Əgər konstitusiyaya zidd olsaydı, heç şübhəsiz, bu qədər davam edə bilməzdi.[3]

---

[1] Yenə orada.
[2] Yenə orada.
[3] Yenə orada.

**Sual:** Siz son iki ildə mətbuat azadlığı və informasiya vasitələri haqda dəfələrlə danışmış, bu çıxışlarda quruluşun məmurlarına, xüsusən də ölkənin mədəni qurumlarında çalışanlara lazımi xəbərdarlıqlar etmiş, qələm və mətbuat adamlarına tövsiyə və nəsihətlər vermisiniz. Siz bir dəfə cümə namazında mətbuatın vəziyyətini acınacaqlı dəyərləndirmiş və demişdiniz ki, bu haqda sonradan geniş danışacaqsınız. İndi sizdən mətbuatın acınacaqlı vəziyyətini izah etmənizi xahiş edirik.

**Cavab:** Mən onda cümə namazında dedim ki, ölkədə olan bəzi hallardan çox əziyyət çəkirəm. Mənə əziyyət verən məsələləri ictimai rəy qarşısında söyləmək istəmirəm. O zaman dediyim acınacaqlı vəziyyət isə həqiqətən belədir. Mən iki-üç il bundan öncə cümə namazında dedim ki, dünya hegemonları və birinci növbədə ABŞ rejimi hökumətləri devirmək və iğtişaş törətmək üçün təbliğatdan istifadə edirlər. Sonra həmin qurumlara müraciətlə dedim ki, siz radiolarınız vasitəsi ilə Şərqi Avropada və digər ölkələrdə icra etdiyiniz proqram və təxribatları müsəlman İranda icra edə bilməzsiniz. Bu mümkün deyil, xam xəyaldır. Ancaq təəssüf ki, təbliğat vasitələri ilə bir ölkənin ictimai rəyini dəyişdirmək istəyən düşmənin bu gün radiolar əvəzinə ölkəmiz daxilində baza qurduğunu görürəm. Bugünkü bəzi mətbu orqanları düşmənin bazalarına çevrilib BBC-nin, ABŞ-ın və sionizm rejiminin radio və televiziya kanallarının istədiyi işləri görürlər.

Mən nə mətbuatın azadlığına müxalifəm, nə də onun çoxluğuna. Bu ölkədə iyirmi qəzetin yerinə iki yüz qəzet çıxsa, mən daha çox sevinərəm. Mən qəzetlərinin çoxalmasına pis baxmıram. Əgər mətbuat konstitusiyada nəzərdə tutulduğu kimi, aydınlığa və şəffaflığa səbəb olsa, ölkənin mənafeyinə xidmət etsə, xalqın və dinin xeyrinə yazsa, nə qədər çox olsa, bir o qədər yaxşıdır. Lakin bu gün bəzi mətbu orqanlarının bütün fikir-zikirləri ictimai rəyi təşvişə salmaq, ixtilaf yaratmaq, xalqın və oxucuların quruluşa inamını qırmaqdır. Sanki bir mərkəzdən idarə olunan on-on beş qəzet var. Onlar müxtəlif məsələlərə dair bir-birinə oxşar başlıqlar dərc edir, kiçik məsələləri böyüdür və elə

manşetlər verirlər ki, onları görən şəxs ölkədə hər şeyin məhv olduğunu düşünər. Bunlar cavanlarda olan ümidi qırır, vətəndaşların hər birində məmurlara qarşı etimadı sarsıdır, ölkənin əsas orqanlarını təhqir edirlər.

Mən bilmirəm bunların örnəyi hara və kimdir. Qərb mətbuatı da belə deyil. Bu gün bəzi mətbu orqanlarının gördüyü iş bir növ şarlatanlıqdır. Bizim bəzi qəzetlərimizin örnək seçdiyi dünyada bir məmur, nazir, hətta prezident oğurluq etsə, yazır və ifşa edirlər; cinayət törətsə, ifşa edirlər; rüşvət alsa, manşetə çıxarır və yazırlar, amma ölkənin konstitusiyasına, qanunverici orqanına hücum etmirlər. Qəbul olunmuş bəzi qanunları tənqid və təhlil edə bilərlər, amma bir qanuna qarşı ajiotaj yaratmırlar. Bunlar bu üsulların əsas sahiblərindən də bir addım öndə gedir, konstitusiyanı, ölkənin əsas siyasətlərini aşağılayır, kiçik məsələləri böyük göstərirlər.

Hər bir hadisədə ittihamlar baş alıb gedir. Bir terror hadisəsi baş verir, hələ heç kəsin əlində informasiya, bu hadisəni törədənlərə dair ipucu yoxdur. Amma görürsünüz ki, bir qəzetin manşetində Mühafizəçilər Korpusunu, Bəsici, ruhaniləri ittiham edirlər. Bu işlərdə məqsəd nədir? Nə üçün Bəsicə qarşı bu qədər qərəzlidirlər? Mən söhbətimin birinci hissəsində dedim ki, gənc enerjili və həyəcanlıdır. Ölkə bir silahlı hücuma məruz qalanda gənclər könüllü şəkildə gedirlər. Ölkə dinc və sülh şəraitində olanda gənclərin həyəcanını sağlam doyurmaqdan ötrü Bəsicdən yaxşı nə ola bilər?! Bu, imamın təşəbbüsü idi. Gəncin həyəcanlı ruhu quruculuq, iman, sağlamlıq və ölkə üçün faydalı olan bir yerdə işlənməlidirsə, Bəsic təşkilatından daha mühüm və daha etimadlı bir təşkilat ola bilərmi?! Nə üçün Bəsiclə bu qədər nifrət edirlər? Nə ilə düşməndirlər? Nə üçün Bəsici bu qədər sual altına salırlar? Bu onların daxilindəki qərəzləri aşkara çıxarır.

Mən bilirəm ki, bu mətbu orqanlarının çoxunun yazarları və rəhbərləri arasında yaxşı və mömin insanlar var, amma onların arasında Abdullah ibn Übəyy kimilərin əlini də görürəm: təfriqə salır, ixtilaf və gərginlik yaradır, ictimai rəyi təşvişə salır, ümidləri qırır, məyusluq yayır, düşməndən asılı və ona mürid olan qüvvələri böyüdür, faydalı,

mömin, ixlaslı, xeyirxah qüvvələri gözdən salırlar. Təbii ki, bu işlərin nəticəsi olmayacaq və Allah-Taala onları rüsvay edəcək.

Mən bəzi mətbu orqanları haqda bu qədər açıq və geniş danışmaq istəmirdim, ancaq məcbur oldum. Mən məsul şəxslərlə söhbət etdim, möhtərəm prezidentimiz də mənim kimi mətbuatdan narazıdır. Mən onunla da söhbət etmişəm. Eşitdim ki, bunların bəzisini toplayıb nəsihət vermiş, sözünü demişdir. Mən bilmirəm nəsihətlə işlər düzələr, yoxsa yox. Məncə çətin düzələ. Düşmən ictimai rəyə təsir göstərmək və gündəm yaratmaq üçün proqram hazırlamışdır, xalqa nəfəs çəkmək imkanı vermək istəmir. Xalq bir yerdə bir sevinc hiss edirsə, dərhal bir məsələni böyüdür və daim gərginlik yaradırlar.

Mən dövlət məmurlarına dəfələrlə tapşırmış, onlardan ciddi şəkildə istəmişəm ki, bu vəziyyətin qarşısını alsınlar. Bunun adı mətbuatı məhdudlaşdırmaq, azad informasiya ötürülməsinin qarşısını almaq deyil, informasiyanın sağlam ötürülməsini biz də təsdiq edirik. Bunun mənası düşmənin nüfuzunun qarşısını almaq, onun təbliğat və təxribatlarını nəticəsiz qoymaqdır. Mən bu informasiya və mətbu orqanlarını ölkə, gənclər, gələcək, inqilab və xalqın imanı üçün zərərli bilirəm. Bu cərəyan daim İslamın mühüm məsələlərinin müqəddəsliyini sındırmaqla, İslam mövzularını və inqilabı sual altına salmaqla məşğuldur; həm də məntiqi dillə yox, qeyri-sağlam mətbuatın olduğu dövrlərdən başqa bir yerdə bənzəri görünməyəcək həddə olduqca yanlış üsullarla. Mən düşündüm ki, məmurlara və prezidentdə deyəndən sonra övladları ilə dərdləşən bir ata kimi bundan sizə şikayət edim.[1]

**Sual**: Yaxşı bir qəzet hansı xüsusiyyətlərə malik olmalıdır? İndiki nəşriyyələrdən hansını bu xüsusiyyətlərə yaxın bilirsiniz?

**Cavab**: Əvvəla bu yaxşı gözlənti deyil ki, mən sizin üçün hansısa qəzetin adını çəkib bu xüsusiyyətlərə yaxın olduğunu deyim. Bunu özünüz bilməlisiniz. Güman etmirəm ki, bundan sonra yaxşı qəzeti

---

[1] Tehranın böyük müsəllasında gənclərlə görüşdəki çıxışdan: 2000.

ayırd etmək tələbə üçün çətin olsun. Bizim yaxşı qəzerlərimiz də var. Yazıblar ki, xüsusiyyətləri nədir. Bəllidir, məqsədi düzgün informasiya çatdırmaq olan, sağlam və yaxşı təhlillər edən, güclü yazılar yazan, xalqın hamısının, yaxud əksərinin problemlərini işıqlandıran və incəsənət üslublarından istifadə edən bir qəzet, mənim fikrimcə, yaxşı qəzetdir. Bizim bəzi qəzetlərimiz belədir, bəziləri belə deyil, bəziləri isə çox pisdir.[1]

**Sual:** Səkkizillik məcburi müharibənin səbəbkarı kim idi?

**Cavab:** Demək olmaz ki, müharibənin səbəbkarı yalnız İraq idi. Əvvəldən bütün faktlar göstərirdi ki, hegemonluq İraqın arxasında durur, ona hərbi və informasiya dəstəyi verir, Təhlükəsizlik Şurasını təcavüzkara yardıma cəlb edir. Bu həssas nöqtədə belə əhəmiyyətli bir müharibə baş versə də, o zaman Birləşmiş Millətlər Təşkilatı günlərlə buna heç bir reaksiya vermədi. Bu adi məsələ deyil. İraqın Küveytə hücumunda bir neçə saatdan sonra Təhlükəsizlik Şurası mövqeyini bildirdi, İrana hücumunda isə İraq tankları irəliləməyincə sakit oturub tamaşa edirdi. Minlərlə kilometr ərazini işğal edəndən sonra bu şura bir kəlmə söz dedi; özü də təcavüzü pisləmədi, təcavüz etdiyi və müharibəyə başladığı üçün İraqı qınamadı, hər iki tərəfə dedi ki, müharibədən əl çəkin və atəşkəs bağlayın. Yəni əslində İraqı bizim işğal olunmuş ərazilərimizdə bərkitməyə çalışırdılar. Təbii ki, biz qəbul etmədik və həmin qətnaməni rədd etdik.

Təhlükəsizlik Şurası böyük güclərin əlində olduğu, onlar da İraq rejiminin arxasında durduğu üçün axıra qədər heç vaxt müharibə barədə tam ədalətli bir mövqe seçmədi. Nəhayət sonlarda özü də hər tərəfdən çəkilən çoxlu zəhmətlərdən və böyük səylərdən sonra 598 saylı qətnamə qəbul olundu.

Şərq və Qərb İraqın arxasında dururdu. Təxminən bütün Avropa İraqa kömək etdi. Müharibə zamanı biz bunları ehtimal kimi deyirdik və

[1] Şərif Sənaye Universitetində görüşdəki çıxışdan: 1999.

müəyyən əlamətlər bunu təsdiqləyirdi, son bir-iki ildə isə ona dair qəti sübutlar tapıldı; hamı etiraf etdi, ABŞ-ın və NATO-nun köməklərinə dair bir-bir sənədlər çıxdı. Sovetin köməyi də ilk gündən bəlli idi; Şərq bloku – bu gün bu bəlalara düçar olan Şərqi Avropa ölkələri müharibə zamanı İraq rejiminə ən böyük xidməti etdilər; regionun mürtəce ölkələri də öz yerində. Odur ki, müharibəyə İraq rejimi təklikdə başlamadı. İraq rejimi bir amil idi, əslində isə bütün hegemon dünya onu törətdi. Bu gün bu aydın məsələdir və geniş müzakirəyə ehtiyac yoxdur.[1]

**Sual:** Nə üçün Səddam Hüseyn hegemon qüvvələrin təhriki və dəstəyi ilə İslam inqilabı əleyhinə səkkizillik müharibəyə başladı?

**Cavab:** Bu da aydın məsələdir. İslam quruluşunu devirmək, yaxud təslimə vadar etmək üçün müharibəyə başladılar. Onlar İslam Respublikasını ya işğal və müharibə yolu ilə devirmək, ya da bütün ölkələrin məcbur olub nəhayət bir böyük gücə sığındığı və əl açdığı kimi, İran xalqını və bu xalqın böyük imamını da düşmənlər qarşısında təslim olmağa, əl açmağa və "çox yaxşı, biz təslim oluruq, qoymayın İraq bizi bu qədər vursun" deməyə məcbur etmək istəyirdilər. Şübhəsiz ki, məqsədləri bu idi, amma bu arzuları da ürəklərində qaldı.

İran Amerikaya təslim olsaydı, müharibə tez bitərdi. Sözsüz ki, Amerika istismarının müsibəti müharibədən yüz dəfə ağır olacaqdı. Əcnəbi hökmranlığının bəlası bir xalq üçün hər hansı müharibə bəlasından daha ağır, daha çətindir. Görün bu gün İraqla necə rəftar edirlər. Hakim olan kimi, qarşısındakı təslim olan kimi hegemonluq daha heç bir hədd tanımır. Bunlar xalqın müqavimətindən qorxur və müəyyən hədd saxlamağa məcbur olurlar. Hegemonluq qarşısında ən kiçik təslimçilik əlaməti göstərən hər hansı xalq uduzdu, özü də çox ağır məğlubiyyətlə. Onların məqsədi İslam Respublikasını təslimçiliyə vadar etmək idi, amma bacarmadılar.

---

[1] Vilayət hədisi, c. 8, səh: 117-119.

Səkkiz il müharibədən sonra bizim qələbə çaldığımızı sübut etmək üçün and içməmiz lazım deyil. Məgər qələbə necə olur? Əgər o qədər güclü və maddi baxımdan böyük bir düşmən bir xalqa hücum etsə, ona qarşı səkkiz il mübarizə aparsa və səkkiz ildən sonra hər şey birinci gündəki kimi olsa, bu xalqın torpağının bir qarışı da düşmən əlinə keçməsə və bu xalq düşmənin ən kiçik boyunduruğunu də qəbul etməsə, bu, həmin xalqın qələbəsi deyil?! Bizim xalqımız gəncləri, döyüşçüləri, ordusu, korpusu, xalq Bəsici, rəşadətli əşirətləri, küçə və bazar adamları, fədakar ailələri, ayıq-sayıq qadın və kişiləri, böyük rəhbərinin misilsiz şücaəti, imanı və Allaha təvəkkülü sayəsində ABŞ, Avropa, ozamankı SSRİ, Şərq və Qərb imperiyaları qarşısında möhkəm dayandı və səkkiz ildən sonra onların hamısını öz məğlubiyyətlərini və İran xalqının qələbəsini etiraf etməyə məcbur etdi.[1]

**Sual:** Bütün bu dəstəklərlə yanaşı, İran xalqı bu böyük qələbəyə necə nail oldu?

**Cavab:** Əziz qardaş və bacılar! Necə oldu ki, siz qələbə çaldınız? Sizin imanınızdan, Allaha arxalanmanızdan, Allahın düşmənləri qarşısında müqavimətə qərarlı olmanızdan və heç bir vasitə ilə qıra bilmədikləri birliyinizdən, gənclərinizin qəhrəmancasına fədakarlığından, gənc olmalarına baxmayaraq, dünya ləzzətlərinə göz yumub nəfsə təslim olmamalarından, övladlarından keçən və övlad eşqinin təhrikinə uymayan ata-analardan, dünya bəzəklərinə etinasızlıqdan və uca məqsədə - yəni İslam və müsəlmanların başucalığına can atmaqdan başqa İran xalqının qələbəsinin başqa bir amili vardımı?! Düşmənin hər tərəfdən hücum etdiyi zaman İran Şərqə, Qərbə, Amerikaya, Avropaya, yaxud sovetlərə üz tutsaydı, yenə də qələbə çalardımı? Buna qoymazdılar. Müharibə qələbəsiz bitərdi və bu xalqı yenidən istismar etməyə başlayardılar.[2]

---

[1] Yenə orada.

[2] Yenə orada.

**Sual:** İran İslam Respublikası əleyhinə aparılan təlbiğatlardan biri də onun hərbi gücünə dairdir. Bu təbliğatla həm Fars körfəzi regionu ölkərini qorxudaraq orada hərbi qüvvə saxlamalarına don geyindirir, həm də bu ölkələrə silah satırlar. Onlar İranı işğalçılıqda və kütləvi qırğın silahları istehsal etməkdə ittiham etdirlər. Bu sahədə İran İslam Respublikasının mövqeyi nədən ibarətdir?

**Cavab:** Müdafiə canlı bir xalqın kimliyinin tərkib hissəsidir. Özünü müdafiə edə bilməyən xalq canlı deyil. Özünü müdafiə etmək haqda düşünməyən və özünü buna hazırlamayan xalq da əslində canlı deyil. Müdafiənin əhəmiyyətini dərk etməyən hər hansı xalq da müəyyən mənada canlı sayılmır. Biz hegemonluğun İslam, inqilab və İslam quruluşu əleyhinə güclü və ədavətli təxribatını görə-görə gözümüzü və beynimizi bağlayıb müdafiə haqda düşünməyə bilmərik. Allah o günü göstərməsin ki, bu xalq, onun görkəmli şəxsləri beynəlxalq hegemonluğun və ilk növbədə Amerikanın ədavətli və xəbis hücumunu yaddan çıxarsınlar.

İnqilab kimliyinə, müsəlmanlığına və hegemonların zülmü qarşısında təslim olmadığına görə dünya quldurlarının nifrət və qəzəbinə tuş gəlmişdir və gələcəkdir. Hegemonluğun bizə qarşı nifrəti və qəzəbi bitən deyil. Nə zamansa bunun faydasız olduğunu düşünüb hücumu dayandıra bilərlər. Bir zaman İslam Respublikası quruluşu güclənib dünya miqyasında çoxlarını dostluğa və yoldaşlığa vadar edə bilər. Amma dünyanın hegemon güclərinin və bəşəriyyəti azdıran şeytansifətlərin inqilaba düşmənliyinin bitməsi mümkün deyil.

Nə qədər ki, bu düşmənlik var, təhdid də var; nə qədər ki, təhdid var, müdafiə fikri və hazırlığı da olmalıdır. Bizim düşmənlərimizin hiyləgər təbliğat yollarından biri budur ki, inqilabı, quruluşu, ölkəni və xalqımızı müdafiədən danışan kimi təbliğat siqnalları işə düşür və bizi işğalçılıqda ittiham edirlər. İşğalçı dünyanı müharibələrə qərq edən sizlərsiniz. İşğalçı öz maraqlarından ötrü uzun illər xalqları məcburi müharibə alovunda yandıran sizlərsiniz.

Biz işğalçı deyilik və müdafiə haqda fikirləşirik. Biz canlı və sayıqıq. Biz böyük və qiymətli sərvətlərimiz olan inqilabımızı, İslamımızı və quruluşumuzu yaddan çıxarmayacağıq, onları müdafiə edəcəyik. Bu, işğalçılıq deyil, bizim yolumuzdur. Bütün xalq, xüsusən də silahlı qüvvələr bilsinlər ki, müdafiə üçün hazırlıq və sayıqlıq tükənməzdir. Böyük xalqın, inqilabın əsgər və müdafiəçiləri arasında İslam İnqilabının Mühafizəçiləri Korpusunun özəl yeri var.[1]

**Sual:** Bu günlərdə Bəsicin zərurətini inkar etmək və onun tərəfindən həll edilmiş böyük problemləri sual altına salmaq məqsədilə aldanmış, yaxud asılı cəmiyyətlərin proqramında ona qarşı hücumlar görünür. Əvvəldən inqilab işlərində iştirak etmiş bir şəxs kimi Bəsic təşkilatının yaradılmasının fəlsəfəsini və onun xidmətlərini necə dəyərləndirirsiniz? Siz hansı xüsusiyyətlərə malik olan şəxsi Bəsic üzvü sayırsınız?

**Cavab:** Bu əsrin əvvəllərindən indiyədək həmişə qlobal güc mərkəzlərinin siyasəti xalqları siyasi səhnədən çıxarmağa yönəlmişdir. Yəni Avropa ölkələrinin və sonra ABŞ-ın xüsusən bu bölgənin İslam ölkələrini ələ keçirmək, neftlərini mənimsəmək, strateji mövqelərindən, istehlak bazarlarından və ucuz işçi qüvvələrindən istifadə etmək üçün plan cızdıqları zamandan bunun yanında başqa bir əsaslı və həyati qərar da verildi. O qərar bu bölgənin xalqlarını siyasi proseslərdən kənarlaşdırmaq idi. Çünki xalqlar siyasi səhnədə olsalar, hökmranlıq istəyində olan hegemonluq məğlub olar. Xalqları proseslərdən kənarlaşdırmaq, regional məsələlərdə onların sözünü, rolunu və iradəsini heçə endirmək üçün ölkələrin başında xalqa heç bir aidiyyəti olmayan və xalq tərəfindən əsla sevilməyən tərəfdarlarını hakimiyyətə gətirməli idilər. Bunun bizim İranımızdakı nümunələri Rza xan, sonra da onun oğlu idi. Bunların xalqla heç bir əlaqələri yox idi. İranda, yaxud bəzi Şimali Afrika ölkələrində və yaxud regionun digər ölkələrində

[1] Vilayət hədisi, c. 3, səh: 2-3.

xalqlar belə insanların hakimiyyəti və başçılığı qarşısında qalanda təbii ki, onları müdafiə etməyəcəkdilər. Xalq başçını müdafiə etməyəndə onun ixtiyarı xarici güc mərkəzinin əlinə keçir, "et" dedikdə etməyə, "etmə" dedikdə etməməyə məcbur olur; “Orta Şərq sülhünü rəsmən tanı” dedikdə tanımağa məcburdur; “Neftin qitməyini bu qədər endir” dedikdə endirməyə məcburdur; “Filankəsi kabinetindən kənarlaşdır”, yaxud “Filankəsi filan vəzifəyə təyin et” dedikdə etməyə məcburdur. Nə üçün məcburdur? Çünki bunu etməsə, qlobal güc mərkəzinin qəzəbinə tuş gələr. Onu müdafiə edəcək bir xalqın da olmadığına görə nəticə belə olur: Bu ölkələrdə azğın və satqın başçılar tərəfindən verilən qərarlar əslində qlobal güclərin - xalqları heçə sayan, onların hüququna əhəmiyyətsiz yanaşan, maraqlarını nəzərə almayan və inqilabın əvvəlindən bizim Hegemonluq adlandırdığımız qüvvənin qərarı olur. Hegemonluğun siyasəti bu olmuşdur, bu işi görmüşlər. İnqilabdan öncə bizim əziz İranımızda on illərlə bu siyasət aparıldı. Mən ad çəkmir və zaman təyin etmirəm, amma düşünsəniz, digər ölkələrdə də çoxlu belə nümunələr görə bilərsiniz. Bunun əks tərəfi nədir? Əksi odur ki, bir ölkədə xalq siyasi proseslərə qoşulsun, "hə" və "yox" desin, öz istəyini bildirsin, hüququnu tələb etsin, ölkəsinin məsələlərinə açıq gözlə, möhkəm iradə ilə və qüdrətlə müdaxilə etsin. Bu işin tilsimini bu ölkədə bizim əzəmətli İslam inqilabımız və bu inqilabın misilsiz rəhbəri qırdı. İnqilabdan öncə on illərlə bu ölkədə parlamentin, seçkilərin və bu kimi məsələlərin yalnız adı vardı. O dövrdə bu xalq bir dəfə də seçkilərdə iştirak etmədi, seçkiləri tanımadı, hökuməti tanımadı, qərarlardan xəbər tutmadı. Bütün işlər xalqsız görülür, qərar çıxarılır və əməl olunurdu. İnqilabın əvvəlindən isə bu xalq səhnədədir. Ölkə məmurları qərar verirlərsə, şücaət göstərirlərsə, möhkəm addım atırlarsa, bu, xalqın dəstəyinə görədir. Bir ölkədə xalq səhnədə olanda siyasi proseslərdə iştirak edir, daha nə beynəlxalq hegemonlar onu bir şeyə məcbur edə, yaxud kimisə onların belinə mindirə bilir, nə də hakimlər zəiflik göstərib əcnəbilərin istəyinə təslim olurlar; çünki xalq tələb edir.

İranının bütün əhalisi səhnədədir. Sözsüz ki, maraq, həvəs və iradələr hər yerdə eyni deyil, ölkələrinin və xalqlarının ali məqsədləri yolunda zəhmət çəkməyə və iş görməyə hamı eyni şəkildə təşəbbüs göstərmir; biri canını verməyə hazırdır, biri malını verməyə, biri bir qədər vaxtını verməyə, biri bir neçə kəlmə danışmağa, biri tamaşaçı kimi alqışlamağa. Hamı eyni deyil. Bizim 65 milyonluq böyük xalqımız arasında can lazım olanda canını verən, mal lazım olanda malını verən, fiziki iştirak etmək lazım olanda iştirak edən, quruculuq işlərinə qoşulan, müdafiə məsələsi qarşıya çıxanda cəbhəyə yollanan, ölkənin məqsədləri naminə özünü elmi cəhətdən hazırlamaq lazım olanda bu işi görən, hansı iş istənilsə, onu görməyə hazır olan şəxslərin adı Bəsicdir. Bəsicin mənası budur ki, ölkənin yüksək qurumları böyük düyünləri açmaq, iri addımlar atmaq və ölkənin müdafiəsi üçün təkcə rəsmi və dövlət təşkilatlarına arxalanmasınlar. Müharibədə bizim güclü silahlı təşkilatlarımız vardı: ordu və Mühafizəçilər korpusu. Lakin ölkənin sərhədlərini, müstəqilliyini, başucalığını müdafiə məsələsi ortaya çıxan kimi meydana atılan təkcə rəsmi təşkilatlar deyil, bütün xalq bunlara kömək edir və işə qoşulur; necə ki, bu 20 il ərzində - müharibə dövründə, ondan öncə və sonra qoşuldular. Bəsicin mənası budur. Bəsic - xalqın möhtəşəm qüvvələrinin ən yaxşılarının, ən fəallarının və ən imanlılarının milli maraqlar və uca məqsədlər naminə onlara ehtiyac duyulan işlərə qoşulmasıdır. Həmişə ən yaxşı, ən xalis, ən şərəfli və ən uca insanlar bu xüsusiyyətə malik olurlar. Bir ölkədə Bəsic bu fəxr bayrağını ucaldan, onun üçün zəhmət çəkməyə hazır olan təbəqədir. Bu həm də asan deyil. Allaha şükür edirik ki, inqilabın ilk günündən xalqın könüllü qüvvələri bütün sahələrdə fəal iştirak etmişlər. İmam bu qüvvənin qədrini bildi; vətəndaşlar öz aralarında bu möhtəşəm və təlatümlü amilin qədrini bildilər. Özləri bu təhlükəli işlərə qoşulmayanlar, yaxud buna hazırlıqları olmayanlar fədakarlıq göstərən həmin hazırlıqlı gəncləri və qüvvələri alqışladılar, həvəsləndirdilər. Bu, beynəlxalq güc mərkəzlərini, hegemon qurumları, ölkələrin və xalqların taleyini haqsız olaraq ələ keçirmək istəyən şəxsləri qəzəbləndirir.

Bəsicə qarşı hücumların sirrini bundan anlamaq lazımdır. Nə üçün beynəlxalq mediada, radiolarda Bəsicə hörmətsizlik olunur? Nə üçün həmişə əcnəbilərin ağzına baxıb onların sözünü təkrarlayanlar Bəsicə qarşı təhqiramiz ifadələr işlədirlər, şərəfə, hörmətə və təqdirə layiq olan Bəsicə hörmətsizlik və sayğısızlıq edirlər? Onlar milli istiqlaliyyətin, milli qürurun, milli fəxrlərin qorunmasında, milli maraqların təmin edilməsində və nəhayət ən üstünü, İslamın və İslam Respublikası quruluşunun bayrağının ucaldılmasında Bəsicin rolunu bildiklərindən onunla qatı düşməndirlər. Lakin bunun heç bir faydası yoxdur.

Bu gün Allaha şükür olsun ki, bizim müxtəlif təbəqələrdən olan gənclərimiz Bəsicdə həyat və fəaliyyətin olduğunu hiss edirlər. Bizim gənc nəslimiz bunun qədrini bilirlər. Bu gün bizim böyük Bəsic təşkilatımızda hövzə və universitetin görkəmli şəxsləri, elmli və əxlaqlı hövzə tələbələri, dünyanın elm müsabiqələrinin yüksək medallarına layiq görülən ən əlaçı universitet tələbələri, liseylərin əlaçı şagirdləri, zavodların nümunə fəhlələri, müxtəlif sahələrdə çalışan nümunə şəxslər, nümunə qiraətçilər, sənət adamları, müəllimlər, müxtəlif təbəqələrin nümunə şəxsləri toplaşmışlar. Məgər düşmən özünün ədavətli və əbəs təbliğatı ilə bu uca dəyəri xalqın gözündən sala bilər?!

Mən siz əziz gənclərə, təbəqə mənsubiyyətindən asılı olmayaraq, Bəsic üzvü olan mömin oğlan və qızlara deyirəm: Mənim əzizlərim! Ölkə siz gənclərindir. Ölkə gənc nəslə məxsusdur. Siz bu ölkəni qurmalı, bu inqilabın və onun memarının bacarıqlı əllərinin ucaltdığı şərafət və əzəmət təməllərini qorumalı və yüksəltməlisiniz. Siz öz gücünüz, iradəniz, elminiz və imanınızla inqilabdan öncəki bir neçə onilliyin geriliklərini düzəltməlisiniz. Gənclərdən kim bu məsuliyyət hissini, məqsədlərə bu sevgi hissini ixlasla birgə qəlbində daşıyırsa, o, Bəsic üzvüdür; istər Müqavimət qüvvələrində olsun, istər olmasın; istər rəsmi Bəsic kartı aslın, istər almasın. Kim imanlıdırsa, kim uca məqsədləri reallaşdırmaq istəyirsə, kim ölkəsi, İslamı, İslam quruluşu və xalqı üçün bütün vücudu, bütün istedadı, öz ruhu və bədəni ilə zəhmət çəkməyə hazırdırsa, harada olursa-olsun, Bəsic üzvüdür. Bəsic batalyonlarında -

Müqavimət qüvvələrinin Aşura, Ya Zəhra batalyonlarında və onun digər sahələrində rəsmi fəaliyyətlə bu hissi təcəssüm etdirən əziz gənclərimiz bununla fəxr etsinlər.[1]

**Sual:** Sionistlər tərəfindən işğal olunduqdan sonra Fələstin məsələsi daim İslam dünyasının birinci problemi olmuşdur. Fələstində sionizm dövlətinin qurulması necə baş verdi və İslam torpaqlarının bu nöqtəsində bu işğalçı dövləti nə üçün yaratdılar?

**Cavab:** Hadisənin qısası budur ki, dünyanın nüfuzlu yəhudilərinin bir qismi yəhudilər üçün müstəqil bir ölkə qurmaq fikrinə düşdülər. İngiltərə də bunların fikrindən istifadə edib öz problemini həll etmək istədi. Onlar əvvəlcə Uqandaya gedib oranı öz ölkələri etmək istəyirdilər. Bir müddət düşündülər ki, Liviyanın paytaxtı Tripoliyə getsinlər. Bu məqsədlə o zaman Tripolini ələ keçirmiş italiyalarla söhbət etdilər, amma italyanlar onları rədd etdilər. Nəhayət ingilislərlə razılaşdılar. O zaman ingilislərin Orta Şərqdə çox mühüm müstəmləkə planları vardı. Gördülər ki, bunların bu regiona gəlmələri yaxşıdır; əvvəlcə bir azlıq kimi daxil olsunlar, sonra tədricən artsınlar, Fələstin kimi həssas bir bölgəni tutub dövlət qursunlar, İngiltərənin müttəfiqi olub İslam, xüsusən də ərəb dünyasının regionda ittifaq yaratmasına mane olsunlar. Düzdür, digərləri sayıq olsalar, müştərək düşmən birlik amili ola bilər. Amma xaricdən bu şəkildə himayə olunan düşmən casus fəaliyyətləri və müxtəlif üsullarla ixtilaf da yarada bilər. Onlar bu işi gördülər: birinə yaxınlaşdılar, birini vurdular, birini əzdilər, biri ilə pis davrandılar. Buna əsasən, birinci dərəcədə İngiltərənin və bəzi Qərb ölkələrinin köməyi oldu. Sonra onlar tədricən İngiltərədən ayrılıb Amerikaya bağlandılar. Amerika bu günə qədər onları öz qanadı altında saxlamışdır. Onlar bu minvalla bir ölkə yaradıb Fələstini işğal etdilər. İşğal etmələri də belə oldu: əvvəl müharibə ilə deyil, hiylə ilə başladılar. Gedib Fələstinin ərəb əkinçilərinin işlədiyi böyük və çox münbit

[1] "İmam Əlinin (ə) dostları" hərbi-mədəni ekskursiyasında iştirak edən Bəsic üzvlərinin toplantısında çıxışdan: 2000.

torpaqları Avropa və ABŞ-da olan əsas sahiblərindən dəyərindən bir neçə dəfə artıq qiymətə aldılar. Onların da ürəklərindən oldu və torpaqlarını yəhudilərə satdılar. Əlbəttə, onların dəllalları vardı. Deyirlər bu dəllalların biri 1900 çevrilişində Rza xanın ortağı olmuş məşhur Seyid Ziya idi. O buradan Fələstinə getdi, orada müsəlmanların torpaqlarının yəhudilərə və israillilərə satılmasına dəllalıq etdi. Torpaqlar bunların mülkü olanda həqiqətən çox qəddar, yırtıcı və daşürəkli yollarla tədricən əkinçiləri bu torpaqlardan ixrac etməyə başladılar; vurur, öldürür və eyni zamanda dünyanın ictimai rəyini yalan və hiylələrlə öz tərəflərinə çəkirdilər.

**Sual:** Sionistlər Fələstin xalqına və onların torpaqlarına necə hakim oldular?

**Cavab:** Sionistlərin Fələstinə qarşı işğalçılığının üç şərti vardı: Bir şərti ərəblərə qarşı qəddarlıqdan ibarət idi. Onların əsl sahiblərlə rəftarları daşürəkli, şiddətli və çox kobud idi; bunlarla heç cür yola getmirdilər.

İkinci şərt dünyanın ictimai rəyini aldatmaq idi. İctimai rəyi aldatmaq qəribə məsələlərdən biridir. Onlar yəhudilərin əlində olan sionist informasiya vasitələri ilə o qədər yalan dedilər ki, həmin yalanlara görə bəzi yəhudi oliqarxlarını tutdular. Çoxları onların yalanlarına inandılar; hətta bizim gənclikdə bir müddət çox sevdiyimiz insanlardan olan fransalı ictimai filosof və yazıçı Jan Pol Sartrı da aldatdılar. Jan Pol Sartr bir kitab yazmışdı; mən otuz il öncə onu oxudum. O yazmışdı: "Torpaqsız xalq, xalqsız torpaq!" Yəni torpaqsız xalq olan yəhudilər xalqsız torpaq olan Fələstinə gəlmişlər. "Xalqsız" nə deməkdir? Orada bir xalq vardı və işləyirdi; buna çoxlu dəlillər var. Bir xarici yazıçı deyir ki, bütün Fələstin torpaqlarında göz işlədikcə uzanan dəniz kimi yaşıl buğda tarlaları vardı. "Xalqsız torpaq" nə deməkdir? Dünyanı inandırdılar ki, Fələstin boş qalmış və buraxılmış xaraba bir yer idi, biz gəlib buranı abadlaşdırdıq. İctimai rəyə yalan söyləmək budur!

Həmişə özlərini məzlum göstərməyə çalışmışlar, indi də çalışırlar. Mən hərdən ABŞ-ın Taym və Nyusvik kimi jurnallarına baxıram. Bir yəhudi ailəsinə qarşı ən kiçik hadisə törədiləndə bunu geniş şəkildə işıqlandırır, öldürülənin şəklini, bioqrafiyasını, yaşını dərc edir, uşaqlarının məzlumluğundan bəhs edirlər. İşğal olunmuş Fələstində və Livanda fələstinli gənclərə, ailələrə, uşaqlara və qadınlara qarşı yüzlərlə və minlərlə qəddarlıq nümunəsinə isə ən kiçik işarə belə vurmurlar.

Üçüncü şərt də dəm-dəsgah, müzakirə və özləri demiş, lobbidir; otur hökumət, şəxsiyyət, siyasətçi, ziyalı, yazıçı və şairlərlə söhbət et, anlaş. Onlar indiyədək bu üç yoldan istifadə edərək hiylə və kələklə Fələstini tuta bilmişlər.

Xarici qüvvələr də onların yanında olmuşdur. Əsas İngiltərə idi. Birləşmiş Millətlər Təşkilatı və ondan öncə dırnaqarası sülh naminə yaradılan Millətlər Cəmiyyəti bəzi hallar istisna olmaqla həmişə onları müdafiə etmişdir. 1948-ci ildə Millətlər Cəmiyyəti bir qətnamə qəbul edib dəlilsiz və səbəbsiz olaraq Fələstini böldü; dedi ki, Fələstin torpaqlarının 57 faizi yəhudilərə məxsusdur. Halbuki ondan öncə Fələstin torpaqlarının təxminən 5 faizi onlara məxsus idi. Onlar da dövlət qurdular və sonra da müxtəlif hadisələr, kəndlərə, şəhərlərə, evlərə və günahsızlara hücumlar başlandı. Düzdür, ərəb hökumətləri də səhlənkarlığa yol verdilər. Bir neçə müharibə baş verdi. 1967-ci il müharibəsində israillilər ABŞ-ın və digər dövlətlərin köməyi ilə Misir, Suriya və İordaniyanın bəzi hissələrini ələ keçirə bildilər. 1973-cü ildə onların başlatdığı müharibədə yenə də həmin qüvvələrin köməyi ilə müharibəni öz xeyirlərinə tamamlayıb digər yerləri də ələ keçirdilər.

**Sual:** İslam inqilabının qələbəsindən sonra sionistlər özlərini sülh tərəfdarı kimi göstərmək üçün çoxlu işlər gördülər. İndi də belə işlər görür və daim ərəbləri sülhə və barışığa çağırırlar. Qəddar, işğalçı və hegemon sionistlərin bu gün bu üsuldan istifadə etmələrinə hansı amil bais olmuşdur və bunun arxasında hansı məqsəd gizlənir?

**Cavab:** İsrailin məqsədi böyüməkdir. Sionizm dövləti indiki Fələstin torpaqları ilə qane olmur. Əvvəl bir qarış yer istəyirdilər, sonra Fələstin torpağının yarısını tutdular, daha sonra bütün Fələstin torpaqlarını tutdular. Bundan sonra Fələstinin İordaniya, Suriya və Misir kimi qonşu ölkələrinə təcavüz etdilər, onların torpaqlarını tutdular. İndi də sionizmin əsas məqsədi Böyük İsrail yaratmaqdır. Düzdür, indi bunun adını az çəkir, onu gizlətməyə çalışır, yenə də ictimai rəyi aldadırlar. Nə üçün? Çünki indiki mərhələdə özlərinin ekspansionist məqsədlərini gizlətməyə ehtiyacları var. Bu gün sionistlərin sülhə ciddi ehtiyacları var. Nə üçün? Çünki 1947-ci ildən 1967-ci ilə qədər mübarizə yox idi. Həmin 20 il yaxşı ötdü, sonra isə silahlı mübarizələr başlandı. Bu silahlı mübarizələr Fələstin torpağının xaricindən idi. Fələstin Azadlıq Təşkilatının və digər qrupların mərkəzi İordaniyada, Suriyada, yaxud başqa yerlərdə idi; qruplar göndərir, hücum edir, zərbə vurur və geri çəkilirdilər. Fələstin torpaqları daxilində mübarizə təşkilatı formalaşmamışdı. Fələstin daxilində xalq qorxur və heç bir iş görə bilmirdi. Lakin İslam inqilabından sonra iki hadisə baş verdi: Biri budur ki, qeyri-dini hərəkat olan Fələstin hərəkatı bir İslam hərəkatına çevrildi, İslam müqaviməti yarandı və mübarizə İslam rənginə boyandı. Bayırdan mübarizə aparan mübarizlər, Livandan, yaxud digər məntəqələrdən İsrailə hücum edib onlara zərbə vuran şəxslər çox güclü İslam hissi ilə meydana atıldılar. İkincisi isə budur ki, intifazə vücuda gəldi. İntifazə - işğal olunmuş torpaq və vətən daxilində qiyam deməkdir. Bu qiyamdan qorxurlar; çünki onlar üçün böyük əhəmiyyətə malikdir. Düzdür, bunu gizlətməyə çalışırlar, lakin Fələstin xalqının Fələstin torpaqları daxilindəki mübarizələri sionizm rejimi üçün öldürücü və sarsıdıcıdır. Bu onların fəqərə sütunlarını qırır. Nə üçün? Çünki onlar bütün dünyadan buraya cəm olmuş yəhudilərə təhlükəsizlik, rahatlıq və firavan həyat söz vermişdilər. Demişdilər ki, gəlin burada ağalıq edin. Lakin indi bunlar bu torpağın əsas sahibləri olan, oyanmış və ayağa qalxmış yeni nəsillə bacarmırlar. Sionizm quruluşunun təməlləri titrəmişdir. Odur ki, indi region ölkələri ilə necə

olsa, sülh məsələsini həll edib daxili məsələlərlə məşğul olmağa məcburdurlar. Fələstin Azadlıq Təşkilatı ilə dırnaqarası sülh məsələsi və Ərəfat məsələsi də bunun davamıdır. Onlar sülh layihəsinə bir fələstinli qüvvəni daxil edib bununla işğal olunmuş torpaqlar daxilindəki mübarizləri sakitləşdirməyə çalışdılar, amma bacarmadılar. Bu gün belə olan halda daha işğalçı sionizm dövləti özünün əsas məsələsini - Nildən Fərata qədər ekspansiya niyyətini söyləməyə cürət etmir. Batil gümanlarına əsasən, sionistlərə vəd edilmiş torpaq Nil çayından Fərata qədər uzanır; nə qədərini almayıblarsa, bundan sonra almalıdırlar. Planları budur, lakin indi söyləməyə qorxurlar.

**Sual:** İsrail tərəfindən regionu, İslam dünyasını və bəşəriyyəti təhdid edən təhlükələr hansılardır? Bu təhlükələri aradan qaldırmağın və sionistlərin Fələstini işğal altında saxlamasına son qoymağın yolu nədir?

**Cavab:** Bu gün bizim sözümüz budur ki, Fələstin məsələsi İslam baxımından bütün müsəlmanlar, o cümlədən bizim üçün mühüm və vacib bir məsələdir. Bütün qədim şiə və sünni alimləri açıq şəkildə söyləmişlər ki, İslam vətəninin bir hissəsi İslam düşmənləri tərəfindən işğal olunsa, müdafiə edib işğal olunmuş torpaqları qaytarmaq hamının vəzifəsidir. Hər kəs bacardığı tərzdə və bacardığı yolla Fələstin məsələsi qarşısında məsuliyyət daşıyır. Əvvəla İslam baxımından məsuliyyət daşıyır; torpaq İslam torpağıdır, İslam düşmənlərinin işğalındadır və geri qaytarılmalıdır. İkincisi isə səkkiz milyon müsəlmanın bəzisi qaçqındır, işğal olunmuş torpaqlar daxilində olanların vəziyyəti isə qaçqından da pisdir. Nə sərbəst şəkildə get-gəl etməyə cürətləri var, nə öz sözlərini danışmağa icazələri var, nə də ölkələrinin idarəsində nümayəndələri var. Çox zaman onları namaz qılmağa da qoymurlar. Müsəlmanların qibləsi olmuş Əqsa məscidini təhdid etdilər, illər öncə bir dəfə yandırdılar, sonra da orada guya qazıntı işlərinə başladılar. Qanunsuz işlər görür və müsəlmanların qibləsi olan Əqsa məscidini

ümumiyyətlə İslam formasından çıxarmaq istəyirlər. İslam baxımından bunların hamısı müsəlmanın üzərinə məsuliyyət qoyur. Heç bir müsəlman bu məsuliyyətin altından qaça bilməz; bacardığı qədər vəzifəsinə əməl etməlidir.

Bu gün İran xalqının görə bildiyi və bütün işlərdən əhəmiyyətli olan məsələ bugünkü kimi yürüşlər keçirməkdir. Bu iş çox mühümdür. Bunların məqsədlərindən biri Fələstinin adını unutdurmaqdır. Onlar ümumiyyətlə belə bir şeyin mövcud olduğunu unutdurmaq istəyirlər, siz isə qoymursunuz; Qüds günü qoymur; bizim böyük imamımız öz siyasəti ilə qoymadı. Bu böyük iş idi.

Fələstinli ailələrin məzlumluğu humanitar baxımdan da hər bir insanın üzərinə vəzifə qoyur. Bu günlərdə Fələstin xalqının məzlumluğuna dair bəzi filmləri gördünüz. Bunlar Fələstin xalqına nə qədər zülmlər edirlər! Maraqlı budur ki, insan hüquqları təşkilatları da ölmüşlər. Bu amerikalılar, bəzi qərblilər və dünyada demokratiyanı inkişaf etdirmək missiyasını öhdələrinə götürdüklərini iddia edənlər bu məsələdə özlərini rüsvay etdilər. Çünki indi öz ölkəsinin və vətəninin heç bir işinə təsir göstərmək gücü olmayan, sözləri heç bir yerdə deyilməyən bir xalq var və o, məzlum Fələstin xalqıdır. Digər tərəfdən, onun qarşısında çox zalım olan şovinist bir rejim var. Bu məsələ ABŞ-ın, beynəlxalq təşkilatların və qərbli mütəfəkkirlərin demokratiya iddiasına dair böyük yalanlarını ifşa edir.

Təhlükəsizlik baxımından İsrail təkcə öz xalqı üçün yox, bütün region üçün təhlükəlidir. Bunların atom silahları var və yenə də istehsal edirlər. Birləşmiş Millətlər Təşkilatı bir neçə dəfə xəbərdarlıq edib, lakin əhəmiyyət vermirlər. Təbii ki, burada əsas amil Amerikanın himayəsidir. Sionistlərin və işğalçı dövlətin cinayətlərinin günahı böyük həddə Amerika rejiminin boynuna düşür. Siz bunu bilin. Bunların iş başında olduğu bu 50 ildə BMT-nin Təhlükəsizlik Şurasında İsrail əleyhinə 29 qətnamə qəbul olunmuşdur və ABŞ onların hamısına veto qoymuşdur. Keçmiş SSRİ dağılandan sonra ötən 10 ildə isə Təhlükəsizlik Şurasında İsrail əleyhinə heç bir qətnamənin qəbul

olunmasına icazə vermirlər. Deməli, bu cinayətlərin günahı Amerikanın boynuna düşür. Bu qədər sülhsevərlik iddiasında olan və bəzən bütün xalqlara - o cümlədən bizim şərafətli və məzlum xalqımıza zəhərli təbəssümlər nümayiş etdirən Amerika Fələstin məsələsində əsas cinayətkardır. Günahlarının biri budur. Bu gün Amerikanın əli dirsəyə qədər fələstinlilərin qanına batmışdır. Bunlar region ölkələrini təhdid edirlər. Əlbəttə, Suriya, Livan və digər ölkələrin çətinlikləri və problemləri var. Hökumətlər xalqların iradəsini əks etdirmirlər. Hər yerdə xalqların ürəyi doludur. Hökumətlər isə bəzi təzyiqlər altında bəzi sözlər deməyə, müzakirələr aparmağa və mövqelər seçməyə məcbur olurlar.

İsrail iqtisadi baxımdan da region üçün təhlükəlidir. Bir müddətdir Fələstinə hakim olan sionistlər Yeni Orta Şərq nəzəriyyəsi adlı bir tezis irəli sürüblər. Yeni Orta Şərq nə demədir? Yən İsrailin mərkəz olduğu Orta Şərq formalaşsın, İsrail tədricən ərəb və region ölkələrinə və Fars körfəzindəki neft zonalarına iqtisadi hökmranlığı ələ keçirsin. İsraillilərin məqsədi budur. Bəzi dövlətlər xəbərsizdirlər. Onlara etiraz edəndə deyirlər ki, biz əlaqə qurmamışıq, tacirlərinə icazə vermişik ki, gəlsinlər. Təsadüfən onlar da bunu istəyirlər. Onlar istəyirlər ki, İsrail Amerikanın himayəsi və özlərinin təhlükəli silahlarının köməyi ilə bəzi dövlətlərin qafilliyindən və zəifliyindən istifadə edib ölkələrə soxulsunlar, iqtisadi mərkəzləri və maliyyə mənbələrini ələ keçirsinlər. Bu, region üçün çox böyük təhlükədir. Ən böyük təhlükə budur. Allah o günü göstərməsin və göstərməyəcək. Müsəlman xalqlar belə bir işin baş verməsinə icazə verməyəcəklər. Amma onların planı budur; iqtisadiyyat vasitəsi ilə bu ölkələrdə bütün güc mərkəzlərini ələ keçirmək istəyirlər. Buna əsasən, bu gün İsrailin varlığı İslam baxımından, humanitar baxımdan, iqtisadi baxımdan, təhlükəsizlik baxımından və siyasi baxımdan region xalqları və ölkələri üçün böyük bir təhlükədir.

Orta Şərq məsələsi üçün yalnız bir yol mövcuddur: bu yol sionizm dövlətinin buraxılması və bitməsidir. Fələstinli qaçqınlar ölkələrinə

qayıtmalıdırlar. Bu səkkiz milyon insan Fələstinin əsas sahibləridir. Fələstin xalqının böyük əksəriyyəti müsəlmandır və onların arasında bir qədər yəhudi və məsihi də var. Fələstinin sahibləri və Fələstin xalqı dövlət qursunlar; o hökumət qərar versin ki, digər ölkələrdən Fələstinin daxilinə gəlmiş və hal-hazırda orada yaşayan mühacirləri saxlasın, hansı şərtlərlə saxlasın, yaxud qaytarsın. Bütün Fələstin torpağında bir Fələstin hökuməti qurulmalıdır. Muxtar hökumət və digər bu tip oyunlar bu gün çox sadəlövh insanlardan başqa heç kəsi aldada bilməz. Bunlar iş deyil. Əsas və həqiqi iş budur.[1]

**Sual:** Sionistlər və onların himayədarları İslam dünyasının Fələstin xalqını müdafiə məqsədilə səfərbər olunmasının qarşısını almaq üçün Fələstin məsələsini daxili bir məsələ kimi təqdim etməyə çalışırlar. Ərəblər də Fələstin məsələsini bir ərəb məsələsi kimi göstərməyə çalışırlar. Fələstin problemi nə üçün bir İslam məsələsi və bütün İslam dünyasına aiddir?

**Cavab:** Fələstin iki cəhətdən İslam dünyasının problemidir: Biri buna görə ki, Fələstin İslam torpaqlarının bir hissəsidir. İslamın bütün böyük məzhəbləri arasında heç bir fikir ayrılığının görünmədiyi və bütün fəqihlərin yekdil olduğu bir məsələ var: Əgər İslam torpaqlarının bir hissəsi İslam düşmənləri tərəfindən tutulsa və ona İslam düşmənləri hakim olsalar, hamı həmin hissəni İslam torpaqlarına qaytarmaq üçün çalışıb fəaliyyət göstərməyi özünə vəzifə bilməlidir. Odur ki, dünyanın hər hansı bir yerində olan müsəlman xalqlar bunu özlərinə vəzifə bilməlidirlər. Sözsüz ki, çoxları bir iş görə bilmirlər. Amma kim bacarsa, çalışmalı və addım atmalıdır. Məhz buna görə görürsünüz ki, Böyük İmamın hər ilin ramazan ayının son cüməsinə təyin etdiyi Qüds gününü bütün İslam dünyası qeyd edir. Siz Allahın lütfü və yardımı ilə bu il Qüds gününün bütün İslam dünyasında hər ildəkindən daha izdihamlı və daha təntənəli keçəcəyini görəcəksiniz.

---

[1] Qüds günündə Tehranın cümə namazı xütbələrindən: 1999.

İkinci cəhət budur ki, ümumiyyətlə yəhudi dövlətinin, daha doğrusu, sionizm dövlətinin İslam dünyasının bu nöqtəsində yaradılması hegemonluğun uzunmüddətli bir məqsədi ilə həyata keçdi. Bu dövlət İslam dünyasının təxminən ürəyi olan həssas nöqtədə quruldu, İslam qərbini - yəni Afrikanı Orta Şərqdən və Asiyadan ibarət olan İslam Şərqinə birləşdirir, Asiya, Afrika və Avropa arasında üç yolayrıcını təşkil edir. Bu dövlətin belə yerdə qurulması ozamankı müstəmləkəçilərin, birinci növbədə İngiltərə dövlətinin İslam dünyasına hökmranlığını uzun müddət davam etdirməsi üçün lazım idi; yəni nə zamansa Osmanlı hökumətinin müəyyən dövrlərində olduğu kimi qüdrətli bir İslam dövləti yaransa, müstəmləkəçilərin, İngiltərənin, Fransanın və digərlərinin bu regiondakı nüfuzunun qarşısını ala bilməsinlər. Buna görə özlərinə bir baza düzəltdilər. Buna əsasən, tarixi sənədlərə görə orada sionizm hökumətinin qurulması yəhudi xalqının arzusundan çox İngiltərə dövlətinin müstəmləkəçi istəyi idi. Bəzi sübutlar var ki, o zaman bir çox yəhudilər bu dövlətə ehtiyaclı olmadıqlarını, bunun onların xeyrinə olmadığını düşünür və bundan qaçırdılar. Odur ki, bu bir yəhudi arzusu və ideyası deyildi, daha çox müstəmləkə və ingilis ideyası idi. Əlbəttə, sonralar dünya siyasəti və hegemon liderlik İngiltərədən amerikalılara keçəndə bu da müstəmləkə mirasının tərkib hissəsi kimi Amerikaya çatdı. Amerikalılar bundan maksimum istifadə etdilər və indi də edirlər. Buna görə Fələstinin xilası və işğalçı sionizm dövlətinin məhvi region xalqlarının, o cümlədən bizim əziz İran ölkəmizin maraqları ilə əlaqədardır. İnqilabın ilk günündən sionistlərin nüfuzu və iqtidarı ilə mübarizəni proqramlarından birinə çevirənlər bu məqsədlə bu işi gördülər. Bu proqram ölkənin maraqlarına, İslam Respublikasının və İran xalqının ümumi maraqlarına uyğundur. Digər ölkələrdə də belədir. İslam ölkələrinin bütün aydın insanları, bütün azad düşüncəli siyasətçiləri, əlləri ABŞ hegemonluğunun hənası ilə boyanmayan bütün şəxslər

İsraillə mübarizə aparmalı olduqlarını düşünür və bunu ölkələrinin maraqlarından sayırlar.[1]

[1] Tehranın cümə namazı xütbələrindən: 2000.